MÜNDƏRİCAT

TARİX

İsmayıl Hacıyev. Naxçıvanın Azərbaycanda dövlətyaranma prosesindəki roluna dair (e.ə. III minillik-e.ə. II minilliyin sonları) (II məqalə).....9
Fəxrəddin Səfərli. Vənənd kənd Came məscidinin kitabəsi XVIII əsrin 20-30-cu illərində Naxçıvanda vəziyyət haqqında.....16
Fəxrəddin Cəfərov. Sənədlərin dili ilə.....23
Emin Şıxəliyev. XX əsrin soyqırımı yalanı: uydurma, yoxsa reallıq?.....32
Abdulla Mustafayev, Məmməd Əliyev. XX əsrin sonlarında Qərbi Azərbaycandan azərbaycanlıların son deportasiyası.....42
Aydın Mirzəzadə. II Dünya müharibəsindən sonra SSRİ-də erməni məsələsi...52
Bəxtiyar Həsənov. XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ regionuna ermənilərin köçürülməsi və demoqrafik vəziyyət.....60
Elnur Cəmilli. Gürcüstanda etnik münaqişələrin kökləri və mövcud vəziyyət...69
Sara Hacıyeva. Orta əsrlərdə Naxçıvanda iqtisadiyyatın inkişafında və ticarət əlaqələrinin genişlənməsində sənətkarlığın rolu.....77
Gülşən Hüseynova. Qəhrəman kəngərlilər sülaləsinin tarixindən.....84
Leyla Süleymanova. "İslam dövləti" müasir dövrdə Livana hərbi-siyasi təhlükə kimi.....92
Sevinc Abbasova. XX əsrin 70-80-ci illərində Naxçıvan Muxtar Respublikası qadınlarının ictimai-iqtisadi və sosial-mədəni inkişafı məsələləri.....98
Mübariz Ağalarlı. XVII əsrdə Azərbaycan Səfəvi imperiyası ilə böyük Moğol dövləti arasında diplomatik yazışmalara dair.....109

ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

Vəli Baxşəliyev, Lauren Ristvet, Hilary Gopnik. 2014-cü ildə Qızqala və onun ətrafında arxeoloji araşdırmalar.....120
Zeynəb Quliyeva. Arpaçay vadisinin eneolit küpələri üzərindəki relyef təsvirlərin arxeosemiotikası.....131
Ruhiyyə Rzayeva. Sirabçay və Qahabçay vadisinin qala tipli yaşayış yerləri....141
Məhəmməd Kazemi, Məhəmməd Mirzayi, Riza Atayi. Məşiran qaya rəsmləri.....148

AZƏRBAYCAN DİLİ

Əbülfəz Quliyev. Dilçi Əhməd Cəfəroğlu və "Türk amacı" dərgisi.....156
Adil Bağırov. Oykonimlərin formalaşmasında tayfa adlarının rolu.....165

Firudin Rzayev. Naxçıvanlıların etnogenezi tarixində Paralat türkləri.....175
Qurban Qurbanlı. Elektron ensiklopediyalar 184
Nuray Əliyeva. Naxçıvan dialektində idiomların leksik xüsusiyyətləri.....190

FOLKLOR VƏ ƏDƏBİYYAT

Ramiz Qasımov. Bəxtiyar Vahabzadə yaradıcılığında milli birlik və istiqlal motivləri.....202
Aygün Orucova. Muxtariyyət ərəfəsində Naxçıvanın tarixi və həyatının "Molla Nəsrəddin" jurnalında əksi.....211
Nigar Sadıqzadə. Məmməd Araz yaradıcılığı ədəbi tənqiddə.....219
Nərgiz İsmayılova. Sovet dövründə Naxçıvan ədəbi mühitində qərb ədəbi ənənəsinin zəifləməsinin səbəbləri və nəticələri.....225
Rafiq Babayev. Obrazın funksiyasının işarələndirilməsi (Naxçıvan materialları əsasında).....233
Səbuhi İbrahimov. Naxçıvan tarixinə və mədəniyyətinə dair əlyazma mətnlərinin paleoqrafik xüsusiyyətləri.....240
Fəxrəddin Eylazov. Kazım bəy Ordubadinin "Tibbə dair qeydlər" əsəri haqqında.....246

İNCƏSƏNƏT

Ələkbər Qasımov. Muxtar respublikanın tarixi keçmişi Naxçıvan teatrının səhnəsində.....250

İQTİSADİYYAT

Asif Şirəliyev. Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının intensivləşdirilməsinin səmərəliliyi məsələləri.....262
Akif Mədətov. Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişaf və yerləşdirilməsinin bəzi məsələləri.....267
Cavadxan Qasımov. Naxçıvan Muxtar Respublikası: sosial-iqtisadi inkişaf və müasir dövr.....273
Mehdi Bağırov. Azərbaycan Respublikasında keçiriləcək kütləvi idman tədbirləri və ərzaq təminatının yüksəldilməsi yolları.....280
Mehriban İmanova. Sənayeləşmənin regional tarazlı inkişafın təmin olunmasında rolu.....286
Teymur Abbasov. Sahibkarlığın regionun sosial-iqtisadi inkişafında rolu....292
Gülarə Rəhimova. İqtisadiyyatda ekonometrik tədqiqatların rolu.....300
Asəf Qəribov. Azərbaycanda sənayenin inkişafi və regional inteqrasiya perspektivləri.....308

СОДЕРЖАНИЕ

ИСТОРИЯ

Исмаил Гаджиев. О роли Нахчывана в процессе создания азербайджанской государственности (III тысячелетие до н.э.-конец II тысячелетия до н.э.) (II статья).....9
Фахреддин Сафарли. Надпись в мечети Джаме села Вананд о положении в Нахчыване в 20-30-х годах XVIII века.....16
Фахраддин Джафаров. Языком документов.....23
Эмин Шихалиев. Ложь геноцида XX века: выдумка или реальность?.....32
Абдулла Мустафаев, Мамед Алиев. Последняя депортация азербайджанцев из Западного Азербайджана в конце XX века.....42
Айдын Мирзазаде. Армянский вопрос в СССР после второй мировой войны.....52
Бахтияр Гасанов. Переселение армян и демографическая ситуация в Карабахском регионе Азербайджана в начале XX века.....60
Эльнур Джамилли. Корни и современное состояние этнических конфликтов в Грузии.....69
Сара Гаджиева. Роль ремесленного производства в развитии экономики и расширении торговых связей в Нахчыване в средние века.....77
Гюльшан Гусейнова. Из истории героической династии Кенгерли.....84
Лейла Сулейманова. «Исламское государство» как военно-политическая угроза Ливану на современном этапе…….....92
Севиндж Аббасова. Вопросы общественно-экономического и социально-политического развития женщин Нахчыванской Автономной Республики в 70-80-х годах XX века.....98
Мубариз Агаларлы. О дипломатической переписке между азербайджанской Сефевидской империей и государством Великих Моголов в XVII веке...109

АРХЕОЛОГИЯ И ЭТНОГРАФИЯ

Вели Бахшалиев, Лорен Риствет, Хилари Гопник. Исследования в поселении Кызкала и его окрестностях в 2014 году.....120
Зейнаб Кулиева. Археосемиотика рельефных изображений на энеолитических кувшинах Арпачайской долины.....131
Рухия Рзаева. Поселения крепостного типа в долинах рек Сирабчай и Кахабчай..... 141
Мохаммед Каземи, Мохаммед Мирзаи, Риза Атаи. Наскальные рисунки Маширана.....148

АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК

Абульфаз Гулиев. Языковед Ахмед Джафароглу и журнал «Туркамаджи»....156
Адиль Багиров. Роль названий племен в формировании ойконимов.....165

Фирудин Рзаев. Тюрки Паралаты в истории этногенеза нахчыванцев...175
Гурбан Гурбанлы. Электронные энциклопедии.....184
Нурай Алиева. Лексические особенности идиом в нахчыванском диалекте.....190

ФОЛЬКЛОР И ЛИТЕРАТУРА

Рамиз Касымов. Мотивы национального единства и независимости в произведениях Бахтияра Вахабзаде.....202
Айгюн Оруджева. Отражение в журнале «Молла Насреддин» истории и жизни Нахчывана на пороге автономии.....211
Нигяр Садыкзаде. Творчество Мамеда Араза в литературной критике...219
Наргиз Исмаилова. Причины и последствия ослабления западной литературной традиции в нахчыванской литературной среде в советский период.....225
Рафик Бабаев. Обозначение функции образа (на основе материалов Нахчывана).....233
Сабухи Ибрагимов. Палеографические особенности рукописных текстов об истории и культуре Нахчывана.....240
Фахреддин Эйлазов. О произведении Казым бея Ордубади «Заметки о медицине».....246

ИСКУССТВО

Алекпер Касымов. Историческое прошлое автономной республики на сцене Нахчыванского театра.....250

ЭКОНОМИКА

Асиф Ширалиев. Вопросы эффективности интенсификации сельского хозяйства в Нахчыванской Автономной Республике.....262
Акиф Мадатов. Некоторые проблемы развития и становления экономики в Нахчыванской Автономной Республике…….267
Джавадхан Касымов. Нахчыванская автономная республика: социально-экономическое развитие и современный период.....273
Мехди Багиров. Массовые спортивные мероприятия, проводимые в Азербайджанской республике, и пути повышения продовольственного обеспечения.....280
Мехрибан Иманова. Роль индустриализации в обеспечении сбалансированного регионального развития.....286
Теймур Аббасов. Роль предпринимательства в социально-экономическом развитии региона.....292
Гюляра Рагимова. Роль Эконометрического Исследования в экономике..300
Асеф Гарибов. Индустриализация производства и перспективы регионального развития в условиях глобализации.....308

CONTENTS

HISTORY

Ismayil Hajiyev. On role of Nakhchivan in forming process of Azerbaijan statehood (III millennium b.c.-end of II millennium b.c.) (II paper)……...9
Fakhraddin Safarli. Inscription at the Jame mosque in the village of Vanand concerning situation in Nakhchivan in 20-30 years of XVIII century……...16
Fakhraddin Jafarov. Using documents……23
Emin Shikhaliyev. The genocide lie of the XX century: fiction or reality?.....32
Abdulla Mustafayev, Mammad Aliyev. Last deportation of Azerbaijanians from western Azerbaijan at the end of the XX century……..42
Aidyn Mirzazadeh. The Armenian issue in the USSR after the Second World War……..52
Bakhtiyar Hassanov. Resettlement of Armenians and demographic situation in Karabakh region of Azerbaijan in early XX century……60
Elnur Jamilli. Roots and current situation of ethnic conflicts in Georgia……69
Sara Hajiyeva. Role of craft production in development of economy and expansion of trade relations in Nakhchivan in the Middle Ages……...77
Gulshan Husseinova. From the history of heroic dynasty of Kengerli……84
Leyla Suleymanova. "Islamic state" as a military-political threat to Lebanon of the modern stage…….....92
Sevinj Abbasova. Problems of social-economical and social-cultural development of women in Nakhchivan Autonomous Republic in 70-80th years of the XX century……...98
Mubariz Agalarli. On the diplomatic correspondence between the Azerbaijani Safavi Empire and the Great Mogul State in the XVII century……....109

ARCHAEOLOGY AND ETHNOGRAPHY

Veli Bakhshaliyev, Lauren Ristvet, Hilary Gopnik. Researches at Kizkale settlement and his vicinity in 2014……...120
Zeynab Guliyeva. Archeosemiotics of relief pictures on the chalcolithic jugs of Arpachay valley……131
Ruhiya Rzayeva. Settlements of fortress type in the valleys of Sirabchay and Kahabchay rivers……...141
Mohammed Kazemi, Mohammed Mirzayi, Riza Atayi. Rock drawings of Mashiran……...148

AZERBAIJAN LANGUAGE

Abulfaz Guliyev. Linguist Ahmad Jafaroglu and journal of "Turkish aim"...156
A**dil Baghirov.** The role of tribe names in oikonym forming……..165

Firudin Rzayev. Paralat Turkis in the ethnogeny of Nakhchivan people…...175
Gurban Gurbanly. Electronic encyclopedias…….184
Nuray Aliyeva. Lexical features of idioms in Nakhchivan dialect……..190

FOLKLORE AND LITERATURE

Ramiz Gasimov. Motives of national unity and independence in the works of Bahtiyar Vahabzadeh……...202
Aygun Orujova. Reflection of history and life of Nakhchivan in the magazine of "Mullah Nasraddin" on the threshold of autonomy…….211
Nigar Sadygzadeh. Works of Mammad Araz in literary criticism…….219
Nargiz Ismayilova. Causes and consequences of western literary tradition weakening in Nakhchivan literary environment during the Soviet period…...225
Rafig Babayev. Symbolization of the image function (on the basis of Nakhchivan materials)……..233
Sabuhi Ibrahimov. Paleographic features of manuscripts about history and culture of Nakhchivan……...240
Faxraddin Eylazov. About Kazim bey Ordubadi's work "Notes about medicine"…….246

ART

Alakbar Gasymov. Historical past of autonomous republic on stage of Nakhchivan theatre……...250

ECONOMICS

Asif Shiraliyev. Issues of effectiveness of agriculture intensification in Nakhchivan Autonomous Republic……..262
Akif Madatov. Some problems of economic development and deployment in Nakhchivan Autonomous Republic.....267
Javadkhan Gasymov. Nakhchivan Autonomous Republic: socio-economic development and modern period……..273
Mehdi Bagirov. Mass sport events in the Republic of Azerbaijan and ways to improve food supply…….280
Mehriban Imanova. Role of industrialization in ensuring of balanced regional development……....286
Teymur Abbasov. Role of business undertakings in socio-economic development of a region……...292
Gulara Rahimova. Role of econometric investigation in economics…….300
Asef Garibov. Industrialization of production and prospects for regional development in globalizing world……308

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

TARİX

İSMAYIL HACIYEV
AMEA Naxçıvan Bölməsi
E-mail: ismayil_haciyev@yahoo.com

NAXÇIVANIN AZƏRBAYCANDA DÖVLƏTYARANMA PROSESİNDƏKİ ROLUNA DAİR
(e.ə. III minillik-e.ə. II minilliyin sonları)
(II məqalə)

Məqalədə Azərbaycanda dövlətin yaranmasına dair yeni müddəalar – tayfaların siyasi birlikləri və şəhər-dövlətin başlanğıcı, Naxçıvanın Azərbaycanda dövlətyaranma prosesindəki rolu tədqiq edilmişdir. Əldə olunan nəticə ondan ibarətdir ki, dövlətin meydana gəlməsi qəbilə və tayfa birliklərinin yaranması, yaxud şəhər-dövlətlərin əmələ gəlməsi ilə formalaşır. Naxçıvanın Azərbaycanda dövlətyaranma prosesindəki oynadığı rol və tutduğu yer araşdırılmış və müəyyən edilmişdir ki, e.ə. III minillik – e.ə. II minilliyin sonlarında qəbilə və tayfa birliklərinin yaranması dövlətin də formalaşmasına kömək etmişdir. Tayfa birlikləri əsasında formalaşmış dövlət qurumları süqut etmiş, II minilliyin sonları – I minilliyin əvvəllərində onların yerində şəhər-dövlətlər yaranmışdır. Naxçıvan ərazisində II Kültəpə, Şahtaxtı, Nuhdaban və Naxçıvan şəhərləri xüsusi olaraq qeyd edilir.

Açar sözlər: *qəbilə, tayfa birlikləri, şəhər-dövlətlər, Etiuni, Puluadi, Manna, Oğlanqala, Skif şahlığı.*

Dövlətin meydana gəlməsinə dair nəzəri və təcrübi baxışlardan aydın olur ki, bu məsələdə qəbilə və tayfa birliklərinin yaranması və şəhər-dövlət modeli əsas kimi götürülür. Azərbaycan tarixində birinci modelə üstünlük verilmişdir. Şəhər-dövlətlər haqqında bəhs edilsə də, dövlətyaranma prosesində rolu kifayət qədər aydınlaşdırılmamışdır [7, s. 44-49].

Azərbaycanda dövlətyaranma prosesinin tədqiqi belə nəticəyə gəlməyə əsas verir ki, burada qeyd edilən hər hansı başlanğıcdan birinin yeganə yol kimi verilməsi doğru görünmür. Əslində Azərbaycan ərazisində dövlətyaranma prosesinin hər iki yolu özünəməxsus şəkildə mövcud olmuşdur. Əsas mərhələdə isə vahid dövlətin meydana gəlməsi şəhər-dövlətlər zəminində baş vermişdir.

Azərbaycan tarixşünaslığında qəbul edilmiş müddəaya görə ilk dövlət birlikləri e.ə. III minillikdə Azərbaycanın cənubunda – Urmiya gölü ətrafında tə-

şəkkül tapmışdır. Aratta, lullubi və kuti tayfa birlikləri əsasında müvafiq dövlət qurumlarının yarandığı və fəaliyyət göstərdiyi irəli sürülmüşdür. Çox maraqlıdır ki, e.ə. III minillikdən etibarən Urmiyaətrafının tarixi, həm də mixi yazılı qaynaqlarda əks olunmağa başlamışdır. Bu o deməkdir ki, dünya tarixi ənənəsinə uyğun olaraq, Azərbaycan tarixəqədərki dövrü başa vurmuş yeni, dövlətçilik dövrünə keçmişdir. E.ə. III minilliyin sonlarında aratta, lullubi və kuti tayfa birlikləri əsasında formalaşmış dövlət qurumları süqut etmiş, II minilliyin sonları – I minilliyin əvvəllərində onların yerində şəhər-dövlətlər yaranmışdır. Azərbaycan ərazisində ilk vahid və mərkəzləşdirilmiş dövlət – Manna (e.ə. IX-e.ə. VII əsrin sonu, VI əsrin başlanğıcı) onların əsasında formalaşmışdır. Naxçıvanın bu həlledici prosesdə rolu müəyyən spesifikası ilə fərqlənir.

Arxeoloji tədqiqatlar sübut edir ki, Naxçıvan ərazisində ilkin şəhər mədəniyyəti e.ə. III minillikdə meydana gəlməyə başlamışdır. Urmiyaətrafı bölgələrdə tayfa ittifaqları əsasında siyasi birliklər yaranan zaman, ona paralel olaraq Naxçıvan ərazisində kifayət qədər iri şəhərlər meydana gəlmişdi. Bu şəhərlər eyni zamanda siyasi mərkəz funksiyasına da malik olmuş, yəni şəhər-dövlət xarakteri daşımışdır. Bunların içərisində II Kültəpə, Şahtaxtı, Nuhdaban və Naxçıvan şəhər yerləri xüsusi olaraq ayrılır. Dövrün tədqiqatçılarından olan S.Qaşqayın yazdığı kimi "E.ə. II minilliyin sonu – I minilliyin əvvəllərinə aid abidələr-məskən xarabalıqları və nekropollar əhalinin oturaq həyat sürməsindən, eyni zamanda maldarlıqla məşğul olmasından, tikinti və sənətkarlıq sahəsində yüksək mərhələyə çatmasından xəbər verir. Aşkar edilmiş materialların tədqiqi göstərir ki, Naxçıvan zonası Urmiya hövzəsinə yaxın ərazilərdə yayılmış özünəməxsus mədəniyyət mərkəzlərindən biri olmuşdur" [4, s. 55]. Görünür, e.ə. III-II minilliyin sonları, I minilliyin əvvəllərində Urmiyaətrafı siyasi birliklər xarici siyasətin mühüm faktoru kimi çıxış etdiyindən (kutilərin Mesopotamiyada təqribən bir əsr davam edən ağalığı) və ya əsas xarici təsirlər bu siyasi birliklərə yönəldiyindən Naxçıvan şəhər-dövlətlərinin vahid dövlətdə birləşməsi üçün xüsusi zərurət olmamış, qeyd edilən kimi vahid dövlət yaranması prosesi Manna ətrafında baş vermişdir.

Manna dövləti qüdrətli vaxtlarında geniş ərazilərə malik olmuşdur. "Asılı vilayətlər də daxil olmaqla Manna dövləti Urmiyadan cənubda və şimalda yerləşən əraziləri, Qızılüzən çayı hövzəsinin xeyli hissəsini və ondan cənubda yerləşən bölgələri əhatə edirdi" [3, s. 166]. Mannanı irsi hakimiyyətə malik olan çar idarə edirdi. Dövlət inzibati cəhətdən çarın təyin etdiyi canişinlər tərəfindən idarə olunan əyalətlərə bölünürdü. Çarın sərəncamında ordu var idi. Manna dövləti yüksək inkişaf mərhələsinə e.ə. VIII əsrin sonlarında nail olmuşdur. Bütün bunları nəzərə alan S.Qaşqay haqlı olaraq göstərir ki, Manna e.ə. I minilliyin birinci yarısında Ön Asiyanın qabaqcıl dövlətləri ilə eyni səviyyədə dururdu [7, s. 113].

Naxçıvanın bu dövr siyasi tarixi tarixşünaslıqda kifayət qədər aydın əksini tapmamışdır. Dövrün tədqiqatçılarından olan R.Məlikov yazır ki, "E.ə. IX-VIII

əsrlərdə Cənubi Qafqazda məskunlaşmış müxtəlif siyasi və etnik birliklər Etiuni (Etiuhi) adlı dövlət qurumunun tərkibində birləşmişlər. Bəzi tədqiqatçıların fikrincə, Etiuni Cənubi Qafqazın böyük hissəsini əhatə edən iri bir qurum olmuşdur. Bu alimlər etiunilərin adını bu ərazilərə cənubdan köçən kutilərlə bağlayır və etiuniləri sonrakı utilərin əcdadları hesab edirlər" [5, s. 55]. Müəllifə görə, Naxçıvan bu dövrdə Etiuninin tərkibində olmuşdur. Sonrakı abzasda urartuluların hücumundan bəhs olunaraq qeyd edilir ki, "Urartu çarı I Argişti (e.ə. 786-764) də Etiuni ölkəsinə yürüşlər etmişdir. Çar II Sarduri (e.ə. 764-735) isə Puluadi ölkəsində 21 qalanı, 45 şəhəri və "çar şəhəri olan Libliuni"ni ələ keçirmişdir. S.Qaşqay Urartu mənbələrinə əsaslanaraq Puluadi ölkəsinin bir hissəsini Naxçıvan ərazisində lokalizə edir" [7, s. 113]. Burada vacib bir məqam diqqəti cəlb edir: I Argişti yuxarıda müəllifin qeyd etdiyi kimi tərkibində Naxçıvanın olduğu Etiuniyə, onu hakimiyyətdə əvəz edən II Sarduri isə Puluadi ölkəsinin bir hissəsini əhatə edən Naxçıvan ərazisinə hücum edir.

S.Qaşqay isə qismən fərqli fikir irəli sürür. Problemin mühüm əhəmiyyətini nəzərə alaraq, onun fikirlərini olduğu kimi təqdim etmək lazım gəlir. S.Qaşqay yazır ki, "Urartulular Cənubi Qafqaz vilayətlərinə, eləcə də Naxçıvan ərazisinə və Urmiya gölünün şimal ərazilərinə mütəmadi yürüşlər edirdi. Urartu çarları İşpuini və onun oğlu Menuanın (e.ə. 820-810-cu illər) birgə hakimiyyətləri dövründə urartulular şimaldan basqın etmiş, Uiteruni, Luşa, Katarza və Etiuhi(ni) ölkəsinin çoxsaylı hökmdarları onlara kömək göstərən ölkələrə qarşı mübarizə apamışdır. Etiuhi adı altında Cənubi Qafqazda Göycə gölü ətrafında yaşayan müxtəlif siyasi və etnik birliklər çıxış edirdilər. İşpuini və Menuanın rəhbərliyi altında Urartu ordusunun şimal-şərq istiqamətində yürüş etdiyini Culfa rayonunun İlandağ qayalarında aşkar edilmiş mixi yazı da təsdiq edir: "İlahi Haldinin əzəməti ilə İşpuini Sardurinin oğlu (və) Menua İşpuinin oğlu Arsine şəhərinin ölkəsini zəbt etdilər, İş [şəhərinin] ölkəsini, Arsikua şəhərinin ölkəsini, Ayaniani şəhərinin ölkəsini zəbt etdilər, dağıtdılar. Puluadi ölkəsində onlar ilahi Haldiyə lövhə ucaltdılar (və) əmr verdilər: Puluadi ölkəsində ilahi Haldiyə öküz və qoyun, Haldinin arvadına inək (qurban) kəsilsin" [3, s. 56-57]. Mixi mətndə adı çəkilən Arsini Culfa rayonunun Ərəzin kəndi ilə lokalizə edilir. Naxçıvanın ərazisinin isə Puluadi vilayətinə daxil olduğu bildirilir: "Urartu mənbələrinə görə Naxçıvan ərazisini ***qədimdə*** (kursiv mənimdir.-İ.H.) Araz çayının cənub qolu Əhər çayına qədər çatan Puluadi vilayətinə daxil etmək olar. Puluadi ölkəsinin adı, tədqiqatçıların fikrinə görə, Yaxın Şərqdə yayılmış dillərin demək olar ki, hamısında "polad" sözü kimi qalmışdır" [4, s. 57]. Buradan aydın olur ki, Naxçıvan qədim zamanlardan urartuluların hücum istiqamətlərində mühüm yer tutan Puluadi ölkəsinə daxil olmuşdur. Müqayisələr nəticəsində belə bir fikrə gəlmək olar ki, Naxçıvan həmin dövrdə daha geniş əraziyə malik olmuş, onun şimal hissəsi Etiuni, cənub hissəsi isə Puluadi ölkəsinə daxil olmuşdur.

Ən vacib suallardan biri qeyd edilən dövrdə Naxçıvanın statusu məsələsi ilə bağlıdır. Bu suala həmin dövrə dair Naxçıvanda aşkar edilmiş arxeoloji abidələr cavab verir. Bu dövrün ən mühüm arxeoloji abidələrindən biri Oğlanqaladır. Oğlanqalanın müdafiə istehkamı, şəhər-dövlət və paytaxt olması haqqında mülahizələr vardır [8]. Hər bir halda siyasi nöqteyi-nəzərdən Naxçıvanın dövlətçilik baxımından mühüm statusa malik olması aydın olur.

Araşdırılan dövrə dair digər vacib bir məsələ Mannanın Naxçıvanla münasibətləridir. S.Qaşqaya görə, Naxçıvan və Manna ərazisində aşkar edilmiş arxeoloji materiallar əsasında izlənilən sıx mədəni əlaqələr müəyyən dövrlərdə Mannanın sərhədlərinin Arazdan şimala uzandığını və özünün gücləndiyi dövrlərdə onun kifayət qədər geniş əraziyə malik olduğunu söyləməyə imkan verir [7, s. 69]. Tədqiqatçı bu problemə sonrakı araşdırmalarında bir daha qayıtmış və həmin müddəanı inkişaf etdirmişdir. S.Qaşqay 1979-cu ildə nəşr edilən məqaləsində yazırdı ki, Naxçıvan diyarının e.ə. II minilliyin sonları – I minilliyin əvvəllərinə aid maddi mədəniyyəti olduqca özünəməxsus olub, həm Sovet Azərbaycanının (hazırda Azərbaycan Respublikası. – İ.H.) digər rayonlarının maddi mədəniyyətindən, həmçinin Gürcüstan və Ermənistanın ona müasir olan mədəniyyətindən fərqlənir. Tədqiqatın sonunda belə bir nəticə hasil edilir ki, Naxçıvan diyarının vilayətləri e.ə. I minilliyin əvvəllərində güclənən Manna çarlığının təsiri altında və zaman-zaman siyasi asılılığında olmuşdur [8, s. 131-134]. Göründüyü kimi, Naxçıvanın Manna dövlətinin tərkibinə daxil olması haqqında fikir irəli sürülsə də onun xronologiyası barədə konkret bir mülahizə söylənmir. R.Məlikov da Naxçıvanın Manna tərkibinə daxil olmasını təsdiq edərək yazır: "Güman ki, bu dövrdə (e.ə. IX-VIII əsrlərdə. – İ.H.) Etiuninin tərkibində olan Naxçıvan ərazisi bəzən Mannaya qatılmışdır" [5, s. 55]. Buradan da aydın olmur ki, Naxçıvan ərazisi "bəzən", yəni nə vaxt Mannaya qatılmışdır?

Tarixi faktların təhlili belə bir fikir söyləməyə imkan verir ki, Naxçıvanın Manna dövlətinin tərkibinə daxil edilməsi e.ə. VIII əsrin sonları – VII əsrin əvvəllərinə aid oluna bilər, çünki bu dövrdən sonra kimmerlər və skiflərin Azərbaycana yürüşləri başlayır və yeni tarixi situasiya yaranır. Mannanın tərkibində olduğu dövrdə əvvəllərdəki kimi Naxçıvanın şəhər-dövlət statusunu saxladığını ehtimal etmək olar.

Belə bir şəraitdə kimmerlər və skiflərin bölgədə mühüm siyasi qüvvəyə çevrilməsi və Skif çarlığının meydana gəlməsi ilə vəziyyət dəyişdi. Dövrün tədqiqatçılarından İ.Əliyevin yazdığı kimi faktik məlumatlar sübut edir ki, e.ə. VII əsrin ikinci yarısında Skif çarlığı Ön Asiya Şərqində mühüm faktor oldu [6, s. 13].

Herodotun məlumatına görə e.ə. VIII əsrin sonlarında "skiflər tərəfindən sıxışdırılan köçəri kimmerlərin sayagəlməz orduları Ön Asiyaya soxulmuşlar. Kimmerlər hələ Cənubi Qafqaz torpaqlarında urartulularla toqquşaraq iki böyük axına bölünmüşlər. Birinci axın cənub-qərbə, Kappadokiyaya yönəlmiş,

ikinci axın isə cənuba, Manna vilayətlərinə və Madanın şimal-qərb hissəsinə üz tutmuşdu [1, s. 231]. Kimmerlərin adı ilk dəfə Aşşur mənbələrində Manna ilə əlaqədar olaraq e.ə. VIII əsrin son rübündə, skiflər (saklar) isə işkuzai (aşkuzai) adı ilə e.ə. 674-cü ilə aid olan mənbədə çəkilir [5, s. 56]. Təxminən e.ə. VII əsrin 70-ci illərində Azərbaycan ərazisində Skif çarlığı meydana gəlir.

Bəhs edilən dövrdə Naxçıvanın siyasi vəziyyətinin müəyyənləşdirilməsi mühüm vəzifələrdəndir. Azərbaycan ərazisində Skif çarlığına dair əsas tədqiqatların müəllifinin [6, s. 4-14] qeyd etdiyinə görə çarlıq Kür çayının orta axarı ilə Urmiya gölü ətrafındakı Manna ərazisi arasındakı vilayətlərdə yerləşirdi [1, s. 236]. Azərbaycan tarixi atlasında da həmin ərazi Skif şahlığı kimi göstərilmişdir [2, s. 12]. Naxçıvan da bu əraziyə daxil edilmişdir. Bu məsələdən bəhs edən R.Məlikovun fikrinə görə "Naxçıvan da bu şahlığın (Skif şahlığının. – İ.H.) tərkibində, yaxud nüfuz dairəsində olmuşdur" [5, s. 56]. S.Qaşqay isə yazır ki, "Araz çayının hər iki sahilini əhatə edən maddi mədəniyyət, skitlərin (skiflərin. – İ.H.) Manna çarlığının şimal sərhədlərində və Naxçıvan ərazisində hətta çox qısa müddət də olsa olmalarını əks etdirmir" [3, s. 59].

Azərbaycan ərazisində Skif çarlığının coğrafiyası ilə birlikdə, Naxçıvanda az da olsa tapılmış skif tipli tapıntıların (Meydantəpə (Babək rayonu Nəzərabad kəndi) və Şahtaxtıdan əldə edilmiş iki tunc ox ucluğu) Naxçıvanın Skif çarlığına daxil olması ehtimalını daha əsaslı hesab etməyə imkan verir.

Beləliklə, nəzərdən keçirilən məsələlər bəzi elmi nəticələr çıxarmağa imkan verir: 1) Naxçıvanın ərazisi ilk vaxtlar yalnız cənubdan, Urartu və Assuriya vasitəsi ilə hücumlara məruz qalırdısa, skiflərin hücumu ilə şimaldan təhlükə artdı və Naxçıvanın Skif çarlığı ərazisinə daxil edilməsi ilə Azərbaycanın şimal torpaqları ilə əlaqələri genişləndi. 2) Nəzərdən keçirilən dövrdə Naxçıvanın Azərbaycanın cənub torpaqları ilə əlaqələri barəsində bəhs olunduğu halda (S.Qaşqayın məqalələri), onun şimal torpaqları ilə əlaqələrinin də araşdırılması zərurətini irəli sürür.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi: 7 cilddə. I c., Bakı: Elm, 2007, 520 s.
2. Azərbaycanın tarixi atlası. Bakı, 2007, 55 s.
3. Qaşqay S. Azərbaycan e.ə. I minilliyin başlanğıcında // Azərbaycan Milli Ensiklopediyası. Ümumi cild, Bakı, 2007, 884 s.
4. Qaşqay S. Naxçıvanın e.ə. I minilliyin birinci yarısında qonşu ölkələrlə əlaqələri // Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri (9-10 iyun 2006-cı ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı: Təhsil, 2006, 504 s.
5. Məlikov R. Azərbaycanın Naxçıvan bölgəsi qədim dövrdə və erkən orta əsrlərdə (yazılı mənbələr əsasında) // Naxçıvan: ilkin şəhər və Duzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: Əcəmi, NPB, 2013, 360 s.

6. Алиев И. О скифах и Скифском царстве в Азербайджане // Переднеазиатский сборник. Т. III: История и филология стран Древнего Востока. Москва, 1979.
7. Кашкай С.М. Из истории Маннейского царства. Баку, 1977, 134 с.; Кашкай С.М. Связи Нахичеванского края с Иранским Азербайджаном в конце II-начале I тысячелетия до н.э.; Naxçıvan tarixi: 3 cilddə. I c., s. 86-92.
8. Бахшалиев В.Б. Оглангала – столица государств утиев // Ирс (Наследие), 2012, № 3 (57), с. 12-15.

Исмаил Гаджиев

О РОЛИ НАХЧЫВАНА В ПРОЦЕССЕ СОЗДАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ ГОСУДАРСТВЕННОСТИ (III тысячелетие до н.э.-конец II тысячелетия до н.э.) (II статья)

В статье изучены новые аспекты создания государства в Азербайджане – политические союзы племен, создание города-государства, роль Нахчывана в процессе создания азербайджанской государственности. Полученные результаты таковы, что формирование государства происходит за счет возникновения родовых и племенных союзов, или же возникновения городов-государств. Изучена роль Нахчывана в создании государственности в Азербайджане и выявлено, что возникновение в III тысячелетии до н.э.-в конце II тысячелетия до н.э. родовых и племенных союзов привело к созданию государства. Созданные на основе племенных союзов государства пали, на их месте в конце II-начале I тысячелетия до н.э. возникли города-государства. На территории Нахчывана особо выделяют города Кюльтепе II, Нухдабан, Шахтахты и Нахчыван.

Ключевые слова: *племя, родовые союзы, города-государства, Этиуни, Пулуади, Манна, Оглангала, Скифское царство.*

Ismayil Hajiyev

ON ROLE OF NAKHCHIVAN IN FORMING PROCESS OF AZERBAIJAN STATEHOOD (III millennium b.c.-end of II millennium b.c.) (II paper)

The new aspects of state forming in Azerbaijan – political tribal alliances and creation of a city-state, the role of Nakhchivan in the process of creation of the Azerbaijani statehood – are studied in the paper. The following results are attained: a state forms at the expense of origin of tribal and clan alliances, or origin of city-states. The role of Nakhchivan in creation of statehood in Azerbaijan is studied and it is revealed that the origin of tribal and clan alliances at the III millennium BC and the end of the II millennium BC led to the creation of a state. Then states formed on the basis of tribal alliances disintegrated, instead of them appeared city-states at the end of the II millennium BC-the beginning of the I millennium BC. The cities of Kultepe II, Shahtakhty, Noahdaban and Nakhchivan are especially marked out in the Nakhchivan territory.

Key words: *tribe, clan alliances, city-states, Etiuni, Puluadi, Manna, Oghlangala, Scythian realm.*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

FƏXRƏDDİN SƏFƏRLİ
AMEA Naxçıvan Bölməsi
E-mail: hacifexreddin@yahoo.com.tr

VƏNƏND KƏND CAME MƏSCİDİNİN KİTABƏSİ XVIII ƏSRİN 20-30-CU İLLƏRİNDƏ NAXÇIVANDA VƏZİYYƏT HAQQINDA

Məqalədə Vənənd kənd Came məscidinin 1732-ci ildə yazılmış kitabəsindən bəhs edilir. Kitabənin məlumatlarından aydın olur ki, həmin vaxt kəndin vəziyyəti çox ağır olmuş, Səfəvi-Osmanlı müharibələri zamanı kənd və ətrafı 3 dəfə talan edilmişdir. Kitabədə həmin vaxt satışda olan mallar və onların qiyməti haqqında maraqlı məlumatlar vardır.

Açar sözlər: *Ordubad, Vənənd, məscid, kitabə, Səfəvilər dövləti*.

Xalqımızın orta əsrlər dövrü tarix və mədəniyyətinin müxtəlif problemlərinin obyektiv və hərtərəfli araşdırılmasında müsəlman epiqrafikası abidələrinin əhəmiyyəti çox böyükdür. Bu abidələr bəzən heç bir qaynaqdan məlum olmayan yeni və dəyərli faktlar təqdim edir və elmə qaranlıq olan bir sıra məqamların işıqlandırılmasında müstəsna rol oynayırlar. Bu abidələr dövrün sosial-siyasi, iqtisadi və mədəniyyət həyatını dərindən öyrənmək üçün çox sanballı və mötəbər qaynaqlar kimi diqqəti cəlb edirlər. Bu baxımdan Ordubad bölgəsinin Vənənd kəndindəki Came məscidinin kitabəsinin təqdim etdiyi məlumatlar Azərbaycanın XVIII yüzilliyin 20-30-cu illər tarixinin öyrənilməsi üçün çox əhəmiyyətlidir.

Rayon mərkəzindən 17 km şimal-qərbdə yerləşən Vənənd kəndi bölgənin ən iri və inkişaf etmiş yaşayış məskənlərindən biridir. Yaranması tarixi eramızın hüdudlarında Bulqar türklərinin cənubi Qafqaza axınları ilə əlaqədar olan Vənənd kəndi orta əsrlər zamanı Naxçıvan bölgəsinin inkişaf etmiş yaşayış məskənlərindən biri olmuşdur. Orta əsrlər zamanı tərəqqi dövrü keçirən, özünün planlaşdırılması və tikilişində orta əsr şəhərsalma mədəniyyətinin əlamətlərini saxlayan Vənənd kəndində indiyədək qalan bir sıra maddi-mədəniyyət nümunələri, o cümlədən Came və məhəllə məscidləri, hamam binası, kəndin cənubunda yerləşən, təxminən 1 hektar sahəni əhatə edən orta əsr qəbiristanlığında qalan bədii daşyonma sənəti nümunələri – başdaşı, sənduqə və qoç fiquru tipli abidələr, çoxlu müsəlman kitabələri, yaşı 1500 illə hesablanan və çevrəsinin uzunluğu 9 metrə çatan nəhəng çinar ağacı və başqa abidələr, həmçinin, ərə-

zisində Şəmsəddin Məhəmməd Cüveyni (1225-1283) tərəfindən tikdirilən layiqli xanəgahın olması [4, s. 27, 73; 1, s. 61], yaxınlığındakı – Xanağa kəndində böyük bir sufi təriqətinin fəaliyyət göstərməsi və s. [2, s. 27-28] kəndin bəhs olunan dövrdəki inkişafının səviyyəsindən xəbər verirlər.

Kəndin ərazisində indiyədək qalan möhtəşəm tarix-memarlıq abidələrindən biri Came məscididir. Zəmanəmizədək nisbətən salamat vəziyyətdə gəlib çatan Came məscidi kəndin mərkəzi meydanında düzbucaqlı formada inşa edilmişdir. Hazırki vəziyyətdə giriş qapısı şimal tərəfdən olan məscidin hündürlüyü 7 metrə, sahəsi 400 kvadrat metrə yaxındır. Məscidin cənub divarında böyük bir mehrab vardır. Mehrab müxtəlif rənglərdən istifadə olunmaqla ornament və naxışlarla, kiçik kitabə motivləri ilə çox nəfis şəkildə bəzədilmişdir. Məscidin daxili ağac və taxtalardan istifadə olunmaqla düzəldilən balkon vasitəsilə iki mərtəbəli şəklə salınmış və ikinci mərtəbə, yəni balkon qadınların ibadət etməsi və dini söhbətlər zamanı oturması üçün nəzərdə tutulmuşdur.

Balkonun taxtalarından birinin üzərində qara rənglə geniş həcmli bir kitabə yazılmışdır (şəkil 1.). Ölçüsü 348 sm x 26,5 sm olan, süls elementli nəsx və şikəstə xətti ilə yazılan kitabə N.V.Xanıkov [8], İ.Əzimbəyov [7, s. 180-181], M.Nemət [9, s. 93-94] və F.Səfərli [10, s. 18-21] tərəfindən tədqiq olunmuşdur.

Kitabənin mətninin tərcüməsi belədir: "Bu səadətli məscidin yenidən bərpa edilməsinə, ibadətə layiq hökmdarın (Allahın) köməyi ilə 1145-ci ilin məhərrəm ül-həram ayında səadətli cənab Əxəvi Məhəmməd Molla Zəhir ibn mərhum, bağışlanmış, bağışlayan Allahın rəhmətinə çatmış Mövlana Məhəmməd Möminin – Allah onların hər ikisini bağışlasın – səyi nəticəsində mübarək bir zamanda əmr edilmişdir. (Bu zaman) vəziyyət çətin, qəhətlik həddən aşmışdı. Məzənnəyə görə tilani çəkisi ilə bir man buğda dörd yüz dinara, düyü səkkiz yüz dinara, yağ iki min səkkiz yüz dinara, bal üç min iki yüz dinara, doşab iki min dörd yüz dinara, pendir min altı yüz dinara, məviz iki min dörd yüz dinara, arpa üç yüz əlli dinara, (ucuzlu) qaysı səkkiz yüz dinara, soğan səkkiz yüz dinara, sarımsaq min iki yüz dinara, pambıq dörd min dinara, qovun tumu beş min dinara satılırdı. Bahalıq və qəhətlik nəticəsində zəmanə cəhənnəmi andırırdı. Zəmanə elə pis olmuşdu ki, Vənənd kəndi və onun ətrafı bir il içərisində üç dəfə talan olmuşdu. Bir çox müsəlman qadın və kişilər öldürülüb və əsir alınmışdı. Digər Allah bəndələri qaçaraq Araz çayını keçib o taydakı kəndlərdə məskən salmışdılar. O pozğunluq zamanında alver qapısı bağlanmışdı. Allahın dəyişməz, böyük və yüksək dərgahına ümidvarıq ki, bütün müsəlman və möminlərin şəhərlərindən belə bəlaları qaldırar və uzaqlaşdırar. Amin. Peyğəmbərlərin ən hörmətlisinin xatirəsinə (bunu) mərhum Molla Məhəmməd Mömin Vənəndinin oğlu, günahkar, yazıq, yoxsul Məhəmməd Rzadan – Allah onları peyğəmbər və onun canişini xatirəsinə bağışlasın – qəbul et. 1145-ci il" [3, s. 139-140].

Məhərrəm ayı, 1145 h.i. = 24.6. – 23.7. 1732-ci il.

Kitabənin məzmunundan aydın olur ki, hicri 1145-ci ildə (1732-ci il) məs-

cidin binası yenidən bərpa edilmişdir. Bərpa haqqında dəyərli məlumatlar verən kitabə, həmçinin yazıldığı dövrün tarixi hadisələrini izah etmək baxımından da qiymətli faktlar təqdim edir.

Məlumdur ki, Səfəvilər dövlətinin yaranmasından sonra Osmanlı imperiyası ilə bu dövlət arasında ziddiyyətlər getdikcə kəskinləşmiş və onlar arasında fasilələrlə üzücü, dağıdıcı müharibələr baş vermişdir. Baş verən aramsız, uzun sürən müharibələr zamanı bütün Azərbaycan, o cümlədən Naxçıvan ərazisi döyüş meydanına çevrilir, əldən-ələ keçir, ölkənin iqtisadiyyatı pozulur, məhsuldar qüvvələr zəifləyir, mədəni nailiyyətlər məhv edilir, əhalinin vəziyyəti həddindən artıq ağırlaşırdı. Kitabənin yazıldığı tarix bu müharibələrin yenidən qızışdığı dövrə təsadüf edir.

Nadirqulu xanın Azərbaycan torpaqlarını osmanlılardan geri almaq uğrunda mübarizəsinin davam etdiyi bu illərdə Naxçıvan, o cümlədən Ordubad bölgəsi Səfəvi və Osmanlı dövlətləri arasında gedən üzücü, dağıdıcı müharibələrin meydanına çevrilirdi. Nəticədə ərazinin iqtisadiyyatı dağılır, tarix-mədəniyyət abidələri məhv olur, əhali qırılır, əsir alınıb aparılır, didərgin düşürdü.

Həmin müharibələr zamanı Vənənd kəndi də həddindən artıq zərər çəkmiş, hətta kitabədə deyildiyi kimi bir il içərisində üç dəfə talan olmuş, bir çox müsəlman qadın və kişilər öldürülmüş, əsir alınmış, bir hissəsi isə canlarını qurtarmaq üçün qaçaraq Arazın o tayına getmişdilər. Göründüyü kimi bu kitabə dövrün sosial-siyasi tarixi, XVIII yüzilliyin I yarısında Azərbaycanda baş verən hadisələr, aparılan müharibələr, bu müharibələrin ölkəyə təsiri məsələlərini öyrənmək baxımından ən əhəmiyyətli mənbələrdən biridir. Onun verdiyi məlumatlar nəinki Naxçıvan bölgəsinin, həmçinin, bütövlükdə Azərbaycanın, geniş miqyasda Yaxın Şərqin bəhs olunan dövrdəki sosial-siyasi tarixinin, ölkədə yaranmış iqtisadi vəziyyətin və Səfəvi-Osmanlı münasibətlərinin və onların ölkə iqtisadiyyatına təsirinin öyrənilməsi üçün sanballı qaynaqdır.

Mətndə də qeyd olunduğu kimi məscid bərpa olunan və kitabə yazılan zaman baş verən müharibələrin törətdiyi çətinliklər ucbatından "vəziyyət çətin, qəhətlik həddən aşmışdı". Məhz buna görə də həmin vaxt əhalinin vəziyyəti həddindən artıq pisləşmiş, çox ağırlaşmış, dözülməz olmuşdu. Bu vəziyyət kitabəni yazan xəttatın dili ilə obrazlı şəkildə belə ifadə olunmuşdur: "Bahalıq və qəhətlik nəticəsində zəmanə cəhənnəmi andırırdı".

Kitabə XVIII əsrin 30-cu illərində Naxçıvanda işlənən çəki sistemi, çəki və pul vahidi haqqında məlumat verir. Aydın olur ki, həmin vaxt bölgədə tilani çəki sistemindən istifadə olunurmuş. Çəki vahidi kimi man tətbiq edilirmiş. Burada bir cəhətə diqqət yetirmək yerinə düşər. Səfəvi dövlətinə daxil olan ayrı-ayrı ərazilərdə man çəki vahidi kimi müxtəlif ağırlığı ifadə edirdi. Məsələn, Təbriz manı 3 kq, Gilan manı 6 kq, Qarabağ və Şamaxı manı 8 kq olduğu halda [6, s. 162] Naxçıvan manı 13 kiloqrama bərabər idi [10, s. 94].

Kitabədə xəttat bazarda satışda olan bir sıra ərzaq (buğda, arpa, düyü, yağ, bal, doşab, pendir, məviz, qaysı, soğan, sarımsaq, qovun tumu) və qeyri ərzaq

(pambıq) məhsullarının adları, onların qiymətləri haqqında məlumat verir və bahalıq ucbatından alverin səviyyəsinin aşağı düşməsindən gileylənir: "O pozğunluq zamanında alver qapısı bağlanmışdı".

Dövrün mənbələrində XVIII əsrin 20-30-cu illərində, konkret olaraq kitabənin yazıldığı 1732-ci ildə Səfəvi dövlətinin əsas pul vahidlərindən olan dinarın dəyəri, alıcılıq qabiliyyəti haqqında konkret məlumatlar yoxdur. Ancaq kitabə müəllifinin bahalığın və qəhətliyin yaratdığı vəziyyəti cəhənnəmlə müqayisə etməsi ərzaq məhsullarının qiymətinin həddindən artıq, görünməmiş dərəcədə baha olduğunu söyləməyə əsas verir.

Qeyd etmək lazımdır ki, bəzi tədqiqatçılar bu kitabəyə əsaslanaraq, yanlış olaraq onun tarixini məscidin inşa tarixinə aid edirlər. Ancaq kitabənin məlumatından da aydın olur ki, məscid 1732-ci ildə inşa deyil, bərpa olunmuşdur. Əslində məscidin inşa tarixi daha əvvəlki dövrlərə aiddir. Məscidin vaxtilə qərbdən giriş qapısı olmuş və həmin giriş qapısının baş tərəfində qırmızımtıl rəngli daşa həkk olunmuş bir kitabə qoyulmuşdur. Bəzi yerləri azacıq aşınaraq ovulsa da həmin kitabə (şəkil 2) indiyədək salamat vəziyyətdə qalmışdır. Ancaq XVIII əsrin 30-cu illərində məscid bərpa olunarkən onun qərb divarından təxminən 2 metr aralı – qərb tərəfdə, məscidi genişləndirmək məqsədi ilə başqa bir divar çəkilmiş və kitabə olan divar məscidin içərisində qalmışdır. Bərpa zamanı ehtimal ki, üzərindəki kitabənin xatirinə divar sökülməmiş, yeni hörülən divarda da kiçik giriş qapısı qoyulmuşdur. Məscidə əsas giriş qapısı bərpa zamanı şimal divardan qoyulduğu üçün daha qərbdəki qapıdan istifadə olunmamış və zaman keçdikcə orada olan kitabə də unudulmuşdur.

Kitabənin mətnindən aydın olur ki, məscid hicri-qəməri təqvimi ilə 725-ci ildə (miladi ilə 1325-ci ildə) inşa edilmişdir: "Ürək dolu arzu, şadlıq, din və xalqın möhkəm köməyi, dostların arzusu ilə (Allahın) bu evi yeddi yüz iyirmi beşinci ildə yarandı".

725 h.i. = 18.12.1324 – 07.12.1325-ci il

Göründüyü kimi, məscidin əsası 1325-ci ildə qoyulmuş, bərpadan (1732-ci il) təxminən 400 il əvvəl inşa edilmişdir.

Bu məscid Ordubad bölgəsinin daha bir kəndində, Nüsnüsdə bu günə qədər gəlib çatan, hazırda məscid kimi istifadə olunan pir-ziyarətgahla (1326-cı ildə inşa olunub) eyni vaxtda, ondan bir il əvvəl (1325-ci il) inşa edilmişdir.

İslamın müqəddəs kitabı olan "Qurani-Kərim"də məscidlərin bərpası və təmiri təqdir edildiyindən orta əsrlər dövründə məscidlər ehtiyac olduqda ayrı-ayrı adamlar və ya bütün camaat tərəfindən bərpa, yaxud təmir edilirdi. Məhz bu baxımdan Vənənd məscidi də inşa olunduqdan sonra orada vaxtaşırı təmir işləri aparılmışdır. Belə təmir işlərindən biri əvvəldə haqqında bəhs olunan kitabənin məlumatından göründüyü kimi, 1732-ci ildə aparılmışdır. Bu iş sonralar da davam etdirilmişdir. Cənub divarda qara rənglə gəc üzərində yazılan kitabə təsdiq edir ki, məscid 1890-cı ildə də təmir olunmuşdur. Mehrabın sağ tərəfində adi və müəkkəs (güzgü ilə oxunan) qaydada yazılan kitabənin (ölçüsü: 243x53

sm) mətninin tərcüməsi belədir:

"Ya Əli, kömək ol! Kömək ol, ya Əli! 1307-ci ilin mübarək ramazan ayında Mirzə Süleyman Mərəndi yazdı".

1307-ci ilin ramazan ayı 23.04.-21.05.1890-cı ilə müvafiq gəlir.

Kitabədən belə bir nəticəyə gəlmək olur ki, məscid 1890-cı ildə təmir olunmuşdur. Həmin vaxt məsciddə bir sıra rəng işləri görülmüş, xüsusilə mehrab nəbati ornamentlərlə gözəl bəzədilmiş, orada kiçik mətnli dini kəlamlar yazılmışdır. Ehtimal etmək olar ki, məsciddə təmir işləri zamanı orada bütün rəngsazlıq işlərini Mirzə Süleyman Mərəndi yerinə yetirmiş, axırda da öz imzasını divara yazdığı kitabədə qoymuşdur.

Kitabə adı bizə başqa mənbələrdən bəlli olmayan mərəndli ustanın – xəttatın adını təqdim edir və qeyd olunan dövrdə Mərəndlə Ordubad arasında mədəni-iqtisadi əlaqələrin olduğunu sübut edir.

Göründüyü kimi, Vənənd kəndinin ərazisində bu günə qədər qalan müsəlman kitabələri nəinki Azərbaycanın, eləcə də qonşu ölkələrin sosial, siyasi, iqtisadi tarix məsələlərinin öyrənilməsi üçün zəngin materiallar verirlər.

Vənənd kəndində bu gün də əsas məscid funksiyasını yerinə yetirən bu məscid Naxçıvan şəhərində XII əsrdə Əcəmi Əbubəkr oğlu tərəfindən inşa edilən Came məscidi və Kırna kəndindəki Came məscidi istisna olmaqla bölgədə bizə məlum olan üçüncü ən qədim məscid nümunəsidir.

Məscid orta əsrlər zamanı Vənənd kəndinin sosial-siyasi, mədəni və ideoloji həyatında mühüm rol oynayan bir mərkəz olmuşdur. Orada günün müxtəlif vaxtlarında çoxlu adamlar toplaşır, ibadət edir, söhbətləşir, dini və ölkənin həyatına dair söhbətlərə qulaq asırdılar. Kəndin həyatında mühüm rol oynaması səbəbindəndir ki, əslən Vənənddən olan və daim orada yaşayan məşhur şair Hacı Mirzə Ağarəhim Qüdsi Vənəndi (1773-1864-cü illər) doğulduğu yerin vəsfinə həsr etdiyi 26 beytlik şerində kəndi behiştə, suyunu abi-Kövsərə bənzədir, bu məscidi isə "misilsiz" (məscidi bimisl) adlandırır [5, s. 3-4].

Qeyd etmək lazımdır ki, məscid kəndin mərkəzində, bazar meydanının cənub tərəfində inşa edilmişdir. Beləliklə, nəinki məscidin özü, ümumiyyətlə onun yerləşdiyi ərazi də orta əsrlər zamanı əhalinin ən gur olduğu, toplaşdığı ərazi olmuşdur.

Şəkil 1

Şəkil 2

ƏDƏBİYYAT

1. Əliyev V.H. Naxçıvan – Azərbaycanın tarixi diyarıdır. Bakı: XXI – Yeni Nəşrlər Evi, 2002, 320 s.
2. Nemət M. Azərbaycanda pirlər. Bakı: Azərnəşr, 1992, 104 s.
3. Nemətova M.S. Azərbaycanın epiqrafik abidələri. Bakı: Azərbaycan EA nəşriyyatı, 1963, 157 s.
4. Piriyev V. Naxçıvan tarixindən səhifələr. Bakı: Müəllim, 2004, 126 s.
5. Əhmədov N. Vənənd. Bakı: Bakı Universiteti nəşriyyatı, 2003, 156 s.
6. Süleymanov N. Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı: Elm, 2006, 400 s.
7. Азимбеков И. Мусульманские надписи Тифлиса, Эривани и Нах. ССР // Известия «Азкомстарис»а, вып. 4 (тетрадь 2), Баку, 1929, с. 295-311.
8. Выдержки из «Записок о мусульманских надписях на Кавказе», М.Н.Ханыкова, опубликованных в «Азиатском журнале», август, 1862 г. / Пер. с франц. яз. Э.К.Спитницкой. Научный Архив Института Истории Национальной Академии Наук Азербайджана. Инв. № 1076.
9. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Т III, Баку: XXI –Yeni Nəşrlər Evi, 2001, 216 с.
10. Сафаров Ф.Я. Арабо-персоязычные надписи Нахичеванской АССР (XVI-XIX вв.) как историко-культурные памятники: Дис. … канд. ист. наук. Баку, 1987, 179 с., НАИИ НАН Азербайджана, инв. № 8383.

Фахреддин Сафарли

НАДПИСЬ В МЕЧЕТИ ДЖАМЕ СЕЛА ВАНАНД О ПОЛОЖЕНИИ В НАХЧЫВАНЕ В 20-30-Х ГОДАХ XVIII ВЕКА

В статье рассматривается надпись в мечети Джаме села Вананд, сделанная в 1732 году. Из сообщений надписи становится ясно, что в то время положение села было очень тяжёлым, во время Сефевидо-Османских войн село и его окрестности три раза были разграблены. В надписи имеется ценная информация о товарах, продаваемых в тот период, и их стоимости.

Ключевые слова: *Ордубад, Вананд, мечеть, надпись, государство Сефевидов.*

Fakhraddin Safarli

INSCRIPTION AT THE JAME MOSQUE IN THE VILLAGE OF VANAND CONCERNING SITUATION IN NAKHCHIVAN IN 20-30 YEARS OF XVIII CENTURY

An inscription at the Jame mosque in the village of Vanand written in 1732 is considered in the paper. From the reports of this inscription it is clear that at that time the situation in the village was very severe, during the Safavid-Ottoman wars the village and surrounding area were looted three times. The inscription has valuable information about products sold in this period and its costs.

Key words: *Ordubad, Vanand, mosque, inscription, Safavid state.*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

FƏXRƏDDİN CƏFƏROV
Naxçıvan MR Arxiv İdarəsi
E-mail: faxraddin_cafarov@mail.ru

SƏNƏDLƏRİN DİLİ İLƏ...

Məqalədə görkəmli sərkərdə, hərbi xadim Cəmşid xan Cəfərqulu xan oğlu Naxçıvanskinin Naxçıvan MR Dövlət Arxivində mühafizə edilən hərbi xidmətləri, xatirələri, eləcə də taleyi ilə bağlı arxiv sənədləri işıqlandırılmışdır.

Açar sözlər: *Teymur xan Naxçıvanski, Əli Əliyev, M.V.Frunze adına hərbi akademiya, Əliağa Şıxlınski, Səmədağa Mehmandarov.*

Naxçıvan ölkəsi bu günü ilə fəxr etdiyi kimi keçmişi ilə də fəxr edir. Bu torpaqda görkəmli şəxslər, memarlar, ədiblər, yazıçılar, sənətkarlar, qəhrəmanlar yetişmişdir. Biz bu məqalədə bütün naxçıvanlı hərbçilər deyil, ancaq Azərbaycan ilk milli diviziyasının (1929-cu ildə həmin diviziya dağ-atıcı diviziyası adlandırılıb – müəllif) təşkilatçısı general Cəmşid Cəfərqulu xan oğlu Naxçıvanski ilə bağlı arxivlərdə olan sənədlər haqqında qismən məlumat verəcəyik.

Azərbaycan Respublikası Prezidentinin 2 aprel 2015-ci il tarixli sərəncamı ilə bu il Cəmşid Naxçıvanskinin 120 illik yubileyi keçiriləcəkdir.

Baxmayaraq ki, görkəmli sərkərdə Cəmşid Naxçıvanski haqda müxtəlif dövrlərdə, həmçinin keçmiş sovetlər birliyində müxtəlif səpkidə, xüsusilə hərb sahəsindəki fəaliyyəti haqqında Ə.Əliyevin, A.Cəfərovun, Ş.Nəzirlinin, M.Quliyevin və başqalarının dövrü mətbuatlarda işıqlandırılmışdır. Xüsusilə qafqazşünas alim, Kəngərli generallarının tədqiqatçısı R.N.İvanov tərəfindən general C.Naxçıvanski haqqında yazılmış "Sovet İttifaqı adından" ("Именем Советского Союза. Жизнь и гибель комбрига Нахичеванского". 2007-ci ildə çapdan çıxıb) kitabı qəhrəmanın döyüş yolu, hərbi xidmətləri, eləcə də taleyi ilə bağlı arxiv sənədlərinə əsaslanır. Lakin buna baxmayaraq, arxivdə aparılan araşdırmalar nəticəsində yenə də Cəmşidlə və onun nəsli ilə bağlı sənədlər aşkar edilmişdir.

Cəmşid Naxçıvanski ilə bağlı Naxçıvan MR Dövlət Arxivində bir neçə sənədə rast gəldik. Həmin sənədlərdən biri C.Naxçıvanskinin 3 oktyabr 1916-cı ildə İrəvan qubernatoruna qardaşı Teymur xanın cənazəsini Naxçıvana gətirilməsi ilə əlaqədar xahişnaməsidir. Xahişnamədə yazılır: "Dünən mənim qarda-

şım, İrəvan gimnaziyasının tələbəsi Teymur xan Naxçıvanski özünü güllələyib. Mərhum qardaşımın meyitini Naxçıvan şəhərinə aparmağa icazə verməyinizi xahiş edirəm. Kornet Naxçıvanski (Kornet – çar süvari qoşununda birinci zabit rütbəsi deməkdir – F.C.)" [1, v. 1].

Teymur xan Naxçıvanskinin cənazəsinin Naxçıvana aparılması üçün qubernator tərəfindən 4 oktyabr 1916-cı il tarixdə Cəmşid xan Naxçıvanskiyə verilmiş şəhadətnamədə göstərilir: "Verilir tatar (Azərbaycan) atlı polkunun korneti Cəmşid xan Naxçıvanskiyə. Qardaşı, İrəvan kişi gimnaziyasının yetirməsi və İrəvan şəhərində özünü güllələmiş Teymur xan Naxçıvanskinin meyitini metal tabutda Naxçıvan şəhərinə aparmağa icazə verilir. Bu, imza və möhürlə təsdiq olunur" [1. v. 2].

Çox təəssüflər olsun ki, Teymur xanın ölümü ilə bağlı istintaq materiallarını əldə edə bilmədiyimizdən (bu sənədlər Ermənistan Dövlət Tarix arxivindədir – F.C.) bizim üçün Teymur xanın özünəqəsdin səbəbləri qaranlıq olaraq qalır. Görəsən Teymur xan niyə özünə qəsd edib? Bəlkə ermənilər tərəfindən öldürülüb? Cəmşid xana bildiriblər ki, qardaşın özünü güllələyib. Hələlik bu, qaranlıq səhifələrdən biri kimi qalır.

Sənədlərdə Cəmşid Naxçıvanskinin bir hərbçi kimi Avstriya və Rumıniya cəbhələrində şücaətlə vuruşaraq 3 dəfə yaralandığına rast gəlinir. Həmin vuruşmalardakı rəşadətli döyüşlərinə görə C.Naxçıvanski II, III, IV dərəcəli "Müqəddəs Anna", II və III dərəcəli "Stanislav", IV dərəcəli "Vladimir", IV dərəcəli "Müqəddəs Georgi Xaçı" ordenləri və Georgi Silahı ilə təltif olunmuş, gümüş qılınc bağışlanmaqla, Ona 1919-cu ildə AXC tərəfindən podpolkovnik rütbəsi verilmişdir [2. v. 59].

C.Naxçıvanski öz tərcümeyi-halında yazır: "Bütün cənub-qərb vuruşmalarında və Rumıniya cəbhəsində iştirak etdim" [3. v. 32-33].

1917-ci ildə çar mütləqiyyəti yıxıldıqdan sonra Cəmşid Naxçıvanski Azərbaycana gəlir. Bu barədə Naxçıvanski şəxsi işində belə yazır: "Polk 1917-

ci ildə Qafqaza qayıtdı, Zaqafqaziya seyminin sərəncamına verildi. Seym yıxılandan sonra Azərbaycan Demokratik Respublikasının tabeliyinə keçdi".

C.C.Naxçıvanski hərbi xidmətə erkən başlayaraq sıravi əsgərdən diviziya komandiri rütbəsinədək böyük bir yol keçmişdir. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra eskadron komandiri C.C.Naxçıvanski inqilabın tərəfinə keçmişdir: 1920-ci il aprelin 28-də XI Qızıl Ordunun tərkibinə daxil olan Qarabağ polkuna komandirlik etmiş, sonra Azərbaycan hərbi məktəbi rəisinin köməkçisi, Azərbaycan atıcı briqadasının komandiri təyin edilmişdir. Bir çox vuruşmalarda C.C.Naxçıvanskinin hərbi istedadı özünü bütün dolğunluğu ilə göstərmişdir. Kommunist Partiyası onu 1921-ci ilin sentyabrında Qızıl Ordunun birinci milli dəstəsi olan Azərbaycan atıcı diviziyasına komandir göndərmişdir.

C.C.Naxçıvanskinin rəhbərlik etdiyi Azərbaycan atıcı diviziyası Qırmızı Bayraq ordenli Qafqaz ordusunun tərkibində döyüş qabiliyyətli diviziyalardan biri sayılırdı, bir çox manevrlərdə və taktiki təlimlərdə iştirak etmiş, XI Qızıl Ordunun köməyi ilə əks-inqilabçı quldur dəstələrinin darmadağın edilməsinə nail olmuş, dəfələrlə Hərbi İnqilab Şurası və SSRİ xalq müdafiə komissarı tərəfindən yüksək qiymətləndirilmişdir. C.C.Naxçıvanski öz zəngin təcrübəsini və biliyini Qızıl Ordu əsgərlərinə və komandirlərinə səxavətlə öyrədirdi. Onun rəhbərliyi altında gənc Sovet respublikasının müdafiə qabiliyyətini möhkəmləndirmək sahəsində böyük səmərəli iş aparılmış, ilk hərbi komissarlıqlar yaradılmışdır.

Cəmşid Naxçıvanskinin Sovet hakimiyyətinə dərin sədaqəti, habelə yüksək hərbi biliyi və istedadı Qafqaz ordusu komandanlığının, xüsusən XI Qızıl Ordunun komandanı M.Levandovskinin, hərbi inqilab şurasının üzvü S.Orçonikidzenin, Azərbaycan hərbi və dəniz komissarı Ə.Qarayevin diqqətini cəlb etmiş, o Azərbaycan hərbi məktəbinə rəis təyin olunmuşdur.

Azərbaycan briqadasının bazası əsasında diviziya yaratmaq işində xidmətlərinə görə Azərbaycan hərbi və dəniz komissarının 19 dekabr 1921-ci il tarixli əmrilə C.Naxçıvanskiyə təşəkkür elan edilmiş və gümüş qılınc hədiyyə verilərək o, təzə yaradılmış dağ atıcı diviziyasına komandir təyin edilmişdir.

1923-cü ildə C.Naxçıvanski təhsilini artırmaq üçün V.İ.Leninin təşəbbüsü ilə yaradılmış Ali hərbi akademiyanın Ali komanda kursuna göndərilmiş və oxuduğu müddətdə diviziya komandiri vəzifəsində qalmışdır.

1923-cü ildə Moskvada Fəhlə-Kəndli Qızıl Ordusunun hərbi akademiyasını bitirənlərin çəkdirdikləri fotoşəkildə adları sovet xalqının qəhrəmanlıq salnaməsində əbədi həkk olunmuş sovet sərkərdələrinin, o cümlədən V.K.Blüxer, Y.F.Fabritsius, Q.İ.Kulik, Y.Y.Latsis, N.A.Neestrovski, A.Q.Şirmaxer və başqaları ilə bərabər Azərbaycan, Tatarıstan, Gürcüstan, Ermənistan atıcı diviziyalarının komandirləri Cəmşid Naxçıvanski, Yaqub Çanışev, Semyon Pxakadze və Andrey Məlikşahnəzərov da vardır.

General-leytenant Yaqub Çanışev C.Naxçıvanski haqqında yazmışdır: "Mən ilk dəfə Cəmşid Naxçıvanski ilə 1920-ci ildə Şərq xalqlarının birinci qurultayında görüşdüm... Fasilə vaxtı onunla N.Nərimanovun qurultaydakı çıxışından, 26 Bakı komissarının dəfn mərasimindən, İran inqilabçılarına kömək üçün qoşunlarımızı yürüşə necə hazırladığımızdan geniş danışdıq. Atalar demişkən, təsadüf həmişə zəruriyyət doğurur. Onunla biz bir də 1923-cü ildə Ali hərbi akademiyada kursda olarkən görüşdük.

C.Naxçıvanski Fəhlə-Kəndli Qızıl Ordusu Akademiyasının ali komandir heyəti kursunda əla oxuyurdu, demək olar ki, qoşun növlərinin strategiyasını mükəmməl öyrənmişdi. C.Naxçıvanski sözün həqiqi mənasında gözəl vətənpərvər komandir idi. Savadsız könüllülərdən nümunəvi, intizamlı ordu yaratmışdı. Onun səmərəli fəaliyyəti sayəsində sonralar Azərbaycan diviziyası silahlı qüvvələrimizin salnaməsinə parlaq səhifələr yazdı."

C.Naxçıvanskinin istedadlı hərbi rəis kimi yetişməsində məşhur sərkərdələrdən Əliağa Şıxlinskinin və Səmədağa Mehmandarovun xüsusi xidmətləri olmuşdur. Onların köməyilə Azərbaycan diviziyasının atıcıları, topçuları və süvariləri Zaqafqaziya ordusunun taktiki-təlim məşğələlərində birinci yeri tutmuşlar.

Görkəmli sovet sərkərdələri M.V.Frunze, K.Y.Voroşilov, Y.F.Fabritsius bir hərbi rəis kimi C.C.Naxçıvanskinin şəxsiyyətinin formalaşmasına böyük təsir göstərmişlər. SSRİ xalq hərbi dəniz komissarı və Hərbi İnqilab Şurasının sədri M.V.Frunze Bakıda olarkən Azərbaycan diviziyasının şəxsi heyətinin döyüş hazırlığını və onun komandir C.C.Naxçıvanskini yüksək qiymətləndirmişdir.

Məşhur general Fabritsius Azərbaycan dağ atıcı diviziyasının döyüş hazırlığı işini yoxladıqdan sonra yazmışdı: "Diviziyanın fərdi hazırlıq işləri, ümumiyyətlə, kifayətləndirici səviyyədədir. Qış və yay təlimləri məhsuldar keçirilmişdir".

On il fasiləsiz Azərbaycan diviziyasına komandirlik etdikdən sonra M.V.Frunze adına hərbi akademiyaya göndərilən C.Naxçıvanski akademiyanı əla qiymətlərlə qurtarmışdır. 1930-cu il yanvarın 14-də C.Naxçıvanskiyə verilən attestasiyada yazılmışdı: "C.Naxçıvanskiyə əvvəllər verilən müsbət rəylər öz qüvvəsində saxlanılsın. O, hər cəhətli inkişaf etmişdir. C.Naxçıvanski hərbi oyunlarda və təlimlərdə, operativ taktiki əməliyyatlarda özünü bacarıqlı sərkərdə kimi göstərmişdir. C.Naxçıvanskidən korpus komandiri kimi də istifadə etmək olar. O, təmkinli, sakit təbiətlidir. Tükənməz enerjiyə malikdir, təşəbbüskardır, gözəl inzibatçıdır, yaxşı təşkilatçılıq qabiliyyəti vardır..."

Sovet Ordusunun veteranı, general-leytenant Nikolay Andreyeviç Verlovkin-Raxalski C.Naxçıvanski haqqında yazır: "Mən Cəmşid Naxçıvanskini hələ 1923-1924-cü illərdə FKQO Akademiyası ali komandir heyəti kurslarından, 1930-cu illərdən başlayaraq M.V.Frunze adına hərbi akademiyadan tanıyıram.

Cəmşid Naxçıvanski çox gözəl yoldaş, büllur kimi saf insan idi. Tabeçiliyindəki hərbi qulluqçular, eləcə də dostları arasında mübahisə düşdükdə onu çox tez həll etməyi bacarırdı. O, əsas fakültə kurslarının rəisi və baş taktika rəhbəri təyin edildikdən sonra bu keyfiyyətləri özünü daha aydın büruzə verdi. Bu vəzifə akademiyada çox şərəfli sayılırdı. Müəllimlərin bir qrupu və müdavimlər ona tabe idi. Onun təşkilatçılıq və tərbiyəçilik istedadı məhz burada aydın nəzərə çarpırdı. Naxçıvanskinin kursu sıra təlimində, demək olar ki, ən yaxşı kurs idi. Müəllimlərin, kafedra və kurs rəislərinin müşavirələrində Naxçıvanskidən həmişə işgüzar faydalı məsləhətlər alırdım. Səmimi, prinsipial, həmişə səliqəli, intizamlı idi. Bunu müdavimlərdən də tələb edirdi" [4, 1985, 10 avqust].

C.Naxçıvanski istər hərbi akademiyada olduğu illərdə, istərsə də diviziyanın və ordunun taktiki məşğələlərində bir qayda olaraq öz dərin biliyini, istedadını, nümunəvi şəxsi keyfiyyətini, qayğıkeş və tələbkar sərkərdə olduğunu göstərə bilmişdir. Elə buna görə də 1933-cü ildə o, S.Orconikidzenin təklifi ilə akademiyada saxlanılmışdır.

1934-cü ildə akademiyanın rəisi B.M.Şapoşnikovun 17 fevral tarixli əmrilə C.Naxçıvanski akademiyanın əsas fakültəsinin 2-ci kursunda ümumi taktika kafedrasının rəhbəri təyin edilmişdir. Müəllimlərin və müdavimlərin qərargah əməliyyat oyununun hazırlanması, keçirilməsi və təhlil edilməsində yüksək keyfiyyətli işinə görə 8 mart tarixli əmrlə C.Naxçıvanskiyə təşəkkür elan edilmişdir. 1935-ci il 17 iyun tarixli əmrdə deyilir ki, Naxçıvanskinin rəhbərlik etdiyi 2-ci kursun müdavimləri döyüş hazırlığında diqqətəlayiq müvəffəqiyyətlər qazanmışlar. Xüsusi qeyd edilmişdir ki, döyüş hazırlığının keyfiyyəti nəzərə çarpacaq dərəcədə yüksəlmişdir.

Böyük Oktyabr sosialist inqilabının 19-cu ildönümü münasibətilə noyabrın 7-də Qızıl meydanda keçirilən paradda M.V.Frunze adına hərbi akademiyanın müdavimləri və müəllimləri də iştirak etmişlər. Akademiya üzrə verilmiş əmrdə deyilir ki, paradda akademiya özünü Qızıl Ordunun nümunəvi əla hissəsi kimi göstərməlidir. Üç batalyondan ibarət birləşmiş alay yaradılmışdı. Birinci batalyona diviziya komandiri V.D.Svetayev, ikinci batalyona A.Q.Qolikov, üçüncü batalyona C.C.Naxçıvanski başçılıq edirdilər.

C.Naxçıvanski hərbi akademiyada işlərkən rəhbərlik etdiyi sahədə müdavimlərin bir çoxu sonralar Böyük Vətən müharibəsi illərində Sovet Ordusunun görkəmli xadimləri kimi fəaliyyət göstərmişlər. Kapitan B.İ.Arşintsev (müharibə illərində polkovnik, Qırmızı Bayraq ordenli məşhur İrkutsk topçu diviziyasının komandiri), kapitan S.S.Biryuzov (sonralar Sovet İttifaqı Marşalı), kapitan İ.İ.Lyudnikov (müharibə illərində general-polkovnik), kapitan D.N.Panfilov (Moskva müdafiəsinin qəhrəmanı), baş leytenant A.A.Qreçko (sonralar Sovet İttifaqı Marşalı, SSRİ müdafiə naziri), baş leytenant P.F.Baqitski (Sovet ittifaqı Marşalı, SSRİ hava hücumundan müdafiə qoşunlarının baş komandanı) və digər görkəmli hərbi xadimlər otuzuncu illərin ortalarında əsas fakültədə C.Naxçıvanskinin başçılıq etdiyi ikinci kursun dinləyiciləri sırasında olmuşlar.

Ali hərbi akademiyada işlərkən C.Naxçıvanski akademiyanın kafedra və kurs rəisləri ilə sıx əlaqə saxlayır, fikirlərini, gələcək planlarını onlara danışırdı. O, hərbi mühəndislik kafedrasının rəisi, hərbi mühəndislik işinin görkəmli mütəxəssisi, sonralar mühəndis qoşunları general-leytenantı rütbəsinədək yüksəlmiş professor Dmitri Mixayloviç Karbışev ilə möhkəm dost idi. Hər ikisi yüksək erudisiyalı hərbi xadim idilər.

Dövlət arxivində Cəmşid Naxçıvanski ilə bağlı bir çox sənədlərlə yanaşı, maraqlı sənədlərdən biri mərhum tarix elmləri namizədi Əli Əliyevin xatirələridir. Ə.Əliyev xatirələrində yazır: “Mən 1926-1928-ci illərdə əlahiddə irtibat rotasında xidmət etmişəm. İlk dəfə Naxçıvanskini 1927-ci ildə diviziyanın Hacıkənd təlimində görmüşəm. Mən əsgərliyə bir il tez getmişdim. Əsgərlər arasında ən kiçiyi mən idim. O zaman Azərbaycan dağ atıcı diviziyası Zaqafqaziya diviziyaları içərisində birincilər sırasında gedərək böyük şöhrət qazanmışdı. Çünki diviziyaya Əliağa Şıxlinski, Səmədağa Mehmandarov, Cəmşid Naxçıvanski kimi görkəmli sərkərdələr komandanlıq edirdilər və hərbi rütbəyə malik generallar diviziyanın hərbi təlimlərinə xüsusi diqqət yetirirdilər.

Əsgəri xidmətə bir il tez getməkdə heç də səhv etməmişdim. Əsgərlik etdiyim əlahiddə irtibat rotasında məni gecə marksizm-leninizm məktəbinə göndərdilər. Mən savadsız deyildim, köhnə məktəb qurtarmışdım, öz üzərimdə çox çalışırdım. 1928-ci il avqustun axırında diviziyanın siyasi şöbəsi məni 26 Bakı komissarı adına Zaqafqaziya kommunist universitetinə göndərdi. Mən əsgərlikdə çox şövqlə çalışırdım. Rotanın hərbi komissarı Fərhad Babayev, siyasi rəhbəri Çərkəz Zeynalov mənə böyük hüsn-rəğbət bəsləyirdilər. Mən də təlimlərdə və siyasi dərslərdə fəal iştirak edirdim.

Bu vaxt ingilis imperialistləri ilə Sovet hökuməti arasında müharibə, necə deyərlər, bir tükdən asılı idi. Diviziyanın hərbi qabiliyyətini yoxlamaq üçün komandanlıq Gəncənin yaxınlığında olan Ceyrançöl adlanan səhralıqda hərbi təlim keçirirdi. Avqustun qızmar günləri idi. Susuzluqdan, yorğunluqdan hücum edən tərəf təlimdə çox çətinliyə düşdü. Bunu nəzərə alaraq komandanlıq təlimi dayandırdı.

Mən rabitəçi əsgər idim. Üstümdə olan silahı, şələni, telefon aparatını, telefon xətti sarınmış katuşkanı apara bilmirdim. Bu anda diviziya komandiri Cəmşid başda olmaqla (ona Şamo da deyirdilər) diviziyanın qərargahı gəldi. Mən "Qızıl əsgər" qəzetinin fəal müxbiri olduğumdan orada məni tanıyanlar var idi. Diviziyanın hərbi şöbə rəisinin müavini Hartunov, hərbi prokuror Cavadov, "Qızıl əsgər" qəzetinin redaktoru Nəzərli, siyasi şöbənin əməkdaşı İslamzadə və başqaları məni gördükdə şələmi alıb, eskadron atlılarından birinə verdilər. Mən isə piyada yola düşdüm. Öz hissəmizi axtarıb Ağ çayın kənarında tapdım. Bir qədər dincəldikdən sonra qərargaha gedib, silahımı və başqa şeylərimi aldım və həmin gün gecə yola düşüb Hacıkənd düşərgəmizə qayıtdım.

Diviziyanın hissələri Hacıkənd düşərgəsinə qayıtdıqdan sonra, böyük mitinq çağırıldı. Mitinqdə Azərbaycan KP MK-nin birinci katibi Əliheydər Qarayev, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri Səmədağa Ağamalıoğlu iştirak edirdilər. Mitinqi Azərbaycan diviziyasının komandiri C.Naxçıvanski açdı. Birinci söz Əliheydər Qarayevə verildi. Ə.Qarayev ingilis imperializminin təcavüzkar siyasətindən, müstəmləkəçiliyindən danışdı.

C.Naxçıvanskinin hərbi məharətini, hərbi taktiki qabiliyyətini 1927-ci ilin sentyabr ayında gördüm. Sentyabr ayında başlanan hərbi təlim zamanı mən desant qrupunda iştirak edirdim. Yadımda deyil bizi hansı sahilə çıxartdılar. Lakin hücuma Qaradağ-Səngəçal tərəfdən başladıq. Qaradağdan başlayaraq Volçi-Vorotayadək bütün ərazi hərbi təlim meydanı idi. Çiskin yağış yağırdı. Qərargahla rabitə yaratmaq çətin idi. Qərargah, səhv etmirəmsə Bibiheybətə yaxın bir yerdə dayanmışdı. Təlim müvəffəqiyyətlə keçdi. Diviziyanın komandiri C.Naxçıvanski bizi hərarətlə qarşıladı, təbrik etdi. Belə qərara gəldilər ki, bütün diviziya Bakı şəhərindən keçsin. Komanda heyəti başda olmaqla, diviziya Çəmbərəkənddən enərək Azərbaycan KP MK-nın binasının qarşısından keçdi. MK-nin rəhbər işçiləri hərbi təlimi müvəffəqiyyətlə başa çatdıran diviziyanın döyüşçülərini hərarətlə təbrik etdilər.

C.Naxçıvanskini üçüncü dəfə 1933-cü ildə Moskvada gördüm. Mənim dostum Ələsgər Qasımov qırmızı professorlar institutunda oxuyurdu. Onun yanına getmişdim. Ə.Qasımov "Novodeviçi" tərəfində institutun yataqxanasında yaşayırdı. Onun görüşündən qayıdarkən təqribən sentyabr ayında mən tramvaya oturdum, gördüm ki, bir qaraqaş, qaragöz hərbçi ayaq üstə durub hara isə gedir. Mən onu tanıdım. O, Azərbaycan diviziyasının keçmiş komandiri Cəmşid Naxçıvanski-Şamo idi. Onu tanıdım, dərhal ayağa durub azərbaycanca salam verib yer göstərdim. C.Naxçıvanski mənə müraciət edərək:

– Siz məni haradan tanıyırsınız? – dedi.

Mən dedim ki, sizin komandir olduğunuz diviziyanın əlahiddə irtibat bölüyündə 1926-1928-ci illərdə xidmət etmişəm. Sizi dəfələrlə görmüşəm. Üç dəfə sizin komandanlığınız altında keçirilən ümumi diviziya təlimlərində iştirak etmişəm. Həm də biz həmyerliyik, naxçıvanlıyam.

Mən cəsarət edib ondan hara getdiyini soruşdum. Dedi ki, Hərbi Akademiyanı qurtarıb, Leninqrad hərbi dairəsinin sərəncamına gedir. Moskvanın Kropatini prospektində biz görüşüb ayrıldıq." [5. 1981, 1 oktyabr].

Bir neçə dəfə müxtəlif damğalarla həbs edilib qısa müddətdə azad edilməsinə baxmayaraq, 1938-ci il mayın 20-də general-mayor Cəmşid Naxçıvanskini yenidən həbs edirlər. 97 gün böyük işgəncələrdən sonra Moskva şəhərindən 25 km aralı Kaluqa şosesinin kənarındakı meşədə yerləşən xüsusi nəzarətxanada SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası tərəfindən onun haqqında 26 avqust 1938-ci il tarixdə verilmiş ölüm hökmü yerinə yetirildi. Elə bu nəzarətxananın yanında da dəfn olundu [6, 2011, 10 avqust].

C.C.Naxçıvanski həyatdan çox tez getmişdir. O, cəmi 43 yaş yaşayaraq bunun 26 ilini hərbi işə sərf etmişdir. Lakin onun səyi və iştirakı ilə yaradılmış, möhkəmləndirilmiş Azərbaycan diviziyası öz döyüş və beynəlmiləl ənənələrini davam etdirmiş və daha da zənginləşdirmişdir. Böyük Vətən müharibəsi illərində diviziya Xəzər sahilindən Baltik sahillərinədək şərəfli döyüş yolu keçmiş, Sovet Silahlı Qüvvələrinin salnaməsinə S.Orconikidze adına 77-ci Qırmızı Bayraq və Suvorov ordenli Simferopol atıcı diviziyası kimi daxil olmuşdur.

Görkəmli sərkərdə, hərbi xadim Cəmşid Cəfərqulu xan oğlu Naxçıvanski və digər Naxçıvanskilər, Kəlbəlixanovlar, Kəngərlilərlə bağlı bir çox arxivlərdə, Moskva, Sankt-Peterburq, Gürcüstan, Ermənistan, Azərbaycan və digər dövlət arxivlərində bu gün də üzə çıxarılmamış sənədlər vardır. Bunların aşkar edilib üzə çıxarılması gənc tədqiqatçıların, elə hamımızın üzərinə düşür.

ƏDƏBİYYAT

1. Nax. MRDA: F. 23 m. siy. 1, iş 4223.
2. Nax. MRDA: F. 582, siy. 1, iş 58.
3. Nax. MRDA: F. 733, siy. 1, iş 25.
4. "Sovet Naxçıvanı" qəz., 1985, 10 avqust.
5. "Sovet Naxçıvanı" qəz., 1981, 1 oktyabr.
6. "Şərq qapısı" qəz., 2011, 10 avqust.

Фахраддин Джафаров

ЯЗЫКОМ ДОКУМЕНТОВ...

В статье освещены документы, хранящиеся в Государственном Архиве Нахчыванской АР, которые связаны с военной службой, мемуарами, а также судьбой видного полководца, военного деятеля Джамшид хана Джафаркули хан оглу Нахчыванского.

Ключевые слова: *Теймур хан Нахчыванский, Али Алиев, военная академия им. М.В.Фрунзе, Алиага Шихлинский, Самедага Мехмандаров*.

Fakhraddin Jafarov

USING DOCUMENTS

Archive documents kept in the State Archive of Nakhchivan AR and concerning military services, memories and destiny of the prominent commander, military figure Jamshid khan Jafargulu khan Nakhchivanski are covered in the paper.

Key words: *Teymur khan Nakhchivanski, Ali Aliyev, Military Academy named after M.V.Frunze, Aliaga Shikhlinski, Samadaga Mehmandarov*.

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

EMİN ŞIXƏLİYEV
AMEA Naxçıvan Bölməsi
E-mail: emin.amea@yahoo.com

XX ƏSRİN SOYQIRIMI YALANI: UYDURMA, YOXSA REALLIQ?

Məlum olduğu kimi, 1915-ci ildə soyqırımına uğradıqlarını iddia edən ermənilər müntəzəm olaraq hər il aprel ayının 24-də bu məsələni bütün dünya ölkələrinin parlamentlərinin gündəminə gətirərək, tanıtdırılmasına çalışırlar. Halbuki ermənilərin iddia etdikləri bu hadisə soyqırımı deyil, Osmanlı dövlətinin öz təhlükəsizliyi naminə erməni üsyanlarının və türklərə qarşı törədilən qırğınların qarşısını almaq üçün hazırlamış olduğu müdafiə tədbiri idi. Tarixi müqayisəli təhlillər onu deməyə əsas verir ki, ermənilərin belə iddialar ortaya atmaqda əsas məqsədi bu məsələni bütün dünya və beynəlxalq təşkilatların müzakirəsinə çıxararaq tanıtdırmaq, sonrakı mərhələlərdə bunu Türkiyəyə də qəbul etdirərək təzminat və torpaq tələblərini qanuniləşdirməkdir.

Açar sözlər: *24 aprel 1915-ci il hadisələri, ermənilərin soyqırımı iddiaları, erməni komitələri, Osmanlı imperiyası, köç.*

24 aprel 1915-ci il hadisələri ermənilərin milli düşüncəsində "Böyük fəlakət – Meds Yeghern" (23, s. 3), Qərb dünyasında isə "tarixdə soyqırımına məruz qalmış ilk xristian millət" (ətraflı bax: 9, s. 97-106; 10, s. 65-81) olaraq xarakterizə olunur. Ermənilərin soyqırımı iddialarının Qərb dünyasında dəstəklənməsi və bu məsələyə xüsusi etina ilə yanaşmalarının səbəbləri əvvəlki tədqiqatlarımızda bütün təfərrüatı ilə araşdırıldığından bu mövzu üzərində təkrar durmayacağıq. Məhz bu düşüncənin təsiridir ki, ermənilər Qərb xristian dünyasından ilham alaraq hər il aprel ayının 24-də soyqırımı iddialarını bütün dünya ölkələrinin, xüsusilə də böyük dövlətlərin parlamentlərinin gündəminə gətirirlər. Halbuki ermənilərin iddia etdikləri bu hadisə soyqırımı deyil, Osmanlı dövlətinin öz təhlükəsizliyi naminə erməni üsyanlarının və türklərə qarşı törədilən qırğınların qarşısını almaq üçün hazırlamış olduğu müdafiə tədbiri idi. Belə ki, 24 aprel 1915-ci ildə erməni komitələri və partiyalarının fəaliyyətinə son verilmiş, İstanbulda 2345 nəfər erməni terroristi həbs edilmişdir (15, s. 213; 21, s. 40; 22, s. 146). Yəni burada heç bir ölüm və cinayət hadisələrindən söhbət gedə bilməz. Ermənilər komitə üzvlərinin həbs edildiyi 24 aprel tarixini soyqırımı günü elan etmişlər. Əgər söhbət Osmanlılar tərəfindən ermənilərin təhcirindən gedirsə, onların yerlərinin dəyişdirilməsinə qərar verilən Təhcir (Köç) Qanunu

27 may 1915-ci ildə qəbul edilmişdir (16, s. 61; 22, s. 259; 26, s. 131). Yəni "24 aprel" ermənilərin iddia etdikləri kimi soyqırımına səbəb olan köçürülmə tarixi deyil, Daşnaksutyun, Hınçak, Ramqavar kimi komitə üzvlərinin həbs olunduğu tarixdir. Həbs olunan ermənilərin sıravi vətəndaş olmayıb, komitə və terror təşkilatlarının üzvləri olduqları ingilis kəşfiyyat orqanları tərəfindən də doğrulanmışdır. Misirdəki ingilis hərbi idarəsinə göndərilən məlumatda göstərilir: 24 aprel 1915-ci il tarixdə 3 erməni ruhanisi, erməni qəzeti "Puzantion"un sahibi də aralarında olmaqla çox sayda erməni ələ keçirilmişlər, tezliklə onlar Ankaraya göndəriləcəkdir. Həbs olunanların 500-ü Daşnak, 500-ü Hınçak, digərləri isə Ramqavar təşkilatının üzvləridir (13, s. 62).

Qeyd edilməsi vacib olan məsələlərdən biri budur ki, təhcir (köçürülmə) və buna bağlı olaraq "erməni soyqırımı" adıyla önə sürülən hadisələrin əsl kökü Osmanlı dövlətinin hər müstəqil dövlət kimi müharibə əsnasındakı qanuni müdafiə hüquqlarını qorumaq istəməsindən qaynaqlanmışdır. Bu da bir həqiqətdir ki, 1915-ci ildə qəbul edilən "Təhcir Qanunu" sadəcə ermənilərə deyil, Osmanlı dövlətinə qarşı üsyan və düşmənlərlə əməkdaşlıq edənlərə qarşı tətbiq edilmişdir. Qanun mətnləri incələndiyində "erməni" kəlməsinə rast gəlinmir (11, s. 124; 22, s. 149; 27, s. 605).

Burada soyqırımı ifadəsinə həm lüğət baxımından, həm də beynəlxalq hüquq qaydaları baxımından açıqlıq gətirməyi son dərəcə vacib hesab edirik. Etnik, milli və dini səbəblər üzündən silahsız və müdafiəsiz insanların kökündən məhv edilməsi soyqırımıdır (25, s. 630-631). Həqiqətən də Osmanlı vətəndaşı olan silahsız və müdafiəsiz erməni xalqı türklər tərəfindən milli və dini səbəblər üzündən soyqırımına məruz qaldılarmı?

Tarix boyunca etnik azlıqlarla münasibətlərini müasir dövlətlərdən belə üstün bir səviyyədə quran Osmanlı dövlətinin XX əsrdə belə bir cinayətə baş vura biləcəyini düşünmək son dərəcə yanlışdır. Hər şeydən əvvəl ona görə ki, əgər milli baxımdan sırf ermənilər hədəf alınsaydı, Osmanlı dövründə onlardan paşa, nazir, millət vəkilləri çıxa bilərdimi?

Elmi-tədqiqat əsərlərinin ortaya qoyduğu faktlara görə, ermənilərin Osmanlı dövlətindəki qeyri-müsəlman camaatı arasında özünəməxsus yeri olmuş, əsrlər boyunca Anadoluda türklərlə birlikdə sülh içərisində yaşamışlar. Sadəcə dini inanclarından başqa bütün sosial və mədəni xüsusiyyətləri baxımından ermənilərlə türklər arasında heç bir fərq olmamışdır. Osmanlı imperiyasındakı azlıqların vəziyyəti obyektiv baxışla dəyərləndirilərsə, ermənilərin və hətta rumların dil və din azadlığına sahib olduqları, hərbi xidmətə çağırılmadıqları, ticarət haqqını əldə etdikləri, dövlətin üst səviyyəli postlarında yer tutduqlarını görmək olar. Tarixi materiallarda vaxtilə milləti-sadıka (sadiq millət) olaraq xarakterizə edilən ermənilərdən 29 paşa, 22 nazir, 33 millət vəkili, 7 səfir, 11 Baş konsul, 11 universitet müəllimi, 41 yüksək rütbəli məmur olduğu göstərilir [ətraflı məlumat üçün bax: 11, s. 121; 18, s. 137-152; 22, s. 9; 33]. Hətta Osmanlı döv-

lətində ermənilərə "əhli-kitab" statusu içərisində dini tolerantlıq da göstərilmiş, çox sayda erməni kilsəsinin açılmasına icazə verilmişdir (12, s. 156-158).

Göründüyü kimi, çoxsaylı uydurma və yalanların əksinə, ermənilər Osmanlı dövlətində maddi rifaha və xoş güzərana, iqtisadi və mədəni tərəqqiyə nail olmuşdular. Onlar bir sıra aparıcı amilləri əsas götürərək, xeyli sərvət toplamış və iqtisadi mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirmişdilər [8, s. 56].

Görkəmli türk tədqiqatçısı Əzmi Süslü yazır ki, hüquqi status içərisində mümtaz bir xalq durumunda olan ermənilər ilk günlərindən etibarən Osmanlı dövlətinin bütün nemətlərindən istifadə etmişdilər. Verilən imtiyazlar və hüquqlara müəyyən dövrlərdə yeniləri əlavə olunmuşdur. Bu da bir həqiqətdir ki, hər dövrdə Osmanlı dövlətində ermənilərə verilən imtiyazlar, onların sahib olduqları hüquqlar, sosial, iqtisadi və siyasi həyatda tutduqları mövqelər Osmanlı dövlətinin hüdudları xaricindəki ermənilərə və digər azlıqlara verilməmişdir (26, s. 12-13).

Başbakanlıq Osmanlı arxivindəki sənədlər və bir çox elmi araşdırmaların nəticələri də bu fikrə şərik çıxır ki, XVIII-XIX əsrlərdə Osmanlı iqtisadiyyatında ermənilər olduqca üstün mövqelərə malik olmuşlar (6; 7).

Belə bir vəziyyətdə Osmanlının ermənilərə soyqırımı tətbiq etdiyi şəklində önə sürülən iddiaların əsassız olduğu ortaya çıxır. Erməni iddialarının əksinə soyqırımına məruz qalan onlar deyil, türklər olmuşdular. Türkiyənin "Hərbi Tarix və Strateji Etüd Dairəsi Başqanlığı Arxivi"nin (Askeri Tarih ve Stratejik Etüt Dairesi Başkanlığı Arşivi – ATASE) sənədlərində qeyd olunan məlumatlara görə, erməni kilsəsi və təşkilatlarının da bilavasitə dəstəyi ilə türklərə qarşı soyqırımı gerçəkləşdirilmişdir [1, s. 1; 2, s. 33; 3, s. 83; 4, s. 159].

Yenə eyni sənədlərə görə, türklərə qarşı genişmiqyaslı cinayətlər törədən Hınçaq, Daşnaksutyun və digər təşkilatlar Osmanlı Məclisindəki millət vəkilləri tərəfindən dəstəklənmişdi [2, s. 41].

Erməni tarixçisi Dikran Kevorkyan yazır ki, Osmanlı dövlətinin ermənilərə qarşı yaxşı niyyətini, müsəlmanların ermənilərə eyni vətənin övladları olaraq göstərdikləri qardaşlıq duyğularını istismar edən komitələr dövlətin təməlinə dinamit qoymaqdan, vətən xaini olmaqdan, iki xalq arasında kin və nifaq toxumları əkməkdən əl çəkməmişlər. Onlar hər fürsəti dəyərləndirmiş, məqsədlərinə çatmaq üçün hər yola baş vurmuşlar. Xüsusilə bu yolda ruhani liderlərindən, müəllimlərdən, əli qələm tutanlardan öz niyyətlərinin həyata keçirilməsində istifadə etmişlər [19, s. 245].

Ermənilərin təşkilatlanaraq silahlı dəstələr yaratdıqları sənədlərlə isbatlandığına görə, cərəyan edən hadisələrə birmənalı olaraq "soyqırımı" demək yerinə, ermənilərdən qaynaqlanan və onların başlatdığı "üsyan" və bu üsyana qarşı Osmanlı dövlətinin öz qanuni səlahiyyətlərindən istifadə edərək aldığı tədbirlər demək daha doğru bir ifadə olar. Dünya miqyasında dövlətlərin bu cür tədbirlər aldığına dair çoxlu nümunələr mövcuddur. Məsələn, 1939-40-cı illərdə Fransa

hökuməti Almaniyanın sərhəd bölgələrində yaşayan elzasları Fransanın cənub-qərbində yerləşən Dordoqnaya köçürmüşdü. Eyni şəkildə Amerikan hökuməti də Yaponiyanın gerçəkləşdirdiyi Pörl Harbur hücumundan sonra yaponmənşəli amerikan vətəndaşlarını Pasifikdən alaraq Missisipi vadisinə köçürmüşdü [14, s. 42].

Təhcir Qanunu çərçivəsində ermənilərin maddi baxımdan zərər görmələri və geridə qalan mallarının tam dəyəri hesablanaraq sahiblərinə verilmələrinə dair dövlət tərəfindən alınan tədbirlər soyqırımı iddialarını tarixi faktlarla çürüdən dəlillərdir [bu barədə bax: 5, s. 129]. Təhcir məsələsini soyqırımı olaraq dünya dövlətlərinin müzakirəsinə çıxaran ermənilər köç vaxtı ölən insanların sayını da mübaliğəli olaraq artırmaqdadırlar. Onlar bu rəqəmi 1,5 milyon olaraq göstərirlər. Halbuki o tarixlərdə Osmanlı imperiyasının sərhədləri daxilində bu qədər erməni yaşamırdı. Amerikalı tarixçi Prof. Dr. Stanford Şav həm Osmanlı, həm qərb mənbələrinə istinad edərək, 1890-cı ildə Osmanlı dövlətində 12.585.950 müsəlmana qarşılıq 1.139.053 ermənin, 1897-ci ildə 14.111.945 müsəlmana qarşılıq 1.162.853 ermənin, 1906-cı ildə 15.518.478 müsəlmana qarşılıq 1.140.563 ermənin və 1914-cü ildə isə 15.044.846 müsəlmana qarşılıq 1.229.007 ermənin yaşadığı haqda çox maraqlı məlumatlar ortaya qoyur [30, s. 330].

Göründüyü kimi, XIX əsrin sonları, XX əsrin əvvəllərində Osmanlı dövlətinin sərhədləri içərisində yaşayan ermənilərin sayı 1 milyon ilə təxminən 1,3 milyon arasında dəyişir. Digər bir tərəfdən, tarixi mənbələrdə təhcir qərarına əsasən 700 min ermənin köçürülməsi ilə bağlı məlumatlar göstərilir (31, s. 300; 32, s. 34; 33, s. 25). Görkəmli türk tarixçisi Kamuran Gürün qeyd edir ki, ermənilər tərəfindən göstərilən ölü sayısı 1915-ci ildə 300 mindən başlamış, 1980-ci illərdə 2 milyona çatmışdır. İllər keçdikcə bir millətin əhalisinin artması normal bir hadisədir, lakin müəyyən bir tarixdə ölmüş insanların zaman keçdikcə sayının artması isə çox qəribə bir icaddır [15, s. 223].

Müqayisəli təhlillər əsasında ortaya çıxan məqam budur ki, 1,5 milyon ermənin soyqırımına uğradığı şəklində ortaya atılan iddialar heç bir reallığı əks etdirmir. Tərəfsiz olaraq məsələyə yanaşılarsa, ortada soyqırımı kimi bir hadisənin baş vermədiyi açıqca görülə bilər. Əgər bu qədər insan kütləvi qırğına məruz qalıbsa, o zaman Birinci Dünya müharibəsi sonunda sayları 1 milyonu keçən erməni əhalisi necə sağ qalmışdır? Eyni zamanda 1915-ci ildən sonra Fransa, ABŞ, İngiltərə, Rusiya, İran, Suriya və s. ölkələrə gedən ermənilərin saylarının o ölkələrin əhalisinin qeydiyyata alınması ilə bağlı statistik materialları əsasında öyrənilməsi və hal-hazırda bu ölkələrdə yaşayan ermənilərin sayının təsbit edilməsi iddia edilən soyqırımının törədilib-törədilmədiyini ortaya qoyur. Burada diqqəti çəkən başqa bir məqam da var. Əgər iddia edildiyi kimi, 1,5 milyon erməni öldürülübsə, onlar harada dəfn olunublar? Kütləvi məzarlıq haradadır? Soyqırımı kimi ağır ittihamlarla çıxış edən ermənilər sübut üçün kütləvi məzarlığı göstərmək məcburiyyətindədirlər.

Köç əsnasında insanların müxtəlif xəstəliklərdən ölməsi mümkündür. Bu inkaredilməz həqiqətdir, lakin bu hadisələri soyqırımı adlandırmaq mümkündürmü? Digər bir tərəfdən, Osmanlı dövlətinə qarşı üsyan və düşmənlərlə əməkdaşlıq edən erməni fəaliyyətləri qarşısında hökumət hansı addımı atmalıydı? Bu dövlətin sərhədləri daxilində yaşamasına baxmayaraq, xəyanət edənlərə qarşı Osmanlının həm hüquqi baxımdan, həm də təhlükəsizliyi qorumaq düşüncəsi ilə belə bir yola baş vurması qanun çərçivəsində deyildirmi?

Amerikalı tarixçilər Castin və Karolin Makkarti qardaşları yazırlar ki, ermənilərin bəzi bölgələrdən köçürülməsinə yönəlik Osmanlı hökumətinin niyyəti xarici qüvvələrlə əməkdaşlıq içərisində olan ermənilərin üsyan hərəkətlərinin təhlükəli səviyyəyə çatmasına mane olmaqdı. Bu niyyət tamamilə hərbi təhlükəsizlik səbəbindən qaynaqlanırdı. Ermənilərin strateji bölgələrdəki varlığını dövlət üçün təhlükə olaraq dəyərləndirən hökumət onları bu bölgələrdən uzaqlaşdırmağı qərara aldı [29, s. 52].

Hadisələri sırf obyektivlik prizmasından dəyərləndirək: Hər iki tərəfdən də ölənlər və öldürülənlər olmuş, hər iki tərəf də ağır nəticələrlə qarşılaşmışdır. Amma bu soyqırımı deyil, müharibə idi. Eyni zamanda məsələnin dərinliyinə endikcə, köçürülmə hadisəsinə rəvac verən amilin Osmanlı dövləti deyil, bilavasitə erməni komitələri və təşkilatları olduqları açıqca görülə bilər. Əgər onların başlatdıqları üsyanlar və Osmanlı dövlətinin parçalanmasına yönəlik xarici qüvvələrlə əməkdaşlıq fəaliyyətləri olmasaydı, heç şübhəsiz ki, təhcir (köç) hadisəsinə ehtiyac qalmayacaqdı.

Osmanlı dövlətinin ermənilərin düşmənlərlə əməkdaşlıq çərçivəsində üsyan və qırğın hərəkətlərinin artması səbəbiylə aldığı tədbirlər və bu tədbirlərin tətbiq olunması əsnasında müxtəlif səbəblərdən dolayı meydana gələn itkilər ermənilər tərəfindən dünya dövlətlərinin diqqətini çəkmək üçün təbliğat silahı olaraq istifadə edildi. Bugünkü siyasət də eyni istiqamətdə aparılmaqdadır.

Əsas məqsəd qondarma erməni soyqırımını bütün dünya və beynəlxalq təşkilatların müzakirəsinə çıxararaq tanıtdırmaq (– ki, müəyyən mənada buna nail olublar), sonrakı mərhələlərdə bunu Türkiyəyə də qəbul etdirərək təzminat və torpaq tələblərini qanuniləşdirməkdir.

Bir məsələni də xüsusilə qeyd etmək lazımdır ki, ermənilər bu iddiaları gündəmə gətirərkən qondarma erməni soyqırımı ilə yəhudi soyqırımı, daha doğrusu, xolokost (holocaust) arasında oxşarlıq yaratmaq və paralellik aparmaq strategiyasını əsas götürürlər. 1915-ci ildə baş verən hadisələri "pre-xolokost" (pre-holocaust), yəni "xolokost öncəsi" adlandıran ermənilərin iddialarına görə, nasistlər tərəfindən yəhudilərə tətbiq edilən soyqırımı ilə ermənilərə tətbiq edilən soyqırımı arasında heç bir fərq yoxdur. Hətta türklərin bu cinayətlərindən cəsarət alan nasistlərin məhz bu sayədə yəhudiləri soyqırımına uğratdıqları önə sürülür [37].

Bəzi nüfuzlu kəsimlər guya Hitler tərəfindən söylənən "artıq kim erməni soyqırımını xatırlayır ki?" sözlərindən hər fürsətdə istifadə etməkdə [28, s. 115]

və Hitlerin bu soyqırımı fikrini türklərdən mənimsədiyini önə sürməkdə, eyni zamanda dünya ictimaiyyətinə faşistlər tərəfindən törədilən yəhudi soyqırımı ilə qondarma erməni soyqırımı arasında əlaqə qurmaq məqsədilə "türklərin gizli yazışmaları" adı altında ermənilərin vəhşicəsinə öldürülmələrini əmr edən saxta sənədlər təqdim etməkdədirlər [17, s. 62]. Həqiqətdə isə bu sənədlərin və Hitlerə aid edilən sözlərin heç bir əsası yoxdur.

Yəhudi xolokostu ilə paralellik aparmaq strategiyası erməni ideologiyasının tərkib hissəsidir. Lakin İsrail və yəhudi lobbisi təkidli və sistematik olaraq 1915-ci il hadisələri ilə yəhudi xolokostu arasında ermənilər tərəfindən yaradılmaq istənilən oxşarlığı və paralelliyi rədd edir. Ermənilərin belə bir strategiyaya baş vurmalarındakı əsas məqsədi yəhudilərin əldə etdikləri qazanclardan onların da yararlanmaq istəmələridir. Halbuki yəhudi xolokostu ilə qondarma erməni soyqırımı arasında heç bir oxşarlıq yoxdur. Yəhudi xolokostu təhlil edildiyi zaman ortaya çıxan ən böyük faktor əsrlər boyunca yəhudilərə bəslənilən nifrətdir ki, bu da antisemitizmin meydana gəlməsinə səbəb olmuşdur. Digər bir ifadə ilə, əsrlərdən bəri davam edən kin və nifrət duyğuları müəyyən bir dövrdə soyqırımına çevrilmişdir. Halbuki erməni problemi incələndiyində, türklər tərəfindən ermənilərə qarşı heç bir kin və nifrət duyğularının olmadığı ortaya çıxır.

İkinci bir tərəfdən, ermənilərdən fərqli olaraq yəhudi xolokostunda silahlı bir üsyan olmamış, yəhudilərlə toplum içərisindəki qruplar arasında silahlı münaqişələr cərəyan etməmişdir. Bütün cinayətlər Nasist Almaniyasının təktərəfli şiddət siyasəti şəklində həyata keçirilmişdir. Eyni zamanda ermənilərdən fərqli olaraq yəhudilərə heç bir dövlət tərəfindən siyasi və hərbi baxımdan dəstək də verilməmişdir. Halbuki 1870-ci illərdən etibarən ermənilər silahlanmış və bu silahlı üsyanlar böyük güclər tərəfindən dəstəklənmişdi.

Üçüncüsü, yəhudilər bir bölgədən digər bir bölgəyə köçürülməyə də məruz qalmamış, sırf məhv edilmələri planlaşdırılmışdır. Ancaq yəhudilərdən fərqli olaraq, ermənilərin sistematik şəkildə öldürülmələri planlanmamış, dövlətin təhlükəsizliyi naminə Osmanlının sərhədləri daxilində bir yerdən başqa bir yerə köçürülmüşlər.

Dördüncüsü, yenə də ermənilərdən fərqli olaraq yəhudilər ilə alman dövləti arasında olduqca güc fərqi də vardı. Yəhudilər gizli yerlərdə silahlanaraq qruplar meydana gətirməmişdilər.

Dolayısı ilə aparılan tarixi müqayisəli təhlillər onu deməyə əsas verir ki, 1915-ci il hadisələri ilə yəhudi xolokostu arasında heç bir oxşarlıq mövcud deyil. Belə bir paralelliyin aparılması müəyyən siyasi vasitələrə xidmət edir ki, bu da "Böyük Ermənistan" ideologiyası ilə birbaşa əlaqədardır.

Soyqırımı ilə bağlı ortaya atılan iddialar olduqca siyasi əhəmiyyət kəsb edir. Məsələnin siyasi mahiyyətini dərk edən hər iki tərəf qarşısındakını susdurmağa və haqlı olduğunu isbat etməyə çalışır. Tərəflər arasındakı mübahisələrin əhatə dairəsi o qədər genişdir ki, hətta dövlətlər bu məsələni öz əllərində siyasi alətə çeviriblər. Fransa kimi bir dövlət Türkiyədən Avropa Birliyinə daxil

olması üçün birinci vacib şərt olaraq soyqırımı hadisələrindən dolayı üzr istəməsini tələb edir. Bu məsələ Fransanın sabiq prezidenti Nikola Sarkozinin *"Etiraflarım"* adlı kitabında çox açıq şəkildə öz təsdiqini tapmışdır: *"...Türkiyənin Avropa İttifaqına daxil olması istiqamətində yeritdiyi siyasət və göstərdiyi canfəşanlıq şəxsən mənə çox tərs gəlir. Bu fikrin altında yatan strateji hesablamaları görür və başa düşürəm... Türkiyə əgər Avropa İttifaqına daxil olmaqda qərarlıdırsa, mütləq və mütləq erməni soyqırımını tanımalıdır..."* [24, s. 192].

ABŞ da rəsmi dövlət səviyyəsində məsələyə oxşar prizmadan yanaşaraq, 1915-ci ildə baş vermiş hadisələrdən və ermənilərin öldürülməsindən türklərin məsuliyyət daşıdıqlarını qeyd edir, lakin "soyqırımı" ifadəsini işlətmir. Səbəb olaraq ABŞ-ın Türkiyədə strateji mənfəətlərinin olması kimi göstərilir.

Şübhəsiz ki, məsələyə dini aspektdən yanaşaraq sivilizasiyaların dialoqu yerinə toqquşmaları daha da qızışdıran Vatikanın da bu məsələdə rolu az deyil. Tarixdə baş vermiş səlib yürüşlərinin əsas təşkilatçısı kimi Vatikan bu gün də bütün dünya xristianlarını türklərə qarşı səfərbərliyə səsləməkdə və XX əsrin ilk soyqırımı kimi xristian ermənilərin türklər tərəfindən soyqırımına məruz qaldıqlarını bəyan etməkdədir. Bunu Roma Katolik Kilsəsinin başçısı, bütün dünya katoliklərinin lideri I Fransiskonun 12 aprel 2015-ci il tarixdə qondarma "erməni soyqırımı qurbanlarının xatirəsi"nə həsr olunmuş təntənəli liturgiyada söyləmiş olduğu "XX əsrin ilk soyqırımına ermənilər öz milli və dini mənsubiyyətlərinə görə məruz qalıblar" şəklindəki ifadələri də təsdiqləyir.

Roma Papasının aşağıdakı sözlərinə xüsusilə diqqət yetirmək lazımdır: *"Ermənilərin məruz qaldığı dəhşəti unutmaq olmaz. Yaddaş olmayan yerdə yaralar sağalmamış qalır. Cinayəti ört-basdır etmək isə yaranı sağalmağa qoymur"* [35].

Müxtəlif öyüd-nəsihətlərlə çıxış edən Papa nədənsə orta əsrlər dövründə sırf dini səbəblərdən xristianlar tərəfindən "Tanrının qatilləri" kimi adlandırılan yəhudilərin uğramış olduqları cinayətləri, Amerikada qızıldərililərin məruz qaldıqları kütləvi qırğınları, fransızlar tərəfindən 5 milyon ərəbin qətli ilə nəticələnən Əlcəzairdəki soyqırımını, italyanlar tərəfindən bədəvi ərəblərin qətliamlara məruz qalmalarını, XX əsrin sonuncu soyqırımı olan Xocalı faciəsini və s. bunun kimi cinayətləri görməzdən gəlir.

Papanın açıqlamalarından ilham alan Avropa Palamenti də aprelin 15-də keçirilən iclasında "erməni soyqırımı"nın tanınması ilə bağlı sənəd qəbul edib və Avropa Birliyi ölkələrini də eyni addımı atmağa çağırıb. Üstəlik Türkiyəni də 1915-ci il olaylarını "soyqırımı" kimi tanımağa dəvət edib. Həmin sənəddə ermənilərin 1915-1917-ci illər arasında yaşadıqları "faciəvi hadisələr"in Birləşmiş Millətlər Təşkilatının 9 dekabr 1948-ci il tarixli "Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması Sözləşməsi"nin soyqırımı tərifi içərisinə daxil olduğu fikri yer alır [36].

Nümunələrin sayını artırmaq mümkündür. Məhz bunun nəticəsidir ki, hər il müntəzəm olaraq çox sayda ölkələrin gündəminə gətirilən soyqırımı iddiala-

rından bəzi dövlətlər Türkiyəyə qarşı təzyiq vasitəsi kimi istifadə edirlər. Bunun arxasında dini və siyasi amillər, daha dəqiq bir ifadə ilə desək, sivilizasiyaların toqquşması faktı dayanır. Halbuki Avropa Parlamentinin üzvləri, Vatikan 1915-ci il olaylarını araşdırmaqdansa, öz tarixləri ilə üzləşsinlər, Birinci və İkinci Dünya müharibəsi kimi qorxunc fəlakətlərdəki rol və məsuliyyətlərini xatırlasınlar. Eyni zamanda məsum və zavallı kimi görünən Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və Xocalıda törətdiyi soyqırımı gerçəyini görsünlər. Ortaya çıxan məqam budur ki, bu kimi məsələlərə və reallıqlara obyektivlik müstəvisində deyil, obyektivlik adından çıxış edən böyük dövlətlərin maraqları müstəvisində baxılır və qərar verilir.

ƏDƏBİYYAT

1. Genelkurmay Askeri Tarih ve Stratejik Etüd (ATASE) Başkanlığı. ATBD: mart 1983, sayı 83, belge № 1901.
2. ATASE Başkanlığı. ATBD: mart 1983, sayı 83, belge № 1903.
3. ATASE Başkanlığı. ATBD: mart 1983, sayı 83, belge № 1906.
4. ATASE Başkanlığı. ATBD: mart 1983, sayı 83, belge № 1923.
5. ATASE Başkanlığı, Askeri Tarih Belgeleri Dergisi (ATBD), Ekim 1985, belge № 202.
6. Türkiye Cumhuriyeti Başbakanlık Osmanlı Arşivi – T.C. BOA: dosya. Yıldız Sadaret Hususi, dosya № 20, karton № 1311, iç № 1355/1853, 283/31.
7. T.C. BOA: Yıldız Evrak, zarf № 156, iç sayısı: 24.
8. Musayev İ. Erməni genosidi yoxsa türk-müsəlman soyqırımı. Bakı: Bakı Universiteti nəşriyyatı, 2001.
9. Şıxəliyev E. Ermənistan-Azərbaycan münaqişəsi sivilizasiyalararası münasibətlər kontekstində. Bakı: Elm və təhsil, 2011.
10. Şıxəliyev E. Ermənilərin “din” strategiyasının əsas istiqamətləri // Strateji təhlil. Strateji Araşdırmalar Mərkəzi, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, beynəlxalq münasibətlərə dair analitik jurnal, 2014, № 7-8, s. 65-81.
11. Yücel A.A. Ermeni mezalimi ve soykırım iddialarına ilişkin kavram karmaşası / Osmanlı’dan günümüze ermeni sorunu / Editör: Hasan Celal Güzel. Ankara: Yeni Türkiye yayınları, 2000, s. 121-128.
12. Ercan Y. Osmanlı Devleti’nde müslüman olmayan topuluklar (millet sistemi) / Osmanlı’dan günümüze ermeni sorunu / Editör: Hasan Celal Güzel. Ankara: Yeni Türkiye yayınları, 2000, s. 145-161.
13. Ermeniler: Sürgün ve göç / Yayına hazırlayanlar: Hikmet Özdemir vd. Ankara: 2003.
14. Feigl E. Ermeni mitomanyası. İstanbul, 2007.
15. Gürün K. Ermeni dosyası. Ankara: Türk Tarih Kurumu, 1985.
16. İlter E. Ermeni kilisesi ve terör. Ankara: Ankara Üniversitesi Osmanlı

Tarihi Araştırma və Uygulama Merkezi yayınları, 1996.
17. Kaya İ. Ermenilerin yahudi soykırımıyla benzerlik kurma stratejisi // 2023 Dergisi, 2002, № 12, s. 62-65.
18. Kırmızı A. Son dönem Osmanlı bürokrasisinde akraba ermeniler // Ermeni Araştırmaları dergisi, 2003, c. 2, № 8, s. 137-152.
19. Kevorkyan D. Ermeni meselesinde tehcire amil olan sebepler / Tarih boyunca türklerin ermeni toplumu ile ilişkileri. Erzurum, 8-12 Ekim, 1984.
20. Lewy Guenter. Ermeni sorununu yeniden tartışmak // Ermeni Araştırmaları Dergisi, 2005, № 18, s. 45-59.
21. Metel A.B. Ermeni mezalimi ve gerçekler. İstanbul: Yeni Batı Trakya Dergisi yayınları, 4. baskı, seri № 6.
22. Özkan Z. Tarihsel akış içerisinde terörden poltikaya ermeni meselesi. İstanbul: Er Ofset San. ve Tic. AŞ, 2001.
23. Palabıyık M.S. 1915 olaylarını anlamak: Türkler ve ermeniler. İstanbul: Beta yayınları, 2015.
24. Sarkozy N. İtiraflarım. İstanbul: Karakutu yayınları, 2008.
25. Sönmezoğlu F. Uluslararası ilişkiler sözlüğü. İstanbul: DER yayınları, 2000.
26. Süslü A. Ermeniler ve 1915 tehcir olayı. Van: Yüzüncü Yıl Üniversitesi Rektörlüğü, 1990.
27. Uras E. Tarihte ermeniler ve ermeni meselesi. İstanbul: Belge yayınları, 1987.
28. Lowry Heath W. The U. S. Congress and Adolf Hitler on the Armenians // Institute of Turkish Studies, Washington, D.C.: Pre-Print from: Political Communication and Persuasion, 1985, v. 3, № 2, p. 111-139.
29. McCarty J., McCarty C. Turks and Armenians, a manual on the Armenian Question, Washington, 1989.
30. Shaw S. The Ottoman census system and population (1831-1914) // International Journal of Middle East Studies, 1978, v. 9, № 3, pp. 325-338.
31. Sonyel S.R. The Ottoman Armenians, victims of great power diplomacy. London, 1987.
32. Sonyel S.R. Falsification and disinformation, negative factors in turco-Armenian relations. Ankara, 2000.
33. The Armenians Issue in nine questions and answers. Ankara, 1982.
34. Astoyan A. Osmanlı idari sisteminde ermeniler, mühtedi ermeni görevlileri. http://akunq.net/tr/?p=14355
35. Papa qondarma soyqırımı belə tanıdı. http://metbuat.az/news/88714/papa-qondarma-soyqirim-i-bele-tanidi-foto.html
36. Türkiyəyə zərbə: Avropa Parlamenti "ermənі soyqırımı" tanıdı. http://www.azadxeber.az/Turkiyeye-zerbe-Avropa-Parlamenti-"ermeni-soyqirimi"-tanidi_h44610.html
37. Sedat L. Armenia's Jewish specticism and its impact on Armenia-Israel relations. http://www.eraren.org/index.php?Page=DergiIcerik&IcerikNo=279

Эмин Шихалиев

ЛОЖЬ ГЕНОЦИДА XX ВЕКА: ВЫДУМКА ИЛИ РЕАЛЬНОСТЬ?

На протяжении долгих лет армянская пропаганда ведет систематическую кампанию, внушая мировой общественности, что в 1915 году Османская империя устроила геноцид армян. Ежегодно 24 апреля этот вопрос вносится в повестку дня парламентов разных стран, включая и великие державы. В действительности же, речь идет о нормальных и естественных для любого государства мерах по защите своего населения перед лицом вероятных вооруженных выступлений этнических группировок, причем в обстановке военного времени и непосредственно в зоне боевых действий. Армянская же пропаганда преднамеренно искажает исторические события с целью добиться признания пресловутого «геноцида» на международной арене и присуждения выплаты Турцией соответствующей компенсации, а если повезет, то и территориальных приобретений за счет этой страны.

Ключевые слова: *24 апреля 1915 года, претензии армян на геноцид, армянские комитеты, Османская империя, отселение.*

Emin Shikhaliyev

THE GENOCIDE LIE OF THE XX CENTURY: FICTION OR REALITY?

Every year in April, the Armenian lobby worldwide launches a new round of propaganda about the so-called “Armenian genocide” in an attempt to achieve its recognition by the parliaments of the Great Powers and influential international organizations. In fact, the events of 1915 represent protective measures of the Ottoman state to neutralize the anti-state activities of the Armenian committees and extremist groups that openly joined forces with hostile states in the midst of World War I, organized armed rebellions directly in the front line zone and committed pogroms against the civil population. The goal of Armenian propaganda about the “genocide” is to achieve the payment of compensation by Turkey and territorial acquisitions in the maximum option.

Key words: *events of 24 April 1915, Armenians’ genocide claims, Armenian committees, Ottoman empire, resettlement.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

ABDULLA MUSTAFAYEV,
MƏMMƏD ƏLİYEV
Naxçıvan Dövlət Universiteti

XX ƏSRİN SONLARINDA QƏRBİ AZƏRBAYCANDAN AZƏRBAYCANLILARIN SON DEPORTASİYASI

XX əsrin əvvəllərindən başlayaraq Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində etnik təmizləmə siyasəti həyata keçirən ermənilər bu prosesi sonrakı illərdə də davam etdirərək azərbaycanlıları doğma torpaqlarından didərgin salmışlar. 1948-1953-cü illərdə dövlət səviyyəsində azərbaycanlıları deportasiyaya məruz qoyan Ermənistan rəhbərliyi, nəhayət XX əsrin sonlarında azərbaycanlıların son deportasiyasını reallaşdıraraq monoetnik dövlət yaratdılar.

Açar sözlər: *Böyük Ermənistan, Daşnaksütyun, Krunk, Qarabağ Komitəsi, deportasiya, Xalq Deputatları Soveti, monoetnik dövlət.*

1980-ci illərin sonunda Ermənistan SSR ərazisində azəri türklərinin başına gətirilən müsibətlər bəşər tarixinin ən qanlı səhifələrindən birini təşkil edir. XX əsrin sonlarında beynəlxalq aləmdə yaranmış tarixi şəraitdən istifadə edən ermənilər Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağa qarşı ərazi iddiaları qaldırdılar. Planlarını reallaşdırmaq üçün 1987-ci ilin oktyabr ayından başlayaraq Yerevanda DQMV-nin Ermənistana birləşdirilməsi tələbi ilə mitinqlər keçirilməyə başlandı. Ermənistanın millətçi rəhbərliyi "Daşnaksutyun" partiyasının "türksüz Ermənistan" proqramını həyata keçirməyə başladı.

1988-ci il fevralın 13-də Azərbaycanın DQMV-nin mərkəzi Xankəndində, fevralın 19-da isə Yerevanda mitinqlərin yeni dalğası başlandı [6, s. 107]. Mitinq iştirakçıları "Ermənistanı türklərdən təmizləməli!", "Ermənistan yalnız ermənilər üçündür!" və s. kimi şüarlar irəli sürərək Ermənistanda olan tarixi abidələrimizi, o cümlədən Yerevanda salamat qalmış yeganə məscidi və C.Cabbarlı adına İrəvan dram teatrını yandırdılar. Bu hadisələrə etiraz edən azərbaycanlıların evlərinə od vuruldu. Ermənistanda, Dağlıq Qarabağda yaşayan ermənilərin "acınacaqlı vəziyyətdə" olması barədə kütləvi informasiya vasitələrində geniş təbliğat aparılır, Dağlıq Qarabağın Azərbaycandan alınıb Ermənistana verilməsi tələb edilirdi. Erməni millətçiləri üçün Ermənistanda ən münbit rayonlarda yaşayan 250 mindən artıq azərbaycanlını öz tarixi-etnik torpaqlarından qovub çıxarmaq Qarabağ məsələsini həll etmək qədər vacib idi.

1988-ci ildə hadisələr başlayan zaman Azərbaycan rəhbərliyinin Ermənistanda yaşayan soydaşlarımızın təhlükəsizliyinin qorunmasına dair heç bir tədbir görməməsindən istifadə edən ermənilər əhali arasında vahimə və qorxu yaradaraq onları zorla deportasiya etməyə başladılar. Ermənistanda bu qanlı divantutmanın hazırlandığı dövrdə azərbaycanlıların ölkənin ali hakimiyyət orqanlarına saysız-hesabsız müraciətləri laqeydliklə qarşılandı. Azərbaycanlıların taleyi ilə cinayətkar erməni qrupları istədikləri kimi davrandılar və onlar erməni daşnaklarının cinayətkar hərəkətlərinin qurbanına çevrildilər.

Ermənistan KP MK, Ermənistan hökuməti, "Krunk" və "Qarabağ" kimi faşist komitələri, Eçmiədzin kilsəsinin SSRİ-dəki və ondan kənardakı nüfuzlu nümayəndələri, həmçinin erməni ekstremizminin milli ədavət və düşmənçilik toxumu səpən Z.Balayan, V.Hambarsumyan, S.Kapitukyan, S.Xanzadyan və başqaları kimi ideya rəhbərləri Moskvadakı himayədarlarının yaxından köməyi ilə qanlı vəhşiliklər törətdilər. Məhz həmin qüvvələrin çoxdan və diqqətlə hazırladığı plan üzrə Ermənistanda yaşayan azərbaycanlılar öz doğma torpaqlarından qovulmağa başladılar.

İlk növbədə azərbaycanlılara qarşı təzyiq üsullarından istifadə edərək kəndlərə gündəlik ərzaq məhsullarının verilməsini məhdudlaşdırdılar. Təhqir edilən, döyülən və qarət edilən azərbaycanlılar arasında vahimə və qorxu yaradaraq onların qaçmasına çalışırdılar. Azərbaycanlıların daha sıx yaşadıqları rayonlarda rəhbər vəzifələrə ermənilər təyin edilir, rəhbər vəzifədə olan azərbaycanlıları isə hər cür bəhanə və böhtanla vəzifədən uzaqlaşdırırdılar. Ermənistan KP MK konfrans belə keçirmədən Krasnoselsk rayonunun 1-ci katibi Ə.Həsənovu, Vardenis rayonun 1-ci katibi Y.Rzayevi məhz azərbaycanlı olduqlarına görə vəzifələrindən azad etmişdir [5, s. 41]. Kənd təsərrüfatında azərbaycanlıların aparıcı mövqeyinə və respublikada kənd təsərrüfatı sahəsində onlarca yüksək ixtisaslı azərbaycanlı kadr olmasına baxmayaraq respublika Dövlət Aqrar Sənaye Komitəsində bir nəfər də olsun azərbaycanlı yox idi. Azərbaycanlılar yaşadıqları yerlərdə Bakı radio verilişlərinə qulaq asmaq imkanından məhrum edilmişdilər. Ermənistanın bütün kütləvi informasiya vasitələrində, bədii ədəbiyyatda azərbaycanlılara qarşı düşmənçilik təbliğatı aparılır, millətçilik əhvalruhiyyəsi şiddətlənirdi. Ermənistanda Azərbaycan dili təqib olunur, bu dildə oxuyub yazanlar təhqirlərə məruz qalırdılar.

Öz alçaq məqsədlərini həyata keçirmək üçün rayonlara təhkim edilmiş rəhbər işçilərə 1988-ci ilin dekabr ayına qədər Ermənistanı türklərdən təmizləmək vəzifəsi tapşırılmışdı [3, s. 40]. Məsələn, akademik Viktor Hambarsumyan əhalisinin 60%-dən çoxunu azərbaycanlıların təşkil etdiyi Vardeniş (Basarkeçər) rayonuna təhkim edilmişdi [5, s. 41]. O, rayonda yubiley adı altında gizli yığıncaqlar keçirərək ermənilər azərbaycanlıları qovmağa çağırırdı.

Ermənistanın rəhbər işçiləri rayon və kəndlərə gələrək azərbaycanlılardan çıxıb getməyi tələb edirdilər. Azərbaycanlılar inzibati orqanların işçiləri tərəfindən qovulub çıxarılır, yollarda isə silahlı quldur dəstələri onlara hücum edə-

rək öldürürdülər. Bu cür hallar Ararat, Masis, Yexeqnadzor, Quqark, Vardenis və s. rayonlarda görünməmiş qəddarlıqla həyata keçirilirdi. 1988-ci ilin yanvar-fevral aylarında Ermənistandan qaçqınların ilk axını başladı və qısa müddət ərzində onların sayı 4 min nəfərə çatdı [9, s. 61].

Azərbaycanda bilavasitə ermənilər tərəfindən törədilmiş Sumqayıt hadisələrindən sonra Ermənistanda vəziyyət daha amansız şəkil aldı. Sumqayıt hadisələri Ermənistandan azərbaycanlıları tez bir zamanda son nəfərinədək zorla, ölümlə qovmaq üçün hazırlanmış və "müvəffəqiyyətlə" həyata keçirilmiş ssenarinin əsas tərkib hissələrindən idi.

Mart ayında hadisələr daha kəskin xarakter aldı. Ermənilər azərbaycanlıları qovmaqla kifayətlənmir, yeri düşdükcə öldürürdülər. İş o yerə çatmışdı ki, nəinki Ermənistanda, hətta Gürcüstanın Boqdanovka və Axalkələk rayonlarında yaşayan ermənilər Amasiya rayonunun azərbaycanlılar yaşayan kəndlərinə silahlı basqınlar edirdilər [6, s. 108].

1988-ci il mart ayının 10-da Yerevanın cənubunda yerləşən Mehmandar kəndinin 4 nəfər sakini ermənilər tərəfindən öldürüldü [9, s. 61]. Məhv olmaq təhlükəsindən canlarını birtəhər qurtaran Vedibasar, Zəngibasar, Dərələyəz camaatı Şərura, Naxçıvana və Ordubada gedirdilər. Mərkəz azərbaycanlıların sıx yaşadıqları rayonlarda daxili xidmət qoşunlarını, bölmələrini yerləşdirsə də, bu bölmələrin işi yalnız müşahidə etməkdən ibarət idi.

Hadisələrin daha kəskin xarakter aldığı bir dövrdə Ermənistan SSR Ali Soveti "Qarabağ" komitəsinin, Azərbaycan SSR Ali Soveti isə "Krunk" təşkilatının fəaliyyətinin dayandırılması haqqında qərar qəbul etsələr də onlar kağız üzərində qaldı. Məhz həmin komitə və təşkilatın rəhbərliyi altında martın 25-dən başlayaraq Ararat rayonunun Vedi, Şirazlı, Xalisa, Şidli kəndlərinə silahlı basqınlar edilirdi. Həmin basqınlar nəticəsində bir nəfər öldürülmüş, onlarla adam yaralanmış, yüzlərlə ev yandırılmışdı [9, s. 61]. May ayında Ermənistandan qovulanların sayı artıq 80 min nəfərdən artıq idi. Əhali quru canlarını götürüb doğma ocaqlarını tərk edirdi. May ayının 25-də azərbaycanlıların daha sıx yaşadıqları Vedibasar və Zəngibasarda təqiblər daha da gücləndi. May ayının 12-dən 13-ə keçən gecə Şirazlı kəndinə ətraf kəndlərdən mindən artıq erməni hücum edərək kəndi talan etdilər. Bir gecədə 64 ev dağıdıldı, 330 ailənin əmlakı talan edildi, 80-dən çox adama isə bədən xəsarəti yetirildi. Şirazlı kəndinin 3 mindən artıq əhalisi canlarını bir təhər qurtarıb qonşuluqda yerləşən Şidli kəndinə pənah apardı [8, s. 26]. May ayının 12-də Xalisa kəndini də səhərə kimi gülləyə tutub, evlərinə od vurdular. Hər iki kəndin əhalisi bütünlüklə Araz çayı kənarına, Sovet-Türkiyə sərhədinə toplaşdılar və 4 ay sərhəddə, açıq səma altında yaşadılar [9, s. 61]. Baş vermiş hadisələri olduğu kimi yerlərə çatdırmaq üçün ziyalılardan ibarət bir qrup Bakıya, digər qrup isə Moskvaya yollandı. Lakin nə Azərbaycan rəhbərliyindən, nə də mərkəzdən onların harayına səs verən olmadı.

May ayının 15-də Ermənistan MK-nın II-ci katibi Koçetkov və Ali Soveti sədrinin müavini Suren Harutunyan Vediyə gələrək, guya əhalini öz kəndlərinə qaytarmaq istədiklərin bildirmiş, digər tərəfdən yerli ermənileri öyrədərək azərbaycanlıların kəndə buraxılmamalarını təşkil etmişdilər. 4 ay sərhəddə yaşayan azərbaycanlılara Ermənistan respublikasından heç bir köməklik göstərilmədi.

İyunun 15-də İrəvanda Şaumyan adına sarayda keçirilən sessiyada 100 mindən artıq nümayişçinin tələbi və təzyiqi ilə Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana birləşdirilməsi barədə qərar qəbul etdi və Azərbaycan SSR Ali Sovetinə müraciət edildi [27, s. 85].

1988-ci il iyun ayının 17-də Azərbaycan SSR Ali Soveti "DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR-ə verilməsi haqqında DQMV XDS deputatlarının xahişi barəsində" qərar qəbul etdi [4, s. 82]. Qərarda DQMV-nin Azərbaycan SSR-in tərkibindən Ermənistan SSR tərkibinə verilməsinin qəbuledilməzliyi haqqında Azərbaycan SSR Ali Sovetinin Rəyasət heyətinin 1988-ci il 19 iyun tarixli qərarı bəyənildi və Ermənistan SSR Ali Sovetinin müraciətinin qəbuledilməz olduğu bildirildi.

Azərbaycan SSR Ali Sovetinin qəbul etdiyi qərardan sonra azğınlaşmış ermənilər yaxınlıqda yerləşən Masis rayonunun mərkəzinə, Zəngilər, Zəhmət, Dəmirçi, Dostluq, Nizami, Sarvanlar kəndlərinə basqınlar etdilər [6, s. 109]. 3 gün ərzində Masis rayonunda 40 ev yandırıldı, 480 ailə bir saat ərzində öz doğma yurdlarından çıxarıldı [6, s. 163].

1988-ci il iyun ayının 29-dan 30-a keçən gecə Ararat rayonunun Arazdəyən kənd sovetinin sədri bir qrup ermənini başına toplayaraq azərbaycanlı əhaliyə qarşı silahlardan atəş açmışdılar [10, s. 210]. Onu da qeyd etmək lazımdır ki, bütün bu hadisələr Zaqafqaziya Hərbi Dairəsinin xüsusi sərəncamı ilə yaradılmış və vəzifələri milli zəmində baş verə biləcək münaqişələrin qarşısını almaqdan ibarət olan əsgər və zabitlərin gözləri qarşısında baş verirdi. Lakin postlarda dayanan əsgər və zabitlərin tərkibi erməni və ruslardan ibarət olduğundan, onlar da hər yerdə daşnaklarla əlbir olaraq azərbaycanlılara qarşı qəddarlıq edir və onları doğma ocaqlarından qovurdular.

1988-ci il iyulun 18-də SSRİ Ali Soveti Rəyasət heyətinin iclası oldu. Qorbaçovun rəhbərliyi ilə keçirilən bu iclasda Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinin DQ haqqında qəbul etdikləri qərarlar müzakirə olundu. Qəbul edilmiş qərarda respublikalararası sərhədlərin dəyişdirilməsinin yolverilməz hesab edilməsinə baxmayaraq, yenə də hər şey kağız üzərində qaldı.

Erməni millətçiləri mərkəzin qərarını gözləmədən Ermənistan SSR Ali Sovetinin sessiyasını çağırmağa və həmin sessiyada DQ-nin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etməyə nail oldular [8, s. 50-51]. Bu qərardan sonra Ermənistandakı vəziyyət daha da gərginləşərək son həddə çatdı. Həmin gün ermənilər Zəngibasar rayonunun özündə 200-dən artıq evi dağıtdılar, məscidə od vurub yandırdılar, qəbirstanlığı dağıt-

dılar. İrəvanda olan XVI əsrə aid Papaqlı məscidini və Şiləçi məhəlləsindəki azərbaycanlı uşaqların oxuduğu M.F.Axundov adına orta məktəbə od vurdular [8, s. 52-53].

Canlarını birtəhər qurtarıb Azərbaycana gələn qaçqınların müəyyən hissəsi Qarabağa – Şuşaya gedirdilər. 2 ay ərzində Ermənistanın müxtəlif yerlərindən Qarabağa 23 mindən artıq qaçqın gəldi. Lakin qaçqınların Qarabağda yerləşdirilməsinin qarşısı Vəzirov tərəfindən canfəşanlıqla alındı. Qarabağ Vəzirovun sayəsində azərbaycanlıların qadağan zonasına çevrildi və orada yerləşən qaçqınlar çıxarılaraq Bakıya və digər rayonlara gətirildi.

1988-ci ilin oktyabr ayının 23-dən etibarən Basarkeçər (Vardenis) rayonunun azərbaycanlılar yaşayan kəndlərinə ermənilərin açıq təcavüzü başlandı. Şişqaya, Aşağı və Yuxarı Şorca, Qayabaşı, Subatan, Zağalı, Sarı Yaqub, Qaraqoyunlu, Nərimanlı, Ağ Kilsə, Zərkənd, Zod, İnək dağı və s. kəndlərin əhalisi Sarınər və Kəlbəcər dağlarını aşıb Gədəbəyə və Kəlbəcərə pənah gətirdilər [5, s. 170]. Basarkeçər rayonunun 36 kəndindən 27-də azərbaycanlılar bütünlüklə, 3-də isə ermənilərlə qarışıq halda yaşayırdılar [8, s. 87]. Noyabrın 22-də gecə Qanlı və Kərkibaş kəndlərində evlərə od vurub yandırdılar. Noyabrın 27-də Çaxırlı kəndinə divan tutdular. Basarkesər rayonunda 45 nəfər azərbaycanlı qətlə yetirildi [8, s. 91].

Bütün bu hadisələrə ittifaq orqanları seyrçi qalır, heç bir köməklik göstərmirdilər. Əksinə, Ermənistana qayda-qanun yaradılması üçün göndərilən daxili qoşunların gözləri qarşısında azərbaycanlılar təhqir edilir, döyülür, öldürülürdülər. Hərbçilər yalnız azərbaycanlılardan ibarət maşın karvanlarını Naxçıvana və Azərbaycanın digər sərhəd rayonlarına ötürməklə öz işlərini bitmiş hesab edirdilər. Lakin Ermənistanda yaşayan azərbaycanlılar üçün ən ağır vaxtlarda Naxçıvan rəhbərliyi və əhalisi əllərindən gələn köməkliyi göstərirdilər. Belə ki, Şirazlı, Şidli, Xalisa kəndlərinin əhalisinin Sovet-Türkiyə sərhədinə sığındıqları zaman Naxçıvandan onlara ərzaq məhsulları göndərilir, eyni zamanda onların daşınması üçün tankların, BTR-lərin müşayiəti ilə avtobuslar göndərilirdi.

Bu dövrdə erməni mətbuatının Azərbaycandan köçən ermənilərin sayı barədə şişirdilmiş məlumatlar dərc etdirdiyi və ittifaq mətbuat orqanları vasitəsilə dünyaya yaydığı bir vaxtda Azərbaycan mətbuatı respublikadakı qaçqınların əsil sayını gizlədirdi. Lakin 1988-ci il aprelin 2-də "Sovet Naxçıvanı" qəzeti MR-də 8 mindən artıq qaçqının olduğu barədə məlumat vermişdi.

1988-ci il noyabrın 7-də İrəvanın Lenin adına meydanında keçirilən nümayişdə Ermənistan Ali Sovetinə ilin axırına qədər Ermənistanda bir nəfər də olsun azərbaycanlının qalmaması, dövlət səviyyəsində köçürülməsi tələbi irəli sürüldü. Noyabrın 9-da keçirilən Qarabağ komitəsinin qapalı iclasında azərbaycanlıların Ermənistandan çıxarılması məsələsi müzakirə olundu və Ermənistandan çıxarılan azərbaycanlıların əyin, yataq paltarı və qismən ərzaqdan başqa bir şey aparılmasına yol verilməməsi, evin, əmlakın, mal-qaranın saxlanılması qərara alındı [9, s. 63-64].

"Qarabağ" komitəsinin təşkil etdiyi erməni quldur dəstələri 1988-ci il noyabr ayının 15 və 16-da Masis rayonunun Aşağı Necili, noyabrın 17 və 19-da isə Zəngilər kəndlərinə hücum etdilər [7, s. 163]. 3 gün müqavimət göstərdikdən sonra kənd əhalisi məcbur olaraq qonşu Rəncbər kəndinə tərəf çəkildi. Erməni quldurları noyabr ayının axırlarında Sarvanlar kəndini dağıtdılar [7, s. 163]. "Qarabağ" komitəsinin noyabrın 9-da çıxardığı qərara əsasən noyabrın 20-dən Vedibasar və Zəngibasara gedən yollar bağlandı. Burada yaşayan azərbaycanlılar mühasirə vəziyyətinə düşdülər. Kəndlərdə talanlar, zorakılıqlar daha da artdı.

1988-ci il noyabr ayının 28-də Əzizbəyov rayonunun Qarmraşen kəndinin sakinləri erməni saqqallılarının təzyiqləri ilə yurd-yuvalarından didərgin salındılar. Həmin gün Naxçıvandan gedən 10 ədəd zirehli maşın və 10 ədəd yük maşını ilə kəndin sakinləri evlərini tərk edərək Naxçıvana gətirildilər [5, s. 73].

1988-ci il noyabırn 30-da Avşar və Şidli kəndləri istiqamətindən 100-ə qədər maşında erməni saqqallıları Xalisə kəndinə soxuldular [8, s. 67]. Yalnız Naxçıvandan hərbi texnikanın gəlməsi nəticəsində əhali qırğından qurtarmış oldu. Həmin gün Xalisə kəndinin 480 ailəsi öz yurd yuvalarından qovuldular. Artıq 1988-ci il dekabrın 3-də Vedibasarda 1 nəfər də olsun azərbaycanlı qalmadı [5, s. 247-248].

Noyabrın 26-da İrəvanda komendant saatı elan olunsa da azərbaycanlıların təhlükəsizliyi heç bir yerdə müdafiə olunub dövlət tərəfindən qorunmurdu. Məhz həmin dövrdə şəhərin 10 km-də yerləşən Zəngibasar (Masis) rayonunun 12 azərbaycanlı kəndi tamamilə viran qoyuldu.

1988-ci ilin noyabr ayı ərzində Ermənistanın Zəngibasar, Quqark, Hamamlı (Spitak), Cəlaloğlu (Stepanovan), Noyemberyan, Sisyan, Dərələyəz (Yexenqnadər), Əzizbəyov, Amasiya rayonlarında azərbaycanlılar yaşayan kəndlərə hücumlar daha da güclənir. Ermənilər Zəngibasar rayonunda olan 12 azərbaycanlı kəndini iki günün içində dağıdıb, 26 min adamı evindən didərgin saldılar. 3250 ev talan edildi, 22 nəfər faciəli sürətdə öldü, 340 nəfər yaralanıb şikəst oldu [8, s. 87]. Quqark rayonunda noyabrın axırları-dekabrın əvvəllərində 70 nəfər azərbaycanlı öldürülmüşdür. Onlardan 21 nəfəri, o cümlədən 6 qadın, 3 uşaq Gözəldərə kəndində, 17 nəfər Vartanlı kəndində öldürülmüşdü [9, s. 60]. Qonşu Hamamlı (Spitak) rayonunda da azərbaycanlılara qarşı vəhşiliklər törədilmişdir. Noyabrın 27-də gecə saat 12^{30} da rayon İK-nin sədri Fərhad Abucyanın göstərişi ilə şəhərdə yaşayan 360 nəfər azərbaycanlını İK binasının qarşısına yığdılar. Vəhşiləşmiş ermənilər 5 yaşından 12 yaşına qədər uşaqları dartıb analarının əllərindən alaraq diametri 1,5 metr, uzunluğu 27 metr olan boruya dolduraraq hər iki ağzını qaynaqladılar. Müqavimət göstərmək istəyən əhalinin üzərinə atəş açıldı, 19 nəfərdən çox azərbaycanlı öldürüldü [8, s. 95-96].

Ermənistanda azəri türklərinə qarşı dəhşətli cinayətlərin törədildiyi rayonlardan biri də Cəlaloğlu (Stepanovan) rayonu olmuşdur. Noyabrın 28-də ermənilər Kuybışev kəndinin 5 nəfər sakinini soyuq silahla öldürdülər [1, s. 14]. Hə-

min gün rayonun azərbaycanlılar yaşayan Axtala, Şınıx, Böyük Ayrım, Kiçik Ayrım, Göycan kəndlərinə ermənilərin hücumu baş verdi. Böyük Ayrım kəndində 4 nəfər vəhşicəsinə öldürüldü, 35 nəfər yaralandı [8, s. 123-124]. Ermənilər bütün evləri qarət edərək yandırdılar, qəbiristanlığı dağıtdılar. 350 azərbaycanlı ailəsi kənddən qovuldu.

Azərbaycan və Gürcüstan ilə sərhəddə yerləşən Noyemberyan rayonunda da azərbaycanlılara dəhşətli divan tutuldu. Noyabrın 28-29-da azərbaycanlılar yaşayan Poqavan, Yuxarı Körpülü, Lənbəli (Baqrataşen), Polad, Alaçıqaya, Salah kəndlərində bir nəfər də olsun azərbaycanlı qalmadı [8, s. 125-148].

1988-ci il noyabrın axırlarında Sisyan rayonunun Şəki kəndinin 140, Qızılcıq kəndinin 100 təsərrüfatdan ibarət azərbaycanlı əhalisi doğma torpaqlarından didərgin salındılar. Urud kəndinin əhalisini əsgər geyimli ermənilər avtobuslara dolduraraq kömək etmək vədi ilə aldadıb erməni kəndi olan Şələkpələkin yaxınlığında saxlayaraq adamları taladılar. Kənd əhalisi əzab-əziyyətlə Batabat dağını aşaraq Naxçıvan Muxtar Respublikasına gəldilər [8, s. 123-124].

Həmin dövrdə Dərələyəzin azərbaycanlılar yaşayan 14 kəndini ermənilər talan edib əhalisini qırdılar. Noyabrın 26-dan başlayan təqiblər, zorakılıqlar nəticəsində cəmi iki gün ərzində, yəni noyabrın 28-də Əzizbəyov rayonunun 180 təsərrüfatdan ibarət olan 1052 nəfər azərbaycanlı əhalisi öz doğma yurdlarından qovuldular [8, s. 127-148]. Noyabrın 30-da ermənilər Gomur kəndinə basqın edərək azərbaycanlıları evlərindən çıxartdılar. Gomurlular qarlı dağ-dərə yolunu gecə vaxtı ikən keçib, Şahbuz rayonunun ərazisinə, Qanlı gölə gəlib çıxdılar.

1988-ci il dekabr ayının əvvəllərində Amasiya rayonunun Qarabulaq, Cicimli, Çaxmaq, Balıqlı, Güllücə, Quzukənd, Zərkənd, Qabaq kəndlərinin əhalisi Türkiyə ilə sərhəddə yerləşən İbiş, Güllübulaq kəndlərinə yığılmışdılar. 40 min nəfərdən ibarət olan bu kəndlərin əhalisini ermənilər öldürmək istəyirdilər. Lakin dekabrın 7-də baş verən zəlzələ ermənilərin bu niyyətlərini həyata keçirməyə imkan vermədi.

Azərbaycan Qaçqınlar Cəmiyyətinin tərtib etdiyi siyahıya əsasən 1988-1990-cı illər ərzində Ermənistanda 216 nəfər azərbaycanlı qətlə yetirilmişdi (5, 121). Bunların da böyük qismi (186 nəfər) "Qarabağ" münaqişəsinin elə 1-ci ilində, yəni 1988-ci ildə həlak olmuşdur. 52 nəfər aldığı xəsarət nəticəsində ölmüş, 34 nəfər işgəncə ilə öldürülmüş, 20 nəfər odlu silahla qətlə yetirilmiş, 9 nəfər yollarda qəzaya uğramış, 7 nəfər həkim qəsdi nəticəsində, 9 nəfər dəhşətli hisslərdən keçirdiyi infarkt nəticəsində ölmüş, 2 nəfər intihar etmiş, 1 nəfər asılmış, 2 nəfər maşın partladılması nəticəsində, 1 nəfəri elektrik cərəyanı ilə, 1 nəfəri suda boğub öldürmüşlər, 6 nəfər itkin düşmüş, 20 nəfər xəstəxanada yoxa çıxmış, 28 nəfər isə dağlarda borana düşüb həlak olmuşlar [1, s. 164]. Öldürülənlərin əksəriyyətini (109 nəfər) yaşlı nəslin nümayəndələri təşkil edirdi.

Beləliklə, keçmiş İttifaq rəhbərlərinin cinayətkar fəaliyyətsizliyinin buna şərait yaratması, Azərbaycan rəhbərliyinin bu hadisələrə vaxtında düzgün qiymət verə bilməməsi nəticəsində Ermənistan rəhbərliyinin və hüquq-mühafizə

orqanlarının bilavasitə iştirakı ilə 50149 ailəni təşkil edən 243.682 nəfər azərbaycanlı qısa müddət ərzində əsrlər boyu yaşadıqları dədə-baba yurdlarından vəhşicəsinə qovuldular [2]. Ermənistandan təkcə azərbaycanlılar deyil, 21.000 müsəlman kürdü qovularaq Azərbaycana pənah gətirdi. 1988-1989-cu illərdə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları 23 rayon üzrə 171, ermənilərlə qarışıq olan 94 yaşayış məskəni boşaldıldı. Nəhayət, 1991-ci il avqustun 8-də Nüvədi kəndindən də son azərbaycanlının çıxarılması nəticəsində Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmadı. Beləliklə, Ermənistan Ali Sovetinin 22 noyabr 1988-ci il tarixli sessiyasının məxfi göstərişi həyata keçirildi [11, s. 73]. Tarixən yurd salıb torpağın sahibi olmuş insanlar ev-eşiyindən didərgin düşüb Azərbaycanın rayonlarına səpələndilər. Ermənistandan qovulan azərbaycanlılara dəyən maddi və mənəvi zərəri hesablamaq mümkün deyil. Bununla belə tam məlum olmayan hesablamalara görə sırf azərbaycanlıların yaşadıqları ərazi 15.467 km^2 olmuşdur [9, s. 72]. Bu ərazidə 216 kolxozun əmlakı, 3420 avtomaşını, 4100 traktoru, 43.000 kolxoz və sovxozun qaramalı, 526.000 qoyun-quzusu ermənilərə qaldı. 120 tarixi Azərbaycan və türk abidələri dağıdıldı. 230 məscid, müsəlmanların sitayiş etdiyi pir yeri, ocaq məbədləri yox edildi. 670 qəbiristanlıq düzlənib əkin sahəsinə çevrildi. Kəndlərdə tikilmiş məktəb, klub, mağaza, idarə, uşaq evi, məişət binası, tövlələr, fermanın avadanlığı, əkin sahələri, bağ-bağçaların haqqı ödənilməmiş qaldı. 6000 bina yandırılıb dağıdıldı, əmlakları qarət edildi, 35.000 həyətyanı sahə, bağ-bağça ermənilər tərəfindən mənimsənildi, 32.000 şəxsi mal-qara, 35.000 qoyun-quzu əllərindən alındı, 25.000 yaşayış yeri əvəzsiz ermənilərə qaldı, 800 xüsusi maşın sahiblərinin əlindən alındı, 410 köç maşını qarət edildi, 32 milyon dollar dəyərində pul, istiqraz, qızıl əşyalar əllərindən alındı, 90.000-dən çox ailə kənd təsərrüfatı ilə məşğul olduqları halda, şəhərlərdə beton evlərində yaşamağa məcbur oldu, 16.000 ailə tam məskunlaşmamış qaldı, 12.000 adam əsəb və ürək xəstəliklərinə tutulub, 6410 qaçqın düçar olduqları dərdə dözə bilməyib vaxtından əvvəl öldülər, 90.000 nəfər düşdükləri yerin havasına uyğunlaşa bilmədi və s. [8, s. 169-170].

DQMV və onun ətrafında baş verən hadisələrlə əlaqədar Ermənistandan və DQ-dən didərgin düşmüş 12265 ailəni təmsil edən 50460 nəfər çadırlarda, 6.876 ailəni təmsil edən 30827 nəfər qurma evlərdən ibarət qəsəbələrdə, 66.305 ailəni təmsil edən 276.714 nəfər ictimai binalarda, məntəqələrdə, uşaq bağçalarında, yataqxanalarda, 12.193 ailəni təmsil edən 47.872 nəfər sanatoriya, pansionat, istirahət evləri, turbaza və sağlamlıq düşərgələrində, 5.600 ailəni təmsil edən 25.200 nəfər qohum və tanış evlərində, 8.954 ailəni təmsil edən 35.471 nəfər zəbt olunmuş mənzillərdə, 21.791 ailəni təmsil edən 34.315 nəfər fermalarda, 1.905 ailəni təmsil edən 8.353 nəfər yük vaqonlarında, 2.731 nəfəri təmsil edən 12.974 nəfər yol kənarlarında, 1.439 ailəni təmsil edən 7.195 nəfər humanitar təşkilatlar tərəfindən tikilmiş daş qəsəbələrdə yaşamağa məcbur olmuşdur

[2]. Öz doğma tarixi-etnik torpaqlarından didərgin salınan 250 mindən artıq qaçqın respublikanın 51 rayonunda və 7 şəhərində yerləşdirilmişdir [3, s. 365].

Respublikamızın müstəqillik yoluna qədəm qoyması ilə bir vaxtda başlayan erməni təcavüzü milli faciə ilə nəticələndi və Azərbaycan xalqını kütləvi soyqırıma məruz qoydu. Mərkəzi hakimiyyətin ermənilərə köməyi nəticəsində Ermənistandan qovulmuş azərbaycanlılar Qarabağa yerləşdirilmədi. O zamankı respublika rəhbərliyinin səriştəsizliyi, Moskva qarşısındakı mütiliyi bunun həyata keçirilməsinə mane oldu. Hətta Qarabağda erməni kəndlərinin yaxınlığında çadırlar qurub yaşamaq istəyən 23 mindən artıq qaçqın Ə.Vəzirov tərəfindən oradan çıxarıldı.

ƏDƏBİYYAT

1. Arzumanlı V. Mustafayev N. Tarixin qara səhifələri. Deportasiya, soyqırım, qaçqınlıq. Bakı: Qartal, 1998, 280 s.
2. Azərbaycan Respublikasında Qaçqınlar və məcburi köçkünlər haqqında statistik toplu. Bakı, 2001, 16 s.
3. Budaqov B.Ə, Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz evi, 1998, 452 s.
4. Dağlıq Qarabağ: Zəka qalib gələcək. Sənədlər və materiallar. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1989, 463 s.
5. Deportasiya. Azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası. Bakı: Azərbaycan Ensiklopediyası, EPB, 1998, 490 s.
6. Didərginlər. Bakı: Gənclik, 1990, 384 s.
7. Didərginlər üçün qəsəbə. // "Şərq qapısı" qəz., 1989, 20 may.
8. Ermənistan azərbaycanlılarının soyqırımı, Bakı: Gənclik, 1996, 172 s.
9. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası / Tərtib edən S.Əsədov. Bakı: Gənclik, 1995, 464 s.
10. Quliyev N. Şərur fəryadı. Bakı: Şur, 1999, 366 s.
11. Azərbaycan Respublikasında Qaçqınlar və məcburi köçkünlər haqqında statistik toplu. Bakı, 2001, 16 s.

Абдулла Мустафаев, Мамед Алиев

ПОСЛЕДНЯЯ ДЕПОРТАЦИЯ АЗЕРБАЙДЖАНЦЕВ ИЗ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА В КОНЦЕ XX ВЕКА

С начала XX века армяне осуществляли политику этнических чисток на территории Западного Азербайджана (нынешней Армении), в дальнейшем продолжали этот процесс и в итоге выселили всех азербайджанцев с мест их постоянного проживания. В 1948-1953 годы правительство Армении подвергало азербайджанцев депортации на официальном уровне, и,

наконец, в конце XX века, реализовав последнюю депортацию азербайджанцев, смогло создать моноэтническое государство.

Ключевые слова: *Великая Армения; Дашнакцутюн; Крунк; комитет Карабаха; депортация; Совет Народных Депутатов; моноэтническое государство*.

Abdulla Mustafayev, Mammad Aliyev

LAST DEPORTATION OF AZERBAIJANIANS FROM WESTERN AZERBAIJAN AT THE END OF THE XX CENTURY

Armenians carried out the policy of ethnic cleansing in the area of Western Azerbaijan from the beginning of the XX century, continued this process in the following years and as a result drove out Azerbaijanians from their native lands. Armenian leadership who deported Azerbaijanis at the state level in the 1948-1953s finally established a mono-ethnic state by realizing the last deportation of Azerbaijanis at the end of the XX century.

Key words: *Great Armenia, Dashnaktsutyun, Krunk, Karabakh committee, deportation, Soviet of People's Deputies, mono-ethnic state.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

AYDIN MİRZƏZADƏ

II DÜNYA MÜHARİBƏSİNDƏN SONRA SSRİ-DƏ ERMƏNİ MƏSƏLƏSİ

II Dünya Müharibəsindən yararlanmağa çalışan ermənilər və onların xaricdəki havadarları 1943-cü il Tehran konfransında azərbaycanlıların Ermənistan ərazisindən köçürülməsi, bunun əvəzində isə İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsi məsələsini gündəmə gətirmişdilər. 1945-ci ilin noyabrında Ermənistan K(b)P MK katibi Q.Arutyunov DQVM-nin Ermənistanın tərkibinə keçməsi haqqında İ.Stalinə müraciət göndərdi. Bu müraciətdə vilayətin iqtisadi baxımdan Ermənistana daha yaxın olması, Ermənistanın bölgə əhalisinə iqtisadi baxımdan yardım etmək imkanının daha çox olması haqqında uydurma "faktları" təqdim edir, azərbaycanlılar tərəfindən vilayətin erməni əhalisinin sıxışdırılması iddiasını irəli sürürdülər. Lakin Azərbaycan rəhbərliyi tərəfindən SSRİ rəhbərliyinə göndərilən məktubda DQVM-nin erməni əhalisinin təqibləri məruz qalması və sıxışdırılması haqqında ermənilərin uydurmaları faktlarla təkzib olundu.

Açar sözlər: *erməni məsələsi, separatizm, Qarabağ, Azərbaycanın ərazi bütövlüyü.*

Ermənilərin Azərbaycana və azərbaycanlılara qarşı qəsbkarlıq siyasəti heç zaman səngimədi. Ermənistan rəhbərliyi A.Mikoyanın böyük dəstəyi ilə İ.Stalinə təzyiq göstərərək 1946-cı il oktyabrın 19-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti xaricdə yaşayan ermənilərin SSRİ-yə köçürülməsi ilə bağlı fərman və 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar verilməsinə nail oldular. 1960-cı illərdə ermənilərin "Qarabağ Komitəsi" Yerevanda açıq şəkildə fəaliyyət göstərməyə başladı. Üstəlik, Komitə Dağlıq Qarabağ erməniləri arasında təbliğatı da gücləndirdi. Bu təbliğatın yeni bir istiqaməti isə vilayətdəki türk-müsəlman abidələrinin məqsədyönlü şəkildə məhv edilərək erməni abidələri ilə əvəzlənməsi idi.

Rusiyanın Qafqazdakı işğalçılıq siyasəti ermənilərlə sıx bağlı olmuşdur və bu siyasi ənənə sovet işğalı və hakimiyyəti dövründə davam etmişdir. 1920-ci ilin aprel işğalından sonra Azərbaycanda ermənilərin terroru daha da gücləndi, çünki bu terrorun qarşısını ala biləcək milli hökumət artıq devrilmişdi. Bakıda hakimiyyəti ələ keçirən bolşeviklər Qarabağın işğalını sürətləndirdilər. Bu illərdə ermənilər Azərbaycanın Göyçə rayonuna, Naxçıvan rayonuna, Sürməli qəzasına (İrəvan quberniyası), Qazax qəzasının dağlıq hissəsinə, Qarabağa və Zəngəzura iddialar irəli sürürdülər [44, s. 47-58]. Sovet Rusiyası ermənilərin bu iddialarını dəstəkləyirdi. Xüsusilə Zəngəzura və Qarabağa olan iddialarında Er-

mənistan daha qətiyyətli idi. Bu siyasətin nəticəsi idi ki, AK(b)P MK-nin Rəyasət Heyəti 1923-cü il iyunun 20-də Qarabağın inzibati vahid şəklində ayrılmasını zəruri elan edən qərar qəbul etdi, iyunu 30-da isə RK(b)P Zaqafqaziya Ölkə Komitəsinin plenumunda Dağlıq Qarabağ Muxtar Vilayətinin ayrılması haqqında qərar qəbul etdi [18, s. 110]. İyulun 1-də AK(b)P MK Rəyasət Heyətinin iclasında bu məsələ təsdiqini tapdı və həmin qərardan çıxış edərək iyulun 7-də Azərbaycan Sovetləri Mərkəzi İcraiyyə Komitəsi "Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQVM) yaradılması haqqında" dekret verdi [38, s. 152-153]. Bununla da, Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağda ermənilərə muxtariyyət verildi və bu torpaqlar süni şəkildə iki inzibati yerə: dağlıq və aran Qarabağa ayrıldı.

1924-cü il iyulun 3-də RK(b)P MK-nın Rəyasət Heyəti və Azərbaycan MİK-in Rəyasət Heyəti "DQVM haqqında Əsasnamə"ni bəyəndi və həmin Əsasnaməyə müvafiq olaraq Şuşa qəzasından Şuşa, Xankəndi və 115 kənd, Cavanşir qəzasından 52 kənd, Karyagin qəzasından 30 kənd, Qubadlı qəzasından Qaladərəsi DQVM-yə verildi [18, s. 113]. Bu qərar əslində Rusiyanın müstəmləkəçi siyasətinin bariz nümunəsi idi, çünki DQVM-nin yaradılması ilə bağlı qəbul edilən bütün bu qərarlarda Qarabağdakı azərbaycanlı əhalinin maraqları açıq-aşkar pozulmuşdu. Ermənistan tərəfi də öz növbəsində bu qərarı ədalətsiz hesab etmişdi və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini 1920-30-cu illərdə daima gündəmdə saxlamışdı. Hərçənd ki, 1930-cu illərin repressiyası qısa müddətə də olsa, Qarabağ məsələsində, dəqiq desək, ermənilərin Dağlıq Qarabağı Ermənistana birləşdirmək siyasətində durğunluq yaratdı. Daha sonrakı illərdə II Dünya Müharibəsinin başlanması erməni şovinizminin daha çox ideoloji istiqamətində fəallığı saxladı. Amma ermənilər öz planlarından əl çəkməmişdilər. Təsadüfi deyil ki, 1940-cı illərdə "Qarabağ hərəkatı", "Qarabağ Komitəsi" kimi gizli təşkilatlar yaradılmışdı və bu təşkilatlara A.Mikoyanın özü şəxsən qəyyumluq edirdi [18, s. 115]. Hətta II Dünya Müharibəsindən yararlanmağa çalışan ermənilər və onların xaricdəki havadarları 1943-cü il Tehran konfransında azərbaycanlıların Ermənistan ərazisindən köçürülməsi, bunun əvəzində isə İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsi məsələsini gündəmə gətirmişdilər [18, s. 116].

Müharibə bitdikdən sonra ermənilərin bu istiqamətdə fəallığı artmağa başladı. 1945-ci ilin noyabrında Ermənistan K(b)P MK katibi Q.Arutinov DQVM-nin Ermənistanın tərkibinə keçməsi haqqında İ.Stalinə müraciət göndərdi. Bu müraciətdə vilayətin iqtisadi baxımdan Ermənistana daha yaxın olması, Ermənistanın bölgə əhalisinə iqtisadi baxımdan yardım etmək imkanının daha çox olması haqqında uydurma "faktları" təqdim edir, azərbaycanlılar tərəfindən vilayətin erməni əhalisinin sıxışdırılması iddiasını irəli sürürdülər [18, s. 116-117]. Bu müraciət sovet rəhbərliyi tərəfindən fikir bildirmək üçün surəti AK(b)P MK-nin birinci katibi M.Bağırova da göndərilmişdi. M.Bağırovun ÜİK(b)P MK-nin

katibi G.Malenkova 1945-ci il 10 dekabr tarixli cavab məktubunda diqqəti çəkən bir neçə ciddi məqamı vardır.

Məktubda əsasən bildirilirdi: "Dağlıq Qarabağ Muxtar Vilayəti ərazi cəhətdən heç vaxt Ermənistan SSR-ə bitişik olmamışdır və hazırda da bitişik deyildir. Azərbaycanda sovet hakimiyyəti illərində Dağlıq Qarabağda vilayətin təsərrüfat-siyasi və mədəni inkişafı sahəsində böyük işlər görülmüşdür. Bu inkişafın ən parlaq nümunələrindən biri – DQVM-nin hazırkı mərkəzi Stepanakert şəhərinin başlı-başına buraxılmış və dağıdılmış bir kənddən Azərbaycanın ən gözəl, abad və mədəni şəhərlərindən birinə çevrilməsidir. Azərbaycan SSR-in bütün ali təhsil məktəbləri və texnikumları tələbələrinin 20,5%-ni Dağlıq Qarabağ Muxtar Vilayətindən olan ermənilər təşkil edir. Respublikanın partiya, sovet, təsərrüfat rəhbərləri – Azərbaycan K(b)P MK-nin katibləri, müavinləri, xalq komissarları, xalq komissarları müavinləri və s. arasında Dağlıq Qarabağdan olan yoldaşlar da az deyildir" [4, v. 7]. Bununla da Azərbaycan rəhbərliyi tərəfindən DQVM-nin erməni əhalisinin təqiblərə məruz qalması və sıxışdırılması haqqında ermənilərin uydurmaları faktlarla təkzib olunur. Həmin illərdə nəşr olunmuş statistik toplularda və arxiv sənədlərində də vilayətin erməni əhalisinin azərbaycanlılarla müqayisədə daha yüksək sosial-iqtisadi vəziyyətdə olması faktları yetərincədir. Həmin materialları təhlil edən N.Məmmədov öz monoqrafiyasında aşağıdakı faktları gətirir:

Azərbaycanda hər 100 nəfərə 59 müəllim düşürdüsə, DQVM-də bu rəqəm 199 idi. 1927-1933-cü illərdə Azərbaycanda 11 ipək sənayesi müəssisəsindən 7-i DQVM-də idi. 1933-cü ildə Naxçıvan MSSR-də 1 elektrik stansiyası var idisə, DQVM-də 4 stansiya fəaliyyət göstərirdi. 1927-1928-ci illərdə Mərkəzi Dövlət Bankı abadlaşdırma üçün Stepanakertə 60 min manat ayırmışdısa, Qarabağın böyük bir mərkəzi olan Bərdəyə cəmi 20 min manat ayırmışdı [18, s. 117].

Bütün bu faktlar əslində sovet rəhbərliyinə yaxşı məlum idi. Üstəlik, ermənilərin separatçılığı müharibədən yeni çıxmış SSRİ üçün təhlükəli amil idi və presedent yarada bilərdi. Nəhayət, Türkiyənin reaksiyasını da gözə almaq lazım idi. Bunu nəzərə alaraq Mərkəz Ermənistanın Dağlıq Qarabağı birləşdirmək siyasətinin qarşısını ala bildi. Lakin ermənilərin Azərbaycana və azərbaycanlılara qarşı separatçı və terror siyasəti bu illərdə səngimədi. Yuxarıda qeyd etdiyimiz kimi, hələ 1943-cü il Tehran konfransında ermənilərin SSRİ-yə köçürülməsi məsələsini gündəmə gətirən erməni lobbisi və Ermənistan rəhbərliyi A.Mikoyanın böyük dəstəyi ilə İ.Stalinə bu məsələdə təzyiq göstərə bilmişdilər. Nəticədə 1946-cı il oktyabrın 19-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti xaricdə yaşayan ermənilərin SSRİ-yə köçürülməsi ilə bağlı fərman verdi [18, s. 121]. Bunun ardınca 1947-ci ilin iyununda "Daşnaksutyun" partiyasının XIV Konqresi azərbaycanlıların Ermənistan SSR-nin ərazisindən çıxarılması haqqında qərar verdi [18, s. 121].

Xaricdəki erməni lobbisi və təşkilatları, o cümlədən "Daşnaksutyun" partiyası ilə onların ali sovet rəhbərliyindəki havadarları arasında əlaqənin bariz

nümunəsidir ki, "Daşnaksutyun" partiyasının bu qərarından az sonra, 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSRİ-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar verdi [28, s. 17]. Qəbul olunan tədbirlər planına görə, Ermənistan SSR-də yaşayan azərbaycanlılar (cəmi 100 min nəfər) 3 il ərzində (1948-1950-ci illər) Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməli idi. Deportasiya Ermənistanın 22 rayonunu əhatə edirdi.

Guya təsərrüfat məqsədi daşıyan 1948-1950-ci il köçürməsində əsil hədəf söhbət azərbaycanlıların öz əzəli torpaqlarından deportasiya edilməsi idi. Həmin illərdə 150 min azərbaycanlı Ermənistan ərazisindən Azərbaycanın müxtəlif rayonlarına, əsasən Saatlı, Göyçay, Tərtər, İmişli, Əli-Bayramlı, Zərdab, Salyan, Kürdəmir, Sabirabad, Beyləqan, Yevlax, Ucar, Gədəbəy, Bərdə rayonlarına deportasiya edildi [18, s. 122]. Ermənilər hər vəchlə azərbaycanlıların Dağlıq Qarabağ ərazisinə köçürülməsinə mane olmuşdular. Ən dəhşətlisi odur ki, yaranmış əlverişli vəziyyətdən istifadə edən DQVM rəhbərliyi buradakı azərbaycanlıların da bir qismini (549 nəfər) vilayətin ərazisindən deportasiya etməyə nail olmuşdular [27, s. 34]. Deportasiya Ermənistandakı etnodemoqrafik vəziyyəti dəyişməklə yanaşı, respublikanın hər hansı sosial və mədəni həyatında azərbaycanlıların iştirakının da məhdudlaşdırılmasına gətirib çıxardı. Belə ki, 1949-cu ildə Ermənistan Pedaqoji İnstitutunun əsasən azərbaycanlıların təhsil aldığı dörd fakültəsi, həmçinin 1 texnikum və yüzlərlə orta məktəb bağlandı [27, s. 67].

1950-ci illərin ikinci yarısından başlayaraq ermənilərin həm SSRİ-də, həm də xaricdə antiazərbaycan təbliğatı gücləndi. Bu, ilk növbədə SSRİ-də Stalin repressiyalarının başa çatması və ölkədə daha demokratik siyasətin başladılması ilə bağlı idi. Milli ənənələrin bərpası, milli hisslərin güclənməsi Azərbaycanda dövlətçilik və Vətən tarixinə olan hörməti artırmışdı. Amma eyni zamanda Ermənistanda şovinist qüvvələrin daha da güclənməsinə gətirib çıxarmışdı. İkinci bir tərəfdən, xaricdəki erməni lobbisinin nümayəndələri üçün SSRİ-də fəaliyyət göstərmək xeyli asanlaşmışdı, ələlxüsus "Daşnaksutyun" partiyasının Ermənistanda və Dağlıq Qarabağda təbliğat maşını fəallaşmışdı. Bu, özünü istər Ermənistanın və muxtar vilayətin erməni əhali arasında antiazərbaycan ruhunun güclənməsində, istərsə də "Böyük Ermənistan" ideyasının həyata keçirilməsi üçün ideoloji mübarizədə özünü göstərirdi. 1950-ci illərin xarakterik cəhətlərindən biri də azərbaycanlıların Ermənistan ərazisindən "zorla" deyil, "könüllü" şəkildə çıxarılması prosesinin yeni mərhələsinin başlaması idi. Belə ki, 1948-1950-ci illərdə həyata keçirilən köçürmə siyasətindən sonra Ermənistanda azərbaycanlıların sayının xeyli azalmasına nail olmuş erməni rəhbərliyi bu siyasətin davamı olaraq respublikada milli ayrı-seçkilik xətti götürməklə, xüsusilə təhsil sahəsində və iş yeri ilə təmin etmək məsələsində ermənilərə üstünlük verməklə, dolayısıyla azərbaycanlıların Ermənistanı tərk etməsinə nail olurdular. Bu da həmin illərdə xeyli sayda azərbaycanlının Ermənistandan Azərbaycana köç et-

məsinə səbəb oldu. 1960-cı illərdə ermənilərin "Qarabağ Komitəsi" Yerevanda açıq şəkildə fəaliyyət göstərməyə başladı. Üstəlik, Komitə Dağlıq Qarabağ ermənilər arasında təbliğatı da gücləndirdi. Bu təbliğatın yeni bir istiqaməti isə vilayətdəki türk-müsəlman abidələrinin məqsədyönlü şəkildə məhv edilərək erməni abidələri ilə əvəzlənməsi idi [18, s. 130]. Tezliklə bu təbliğat öz nəticələrini verməyə başladı. 1963-cü ilin yanvarında Dağlıq Qarabağda rayonların irilləşdirilməsi adı altında vilayət partiya komitəsinin 4 yanvar tarixli qərarı ilə Şuşa rayonu ləğv edildi: 30 kənd və 1 şəhər Stepanakert rayonuna birləşdirildi. Yalnız 1965-ci il yanvarın 6-da Şuşa rayonunu yenidən bərpa etmək mümkün oldu [18, s. 137]. Cəzasız qalan ermənilər öz fəaliyyətlərini davam etdirdilər və 1964-cü ildə "Qarabağ Komitəsi"nin üzvü M.Hovanesyan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında SSRİ Ali Sovetinin sədri A.Mikoyana müraciət göndərdi. A.Mikoyan da öz növbəsində həmin müraciəti N.Xruşşova təqdim etdi. Müraciətdə vilayətin erməni əhalisinin ağır sosial-iqtisadi vəziyyəti və guya azərbaycanlılar tərəfindən sıxışdırılması haqqında uydurma məlumatlar öz əksini tapmışdı. Bütün cəhdlərə baxmayaraq, bu müraciət SSRİ rəhbərliyində müsbət qarşılanmadı [18, s. 130-131].

Ermənistan rəhbərliyi və Dağlıq Qarabağ ermənilər 1940-cı illərin əvvəllərində olduğu kimi, bu müraciətdə də məsələni əsasən sosial-iqtisadi problemlərə yönləndirməyə çalışırdılar. Halbuki vilayətin erməni əhalisinin sosial-iqtisadi yaşayış göstəriciləri çox yüksək idi. Yenə də rəqəmlərə müraciət edək: 1963-cü il üçün olan statistik göstəricilərə görə, DQVM-də 164 kitabxana fəaliyyət göstərirdi ki, onların da 150-si kənd yerlərində idi. Stepanakertdə Erməni Dövlət Dram teatrı, Dövlət Mahnı və Rəqs ansamblı fəaliyyət göstərirdi. Bölgədə yeganə ali məktəb – Pedaqoji İnstitut məhz Stepanakertdə fəaliyyət göstərirdi. Vilayətdə erməni dilində "Sovetakan Karabax" (Sovet Qarabağı) qəzeti çap olunurdu. Halbuki Azərbaycan dilində dərc olunan "Şuşa" qəzetinin adı 1963-cü ildə dəyişdirilərək "Sosialist maldarlığı" adlandırılmışdı. Vilayətdə kənd təsərrüfatının inkişafına da xüsusi diqqət ayrılmışdı. 1963-cü ilin əvvəllərində Dağlıq Qarabağın kənd təsərrüfatında 1400 ədəd traktor, 224 kombayn, 670 yük avtomobili istifadə olunurdu. 1962-ci ildə vilayətin sənayesinin ümumi məhsulu 341%, elektrik enerjisi 94% artmışdı (1940-cı il ilə müqayisədə) [34, s. 7, 43]. Bütün bu yüksək göstəricilərə baxmayaraq, ermənilərin bölgədə azərbaycanlılara qarşı terror və təqib siyasəti bütün 1960-cı illər boyu davam etmişdir. Bu siyasətin ən böyük dalğası isə 1965-ci ilə təsadüf edir. 1915-ci il uydurma "erməni soyqırımı"nın 50 illiyi münasibətilə 1965-ci ilin aprelində Yerevanda böyük bir nümayiş keçirildi. Nümayişdə Azərbaycana, azərbaycanlılara qarşı şüarlar, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı çağırışlar səsləndirildi [17, s. 53]. Nümayişin cəzasız qaldığını görən erməni təbliğatı bir qədər irəli getdi. Həmin il Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında 45 min nəfər ermənin imzaladığı petisiya Sov.İKP MK katibliyinə təqdim edildi. Hərçənd ki, müraciət SSRİ rəhbərliyində müsbət qarşılanmadı

[37, s. 49; 16, s. 76; 18, s. 132]. Bu güclü təbliğatın təsiri altında istər Ermənistanda, istərsə də DQVM-də azərbaycanlılara qarşı terror hərəkətləri artdı. 1967-ci və 1968-ci illərdə Dağlıq Qarabağda azərbaycanlılara qarşı bir neçə terror aktı həyata keçirilmişdi [12].

1968-1969-cu illərdə Ermənistan tərəfi Zaqafqaziya Kartoqrafiya İdarəsinin xəritələrinə əsaslanaraq Azərbaycan SSR-in Gədəbəy, Qubadlı, Laçın, Qazax, rayonlarının və Naxçıvan MSSR-in bəzi kəndlərinin Ermənistana verilməsi ilə bağlı yeni iddialar irəli sürməyə başladılar [13, s. 95-97]. Moskvanın təzyiqi altında Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il 7 may tarixli qərarı ilə 2 min hektardan çox yuxarıda adları qeyd olunan rayonlardakı bəzi Azərbaycan torpaqlarının Ermənistana verilməsi haqqında 1938-ci il 5 may tarixli qərarı təsdiq etdi [9, VII, s. 161]. Lakin həmin illərdə Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədri Heydər Əliyev bu məsələni ciddi araşdırmağa başladı və ermənilərin istinad etdikləri xəritələrin saxta olduğu aşkara çıxarıldı. 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nin birinci katibi təyin edilən Heydər Əliyev bu məsələnin təhqiqini başa çatdıraraq yuxarıda qeyd olunan Azərbaycan torpaqlarının Ermənistana verilməsinin qarşısını aldı və Azərbaycan SSR-in ərazi bütövlüyünü qoruyub saxladı [18, s. 135-136; 23, s. 257-259].

ƏDƏBİYYAT

1. AR DA: F. 27, siy. l.
2. AR DA: F. 28, siy. 1.
3. AR Pİİ SSA: F. 1, siy. 1.
4. AR Pİİ SSA: F. 1, siy. 169.
5. AR Pİİ SSA: F. 27, siy. 2.
6. AR Pİİ SSA: F. 276, siy. 9.
7. AR Pİİ SSA: F. 276, siy. 9.
8. AR Pİİ SSA: F. 410, siy. 1.
9. Azərbaycan tarixi: 7 cilddə. IV c., Bakı: Elm, 2007, 504 s.; V c., Bakı: Elm, 2001, 672 s.; VI c., Bakı: Elm, 2000, 568 s.; VII c., Bakı: Elm, 2003.
10. Bayramova R.M. Azərbaycan rəhbərliyində ixtilaflar və daxili siyasi çəkişmələr (1920-1925-ci illər). Bakı: Elm, 2007, 196 s.
11. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair // Qarabağnamələr: 2 kitabda. I kitab, Bakı, 1989.
12. Hacıyev N. Dağlıq Qarabağın tarixindən sənədlər. Bakı, 2005.
13. İmanov R.C. Azərbaycanın ərazi bütövlüyünə qəsd: qondarma DQVM. Bakı, 2005.
14. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: Çaşıoğlu, 2009, 576 s.
15. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı: Təhsil, 2006.
16. Mahmudov Y.M., Şükürov K. Qarabağ. Real tarix, faktlar, sənədlər. Bakı: Təhsil, 2009, 144 s.

17. Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, 1992.
18. Məmmədov N. Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal (XX yüzillik). Bakı: Təhsil, 2009, 272 s.
19. Mir Mövsüm Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, 1993.
20. Mirzə Camal Cavanşir. Qarabağ tarixi // Qarabağnamələr: 2 kitabda. I kitab, Bakı, 1989.
21. Mirzəzadə A. Qarabağ düyünü. Bakı: Azərbaycan, 2012.
22. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 1996, 328 s.
23. Müstəqil dövlətimiz və parlamentimiz. Bakı, 2001.
24. Nəcəfov B. Deportasiya. Bakı, 1998.
25. Qarabağ: suallar və faktlar. Bakı: Qismət, 2005, 156 s.
26. Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı, 1991.
27. Paşayev A. Köçürülmə. Bakı, 1995.
28. Yaqublu N. Xocalı qırğını. Bakı, 1992.
29. Азербайджанская ССР. Административно-территориальное деление. Баку, 1979.
30. Акты, собранные Кавказской Археографической Комиссией. I-VII, Тифлис, 1866-1878.
31. Договоры России с Востоком. Политические и торговые / Собрал и издал Т.Юзефович. СПб., 1869.
32. Глинка С.Н. Описание переселения армян аддербиджанских в пределы России. Москва, 1831.
33. Документы внешней политики СССР: В 7-ми тт. Т. II: 1 января 1919 г.-30 июня 1920 г., Москва: Госполиздат, 1958, 804 с.; т. IV: 19 марта 1921 г.-31 декабря 1921 г., Москва: Госполитиздат, 1960, 836 с.
34. Достижения Советского Нагорного Карабаха за 40 лет в цифрах. Статистический сборник. Степанакерт, 1963.
35. Ениколопов И. Грибоедов и Восток. Ереван, 1954.
36. Интернациональная помощь XI армии в борьбе за победу советской власти в Азербайджане. Документы и материалы 1920-1921 гг. Баку: Азернешр, 1989.
37. Карабахский вопрос. Степанакерт, 1991.
38. К истории образования Нагорно-Карабахской Автономной области Азербайджанской ССР. 1918-1925 гг. Документы и материалы. Баку: Азернешр, 1989, 334 с.
39. Мамедова Ш.Р. Интерпретация тоталитаризма. Сталинизм в Азербайджане 1920-1930 гг. Баку: Адильоглы, 2004, 319 с.

40. Нифталиев И. Азербайджанская ССР в экспансионистских планах армян (20-е годы XX века). Баку: Təhsil, 2009.
41. Полное собрание законов Российской империи. Собрание второе, Т. III, СПб., 1830, № 1794.
42. РГАСПИ: Ф. 85, Орджоникидзе Г.К., оп. 13.
43. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. СПб., 1911.
44. Щепотьев А. Доклад о спорных Кавказских территориях, на которые имеют права самоопределившиеся азербайджанские тюрки // ИАН Азерб. ССР, СИФП, 1990, № 2, с. 42-61.
45. Шопен И.И. Исторический памятник состояния армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852.

Айдын Мирзазаде

АРМЯНСКИЙ ВОПРОС В СССР ПОСЛЕ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ

После Второй мировой войны в СССР усилился армянский сепаратизм. В 1948-1953 годах армяне добились массовой депортации азербайджанцев из Армении – с земель своих предков. Армянская сторона не прекращала сепаратистских действий в отношении Нагорного Карабаха. В 1960-х годах эта проблема снова вышла на международный уровень. С приходом к власти в Азербайджане Гейдара Алиева, благодаря его мужественным и решительным действиям инициатива армянских сепаратистов не дала никаких результатов.

Ключевые слова: *армянский вопрос, сепаратизм, Карабах, территориальная целостность Азербайджана.*

Aidyn Mirzazadeh

THE ARMENIAN ISSUE IN THE USSR AFTER THE SECOND WORLD WAR

Armenian separatism intensified in the USSR after the World War II. The Armenians have achieved mass deportation of Azerbaijanians from Armenia – the land of their ancestors – in 1948-1953. The Armenian side did not stop their separatist actions with regard to Nagorno-Karabakh. In the 1960s, this problem came out again into the international level. After Heydar Aliyev's coming to power in Azerbaijan, thanks to his courageous and decisive measures, the initiative of the Armenian separatists hasn't given any results.

Key words: *Armenian issue, separatism, Karabakh, Azerbaijan's territorial integrity.*

(AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

BƏXTİYAR HƏSƏNOV
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
E-mail: bosa6983@gmail.com

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANIN QARABAĞ REGİONUNA ERMƏNİLƏRİN KÖÇÜRÜLMƏSİ VƏ DEMOQRAFİK VƏZİYYƏT

Məqalədə XX əsrin əvvəllərində Cənubi Qafqazda həmçinin Azərbaycanın Qarabağ regionunda öz geosiyasi maraqlarını həyata keçirməyə çalışan çar Rusiyasının mövqeyi araşdırılmışdır. Regionda çar məmurları ilə ermənilərin müsəlman əhalini bölgədən sıxışdırıb çıxarması və bu bölgəyə xristian dininə mənsub olan ermənilər köçürüb gətirərək yerləşdirməsinin səbəbləri verilmiş, demoqrafik vəziyyət işıqlandırılmışdır.

Açar sözlər: *Azərbaycan, Qarabağ regionu, Şuşa, Zəngəzur, Cavanşir, Cəbrayıl (Qaryagin), demoqrafiya.*

Dünyanın ən qədim yaşayış məskənlərindən biri olan Azərbaycanın Qarabağ regionu Cənubi Qafqazda strateji cəhətdən önəmli ərazilərdən biri olduğu üçün daim çar Rusiyasının diqqətini cəlb etmişdir. Hələ XVIII əsrdən başlayaraq Azərbaycanın Qarabağ ərazisini özünə tabe etmək istəyi bu bölgədə çar Rusiyasının siyasi-iqtisadi marağına uyğun olaraq proseslərin tez-tez dəyişməsinə səbəb olurdu. Müstəmləkəçi imperiyanın öz siyasi maraqlarına uyğun apardığı siyasət bu ərazidə qədim dövrdən yaşayan yerli əhalinin narazılığına səbəb olurdu ki, bu da imperiyanın öz maraqlarını istədiyi şəkildə həyata keçirməsinə maneçilik törədirdi. Cənubi Qafqazda, həmçinin Qarabağ regionunda öz siyasətini həyata keçirmək istəyən imperiya birinci məqsəd kimi yerli müsəlman əhalisini bölgədən sıxışdırıb çıxarmaq və bu bölgəyə xristian dininə mənsub olan əhalini yerləşdirməyə nail olmaq istəyirdi.

Bunun üçün çar Rusiyası birinci növbədə Qarabağ ərazisində hakimiyyətdə olan Qarabağ xanını özünə tabe etməli, ikinci Qarabağla sərhəddə olan Qacarlar dövlətini, üçüncü isə bu ərazidə yaşayan əhalinin böyük rəğbət bəslədiyi Osmanlı imperiyasını razı salmalı idi.

XIX əsrin əvvəllərində çar Rusiyası öz çirkin niyyətini açıq surətdə həyata keçirməyə başladı. İlk növbədə 26 may 1805-ci il tarixdə Kürəkçay sahilində knyaz Sisianovun düşərgəsində Qarabağ xanı İbrahimxəlil xanla Rusiya imperi-

yası adından Rusiyanın Qafqaz qoşunlarının baş komandanı knyaz Si-sianov müqavilə imzaladılar. Çar Rusiyası bu müqavilə ilə Qarabağ xanlığını özünə tabe etdi [24, s. 1].

Bunun ardınca Osmanlı imperiyası Çar Rusiyası ilə 1812-ci ilin yayında imzaladığı Buxarest müqaviləsinin şərtlərinə əsasən rusların Qafqazı işğalını tanıyır və bu torpaqlara iddiasından əl çəkirdi.

1813-cü il oktyabrın 12-də Qacarlar dövləti ilə Rusiya arasında I Rusiya-İran müharibəsinin başa çatdığını bildirən və müharibənin nəticələrini rəsmiləşdirən Gülüstan müqaviləsi bağlandı. Müqaviləni Rusiya tərəfindən Ratişev, İran tərəfindən isə şahın vəkili Mirzə Əbdülhəsən xan imzaladılar. Gülüstan müqaviləsinin şərtlərinə İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla, Şimali Azərbaycan xanlıqları, Lənkəran, Şirvan, Quba, Bakı, Gəncə, Qarabağ, Şəki Rusiyaya verildi [25, s. 1].

Nəhayət, II Rusiya-İran müharibəsi nəticəsində 1828-ci il fevral ayının 10-da Rusiya ilə İran arasında Təbriz yaxınlığındakı Türkmənçay kəndində bağlanmış müqaviləyə əsasən tarixən Azərbaycana məxsus olmuş Araz çayından şimaldakı bütün ərazilər Rusiyanın, cənubdakı ərazilər isə İranın əlinə keçdi. Türkmənçay müqaviləsinin imzalanmasında tanınmış rus yazıçısı A.S.Qriboyedov və Azərbaycan mütəfəkkiri A.A.Bakıxanov da iştirak etmişlər. A.A.Bakıxanov bu tarixi hadisədə tərcüməçi kimi iştirak etmişdir. Müqaviləni Rusiya tərəfindən İvan Paskeviç, İran tərəfindən isə Mirzə Əbdül Həsən xan imzalamışlar [26, s. 1].

1829-cu ildə çar Rusiyası ilə Osmanlı imperiyası arasında bağlanan Ədirnə müqaviləsinin şərtlərinə görə çar Rusiyası işğal etdiyi şimali Azərbaycan xanlıqlarının ərazisinə ermənilərin kütləvi surətdə köçürülüb gətirilməsi prosesini sürətləndirdi və qriqorianlaşdırılmış yerli alban əhalisinin ermənilərdirməsini başa çatdırdı. 1836-cı ildə Alban katolikosluğu ləğv edildi [9, s. 34].

Çar Rusiyası bu müqavilələri bağlamaqla Qafqaza xristian mənşəli əhalinin köçürülməsi prosesinə start vermiş oldu. İşğal etdiyi əraziləri tezliklə xristianlaşdırmağa çalışan müstəmləkəçi imperiya ilk növbədə müqavilələr bağladığı Qacarlar dövləti və Osmanlı dövlətində yaşayan mənşəcə xristian olan hayları (indiki ermənilər) bu ərazilərə köçürməyə başladı.

Bu dövrə qədər Qafqaza gələrək yaşayan ermənilər, rus və erməni müəlliflərinin yazdığı kimi, çox az idi. Belə ki, Qafqazda araşdırmalar aparmış rus tədqiqatçısı Zelinski XVIII əsrdə İrəvanda, Qarabağda ermənilərin həm sayca, həm də yaşadıqları ərazi baxımından çox az olduğunu qeyd edirdi. O yazırdı ki, "Zəngəzurda XIX əsrə qədər cəmi üç erməni kəndi olmuşdur" [12, s. 10]. İndiki Ermənistan ərazisində tarixən erməni dövlətinin olmadığını erməni alimi B.İşxanyan da etiraf edərək yazır ki, "ermənilər həmçinin Qafqaz ərazisinin müxtəlif hissələrində yalnız son əsrlər ərzində yayılmışlar". O yazırdı: "Dağlıq Qarabağda yaşayan ermənilərin bir hissəsi aborigendirlər, qədim albanların nəsilləridir... bir hissəsi isə Türkiyədən və İrandan qaçıb gəlmələrdir" [13, s. 16] (Çar

Rusiyası tərəfindən bu əraziyə köçürülənlərdir – H.B.).

Bu problemdən bəhs edərək erməni akademiklər İ.A.Orbeli, S.T.Yeremyan yazmışlar ki, "Qarabağın ermənileri adlananlar lap bu yaxın vaxtacan öz mənşələrini bilirdilər". Qarabağın erməni məlikləri deyilənlər rus çarına öz məktublarında özlərini "alban çarlarının nəsilləri" adlandırırdılar. Belə bir məktubda, udinlərin özləri I Pyotrun adına göndərdikləri məlum məktubda yazırdılar: "...biz aqvanlarıq (yəni albanlarıq – İ.Ə.) və milliyyət etibarilə utilərik" [3, s. 19, 83].

Ermənilərin köçürülməsindən sonra, 1907-ci ildə Cənubi Qafqaz üzrə rus pravoslav kilsəsinin sinodu, Eçmiədzin sinodunun prokuroru A.Frenkeli qeyd edirdi ki, yerli ermənilər (ermənileşmiş albanlar – H.B.) fərqlənirdilər, hansı ki, gəlmələrlə bir-birlərini demək olar ki, başa düşmürlər, hətta onların arasında nikahlar da çox nadir hallarda baş tuturdu [10, s. 111].

Kapançyana görə, "Hayasa" ölkəsinin cənubunda və cənub-şərqində hərəkatın başında saklar dururdular. Bu fikri təsdiqləyən görkəmli gürcü alimi Q.A.Melikişvili indiki Ermənistan ərazisinin qədim türk torpaqları olmasını təsdiq edərək yazırdı ki, İrəvan və Sevan gölü (gölün adı XX əsrin 20-ci illərinədək erməni qaynaqlarında türkcə olduğu kimi Göyçə yazılmışdır – H.B.) bölgələrində skif tipli əşyaların tapılması orada kimmerlərin və sakların yaşadıqlarını göstərir [11, s. 93-94].

Ermənilərin Cənubi Qafqaza, o cümlədən Azərbaycanın Qarabağ regionuna kütləvi surətdə köçürülməsi 1804-1813 və 1826-1828-ci illər Rus-İran müharibələrinin gedişində başlandı və ondan sonrakı dövrdə daha da geniş vüsət aldı.

1810-cu ilin rəsmi məlumatına görə, "Qarabağ vilayətində" 12 min ailə olmuşdur ki, bunların içərisində də 2500 erməni ailəsi var idi [19, s. 562].

Çar Rusiyası tərəfindən Qafqaza göndərilmiş rus məmuru və qafqazşünas İ.Şopen keçirdiyi siyahıyaalmada (1829-1831-ci illər) göstərir ki, İran və Türkiyədən İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə 57.266 nəfər erməni köçürülmüşdür [22, s. 642]. Rəsmi məlumatlara əsasən, 1828-1830-cu illər arasında, yəni cəmi 2 il ərzində, Şimali Azərbaycana, o cümlədən Qarabağa İrandan 40 min, Osmanlı imperiyasından 90 min erməni köçürülmüşdü. Qeyri-rəsmi erməni köçkünləri ilə birlikdə onların sayı 200 mini ötmüşdü [9, s. 32].

XIX əsrin 20-30-cu illərində rus-İran və rus-türk müharibələrinin qələbəsindən sonra Cənubi Qafqaza, xüsusən də tarixi Azərbaycan torpaqlarına Türkiyədən və İrandan on minlərlə erməni axışıb gəlməyə başladı. Rəsmi sənədlərdə deyildiyi kimi, erməni əhalisinin daha böyük kütləsi məhz Qarabağda məskunlaşdırılmışdır. Həmin illərdə, xüsusən Qarabağa, ən sadə hesablamalara görə 130 mindən çox ailə köçürülmüşdür. Digər məlumatlara görə, bu köçürülənlərin sayı 200 000 nəfərdən çox idi [3, s. 85-86].

İran və Türkiyədən ermənilərin kütləvi axını nəticəsində Qarabağda əhalinin milli tərkibi süni şəkildə sürətlə dəyişdirilməyə başlandı. Belə ki, 1832-ci il-

də Qarabağın dağlıq hissəsində azərbaycanlılar əhalinin 91 faizini təşkil edirdisə, 1886-cı ildə onun xüsusi çəkisi 41,5 faizə endi. Müvafiq olaraq erməni əhalisinin sayı isə 8,4 faizdən 58,2 faizə qədər yüksəldi [2, s. 11].

XIX əsrin 80-cı illərinin sonunda Şuşa qəzasında ermənilərin sayı əhalinin artıq 58 faizini təşkil edirdi [14, s. 48-61].

M.H.Vəliyev (Baharlı) "Azərbaycan (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerki)" əsərində qeyd edir ki, "Azərbaycan Respublikası (1920)" təqviminin məlumatlarına görə, "Şuşa və Zəngəzur qəzalarının dağlıq hissəsində ermənilər bütün əhalinin təxminən 50 faizini təşkil edirdilər. 1897-ci il siyahıyaalması zəif və natamam olmuş, bu vaxt köçərilərin siyahıyaalması dəqiq aparılmamış, yerli müsəlman əhalisinin bir hissəsi yaylaqlarda olduğu üçün bu siyahıyaalmaya daxil edilməmişdir. Bu vaxt müsəlmanların bir hissəsi torpaq mükəlləfiyyətindən, vergilərin artması qorxusundan qeydiyyatdan qaçırdılar. Bəzən də qəsdən siyahıyaalma aparan çar məmurları siyasi fikirlərə görə müsəlman xalqlarının qeydiyyatdan keçməməsi üçün şayiələr yayırdılar. Guya bu siyahıya-almanın qoşun yığmaq, vergiləri və zemstvo rüsumlarını artırmaq məqsədilə aparıldığını deyərək müsəlman əhalini qorxudub, qeydiyyatdan yayınmalarına şərait yaradırdılar [6, s. 14-16].

1896-cı ildə general-adyutant Şeremetyev özünün qeydlərində ermənilərin Cənubi Qafqazda 900.000-ə yaxın olduğunu, 1908-ci ildə isə onların sayının 1.300.000-ə çatdığını yazırdı [13, s. 60].

Türk tarixçisi K.Gürün əsərində I Dünya Müharibəsi dövründə və ondan sonra Türkiyədən, İrandan, Suriyadan, Yunanıstandan, Balkan ölkələrindən və başqa yerlərdən Qafqaza 700.000 ermənin qaçdığını (köçürüldüyünü – H.B.) qeyd edir [15, s. 361].

Belə köçürmə siyasəti nəticəsində regionda ermənilərin sayı xeyli artmış, Şuşa qəzasında onlar hətta müsəlman əhalisini üstələmiş və 1866-cı ildə 52,2 faizin 41,5 faizə, 1897-ci ildə 53 faizin 45 faizə, 1917-ci ildə isə 52,3 faizin 40,2 faizə nisbətində olmuşdur. Şərur-Dərələyəz mahalında ümumi əhalinin 66,7 faizi, Sürməlidə 63,6 faizi müsəlmanlar idi. İrəvan şəhərinin əhalisi 43,4 faiz müsəlmanlardan ibarət idi. Keçmiş Yelizavetpol quberniyasında 1915-ci ildə əhalinin ən çox qarışıq olduğu Şuşada 46 faiz müsəlman və 54 faiz erməni (çar Rusiyası tərəfindən ermənilərdirilmiş xristian albanlarla birlikdə – H.B.), Zəngəzurda 55 faiz müsəlman və 44,3 faiz erməni, Qazaxda (Göyçə ilə birlikdə) 49 faiz müsəlman və 46 faiz erməni, Cəbrayıl (Qaryagin) qəzasında 74,5 faiz müsəlman və 24,9 faiz erməni, Cavanşir qəzasında 67,5 faiz müsəlman və 31,6 faiz ermənilər təşkil etmişdir [8, s. 107].

Qarabağ regionunun mərkəzi şəhəri olan Şuşa şəhərinin əhalisinin etnik amilə görə say nisbəti XIX əsrin sonu-XX əsrin əvvəllərində köçürülmələr nəticəsində ciddi şəkildə dəyişmişdi.

Bu dövrdə Azərbaycanın ümumi əhalisi "Kavkazskiy kalendarın"ın (1917) və "Azərbaycan Respublikası (1920)" təqviminin məlumatlarına görə 2.861.862

nəfər olmuşdur. Onlardan kənd əhalisinin sayı 76,8 faiz, yaxud 2 milyon 193 min, qalan 23,2 faizi, yaxud 669 min şəhər əhalisinin, qəsəbə və şəhərətrafı qəsəbələrin payına düşür [6, s. 14-15].

1886-cı ilə dair olan məlumatlara görə, Şuşa şəhərinin əhalisi 26.806 nəfər olmuşdur ki, bunlardan da 15.786 nəfərini kişilər, 11.020 nəfərini isə qadınlar təşkil edirdi. 1897-ci il Birinci Ümumrusiya siyahıyaalmasının nəticələrinə görə, Şuşa qəzasının ərazisi 4315,6 verst^2 olmuşdur. Qəzanın ümumi əhalisinin sayı 138.771 nəfər, onlardan kişilərin sayı 74.171, qadınların sayı 64.600 nəfər idi. Qəzanın mərkəzi olan Şuşa şəhərində cəmi 25.881 nəfər idi ki, bunlardan 13.318 nəfərini kişilər, 12.563 nəfərini isə qadınlar təşkil edirdi. Qəzanın qalan ərazisində 60.853 nəfəri kişilər, 52.037 nəfəri qadınlar olmaqla, ümumilikdə 112.890 nəfər əhali yaşayırdı [15, s. 89].

1904-cü ildə isə əhalinin say tərkibi artaraq 1897-ci ildəki 25.881 nəfərdən 34.847 nəfərə çatmışdır. Kişilərin sayı 13.318-dən 20.521 nəfərə, qadınların sayı isə 12.563-dən 14.326 nəfərə yüksəlmişdir. 1913-cü ildə isə Şuşa şəhərində əhalinin sayı 42.568 nəfər olmuşdur ki, bunun da 10.000 nəfərini azərbaycanlılar təşkil edirdi [20, s. 52-53].

1917-ci ilin statistik məlumatına görə, Yelizavetpol quberniyasında Gəncə şəhərindən (57,7 min nəfər) və Nuxa (Şəki) şəhərindən (52,2 min nəfər) sonra ən çox əhali Şuşa şəhərinin əhalisi (43,9 min nəfər) olmuşdur [6, s. 17-18].

Başqa bir məlumata görə, Şuşa şəhərinin əhalisi, əsrin əvvəlindəki statistika ilə müqayisə etdikdə, 18 min nəfərdən çox artaraq, 1915-ci ilin sonlarında 44 min nəfər olmuşdu [4, s. 17].

Yuxarıda verilmiş faktlardan məlum olur ki, Şuşa şəhərinin əhalisi XIX əsrin sonlarına yaxın 11 il müddətində 1000 nəfərə (əhalinin illik artımını nəzərə alsaq, bu rəqəm daha böyük olar) qədər azalmışdır. Aydın görünür ki, çar Rusiyası yerli Azərbaycan türklərini öz ata-baba yurdlarından sıxışdırıb çıxarmışdır. Ancaq XIX əsrin sonu-XX əsrin əvvəllərində Şuşa şəhərində 15 il ərzində birdən-birə 17 min nəfərə yaxın artım müşahidə olunmuşdur. Bu da çar Rusiyasının xaricdən Şimali Azərbaycana və onun tərkib hissəsi olan Qarabağın mərkəzi şəhəri Şuşaya köçürdüyü ermənilərin hesabına süni şəkildə artırılmışdır.

1897-ci il Birinci Ümumrusiya siyahıyaalmasının nəticələrinə görə, Zəngəzur qəzasının ərazisi 6829,7 verst^2 olmuşdur. Qəzanın əhalisinin ümumi sayı 137.871 nəfər, onlardan kişilərin sayı 72.592 nəfər, qadınların sayı 65.279 nəfər olmuşdur. Gorus şəhərində ümumilikdə 1450 nəfər yaşayırdı ki, onlardan da 827 nəfərini kişilər, 623 nəfərini qadınlar təşkil edirdi [16, s. 76, 183].

1897-ci ildə Zəngəzur qəzasında 406 kənd olmuşdur ki, bunlardan 314 kənddə müsəlmanlar, 92 kənddə isə ermənilər yaşayırdı. Zəngəzur qəzasında 1897-ci ildə yaşayan 137.871 nəfərdən 71.206 nəfərini Azərbaycan türkləri, 63.622 nəfərini ermənilər, 1807 nəfərini kürdlər, 1006 nəfərini isə ruslar təşkil etmişlər [18, s. 75].

1897-ci il Birinci Ümumrusiya siyahıyaalmasının nəticələrinə görə, Zəngəzur qəzasında 5762 nəfər zadəgan nəsli olmuşdur ki, bunlardan 4863 nəfərini (84,3 faizini) Azərbaycan türkləri, 834 nəfərini (14 faizini) ermənilər, 57 nəfərini (1 faizini) kürdlər, 6 nəfərini isə ruslar təşkil etmişlər [17, s. 75].

1897-ci ildə Cavanşir qəzasının ərazisi 4818,4 verst^2 olmuşdur. Bu ərazidə ümumilikdə əhalinin sayı 72.719 nəfər idi ki, bunlardan da 41.039 nəfərini kişilər, 31.680 nəfərini qadınlar təşkil edirdi. Şəhər əhalisi 752 nəfər olmuşdur ki, bunlardan da 496 nəfəri kişilər, 256 qadınlar idi. 40.543 nəfəri kişilərdən, 31.424 nəfəri qadınlardan ibarət olan kənd əhalisinin ümumi sayı isə 71.967 nəfər olmuşdur. Cavanşir qəzasında əhalinin orta sıxlığı 16,4 nəfər idi, yəni hər kvadrat verstə (bir kvadrat kilometrə) 29,4 adam düşürdü. Sıxlığın enib-qalxması 1 kvadrat verstdə 20,2 və 43 adam təşkil edirdi [6, s. 16].

Cəbrayıl qəzasının ərazisi 2922,6 verst, əhalisi 66.360 nəfər olmuşdur ki, bunlardan da kişilərin sayı 36.389, qadınların sayı isə 29.971 nəfər olmuşdur. Qəzanın mərkəzi Cəbrayılda 520 nəfər yaşayırdı ki, bundan 369 nəfəri kişilər, 151 nəfəri qadınlar idi. Qəzanın qalan ərazisində əhalinin sayı ümumilikdə 65.840 nəfər, bunlardan kişilər 36.020 nəfər, qadınlar isə 29.820 nəfər olmuşdur.

Rusiyanın Cənubi Qafqaza ermənləri yerləşdirməsi sonradan bölgədə erməni separatizminin və azərbaycanlılara qarşı qanlı cinayətlərin başlanmasına səbəb oldu. Ruslar və ermənilər öz çirkin niyyətlərini ilk dəfə 1905-1907-ci illər arasında açıq büruzə verməyə başladı. Çar Rusiyası Türkiyədən, İrandan, Livandan və digər ölkələrdən Qafqaza köçürdüyü ermənləri silahlandırıb azərbaycanlı əhaliyə qarşı müharibəyə qaldırdı. Qarabağın qəzalarında baş verən erməni-müsəlman münaqişəsi nəticəsində, erməni müəllifi S.Zavaryanın verdiyi məlumata görə, Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43 (cəmi 75) müsəlman kəndi dağıdıldı [23, s. 61].

Birinci Dünya Müharibəsi dövründə, 1918-ci ildə yenidən işə düşən erməni vandalizmi 1920-ci ilə qədər davam etdirildi. Bu dövrdə yüzlərlə Azərbaycan kəndi dağıdıldı, yüz minlərlə azərbaycanlı əhali ata-baba yurdundan didərgin salındı və yaxud qətlə yetirildi.

Ermənilər tərəfindən azərbaycanlılara qarşı etnik zəmində məqsədli törədilmiş soyqırım və deportasiya bu ərazilərdə yaşayan azərbaycanlıların ya məhv edilməsi, ya da ərazini tərk etməsi ilə nəticələnirdi ki, bu da demoqrafik vəziyyətin dəyişməsinə və ermənilərin say çoxluğuna gətirib çıxarırdı.

Çar Rusiyanın bu bölgəyə ermənləri köçürməsinin və millətlərarası münaqişənin məqsədli yaratmasının başlıca səbəbi Azərbaycanda, o cümlədən Qarabağ regionunda ermənilərin say çoxluğuna nail olmaq və Cənubi Qafqazda bir xristian dövləti yaratmaq idi.

Bunu Vorontsov-Daşkovun imperator Nikolay Romanova ünvanladığı məktubda aydın görmək olur. Qafqaz sərdarı İ.İ.Vorontsov-Daşkovun imperator əlahəzrətləri Nikolay Romanova 17 aprel 1909-cu il tarixli məktubunda deyilir:

"...Məncə, ermənilərə qahmar çıxmaq təşəbbüsünü əldən vermək olmaz, bir də ki, artıq qəzetlərdə belə bir məlumat yayılıb ki, bu bəlkə də yalandır, bəzi erməni siyasətbazları Avstriyanın müdaxilə etməsi xahişi ilə qraf Bertholda müraciət etmişlər. Əgər biz bu təşəbbüsü əlimizə almasaq, bu təşəbbüs başqa bir böyük dövlətin əlinə keçər, bununla da Kiçik Asiya xristianları arasında Rusiyanın nüfuzuna böyük ziyan dəymiş olar, bu məqamda erməni xalqının yalvarışları qarşısında bizim susmağımız, əlbəttə, onun indiyədək yeganə tacidar himayədarı rus çarına ümidlərini həmişəlik itirməsinə və bundan belə müdafiəni Rusiyadan kənarda axtarmasına gətirib çıxara bilər. Onları özümüzdən uzaqlaşdırmamaqdan ötrü xüsusən də indiki məqamda Türkiyə ermənilərinin müdafiəsində belə bir açıq çıxış etməyimiz, irəlidə indiki vəziyyət daxilində istər-istəməz asanlıqla bizim hərbi əməliyyatlar sferamıza düşə biləcək yerlərdə əhalinin bizə hüsn-rəğbətini hazırlamağımız vacibdir" (İmperator Əlahəzrətlərinin sadiq təbəəsi qraf Vorontsov-Daşkov, Sankt-Peterburq, 10 oktyabr 1912-ci il) [27, s. 1].

XIX əsrin sonu-XX əsrin əvvəllərində regionda gedən proseslərə baxanda aydın olur ki, yaranmış beynəlxalq vəziyyətdən və xüsusən Rusiyanın imperialist siyasətindən istifadə edən ermənilər özlərinə böyük bir dövlət yaratmaq istəyirdilər və o dövrdə məskunlaşdıqları bütün əraziləri yaratmaq arzusunda olduqları erməni dövlətinin ərazilərinə daxil etməyi planlaşdırırdılar.

İri dövlətlərin maraqlarına xidmət edən ermənilər, nəhayət, XX əsrin əvvəllərində çar Rusiyasının köməyi ilə Cənubi Qafqazda azərbaycanlıların tarix boyu yaşadığı Azərbaycana məxsus İrəvan şəhəri paytaxt olmaqla, Azərbaycanın qərb ərazilərində bir xristian erməni dövləti yaratmağa müvəffəq oldular. XX əsrin əvvəllərində Azərbaycan ərazilərində yaradılmış bu xristian erməni dövləti hal-hazırda da beynəlxalq hüquq normalarını pozaraq Azərbaycanın Qarabağ ərazisini işğal altında saxlamaqla həmişəki məkrli siyasətindən və terrorçu xislətindən əl çəkmədiyini bütün dünyaya göstərməkdə davam edir. Ermənilərə qarşı daim dözüm göstərən, onları bütün situasiyalarda müdafiə edən və terrorizmi dövlət siyasətinə çevirən Ermənistanın bütün cinayətkar əməllərinə münasibətdə ikili standartlar siyasəti yürüdən iri dövlətlər, bununla əslində ermənilərin törətdikləri cinayətlərdə birbaşa məsuliyyət daşıdıqlarını unutmamalıdırlar. Tarix tez və ya gec bütün cinayətkarları mühakimə kürsüsünə çıxarır.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi: 7 cilddə. V c. (1900-1920-ci illər), Bakı: Elm, 2008, 696 s. + 40 s. illüstrasiya.
2. Vəliyev D. Erməni terrorizmi və cinayətləri: Azərbaycanda, Türkiyədə və dünyada (hadisə və faktların xronikası). Bakı: Elm, 1994, 184 s.
3. Əliyev İ. Dağlıq Qarabağ. Bakı: Elm, 1989, 120 s.
4. Əzizov T.Ə. Azərbaycan XX əsrin əvvəllərində. Bakı: Zaman, 1997, 256 s.

5. Qarabağnamələr. İkinci kitab, Bakı: Yazıçı, 1991, 450 s.
6. Vəliyev (Baharlı) M.H. Azərbaycan (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). Bakı: Azərbaycan, 1993, 192 s.
7. M.Sədi Koçaş. Tarixdə ermənilər və türk-erməni münasibətləri. Bakı: Azərbaycan Ensiklopediyası, 1998, 160 s.
8. Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı: Ay-ulduz, 1996, 304 s.
9. Mahmudov Y., Şükürov K. Qarabağ. Real tarix, faktlar, sənədlər. Bakı: Təhsil, 2009, 143 s.
10. Гусейнзаде Р.А. Кавказ и Армяне. Второе издание, Баку, 2014, 486 с.
11. Еремян С.Т. Нашествие киммерийцев и скифских племён и борьба Урарту и Ассирии против кочевников // Историко-филологический журнал, 1968, № 2.
12. Зелинский С.П. Экономический быт государственных крестьян Зангезурского уезда Елизаветпольской губернии. Т. IV, СПб., 1886.
13. Ишханян Б. Народности Кавказа (Статистическо-экономическое исследование). Петроград, 1916, с. 16.
14. Кавказский календарь. 1896, с. 48-61.
15. Кямуран Гюрюн. Армянское досье / Перевод с турецкого И.Ахундова. Баку: Языcы, 1993, 176 с.
16. Первая Всеобщая перепись населения Российской империи 1897 года (Губернские итоги). Т.т. I-LXXXIX, СПб., 1903-1905.
17. Первая всеобщая перепись населения Российской империи 1897 года. Спб., 1905, 185 с.
18. Первая всеобщая перепись населения Российской империи 1897 г. Т. LXIII: Елизаветпольская губерния. СПб., 1904, 183 с.
19. Присоединение Восточной Армении к России. Т. I, Ереван, 1972.
20. Садыхова Г. История Города Шуши (XIX-начало XX вв.). Баку: Нурлан, 2004, 184 с.
21. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказии: Предстоящая распродажа Мугана инородцам. Л., 1911.
22. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852, 1232 с.
23. Заварян С. Экономические условия Карабаха и голод 1906-1907 гг. / Перевод с армянского. С.Петербург: Издание Армянского Культурного Союза в Баку, 1907.
24. http://az.wikipedia.org/Kürəkçay_müqaviləsi.
25. http://az.wikipedia.org/Gülüstan_müqaviləsi.
26. http://az.wikipedia.org/Türkmənçay_müqaviləsi.
27. http://www.history.az/

Бахтияр Гасанов

ПЕРЕСЕЛЕНИЕ АРМЯН И ДЕМОГРАФИЧЕСКАЯ СИТУАЦИЯ В КАРАБАХСКОМ РЕГИОНЕ АЗЕРБАЙДЖАНА В НАЧАЛЕ XX ВЕКА

В статье исследовано положение царской России, ее геополитические интересы на Южном Кавказе, а также в азербайджанском регионе Карабаха в начале XX века. А также рассматривается депортация царскими чиновниками мусульманского населения из региона и переселение туда армян, исповедовавших христианство, в результате чего демографическое положение искусственно изменилось в пользу армян.

Ключевые слова: *Азербайджан, Карабахский регион, Шуша, Зангезур, Джаванширр, Джебраил (Карягин), демография.*

Bakhtiyar Hassanov

RESETTLEMENT OF ARMENIANS AND DEMOGRAPHIC SITUATION IN KARABAKH REGION OF AZERBAIJAN IN EARLY XX CENTURY

The situation of Tsarist Russia, its geopolitical interests in the South Caucasus, as well as in the Azerbaijani region of Karabakh in the early XX century is studied in the paper. The deportation of the Muslim population out of the region by royal officials and resettlement of Armenians professing Christianity to that region is also considered, as a result of this entire demographic situation has been artificially changed for Armenians' benefit.

Key words: *Azerbaijan, Nagorno-Karabakh region, Shusha, Zangezur, Javanshir, Jabrail (Garyagin), demography.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

ELNUR CƏMİLLİ
Dövlət İdarəçilik Akademiyası

GÜRCÜSTANDA ETNİK MÜNAQİŞƏLƏRİN KÖKLƏRİ VƏ MÖVCUD VƏZİYYƏT

SSRİ-nin dağılma prosesində onun müxtəlif ərazilərində etnik münaqişələr də başlamışdır. Ən çox etnik gərginliyin yaşandığı respublika isə Gürcüstan olmuşdur. SSRİ-nin dağılma mərhələsində Cənubi Qafqaz regionundakı üç etnik münaqişə diqqəti xüsusilə cəlb etmişdir ki, onlar arasında Abxaziya və Cənubi Osetiya münaqişələri də var idi. Bu münaqişələr beynəlxalq münasibətlər sistemində əsasən 20-ci əsrin sonlarında gündəmə gəlsə də, problemin kökləri 20-ci əsrin əvvəllərinə qədər gedir. Məqalədə Abxaziya və Cənubi Osetiya münaqişələrinin tarixi kökləri, onları doğuran səbəblər araşdırılmış və münaqişələrin mövcud vəziyyəti təhlil olunmuşdur.

Açar sözlər: *etnik münaqişə, münaqişə tərəfləri, müharibə, Gürcüstan, Abxaziya, Cənubi Osetiya.*

SSRİ-nin dağılma prosesi etnik münaqişələrin şiddətlənməsi ilə bir-birinə paralel getmişdir. Ən çox etnik gərginliyin yaşandığı respublika isə Gürcüstan olmuşdur. Bu respublikanın çoxmillətli olması, muxtar subyektlərin sayı, o vaxtdakı hakimiyyətin daha radikal millətçi əhval-ruhiyyə ilə ölkəni idarə etməyə çalışması, Moskvanın destruktiv xarakterli müdaxiləsi Gürcüstanda etnik münaqişələrin alovlanmasına səbəb olmuşdur. Beləcə, SSRİ-nin dağılma mərhələsində Gürcüstanda "Osetiya münaqişəsi" və "Abxaziya münaqişəsi" kimi problemlər ortaya çıxmışdır.

Cənubi Osetiya münaqişəsinin kökündə həm tarixi yanaşma fərqliliyi, həm böyük güclərin regionla bağlı maraqları yatır. Gürcü tarixçilər, Cənubi Osetiya regionunun tarix boyunca Gürcüstanın bir parçası olduğunu iddia edirlər. Onların fikrincə, osetinlər bu torpaqlara, son iki əsr ərzində, şimaldan köçürülmüşdür. Osetin tarixçilər isə, Cənubi Osetiyanın osetinlərin tarixi vətənlərinin bir parçası olduğunu iddia edirlər.

XIX əsrdə Rusiya regionda inzibati idarəetmə formalarını müəyyənləşdirərkən Cənubi Osetiyanı Gürcüstanın tərkibində nəzərdə tutmuşdur. Çar Rusiyasının dağılmasından sonra da müstəqil Gürcüstan Respublikası Cənubi Osetiya üzərində suverenliyini qoruyub saxlamışdır. Sadəcə 1920-ci illərin əvvəlində xaotik vəziyyətdən faydalanmağa çalışan osetinlər, Rusiyanın köməyindən isti-

fadə edərək Gürcüstana qarşı üsyan qaldırmışdır. 1921-ci ildə Qızıl ordunun Gürcüstanı işğal etməsindən sonra 1922-ci ilin aprelində Cənubi Osetiyada muxtar vilayət yaradılmışdır. Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının 1936-cı ildə dağılması nəticəsində Gürcüstan ayrı ittifaq respublikası olarkən, Cənubi Osetiya Gürcüstana bağlı olaraq qalmışdır. 1936-cı ildə Cənubi Osetiyanın statusunun müəyyənləşdirilməsindən sonra 1980-ci illərdə Sovet İttifaqının dağılması prosesi alovlanana qədər regionda əsasən sakitçilik hökm sürmüş, etnik münaqişə yaşanmamışdır. Ancaq 1980-ci illərdə Cənubi Osetiya münaqişəsi alovlanmağa başlamışdır. Osetinlərdə gürcülərə qarşı inamsızlıq və digər mənfi hisslər, Rusiya Federasiyasının bir subyekti olan Şimali Osetiyanın Cənubi Osetiyadan daha yüksək statusa malik olması da problemə təsir edirdi. Osetinlər SSRİ dövründə iki fərqli inzibati vahiddə Cənubi Osetiya Muxtar Vilayətində (Gürcüstan SSR) və Şimali Osetiya Muxtar Respublikasında (RSFSR) yaşamaq məcburiyyətində qalmışdılar. Amma Gürcüstan SSR və RSFSR hər ikisi SSRİ-nin parçası olduğu üçün osetinlər əslində bir dövlətin vətəndaşı idilər. Amma Gürcüstan SSRİ-dən ayrılıb müstəqil olmaq istəyəndə vəziyyət dəyişirdi. Osetinlərin bir hissəsi iddia edirdi ki, əgər Gürcüstan SSRİ-dən ayrılaraq müstəqil olmaq istəyirsə, deməli, Gürcüstandakı muxtar subyektlər də Gürcüstandan ayrılaraq müstəqil ola bilərlər.

10 noyabr 1989-cu il tarixində isə Cənubi Osetiya Muxtar Vilayəti Xalq Deputatları Soveti öz statusunu dəyişdirməklə bağlı qərar qəbul etmişdir [13, s. 393]. Qərara görə Cənubi Osetiya Gürcüstan SSR daxilində "muxtar respublika" statusuna yüksəldilmişdir [10, s. 43]. Cənubi Osetiya Muxtar Vilayəti Xalq Deputatları Soveti 20 sentyabr 1990-cı il tarixində suverenliyini elan etmişdir. Buna görə Cənubi Osetiya Gürcüstandan ayrılaraq SSRİ-nin tərkibində "Cənubi Osetiya Sovet Demokratik Respublikası" kimi yer alacaqdı. Həmin il dekabr ayının 9-da osetinlər "seçki" keçirmişdir. Gürcülər seçkini boykot etmişdir.

26 may 1991-ci ildə Gürcüstanın ilk prezidenti seçilən Zviad Qamsaxurdiyanın fəaliyyətinin etnik münaqişələr baxımından ikitərəfli təsiri olmuşdur. Bir yandan bu radikal millətçilik digər etnik qrupları qıcıqlandırmış, digər tərəfdən "tam müstəqillik" prinsipi Moskvanın Gürcüstana qarşı destruktiv fəaliyyətini artırmasına səbəb olmuşdur. Qamsaxurdiya vətəndaş müharibəsi nəticəsində 1992-ci ilin yanvarında Tbilisini tərk etmək məcburiyyətində qalmışdır. 1992-ci ilin martından isə Eduard Şevardnadze hakimiyyətə gəlmişdir.

19 yanvar 1992-ci il tarixində Cənubi Osetiyada keçirilən "referendum"da iştirak edənlərin 90%-i Gürcüstandan ayrılaraq Rusiya Federasiyasına birləşməklə bağlı mövqe bildirmişdir. Tbilisidəki hərbi şura bu addımı qınamış, hətta Sxinvaliyə ordu yeritməyə çalışmışdır. 1992-ci il münaqişənin sözün əsl mənasında müharibə mənasına keçdiyi dövr olmuşdur. Müharibənin bir tərəfi Gürcüstan ordusu, digər tərəfi isə Cənubi Osetiya silahlıları ilə Rusiya ordusu və Şimali Qafqazdan olan könüllülər olmuşdur. 13 may 1992-ci il tarixində müvəqqəti atəşkəsin təmin edilməsi üçün Gürcüstan, Şimali Osetiya və Cənubi

Osetiya liderləri bir araya gələrək üçlü danışıqlar aparmışdır. Amma bu proses müxtəlif provokasiyalar ucbatından nəticəsiz qalmışdır. Bundan sonrakı mərhələdə Şevardnadzenin prezidentliyi illərində Cənubi Osetiya münaqişəsində ciddi silahlı insident baş verməmişdir.

2003-ci ildə Prezident Şeverdnadzenin istefasıyla nəticələnən "qızılgül inqilabı" kimi də adlandırılan proseslərdən sonra isə hakimiyyətə Mixail Saakaşvili gəlmişdir. Mixail Saakaşvilinin prezidentliyindən sonra isə Cənubi Osetiya münaqişəsi ilə bağlı yeni mərhələyə qədəm qoyulmuşdur. Gürcüstan bir yandan güclü ordu quraraq, digər yandan da iqtisadi və sosial amillərdən istifadə edərək Cənubi Osetiyanı öz nəzarəti altına almağa çalışmışdır. Amma nə Rusiya rəhbərliyi, nə də Cənubi Osetiyadakı "de-fakto" hakimiyyət buna razı olmadıqları üçün bu iki tərəf müxtəlif provokasiyalara əl atmışdır.

2006-ci ilin əvvəllərində Gürcüstan ilə Cənubi Osetiya arasındakı təmas xəttində "MDB sülhməramlılarının" səlahiyyət müddətinin uzadılması məsələsi gərginliyə səbəb olmuşdur. Çünki Gürcüstan, bölgədəki sülhməramlıları öz suverenliyinə və ərazi bütövlüyünə qarşı təhlükə kimi görmüşdür. Rusiya Cənubi Osetiyada yaşayan insanlara vətəndaşlıq verməyə başlamış, bu Gürcüstanın etirazlarına səbəb olmuşdur. 18 iyul 2006-cı il tarixində Gürcüstan parlamenti, "Gürcüstanın separatçı regionlarında sülhməramlı hərəkat" adlı sənəd qəbul etmişdir. Sənəd Gürcüstan hökumətinin təcili şəkildə Cənubi Osetiyadakı mövcud sülhməramlıların çıxarılması və beynəlxalq sülhməramlı güclə dəyişdirilməsi üçün zəruri addımları atmasını nəzərdə tutmuşdur [12].

2008-ci il avqustun ilk günlərindən başlayaraq gürcü və osetinlər arasında qarşılıqlı atəşlərin artması, müharibənin ilk siqnalları olmuşdu. Avqustun 7-də Gürcüstan Prezidenti Mixail Saakaşvili atəşkəs elan etdiklərini açıqlamış, ancaq bu atəşkəs müharibənin başlanğıcının ilk addımı olmuşdu. Atəşkəsdən dərhal sonra osetin tərəfinin gürcü kəndlərinə bombalı hücumu (Gürcüstanın iddiası belədir) Gürcüstanı "cavab əməliyyatlarına məcbur etmiş", avqustun 8-də artıq Gürcüstan ordusu Cənubi Osetiyaya daxil olmağa başlamışdır. Gürcü ordusu Cənubi Osetiyanın paytaxtı Sxinvalini nəzarətinə almışdır. Buna cavab olaraq Rusiya Gürcüstana hücuma keçmiş və Gürcüstan ərazisini işğal etmişdir. Beləcə, bəzilərinə görə Gürcüstan-Rusiya müharibəsi kimi xarakterizə edilən hadisələr Gürcüstan-Cənubi Osetiya-Abxaziya-Rusiya müharibəsinə çevrilmişdir. Qonşu dövlətlər və böyük güclər mövzu ilə bağlı narahatlıqlarını ifadə etmiş, müharibənin dayanması üçün təşəbbüslər göstərmişdir. Xüsusilə, Avropa İttifaqının sədri kimi Fransa prezidenti Nikolas Sarkozinin vasitəçiliyi ilə 12 avqust 2008-ci il tarixində 6 maddəlik atəşkəs müqaviləsi imzalanmışdır. Müqavilə güc tətbiqinə son verilməsini, hərbi xarakterli hərəkətlərin dayandırılmasını, humanitar yardımlara imkan tanınmasını, Gürcüstan və Rusiya ordularının son müharibədən əvvəlki mövqelərinə geri qayıtmasını, Cənubi Osetiya və Abxaziyanın gələcək statusu mövzusunda beynəlxalq səviyyəli danışıqların aparılmasını nəzərdə tuturdu. Ancaq Rusiya hakimiyyəti əks mövqe nümayiş etdirmiş-

dir. Rusiya artıq Abxaziya və Cənubi Osetiyanın statuslarının müzakirə mövzusu olmayacağını elan etmişdir. 21 avqust 2008-ci il tarixində Abxaziya və Cənubi Osetiya "parlament"ləri, "müstəqilliklərinin" rəsmən tanınması üçün Rusiyaya müraciət etmişdir. Əvvəllər bu cür müraciətlərə cavab verməyən Rusiya bu dəfə fərqli davranmışdır. Prezident Medvedev, 26 avqust 2008-ci ildə Rusiyanın Cənubi Osetiyanı "müstəqil dövlət" kimi tanıdığını açıqlamışdır.

Daha sonra Rusiyanın təşəbbüsü ilə başqa dövlətlər də Cənubi Osetiyanın "müstəqilliyini" tanımışdır. Cənubi Osetiya ilə Nikaraqua arasında "diplomatik əlaqələr" 14 aprel 2010-cu il tarixində qurulmuşdur [14]. 1 oktyabr 2008-ci ildə Somalinin Rusiyadakı səfiri Cənubi Osetiyanın müstəqilliyini tanıyacaqlarını açıqlamışdır. Amma daha sonra Somali rəsmiləri Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiklərini açıqlamışdır. 15 dekabr 2009-cu il tarixində Sakit okeandakı ada dövləti Nauru Cənubi Osetiyanın "müstəqilliyini" tanımışdır [7]. 2011-ci ilin sentyabrında isə Tuvalunun Cənubi Osetiyanı "müstəqil dövlət" kimi tanıdığı açıqlanmışdır (1). Gürcüstan buna sərt reaksiya vermişdir. Amma daha sonra Tuvalunun Cənubi Osetiyanı tanıması ilə bağlı əks proses getmişdir. Belə ki, 31 mart 2014-cü il tarixində Tbilisiyə səfər edən Tuvalunun Xarici İşlər naziri Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiklərini açıqlamışdır [9].

Növbəti illərdə Cənubi Osetiya münaqişəsinin həlli ilə bağlı səylər davam etsə də, 2008-ci ilin avqust hadisələri və daha sonra Rusiyanın başlatdığı "tanıma" prosesi bu istiqamətdəki imkanları xeyli azaltmışdır.

SSRİ-nin dağılma mərhələsində Cənubi Qafqaz regionundakı üç etnik münaqişə diqqəti xüsusilə cəlb etmişdir ki, onlar arasında Abxaziya münaqişəsi də var idi.

Abxaziyanın etnik tərkibinin XIX və XX əsrlərdə zorla dəyişdirilməsi, SSRİ-nin formalaşdırılması prosesində Abxaziyanın bir neçə fərqli statusa malik olması, Rusiyanın Cənubi Qafqaz regionundakı etnik separatizmdən öz məqsədi üçün istifadə etməyə çalışması, separatizm qarşısında ilk illərdəki səriştəsiz idarəetmə və gürcü millətçiliyi gərginliyi artıran amillərdən olmuşdur.

1917-ci ildə Rusiyadakı bolşevik inqilabından sonra xalqların öz müqəddəratını təyinetmə hüququ ilə bağlı şüarlar abxazlarda da həyəcan yaratmışdır. 9 fevral 1918-ci il tarixində Gürcüstan Milli Şurası ilə Abxaziya Xalq Şurası arasında imzalanmış müqavilə Abxaziyanın inzibati sərhədlərini müəyyən etmişdir. Ancaq 17 may 1918-ci il tarixində Zaqafqaziya Seyminin hərbi birləşmələri Suxumini ələ keçirmiş, 26 may 1918-ci il tarixində Gürcüstan Zaqafqaziya Seymindən ayrıldıqdan sonra Gürcüstan ordusu Abxaziyanı öz nəzarəti altında saxlamışdır. Gürcüstan 9 fevral 1918-ci il tarixində Abxaziyaya muxtariyyət verən qanun qəbul etmişdir. Rusiya Sovet Sosialist Federativ Respublikası da 7 may 1920-ci il tarixində Gürcüstan ilə imzaladığı müqavilədə bu ərazini Gürcüstanın tərkib hissəsi kimi tanımışdır. Gürcüstanın bolşevikler tərəfindən işğal edilməsi prosesinə paralel olaraq 3 mart 1921-ci il tarixində Qızıl Ordunun dəstəyi ilə Suxumidə, "inqilab komitəsi" yaradılmışdır. Öz növbəsində inqilab komitəsi

Abxaziya Sovet Sosialist Respublikasını elan etmişdir. 16 dekabr 1921-ci il tarixində Abxaziya SSR ilə Gürcüstan Sovet Sosialist Respublikası arasında birlik yaradılması məqsədiylə müqavilə imzalanmışdır. Müqaviləyə görə Abxaziya SSR-in hərbi və xarici siyasət üzrə səlahiyyətləri Tiflisdəki mərkəzi hökumətə keçmişdir. 11 fevral 1931-ci il tarixində isə Abxaziyanın statusu bir qədər aşağı salınmış, Abxaziya Gürcüstan SSR daxilində muxtar respublikaya çevrilmişdir. 1978-ci ildə Abxaziya və Gürcüstan konstitusiyaları yenidən təsdiq olunmuş və Abxaziyanın xeyrinə müəyyən dəyişikliklər olmuşdur.

SSRİ-nin dağılma prosesi Abxaziya probleminin yenidən alovlanmasına səbəb olmuşdur. Abxazlar, bölgənin statusuna dair 11 fevral 1931-ci il tarixli qərarın ləğv edilməsini tələb etməyə başlamışdır. Abxaziya Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin 25 avqust 1990-cı il tarixli qərarı vəziyyəti gərginləşdirmişdir. Qəbul edilmiş "Abxaziya Muxtar Sovet Sosialist Respublikasının Dövlət Suverenliyi haqqında" Bəyannamə Abxaziyanın suveren sosialist respublikaya çevrilməsini nəzərdə tuturdu.

1990-cı illərdə Gürcüstanda daxili vəziyyətin qeyri-sabit olması, Zviad Qamsaxurdiya hakimiyyətinin radikal millətçi siyasəti, daha sonra Gürcüstanda vətəndaş müharibəsinin başlaması da Abxaziya münaqişəsinin taleyinə təsir etmişdir.

Uzun qeyri-sabitlikdən sonra 14 avqust 1992-ci il tarixində, Gürcüstan hərbi yolla Abxaziyanı öz nəzarətinə qaytarmağa çalışmışdır. Amma iki amil Gürcüstanın prosesi sona qədər uğurla aparmasına mane olmuşdur. Bunlardan biri "Qafqaz Xalqları Konfederasiyası"na bağlı könüllülərinin Abxaziya tərəfdə döyüşlərə qoşulması olmuşdur. Digər tərəfdən hərbi münaqişəyə Rusiya da açıq şəkildə müdaxilə etməyə başlamışdır. 3 sentyabr 1992-ci il tarixində Moskvada, Gürcüstan ilə Abxaziya arasında atəşkəsə dair razılıq əldə olunmuşdur. Amma bu razılaşmaya əməl edilməmişdir. Döyüşlər 30 sentyabr 1993-cü il tarixində dayandırılanda Gürcüstan ordusu Abxaziya üzərində nəzarətini tam itirmişdi.

Beləliklə, aparılan danışıqlar nəticəsində 4 aprel 1994-cü il tarixində Moskvada Abxaziya və Gürcüstan rəsmiləri arasında, "Gürcüstan-Abxaziya münaqişəsinin sülh yolu ilə həlli üçün təkliflər haqqında" Bəyannamə imzalanmışdır. Razılaşmaya əsasən bölgəyə MDB sülhməramlılarının yerləşdirilməsi prosesi başlamışdır. Adı MDB sülhməramlıları olsa da, regiona 1800 nəfər rus hərbçisindən ibarət olan sülhməramlılar dəstəsi yerləşdirilmişdir.

2001-ci ilin yayında Abxaziya və Gürcüstan arasındakı cəbhə xəttində vəziyyət gərginləşmişdir. 2001-ci ilin sentyabr-oktyabr aylarında münaqişə alovlanmışdır. Döyüşlər əsasən iki tərəfin də strateji əhəmiyyət verdiyi Kodor dərəsi ətrafında cərəyan etmişdir. 18 oktyabr 2001-ci il tarixində dayandırılan döyüşlər nəticəsində Abxaz separatçıları Kodor dərəsini nəzarətləri altına almışdır.

2004-cü ilin mayında Gürcüstan, Abxaziyaya federasiya səviyyəsində geniş muxtariyyət statusu təklif etmiş, lakin Abxaziya buna mənfi yanaşmışdır. Bir müddət sonra aydın olmuşdur ki, Saakaşvili iqtidarı ərazi bütövlüyü ilə

bağlı problemlərini həll etmək üçün yeni taktikaya müraciət etməyə hazırlaşır. Bu taktikanın əsasını Gürcüstanın problemlərini həll etmək, həyat standartlarını yüksəltmək, Gürcüstanı bir ölkə kimi Abxaziyada və Cənubi Osetiyada yaşayanlar üçün cəlbedici etmək təşkil etmişdir.

Saakaşvili hakimiyyəti bu istiqamətdə müəyyən addımlar atsa da, Rusiya ilə münasibətlərdə yaşanan soyuqluqlar Abxaziya və Cənubi Osetiya münaqişələrinin taleyinə də təsir etmişdir. Gürcüstandakı rus hərbi bazalarının boşaldılması prosesi Rusiyanı narazı salmışdır. Belə ki, 30 may 2005-ci il tarixində Moskvada, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov ilə Gürcüstanın Xarici İşlər naziri Salome Zurabişvili arasında Gürcüstandakı rus hərbi bazalarının boşaldılması ilə bağlı müqavilə imzalanmışdır. Öz növbəsində Rusiya da Gürcüstanın Qərb ilə sıxlaşan münasibətlərinə sərt reaksiya vermişdir. 2005-ci ilin oktyabrında Rusiya Federasiyasının cənub respublikalarının parlamentlərini birləşdirən Cənubi Rusiya Parlament Assosiasiyasının üzvlüyünə Abxaziyanın da alınması ilə bağlı qərar da birbaşa Gürcüstanın ərazi bütövlüyünə qarşı yönəlmişdir [15].

Abxaziya münaqişəsinin taleyi baxımından ən vacib hadisələr 2008-ci ildə cərəyan etmişdir. Avqustun ilk günlərində Cənubi Osetiya və Rusiya tərəfi Gürcüstanı, Gürcüstan isə qarşı tərəfləri özünə qarşı kiçik hərbi əməliyyatlarla və mülki vətəndaşları öldürməklə günahlandırmışdır. Gürcüstanın başlatdığı hərbi əməliyyatlar ilk başda uğurla nəticələndiyi halda, daha sonra Rusiyanın açıq hərbi müdaxiləsi ilə müharibənin taleyi dəyişmişdir.

Rusiya 26 avqust 2008-ci il tarixində Abxaziyanın "müstəqilliyini" tanımış və digər ölkələrin də Abxaziyanı tanıması üçün təşəbbüslər göstərmişdir [8]. Bu təşəbbüslər nəticəsində 5 sentyabr 2008-ci il tarixində Nikaraquanın Abxaziyanı tanıdığı açıqlanmışdır [11]. 10 sentyabr 2009-cu il tarixində Venesuela Bolivar Respublikasının Prezidenti Oqo Çaves "Abxaziya Respublikasının müstəqilliyini" tanıdıqlarını açıqlamışdır [2]. 15 dekabr 2009-cu il tarixində Nauru Abxaziyanın "müstəqilliyini" tanıyan dördüncü ölkə olmuşdur [6]. 2011-ci ilin mayında Vanuatu Abxaziyanı "müstəqil dövlət" kimi tanıdığı açıqlanmışdır [4]. Amma 7 iyun 2011-ci il tarixində Vanuatunun BMT-dəki səfiri ölkəsinin Abxaziyanın "müstəqilliyini" tanımadığını bildirib [5]. 2011-ci ilin sentyabrında isə Tuvalunun Abxaziyanı "müstəqil dövlət" kimi tanıdığı açıqlanmışdır [3]. Gürcüstan buna sərt reaksiya vermişdir. Amma Tuvalunun da Abxaziyanı tanıması ilə bağlı daha sonra əks proses getmişdir. Belə ki, 31 mart 2014-cü il tarixində Tuvalunun Xarici İşlər naziri Abxaziyanı tanıdıqlarına dair sənədin qüvvədən düşdüyünü açıqlamışdır [9].

Beləliklə, Abxaziya münaqişəsi hələ də həll edilmədən qalır. Digər tərəfdən münaqişə ilə bağlı beynəlxalq vəziyyət də bu "tanınma" probleminə görə mürəkkəbliyini qoruyur.

ƏDƏBİYYAT

1. 23 сентября 2011 Острова Тувалу признали Южную Осетию, http://lenta.ru /news/2011/09/23/tuvalu1/)
2. Chávez Backs Moscow on Rebel Regions, http://www.nytimes.com/2009/09/ 11/world /americas/11moscow.html?_r=1
3. Абхазию признало государство Тувалу, 23 сентября 2011, http:// lenta.ru /news /2011/09/23/tuvalu/
4. Независимость Абхазии признали острова Вануату, 31 мая 2011 http://www.bbc.co.uk/russian/international/2011/05/110531_vanuatu_ recognise_abkhazia.shtml)
5. Признание Абхазии со стороны Вануату, http://www.civil.ge/rus/ article.php?id=22151)
6. Республика Науру признала независимость Абхазии, 15.12.2009 http://ria.ru/politics/20091215/199361378.html)
7. "Республика Науру признала независимость Южной Осетии, 16.12.2009 http://lenta.ru /news/2009/12/16/nauru/
8. Россия признала независимость Абхазии и Южной Осетии, http:// lenta.ru /news /2008/08/26/medvedev/)
9. Тувалу отозвала признание Абхазии и Южной Осетии, 31 Март 14, http: //www. civil.ge /rus/article.php?id=25821/).
10. Zverev A. Ethnic Conflict in the Caucasus 1988-1994 / Coppieters B. Contested Borders in the Caucasus. Brussels: VUB University Pres, 1996.
11. http://www.cancilleria.gob.ni/publicaciones/r_abjasia.pdf
12. Kommersant-Коммерсантъ, 2006, 20 iyul. http://www.kommersant.ru/doc/691380
13. Жирохов М.А. Семена распада: войны и конфликты на территории бывшего СССР. Петербург: БХВ, 2012, 688 s,
14. Южная Осетия установила дипотношения с Никарагуа, 14 апреля 2010 http://lenta.ru /news/2010/04/14/nicaragua/
15. Абхазию приняли в Южный федеральный округ, 5 октября 2005 г. http://www.newsru. com/arch/russia/05oct2005/abhaziya.html

Эльнур Джамилли

КОРНИ И СОВРЕМЕННОЕ СОСТОЯНИЕ ЭТНИЧЕСКИХ КОНФЛИКТОВ В ГРУЗИИ

В процессе распада СССР в различных его регионах начались этнические конфликты. Республикой, где более всего проявилась этническая напряженность, стала Грузия. В период распада СССР три этнических конфликта на Южном Кавказе привлекали особое внимание, среди них были Абхазский и Южноосетинский конфликты. Хотя эти конфликты в

системе международных отношений в основном проявились в конце XX века, корни этой проблемы уходят в начало XX века. В статье исследованы исторические корни Абхазского и Южноосетинского конфликтов, причины их зарождения и проанализировано современное состояние конфликтов.

Ключевые слова: *этнический конфликт, конфликтующие стороны, война, Грузия, Абхазия, Южная Осетия.*

Elnur Jamilli

ROOTS AND CURRENT SITUATION OF ETHNIC CONFLICTS IN GEORGIA

Ethnic conflicts came up in different areas of the former USSR during its collapse. Georgia became one of the republics where ethnic conflicts revealed themselves more severe. Three ethnic conflicts especially drew attention in the South Caucasus during the collapse of the former USSR: Abkhazia and South Ossetia conflicts were among them. Although these conflicts came up to the system of international relations at the end of the 20th century, the roots of this problem stretch into the beginning of the 20th century. Historical roots and causes of Abkhazia and South Ossetia conflicts are researched in the paper and the current situation there is analyzed.

Key words: *ethnic conflict, conflicting perties, war, Georgia, Abkhazia, South Ossetia*.

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

SARA HACIYEVA
AMEA Naxçıvan Bölməsi
E-mail: hacyevasara@ yahoo.com

ORTA ƏSRLƏRDƏ NAXÇIVANDA İQTİSADİYYATIN İNKİŞAFINDA VƏ TİCARƏT ƏLAQƏLƏRİNİN GENİŞLƏNMƏSİNDƏ SƏNƏTKARLIĞIN ROLU

Məqalədə orta əsrlər dövründə Naxçıvan bölgəsində istehsal olunan sənətkarlıq məhsullarının daxili və xarici ticarətin inkişafına təsirindən bəhs olunmuş, ticarət əlaqələrinin genişlənməsində körpü və karvansaraların mühüm əhəmiyyəti qeyd edilmişdir. Sənətkarlıq sahələrinin inkişafı və istehsal olunan məhsulların yüksək səviyyədə olması ölkənin daxili ticarəti ilə yanaşı xarici ticarət əlaqələrinin genişlənməsində də mühüm rol oynamışdır. Bunun nəticəsi olaraq Azərbaycanın Naxçıvan bölgəsi orta əsrlər dövründə dünya dövlətləri tərəfindən tanınmış və diqqəti cəlb edən bir region kimi xüsusi əhəmiyyətə malik olmuşdur.

Açar sözlər: *Naxçıvan bölgəsi, iqtisadiyyat, ticarət əlaqələri, karvan yolları*.

Orta əsrlər dövründə Naxçıvanda bir çox sənətkarlıq məhsulları istehsalının artması ölkənin iqtisadi inkişafına müsbət təsir etməklə yanaşı, daxili və xarici ticarət əlaqələrinin genişlənməsində də mühüm rol oynamışdır. Ölkənin təsərrüfat həyatında feodal istehsal üsulu hökm sürdüyü üçün şəhərlərin iqtisadi bazasını əsas etibarı ilə sənətkarlıq və ticarət təşkil edirdi. Lakin ibtidai və kustar üsulla aparılan sənətkarlığa nisbətən ticarətin bir sıra üstünlüyü var idi. Əvvələn, sənətkarlar əsas etibarı ilə daxili bazarın ehtiyacını ödədikləri halda, tacirlər onların hazırladıqları əşyanı xarici bazarlara çıxarırdılar; ikincisi, sənətkarlıqla yalnız yerli sənətkarlar məşğul olduqları halda, ölkənin ticarətinin inkişafında yerli tacirlərdən (sövdəgərlərdən) əlavə, xarici ölkələrin tacirləri də əhəmiyyətli rol oynayırdılar. Bütün bu amillər orta əsrlərdə şəhər təsərrüfatında ticarəti ön sıraya çıxarırdı [5, s. 26].

IX əsrdən başlayaraq şəhərlərin yüksəlişi ölkənin iqtisadi həyatında sənətkarlığın mövqeyini artırırdı. Sənətkarlar nəinki şəhərdə yaşayan insanların, həmçinin kənd əhalisinin də sənətkarlıq məhsullarına olan tələbatını ödəyirdi. Hər bir şəhər öz ətrafındakı kəndləri sənətkarlıq məhsulları ilə təchiz edirdi. Sənətkarlar daxili ticarət üçün nəzərdə tutduğu məhsulu özləri dükanlarında, şəhərin bazarında və yaxın kəndlərdə satırdılar. Kəndlilər isə kənd təsərrüfatı

məhsullarını və sənət istehsalı üçün lazım olan xammalı (pambıq, barama, ipək və s.) gətirib şəhərdə satır və orada sənətkarlıq məhsulları alırdılar [1, s. 149].

Orta əsrlər dövründə Azərbaycanın digər şəhərlərində olduğu kimi, Naxçıvan bölgəsinin şəhərlərində də əhalinin başlıca məşğuliyyət sahələri sənətkarlıq və ticarət idi. Məhz sənətkarlar və tacirlər Naxçıvan və Ordubad şəhərlərində əhalinin böyük əksəriyyətini təşkil edirdi [3, s. 39]. Bu dövrdə şəhərdə bacarıqlı memarlar, dülgərlər, bənnalar, dulusçular, dəmirçilər, toxucular, dabbaqlar, bəzzazlar, başmaqçılar, oymaçılar, xalçaçılar, zərgərlər, boyaqçılar, dərzilər və digər peşə sahibləri yaşayırdı. İnkişaf etmiş feodalizm dövründə Azərbaycanda bir neçə yüz sənət və peşə sahəsi olmuşdur [11, s. 208].

IX-XIII əsrlərdə əmək alətləri və texnikası xeyli təkmilləşmişdi. Bu da sənətkarlıq məhsulları istehsalında əmək bölgüsünün daha da dərinləşməsinə, sənətdaxili ixtisaslaşmanın genişlənməsinə, sənətkarların peşəkarlıq səviyyəsinin yüksəlməsinə səbəb olurdu. Bu dövrdə dəmirçilikdə sənətdaxili ixtisaslaşma nəticəsində əmək aləti hazırlayan mütəxəssis ustalar yetişir, silahsazlar, çilingərlər, bıçaqçılar, nalbəndlər öz ixtisaslarını daha da təkmilləşdirirdilər. Qalayçılıq xüsusi sahə kimi fəaliyyət göstərir, onlar şəhər misgərxanalarında çalışır və yaxud kəndlərə gedib əhalinin mis qablarını qalaylamaqla məşğul olurdular. Bəzək əşyaları istehsalında şəhər zərgərləri, xüsusilə fərqlənirdi. Gön işləmədə dabbaqlarla yanaşı xəz, dəri işləyənlər, sərraclar, çəkməçilər, çustçular, başmaqçılar, pinəçilər və s. çalışırdılar. Dərzilər arasında papaqçılar, palançılar, kürkçülər mövcud idi. Toxuculuq və xalçaçılıqla əlaqəli şəkildə boyaqçılar fəaliyyət göstərirdi. Daşişləmə sahəsində memarlar, bənnalar, həkkaklıqla məşğul olan ustalar var idi. Ağacişləmədə dülgər, nəccar və digər ixtisaslar inkişaf edirdi. Dulusçuluqda da əmək bölgüsü onun daxilində ixtisaslaşmanın artması ilə səciyyələnirdi, tikinti məmulatı, şirsiz və şirli saxsı qab hazırlayan ustalar getdikcə müstəqil fəaliyyət göstərirdilər.

Naxçıvanın xarici ticarət əlaqələrində ipəkçilik sənətinə aid məhsulların alqı-satqısının həcmi daha geniş olmuşdur. Yerli istehsaldan başqa ticarət əlaqələrinin inkişafında əhəmiyyətli rol oynayan ipək alveri naxçıvanlı tacirlərin əsas gəlir mənbələrindən biri olmuşdur. Burada Culfa tacirlərinin rolu xüsusi vurğulanmalıdır. XVI əsrin ikinci yarısından etibarən onlar beynəlxalq ipək ticarətindən xeyli gəlir əldə etmişlər. Bu haqda səfəvişünas-alim O.Əfəndiyev müxtəlif mənbələrə əsasən göstərir ki, Culfa tacirləri xamnanı (xam ipəyi), onun istehsal olunduğu yerlərdən – Şamaxı, Ərəş və Gilandan alır, sonra isə Venesiya, Amsterdam, Marsel kimi Qərbi Avropa şəhərlərində, həmçinin Suriya, Osmanlı Türkiyəsi və Hindistan şəhərlərində satırdılar [4, s. 211]. Ordubadda Naxçıvandan fərqli olaraq qadınlar ev şəraitində ipək parça toxuyur və ipək saplar hazırlayırdılar. Toxuculuq sənətində Ordubadın xalçaçıları və bez parça hazırlayanları ustalıq baxımından heç də Naxçıvan sənətkarlarından geridə qalmırdılar. Ordubad və ümumiyyətlə, Naxçıvan diyarında toxunan parçalara xarici bazarda da böyük ehtiyac duyulurdu [3, s. 26].

XVII əsrdə digər Azərbaycan bölgələrində olduğu kimi, Naxçıvandan da keçən karvan yolları öz əvvəlki əhəmiyyətini müəyyən qədər itirmişdi. Bu zaman əksər ticarət mallarının satışında olan zəifləmə ipək alverində də müşahidə olunmaqda idi. Amma bununla belə bu dövrdə başqa Azərbaycan bölgələri kimi, Naxçıvan da həm daxili və həm də xarici ticarətdə öz mövqeyini tamamilə itirməmişdi [10, s. 111]. XVII əsrə aid Ordubad şəhərinin mərkəzində salınmış bazar müəyyən sənət sahələrinə aid qiymətli malların ayrıca satışının təşkil edildiyini göstərir ki, bu da ticarətin və sənətkarlığın inkişafından xəbər verir [12, s. 267]. Orta Asiyadan Azərbaycana dairəciklərlə naxışlanmış "şana" adlanan xüsusi parçalar gətirilirdi. Naxçıvanda satılan mallar içərisində yaxşı toxunmuş Çin parçaları da var idi. Orta əsrlər dövrünə aid məlumatlarda göstərilir ki, "Muğan özünün çuval və palazı ilə şöhrət tapmışdı, Naxçıvan, Xoy və Səlmas şəhərləri özlərinin zili, xalça, belbağı və digər toxunma əşyaları ilə, Ərdəbil və Şirvan isə rəngli ipək və yun materialları ilə məşhurlaşmışdı" [2, s. 280].

Sənətkarlığın inkişafı Naxçıvanın iqtisadiyyatının inkişafı ilə yanaşı, ticarət əlaqələrinin genişlənməsində də mühüm əhəmiyyət kəsb edirdi. Sənətkarların hazırladıqları məhsullar Şərq-Qərb ticarəti üçün əsas mallar hesab edilirdi. Bu dövrdə Naxçıvandan ölkənin digər şəhərlərinə, eləcə də Yaxın Şərq ölkələrinə zərif parçalar, cürbəcür bəzəklər, incə naxışlı taxta və saxsı qablar aparılırdı. Yaxın Şərq ölkələrindən isə Naxçıvana ipək parçalar, şirli saxsı qablar, metal əşyalar, silahlar, və s. gətirirdilər [7, s. 130]. İpək Yolunu Azərbaycanla ərazilərini əlaqələndirən şəxsi yol Ekbatandan Təbrizə, Xəzər sahilindən isə Ərəş, Şirvan və Bərdəyə gedirdi. Şimal istiqamətində gedən İpək Yolunun bir qolu Dərbəndə və Volqaya çıxırdı. Bərdədən Tiflis və Batumi istiqamətində qərbə çıxan qolu da var idi. Bərdə və Ərəş mahallarından başlayan İpək Yolunun mühüm bir istiqaməti Araz boyunca Naxçıvana və Culfaya qədər uzanırdı, oradan isə Təbrizə və Yenə də Qərbə yönəlirdi. Culfada iri ipək anbarları yaradılmışdır və buraya Azərbaycanın hər yerindən xam ipək gətirilirdi. Bütün bu geniş şaxəli İpək yollarının köməyi və həmçinin əlverişli təbii şəraiti nəticəsində Azərbaycan uzun illər dünyanın iri ipək istehsalçısı və ticarəti mərkəzi rolunu oynamışdır [8, s. 23]. Orta əsrlər dövründə Naxçıvan diyarında sənətkarlığın inkişafı bir tərəfdən cəmiyyətin iqtisadi inkişaf səviyyəsinin, digər tərəfdən, ölkənin xarici iqtisadi əlaqələrinin genişlənməsində mühüm rol oynamışdır. Naxçıvanda sənətkarlığın inkişafı onun ayrı-ayrı sahələrinin həm istehsal etdiyi mallara olan tələbatını, həm də ticarət əlaqələrinin səviyyəsinin yüksəlməsinə kömək edirdi. Yəni sənətkarlıq və onun ayrı-ayrı sahələri bir tərəfdən yerli əhalinin iqtisadi inkişaf səviyyəsini qaldırırdısa, digər tərəfdən ölkənin xarici iqtisadi əlaqələrinin genişləndirilməsinə kömək edirdi. Bu isə o dövrdə səyyahların, tacirlərin və digər insanların bölgəyə marağını artırırdı.

Ölkənin digər yerlərində olduğu kimi Naxçıvan şəhərində də alver pərakəndə və topdansatış ticarəti şəklində aparılırdı. Topdansatış ticarətlə əsas etibarilə iri və gəlmə tacirlər məşğul olurdular. O dövrdə Naxçıvan özünün məh-

suldar bazarları ilə şöhrət tapmışdı. Naxçıvan bazarları böyük və izdihamlı olurdu. Burada müxtəlif ölkələrdən gəlmiş tacirlərə təsadüf edilirdi. Bazarda Çindən, Misirdən, İrandan, Türkiyədən, Hindistandan, İraqdan, Orta Asiyadan gətirilmiş müxtəlif növlü mallarla yanaşı, azərbaycanlı sənətkarlar tərəfindən yüksək zövqlə hazırlanmış əşyalar – saxsı və mis qablar, xalçalar, parçalar, zərgərlik məmulatları və s. satılırdı. Yuxarıda da qeyd edildiyi kimi yerli ustaların ağacdan hazırladıqları yüksək keyfiyyətli, məişət və bəzək əşyaları dünyanın bir çox ölkələrinə aparılırdı. Naxçıvan bazarlarında yerli ustaların hazırladıqları gümüş, mis, saxsı qablar, zərif parçalar, o cümlədən qanovuz, atlas, zərbaft, tafta, cavahir, çit, silah, bəzək əşyaları ilə yanaşı, xarici tacirlərin gətirdikləri mallar da satılırdı [10, s. 112].

Naxçıvan diyarı hələ antik dövrlərdə "Böyük İpək yolu" zəncirində olduqca önəmli, strateji mövqeyə malik bir region kimi qiymətləndirilirdi. Şərq və Qərb ölkələri ilə bağlanan ticarət yollarının buradan keçməsi İpək yolunun üzərində yerləşən digər Azərbaycan şəhərləri kimi Naxçıvan da regionun taleyində, siyasi və iqtisadi inkişafında önəmli rol oynayırdı. Xarici ölkələrdən gələn iş adamları təbii ki, təkcə Naxçıvana səfər etmək niyyəti ilə gəlmirdilər. Onlar Qərblə-Şərq ölkələrini birləşdirən ticarət yollarının qovşağında yerləşən bu qədim türk diyarından keçməklə öz yollarını davam etdirirdilər. Lakin bölgənin zəngin mədəniyyəti, gözəl sənətkarlıq malları, əla növ kənd təsərrüfatı məhsulları ilə diqqəti cəlb edən geniş bazarları bu yolçuları buradan etinasız keçib getməyə qoymurdu. Bu işdə onlara yaşadıqları yerin Avropa ilə Yaxın Şərq ölkələrini birləşdirən Böyük İpək Yolunun üzərində yerləşməsi də kömək edirdi. İngilis səyyahı E.Edvardsın qeydlərindən məlum olur ki, XVI əsrin 60-cı illərində Culfa tacirləri Suriya limanı olan Hələbə 500 tay ipək gətirir və əvəzində yalnız 18 min parça Venesiya maddəsi (qarazəy) aparırdılar [4, s. 211]. Azərbaycanın inkişaf etmiş ticarət şəhərləri içərisində Naxçıvan, Ordubad, Qarabağlar şəhərləri xüsusilə fərqlənirdilər.

Məlum olduğu kimi ticarətin inkişafı üçün karvan yollarının da mühüm əhəmiyyəti var idi. O dövrdə karvan yollarının fəaliyyətini təmin etmək üçün çayların üzərində dövrün tələblərinə cavab verən dayanaqlı körpülər tikirdilər. Araz çayı üzərində on beş aşırımlı Xudafərin (XII əsr) və Culfa (XII-XIII əsrlər) körpülərinin tikilməsi məhz Azərbaycanın, o cümlədən də Naxçıvan bölgəsinin digər bölgələrlə iqtisadi, ticari və mədəni əlaqələrini genişləndirmək məqsədi ilə inşa edilmişdir. Həmin körpülərin qalıqları indi də qalmaqdadır. Bu körpülər Mil düzünü və Naxçıvanı Azərbaycanın cənub şəhərləri ilə də birləşdirirdi [1, s. 151].

Bəhs edilən dövrdə körpülərlə yanaşı, iri çaylardan ağır yükləri keçirmək üçün bərələrdən də istifadə edilirdi. Bərənin işlədiyi yer keçid adlanırdı. Araz çayı üzərində istifadə olunan bərələr haqqında bir çox orta əsr səyyahları məlumatlar vermişlər. Məsələn, Fransız səyyahı J.Şardən yazır ki, Araz çayını bir dəfəyə otuz adam və iyirmi at götürən böyük bir gəmidə keçdik. Mən ancaq

özümlə adamlarımı və yükümü keçirdim. Onu dörd adam idarə edirdi. Qayıqçılar çayı keçib qayıtmağa iki saatdan çox vaxt sərf etdilər. Çünki onu keçmək üçün çox səy göstərmək lazım gəlir... Bərə Culfadan yarım lyö kənarda, çayın yatağının ən geniş olduğu və daha sakit axdığı bir yerdədir [17, s. 49]. Fransız səyyahı J.Tavernye Araz çayı üzərində bir neçə yaşayış məntəqəsində – Əylis, Əsədabad və Culfa bərəsinin olması haqqında da məlumat verir. Səyyahın bu məlumatı həmin vaxt Naxçıvan bölgəsinin müxtəlif yerlərində Araz çayında su nəqliyyatı vasitələrinin işləməsini təsdiq etməklə yanaşı, bu işin bütün orta əsrlər boyu davam etdiyini göstərir. Həmçinin, Araz çayı üzərində Abbasabad, Bülqan, Qaqaç (Şahtaxtı), Dərəşam və Culfa keçidləri də var idi. Culfa keçidindəki bərə ilə keçib Təbrizə, Abbasabad keçidindən isə Maku və Xoya gedirdilər. Bu keçidlərdə hər biri 300 puda qədər yük götürən bərələr işləyirdi [14, s. 42-43]. E.İsayev qeyd edir ki, Sədərək rayonunun mərkəzi Sədərək qəsəbəsinin qərb tərəfində – Araz çayı üzərində də bərə fəaliyyət göstərmişdir. Bu bərədən də əhalinin, ölkədən aparılan və ölkəyə gətirilən malların çayın bir sahilindən o biri sahilinə keçirilməsi üçün istifadə edilmişdir. Kəndin qərbindən axan Araz çayı üzərində vaxtilə mövcud olan körpü və çayda işləyən bərə beynəlxalq və daxili ticarət karvanlarına xidmət etmişdir [9, s. 132].

Beynəlxalq ticarət əlaqələrinin inkişafı körpülərlə yanaşı karvansaraların da tikilməsinə səbəb olmuşdu. Belə karvansaralar Şamaxıda, Bərdədə, Şəkidə, Bakıda, Gəncədə, Naxçıvanda inşa edilmiş, bəziləri indiyə kimi qorunub saxlanılmışdır. Böyük anbarları, dəftərxanaları olan karvansaralar XVI əsrdə Azərbaycanda və ona qonşu ölkələrdə xarici ticarət mərkəzləri idi. Bu karvansaralarda topdansatış ticarət əməliyyatları aparılırdı [16, s. 154]. Belə əməliyyatlar karvansaraydar adlanan karvansara başçılarının icazəsi ilə həyata keçirilir, xüsusi dəftərlərdə qeyd olunurdu. Karvansaraydar ticarətin qayda-qanun əsasında həyata keçirilməsinə, əmtəələrin keyfiyyətinə, onun çəkisinin və miqdarının dürüstlüyünə, razılaşdırılmış qiymətlərə nəzarət edirdi. Hər ticarət əməliyyatının ümumi məbləğinin 2 faizi onun zəhmət haqqını təşkil edirdi [13]. R.Məmmədov qeyd edir ki, Təbrizdən Qara dəniz sahilindəki şəhərlərə gedən ən qısa yol da Naxçıvan ərazisindən keçirdi [10, s. 109]. Bu dövrdə Naxçıvan Avropa ölkələri ilə aparılan ticarətdə mühüm rol oynamışdı. Belə ki, Təbrizdən Qara dəniz vasitəsilə Avropaya gedən yol Naxçıvandan keçirdi. Bu isə ən münasib və qısa yollardan biri sayılırdı. Naxçıvandan və Culfa tərəfdən Araz çayı üzərindən keçən körpülər bu yolu xeyli rahatlandırırdı [5, s. 33].

Orta əsrlərdə beynəlxalq ticarət əlaqələrində Azərbaycan fəal iştirak etməklə yanaşı, öz coğrafi mövqeyi, təbii şəraiti və ehtiyatları, inkişaf etmiş sənətkarlıq sahələri və beynəlxalq əhəmiyyətli yarmarkaları hesabına beynəlxalq iqtisadi əlaqələr sisteminin və beynəlxalq mübadilənin mərkəzlərindən biri olmuşdur. Azərbaycanın ən iri şəhərləri – Bərdə, Şamaxı, Naxçıvan, Marağa, Ərdəbil, Urmiya, Təbriz təkcə ticarət yolları üzərində yerləşməsi və regional ticarətdə iştirakına görə deyil, həm də rəqabətə davamlı sənətkarlıq məhsulları he-

sabına uzun müddət əhəmiyyətli iqtisadi mövqeyini qoruyub saxlamışdır [6, s. 9].

Beləliklə, orta əsrlər dövründə Naxçıvanda sənətkarlıq məhsullarının artması bölgənin iqtisadi həyatının yüksəlişinə səbəb olmaqla yanaşı, həm daxili, həm də xarici ticarət əlaqələrinin genişlənməsində əhəmiyyətli rol oynamışdır. Yerli sənətkarların şöhrəti yalnız ölkədaxili ilə məhdudlaşmır, onun hüdudlarından kənara da çıxırdı. Sənətkarlıq məhsullarının zənginliyi ticarətin də geniş miqyas almasına səbəb olmuşdur. Belə ki, ticarətin genişlənməsi o dövrdə çoxlu körpülərin və karvansaraların inşasına da səbəb olmuş, dünya dövlətlərinin bu əraziyə olan marağını artırmışdır. Bunun nəticəsidir ki, o dövrdə istehsal olunan sənətkarlıq məhsulları bu gündə dünyanın tanınmış məşhur muzeylərində saxlanılaraq nümayiş etdirilir.

ƏDƏBİYYAT

1. Azərbaycan arxeologiyası: 6 cilddə. VI c., Bakı: Şərq-Qərb, 2008, 471 s.
2. Azərbaycan tarixi: 7 cilddə. III c., Bakı: Elm, 1999, 584 s.
3. Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin II yarısı-XIX əsrin I qərinəsi). Bakı: Elm, 1995, 96 s.
4. Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərnəşr, 1993, 301 s.
5. Əliyev F.M. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1964, 124 s.
6. Gözəlova Y.H. Orta əsrlərdə Avrasiyanın ticarət əlaqələri. Bakı, 2012, 295 s.
7. Göyüşov R. Azərbaycan arxeologiyası. Bakı: İşıq, 1986, 186 s.
8. Həsənov T., Hacızadə Ə. Coğrafiya tarixi: Dərs vəsaiti. Bakı Universitetinin Nəşriyyatı, 2001, 94 s.
9. İsayev E. Böyük İpək yolu və Naxçıvan. Bakı: Elm və Təhsil MMC, 2012, 214 s.
10. Məmmədov R.A. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 158 s.
11. Naxçıvan tarixi: 3 cilddə. I c., Naxçıvan: Əcəmi, 2013, 452 s.
12. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008, 520 s.
13. Nəcəfli T. XV-XVI əsrlərdə Naxçıvanın ictimai-iqtisadi həyatı. www.strategiya.az
14. Səfərli H.Y., İsayev E.S. Araz çayı üzərində bərə nəqliyyatı (Naxçıvan materialları əsasında) // Elm və həyat, 2006, № 1-2, s. 42-43.
15. Süleymanov N.M. Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı: Elm, 2006, 400 s.
16. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв. Баку: Элм, 1982, 284 с.
17. Şardən J. Səyahətnamə / Fransız dilindən tərcümə edəni Vaqif Aslanov. Bakı, 1994, 96 s.

Сара Гаджиева

РОЛЬ РЕМЕСЛЕННОГО ПРОИЗВОДСТВА В РАЗВИТИИ ЭКОНОМИКИ И РАСШИРЕНИИ ТОРГОВЫХ СВЯЗЕЙ В НАХЧЫВАНЕ В СРЕДНИЕ ВЕКА

В статье говорится о влиянии ремесленной продукции, производимой в средние века в Нахчыванском регионе, на развитие внутренней и внешней торговли, отмечается большое значение мостов и караван-сараев в расширении торговых связей. Ремесленное производство и высококачественная продукция сыграли важную роль в развитии городов, в расширении не только внутренних, но и внешних торговых связей. В результате Нахчыванская область Азербайджана приобрела особое значение как известный и привлекающий внимание других стран мира регион.

Ключевые слова: *Нахчыванский регион, экономика, торговые связи, караванные пути.*

Sara Hajiyeva

ROLE OF CRAFT PRODUCTION IN DEVELOPMENT OF ECONOMY AND EXPANSION OF TRADE RELATIONS IN NAKHCHIVAN IN THE MIDDLE AGES

The paper deals with the impact of craft production manufactured in the Middle Ages in the Nakhchivan region on the development of domestic and foreign trade; importance of bridges and caravanserais in expanding trade relations is noted. Craftwork and its high quality products played an important role in the development of cities, in the expansion of not only internal but also external trade relations. As a result the Nakhchivan land of Azerbaijan gained prominence as a famous region attracting the attention of other world countries.

Key words: *Nakhchivan region, economy, trade ties, caravan routes.*

(AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

GÜLŞƏN HÜSEYNOVA
AMEA Milli Azərbaycan Tarix Muzeyi
E-mail: huseynova-g@rambler.ru

QƏHRƏMAN KƏNGƏRLİLƏR SÜLALƏSİNİN TARİXİNDƏN

Məqalədə göstərilənlərdən aydın olur ki, Azərbaycanın zəngin tarixə malik sivilizasiya mərkəzlərindən sayılan Naxçıvan qədim türk diyarıdır. V-VI əsrlərdən başlayaraq bu ərazidə məskunlaşmış və xalqımızın etnogenezinin formalaşmasında böyük rolu olmuş, habelə Azərbaycanın qüdrətli dövlətləri sayılan Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi imperiyalarının hərbi-siyasi həyatında mühüm rol oynamış məşhur kəngərlilər sülaləsi bütün dövrlərdə öz yüksək döyüş bacarığı ilə fərqlənərək bölgədə aparıcı mövqeyə yiyələnmiş, ölkəmizin ictimai-siyasi, elmi-mədəni, hərbi həyatında aparıcı qüvvəyə çevrilmiş, qəhrəmanlıqları ilə böyük şöhrət qazanaraq tarixi inkişafın sonrakı dövrlərində xalqımızın taleyində mühüm rol oynamışdır.

Açar sözlər: *Azərbaycan, Naxçıvan, etimologiya, peçeneq-kəngər, Naxçıvanski.*

Vətənimiz Azərbaycanın qədim və qədimliyi qədər də zəngin tarixə malik olan, strateji baxımdan çox əlverişli mövqedə yerləşən və sivilizasiya mərkəzlərindən sayılan Naxçıvan ən qədim insanın yaşayış məskənlərindən biridir. Azərbaycanın dövlət quruculuğu tarixində əvəzolunmaz rolu olan bu torpaq əsrlər boyu qonşu dövlətlərin müdaxilələrinə qarşı qəhrəmanlıqla sinə gərərək Vətənimizin ərazi bütövlüyünün təmin edilməsində və xalqımızın qədim dövlətçilik ənənələrinin qorunub saxlanılmasında yaxından iştirak etmişdir. Zamanın ən ağır sınaqlarından başı uca çıxan bu qədim diyar, yetişdirdiyi qəhrəman ruhlu, mərd, igid oğulları ilə xalqımızın qəlbində misilsiz mücadilə məktəbi yaratmışdır.

Tarixin müxtəlif dövrlərində dəhşətli bəlalara düçar olmuş, türk dünyasının qəhrəman torpağı olan Naxçıvan bu çətin vaxtlarda da tiranlara baş əyməmiş, sınmamış, düşmənə qarşı tək yumruq olub, bütün müsibətlərə qatlaşmış və çox zaman qətiyyəti sayəsində bu çətinlikləri aşaraq istədiyinə nail olmuşdur.

Hələ XIX əsrin əvvəllərindən Naxçıvan tarixi araşdırılmağa başlanmışdır. V.Qriqoryevin "Naxçıvan əyalətinin statistik təsviri" (1833) və "İrəvan yürüşü", İ.Şopenin "Rusiya imperiyasına birləşdirmə dövründə erməni vilayətinin tarixi abidələrinin vəziyyəti", K.N.Smirnovun "Naxçıvan ölkəsinin tarixinə və etnoqrafiyasına aid materiallar" (1934), və "Naxçıvanın əlyazma sənədləri" adlı kitablar, habelə N.En gelqartın "Naxçıvan şəhərinin təsviri" (1851) və "Naxçı-

van" (1852), K.N.Nikitinin "Naxçıvan şəhəri və Naxçıvan qəzası" (1882) və başqa məqalələr bu diyarın ictimai-siyasi və sosial həyatının tədqiqində əvəzsiz mənbələrdir [20, s. 72].

Ən qədim toponimlərdən biri hesab edilən "Naxçıvan" sözünün mənası, onun etimoloji mənşəyi haqqında istər əcnəbi, istərsə də yerli tədqiqatçıların sonsuz sayda mülahizələri mövcuddur. Bu söz yunan və roma mənbələrində Naksuana, ərəb mənbələrində Naxcuvan, Nəşavə, fars mənbələrində isə Nəxşi-Cahan (dünyanın bəzəyi) kimi adlandırılmışdır [10]. Şəhərin adının qədim tarixə malik olması və ilk insan məskənlərindən biri hesab edilməsi ilə bağlı fakt və mülahizələr türk, gürcü və yuxarıda adı çəkilən mənbələrdə, xüsusilə fransız mənbələrində geniş şərh olunur. Bu baxımdan 1993-cü ildə Parisdə çapdan çıxmış "Bütün Rusiya dövlətləri", 1711-ci ildə Amsterdamda nəşr olunmuş "Müsyö ly şyvalye (cənab cəngavər) Şardənin İrana və Şərqin başqa yerlərinə səyahətlər" [21], o cümlədən məşhur coğrafiyaşünas Frederik Dübua dy Monperönün 1840-cı ildə Parisdə çap olunmuş 6 cildlik "Qafqaz ətrafında səyahət" kitabları [18.73] Naxçıvan şəhərinin qədim Azərbaycan diyarı olması faktını bir daha təsdiqləmiş və mənfur erməni daşnaklarını birdəfəlik susmağa məcbur etmişdir.

Tədqiqatçı C.Cəfərov Naxçıvanın e.ə. 1539-cu ildə əsası qoyulduğu və erkən orta əsrlərdə dövrünün ən inkişaf etmiş şəhərlərindən biri olduğunu qeyd etmişdir [10]. Bu söz ilk dəfə eramızın ikinci əsrində yaşamış yunan coğrafiyaşünası Klavdi Ptolomeyin qələmə aldığı "Coğrafiya" əsərində "Naksuana" kimi qeyd olunmuşdur [1, s. 338].

Tanınmış Azərbaycan tarixçisi Yusif Yusifov bu toponimin mənşəyi haqqında fikir söyləyərək "Naxçuvan" kəlməsinin kökünü "Naksu" kəlməsinin təşkil etdiyini qeyd edərək, qədim türk dilində bunun "müalicəvi su" mənasında işləndiyini söyləmişdir. O, mülahizələrində "Naksu" adının əvvəlcə orada müalicə əhəmiyyətli mineral suları olan ərazinin adı olduğunu, sonradan orada salınmış şəhərin adının məhz buradan götürüldüyünü şərh etmişdir [14].

II əsrdə yaşamış K.Ptolemey, XII əsr müəllifi Yaqut Əl-Həməvi və XIV əsr müəllifi Həmdullah Qəzvini öz əsərlərində "Naxçıvan" kəlməsini adətən "x" səsi ilə deyil, "k" səsi ilə qeyd etmişlər [10].

El arasında səslənən bir çox rəvayətlərdə və XIX əsrin əvvəllərindən başlayaraq Naxçıvan toponiminin mənşəyini araşdıran S.P.Zalinski və K.L.Nikitin kimi tədqiqatçılar Naxçıvan şəhərinin yaradılışını bəşəriyyətin ulu əcdadı Nuh peyğəmbərin adı ilə bağlayırlar [10].

Rəşid bəy İsmayılov "Azərbaycan tarixi" əsərində yazır: "Tarixdən irəli zamanlarda Azərbaycanda kimlərin yaşamış olduğu məchuldur. Rəvayətlərin təsəlsülü, ənənati tarixiyyə və kitabi-əqdəslərin möhtəviyyatlarına nəzərən tufani-əzimdən sonra Nuh Peyğəmbər Ağrı dağda təvəqqüf edərək, onun sülaləsi Naxçıvan torpağında təvəttün etmişdir" [11, s. 12]. El arasında söylənən rəvayətlərə görə, "Naxçıvan" sözü – "Nax" (Nuh), isim düzəldən "-çi" və yer bildi-

rən "van" kəlmələrinin birləşməsindən meydana gələrək 3 hissədən ibarət olmuş və "Nuh-çu-van" – yəni "Nuhun vətəni" mənasında işlənmişdir.

Tədqiqatçı C.İsmayıloğlu bu toponimin dörd hissədən (ak, uç, eb, on) ibarət olduğunu qeyd etmişdir. O, Naxçıvan toponiminin qədim türk sözü olduğunu sübut edərək eradan əvvəlki minilliklərdə bu sözün ilk variantının "Akçıbon" kəlməsi olduğu fikrini irəli sürmüşdür. Tədqiqatçıya görə, "n" səsinin artırılması və k-x, b-v əvəzlənməsi nəticəsində "Akçıbon", ilk əvvəl "Nakçıbon", sonra "Naxçıbon" və nəhayət "Naxçıvan" kimi səslənmişdir [10].

Azərbaycanın, o cümlədən onun üzvi tərkib hissəsi olan Naxçıvan diyarı yerləşdiyi əlverişli coğrafi mövqeyi, sahib olduğu bərəkətli torpaqları, zəngin düzənlikləri, hər bir dərdə şəfa olan mineral suları, həmçinin qərblə şərq arasında körpü yaradaraq ticarət və bir sıra sahələrdə mühüm rola malik olması hələ eradan əvvəlki minilliklərdə bu ərazilərə köç edən müxtəlif tayfaların diqqətini özünə cəlb etmiş və onların bu torpaqlarda məskunlaşmalarına səbəb olmuşdur. Eramızdan əvvəlki minilliklərdən bu ərazilərdə məskunlaşmış müxtəlif prototürk tayfalarla yanaşı sonralar buraya hun, kəngər, aran, katak, peçeneq və s. tayfalar köç etmişdilər [15, s. 78].

Bəzi məlumatlara görə, qədim Naxçıvan torpağında kəngər tayfaları hələ V-VI əsrlərdən məskunlaşmış [14] və tezliklə bölgədə aparıcı mövqeyə yiyələnərək ölkəmizin ictimai-siyasi, elmi-mədəni, hərbi həyatında aparıcı qüvvəyə çevrilmiş, qəhrəmanlıqları ilə böyük şöhrət qazanaraq tarixi inkişafın sonrakı dövrlərində bütün Azərbaycanın və habelə Naxçıvanın taleyində mühüm rol oynamışdır.

Ana vətənimiz Azərbaycanın və onun bölünməz hissəsi olan Naxçıvanın bütövlüyü uğrunda böyük imperiyalara qarşı ölüm-dirim savaşına atılan məşhur kəngərlilər sülaləsi, onların mənşəyi, adət-ənənələri, idarəçilik üsulları və hərb sənətinə dərindən yiyələnmələri haqqında məlumatlara bir çox tarixi mənbələrdə, arxiv sənədlərində təsadüf olunur. Övliya Çələbi, Ş.Şərden, N.Xanıkov, K.Smirnov, V.Qriqoryev, Y.Marr, L.Qumilyov, M.Artamonov, M.İsmayılov, M.Baharlı kimi görkəmli alimlər əsərlərində maraqlı və qiymətli mənbələrə əsaslanan dəyərli məlumatlar vermişlər. İstər xarici ölkə tarixçilərinin, istərsə də yerli tədqiqatçılarımızın kəngərlilər haqqında yürütdükləri mülahizələr müxtəlif olsa da, o müəlliflərin hər biri bu sülalənin qədim türk soyu olduğunu hər zaman təsdiq etmişdilər.

Xalqımızın qəhrəmanlıqlarla dolu səhifələrini özündə yaşadan və qəhrəmanlıq rəmzi sayılan "Kitabi-Dədə Qorqud" dastanında kəngərlilər kanqlı – kanq ərləri mənasında işlədilmişdir. Bəzi mənbələrin məlumatına görə, kəngərlilər etnik baxımdan qədim türk-peçeneq tayfa ittifaqına daxil olmuş və onların qanuni varisi olmuşdur. Rəşid bəy İsmayılov "Azərbaycan tarixi" əsərində yazır: "Rusiya təvarixi "Peçenek" (Peçinek) tayfasının Rusiyaya basqın etməsinə dair bir məlumata havidir. "Peçenek" tayfası "Kəngərli", "Qanqlı" və "Nigar"

uruqlarından mütəşəkkil olduğu məsələ türk tarixlərindən məlum olur" [11, s. 19].

Ehtimal olunur ki, kəngərlilərin bir hissəsi IV əsrdə Mərkəzi Asiyadan Şimali Qafqaza, əsasən Azərbaycana gələn hun tayfalarının tərkibində olmuş, erkən orta əsrlərdə Azərbaycanın şimal-qərb və qərbində yerləşən həmsərhəd bölgələrdə və Naxçıvanda məskunlaşmışdılar. Bu faktları bir sıra tarixi mənbələr də təsdiqləyir [17, s. 4].

Azərbaycanda və xüsusilə Naxçıvan bölgəsində bu tayfanın məskən salmasını sübut edən faktlardan biri də bu ərazilərdə kəngərlilərlə bağlı etnonimlərin olmasıdır. İndiki Ermənistan Respublikasının Qukasyan rayonu ərazisində yerləşən Kəngər dağları, Gürcüstan respublikası ilə sərhəddə, indiki Qazax-Ağstafa zonasında Albaniya dövləti zamanında mövcud olmuş Kəngər ölkəsi, Ağdamda Kəngər dağı və Kəngərli kəndi, Naxçıvanda Kəngərli bölgəsi adlı yerlərin olması da Kəngərlilərin Azərbaycan ərazisində geniş yayıldığını təsdiqləyir [6, s. 50].

İlqar Kəngərli Bizans imperatoru Konstantin Baqryanorodnının vəsiyyətnaməsinə istinad edərək yazır ki, "peçeneqlər həm də kəngər adlanır və onların "Yavdi İrtim", "Kuartsi-Tsur" və "Xavunsin-Qila" tayfaları kəngərlərdən ibarətdir. Bu tayfalar peçeneqlərin ən mərd, igid və nəcabətli hissəsidir" [12, s. 92].

Miladdan əvvəlki əsrlərdə hun tayfasının bir qolu olan peçeneqlərin tərkibində Naxçıvana köç etmiş türkmənşəli kəngər tayfasının mənsub olduğu qollar və tirələr haqqında məlumatlar da böyük maraq kəsb edir. Qeyd etmək lazımdır ki, V.Qriqoryev, İ.Şopen və K.Smirnovun əsərləri bu sahədə çox maraqlı məlumatlarla zəngindir [6, s. 52]. Akademik İsmayıl Hacıyev İ.Şopenə istinadən Rusiyanın Naxçıvanı işğalı zamanı kəngərlilərdən orada 67 xan, 373 bəy və sultan, habelə Yurdçu, Qızıllı, Sarvanlar, Xalxallı, Pirhəsənli, Salaş, Ağabəyli, Qarabağlar, Kəmən, Cağatay, Qaraxan, Hacılar, Cəmşidli, Bilici, Qızıl İlan, Qurdlar, Qaradolaqlı, Şabanlı, Kəlfir, Ərəfsəli, Qaracallı, Qarakövsərli, Bolqarlı, Kürd-Mahmudlu, Əliyanlı, Ziyadlı, Bərgüşadlı – 27 adda tayfanın yaşadığını ümumilikdə isə onların 1433 ailədən ibarət olduğunu qeyd edir [8, s. 7].

Kəngərlilərdən başqa Naxçıvanda kökü bu tayfaya dayanan müxtəlif adlı bəy və xan nəsilləri də yaşayırdı.

Bir sıra tarixi qaynaqlarda kəngərli sülaləsinin gerbi və bayrağı olduğu, onların həyat tərzi, hərbçilik məharətləri haqqında maraqlı məlumatlar var. Bununla bağlı Gürcüstan arxivlərində bir çox sənədlər mühafizə olunur [16, s. 27].

Öz mərdlikləri və döyüşkənlikləri ilə fərqləndiyi üçün Kəngərli soyadı Kremlin Georgiyevsk salonundakı şərəf siyahısına qızıl hərflərlə yazılması da təsadüfi deyildir. Tarixi mənbələrdə kəngərlilər fiziki cəhətdən möhkəm, kişiləri tək qadınlarının da döyüşdə mərdliklə vuruşmaları haqqında məlumatlar verilir. Bu sülaləyə məxsus əsas xüsusiyyətlərdən biri onların doğma Vətəni canlarından çox sevmələri və düşmən qarşısında əyilməzlikləridir. Kəngərlilər sülaləsinin igidliyi haqqında Çin mənbələrinin birində deyilir: "Onlar o qədər

igiddirlər ki, ölümə sevinclə gedirlər, onların hücumlarına heç bir düşmən tab gətirmir" [17, s. 120].

Bu tayfa Azərbaycanın qüdrətli dövlətləri sayılan Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi imperiyalarının hərbi-siyasi həyatında mühüm rol oynamış, bütün dövrlərdə öz yüksək döyüş bacarığı ilə fərqlənmişdir. 1501-ci ildə Səfəvilər dövlətinin qurucusu I Şah İsmayıl Xətainin hakimiyyətə gəlməsi ilə bu sülalənin dövlətin iqtisadi-siyasi və ictimai həyatında rolu daha da güclənmişdir [7]. XVIII əsrin sonlarından etibarən sülalənin xan nəslindən olan nümayəndələri Naxçıvan tüməninin hakimi, bəy nəslindən olanları isə hakimin vəkili vəzifələrində fəaliyyət göstərirdilər [1, s. 226]. Naxçıvan bölgəsində toplanan qoşun əsas etibarı ilə kəngərlilərdən ibarət idi. XIX əsrin əvvəllərinə (1805) aid məlumata görə, kəngərlilərin 500 nəfər atlı döyüşçüsü vardı [12, s. 36].

Səfəvilər dövlətinin süqutundan sonra 1736-cı ildə Azərbaycanda və o cümlədən Naxçıvanda da hakimiyyət başına keçən Nadir şahın dövründə kəngərlilər sülaləsi xalqa verilən zülmlərə qarşı haqq səslərini ucaltdıqları üçün Naxçıvan bölgəsində yaşayan kəngərli tayfasının müəyyən hissəsi uzaq yerlərə, məsələn, Əfqanıstana köçürülmüşdülər. Lakin buna baxmayaraq Nadir şah Naxçıvanda əhalinin sayca üstünlük təşkil etdiyi kəngərli tayfasının xalq arasında malik olduqları nüfuzu görərək yerli əhalinin üsyana qalxmasından ehtiyat edib, bir sıra məsələlərdə onlarla hesablaşmağa məcbur olmuşdur.

İdarəçilik baxımından Naxçıvan vilayətini şahın icazəsi ilə eyni vaxtda kəngərlilər tayfasından olan 2 şəxs idarə edirdi. Onlardan biri ölkənin hakimi, digəri isə süvari atlı dəstənin komandiri vəzifələrini icra edirdi [5, s. 18].

Xanlıqlar dövründə Naxçıvan xanlığını xarici düşmənlərin hücumlarından qoruyan kəngərli tayfasından təşkil olunan dəstələr "Naxçıvan səvariləri" (süvariləri) adı ilə tanınmışdılar. Adı çəkilən süvarilər haqqında bəzi məlumatlara rus tarixçisi V.N.Qriqoryevin qeydlərində də rast gəlinir. O, Naxçıvan xanlığının ərazi bütövlüyünün mühafizəsində xidmət edən süvari dəstələrin yalnız kəngərli tayfalarından təşkil olunduğunu xüsusi qeyd edirdi [16, s. 39-40]. Bu da çox güman ki, onların yaxşı at çapmaları, at belində mürəkkəb şəraitlərdə uzun müddət döyüşmələri, orijinal döyüş üslublarının olması, həmçinin sədaqətlilik, qorxmazlıq, çeviklik və digər bir çox mənəvi-əxlaqi keyfiyyətləri özündə yaşatmaları ilə əlaqədardır.

XIX əsrin əvvəllərində rus imperiyasının Avropada həyata keçirdiyi hərbi əməliyyatlarda iştirak edən kəngərli süvarilərini hərb işini daha da dərindən mənimsəmələri üçün onların Polşaya, Macarıstana, Varşavaya, Tiflisə və başqa ölkələrə hərbi xidmətə göndərilmişlər. Bu, həm də, azərbaycanlı hərbçilərin Azərbaycandan uzaqda saxlamaq istəyindən irəli gəlirdi. Bununla bağlı M.Quliyev tərəfindən Gürcüstan Milli Arxivinin fondlarında aşkar edilmiş sənədlər olduqca böyük maraq kəsb edir [16, s. 42].

Onu da qeyd etmək lazım gəlir ki, Gülüstan müqaviləsindən sonra rus imperiyası işğal etdiyi Naxçıvan və İrəvan xanlıqlarının ərazisində "Erməni vi-

layəti” yaratdı. Belə bir şəraitdə 1830-cu ildən kəngərlilər sahib olduqları öz ana torpaqlarında sıxışdırılaraq 2698 gümüş manat məbləğində pul vergisi ödəməyə məcbur edildi. Bu səbəbdən sülalənin bir çox nümayəndələri öz dədə-baba yurdlarını qoyub İrana köçməyə məcbur oldular [2, s. 673].

1828-ci il Türkmənçay müqaviləsinin imzalanması ilə iki yerə parçalanmış Azərbaycanın və o cümlədən Naxçıvanın ictimai-siyasi həyatında baş verən ziddiyyətli hadisələrin və bu zəmində çarizmin Qafqazda həyata keçirməyi planlaşdırdığı “parçala və hökm sür” prinsipinə mərdliklə sinə gərərək siyasi arenada öz toxunulmazlığını qorumağı bacaran kəngərli sülaləsi xalqımızın taleyində böyük xidmətləri olan digər sülalələr kimi millətin xoşbəxt gələcəyi və rifahı naminə hər zaman əzmlə çalışmışdılar. Kəngərlilər sülaləsi tarixin bəzi dövrlərində onlar üçün heç də uğurlu olmayan hadisələrlə qarşılaşmış, bu soyad ara-sıra assimilyasiyaya uğramış, hakimiyyət tərəfindən edilən təzyiqlər və repressiyalar səbəbindən öz soyadlarını dəyişdirmək məcburiyyətində qalmışdır. XIX əsrin əvvəllərində yüksək silkə mənsub olanların bir çoxu öz soyadlarını dəyişib, “Naxçıvanski” kimi yazdılar [3, s. 10].

Qeyd etmək yerinə düşər ki, eramızın əvvəllərindən başlayaraq Naxçıvanda məskunlaşan və xalqımızın etnogenezinin formalaşmasında böyük rolu olan kəngərlilər sülaləsinin adı ilə bağlı Naxçıvan Muxtar Respublikasında 2004-cü ildə Babək və Şərur rayonlarının torpaq ərazilərindən kəsilib verilməklə inzibati ərazi yaradılmışdır. Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin 19 mart 2004-cü il tarixdə imzaladığı “Naxçıvan MR-də Kəngərli rayonunun yaradılması haqqında” Azərbaycan Respublikasının Qanunu Azərbaycanın ümummilli lideri, ulu öndər Heydər Əliyevin uzaqgörən ideyalarının canlı davamıdır. Bu qanun Azərbaycanın və onun ayrılmaz hissəsi olan Naxçıvanın tarixində kəngərli kimi nəhəng sülalənin vətənə sədaqətli xidməti, xeyirxah əməlləri ilə yadda qalan şəxsiyyətlərin ruhuna böyük hörmətin sübutudur [4, s. 302].

ƏDƏBİYYAT

1. Azərbaycan Milli Elmlər Akademiyası. Naxçıvan ensiklopediyası. Bakı, 2002, 594 s.
2. Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci illərə qədər. Bakı: Azərbaycan, 1996, 872 s.
3. Bağırov İ. Kəngərli yurdunun generalları. Bakı: Yazıçı, 1994, 56 s.
4. Bağırov F. Tarixin yaddaşı. Bakı: Yazıçı, 2009, 419 s.
5. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı: Azərnəşr, 1996, 106 s.
6. Əliyev İ. Səfəvilər dövründə Naxçıvanın əhalisi //AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, Naxçıvan, 2011, c. 7, № 3, 320 s.
7. Əliyev H. Kəngərli türk tayfalarındandır. “Mədəniyyət qəzeti”, 2009, 22 aprel, № 27(644).

8. Hacıyev İ. Naxçıvan bölgəsinin etnik tarixinə dair // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, Naxçıvan, 2009, № 1, s. 5-10.
9. İsmayılov İ. Naxçıvan generalları // Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr olunmuş Elmi əsərlər, Bakı, 1999, № 3, 103 s.
10. İsmayıloğlu C. "Naxçıvan" sözü. "Ədəbiyyat qəzeti", 1991, 2 avqust, № 31 (2478).
11. İsmayılov R. Azərbaycan tarixi. Bakı: Azərnəşr, 1993, 160 s.
12. Kəngərli İ. Kəngərli elinin daxili qaydaları // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. İctimai elmlər seriyası, 2010, № (34), 307 s.
13. Kəngərli İ. Kəngər-Peçeneqlər Cənub-Şərqi Avropada // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2009, № 3, s. 90-93.
14. Qeybullayev Q. Naxçıvan azərbaycanlılarının etnik tarixinə dair. "Respublika qəzeti", 1999, 3 oktyabr. № 203(667), s. 5.
15. Qeybullayev Q. Azərbaycanlıların etnik tarixinə dair. Bakı: Elm, 1994, 102 s.
16. Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri. Naxçıvan: Əcəmi, 2013, 184 s.
17. Məmmədov A. Kəngərlər. Bakı: Azərnəşr, 1996, 131 s.
18. Naxçıvan tarixi fransız mənbələrində // Qobustan incəsənət toplusu, 1976, № 3, 95 s.
19. Pəhləvan Ə. Kəngərlilər. Bakı: Azərnəşr, 2009, 39 s.
20. Rəhimov Y. Naxçıvan tarixi Rusiya tarixşünaslığında // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2006, № 4, 272 s.
21. Zaman Ş. Naxçıvan fransız mənbələrində. "Azərbaycan müəllimi qəzeti", 1999, 13-19 may, № 19 (7814), s. 5.

Гюльшан Гусейнова

ИЗ ИСТОРИИ ГЕРОИЧЕСКОЙ ДИНАСТИИ КЕНГЕРЛИ

В статье исследуются имеющиеся в произведениях местных и иностранных авторов факты и материалы, касающиеся истории героического города тюркского мира, считавшегося одним из центров мировой цивилизации – города Нахчыван. Рассмотрено этимологическое значение слова «Нахчыван»; сведения о знаменитой династии Кенгерли, обосновавшейся на территории Нахчывана в начале нашей эры и оказавшей влияние на формирование этногенеза нашего народа, о ее обычаях и традициях, методах управления, умелом владении военным искусством.

Ключевые слова: *Азербайджан, Нахчыван, этимология, печенег-кенгер, Нахчыванский.*

Gulshan Husseinova

FROM THE HISTORY OF HEROIC DYNASTY OF KENGERLI

Facts and materials available in the works of local and foreign authors concerning the history of the heroic city in the Turkic world, which is considered as one of the centers of world civilization – the city of Nakhchivan – are studied in the paper. The etymological meaning of the word "Nakhchivan" is considered; information about the famous dynasty of Kengerli, which has settled down in the territory of Nakhchivan at the beginning of Common Era and influenced the ethnogenesis formation of our people, about its customs and traditions, management practices, complete mastery of military art.

Key words: *Azerbaijan, Nakhchivan, etymology, Pecheneg-kenger, Nakhchivani.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 1

ЛЕЙЛА СУЛЕЙМАНОВА
Академия государственного управления при
Президенте Азербайджанской Республики

«ИСЛАМСКОЕ ГОСУДАРСТВО» КАК ВОЕННО-ПОЛИТИЧЕСКАЯ УГРОЗА ЛИВАНУ НА СОВРЕМЕННОМ ЭТАПЕ

В статье основное внимание уделено «Исламскому государству» как новой военно-политической угрозе Ливану на современном этапе. Здесь же освещаются военные операции боевиков «ИГ» на территории Ливана, развернувшиеся в 2014-2015 годах. Отмечается, что от конечного исхода борьбы коалиции международных сил против «ИГ» во многом зависит насколько кардинально изменится геополитическая карта Большого Ближнего Востока, что, в свою очередь, не может не отразиться и на военно-политической ситуации в Ливане.

Ключевые слова: *Ливан, Исламское государство, «суннитский треугольник».*

Безусловно, новейшим фактором военно-политической дестабилизации на Большом Ближнем Востоке за последние годы стало появление такого маргинализированного явления на карте региона, как так называемое «Исламское государство Ирака и Леванта» (ИГИЛ). Эта исламская террористическая организация была образована в 2006 году в Ираке путем слияния одиннадцати радикальных исламистских группировок во главе с местным подразделением «Аль-Каиды» и начала действовать преимущественно на территории Сирии и Ирака [1].

В настоящее время «ИГИЛ» представляет собой «полуреальное квазигосударство» с шариатской формой правления, которое частично контролирует территорию так называемого «суннитского треугольника» [2].

В 2013 году боевики ИГИЛ вступили в гражданскую войну в Сирии против режима президента Башара Асада на стороне антиправительственных сил, где группировка приобрела репутацию одной из боеспособных, хотя и самых жестоких. Эта группировка ведет активную, причем весьма успешную, экстремистскую деятельность и ответственна за множествотерактов против американских и натовских сил на территории Ирака, сформированных при содействии американцев подразделений иракской армии, а также ряда гражданских лиц и объектов. Целью этой организации на данном этапе является создание исламского суннитского государства на

территории Сирии, Ирака и Ливана. Несмотря на то, что это движение насаждает повсюду жесткое следование исламским законам, оно в первую очередь представляет собой коалицию противников шиитских властей Ирака, которая включает в себя как исламистов, так и бывших иракских офицеров времен режима Саддама Хусейна [3].

Группировка обрела широкую известность летом 2014 года, когда боевики начали полномасштабное наступление на северные и западные районы Ирака. Радикалам в течение месяца удалось взять под свой Контроль несколько городов – Мосул (второй по величине город в Ираке), Тикрит, а в дальнейшем подойти вплотную к Багдаду.

В конце июня того же года террористы объявили о создании собственного квазигосударства – так называемого «Халифата», простирающегося от города Алеппо на севере Сирии до провинции Дияла, что на востоке Ирака. 3 августа террористам удалось взять под контроль два крупных нефтяных месторождения. «Халифом» был объявлен главарь боевиков – Абдалла Ибрагим ас-Самараи, также известный как Абу Бакр аль-Багдади.

После провозглашения государства, которое не признала ни одна страна, группировка, ранее известная как «Исламское государство Ирака и Леванта», отбросила географическую привязку в своём названии и с июня 2014 года стала называться просто «Исламское государство» [4]. Причем «ИГ» стремится распространить свое влияние не только на Ближнем Востоке, но и в странах Магриба, Нигерии, Афганистане, Пакистане, государствах Центральной Азии и даже в России. Не случайно, что министр иностранных дел РФ С.Лавров утверждает, что «наш главный враг – «Исламское государство» [5].

От рук этих отличающихся особой жестокостью боевиков уже погибли тысячи «иноверцев» – шиитов, христиан, езидов, а тысячи людей были вынуждены бежать из захватываемых экстремистами районов, многие женщины и дети стали пленниками и содержатся в концентрационных лагерях террористов. Правительство Ирака обратилось к международному сообществу за помощью в противодействии «Исламскому государству». На помощь иракским властям пришли военные США, которые нанесли десятки авиаударов по позициям «ИГ» в Ираке [6].

Интерес, который проявляет «ИГ» к Ливану связан с тем немаловажным фактором, что эта страна, несмотря на свои небольшие размеры и существование ряда дестабилизирующих внутри – и внешнеполитических проблем, таких, как межконфессиональное напряжение, пребывание на ее территории около 400 тысяч палестинских беженцев, неурегулированность отношений с Израилем, тем не менее представляет значительный интерес для внешнего мира как транзитный, транспортный, торговый и

финансовый центр в стратегически важном регионе Большого Ближнего Востока.

Причинами же длительных, с небольшими перерывами, многочисленных кризисов и конфликтов в Ливане и вокруг этой страны явились факторы внутреннего и внешнего порядка. Своеобразие и уникальность Ливана заключаются в его многоконфессиональности и культурном плююрализме. На этом благодатном участке ближневосточного средиземноморского побережья проживают представители трех религий: мусульмане, христиане и друзы. В свою очередь, сами представители исламской и христианской конфессий также делятся на ряд общин. Здесь проживают христиане-марониты, связанные унией с католической церковью, православные, мусульмане-шииты и мусульмане-сунниты.

Ситуация усугублялась религиозной разобщенностью ливанского общества, противоречиями между местными христианским и мусульманским общинами, а также между шиитами и суннитами. Причем каждая религиозная община является своеобразным государством в государстве, обладая собственными вооруженными формированиями.

Между тем, Ливан стал первым государством, втянутым в орбиту гражданской войны в Сирии. В настоящее время тысячи боевиков проиранской ливанской шиитской группировки «Хезболлах» сражаются на стороне сирийского президента Башара Асада с радикальными суннитскими группировками – «Джабхат ан-Нусра» и ИГ.

События в соседней стране вызвали эскалацию напряженности между суннитами, алавитами и шиитами в самом Ливане. Ареной особо напряженных столкновений стал Триполи, который называют северной столицей страны кедров [7].

В начале августа 2014 года вооруженные формирования «ИГ» вторглись на территорию Ливана и захватили ливанский город Арсаль, расположенный неподалеку от границы с Сирией. Западная пресса назвала это событие важным моментом в контексте перемещения вооруженных сил исламистской группировки с территории Сирии на территорию других соседствующих с ней стран [8]. В свою очередь, МИД РФ расценил нападение на Арсаль как «серьезный вызов безопасности и стабильности Ливана» и вновь подтвердил «принципиальную позицию в пользу сохранения единства, независимости и территориальной целостности Ливана», призвав при этом «партнеров по международному сообществу внимательно и объективно оценивать крайне опасную тенденцию, отчетливо наметившуюся в Сирии, Ираке и Ливане» [9].

Между тем в начале сентября 2014 года ливанская армия отразила нападение группы боевиков в городе Эль-Каа в 14 километрах от сирийской границы, при этом были убиты два исламистских боевика и еще один был взят в плен. В ходе другого боя на ливано-сирийской границе в ра-

йоне Эрсаль добровольцы движения «Хезболлах» пресекли попытку боевиков из группировок «Джебхат ан-Нусра» и «ИГ» продвинуться вглубь Ливана. В результате перестрелки было уничтожено пять исламистов. В свою очередь в руках игиловцев оказались два десятка пленных ливанских военнослужащих. После переговоров между катарской делегацией и исламистскими боевиками стало известно, что террористы потребовали от ливанского правительства освободить 400 своих сторонников из тюрьмы «Румия». Один из лидеров ИГ Абу Сааб Хафид аль-Багдади заявил, что будет продолжать казни пленных солдат, пока ливанское правительство не выполнит поставленные условия. В свою очередь премьер-министр Ливана Тамам Салям заявил, что никаких сделок с террористами правительство заключать не будет, подчеркнув при этом, что жизни солдат «не могут быть предметом торга». Салям также дал добро ливанской армии на проведение военной операции против исламистов в приграничных с Сирией районах [10].

1 марта 1915 г. ливанская армия отразила вторжение группы террористов с территории Сирии в районе горного хребта Джуруд-Эрсаль. Исламские боевики пытались проникнуть в ущелье Вади-Хмейид. «В ходе боестолкновения противник понес потери, в его рядах есть убитые и Раненые», – сообщал с места событий ливанский военный представитель [11].

Ранее 26 февраля ливанские войска провели превентивную операцию против формирований «Джебхат ан-Нусры» и «Исламского государства» в пограничной с Сирией горной местности на северо-востоке страны. Они выбили игиловцев со стратегических высот Садр-эль-Джераш и Харф-эль-Джераш, что позволило взять под полный контроль дорогу между перевалами Эрсаль и Эль-Каа и устранить угрозу обстрелов армейских блокпостов у христианского города Рас-Баальбек. Как заявил командующий ливанской армией Жан Кахваджи, войска «блокировали сейчас наиболее уязвимые участки границы, чтобы воспрепятствовать вторжению боевиков в Ливан». На сирийской территории со стороны горного хребта Калямун бандформирования преследовали правительственная армия и бойцы шиитской группировки «Хезболлах» [12].

В начале мая ливанские власти объявили об аресте полевого командира «Исламского государства» и еще пятерых вербовщиков группировки. В связи с серией арестов были усилены меры безопасности на армейских блокпостах Триполи.

Террористические группировки ИГ и «Джебхат Ан-Нусра» за последние месяцы неоднократно пытались дестабилизировать ситуацию в Ливане. С этой целью экстремисты организовали в стране ряд терактов, а также захватили в плен около 30 ливанских военнослужащих, нескольких из которых казнили [13].

Дело дошло до того, что, согласно данным ливанской разведки, в планы «ИГ» входит провозглашение своим эмиратом удерживаемой им территории на северо-востоке Ливана, в районе города Хермель [14].

В целом от конечного исхода борьбы коалиции международных сил против «ИГ» во многом зависит то, насколько кардинально изменится геополитическая карта Большого Ближнего Востока, что, в свою очередь, не может не отразиться на военно-политической ситуации в Ливане.

ЛИТЕРАТУРА

1. Исламское государство Ирака и Леванта //ru.wikipedia.org/wiki/ Исламское_гос…
2. Игнатенко А. «Аль-Каида» пытается создать исламское государство одновременно на территории Ирака и Сирии // Институт религии и политики, 2012, 27 июля.
3. Ансель, Фредерик Что такое «Исламское государство Ирака и Леванта»? // Atlantico, 2014, 1 июля.
4. Исламское государство Ирака и Леванта //ru.wikipedia.org/wiki/Исламское_гос...
5. Экспансия «Исламского государства» и вызовы для России.12 май 2015 // antiterrortoday.com/ru/glavnoe..
6. ИТАР-ТАСС, 2014, 18 августа.
7. «Исламское государство» провозгласит в Ливане эмират // newsru.co.il / mideast/24feb2015/
8. Субботин И. «Исламское государство Ирака и Леванта» переместилось на территорию Ливана// mk.ru/politics/2014/08/05/
9. Там же.
10. ИГИЛ рвется в Ливан //Кавказпресс. 2014-09-08/ org/ view_ index. Php ?id=4553
11. Ливанская армия отразила вторжение боевиков из Сирии в горном районе Эрсаль // 01.03.2015 /geopolitics.by›analytics/k-kakoy-voyne-i-skem-…
12. Там же.
13. В Ливане нейтрализовали «муфтия» ИГИЛ. 04 мая 2015 // islamnews.ru / news-460018.html
14. Разведка: «Исламское государство» провозгласит в Ливане эмират »... oko-planet.su/politik/newsday/...

Leyla Süleymanova

“İSLAM DÖVLƏTİ” MÜASİR DÖVRDƏ LİVANA HƏRBİ-SİYASİ TƏHLÜKƏ KİMİ

Məqalədə əsas diqqət müasir dövrdə Livana hərbi-siyasi təhlükə olaraq görülən “İslam dövlətinə” yönəldilmişdir. Burada “İD”nin döyüşçülərinin Livan

ərazisində 2014-2015-ci illərdə apardıqları hərbi əməliyyatlar işıqlandırılmışdır. Eyni zamanda məqalədə beynəlxalq qüvvələrin "İD"-nə qarşı mübarizəsi Paqında yazılmışdır. Bu mübarizə Yaxın Şərqin geosiyasi xəritəsinin köklü dəyişməsinə təsir edir və öz növbəsində Livandakı hərbi-siyasi proseslərə təsirsiz ötüşmür.

Açar sözlər: *Livan, İslam dövləti, "sünni üçbucağı".*

Leyla Suleymanova

"ISLAMIC STATE" AS A MILITARY-POLITICAL THREAT TO LEBANON OF THE MODERN STAGE

The main focus in the article is an "Islamic state" as a military-political threat to Lebanon at the modern stage. It also elucidates the military campaigns of "IS" on the territory of Lebanon that took place during 2014-2015. It points that the drastic changes of geopolitical map of the Big Near East are greatly dependent on the outcome of struggle between the coalition of international forces and "IS", which in its turn is sure to have its influence on the military-political situation in Lebanon.

Key words: *Lebanon, Islamic state, "sunni triangle".*

(Статья представлена член-корреспондентом НАНА Фахреддином Сафарли)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

SEVİNC ABBASOVA
Naxçıvan Dövlət Universiteti

XX ƏSRİN 70-80 Cİ İLLƏRİNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASI QADINLARININ İCTİMAİ-İQTİSADİ VƏ SOSİAL-MƏDƏNİ İNKİŞAFI MƏSƏLƏLƏRİ

Təqdim olunmuş məqalədə Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişaf kontekstində qadınların ictimai-siyasi və sosial-iqtisadi vəziyyəti tədqiq olunub. Statistik məlumatlar və müəyyən ədəbiyyat əsasında belə bir nəticəyə gəlinmişdir ki, Azərbaycanda XX əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi ilə aparılan siyasətin nəticəsində 1970-1980-ci illərin əvvəllərində Azərbaycan qadınları sosial-siyasi və iqtisadi həyatın bütün sahələrində böyük tərəqqiyə nail olmuşlar.

Açar sözlər: *1970-1980-ci illər, qadın siyasəti, qadınların sosial və iqtisadi inkişafı, gender bərabərliyi.*

1970-1980-ci illərin əvvəlləri baş vermiş dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə qalxmasına görə Azərbaycanın yeni tarixində mühüm yer tutur. Milli liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır [21, s. 145].

Azərbaycanın bəhs etdiyimiz illərdə inkişafının əsl mahiyyətini daha dolğun təsəvvür etmək üçün ilk növbədə belə bir fakt vurğulanmalıdır ki, İkinci Dünya Müharibəsindən sonra beşillik planların heç biri nəzərdə tutulmuş həcmdə həyata keçirilməmişdi. Azərbaycan SSR-in milli gəlirinin artım templəri 1960-cı illərdə orta ittifaq göstəricilərindən 3 dəfədən də çox aşağı idi, sənaye və kənd təsərrüfatının bir sıra əsas, həlledici göstəriciləri üzrə respublika ölkədə axırıncı yerlərdən birini tuturdu [1, s. 11].

1969-cu ilin iyulunda H.Əliyevin Azərbaycanın siyasi rəhbəri seçilməsi respublikanın siyasi, sosial, iqtisadi, mədəni və mənəvi həyatında yeni, dayanıqlı inkişaf mərhələsinin əsasını qoydu.

Bütövlükdə Azərbaycanda 1970-1985-ci illərdə sənaye məhsulunun həcmi 2,9 dəfə artdı və respublikamız artım sürətinə görə müttəfiq respublikalar

arasında çox cüzi fərqlə Belarusdan sonra ikinci yerdə dururdu [12, s. 122-124]. Ümumən isə o dövrdə Azərbaycan SSR-in milli gəliri 2,7 dəfə artmışdı [8, s. 205].

1970-ci ildən başlayaraq Naxçıvan MR da sosial-iqtisadi inkişafının yeni mərhələsinə qədəm qoydu. 1970-1985-ci illərdə yeni sənaye müəssisələri yarandı, digərləri əsaslı sürətdə yenidən quruldu. Nəticədə 1985-ci ildə sənaye məhsulunun ümumi həcmi 1970-ci ilə nisbətən 4,6 dəfə artdı (Azərbaycanda 2,9 dəfə) [13, s. 59]. Regionda ənənəvi sənaye sahələri ilə yanaşı yeni-yeni sənaye sahələri – energetika, dağ-mədən, maşınqayırma, elektrotexnika sahələri də inkişaf etdirilirdi. Sənayenin, kənd təsərrüfatının, qeyri-istehsal sahələrinin inkişafı, yeni sənaye sahələrinin yaranması, istehsalın avtomatlaşdırılması nəticəsində əhalinin sosial strukturunda mühüm keyfiyyət dəyişiklikləri baş vermişdi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk dönəmində, yəni 1970-80-ci illərin əvvəllərində respublikanın həyat fəaliyyətinin bütün sahələrini əhatə edən inkişaf və tərəqqi Azərbaycan qadınının da istər sosial-iqtisadi, istər idarəçilik, istərsə də mədəni durumunda müsbət mənada təsirsiz ötüşməyə bilməzdi. Sözügedən dövrdə ictimai həyatın elə bir sferası yox idi ki, orada qadınlarımız ciddi irəliləyişlərə nail olmasın. Bu irəliləyişlərin miqyasını daha aydın anlamaq üçün həmin illərə dair bəzi statistik rəqəmləri gətirməyi lazım bilirik. Nəzərdən keçirdiyimiz dövrdə xalq təsərrüfatının müxtəlif sahələrində qadınların sayında və pay çəkisində də artım müşahidə edilirdi.

1970-ci illər ərzində ictimai-siyasi həyatda, mədəni-quruculuq işlərində qadınlarımızın fəaliyyəti daha da güclənmiş, xalq təsərrüfatının idarə olunmasında onların iştirakı genişlənmişdi. Bunu belə bir faktda görmək olar ki, o dövrdə respublikamızda istehsalat rəhbəri və mütəxəssis qadınların sayı sənayedə iki dəfədən çox, tikintidə üç dəfə artmışdı [9, s. 827]. Ümumiyyətlə, dövlət və təsərrüfat idarəçiliyi orqanlarının, habelə kooperativ və ictimai qurumların idarə orqanlarının aparatında qadınların təmsilçiliyi 1970-ci ildə 42%-dən 1975-ci ildə 46%-ə yüksəlmişdi [23, s. 239].

Heydər Əliyevin birinci rəhbərlik dönəmində qadın siyasətinin ən bariz təzahürlərindən biri də hakimiyyət strukturlarında qadınların təmsilçiliyinin durmadan artması idi. 1970-ci illərin əvvəllərində SSRİ Ali Sovetinə Azərbaycandan 22 nəfər qadın seçilmiş, 142 qadın Azərbaycan SSR Ali Sovetinin, təqribən 20,5 min qadın isə yerli Sovetlərin deputatı idi [5, s. 18]. 1974-cü ilin məlumatına əsasən, Azərbaycan SSR Ali Sovetinin bütün deputatlarının 37%-ni qadınlar təşkil edirdi [2, s. 24]. Sonrakı illərdə də qadınların sovet orqanlarında istər mütləq, istərsə də nisbi payını daim artırırdı. 1980-ci illərin əvvəllərində SSRİ Ali Sovetində Azərbaycanı 23 qadın təmsil edirdi. Azərbaycan SSR Ali Sovetində isə 450 deputatdan artıq 179-u, yəni 40%-i, Naxçıvan MSSR-də isə 110 deputatdan 52-si (47%) qadın idi. Ümumən yerli Sovetlərə seçilmiş 50,8 min nəfərdən 24,4 min nəfərini (48%) qadınlar təşkil edirdilər [24, c. 35].

Yuxarıda gətirilən rəqəmlərin özü Ulu Öndərin qadın hüquqlarının hərtərəfli şəkildə təmin edilməsinə verdiyi önəmin göstəricisidir. Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə qadınların kişilərlə proporsional nisbətdə dövlət strukturlarında təmsil olunmalarına səy göstərməklə faktiki olaraq gender bərabərliyinin təminatında ən ümdə prinsiplərdən birini həyata keçirirdi. Azərbaycan rəhbəri məhz gender bərabərliyi amilini nəzərdə tutaraq, bəyan edirdi: "Ali Sovetdə də, yerli Sovetlərdə də deputat qadınlar bütün məsələləri kişilərlə birlikdə həll edirlər. Qadınlar yüksək partiya və dövlət vəzifələri tutur, nazir vəzifələrində işləyir, respublikanın idarə və müəssisələrinə rəhbərlik edirlər" [2, s. 224].

1970-ci illərdə Naxçıvanda rəhbər vəzifələrdə işləyən qadınların xüsusi çəkisinin artması, onların mədəni-məişət şəraitinin yaxşılaşdırılması həmin dövrdən başlayaraq Azərbaycan rəhbərliyinin bu bölgəyə diqqətinin artmasının nəticəsi idi.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi ilə Naxçıvanda iqtisadiyyatın, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafı güclənmiş, Azərbaycan EA Elm Mərkəzi, Naxçıvan Dövlət Pedaqoji İnstitutu, politexnik, kənd təsərrüfatı, musiqi, tibb texnikumları və digər müəssisələr fəaliyyətə başlamışdı. Naxçıvan MSSR bu illərdə əsl mənada quruculuq və yüksəliş dövrü yaşayırdı. Həmin illərdə S.Əliyeva Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri, G.Rzayeva sədrin müavini, L.İ.Əkbərova ictimai təminat naziri (o, bu vəzifədə S.Rzayevanı əvəz etmişdi – S.A.). V.Hüseynova Naxçıvan vilayət komsomol komitəsinin birinci katibi, sonra Naxçıvan şəhər PK katibi və Ali Sovetinin plan-büdcə komissiyasının sədri, Ş.Əliyeva Naxçıvan şəhər XMŞ müdiri, L.Zeynalova səhiyyə nazirinin müavini, S.Bayramova Ali Məhkəmənin sədri, F.Musayeva Naxçıvan VPK siyasi-maarif evinin müdiri, L.Quliyeva Naxçıvan tikiş fabrikinin direktoru, A.Məmmədova Naxçıvan VPK ümumi şöbənin müdiri, Ş.Tarvediyeva Muxtar Respublika Nazirlər Sovetinin ümumi şöbəsinin müdiri, S.Əliyeva İliç rayon MŞ müdiri, C.Abdullayeva İliç rayon Lenin adına sovxozun direktoru, S.K.Ərimova "Şərq qapısı" qəzetinin şöbə müdiri, sonra isə redaktoru, S.Fərəcova İliç rayon komsomol komitəsinin birinci katibi işləyirdi. Həmin dövrdə Naxçıvan qadınlar şurasının sədri Zeynəb Məmmədova, katibi isə Sənubər Kərimova idi, Ordubad rayon Qadınlar Surasına Ş.Ələkbərova, Naxçıvan şəhər Qadınlar Şurasma A.İsmayılova, İliç rayon Qadınlar Şurasına Sosialist Əməyi Qəhrəmanı B.Talıbova rəhbərlik edirdi.

Qadınların ictimai-siyasi fəaliyyətə cəlb edilməsində, cəmiyyətin və dövlətin idarə olunmasında, istehsal həyatında onların rolunun artırılmasında qadın şuraları mühüm rol oynayırdılar.

70-ci illərin sonu-80-ci illərdə Naxçıvan MSSR-də qadınların rolunun artması həm ictimai-siyasi həyatda, mədəniyyətdə, həm də sosial-iqtisadi sahələrdə özünü göstərirdi. Xalq təsərrüfatının bütün sahələrində qadınlar kişilərlə çiyin-çiyinə çalışırdılar. Respublikanın sənaye müəssisələrində qadınların ümu-

mi sayı artmaqda idi. Alt trikotaj, tikiş fabriklərində, Ordubad baramaaçan və konserv zavodlarında çalışanların 90-95%-i qadınlar idi. Qadınların rəhbər vəzifələrdə təmsil olunması üçün də müəyyən işlər görülürdü. Dövlət xadimləri, rəhbər işçilər, incəsənət ustaları, yaradıcı insanlar arasında onların sayı artmaqda idi. S.Əliyeva 1990-cı ilə qədər Muxtar Respublikanın Ali hakimiyyət orqanına rəhbərlik edirdi. Sitarə Bayramova – Ədliyyə Naziri, Lətifə Ələkbərova ictimai təminat naziri, sonra isə alt trikotaj paltarları fabrikinin direktoru, Dilarə Ələkbərova Naxçıvan VPK katibi, E.Qasımova Naxçıvan şəhər PK katibi, Sənubər Kərimova "Şərq qapısı" qəzetinin redaktoru, Zeynəb Məmmədova Respublika Xalq Nəzarət Komitəsinin sədrinin müavini, V.Vəliyeva tikiş fabrikinin direktoru, L.Zeynalova Səhiyyə Nazirinin müavini, Ş.Fərəcova Culfa rayon PK katibi işləyirdi. S.Mikayılova Naxçıvan şəhər PK katibi, Q.Qasımova Maliyyə nazirinin müavini, Z.Vəkilova İliç rayon PK katibi, S.Hüseynova Naxçıvan göz xəstəxanasının baş həkimi, Ə.Urmiyeva Babək rayon PK II katibi, K.Cəfərova Naxçıvan tibb məktəbinin direktoru, N.Vəliyeva Naxçıvan şəhər XMŞ müdiri vəzifələrində çalışırdı. 2 naxçıvanlı qadın SSRİ Ali Sovetinə, 7-si Azərbaycan SSR Ali Sovetinə, 51-i Naxçıvan MSSR Ali Sovetinə, 1369 yerli sovetlərə deputat seçilmişdi [3, s. 14-15].

Lakin qadınların rəhbər vəzifələrə irəli çəkilməsinə baxmayaraq, onların bu vəzifələrdə çəkisi kişilərdən dəfələrlə aşağı idi. Məsələn, partiya üzvləri arasında 31,9%, ilk partiya təşkilat sədrləri arasında 31,3%, nomenklaturaya götürənlər arasında isə qadınlar 12,3% təşkil edirdi [18]. Naxçıvan VPK kadrlarla iş haqqında plenumda (1981, aprel) göstərilmişdi ki, son iki ildə şəhər və rayonlarda irəli çəkilmiş 290 kadrdan cəmi 26-sı qadın idi. Mütəxəssis qadınların əksəriyyət təşkil etdiyi səhiyyə, maarif, mədəniyyət sahələrində, eləcə də ticarət, ictimai-iaşə, məişət xidməti sahələrində rəhbər işçilər arasında qadınların azlıq təşkil etməsi xüsusi vurğulanmışdı [14, v. 13]. Rəhbər kadrlar arasında qadınlar cəmi 11% təşkil edirdi. Kolxoz sədrləri, sovxoz direktorları, sənaye müəssisələri rəhbərləri arasında qadın yox idi. Muxtar Respublikanın 25 nazirlik, komitə və digər idarələrinə rəhbərlik edənlər arasında cəmi 1 nəfər qadın var idi [19]. Respublika şəhər, rayon, sovet, partiya, həmkarlar ittifaqları, təsərrüfat kadrları arasında isə qadınların xüsusi çəkisi 29.4% təşkil edirdi [15, v. 39].

Naxçıvan iqtisadiyyatında qadınların xüsusi çəkisi də artmaqda idi. 1940-1988-ci illərdə MR-da muzdla işləyən qadınların sayı 2,9 min nəfərdən 33,5 min nəfərə (11,5 dəfə), bütün işləyənlər arasında isə 14,4% artaraq 33,3%-dən 47,7%-ə qalxmışdı [17, s. 61].

Qadınların maddi istehsala cəlb olunması onların mədəni-texniki və təhsil səviyyəsinin artması ilə bilavasitə əlaqədar idi. 1979-cu ildə MR qadınlarının artıq 100%-i savadlı idi. Xalq təsərrüfatında məşğul əhali arasında qadınların sayı sürətlə artırdı. 1959-cu ildə hər işləyən 1000 nəfər qadına 7 ali təhsilli (kişiyə 24), 295 orta təhsilli qadın düşürdüsə (kişiyə 255), 1970-cu ildə bu rəqəmlər 24 (74), 152 (624), 1979-cu ildə isə 42 (125), 717 (733) nəfər təşkil etmişdi

[25, c. 3]. Lakin buna baxmayaraq, işləyən əhali arasında qadınların ümumtəhsil səviyyəsinə görə Naxçıvan MR Azərbaycanın ümumi göstəricilərindən, Azərbaycan SSR isə SSRİ-nin ümumi göstəricilərindən geri qalırdı. Belə ki, hər 1000 nəfərə MR-də 1959-cu ildə 408 ali və orta təhsilli, 1970-ci ildə 605, 1979-cu ildə isə 785 ali və orta təhsilli qadın düşürdü. Bu baxımdan qadın məsələsinin əsas problemlərindən biri onların məşğulluq probleminin həlli idi. MR-də bu sahədə aşkar uğurlara baxmayaraq, fəhlə və qulluqçular arasında 1970-ci ildə qadınların xüsusi çəkisi 39,8%, 1980-ci ildə isə 42% təşkil etmişdi. Müqayisə üçün qeyd edək ki, 1980-ci ildə Azərbaycanda bu göstərici 43%, SSRİ-ndə isə 51% təşkil edirdi [22, c. 53]. Bu göstərici üzrə ən yüksək artım 1985-ci ilə təsadüf edir – 44,9% [17, s. 61]. İstehsala cəlb edilməyən əhali arasında qadınlar 1980-cı ildə 89,4%-ə bərabər idi [10, s. 100-101].

1959-cu ildə MR-də məşğul qadınların 8% fəhlə, 8,3% qulluqçu, 83,7% kolxozçu idisə, 1979-cu ildə bu rəqəmlər 34,6%-ə, 16,4%-ə, 47,8%-ə çatmışdı. Deməli 20 il ərzində fəhlə qadınların xüsusi çəkisi 26,6%, qulluqçu qadınların xüsusi çəkisi 8,1% artmış, kolxozçu qadınların sayı isə 35,9% azalmışdı. 1980-cı ildə qadınlar kolxozçuların ümumi sayının 51%-ni təşkil edirdilər (Azərbaycanda 50%, SSRİ-ndə 47%). 1980-cı ildə kolxozçu qadınların istehsala cəlb edilməsi 86,6% təşkil edirdi. Babək rayonunda bu göstərici 61,3%, Ordubad rayonunda 66,1%, Sahbuz rayonunda 70,9%, Culfa rayonunda 94,6%, İliç rayonunda 98,1% idi.

Muxtar respublika kənd təsərrüfatında qadınların xüsusi çəkisi artsa da, mütəxəssislər, rəhbər işçilər arasında onların sayı xeyli az idi. Bu ümumən Azərbaycan üçün də xarakterik olsa da, 1980-ci illərin ortalarında MR-də ali təhsilli kənd təsərrüfatı mütəxəssisləri arasında bir nəfə qadın belə yox idi [10, s. 62]. İxtisaslı kadrların hazırlanması sahəsində qadınlarla kişilər arasında disbalans mövcud idi. Məsələn, qızlar 1986-1987-ci illərdə SSRİ-ndə ali və orta ixtisas təhsili məktəb tələbələrinin 56%-i, Azərbaycan SSR-də 47-%-i, Naxçıvan MSSR-də isə cəmi 27%-i təşkil edirdilər. Gender inkişafının ən mühüm göstəricilərindən biri də müxtəlif sahələr üzrə cinslər arasında disbalansın aradan qaldırılmasıdır. Azərbaycan üçün xarakterik olan mənfi tendensiya MR üçün də səciyyəvi idi. Belə ki, qadın əməyinin tətbiqi üçün əlverişli olan sahələrdə (ticarət, ictimai-iaşə, rabitə və s.) qadınların xüsusi çəkisi çox az idi. Məsələn, ticarət və iaşədə işləyən qadınların xüsusi çəkisi SSRİ üzrə 75%, Azərbaycan SSR üzrə 43% idisə, Naxçıvan MSSR-də bu göstərici cəmi 35,8% təşkil edirdi (müqayisə üçün DQMV-də 60,5%). Rabitədə müvafiq göstəricilər SSRİ üzrə 68%, Azərbaycan SSR üzrə 39%, Naxçıvan MSSR üzrə isə 20% idi.

Mədəni-məişət, mənzil-kommunal xidmət sahələrində qadınların yerinə yetirə biləcəyi işlərin əksəriyyəti kişilərə həvalə edildiyindən, qeyri-məşğul qadınların sayı artmaqda idi. Bunun əsas səbəblərindən biri də əhaliyə məişət xidməti müəssisələrinin – camaşırxanaların, atelyelərin, eləcə də uşaq bağçaları, yasli və s. sayının az olması idi.

Lakin buna baxmayaraq, məhz 70-80-ci illərdə MR-də qadınların məşğulluq səviyyəsi əvvəlki illərlə müqayisə də xeyli artmışdı. 10 il ərzində muzdla işləyən qadınların sayı 1,8 dəfə artaraq 14,6 mindən (1970-ci il) 26,4 minə (1980-ci il) çatmışdı [17, s. 25-26].

Ədəbi yaradıcılığı ilə respublikadan uzaqlarda da oxucuların rəğbətini qazanmış, əsərləri başqa dillərə tərcümə edilmiş Naxçıvanın şair və yazıçıları içərisində Kəmalə Ağayeva, Rahilə İbrahimli, Validə Hüseynova, Sənubər Kərimova, Güllü Məmmədova, Lətifə Əhmədova, Elmira Qasımova və b. var idi.

Naxçıvan Dram Teatrının adlı-sanlı artistləri Z.Həmzəyeva, Ə.Əlixanova, S.Hüseynova, R.Cəfərxanova, X.Qazıyeva ilə yanaşı gənc artistlər Z.Əliyeva, M.Əliyeva, S.Lətifova, Q.Məmmədova, P.Məmmədova və başqaları respublikanın mədəniyyəti və incəsənətinin inkişafında mühüm xidmətlər göstərmişdilər. Musiqi və incəsənət sahəsində çalışan Z.Cavadova, M.Ələkbərova, C.Şuşinskaya, B.lsayeva, H.Seyidova, Y.Əsədova, S.Məmmədova, Z.Rzayeva, M.Orucova, T.Nəbiyeva, S.Əliyeva və başqalarının yaradıcılığı Naxçıvan mədəniyyətinin gözəl səhifələridir.

1970-ci ildə respublikada 252 kitabxana, 166 klub, 2 muzey, 2 teatr, 131 kinoqurğusu mövcud idi. 1980-cı ildə bu rəqəmlər müvafiq olaraq 244, 229, 4, 1, 189 təşkil edirdi. 1990-cı ildə isə artıq 28,8 kitabxana, 267 klub, 12 muzey, 185 kino qurğusu fəaliyyət göstərirdi. Kitabxanaların və klubların 90%-ə qədəri kənd yerlərinin payına düşürdü (17, s. 28). Bu faktlar əhalinin, o cümlədən qadınların maddi və mədəni-məişət şəraitinin müəyyən qədər yaxşılaşmasının göstəricisi idi.

Qabaqcıl müəllimlərdən T.Tağıyeva, M.Abbasova, L.Kələntərli, S.Məmmədova, S.Talıbova, V.Novruzova, N.Vəliyeva, Ş.Ələkbərova, F.Ağalarova, X.Muradova, M.Həşimova, F.Ələkbərova, M.Mollayeva, Z.Sultanova, V.Məmmədova və b. gənc nəslin təlim-tərbiyəsində yaxından iştirak etməklə yanaşı, Muxtar respublikanın ictimai həyatında da fəallıq göstərirdilər [6, s. 77].

1967-ci ildə Naxçıvanda Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialının açılması ilə respublikada ali təhsilin əsası qoyuldu. 1972-ci ildə müstəqil instituta çevrilən Naxçıvan Dövlət Pedaqoji İnstitutu respublikanın müəllim kadrları ilə, o cümlədən qadın müəllimlərlə təmin edilməsində müstəsna rol oynamışdır. Bu gün Naxçıvanda fəaliyyət göstərən bir çox tanınmış qadınlar məhz bu ali məktəbin yetirmələridir. Naxçıvan Dövlət Universitetində, Azərbaycan MEA Naxçıvan Bölməsində, digər təhsil və elm müəssisələrində işləmiş və hazırda da işləyən onlarla qadın vaxtilə bu ali məktəbdə təhsil alıblar.

1970-ci ildə Naxçıvanda 210, 1980-ci ildə 209, 1990-cı ildə isə 217 ümumi təhsil məktəbində müvafiq olaraq 53,1; 65,4; 63,6 min şagird oxuyurdu. Bu məktəblərdə dərs deyən müəllimlərin sayı isə 1970-ci ildə 3210, 1990-cı ildə 7200 nəfər olmuşdur [17, s. 26]. Bu dövrdə artıq bütün məktəbyaşlı qız uşaqları təhsilə cəlb edilsə də, yuxarı siniflərdən onların təhsildən yayınması halları hələ də mövcud idi. Bu dövrdə artıq respublikada, xüsusən onun paytaxtında müəl-

limlər hazırlanmasında baş verən uyğunsuzluqlar nəticəsində 600-dən çox müəllim işlə təmin olunmamışdı və növbədə gözləyirdi [16, v. 54].

Qadınların yaşayış səviyyəsinin əsas göstəricilərindən biri də səhiyyənin inkişafıdır. 1970-ci ildə Naxçıvanda 262 həkim, 1435 orta tibb işçisi var idisə, 1980-cı ildə bu rəqəmlər 591 və 1900, 1990-cı ildə isə müvafiq olaraq 844 və 2686-ya çatmışdı. Əhalinin hər 10000 nəfərinə 1970-ci ildə 12,6%, 1980-cı ildə 24,1%, 1990-cı ildə isə 28,2% həkim, müvafiq olaraq 69,2%, 74.6%, 89,8% orta tibb işçisi düşürdü. Muxtar Respublikada 1970-ci ildə 53 xəstəxana müəssisəsi, 15 qadın məsləhətxanası, uşaq poliklinikası və ambulatoriyası var idisə, 1980-cı ildə onların sayı müvafiq olaraq 48, 34, 1990-cı ildə isə 50 və 72-yə çatmışdı [17, s. 72]. Səhiyyə sahəsində işləyənlərin əksəriyyəti qadınlardan ibarət idi. Onlar arasında respublikanın tanınmış həkimləri Ş.Məmmədəliyeva, N.Əliyeva, T.Dadaşova, S.Hüseynova (göz xəstəxanasının baş həkimi), R.Bayramova, S.Əliyeva, V.Qazıbəyova, M.Sadıqova əhalinin sağlamlığı keşiyində layiqincə durmuşdular.

Lakin bununla belə qadınların sağlamlığının mühafizəsi sahəsində bir sıra ciddi problemlər mövcud idi ki, bunlar arasında birinci növbədə respublikada, xüsusən kənd yerlərində ginekoloq, mama, pediatr ixtisasından olan həkimlərə olan böyük tələbat, doğum evlərinin, körpələr evlərinin çatışmaması, dərmanların tapılmaması və bu amillərin nəticəsi olaraq respublikada uşaq ölümü səviyyəsinin yüksək olması idi.

1984-cü ilə qədər Naxçıvanda 1429 qadın "Qəhrəman ana" ordeninə, 1954 qadın "Analıq şərəfi" ordeninə, 31091 qadın isə "Analıq medalına" layiq görülmüşdü [4, s. 14-15].

Ümumiyyətlə, qeyd edək ki, Naxçıvanda əhalinin ən sürətli orta illik artımı 60-70-ci illərə təsadüf etmişdir. Bu dövrdə respublikada əhalinin sayı 43% (Azərbaycan SSR-də 38,4%, SSRİ-ndə 15,8%) artmışdı. Həmin dövrdə bütünlüklə keçmiş SSRİ-ndə əhalinin orta illik artım sürəti 1,4%, Azərbaycanda 3,5% olduğu halda, Naxçıvan MSSR-də 3,9% təşkil edirdi [17, s. 19]. 1985-ci ildə Azərbaycanda ən yüksək doğum Naxçıvanda (31,3 nəfər), ən aşağısı isə Abşeronda (21,5) qeydə alınmışdı [11, s. 63]. Respublikada əhalinin sürətlə artımını təmin edən amillər arasında ailədə çoxuşaqlılıq ənənəsinin qorunub saxlanması da mühüm rol oynayırdı. Lakin bununla belə, dünyanın bütün regionlarında olduğu kimi, Naxçıvanda da 60-ci illərdən başlayaraq doğumun səviyyəsi sürətlə azalaraq 1960-cı ildəki 50,6 nəfərdən 1998-ci ildə 19,5 nəfərə düşmüş və ya 38,5% azalmışdı [17, s. 20]. Buna təsir göstərən amillər arasında bölgədə baş verən urbanizasiya prosesləri, əhalinin tərkibində fertil yaşlı qadınların xüsusi çəkisinin azalması, onların maddi və mədəni həyat səviyyəsinin dəyişməsi, ailədə uşaqların sayının şüurlu surətdə nizamlanması, nikah və boşanmaların sayındakı dəyişikliklər xüsusi qeyd edilməlidir. Statistik təhlil göstərir ki, muxtar respublikada işləyən ixtisaslı qadınların ailələrində uşaqların sayı daha az idi. Azərbaycanın orta göstəriciləri ilə müqayisədə Naxçıvanda bo-

şanmaların sayı da çox aşağı idi ki, bu da bölgədə tarixən ailəyə münasibətdə formalaşmış sabit baxışların nəticəsidir.

Araşdırılan dövrdə Naxçıvan qadınlarının ictimai vəziyyətində baş verən ən mühüm dəyişikliklərdən biri də qeyri-istehsal və zehni əməyin üstünlük təşkil etdiyi sahələrdə, xüsusən maarif, mədəniyyət və səhiyyə sahələrində qadınların xüsusi çəkisinin artmasıdır. Bu gün Muxtar Respublika əhalisinin 51%-dən çoxunu, mədəniyyət sahəsində çalışanların 75%, səhiyyədə çalışanlarının isə 81%-ni qadınlar təşkil edir [20].

Dövrün qadın siyasətinin xarakterik xüsusiyyətlərindən biri də əməkdə fərqlənən qadınlara müxtəlif fəxri adların, dövlət mükafatlarının, orden və medalların verilməsi, onların ali hakimiyyət orqanlarında təmsil olunması idi ki, bu da rejimin mahiyyətindən irəli gəlirdi. Adətən müxtəlifsəviyyəli sovetlərə (SSRİ, Azərbaycan, Naxçıvan Ali Sovetlərinə, yerli sovetlərə), partiya orqanlanna seçkilərdə qadınlara kvotalar ayrılır, bu zaman adətən "fəhlə və kolxozçuların nümayəndələrinə" üstünlük verilirdi. Sovet hakimiyyəti illərində Naxçıvanda Sosialist Əməyi Qəhrəmanı adı almış şəxslərin yarıdan çoxunu qadınlar təşkil edirdi – Xasa Vəliyeva, Tamam Əliyeva, Növrəstə Quliyeva (ilk qadın Sosialist Əməyi Qəhrəmanları – S.A.), Fatma İmamquliyeva, Bahar Talıbova, Münəvvər Əskərova, Rəvayət Qurbanova, Raziyyə Rüstəmova və b.

1985-ci ildə SSRİ-ndə "yenidənqurma" siyasətinin başlanması ilə, bütün ölkədə olduğu kimi, Azərbaycanda və Naxçıvanda da qadın hərəkatında müəyyən canlanma hiss olunmağa başladı. Muxtar Respublikanın şəhər, rayon və kəndlərində ən aktual məsələlərin açıq müzakirə edildiyi qadın konfransları, Paminarlar, müşavirələr keçirilirdi. Qadın təşkilatları haqqında Azərbaycan Pamətinin qərarında (may 1985-ci il) və 1986-cı il may ayının 16-da keçirilmiş Azərbaycan qadın şuraları konfransında qadın şuralarının qarşısında duran vəzifələr konkretləşdirildi. Konfrans ərəfəsində respublikada şəhər, rayon qadın şuralarının konfransları keçirilmiş, şuralara yeni fəal qadın qüvvələri gəlmiş, onların tərkibi yaxşılaşmışdı. Naxçıvanda 279 qadın şurasında 1635 qadın birləşmişdi ki, onların 2/3 hissəsi ali və orta ixtisas təhsilli, 30% sənaye və kənd təsərrüfatı mütəxəssisləri idilər. Naxçıvan Qadınlar Şurasının sədri Muxtar Papublikanın ictimai təminat naziri Sənubər Kərimova idi (1986-cı ildə bu vəzifəyə təyin edilmişdi – S.A.). Qadınların cəmiyyət həyatındakı roluna geniş yer vermək, onların sosial və siyasi fəallığını artırmaq, qadın hüquqlarını daha geniş müdafiə etmək qadın şuralarının əsas vəzifəsi idi. Bununla belə sosial-siyasi fəallığın daha çox tələb olunduğu sahələrdə, xüsusən hüquq sahəsində muxtar respublikada vəziyyət qənaətbəxş deyildi. Hakim və xalq icraçıları, vəkillər və digər hüquq peşələrində qadınların az olması onların hüquqlarının səmərəli qorunmasına mənfi təsir göstərirdi. Ümumiyyətlə hüquqşünaslar arasında qadınların xüsusi çəkisi digər keçmiş SSRİ respublikalarına nisbətdə çox aşağı idi [7, s. 1-2]. Təəssüf ki, o dövrdə yaranmış bu vəziyyət indi də davam etməkdədir. Statistik məlumatlar sübut edir ki, Azərbaycanda nəinki hüquq mü-

hafizəsi orqanlarında, həm də hüquq ixtisası verən fakültələrdə qızlar azlıq təşkil edirlər.

İctimai həyatın bir çox sahələrində – elmi idarə və müəssisələrdə işləyənlər, aspiranturada oxuyanlar arasında Naxçıvanda qadınlarla kişilər arasında yaranmış disbalans xüsusi ilə acınacaqlı idi. Bu sözləri idman və bədən tərbiyəsi sahəsinə də aid etmək olardı. Qadınların idmanla onsuz da az məşğul olduğu bölgədə 80-cı illərin ortalarından başlayaraq idman yarışlarının keçirilməsi kəskin surətdə azalmışdı.

Bu dövrdə keçmiş SSRİ-ndə baş verən siyasi, iqtisadi proseslər istehsalın aşağı düşməsinə gətirib çıxarmışdı. Bu isə ən çox qadınlara təsir edirdi. Çünki kütləvi işsizlik şəraitində birinci növbədə qadınları, uşaqlı anaları ixtisara salırdılar. 80-cı illərin sonları isə qadınların ictimai istehsaldan kənarda qalmaları ilə əlamətdar oldu. Bu isə gələcəkdə qadınlar arasında bir sıra sosial xarakterli problemlərin yaranmasına gətirib çıxardı.

80-cı illərin sonunda Azərbaycanda başlanan milli azadlıq hərəkatında qəhrəman qadınlarımız xüsusi rol oynadılar. Bu dövrdə Naxçıvanda milli azadlıq hərəkatının inkişafına bilavasitə imperiya tərəfindən törədilmiş Qarabağ münaqişəsi, Ermənistandan kütləvi şəkildə azərbaycanlıların çıxarılması, Azərbaycanın, onun ayrılmaz hissəsi olan Naxçıvanın ərazi bütövlüyünə silahlı qəsdlər təkan verdi. Mitinqlər, yürüşlər, tətillər formasında gedən bu hərəkatın ən fəal iştirakçıları arasında Naxçıvan qadınları da var idi. Bu hərəkat həm də demokratiya uğrunda, azadlıq uğrunda xalq hərəkatı olduğundan, onun tərkibində əhalinin ən müxtəlif təbəqələri iştirak edirdi. İlk mitinq və tətillərdə, Azərbaycan azadlıq hərəkatının parlaq salnaməsi olan sərhəd hərəkatında naxçıvanlı qadınlar həm özləri bilavasitə fəal iştirak edirdilər, həm də öz mə'nəvi və maddi yardımları ilə hərəkatın öncüllərini ruhlandırırdılar.

Beləliklə, 1970-80-ci illərdə Naxçıvan MR-də həyata keçirilmiş qadın siyasətinin təhlili, bir sıra sosial-iqtisadi xarakterli problemlərin mövcudluğuna baxmayaraq, onun son dərəcə müvəffəqiyyətlə həyata keçirilməsini söyləməyə imkan verir. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında bütün Azərbaycanda gerçəkləşdirilən bu siyasət muxtar respublika qadınlarının sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatda daha da fəal iştirakının, dövlət və hakimiyyət orqanlarında daha geniş təmsil olunmasının, onların maddi-texniki səviyyəsinin yüksəlməsinin, mədəni-məişət şəraitinin yaxşılaşmasının təminatçısı oldu.

ƏDƏBİYYAT

1. Azərbaycan Kommunist Partiyası XVIII qurultayının materialları. Bakı: Azərnəşr, 1971.
2. Azərbaycan qadının səadəti / “Azərbaycan qadını” jurnalının 50 illiyinə həsr olunmuş yubiley iclasının materialları. Bakı: Azərnəşr, 1974.
3. Əliyeva S. Bizim qədim diyar // Azərbaycan qadını, 1974, № 11.

4. Əliyeva S. Cavanlaşan qədim diyar // Azərbaycan qadını, 1984, № 10.
5. Heydər Əliyev və dövlət qadın siyasəti. Bakı: Nurlan, 2008.
6. Qanadım olsa uçaram // Azərbaycan qadını, 1987, № 9.
7. Qasımzadə F. Qadınların sosial fəallığı sahəsində vəzifələr // Azərbaycan qadını, 1987, № 3.
8. Qədirova E.H. Azərbaycan qadınları kommunizmin fəal qurucularıdır (1966-1980-ci illər). Bakı: Elm, 1982.
9. Məmmədov S. Böyük sosial nailiyyətlər // Azərbaycan kommunisti, 1980, № 3.
10. Mirzəyev T. Naxçıvan MSSR-də əmək ehtiyatları və ondan səmərəli istifadə məsələləri. Bakı: Elm, 1983.
11. Muradov Ş. Azərbaycan SSR-də əmək ehtiyatları. Bakı: Elm, 1987.
12. Nadirov A.A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf mərhələləri. Bakı: Elm, 2001.
13. Nadirov A., Muradov Ş., Nuriyev Ə. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı: Elm, 2000.
14. Naxçıvan MR DA: F. 1, siy. 13, iş 5, v. 13.
15. Naxçıvan MR DA: F. 1, siy. 13, iş 5, v. 39.
16. Naxçıvan MR DA: F. 2, siy. l, iş 2421, v. 54.
17. Naxçıvan statistika güzgüsündə. Tarixi-statistik məcmuə. Bakı, 1999.
18. “Sovet Naxçıvanı” qəz., 1981, 27 aprel.
19. “Şərq qapısı” qəz., 1984, 15 yanvar.
20. “Şərq qapısı” qəz., 1997, 12 mart.
21. Yeni 2001-ci il, Yeni Əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət, 29 dekabr 2000-ci il / Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 31-ci kitab, Bakı: Azərnəşr, 2010.
22. Вестник статистики. М., 1986, № 1.
23. Народное хозяйство Азербайджанской ССР в 1975 году: Статистический сборник. Баку: Азернешр, 1976.
24. Народное хозяйство Азербайджанской ССР к 60-летию образования СССР: Юбилейный статистический сборник. Баку: Азернешр, 1982.
25. Нахичеванская АССР за 60 лет. Баку: Азернешр, 1984.

Севиндж Аббасова

ВОПРОСЫ ОБЩЕСТВЕННО-ЭКОНОМИЧЕСКОГО И СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКОГО РАЗВИТИЯ ЖЕНЩИН НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ В 70-80-Х ГОДАХ XX ВЕКА

В представленной статье рассматривается общественно-политическое и социально-экономическое положение женщин в контексте всесто-

роннего развития Нахчыванской АР. На основе статистических данных и соответствующей литературы сделан вывод о том, что в 1970-х и в начале 1980-х годов женщины Азербайджана благодаря политике, осуществлявшейся в Азербайджане под руководством Гейдара Алиева, добились большого прогресса во всех сферах социально-политической и экономической жизнедеятельности.

Ключевые слова: *1970-1980-е годы, женская политика, социальное и экономическое развитие женщин, гендерное равноправие.*

Sevinj Abbasova

PROBLEMS OF SOCIAL-ECONOMICAL AND SOCIAL-CULTURAL DEVELOPMENT OF WOMEN IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC IN 70-80th YEARS OF THE XX CENTURY

The social-political and social-economical position of women in the context of all-round development of Nakhchivan Autonomous Republic is considered in the paper. On the basis of statistical data and corresponding literature is drawn the conclusion that in the end of 70th and the beginning of 80th years of the XX century Azerbaijan women due to the policy carried out under the direction of our national leader Heydar Aliyev achieved great progress in all fields of social-political and economical activities.

Key words: *1970-1980, women's policy, social and economical development of women, gender equality.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

MÜBARIZ AĞALARLI
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
E-mail: amz2005@rambler.ru

XVII ƏSRDƏ AZƏRBAYCAN SƏFƏVİ İMPERİYASI İLƏ BÖYÜK MOĞOL DÖVLƏTİ ARASINDA DİPLOMATİK YAZIŞMALARA DAİR

XVI əsrin birinci yarısında Mərkəzi Asiyada yeni bir dövlətin əsası qoyuldu. Zəhirəddin Məhəmməd Babur (1526-1530) tərəfindən əsası qoyulan bu dövlət, XVI əsr siyasi tarixinə "Böyük Moğol" dövləti adı ilə daxil oldu.

I Şah Ismayılın 1501-ci ildə Azərbaycanda hakimiyyətə gəlməsi ilə Yaxın və Orta Şərqin siyasi mənzərəsində yeni bir mərhələ başladı. Tarix səhnəsinə yenicə çıxmış Azərbaycan Səfəvi dövləti ilə Şeybanilər dövləti arasında tezliklə bir sıra hərbi-siyasi ziddiyyətlər meydana çıxdı. Hər iki dövlət arasında olan bu ziddiyyətlər, I Şah İsmayılın Məhəmməd xan Şeybani ilə düşmən münasibətində olan Zəhirəddin Baburla müttəfiqlik münasibətlərinin yaranmasına səbəb oldu. Bu müttəfiqlik əlaqələri Kabildə məskunlaşan Babur üçün Mavərənnəhrdə öz siyasi hakimiyyətini bərpa etmək üçün çox vacib idi. Səfəvi hakimiyyəti ilə Babur arasındakı siyasi mövqelərin üst-üstə düşməsi Səfəvi-Moğol münasibətlərinin başlanmasına səbəb oldu.

XVI əsrdə I Şah İsmayılın zamanında əsası qoyulan Səfəvi-Moğol münasibətləri XVII əsrdə də davam etməkdə idi.

Açar sözlər: *Azərbaycan, Səfəvi dövləti, Böyük Moğol dövləti, diplomatik əlaqələr.*

XVI əsrin II yarısından etibarən Səfəvi –Moğol münasibətlərində yeni bir mərhələ başlayır. I Şah Abbas hakimiyyətə gəldikdən (1587-1629) sonra ilk növbədə Moğol dövləti ilə diplomatik əlaqələri bərpa etmək qərarına gəldi. I Şah Abbasın Moğol hökmdarı Əkbər şahla diplomatik əlaqələri hələ Xorasan hakimi olarkən yaranmışdı. 1583-cü ildə o, Moğol sarayına Mürşüd Təbrizinin başçılığı ilə bir elçi heyəti göndərmiş və özbəklərə qarşı mübarizədə Moğol hökmdarından kömək istəmişdi. Lakin Əkbər şah özbəklərlə aparılan danışıqları nəzərə alaraq, onun istəyinə etinasız yanaşmışdı [6, s. 217; 5, s. 78].

I Şah Abbas h.q. 999-cu ildə (1591) Yadigar Əli Sultan Rumlu başda olmaqla, məktub və hədiyyələrlə birlikdə Moğol sarayına bir elçi heyəti göndərmişdi. Bu elçilik Xorasanda özbəklərə qarşı mübarizədə Əkbər şahdan hərbi kömək almağa nail olmalı idi [6, s. 218; 3, s. 430; 7, s. 56]. I Şah Abbasın Moğol hökmdarına yazdığı məktubda, səfəvilər və moğollar arasında uzun müddət davam edən dostluq əlaqələrindən danışılaraq qeyd olunurdu ki, "Bütün bu səmimi arzulardan sonra Sizin diqqətinizə çatdırırıq ki, hamıya mənim rəhmətlik

babamla sizin şərəfli və qüdrətli atanızın dostluğu birliyinin səbəbləri aydındır. Hümayun həzrətləri bizim yanımıza gələndə iki xoşbəxt hökmdar möhkəm ittifaq bağladılar və bu ittifaqın onlardan sonra da davam edəcəyinə, saxlanmasına inam bildiridilər. Bu şöhrətli hökmdarlar taxtda olduqları zaman bu əhdi, ittifaqı çox şərəflə yerinə yetirirdilər. Onlar daim dostluq münasibətlərini möhkəmləndirmək üçün tədbirlər görür, məktub və elçiliklərlə əlaqə saxlayırdılar. O dövrün məşhur hökmdarları belə onların bu dostluğuna həsəd aparırdı" [10, s. 280-300; 5, s. 119].

Məktubun sonunda I Şah Abbas yazırdı: "Biz həmişə dostluq münasibətlərini qoruyub saxlayacağıq və əgər Əkbər həzrətləri çətin məsələlərin həllində hər hansı bir məsləhət verərsə, biz onu yerinə yetirməyə çalışacağıq" (10, s. 280-300; 5, s. 123). I Şah Abbas Əkbər şaha məktubla yanaşı şifahi xəbər də göndərmişdi. Həmin xəbərdə deyilirdi ki, "Abdulla xan Xorasana basqın edib və şah onu dəf etməklə məşğuldur. Sülalələrimiz arasındakı köhnə müttəfiqliyə və ittifaqa əsasən biz intizar çəkirik ki, o tərəfdən (Əkbərdən) bizə kömək göndərilsin və əgər zahiri yardımdan imtina edərlərsə, heç olmazsa hüsn və rəğbəti bizdən əsirgəməsinlər [6, s. 218]. Lakin Moğol hükmdarı səfəvi hakimiyyətinə cavab verməyə tələsməmiş, elçi heyəti 4 il Moğol sarayında qalmışdır [3, s. 431].

Səfəvi dövlətinə xəyanət edərək Osmanlı dövlətinə sığınan Gilan hakimi Əhməd Xan, 1592-ci ilin sonlarında İstanbula gəlmişdi.

I Şah Abbas Moğol hökmdarı Cəlaləddin Əkbər Şaha (1556-1605) yazdığı məktubunda Gilan hakimi Əhməd Xanın Osmanlılara sığınması hadisəsini belə yazır: "Bu Əhməd Xan ki bizim çörəyimizi yemişdir, bunun haqqını yerinə yetirmədi. Bizi arxamızdan vurdu. Gilan xalqına güc tətbiq etdi. Bizim hökumətimizi yox etməyə cəhd göstərdi. Biz ona rəhm göstərdik. Amma o, bu mərhəmətin cavabını bizi məhv etmə planları ilə verdi. Bizim səbrimizi və yumşaq xasiyyətimizi başqa cür anladı. Ən pisi də o oldu ki, başqa bir ölkəyə sığındı. Ayrıca mütəmadi olaraq hakimiyyəti ələ keçirmək üçün planlar hazırlamaqdadır. Gilan xalqı yaxşı bir hakimə layiqdir. Onun yenidən Gilan hakimi olmasını istəmirlər. Əgər yenidən gəlmək istəyirsə, onu bütün etdiklərinə baxmayaraq bağışlayarıq. Amma Gilan hakimi olub-olmamasının qərarını biz veririk" [10, s. 281].

Səfəvilərlə moğollar arasında zaman-zaman münaqişə mənbəyinə çevrilən Qəndəhar vilayəti I Şah Abbasın hakimiyyəti dövründə də hər iki dövlət arasında mübahisəli ərazi olaraq qalırdı. Əvvəllər Qəndəhar vilayətini Sultan Hüseyn Mirzə idarə edirdi. Onun ölümündən sonra I Şah Abbas bu ərazini oğlanları arasında iki hissəyə bölərək, Qəndəharı Müzəffər Hüseyn Mirzəyə, Harmisir və Zamin-Daveri isə Rüstəm Mirzənin idarəsinə verdi. Lakin Qəndəhar vilayətinə daxil olan Sistan ərazisi üstündə qardaşlar arasında başlayan narazılıqdan istifadə edən özbəklər Zamin-Daveri ələ keçirdilər. Bu zaman Rüstəm Mirzə Moğol sarayına gələrək Əkbər şaha sığındı (məhərrəm/1002-sentyabr/1593).

Əkbər şah onu hörmət və ehtiramla qəbul edərək Multan vilayətinin idarəçiliyini ona tapşırdı. Bir qədər sonra şeybanilər Sistan və Qəndəhar üzərinə də öz təzyiqini artırırlar. Bu zaman Əkbər şah Hüseyn Mirzənin yanına elçi göndərərək ona Qəndəharı moğol hakimiyyətinin idarəçiliyinə verməyi, əvəzində Hindistanda istənilən ərazinin hakimliyini təklif etdi. Hüseyin Mirzə Əkbər şahın təklifini qəbul edərək Qəndəharı moğolların ixtiyarına verdi [2, s. 77]. Beləliklə, 1595-ci ildə Qəndəhar Böyük Moğol dövlətinin tərkibinə qatıldı [4, s. 222].

Bu zaman Səfəvi dövlətinin Moğol dövləti ilə siyasi münasibətlərində üç əsas amil mühüm rol oynayırdı. Birincisi, Osmanlılara qarşı Moğol dövlətindən hərbi yardım almaq; ikincisi, Özbəklərə qarşı birgə mübarizə, üçüncüsü isə Qəndəhar məsələsini sülh yolu ilə həll etmək.

Bu dövrdə Şah I Abbasın Moğol hökmdarı Əkbər şahın oğlu vəliəhd şahzadə Səlimə (Cahangir) göndərdiyi məktublar da olduqca maraqlıdır. Səfəvi hökmdarının şahzadəyə göndərdiyi məktubda müttəfiqlikdən, ənənəvi dostluqdan bəhs edir və bu münasibətlərin Əmir Teymura dayandığını qeyd edir [1, s. 217]. Həmçinin şahzadə Səlimə göndərilən bu məktubda bəzi şikayətlər də edilmişdir: "...İndi bizim əhvalımızı soruşmursunuz? Nə oldu? Biz sizinlə dostluğa hazırıq. Sizdən bir məlumat gözləyirik. Bu dostluq hər iki ölkənin əvvəllər olduğu kimi əmin-amanlığına səbəb olacaqdır. Əvvəllər də bizim sülalələrimiz sizinkilərlə dostluq və əmin-amanlıq içində yaşayırdı. Sizi görməsəm də, sevginiz qəlbimdədir. Bu sevgi hər zaman məndə var. Bizim münasibətlərimiz əvvəllərdən davam etməkdədir. Bu əlaqələr Teymur zamanından bu yana gün keçdikcə möhkəmlənməkdədir. Bəzən narahatlıqlar olmuşdur. Amma ölkələrimizin gördüyü tədbirlər nəticəsində bu məsələlər həll edilmişdir. İndi biz Qərb və Osmanlı sultanları ilə müqavilələr bağlayırıq. Qərblə Səfəvilər arasında ticarət və siyasi əlaqələr davam etməkdədir. Əsas məqsədimiz Hind ilə də belə bir müqavilə bağlamaqdır. Biz bunu Hind ilə də həyata keçirməyi arzu edirik. İndi Qərb ölkələrinin tacirləri rahatlıqla İrana (Səfəvi dövlətinə-A.M.) gəlir və ticarətlə məşğul olurlar. Biz bunu Hindlə də həyata keçirməyi arzu edirik. Mən öncədən bir təmsilçimi göndərdim. Amma istədiyimiz məqsədə çata bilmədik. Məqsədimiz iki ölkə arasında siyasi və ticarət əlaqələrini genişlətməkdir. Yenidən bir təmsilçimi göndərirəm. Ümid edirəm ki, iki ölkə arasında siyasi və ticarət əlaqələri əvvəlkindən daha güclü olacaqdır. Mən son illərdə Mavəraünnəhir hakimləri və Bəlx hakimləri ilə çox məşğul oldum. Onlara nəsihət etdim. Amma gün keçdikcə talançılıqlarını artırdılar. İndi onlar tərəfindən bir əngəl olacağını düşünmürəm. Məqsədim sizin ölkə ilə İran (Səfəvi dövləti-A.M.) arasında əlaqələrin genişlənməsidir. Bu ana qədər sizin ölkədən İrana (Səfəvi dövlətinə - A.M.) heç bir təmsilçi gəlmədi. Arzu edirəm ki, sizin də bir təmsilçiniz ölkəmizə gəlsin və əlaqələrimiz daha da inkişaf etsin. Mən öz nümayəndəmi göndərirəm və ümid edirəm ki, iki ölkənin möhkəmlənməsi və inkişafı əlaqələrimizin möhkəmlənməsi ilə məqsədinə çatacaqdır. Sizin sağlığınızı, güc və səl-

tənətinizin isə əmin-amanlıq içində davamını arzu edirəm" [10, s. 274-278].

Şahzadə Səlim Şah I Abbasa cavab məktubunda yazırdı: " Məktubunzda bizim üçün sevgi və dostluqdan bəhs edirsiniz. Biz də qarşılıqlı olaraq eyni hissləri bölüşürük. Sevgi və hörmətimizi çatdırırıq. Son 4-5 il ərzində bizim də məqsədimiz və düşüncəmiz İran (Səfəvi-A.M.) şahı ilə əlaqələrimizin daha da möhkəmlənməsi idi. Bunu yaxşı bilirik ki, iki ölkənin əlaqələri lap əvvəllərdən başlamışdır və həmişə də davam edəcəkdir. Biz sizlə ticarət və siyasi baxımdan hər cür anlaşmaya hazırıq [10, s. 278-279].

Bu məktublaşmalardan göründüyü kimi, tərəflər siyasi və ticarət əlaqələrinin qurulmasında maraqlı görünürlər. Lakin bu dövrdə Moğol dövlətinin Hindisdanın cənub hissələrində həyata keçirdiyi fəthlər səfəvilərə kömək göstərməyə imkan vermirdi. Bu baxımdan Əkbər Şah (1556-1605) yazdığı məktublarda Şah I Abbasa özbəklərlə mübarizədən yayınmağı və sülh bağlamağı məsləhət görürdü [1, s. 220].

Qəndəhar vilayəti moğollar tərəfindən ələ keçirildikdən sonra Moğol sarayında dörd il saxlanan səfəvi elçisi Yadigar Sultan Rumluya geri qayıtmağa icazə verildi. O, Mirzə Ziyaəddinin rəhbərlik etdiyi moğol elçi heyəti ilə birlikdə geriyə – Səfəvi sarayına məktubla yola salındı. Mirzə Ziyaəddinin rəhbərlik etdiyi elçi heyəti Əkbər şah tərəfindən Səfəvi dövlətinə göndərilən ilk böyük elçilik idi. Elçi heyəti 1596-cı ildə Səfəvi sarayına gələrək Əkbər şahın məktubunu I Şah Abbasa təqdim etdi [3, s. 431; 7, s. 61-62; 5, s. 82].

Əkbər şahın I Şah Abbasa yazdığı bu məktubda o, Səfəvi hökmdarından məktub aldığı üçün ona öz təşəkkürünü bildirir və etiraf edirdi ki, o, Şah Abbasa bu məktubu əvvəl yazmalı idi. Lakin Hindistan daxilində işləri sahmana salmaqla məşğul olduğuna görə gec məktub yazmaq məcburiyyətində qalmışdı. Məktubda Əkbər şah Qəndəharın tutulması səbəblərini geniş şəkildə izah edir və Qəndəharın tutulmasından sonra da səfəvilərlə dostluq əlaqələrini saxlamaq arzusunda olduğunu bildirirdi. Əkbər şah məktubda səfəvilərə hər hansı hərbi kömək göstərilməməsinin səbəbini izah edərək, bildirirdi ki, onun bu addımı bölgədə anlaşılmazlıq yarada bilərdi. Həmçinin Moğol hökmdarı I Şah Abbasdan Səfəvi dövlətindəki işlər barədə ona daim məlumat verilməsini xahiş edirdi. Əkbər şah Abdulla xana münasibətini izah edərək yazırdı ki, "sülh axtarana qarşı müharibə başlamaq olmaz" [5, s. 81].

Şəfəvi hökmdarı I Şah Abbas, 1007-ci ildə (oktyabr/1598) Əkbər şahın elçiləri ilə birlikdə, Mənuçöhr bəy Eşikağasıbaşının rəhbərliyi ilə Moğol sarayına növbəti elçi heyəti göndərdi [3, s. 431; 7, s. 64]. Hatəm bəy Ordubadi tərəfindən tərtib edilmiş məktubu Əkbər şaha aparan bu elçilik, 1598-ci ildə Hindistana gəldi və Əkbər şah tərəfindən hörmətlə qəbul edildi [5, s. 83].

I Şah Abbasın Əkbər şaha göndərdiyi bu məktubda yenə də səfəvilər və moğollar arasında ənənəvi dostluq münasibətlərindən bəhs olunurdu: "Allaha şükür olsun ki, sələflərimiz tərəfindən əkilən acağlar zaman keçdikcə böyüyür və öz bəhrəsini verir. Bizim dostluğumuzun yeni təzahürü sənin məktubun oldu.

Orada bizə zəruri olan xeyli dəyərli məsləhətlər var idi. Bu məsləhətlər bizə dövlət və idarə işlərini, dini məsələləri və xalqın həyatını qaydaya salmaqda kömək etdi" [5, s. 125].

I Şah Abbas məktubda daha sonra I Şah Təhmasibin ölümündən sonra yeridilən siyasət və xarici dövlətlərlə münasibətlər barədə məlumat verir. O, Şah Məhəmməd Xudabəndə zamanı ölkədə baş alıb gedən anarxiyadan, Xorasanın işğal edilməsindən, səfəvilərin qərb sərhədlərində daim gərginlik olduğu barədə də moğol imperatoruna yazırdı. Daha sonra o, Osmanlı sultanı ilə sülh bağladığından, Xorasanı geri almaq üçün özbəklərə qarşı müharibə hazırlıqlarından yazır və bu işdə Əkbər şahdan xeyir-dua almaq istəyini bildirirdi [5, s. 126-127].

Moğol sarayına gələn Səfəvi elçiləri burada böyük hörmət və ehtiramla qarşılansa da, bu dəfə də Əkbər şah elçi heyətini 4 il öz sarayında saxladı. Yalnız 1011-ci ilin rəcəb ayında (oktyabr/1603) Moğol hökmdarı öz elçisi Mirməhəmməd Məsum Bəkri ilə birgə Səfəvi elçilərini geri göndərdi. Onlar I Şah Abbas İrəvanda osmanlılara qarşı vuruşarkən onun yanına gəldilər.

Əkbər şahın Səfəvi hökmdarına göndərdiyi məktubda deyilirdi: "Bizim arzumuz budur ki, siz biz tərəfi özünüzünkü hesab edəsiniz, tez-tez öz səmimi məktublarınız və elçilərinizlə bizi sevindirəsiniz. Biz şad olarıq, əgər siz vacib məsələlərlə bağlı bizə müraciət etsəniz, biz qüvvəmiz daxilində hər şey etməyə hazırıq..." [8, s. 8].

Səfəvi hökmdarı Moğol imperatorunun onun səfirini lazımsız olaraq 4 il saxladığı üçün moğol elçisinə lazımı səviyyədə ehtiram göstərmədi və yalnız 1013-cü ilin məhərrəm ayında (iyun/1604) İrəvan qalasının fəthindən sonra, elçiyə qayıtmağa icazə verdi [3, s. 431; 7, s. 65-66] və elçi vasitəsilə Əkbər şaha bir məktub göndərdi. Həmçinin Şah Abbasın xalası Zeynəb Bəyim də bu elçi vasitəsilə Əkbər şahın anası Həmidə Banu Bəyimə bir məktub göndərdi.

I Şah Abbas, Əkbər şaha 1604-cü ildə yazdığı bu məktubda Hind və Səfəvi əlaqəsinin dostcasına olmasının lazımlığını ifadə edərək, Sultan Süleyman Qanuninin oğlu Şahzadə Bayazidin Səfəvi dövlətinə sığınma hadisəsini, babası Şah Təhmasibin ölümündən sonra Səfəvi dövlətində qarışıqlıq çıxdığını və bundan istifadə etmək istəyən Osmanlı dövlətinin Azərbaycan ilə Şirvanı öz torpaqlarına qatdığını ifadə etmişdir. Bu məktubda Şah hadisəni belə ifadə edirdi: "Anadolu sultanları ucalar ucası Şah babam (Təhmasib) ilə sülh və andlaşma şərtlərini möhkəm bir iman üzrə qurmuşdular. Cənnət məkanlı bu qulların ölümündən sonra Qızılbaş tayfaları arasındakı ixtilafları bəhanə edərək onlar fürsət tapdılar və Azərbaycan ilə Şirvanı almağa yönəldilər". Ardından sözü Təbrizin fəthinə gətirən Şah Abbas, Osmanlı dövləti ilə döyüşdən başqa çarəsi olmadığını izah etməyə çalışmış və yaşanan hadisələrlə əlaqədar Əkbər şaha məlumat vermişdir. Şah Abbas bunları məktubunda belə ifadə etmişdir: "Biz Osmanlı dövləti ilə əvvəldən andlaşma etmişdik. Amma onlar bu əhdi heç sayıb, Nəhavəndə qədər bizim torpağımızı alıb, ələ keçirdikləri yerləri məhv etdilər. Bu barədə öz sədaqətsizliklərini göstərdilər. Səltənət və hökumət namusunun param-

parça olmasına dözə bilməyib, dərhal bölgəyə ordu sövq edib, 40 gün içində Təbriz və ətrafını fəth etdik. Beləcə osmanlı əsgərləri bu bölgələrdən geri çəkildilər. Bu döyüşdə təxminən 10.000 düşmən süvarisi bizim qılıncımızla ölmüşdür. Bizim ordumuz Təbriz qalasını 20 gün içində almışdır. Bu qalanın fəthi nəticəsində təxminən 2000 top, 5000 tüfəng, 100.000 men (83.300 kq) barıt, 10 illik yemək və vəsait əlimizə keçmişdir. Buradan İrəvan, Naxçıvan və Azərbaycanın digər qalalarına doğru hərəkət etdik. Düşməni buralarda da məğlub edib, adı çəkilən bölgələri nəzarətimiz altına aldıq. Biz, əvvəldən andlaşma edib, hududumuzu müəyyən etmişdik. Gəncə və Şirvanı aldıqdan sonra artıq yeni hüdud ortaya çıxmışdır. Hal-hazırda isə biz sülhə hazırıq. Artıq daha çox insanın ölməsini istəmirik. Bu döyüşdə iki tərəfdən də çox insan ölmüşdür. Təxminən 30.000 insan, 12.000 at və 7.000 dəvə bu qalada məzhur vəziyyətdə qalmışdır. Fəthdən sonra qalalara lazımi qədər ərzaq ehtiyatı qoyduq. Bu şəkildə bir fəth heç bir Səfəvi şahına nəsib olmamışdır. Osmanlıdan bizə aid olan bütün qalaları aldıq. Hal-hazırda isə onlardan cavab gözləyirik. Barışa hazırıq. Sizə Allahdan güc və sağlamlıq diləyirik" [9, s. 371; 10, s. 302-304].

I Şah Abbas Əkbər şahın ölümündən sonra onun yerinə taxta keçən oğlu Cahangirlə də (1605-1627) yaxşı əlaqələr qurmağa səy göstərdi. O, Moğol hökmdarına səmimi məktublar göndərərək iki dövlət arasında dostluq münasibətlərinin davam etdirilməsinə çalışırdı. Lakin Şah I Abbasın Qəndəhara yürüşü iki dövlət arasında münasibətləri gərginləşdirmişdi (1622/21 iyun).

I Şah Abbas, 1611-ci ildə Yadigar Əli Sultan adlı elçisi ilə Moğol sarayına bir başsağlığı məktubu və birdə təbrik məktubu göndərmişdi [1, s. 229]. Şah Abbas, Əkbərin vəfatı səbəbi ilə yazdığı başsağlığı məktubunun başlanğıcında insanın Allah tərəfindən yaradılışı, güc və elm verilməsi haqqında bəzi məsələləri anladaraq "Biz şübhəsiz (hər şeyimizlə) Allaha aidik və Ona dönəcəyik" ayəsini xatırlatmışdır. Şah Abbas məktubunda, Əkbər şahın yerinin cənnət olmasını dilədikdən sonra bu dünyanın insanlar üçün qalıcı bir məkan olmadığını söyləməkdə və öz yerinin də harada olacağına Allahın qərar verəcəyini yazmışdır. Şah Abbas, Nasir Tusi tərəfindən qələmə alınan bu məktubunda Cahangirə belə yazır: "Mən, Hind padşahının vəfatına çox kədərləndim. Amma o cənnətə getdi və Allahın dəvətini razılıqla qarşıladı. Bu fani dünyanı buraxıb, baqi dünyaya getdi. Amma onun yerinə Allah sevər və Allahı bilən bir kimsə oturmuşdur. Biz bu kədəri sizin padişahlığınız sayəsində xoşbəxtliyə çevirdik. Əkbər şahın vəfatından sonra sizin yola daha güclü bir şəkildə davam etmənizi diləyirik. Üzüntünü bir kənara qoyub, ölkənizi gücləndirmənizi və yaxşı idarə etmənizi arzu edirik. Bizi də bir qardaş ölkə olaraq bilin. İki ölkənin gün keçdikcə bir-birinə yaxınlaşmasını Allah-Təaladan arzu edirik" [1, s. 230].

I Şah Abbas Cahangirə taxta çıxması səbəbi ilə göndərdiyi təbrik məktubunda ona "Gürgan məqamında oturan, Sahibqıranlıq tacına varis olan" deyə xitab edərək bunları yazır: "Allahdan, böyük Padişaha (Şah Səlimə) müvəffəqiyyətlər diləyirik. Öz ölkənizi inkişaf etdirmənizi və irəliyə götürmənizi Allah-

dan arzu edirik. Taxta çıxmanızı can bir qəlbdən təbrik edirik. Padişaha Allahdan ölkəsində ədaləti və şəfqəti yaymasını diləyirik. Çox yaxşı bilirik ki, sizin soyunuz Gürganilərə (Əmir Teymura) söykənir. Məmləkəti idarə və irəli aparmaqda heç bir çətinlik çəkmədiyinizi düşünürük. Sizin səltənətə keçmənizi təbrik üçün tərəfimdən bir şəxsin göndərilməsi lazım idi. Lakin Azərbaycan və Şirvan məsələsi bizi xeyli məşğul etdi. Bu səbəblə bizi üzürlü hesab edin. Mən bu anda paytaxdan uzaqda bu məsələlərlə məşğul oluram. Ədəb və ənənə bunu zərurət etdirirdi ki, mənim bir nümayəndəm sizi təbrik üçün orada olsun. Amma millətimin namusunu qorumaq və onları pis insanlardan qurtarmaq düşüncəsi önə keçdi. Lakin İsfahana döndükdən sonra sarayımızın əhəmiyyətli şəxsiyyətlərindən və mənim də yaxın bəndələrimdən olan Yadigar Əli Sultanı sizə göndərdim. Həm təbrik, həm də iki ölkənin bundan sonrakı əlaqələri barəsində bu şəxs mənim vəkilim olaraq sizin ölkənizdə olacaq" [10, s. 307].

I Şah Abbas məktubun sonunda iki ölkə arasında yazışmaların davam etməsi istəyini təkrar xatırlatmışdır. Bu səbəblə Şah Səlim də qarşılıq olaraq Şah Abbasa sevgi dolu bir məktub göndərmişdir. Bu məktubu iki ildən sonra (1613) Yadigar Əli Sultan ilə birlikdə Səfəvi sarayına göndərilən moğol elçisi Mirzə Bərxudar Xan (Xan Aləm) gətirmişdir. Məktubda Cahangir yazır: "Həmişə, Səfəvi ölkəsi ilə əlaqələrin yaxşı olmasını diləyirəm. Allahdan dostluğumuzun daha irəli getməsini arzu edirəm. Mən yeni taxta keçdim və hakimiyyəti ələ aldım. Ən əhəmiyyətli işim qonşu ölkələrlə dostluq əlaqəsi qurmaq olacaq. Mənim sizin xatirinizi nə qədər istədiyimi Allah bilir. İki ölkənin əlaqələri bundan sonra əbədiyyətə qədər sürəcək" [10, s. 308-309].

1614-cü ildə I Şah Abbasın Robert Şerli adlı elçisi Moğol sarayına gəlmiş və Səfəvi hökmdarının məktubunu Cahangirə çatdırımışıdır. Burada olduqca yaxşı qarşılanan Şerli, Cahangirin Şah Abbas üçün göndərdiyi iki fil, səkkiz antilop və çox sayda hədiyyələrlə birlikdə (May/İyun 1615) geri qayıtmışdır [1, s. 232].

1615-ci ildə Şah Abbasın Mustafa Bəy adlı elçisi hədiyyələrlə birlikdə Moğol sarayına gəlmişdir. Bu elçi Şah Abbasın Gürcüstandakı zəfəri haqqında Cahangiri məlumatlandırmışdır [12, s. 282-283].

Bir neçə ay sonra ölkəsinə dönməsinə icazə verilən, Cahangir tərəfindən 20.000 rupi və bir xələt hədiyyə edilən bu elçiyə, Şah Abbasa təqdim edilmək üçün hədiyyələr və bir məktub da verilmişdi. I Şah Abbas 1615-ci ildə iranlı tacir Xoca Əbdulkərim Gilani vasitəsilə Cahangirə Yəməndən gəlmə əqiq daşından hazırlanmış bir təsbeh, Venesiyadan gətirilmiş bir kasa və bir məktub göndərmişdi [12, s. 310].

Moğol hökmdarı Cahangir 28 Oktyabr 1616-cı il tarixində Şah Abbasın elçisi Məhəmməd Rza Bəyi hüzuruna qəbul etmişdi. Rza Bəy gətirdiyi hədiyyələri (atlar, bəzi qiymətli əşya və s.) və Şahın məktubunu Cahangirə təqdim etmişdi. Elçisi vasitəsilə göndərdiyi məktubda Şah Abbas, böyük bir səmimiliklə dostluq və qardaşlıq təmənnalarını təkrarlamışdır. Cahangir də səfəvi elçisi Rza

Bəyə ləl-cəvahiratla bəzədilmiş bir tac, gözəl bir xalat, bir fil hədiyyə etmiş və 20.000 rupi pul vermişdi [12, s. 337].

1617-cı ilin mart ayında ölkəsinə dönməsinə icazə verilən Səfəvi elçisi Məhəmməd Rza Bəy həmin ildə yolda vəfat etmişdi. Elçinin vəfatından sonra onun şəxsi əşyaları və Cahangirin Şah Abbasa göndərdiyi hədiyyələr elçilik heyətinin tərkibində olan Məhəmməd Qasım Bəy adlı bir tacirə əmanət edilmişdi [7, s. 77].

I Şah Abbas Qəzvində olarkən Xan Aləmin rəhbərliyi ilə böyük bir moğol elçi heyəti (təxminən 1000 nəfərdən ibarət) Tehrana gəlmiş və Səfəvi şahı ilə tez bir zamanda görüş tələb etmişdi. Şah Abbas Qəzvindən döndükdən sonra, 1618-ci il noyabr ayının 14-də elçini hüzuruna qəbul etmişdi. Şah Abbas elçini xüsusi hörmətlə qarşılamışdı. Şah Abbas Xan Aləmə qəbzəsi balıq dişindən hazırlanmış bir xəncər də bağışlamışdı [1, s. 234].

Cahangirin Şah Abbasa göndərdiyi hədiyyələr arasında 29 dəvə, qiymətli paltarlar, böyük və gözəl zərli bir çadır, ləl-cəvahiratlarla bəzədilmiş silahlar, böyük bir fil dişi, altı dənə üzərləri qızıl və ipəklə bəzənmiş iki təkərli Hind arabası, üç ayaqlı bir çöl keçisi, gərgədan, pələng, ceyran, panter, marallar və fillər də var idi.

Xan Aləm 1619-cu ilin avqust ayında Səfəvi sarayından ayrılmışdı. Səfəvi sarayından ayrılan Xan Aləm, 1620-ci ilin yanvar/fevral ayında Hindistana çatmış və moğol hökmdarı Cahangirin hüzuruna çıxmışdı. Xan Aləm öz hökmdarı Cahangirə Səfəvi sarayından oduqca maraqlı hədiyyələr gətirmişdi. Bunlar arasında Xəlil Mirzə Şahruxi tərəfindən çəkilmiş, Teymurun Toxtamış xanla mübarizəsini əks etdirən bir şəkil (miniatür) də var idi [13, s. 16].

Xan Aləmə göstərilən yüksək münasibətə görə təşəkkür etmək üçün bir müddət sonra Cahangir Şah Abbasa yazılmış bir məktub ilə nadir olan bir zebra və bir neçə qiymətli quşu hədiyyə olaraq Şah Abbasa göndərmişdi.

Səfəvi hökmdarı, 1620-ci ilin oktyabr ayında Zeynal bəy Şamlu (Bəydili) vasitəsi ilə, Hindistandan gələn hədiyyələrə müqabil Cahangirə gül suyu, rəngli ipəklər və atlar göndərmişdi [1, s. 235].

Şah I Abbas 1618-ci ildə (Sərab sülhündən sonra-A.M.) elçisi Seyid Həsən vasitəsilə Moğol hökmdarı Cahangirə bir məktub göndərmişdi. 1619-cu ilin iyul ayında Hindistana çatan Seyyid Həsən gətirdiyi qiymətli hədiyyələri və məktubu Cahangirə təqdim etmişdi. Adı çəkilən məktubda Şah Abbas Cahangiri baş verən hadisələrdən xəbərdar etmiş və Osmanlılarla müharibə istəmədiyini, lakin bəzi fitnəçi valilər üzündən yenə döyüşə çıxıb, ölkəsini və sərhədlərini müdafiə etmək məcburiyyətində qaldığını, ayrıca üsyançıların minlərlə günahsız insanı öldürdüyünü, lakin sonda məğlub edildiklərini yazmışdı. Məktubda Şah Abbas xüsusilə dostluq və qarşılıqlı əlaqələr qurulması istiqamətindəki səmimi diləklərini təkrarlamışdı. Adı çəkilən məktubda Şah Abbas yazırdı: "Biz Rum Padşahı (Osmanlı Padşahı) ilə döyüşmək istəmirik. Bu müddətdə həmişə iki hökmdarın arasında məktublaşmalar və hər iki ölkənin sərkərdələri ara-

sında danışıqlar olmuş və iki ölkə arasında qan tökülməməsi qərarlaşdırılmışdır. Bu müddət bir neçə il sürdü. Lakin bəzi iki üzlü insanlar səbəbi ilə iki ölkə arasında fitnə çıxdı. Bunlardan biri bizim xərac verənimiz Gürcüstan valisinin (Kaxetiya hakimi Teymurz Xan) üsyanıdır. Bu adam anlaşmamıza zidd hərəkət edib, çoxlu əsgərini Azərbaycana göndərdi. Biz də Allaha təvəkkül edib, bu mütəmərrid (dik başlı) adamı cəzalandırdıq və sərdarlarımızdan olan Kurçakay Bəyi vəzifələndirib müxaliflərin yox edilməsinə səy göstərdik... Bu döyüşdə təxminən 26.000 nəfər müxalif ordusu bizim mühasirəmizə düşmüşdür. Bu insanlar günahsız insanları yox etmişdilər. Amma sonunda məğlub oldular. Nə qaçacaq yolları, nə də gücləri qalmışdı. Yalvarmağa başladılar. Biz də əcdadımızdan qalan ənənəyə görə onları bağışladıq. Bu hadisədən sonra sülhü qəbul etdik və öz ölkəmizə geri döndük. Mən bu fütuhatı Allahın köməyi ilə qazandım. Səkkizinci İmamın köməyi olmasaydı, biz belə bir qələbəyə çatmayacaqdıq. Amma bütün bunlara baxmayaraq biz sülh istəyirik və sülhü daha məqbul hesab edirik" [10, s. 309-312].

1620-ci il fevral ayının 29-da Səfəvi elçiləri Ağa Bəy və Mühibbi Əli Moğol sarayına gələrək Şahın məktubunu Cahangirə təqdim etmişdilər. Şah Abbas göndərdiyi məktubdan əlavə Cahangirə qiymətli hədiyyələr və 12 miskal (57.72 kq) ağırlığında bir yaqut da göndərmişdi [13, s. 195].

Qəndəharın fəthi əsnasında Cahangirlə oğlu vəliəhd şahzadə Xürrəm (Şah Cahan) arasında başlayan gərginlik daha sonra səltənət mübarizəsinə çevrilmişdir. Bu səbəbdən vəliəhd şahzadə Xürrəm Səfəvi hökmdarı I Şah Abbasa bir məktub göndərərək atası ilə olan ixtilafın həllində köməkçi olmasını xahiş etmişdi. Şah Abbas şahzadə Xürrəmə göndərdiyi cavab məktubunda atası ilə dostca davranmasını və ona itaət etməsini tövsiyə etmiş, ixtilafın həlli ilə əlaqədar Cahangirə bir məktub yazacağını qeyd etmişdi [1, s. 238].

Moğol hökmdarı Cahangirin böyük oğlu Şahzadə Pərvizin ölüm xəbərini eşidən Şah I Abbas başsağlığı vermək üçün 1626-cı ildə elçisi yüzbaşı Taxta Bəy Ustaclını müxtəlif hədiyyələr və dörd məktubla Hindistana göndərmişdi.

Moğol hökmdarı Cahangirin vəfatından (28 oktyabr 1627) sonra 1628-ci ildə Moğol taxtına Şah Cahan keçmişdi. Cahangirin ölümü səbəbindən başsağlığı vermək və Cahan şahın taxta çıxmasını təbrik etmək üçün Şah I Abbas tərəfindən Hindistana bir elçi göndərilmişdi. Bəhri Bəy adlı bu elçi Şah I Abbasın ölümündən sonra (1629) Moğol sarayına çatmışdı. Moğol sarayında ona lazımi diqqət göstərilərək rəsmi mərasimlə qarşılanmış və yeni Səfəvi şahı – Şah Səfiyə (1629-1642) bu elçi vasitəsilə bir məktub göndərilmişdi (oktyabr 1629) [1, s. 238].

Ümumiyyətlə, XVII əsrdə Azərbaycan Səfəvi imperiyası ilə Böyük Moğol dövləti arasında diplomatik yazışmalar mütəmadi şəkildə davam etmişdi. Bu yazışmalardan məlum olur ki, bu dövr Səfəvi-Moğol münasibətləri əsasən dostluq və müttəfiqlik münasibətlərinə söykənmiş və inkişaf etmişdir.

ƏDƏBİYYAT

1. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara: 211, 353 s.
2. Азимджанова С.А. Государство Бабура в Кабуле и Индии. М.: Наука, 1977. 176 с.
3. Bayani X. Tarix-e nezami-ye İran dər doure-ye Səfəviyye. Tehran: 1353 h., 592 s.
4. Cabbari H. Qəndəhar və nəqş-e an dər rəvabet-e por feraz və nəşib miyan-e İran və Hendustan / Homayeş-e Sefeviyy-e dər qostare-ye tarix-e İran-zamin (Məcmuə-ye məqalat). Təbriz: Daneşqah-e Təbriz, 1383 h., s. 219-228.
5. Фарзалиев А., Мамедова Р. Сефевиды и Великие Моголы в мусульманской дипломатии. Санкт-Петербург: Филологический факультет СПбГУ, 2004, 227 с.
6. Fəlsəfi N. Zendeqan-i Şah Abbas-i Əvvəl. Cild-e əvvəl, müqəddəmat-e səltənət-e u əz vəladət ta padişahi. Çap-i devvom, Tehran: Çap-i Kihan, 1334 h., 247 s.
7. Islam R. Indo Persian relations: A study of the political and diplomatic relations between the Mughulempire and Iran. Tehran: Iranian Culture Foundation, 1970, 254 p.
8. Nəcəfli.T. / Şah Abbas dövründə Səfəvi-Moğol münasibətləri Türkiyə tarixşünaslığında. Journal of Qafqaz University, Namber 32, Bakı: 2011, s.1-15
9. Nəvai A. Şah Abbas: Mecmua-i Esnad ve Mekatibat-ı Tarixi Hemrah ba Yâddaşthâ-yı Tafsilî, İntişârât-ı Bünyâd-ı Ferheng-i İran,1352.
10. Sabeatiyan Z. Əsnad və nameha-yi tarixi dourey-i Səfəviyye. Tehran: Enteşarat-e Daneşqah-e Tehran, 1343 h., 394 s.
11. Savory R. M. Iran under the Safawids. Cambridg: Cambridge University Press, 1980, 277 p.
12. The Tūzuk-i-Jahangīrīor Memoirs of Jahāngīr. Alexander Rogers and Henry Beveridge. London, Royal Asiatic Societ, Vol 1. 1909–1914.
13. The Tūzuk-i-Jahangīrīor Memoirs of Jahāngīr. Alexander Rogers and Henry Beveridge. London, Royal Asiatic Societ, Vol 2. 1909–1914.

Мубариз Агаларлы

О ДИПЛОМАТИЧЕСКОЙ ПЕРЕПИСКЕ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ СЕФЕВИДСКОЙ ИМПЕРИЕЙ И ГОСУДАРСТВОМ ВЕЛИКИХ МОГОЛОВ В XVII ВЕКЕ

В первой половине XVI века в Центральной Азии была заложена основа нового государства. Основателем этого государства был Захираддин Мухаммед Бабур (1526-1530 гг.), и это государство вошло в политическую историю XVI столетия под названием “государства Великих Моголов”.

С приходом к власти Шаха Исмаила I в Азербайджане осенью 1501-го года, в политической жизни Ближнего и Среднего Востока начал-ся новый этап. Скоро отчётливо выявился ряд военно-политических противоречий между только что вышедшим на историческую сцену азербайджанским государством Сефевидов и государством Шейбанидов. Эти противоречия привели к тому, что Шах Исмаил I заключил союз с Захираддином Бабуром, который также имел враждебные отрошения с Мухаммед-ханом Шейбани.

Ключевые слова: *Азербайджан, государство Сефевидов, дипломатические отношения, государство Великих Моголов.*

Mubariz Agalarli

ON THE DIPLOMATIC CORRESPONDENCE BETWEEN THE AZERBAIJANI SAFAVI EMPIRE AND THE GREAT MOGUL STATE IN THE XVII CENTURY

In the first half of the sixteenth century was laid the foundation of a new state in South-East Asia. The state established by Zahiraddin Muhammad Babur (1526-1530) entered the political history of the XVI century under the name of the Great Mogul State.

In 1501, with the coming of Shah Ismail I to power began a new stage in the political arena of the Middle East. Soon appeared some military-political conflicts between the Azerbaijani Safavi Empire which had just emerged in the arena of history and the Sheybani State.The conflicts between these two states caused allied relations of Shah Ismail I and Zahiraddin Muhammad Babur who was in hostility with Muhammad Khan Sheybani. The coincidence of the political positions of the Safavis and Babur caused the Safavi-Mogul relationship. The Safavi-Mogul relationship founded during the reign of Shah Ismail I continued in the XVII century as well. There was regular exchange of the ambassadors between the two countries.

Keywords: *Azerbaijan, Safavi Empire, Great Mogul State, diplomatic rela-tions.*

(AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

VƏLI BAXŞƏLİYEV
AMEA Naxçıvan Bölməsi,
Email: velibahshaliyev@mail.ru
LAUREN RISTVET
ABŞ Pensilvaniya Universiteti,
Email: lristvet@gmail.com
HILARY GOPNIK
ABŞ Emori Universiteti
Email: hilarygopnik@aol.com

2014-CÜ İLDƏ QIZQALA VƏ ONUN ƏTRAFINDA ARXEOLOJİ ARAŞDIRMALAR

Qızqala yaşayış yerində 2013-cü ildə aparılan arxeoloji araşdırmalar nəticəsində müxtəlif dövrlərə aid maddi-mədəniyyət qalıqlarının olduğu müəyyən edilmişdi. Yaşayış yerində 2014-cü ildəki tədqiqatların əsas məqsədi Erkən Dəmir dövrünə aid təbəqələrin müəyyən edilərək tədqiq edilməsi, Oğlanqala ilə onun ətrafında olan yaşayış yerlərinin əlaqəsini müəyyənləşdirməkdən ibarət idi. 2014-cü ildə Qızqala ətrafında aparılan araşdırmaların nəticəsi iki baxımdan əhəmiyyətlidir. Yaşayış yerində Orta Tunc dövrünə aid 2, 5 m qalınlığında mədəni təbəqənin varlığı aşkar olunmuşdur. Bu Naxçıvana I Kültəpə II Kültəpə və Qızılburundan sonra dördüncü mühüm abidədir. Bu yaşayış yeri boyalı qablarla fərqlənən, Cənubi Azərbaycan [3, p. 69-91] və Şərqi Anadoluda [4, s. 67-89] yayılan Orta Tunc dövrü mədəniyyətinin Naxçıvanla bağlı olduğunu bir daha təsdiq edir. İkinci mühüm nəticə yaşayış yerinin ətrafındakı kurqanlardan insan skeletlərinin tapılmasıdır. Bu skelet qalıqları boyalı keramika ilə seçilən Orta Tunc dövrü mədəniyyətinin mənsubiyyəti və onun yaradıcıları haqqında yeni fikirlər deməyə imkan verəcəkdir.

Açar sözlər: *Qızqala, Naxçıvan, Orta Tunc dövrü, Erkən Dəmir dövrü, boyalı keramika.*

Qızqala yaşayış yerində 2013-cü ildə aparılan arxeoloji araşdırmalar nəticəsində müxtəlif dövrlərə aid maddi-mədəniyyət qalıqlarının olduğu müəyyən edilmişdi. Yaşayış yerində 2014-cü ildəki tədqiqatların əsas məqsədi Erkən Dəmir dövrünə aid təbəqələrin müəyyən edilərək tədqiq edilməsi, Oğlanqala ilə onun ətrafında olan yaşayış yerlərinin əlaqəsini müəyyənləşdirməkdən ibarət idi. 2014-cü ildə yaşayiş yerində 5x10 m ölçüdə iki qazıntı sahəsi açıldı. Birinci

sahədə (CC 1) Lauren Ristvetin rəhbərliyi ilə tədqiqat aparıldı (5x10 m). Qazıntı sahəsi bir başa kanalın kənarında qoyulmuşdu. Bu sahədə 2011-ci ildə Elmar Baxşəliyev tərəfindən yoxlama qazıntısı aparılmış Son Tunc və Erkən Dəmir dövrünə aid keramika məmulatı aşkar olunmuşdu. Kvadratın bütün ərazisi kərpic qalıqları ilə örtülmüşdü. Qazıntının şimal hissəsində eni 35-40 sm, hündürlüyü 20 sm olan platformanın olduğu müəyyən edildi. Platforma kərpicdən və kiçik həcmli daşlardan inşa edilmişdi. Bu sahədə aşkar olunan keramika başlıca olaraq Orta əsrlərə və müasir dövrə aid idi. Lakin gil məmulatı arasında az da olsa Orta Tunc və Erkən Dəmir dövrü keramikası da var idi.

Bu qazıntı sahəsi Hilari Qopnikin tədqiq etdiyi şurfla (CC-ST) yanaşı olduğundan burada tədqiqatların davam etdirilməsi məqsədəuyğun hesab edilmədi. Çünki şurfdakı qazıntılar abidənin stratiqrafiyası ilə bağlı müəyyən fikir deməyə imkan verirdi. Bu sahə dəniz səviyyəsindən 869-970 m yüksəklikdə idi.

İkinci qazıntı sahəsi (CC 2) Hilari Qopnikin araşdırdığı şurfdan şərqdə kanalın kənarında açıldı (5x10 m). Bu sahədə tədqiqatlar Vəli Baxşəliyevin rəhbərliyi ilə aparılırdı. Yaşayış yerinin üst qatlarından müasir dövrə və Orta əsrlərə aid keramika məmulatı aşkar olunurdu. Relyefdən asılı olaraq qalınlığı 1-1,5 m olan bu təbəqədə Orta əsrlərə aid təndir yerləri, divar qalıqları aşkar olundu. Kərpic qalıqları bütün sahəyə yayıldığından bəzən divarların ölçülərini müəyyən etmək çətinləşirdi. Bəzi divarlar nizamsız daş sıralarından ibarət idi.

Qazıntı sahəsində Orta əsr tapıntıları davam etdiyindən abidənin stratiqrafiyasını müəyyən etmək üçün qazıntı sahəsini kiçiltmək qərara alındı. Əvvəlcə 5x5 sahədə, daha sonra isə 5x3 m sahədə tədqiqatlar davam etdirildi. Qazıntı 1,6 m dərinliyə çatdıqda müasir və Orta əsr nümunələrindən ibarət qarışıq təbəqənin bitdiyi, Orta Tunc dövrü təbəqəsinin başladığı müəyyənləşdirildi. Ən üstdəki təbəqədən qara, boz və qırmızı rəngli keramika parçaları aşkar olundu. Mədəni təbəqə kiçik həcmli daşların qarışdığı torpaq layından ibarət idi. Tədqiqat zamanı aşkar olunan yeganə tikinti qalığı 1,6-2,6 m dərinlikdə yerləşən divarın eni 1,2-1,5 m arasında idi. Bu divarın altından götürülən kömürün analizi e.ə. 1450-ci ili göstərmişdir ki, bu da Orta Tunc dövrünün son mərhələsinə uyğundur. Araşdırmaların gedişində bu divardan aşağıda Orta Tunc dövrü təbəqəsinin davam etdiyi müəyyən olundu. Nəticədə bu divarın müdafiə divarı olduğu və Orta Tunc dövrünün son mərhələsində inşa olunduğu müəyyənləşdirildi. Qazıntı sahəsinin qərb tərəfində müdafiə divarı içəriyə doğru dönürdü. Bu isə müdafiə divarının yaşayış yerinin yalnız müəyyən bir hissəsini əhatə etdiyini göstərirdi.

Qazıntı xam torpağa qədər davam etdirildi. Araşdırma zamanı Orta Tunc dövrü təbəqəsinin 2,3-2,5 m qalınlığında olduğu bəlli oldu. Təbəqədən aşkar olunan keramika məmulatını iki qrupa ayırmaq olar. Birinci qrupa qırmızı rəngdə bişirilmiş monoxrom və polixrom boyalı qablar aiddir. Bu tip qablar Naxçıvanın Orta Tunc dövrü mədəniyyəti üçün xarakterikdir [1, c. 145-149; 2, s. 63-70]. Onlar keramika məmulatının əksəriyyətini təşkil edir. İkinci qrupdakılar boz, yaxud qara rəngdə bişirilmişdir.

Araşdırma zamanı Orta Tunc dövrü təbəqəsindən arxaik elementləri ilə seçilən, hazırlanma və bişirilmə texnikasına görə Son Eneolit və Erkən Tunc dövrü keramikasına bənzəyən bir neçə gil qab parçalarına da rast gəlinmişdir. Lakin qazıntı sahəsində bu dövrə aid mədəni təbəqə aşkar olunmamışdır. Yaxınlıqda Son Eneolit və Erkən Tunc dövrünə aid Ovçulartəpəsi yaşayış yerinin mövcudluğu bu ərazilərin həmin dövrlərdə məskunlaşdırıldığını ehtimal etməyə imkan verir.

Yaşayış yerinin stratiqrafiyasını müəyyən etmək üçün CC 1 və CC 2 kvadrat-larının arasında şurf (CCST1) qoyuldu. Şurfun ölçüsü 3x2 m idi. Bu sahədəki qazıntılar Hilari Qopnikin rəhbərliyi ilə aparılırdı. Tədqiqat zamanı müəyyən olundu ki, kanalın kənarı olduğu üçün təbəqə qarışmışdır. Buna görə bu şurf abidənin stratiqrafiyasını müəyyən etmək üçün uyğun olmamışdır. Məhz elə buna görə CC 2 sahəsində qazıntı sahəsi məhdudlaşdırılaraq şurf qoyulmuşdur.

Bu şurfda qazıntılar 2 m dərinliyə çatsa da yalnız qarışıq materiallar aşkar olunurdu. Ola bilsin ki, təpənin ətəyi olduğundan üstdəki təbəqələr axıb aşağı tökülmüşdür. Aşkar olunan materiallar başlıca olaraq müasir dövrə aid keramika və dəmir qabların qalıqlarından ibarət idi. Bu materiallar həmçinin CC 2 kvadratında da aşkar olunurdu. Burada kərpic və möhrə qalıqlarından ibarət qalın təbəqə yaranmışdı. Ehtimal ki, bu qalıntılar daş bünövrəni tamamlayan kərpiclərin qalıqlarıdır. Aşkar olunan C divarı bu prosesi anlamağa imkan verirdi.

Şəkil 1. Qızqala yaşayış yerindəki müdafiə divarının görüntüsü (2014).

Kərpic platforma dəniz səviyyəsindən 867 m dərinlikdə yerləşirdi və qazıntı sahəsinin kənarından 2 m dərinlikdə idi. Kərpic töküntüləri müasir dövrə aid təndir və heyvan yuvaları ilə dağıdılmışdı. Kərpic platformanın altında ta-

mamilə dağılmış daş divarın qalıqları aşkar edildi. Lakin bu divarın müəyyən hissəsi CC 1 kvadratında qorunub saxlanmışdı.

Qazıntı sahəsi qərb tərəfdə 1, 2 m dərinliyə çatdırıldı. Əsas məqsəd daha dərinə yenmək və stratiqrafiyanı tutmaq idi. Lakin sahənin digər hissələri də daha sonra araşdırıldı, çünki sahənin kiçilməsi qazıntını davam etdirməyə imkan vermirdi. Platformanın qurtaracağından 1,5 m dərinlikdə (ümumi dərinlik 3, 5 m) təmiz torpaq qatı aşkar olundu. Tədqiqatın gedişində burada boyalı qablar aşkar olundu və müəyyən olundu ki, bu Orta Tunc dövrü kurqanının qalığıdır. Kurqanın torpaq örtüyü yalnız kəsikdəki qalıntılar əsasında müəyyən olundu. Kurqan örtüyü Qızqala yaxınlığında aşkar olunan kurqanların örtüyü ilə eyni tipli idi. Kurqanaltı qəbirdə Orta Tunc dövrünə aid üç boyalı qab – bir küpə və iki kasa aşkar olundu. Onların ətrafında xırdabuynuzlu heyvan sümüyü aşkar olunsa da insan skeletinə təsadüf olunmamışdır.

Qazıntı sahəsinin şimal-qərb hissəsində qəbir kamerasının yerləşdiyi təmiz gil qatı içərisi küllə dolmuş böyük çuxurla kəsilmiş və qəbir avadanlığının yerləşdiyi səviyyədən aşağı yenmişdi. Çuxurun içərisinə dörd böyük bazalt daş düşmüşdü. Bu çuxurdan aşkar olunan boz və qara rəngli keramika parçaları Erkən Dəmir dövrünə uyğun stildə naxışlanmışdı. Lakin naxışların bəzi detalları Orta Tunc dövrünə uyğun idi. Çuxurdan götürülən kömürün analizi, yəqin ki, onun tarixini müəyyən etməyə imkan verəcəkdir. Tədqiqat zamanı qazıntının şərq kəsiyində çölmək tipli qabın olduğu müəyyən edilmiş və həmin hissə açılmışdır.

Qazıntı sahəsinin şimal-şərq küncündə də içərisi kül, kömür və sümük qalıqları ilə dolmuş çuxur aşkar olunmuşdur. Bu çuxurun nə zaman dolduğunu müəyyən etmək üçün onun içərisindən analiz üçün kömür nümunələri götürülmüşdür.

Qeyd etdiyimiz kimi, bu qəbirdə insan skeleti aşkar olunmamışdır. Lakin bu kurqandan bir qədər aralıdakı kurqanaltı qəbirdə insan skeletinin qalıqları aşkar olunmuşdur. Ola bilsin ki, insan skeleti qəbirin qazılmamış sahəsində olmuşdur. Lakin qazıntı mövsümü bitdiyi üçün onu daha ətraflı tədqiq etmək imkanı olmamışdır. 2013-cü ildə aparılan araşdırmalar zamanı yaşayış yerinin üzərindən Erkən Dəmir dövrünə aid xeyli keramika məmulatı toplanmışdı. Dəmir dövrü keramikasının toplandığı sahədə 3x3 m ölçüdə (LS-1) şurf qoyuldu. Məqsəd mədəni təbəqənin xarakterini, dövrünü və qalınlığını müəyyən etmək idi. Qazıntının qoyulduğu sahə dəniz səviyyəsindən 878.89 m yüksəkdə idi. Qazıntı30 sm dərinliyə çatdıqda diametri 2,40 m olan böyük çuxur aşkar olundu. Tədqiqatın gedişində bu çuxurun sonradan başqa bir çuxur tərəfindən kəsildiyi müəyyən olundu. Çuxurun içərisi qara və boz rəngli küllə dolmuşdu. Çuxurun içərisindən xeyli miqdarda keramika nümunələri aşkar olunmuşdur. Bu keramikalar başlıca olaraq Erkən Orta əsrlərə aiddir. Çuxurun içərisindən həmçinin iribuynuzlu və xırdabuynuzlu heyvan sümükləri aşkar olunmuşdur. Çuxurun dibinə çatdıqda ölçüsü 10-30 sm arasında olan daş döşəməyə rast gəlindi. Döşə-

mədə qazıntılar 10-20 sm daha dərinləşdirildi, lakin maddi-mədəniyyət nümunələri aşkar olunmadığından buradakı tədqiqatlar dayandırıldı (12.VII. 2014). Bu hissədə hündürlük dəniz səviyyəsindən 877.61 m yuxarıda idi.

Şəkil 2. Qızqala yaşayış yerindən aşkar olunan monoxrom boyalı qablar.

Yaşayış yerində Dəmir dövrü təbəqəsinin varlığını yoxlamaq üçün 3x3 m ölçüdə ikinci (LS2) şurf qoyuldu. Bu şurf birincidən bir qədər aralı kənd sakinləri tərəfindən qazılan sahənin yaxınlığında idi. Bu kvadratda qazıntıdan əvvəl hündürlük dəniz səviyyəsindən 878.88 m idi. İlk qazıntılar zamanı arxitektura qalıqları aşkar olunmasa da 15 sm dərinlikdə iki kərpic divar (W-B və W-C) aşkar olunmuş, lakin onlara aid otaq tamamilə dağılmışdı. A divarı bir, bəzən isə iki sıra daşdan inşa edilmiş, təqribən 50 sm hündürlüyündə salamat qalmışdı. Tədqiqat zamanı həmçinin döşəmə qalıqları aşkar olunmuşdu.

Şəkil 3. Qızqala yaşayış yerindən aşkar olunan polixrom boyalı qablar.

Qızqala yaxınlığındakı kurqanların tədqiqinə 24 iyun 2014-cü ildə başlan-dı. İlk olaraq CR 2 kurqanı tədqiq edildi. Burada kurqanın daş örtüyünü əhatə edən 7x7 m ölçüdə qazıntı sahəsi açıldı. Daş kurqan tamamilə açıldıqdan sonra tədricən daşlar götürülməyə başladı. Daş layları götürülərkən üç kiçik gil çölmək aşkar olundu. Qazıntı davam etdirilərkən içərisində gil qablar olan qəbir kamerası aşkar olundu. Onlar 5 küpə və 11 kasadan ibarət idi. Qabların əksəriyyəti boyalı idi. Gil qablar götürüldükdən sonra onların altında iki insan skeletinin qalıqlarına rast gəlindi. Skeletlərdən biri qəbir kamerasının şimal tərəfində idi. Bu skelet sağ yanı üstə, bükülü və qərb-şərq (W-E) istiqamətində idi. Skelet çox pis vəziyyətdə saxlanmışdı. Yalnız dişləri və bəzi sümüklərinin parçaları qalmışdı. İkinci skelet qəbir kamerasının cənub tərəfində aşkar olunmuşdu. Sağ yanı üstə, bükülü vəziyyətdə dəfn olunmuş və şərq-qərb istiqamətində (E-W) yerləşdirilmişdi. Pis saxlanmış, yalnız dişləri qalmışdı. İkinci skeletin yaxınlığında həmçinin quzu skeletinin qalıqları aşkar olunmuşdur. Hər iki skelet 20-dən artıq yaşı olan yetişkən insanlara aiddir. CR2 kurqanının tədqiqi 11 iyulda başa çatdı.

7 iyulda CR 1 qazıntısı genişləndirildi və ikinci kurqanın (CR3) qazıntısına başlanıldı. Qazıntı sahəsinin ölçüsü 5x5 m idi. Kurqanın üzərində altı sıra daş örtüyünün olduğu müəyyənləşdirildi. Daş örtük götürüldükdən sonra ölçüsü 155 x 117 см olan qəbir kamerası aşkar olundu. Onun içərisində pis vəziyyətdə saxlanmış iki insan skeletinin qalıqları aşkar olundu. Bu skelet yetişkən insana aid idi. Onların biri qəbirin şimal tərəfində sol yanı üstə, bükülü vəziyyətə qərbdən şərqə (W-E) yönəlmişdi. Bu skeletin sağ əlinin yaxınlığında quzu və küçük skeletinin qalıqları aşkar olunmuşdur.

İkinci skelet 10 yaşlı uşağa aid idi. Qəbir kamerasının cənub tərəfində aşkar olunmuş, qərb-şərq istiqamətində yönəlmişdi (W-E). Olduqca pis saxlanmış, yalnız dişləri və bəzi sümüklərinin parçaları qalmışdı. Onun ətrafında pasta və balıqqulağı muncuqlar aşkar olunmuşdur.

Skeletlərin ətrafında təmizləmə aparılarkən zəngin qəbir avadanlığına rast gəlinmişdir. Qəbir avadanlığı qara və qırmızı rəngli 15 gil qab, muncuqlardan ibarət boyunbağı, tunc, karneol, balıqqulağı və şüşə muncuqlardan hazırlanmış bilərzik, 5 obsidian ox ucluğu, və tunc əşyanın parçalarından ibarət idi. Tədqiqat zamanı həmçinin üçüncü insan skeletinə aid dişlər və heyvan sümükləri də aşkar olunmuşdur. Onların bir qismi xırdabuynuzlu heyvana aiddir. Lakin iribuynuzlu heyvana aid kəllə sümükləri də aşkarlanmışdır. Bu kurqanın qazıntısı 19 iyulda bitdi.

Böyük kurqanın (CR-4) tədqiqi üçün 14x14 m ölçüdə qazıntı sahəsi açıldı. Əsas məqsəd diametri tam məlum olmayan kurqanı tamamilə əhatə etmək idi. Qazıntıdan öncə kurqanın mərkəzi hissəsində böyük bir çuxur var idi. Bu onun dağıdılmasına işarə etsə də kurqanda qazıntı işləri davam etdirildi. Kurqan dağ silsiləsinin üzərindən 1 m yüksəkdə idi. Onun ən yüksək nöqtəsi dəniz səviyyəsindən 962.83 m yüksəkdə idi. Kurqanın təmizlənərək ortaya çıxarılması çox vaxt alsa da onun xarici və daxili kromlexinin diametri müəyyənləşdirildi. Xaricdəki kromlexin diametri 11, 1 və 11, 4 m arasında idi. Daxili kromlexin diametri isə 9 m idi. Kurqanın daxili kromlexi tədqiq edilərkən daş örtük götürüldü. Daş örtük götürülərkən keramika parçalarına rast gəlinməsi kurqanın dağıdılmasına işarə edirdi. Daş örtüyün altındakı qəbir kamerası qaba dördkünc formalı idi. Məzarın küncləridə gil qabların qoyulduğu müəyyən olundu. Qəbir kamerasının mərkəzi hissəsində partlayıcı hissəsinin tapılması onun vaxtilə qazılıb dağıdıldığını təsdiq etdi. Lakin qəbir kamerasının şimal-şərqində yerləşən maddi-mədəniyyət nümunələri toxunulmaz qalmışdı. Burada aşkar olunan boz rəngli iri həcmli küpə hissələrə parçalanmışdı. Onun yaxınlığında iki qulplu tunc qazan, tunc nizə ucu və tunc xəncər aşkar olundu. Qəbir kamerasının döşəməsindən həmçinin xeyli muncuq toplandı. Qəbir kamerasında iribuynuzlu heyvanın skeleti aşkar olunsa da insan skeletinə rast gəlinməmişdir. Qəbir kamerasının dərinliyi 1,5 m idi.

Nəticə 2014-cü ildə Qızqala ətrafında aparılan araşdırmalar iki baxımdan əhəmiyyətlidir. Yaşayış yerində Orta Tunc dövrünə aid 2,5 m qalınlığında mədəni təbəqənin varlığı aşkar olunmuşdur. Bu Naxçıvanda I Kültəpə II Kültəpə və Qızılburundan sonra dördüncü mühüm abidədir. Bu yaşayış yeri boyalı qablarla fərqlənən, Cənubi Azərbaycan [3, p. 69-91] və Şərqi Anadoluda [4, s. 67-89] yayılan Orta Tunc dövrü mədəniyyətinin Naxçıvanla bağlı olduğunu bir daha təsdiq edir. İkinci mühüm nəticə yaşayış yerinin ətrafındakı kurqanlardan insan skeletlərinin tapılmasıdır. Bu skelet qalıqları boyalı keramika ilə seçilən Orta Tunc dövrü mədəniyyətinin mənsubiyyəti və onun yaradıcıları haqqında yeni fikirlər deməyə imkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Алиев В.Г. Культура расписной керамики эпохи бронзы Азербайджана. Баку: Элм, 1977, 140 с.
2. Belli O., Bahşaliyev V. Middle and Late Bronze Age Painted Pottery culture of the Nakhchivan Region. Istanbul: Arkeoloji ve Sanat, 2001, 120 s.
3. Brown T.B. Excavation in Azerbaijan, 1948. London: John Murray, 1951, 179 p.
4. Özfırat A. Doğu Anadolu Yayla Kültürleri (m.ö. II binyıl). İstanbul: Arkeoloji ve Sanat, 2001, 224 s.

Вели Бахшалиев, Лорен Риствет, Хилари Гопник

ИССЛЕДОВАНИЯ В ПОСЕЛЕНИИ КЫЗКАЛА И ЕГО ОКРЕСТНОСТЯХ В 2014 ГОДУ

Основной целью исследований 2014 года было установление напластований раннего железного века в поселении Кызкале, а также определение связей между Огланкале и прилежащими поселениями. В 2014 году в поселении заложены два раскопочных участка (CC-1 и CC-2) площадью 5x10 м. Во время раскопок в шурфе CC-1 выявлены напластования, относящиеся только к средневековому периоду. Ввиду того, что этот участок расположен рядом с шурфом CCST-1, а нужные результаты не были достигнуты, раскопки здесь прекратились.

На втором раскопочном участке (CC-2), начиная с глубины 1,6 м, выявлены напластования эпохи средней бронзы. Культурный слой включал многочисленные осколки камня, которые скользили от подножия горы в результате паводков. В результате раскопок выявлена каменная оборонительная стена шириной 1,2-1,5 м. Анализ угля, взятого из основы стены, показал 1450 г. до н.э. Таким образом, выяснено, что оборонительная стена построена в последней стадии эпохи средней бронзы. Выяснено также и то, что оборонительная стена ограждала только определенную часть поселения. Толщина культурного слоя в поселении была 2,3-2,5 м. Во время раскопок выявлены многочисленные керамические изделия, которые можно разделить на две группы. К первой группе относятся керамические изделия, обожженные в красном цвете с монохромной и полихромной росписью. Керамические изделия второй группы обожжены в сером и черном цветах, а иногда орнаментированы штампованным орнаментом.

Для установления стратиграфии поселения поставлен шурф CCST-1 размером 3x2 м. Однако в этой части поселения культурный слой оказался смешанным, так как верхние средневековые слои скользили по склону и смешивались с нижеследующими слоями. В виду того, что шурф раскопан

в виде лестницы, мы всегда встречали средневековые находки. Поэтому для установления стратиграфии памятника этот шурф не был полезен. Однако на глубине 3,5 м выявлены остатки кургана эпохи средней бронзы. Оказалось, что в определенное время некрополь был рядом с поселением. Грунтовое погребение выкопано в желтоватом чистом глиняном слое. В погребении найдены три монохромно расписанных сосуда и остатки скелетов мелкого рогатого скота. Однако человеческих скелетов не выявлено.

Для установления напластований эпохи раннего железа в поселении заложено два шурфа размером 3х3 м (LS-1 и LS-2). Однако во время раскопок выявлены строительные остатки и керамические изделия эпохи раннего средневековья и средних веков.

В этом году были раскопаны также курганы, которые зарегистрированы во время разведывательных работ 2013 года. После раскрытия каменного покрова кургана CR-2 выявлено грунтовое погребение прямоугольного плана с овальными углами и с керамическими изделиями. В погребении оказались два человеческих скелета плохой сохранности. Большинство сосудов, выявленных в кургане, были расписными.

Во время раскопок кургана (CR-3) под каменной насыпью выявлено грунтовое погребение размером 155х117 см. В погребении обнаружены остатки двух человеческих скелетов, которые сохранились очень плохо. Погребальный инвентарь состоял из 15 глиняных сосудов, ожерелья из бусин, браслета из разнообразных бусин, обсидиановых наконечников и обломков бронзовых изделий.

Для раскопки большого кургана (CR-4) заложен раскопочный участок размером 14х14 м. До раскопа в центральной части кургана была большая яма, что свидетельствует о его разграблении. Во время раскопок каменной насыпи установлено, что после скрытия погребение обведено двумя кругами каменных кладок. Диаметр внешнего круга был 11,1-11, 4 м, внутреннего – 9 м. Грунтовое погребение, выявленное под курганом, оказалось ограбленным. Определенная часть погребального инвентаря, особенно сосуды, разломались. Погребальная камера размером 3,3х2,5 м оказалась в центре кургана. Об ограблении свидетельствовало также нахождение капсулы от снаряда. Мы беседовали с местным населением и выяснили, что яма в центре кургана выкопана во время второй мировой войны. Однако восточный угол кургана не был ограблен. В этой части кургана находились керамические и бронзовые изделия, в том числе один наконечник копья, кинжал и бронзовый котел с двумя ручками.

Археологические исследования 2014 года в поселении Кызкале показали, что поселение заселено с эпохи средней бронзы. В поселении выявлен культурный слой толщиной 2,5 м, что является редким для кавказских памятников. На территории Нахчывана после Кюльтепе I, Кюльтепе II и Кызыл бурун это четвертый памятник, где присутствует мощный слой

эпохи средней бронзы. Это еще раз подтверждает, что Нахчыван является родиной культуры расписной керамики. С другой стороны, обнаружение человеческих скелетов в курганах позволяет прояснить вопрос происхождения и развития этой культуры.

Ключевые слова: *Кызкале, Нахчыван, Средняя Бронза, Раннее Железо, расписная керамика.*

Veli Bakhshaliyev, Lauren Ristvet, Hilary Gopnik

RESEARCHES AT KIZKALE SETTLEMENT AND HIS VICINITY IN 2014

Main objective of researches of 2014 was establishment of Early Iron Age level in the settlement Kızkale and also definition of communications between Oglankale and his adjacent settlements. In 2014 in the settlement are put two excavations sites (CC-1 and CC-2) with size of 5x10 m. During excavation in a square of CC-1 are revealed the level relating only to the medieval period. In view of the fact that this site is located near sounding of CCST-1 the excavation stopped here.

On the second excavation site (CC-2), levels of Middle Bronze Age are revealed since depth of 1.6 m. The occupation layer included numerous splinters of a stone which slid from a mountain hem as a result of a flood. As a result of excavation is revealed the stone defensive wall with a width of 1.2-1.5 m. The analyses of coal taken from a wall basis showed 1450 BC. Thus, it is found out that a defensive wall of a built at the last stage of Middle Bronze Age. It is determined that the defensive wall protected only certain part of the settlement. Thickness of occupation layer of Middle Bronze Age in the settlement was 2.3-2.5 m. During excavation are revealed numerous potteries which can be divided into two groups. The pottery burned in red color with a monochrome and polychrome decorations belongs to the first group. Pottery of the second group is burned in gray and black color, and sometimes ornamented with a stamped ornament.

For establishment of a stratigraphy of the settlement is put sounding (CCST-1) with a size of 3x2 m. However on this part of the settlement the occupation layer was mixed. As the top medieval layers slid on a slope and mixed up the following layers. In a type of that the sounding is in the form of a ladder, we always met medieval finds. Therefore for establishment of a stratigraphy of the monument this sounding was not useful. However at a depth of 3.5 m the remains of kurgan of Middle Bronze Age are revealed. It appeared that in certain time the necropolis was near the settlement. Soil burial is dug out on a yellowish pure clay layer. Three monochrome painted vessels and the

remains of a skeleton of small horned animals are found in burial. However, the human skeleton isn't revealed.

For establishment of levels of Early Iron Age on the settlement two soundings with size of 3x3 m (LS-1 and LS-2) are put. However during excavation are revealed the construction remains and pottery of the Early Middle Ages and the Middle Ages.

This year also kurgans which are registered during survey of 2013 were dug out. After disclosure of a stone cover of a barrow of CR-2 soil burial of the rectangular plan with oval corners and with pottery is revealed. In burial there were two human skeletons of bad safety. The majority of the vessels revealed in a barrow were painted.

During excavation of a barrow (CR-3) under a stone hill soil burial with a size of 155x117 cm is revealed. The remains of two human skeletons which remained very badly are found in this burial. The funeral furniture consisted of 15 clay vessels, a necklace from beads, a bracelet from various beads, the obsidian arrow and fragments of bronze products.

For excavation of a big kurgan (CR-4) the excavation site with a size of 14x14 m is put. In the time of excavation on the central part of a barrow there was a big hole that testified to its plunder. During excavation of stone barrow it is established that after concealment burial is led round by two circles of stone tabs. Diameter of an external circle was 11.1-11.4 m, internal 9 m. The soil burial revealed under a barrow was robbed. A certain part of funeral furniture, especially vessels broke. The funeral camera with a size of 3.3x2.5 m appeared in the center of a barrow. Capsule from a shell also testified to a robbery. We talked to local population and found out that the hole in the center of a barrow is dug out during World War II. However east corner of a barrow it wasn't robbed. In this part of a barrow there were ceramic and bronze products, including one tip of a spear, a dagger and a bronze copper with two handles.

Archaeological researches of 2014 on the settlement of Kızkale showed that the settlement is populated since Middle Bronze Age. In the settlement the occupation layer with thickness 2.5 m that is rare for the Caucasian monuments is revealed. In the territory of Nakhchivan after Kültepe I, Kültepe II and Kızılburun it is the fourth monument where a powerful layer of Middle Bronze Age is presented. It once again claims that Nakhchivan is the homeland of culture of painted ceramics. On the other hand detection of human skeletons in barrows allows estimating questions with an origin and development of this culture.

Key words: *Kızkale, Nakhchivan, Middle Bronze Age, Early Iron Age, painted pottery*.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

ZEYNƏB QULİYEVA
AMEA Naxçıvan Bölməsi
E-mail: zeyneb_guliyeva@yahoo.com

ARPAÇAY VADİSİNİN ENEOLİT KÜPƏLƏRİ ÜZƏRİNDƏKİ RELYEF TƏSVİRLƏRİN ARXEOSEMİOTİKASI

Arpaçay vadisindən aşkar edilən Eneolit qabları relyef ornamentləri ilə diqqəti cəlb edir. Onlar Mesopotamiya, Şərqi Anadolu abidələrinə məxsus bəzi xüsusiyyətləri əks etdirməklə qədim Naxçıvanın mədəni-iqtisadi əlaqələrinin əsas istiqamətlərini göstərir. Qabların üzərindəki konusvari qabartmalar, zoomorf və qurşaq şəkilli relyef bəzəmələrin bənzərlərinin Uruk qablarında izlənməsi isə Arpaçay vadisində mövcud olmuş mədəniyyətin tədricən cənuba doğru təsirini göstərir. Relyef ornamentlər yerli tayfaların həyat tərzi, ideologiyasını əks etdirir və Son Eneolit dövrünün geo-paleontoloji mənzərəsini yaratmaq baxımından da xüsusi əhəmiyyət kəsb edir.

Açar sözlər: *Arpaçay vadisi, Ovçulartəpəsi, relyef ornamentasiya, keçi təsvirləri, yerli fauna.*

Çay vadilərinin məskunlaşdırılması Neolit dövründə genişlənmişdir ki, bu da əkinçilik mədəniyyətinin mühüm şərti olaraq zəruri idi. Qədim dünyanın məşhur Harappa (Qanq vadisi), Şumer (Dəclə-Fərat), Yanşao (Xuanxe sahili) mədəniyyətləri kimi Naxçıvanın Eneolit dövrü abidələrinin də Arpaçay, Naxçıvançay kimi çayların vadilərdə salınması bu qanunauyğunluğun təsdiqi sayıla bilər. Arpaçayın sol sahilində yerləşən Ovçulartəpəsi yaşayış yeri aid olduğu dövrün mənşəyinin və mədəniyyətlərarası əlaqələrin üzə çıxarılması baxımından xüsusi əhəmiyyətə malikdir. Abidə hələ ötən əsrin 80-ci illərindən arxeoloji tədqiqata cəlb edilərkən iki arxeoloji mədəniyyəti təmsil edən materialların üzə çıxarılması onun çoxtəbəqəli və zəngin arxeoloji bazaya malik olduğunu nümayiş etdirirdi. Eneolit dövrünə aid tapıntılar abidənin arxeoloji materialları arasında üstünlük təşkil edir. XXI əsrin ilk illərindən başlayaraq abidənin Azərbaycan arxeoloqları tərəfindən, 2006-cı ildən isə Azərbaycan-Fransa Beynəlxalq arxeoloji ekspedisiyası tərəfindən sistemli olaraq araşdırılmasına başlanmışdır. 2013-cü ilədək burada aparılan qazıntıların ən mühüm göstəricilərindən biri müəyyən zaman kontekstində Eneolit mədəniyyəti və Kür-Araz mədəniyyətinin paralel olaraq mövcud olduğunu təsdiq edən maddi-mədəniyyət nümunələrinin aşkar edilməsi olmuşdur [4, s. 18]. Tədqiqatçılar radiokarbon analizin

(C 14) nəticələrinə əsasən abidənin Son Eneolit təbəqəsin e.ə. 4350-4000-ci illərlə sərhədləndiyini qeyd edirlər [18, s. 23] ki, bu da Son Eneolit mərhələsinin proto Kür-Araz dövrü ilə qovuşduğu bir zaman kontekstini əks etdirir. Bu dövr qədim, əkinçilik mədəniyyətinin inkişafı, həmçinin əkinçi-maldar tayfaların hələlik birgə-kompakt halda yaşadığı və sənətkarlığın, o cümlədən dulusçuluğun inkişaf etməsi ilə nümayiş olunurdu. Bu əlamətlər abidənin tapıntılarında, xüsusilə də saxsı qablarda özünü büruzə verir. Qazıntılar zamanı üzə çıxarılan Eneolit qablarının spesifik xüsusiyyətləri kobud və qalın divarlı, çəhrayı-sarı rəng koloriti, gövdə hissədə yerləşdirilən halqaşəkilli qulpları, hamar səthin daraqvarı alətlə naxışlanması və relyef ornamentasiya ilə xarakterizə olunur. Onlarda Azərbaycanın digər bölgələrindəki I Kültəpə, Şomutəpə, Böyük Kəsik abidələrinin, eyni zamanda Mesopotamiyanın Xalaf, Ubeyd mədəniyyətlərinin bəzi elementləri özünü büruzə verir ki, bu da regionun qədim iqtisadi-mədəni əlaqələrini əks etdirir. Abidənin III və XII kvadratlarından aşkar edilən qabartma təsvirli qablardan üçü AMEA Naxçıvan Bölməsinin Arxeologiya və Etnoqrafiya muzeyində, biri isə "Naxçıvanqala" memarlıq kompleksinin ekspozisiya zalında mühafizə edilməkdədir (şəkil 1, 1-3).

Şəkil 1. Arpaçay vadisinin relyef ornamentli Eneolit küpələri [12, PI; PII; PIII].

AMEA NB-nin Arxeologiya və Etnoqrafiya muzeyində saxlanılan təsərrüfat küplərindən biri çəhrayı rəngli gildən hazırlanmış və qalın divarı xəfif daraqlanmışdır. Hündürlüyü 80 sm, ağız diametri 44 sm, yumurta şəkilli oturacağı olan küpün gövdəsində halqaşəkilli qulp yerləşmiş, çiyin hissəsinin bir tərəfində 5, digər tərəfində isə 6 ədəd dairəvi yapma ornament böyükdən kiçiyə doğru cərgə ilə tətbiq edilmişdir (şəkil 2, 2). Qabın silindrik boğazının gövdəsi ilə birləşən hissəsində 38 ədəd maili xətlə naxışlanmış relyef qurşaq vardır [OT09/12052]. Küp silindrik boğazı, gövdəsi və oturacağının formasına görə I Kültəpə, daraqlanmış və yapma ornamentləri ilə Novosvobodnensk [20, рис. 114, 1-3], Mesopotamiya [14, fig. 15], Şomutəpə keramikası [3, таб. 168, 1-2], qabların boğaz hissəsini dövrələyən relyef qurşaq və üzərindəki daraq şəkilli ornamentasiya ilə Qərbi Sibirin Eneolit keramikası ilə paralellik təşkil edir [8, рис. 21, 5].

İkinci küpə şarşəkilli gövdəsi, kiçik həcmli olması və üzərindəki relyef şəkilli keçi təsvirləri ilə fərqlənir. Qabın hündürlüyü 41, ağız diametri 24,5, kənarlara doğru meylləndirilmiş boğaz hissəsinin hündürlüyü 5 sm-dir [OT.2010]. Digər küpədə olduğu kimi boğazını gövdəyə birləşdirən relyef qurşaq nöqtələrlə 3 qatlı maili xətlərlə ştamplanmışdır. Diqqət çəkən cəhət qabın hər iki tərəfində üz-üzə vəziyyətdə çəkilmiş qabartma keçi təsvirləridir. Salamat qalmış təsvirlər bir-birindən yalnız ölçüsünə görə fərqlənir. Təsvirlərin ölçülərinin birbirindən az miqdarda fərqlənməsi onların dağ keçilərinin hər iki cinsi təmsil etməsi ilə əlaqədar ola bilərdi. Bu tip təsvirlər Gəmiqaya [10, daş № 338] təsvirləri ilə oxşar olsa da digər abidələrdə hələlik bənzərini tapmır. Zoomorf təsvirlərlə qab-ların naxışlanmasına Maykop mədəniyyətində də rast gəlinir [20, рис. 127], lakin Arpaçayın relyef təsvirləri çəkilmə texnikası ilə fərqlənir. Maraqlıdır ki, onlar öz analoqlarını Uruk keramikasında da [19, XXIId, 7-8] tapır. Küpənin bir tərəfindəki təsvirlərin qarşı-qarşıya dayandığı hissəyə perpendikulyar olaraq qabın boğazını dövrələyən relyef qurşaqdan şaquli və əks istiqamətlərdə çəkilmiş buynuzvarı yapma ornament (şəkil 2, 1) Uruk keramikası üzərindəki eyni motivlə üst-üstə düşür [19, XXIId, 4]. Bu faktor fraqmentlərdən biri [AMEA NB, inv. № 156] üzərindəki kvadrat şəkilli relyefik qurşağın timsalında, həmçinin relyef üsulla tətbiq edilmiş konusvari dairələrin və zoomorf motivlərin qabların boğazı ilə gövdəsi arasında çəkilməsində də öz təsdiqini tapır (şəkil 2, 2-7).

Şəkil 2. Arpaçay vadisinin Eneolit keramikası üzərindəki yapma ornamentlərin (1-3) Uruk mədəniyyətində davam etməsi (4-7).

Üçüncü küpə darboğazlı, şar gövdəli və iki qulplu olub, boğazında digər küpələrlə eyni motivli maili xətlər şəklində basma ornament [AMEA NB, inv. № 1345]. Ağız kənarları qalınlaşdırılmış qabın ağız diametri 12/14 sm-dir.

Dördüncü küpə "Naxçıvanqala" memarlıq kompleksinin ekspozisiya zalında nümayiş etdirilən çəhrayı rəngli, şar gövdəli və qulpsuzdur. Lakin diqqəti cəlb edən cəhət üzərindəki keçi təsvirlərinin 2 motivdə çəkilməsidir. Küpənin

bir tərəfində dağ keçiləri qarşı-qarşıya dayanmış, bir qədər aralıda isə cərgə ilə 3 keçi təsvir olunmuşdur. Onların bənzər pozada olan paralellərinə Gəmiqaya təsvirləri arasında tez-tez rast gəlinir [10, daş № 5; № 42a; № 196; № 322; № 325; № 334; № 338; № 466], həmçinin Mesopotamiya maddi mədəniyyət nümunələri ilə analogiya yaradır (şəkil 3, 6-12). Küpələrin hamısı qalın divarlı olmaqla tərkibinə xeyli miqdarda saman qarışdırılmış gildən hazırlanmış və çəhrayı rənglidir. Bu xüsusiyyət onları I Kültəpə keramikası ilə yaxınlaşdırır, lakin buradan aşkar edilən qabların divar qalınlığı 2-2,5 sm olması ilə fərqlənir. Tərkibində saman qarışığının yüksək miqdarda olması bu qabların mayeni, suyu axıtmaması üçün qalın divarlı hazırlanması zərurətini yaradırdı [1, s. 69].

Küpələrin üzərindəki ornamentlər yapma, cızma və basma üsulu ilə tətbiq edilməklə əsasən 3 qrupa bölünür: qabartma dairələr, zoomorf təsvirlər və nöqtələr kompleksindən ibarət daraqşəkilli xətlərlə ştamplanmış relyefik qurşaqlar.

Birinci qrupda yer alan ornamentlərin özü də iki forma ilə təmsil olunur: konusvari və günbəzvarı. Arpaçay vadisinin Eneolit küpəsi üzərindəki üfüqi vəziyyətdə sıralanmış konusvari yapmaların Naxçıvançay vadisindən üzə çıxarılan keramika fraqmentləri üzərində bir qədər dəyirmiləşdirilmiş formalarına bəzən şaquli vəziyyətdə nizamla düzülmüş halda, bəzən isə 1-2 ədəd rast gəlinir. Bu fakt Naxçıvan Dövlət Tarix muzeyində saxlanılan I Kültəpə materiallarının, həmçinin 2013-2014-cü illərin arxeoloji tapıntıları üzərindəki qabarıq yapma ornamentasiyanın timsalında öz təsdiqini tapır. Bu tip ornamentasiya Şomutəpə keramikasında kiçik ölçülü ovalvari paralel qabartmalarla və konusşəkilli formalarla [3, tabl. 160, 1; 165, 1; 168, 1] təmsil olunur. Onların bənzərləri Uruk mədəniyyətinin ikinci mərhələsinə aid qabların və Maykop mədəniyyətinin daşıyıcısı olan Novosvobodnenskdən aşkar olunan saxsı qabların çiyinləri üzərində tətbiq edilmişdir [20, рис. 124, 2, 4, 6]. Tədqiqatçılar qabların çiyni üzərində cərgə ilə müxtəlif sayda günbəzvarı qabartmaların yapma üsulla tətbiqinin Uruk mədəniyyəti üçün xarakterik olduğunu və Şimali Qafqazda da məhz bu mədəniyyətin təsiri altında yayıldığını qeyd edirlər [20, s. 79]. Lakin Urukda bu ornamentlərin nə vaxtdan yayılması sualı hələlik açıq qalır. Nəzərə alınsa ki, Arpaçay vadisində bu tip ornamentasiya Eneolitin final mərhələsinə aid keramika üzərində 2 tiplə təmsil olunur, Uruk mədəniyyətində isə Erkən Tunc dövrünə aid qabların üzərində konusvari forması məlumdur, birinin digərinə təsirini ehtimal etmək olar. Konusvari qabartmalar, həmçinin dairəvi basma naxışlar bəzən astroloji məzmunla [15, s. 71], bəzən də məhsuldarlıqla əlaqələndirilmişdir. Birinci fikir qabların boğaz hissəsində şiş yapmaların 5-7 sayda düzülməsi, bəzən də "mirvari" kimi qabların boğazını əhatə etməklə planetlərin günəş ətrafındakı düzülüşünü xatırladan astroloji görüşlərin əlamətlərindən ola bilərdi. Vaxtı ilə Misirdə tikilən piramidalar, eyni formada yuxarı mərtəbələrə doğru pillə şəklində daralan şumer zikkuratları rəsədxana funksiyasını daşımışdır, həmçinin günəşə sitayiş məqsədi ilə ayinlərin bucaqlarla simvolizə edilən dağ-

larda gerçəkləşdirilməsi [13, s. 57] günəş və dağ kultunun paralel mövcudluğunun əlaməti sayılmışdır.

İkinci qrupda yer alan zoomorf xarakterli ornamentasiya zəngin semiosferası ilə diqqəti cəlb edir. Küpələr üzərindəki keçi təsvirlərinin arxeosemiotik təhlili 3 nüansa diqqət yetirməyi zəruri edir: təsərrüfat və faunanı əks etdirən təsvirlər, kultu əks etdirən təsvirlər və astroloji məqsədli təsvirlər.

Küpənin üzərində cərgə ilə çəkilmiş keçi təsvirləri yerli tayfaların təsərrüfat həyatında onların mühüm yer tutduğunu nümayiş etdirmişdir. Əhliləşdirilmiş keçi sümüklərinin ən qədim nümunələri İyerixon, Carmo, Çatal-Höyük abidələrindən aşkar edilmişdir ki, onların da əcdadları Cənub-Qərbi Asiyadakı dağlıq ərazilərdə yayılmış dağ keçiləri olmuşdur [6, s. 365]. Bu abidələrin artefaktlarına yansımış piktoqrafik məzmunlu keçi təsvirləri qonşu regionlara da təsirsiz qalmamışdır. Bu fakt özünü daha çox heroqliflərdə büruzə verir. Belə ki, qədim Misir heroqliflərində zoomorf terminlərin üstünlük təşkil etdiyini vurğulayan tədqiqatçılar boğazında damğası olan keçi obrazının "nəciblik", "sədaqətlilik" ifadələrini, qoşa keçi buynuzları ilə təmsil olunan (buynuzşəkilli taclar) heroqliflərin isə "hakimiyyət" ifadəsini nümayiş etdirdiyini qeyd edirlər [16, s. 39]. Misir heroqliflərində həmçinin dəyirmi gövdəli qabla işarələnən heroqlifin "süd" sözünü ifadə etməsi [15, s. 5] bu tipli qabların heyvandarlıq məhsulları ilə bağlı olması fikrinə əsas verir. Digər tərəfdən keçi təsvirlərinin məhz dəyirmi formalı qabların üzərində çəkilməsi də yuxarıdakı fikri möhkəmləndirir. O.Həbibullayev Şahtaxtı, Nəhəcir küpələri üzərindəki zoomorf təsvirlərin yerli faunanı əks etdirdiyini qeyd etmişdir [1, s. 252]. Keçi təsvirlərinin Azərbaycanın qədim qayaüstü təsvirlərində üstünlük təşkil etməsi bunun bariz nümunəsidir. Lakin onların özləri də 2 formada çəkilmişdir: daha realist və qısa buynuzlu olanlar əhliləşdirilmiş heyvanları, uzun və spiral şəklində burulmuş buynuzlu olanlar isə kultlaşdırılan keçiləri simvolizə etmişdir. III Sialkın çoxotaqlı evlərindən aşkar edilən zoomorf təsvir siluet olaraq çəkilsə də rəssam dağ keçisinin dinamik pozada başını azca arxaya gərməsini gözdən qaçırmamışdır [2, s. 100]. Maraqlıdır ki, Ovçulartəpəsinin də eyni təsvirli küpələri məhz çoxotaqlı evlərdən aşkar edilmiş, qabarıq ornamentlərlə naxışlanmış olanlar isə 12-ci kvadratdakı yarımqazma evlərdən aşkar edilmişdir [18, s. 22]. Çoxotaqlı evlərin bir qayda olaraq əkinçi tayfalar üçün xarakterik olması [2, s. 115] regionun əkinçi tayfalarının köməkçi sahə kimi maldarlıqla da məşğul olduğunu yəni, ev heyvandarlığının mövcudluğunu və bu zaman onlar üçün xüsusi əhəmiyyət kəsb edən heyvanları kultlaşdırdığını göstərir. Mohenco-Daranın keramikaya qədərki dövründə (e.ə. VII m) əhliləşdirilən ev heyvanlarının sonrakı dövrlərdə müqəddəsləşdirilməsi təbii idi [2, s. 152]. Bu isə qabların üzərində çəkilən təsvirlərin sadəcə təsərrüfat məqsədi deyil, eyni zamanda totemistik

məzmununu nümayiş etdirir hansı ki, türk xalqlarına məxsus müxtəlif maddi-mədəniyyət nümunələrində öz təzahürünü tapır (şəkil 3, 1-15).

Şəkil 3. Totemizmin türk xalqlarının maddi-mədəniyyət nümunələrindəki təzahürü: I – Naxçıvan; II – Mərkəzi və Ön Asiya (Çatal-Höyük, Uruk, Namazqa-I); Azərbaycan xalçaları.

Bəhs edilən dövrdə bu regionda heyvan kultunun olması faktoru Gəmiqaya petroqliflərindən, həmçinin digər maddi-mədəniyyət nümunələri üzərindəki simvolik təsvirlərdən məlumdur. Bu fakt keçinin səma cisimləri ilə kompozisiya halında təsvir edilməsində özünü büruzə verir. Müqəddəs heyvanlar sırasında çoxbuynuzlu maral və təkbuynuzlu *dağ keçisini* xüsusi olaraq qeyd edən Esin E. bəngüdaşlarda, həmçinin qayalarda çəkilmiş dağ keçilərinin profildən baxarkən təkbuynuzlu görünməsini nəzərdə tutaraq onların totemistik məqsədlə çəkilmiş olduğunu ehtimal edir [7, s. 201]. Bunun üçün itaətkarlıq və sədaqət əsas atributlardan sayılmışdır. Beləliklə, "seçilmiş", "müqəddəsləşdirilmiş" heyvanlar sədaqət və itaətləri sayəsində bu mərtəbəyə çatdıqlarından əsaləti, gücü və gözəlliyi simvolizə etmişlər [17, s. 201]. Məlum olduğu kimi, əkinçilik üçün yararlı olan ərazilərdə ilk əhliləşdirilən heyvanlar sırasında iribuynuzlu heyvanlar, qoyun və keçi də olmuşdur. Eneolit küpələri üzərindəki dağ keçiləri böyük bədənli, uzun buynuzlu və simmetrik duruşları ilə bu ərəfədə olma ritualını da nümayiş etdirirlər (şəkil 1, 1, 4). Onlar digər heyvanlardan hündür və geriyə qatlanmış buynuzları ilə də fərqlənirlər. Bu tipli təsvirlərin İranın cənub-qərb regionlarında, o cümlədən II Sialkın Eneolit keramikası üzərindəki nümunələri sxematik və ştrixlər halında meydana çıxmış [2, s. 93], tədricən şimal-qərbi Zaqros, Təpə-Qiyan, Suz keramikasında [2, ris. 19], o cümlədən boyalı keramikada yayılmışdır.

Astral məqsədlə çəkilən keçi təsvirlərinə Eneolit dövrünə aid Suz keramikasında günəş və şüalarını simvolizə edən dairəni çevrələmiş formada rast gəlinir [2, ris. 19,4]. Bənzərlərinə Gəmiqaya və Altay petroqliflərində rast gəlinən keçi təsvirləri tədqiqatçılar tərəfindən baharın simvolu kimi xarakterizə

edilir [12, s. 45]. Şumer qliptikasındakı keçini simvolizə edən piktoqrafik işarənin günəşi xatırladan çiçək formalı dairələrlə kompozisiya halında təsvir olunması bu fikrin təsdiqi sayıla bilər (şəkil 3, 4). Astrologiyada günəşin oğlaq bürcünə daxil olması yaz fəslinin ilk atributlarından biri sayılır. Dağ keçisinin svastika ilə kompozisiya təşkil edən nümunələrinə vaxtı ilə İraq ərazisindəki Samirə kompleksinin Neolit materialları arasında rast gəlinmişdir [2, ris. 9]. Dağ keçilərinin gildən düzəldilmiş fiqurlarına və keramika üzərində təsvir edilmiş nümunələrinə İranın Erkən Eneolit abidələrindən Covi keramikası, Bendebal möhürləri [2, s. 19], Suz, Hisar, Sialk möhürləri [2, s. 102] üzərində rast gəlinir. Urmiyanın cənub-qərbindəki dağlıq ərazidə yerləşən Qiyan Qavra keramikasında eyni motiv çəhrayı rəng üzərindən tünd qəhvəyi boya ilə çəkilmiş təsvirlərlə, həmçinin gil fiqurlarla təmsil olunur ki, bu da tədqiqatçılar tərəfindən Urmiya gölü hövzəsindəki əkinçi-maldar tayfaların buraya Şimali Mesopotamiyadan gəlməsi ilə izah edilmişdir [2, s. 106]. Lakin Arpaçay vadisindən aşkar edilən küpələr bu məsələyə fərqli yöndən yanaşmağı zəruri edir. Ehtimal ki, bu regionda baş verən qədim miqrasiyalar tək cənubdan şimala deyil, həm də əks istiqamətdə baş vermişdir. Hər iki versiya bir məxrəcdə birləşir: Arpaçay vadisinin Urmiya hövzəsi, Mesopotamiya ilə sıx mədəni-iqtisadi əlaqəsi olmuşdur. Şimali-şərqi İran abidələrindən Təpə-Hisar, Şah təpə materiallarının daha çox Zaqafqaziyanın (o cümlədən Azərbaycanın – Z.Q.), az miqdarda isə Orta Asiyanın erkən əkinçi tayfalarının yaratdığı mədəniyyətlə əlaqələndirilməsi [2, s. 115] Arpaçay vadisinin materiallarında da öz təsdiqini tapır. Eneolit abidələrində geniş rastlanılan keçi təsvirlərinin [11, s. 16] Türkmənistanın e.ə. 6-5 minilliklərinə aid I və II Namazqa (şəkil 3, 6-7), İranın Suz – A (e.ə. IV m) (şəkil 3, 9), III Uruka aid (5,1-4,9 min il əvvəl) Şumer mixi yazılarında, Şimali Mesopotamiyadan tapılan hakimiyyət əsası üzərindəki təsvirlər onların piktoqrafik əhəmiyyətini nümayiş etdirir.

Üçüncü qrup ornamentlər batıq nöqtələr kompleksindən ibarət maili xətlərlə naxışlanmış relyef qurşaqlarla təmsil olunur. Onlar qabların boğazını çənbər şəklində əhatə etmələri ilə qədim heroqliflərdə "itaət", "sədaqət" ifadələrini əks etdirən işarələri xatırladır. Bu cür ornamentlərin eyni ifadələri əks etdirən keçi təsvirləri ilə naxışlanmış qabın üzərində tətbiq edilməsi də göstərilən mənanı təsdiq edir. Ovçulartəpəsinin Eneolit küpələri üzərində salınmış qurşaq şəkilli relyef ornamentasiyaya üzərində ştamplanmış maili xətləri ilə birlikdə konusvari ornamentasiyalı qablarda da, zoomorf təsvirli qablarda da, bəzən də ayrıca olaraq rast gəlinir. I Kültəpədən tapılan saxsı fraqmenti üzərində bu cür yapma lent şaquli vəziyyətdə tətbiq edilmişdir [1, таб. IX, 6]. Küpələrinin boğaz hissəsində üfüqi vəziyyətdə daraq basmaları Orta Volqaboyu keramikası [9, s. 2], Qərbi Sibir keramikası üzərində analoqlarını tapır [8, s. 47]. Ümumiyyətlə, Arpaçay vadisinin Eneolit keramikası digər həmdövr abidələrin artefaktları ilə müəyyən qədər oxşar olsa da Urmiya gölü hövzəsi, Şərqi Anadolu, xüsusilə Mesopotamiya materialları ilə daha yaxındır. Küplər yumurta şəkilli oturacaq-

lara, qalın (1,5-2 sm) divara, sarı-çəhrayı rəng koloritinə malik olması ilə I Kültəpə (şəkil 2, 4), Uruk küpləri ilə oxşarlıq yaradır [19, XXXVIIIA, 1, 2; XXIId, 4] Ovçulartəpəsindəki küpələrdən birinin boğazının altını dövrələyərək keçilərin üz-üzə durduğu yerdən təxminən 5 sm yuxarıda bir-birinə paralel vəziyyətdə əks istiqamətlərə meylləndirilmiş buynuzvarı relyef ornament Uruk keramikası üzərində analogiyasını tapır (şəkil 2, 1, 4), digər qabın isə çiyin hissəsində keçiyəbənzər zoomorf təsvirə rast gəlinir, həmçinin düyməşəkilli qabarıq ornamentlər də oxşarlıq təşkil edir [19, XXIId, 6]. Ovçular küpəsinin gövdəsində çəkilmiş qoşa zoomorf təsvir Urukdan tapılan eyni formalı küpənin çiyin hissəsində üz-üzə deyil əks istiqamətlərdə təsvir edilmişdir [19, XXIId, 11, 12]. Buradakı qablardan biri üzərində 2 keçi təsviri bir-birindən az yuxarıda siluet olaraq çəkilmişdir, paralellərində isə 3 cərgə ziqzaq çəkilmişdir. Uruk qabları bəzən halqadabanlı, xaricə doğru silindrik oturacaqları, lüləkli olmaları, təsvirlərin çiyin hissəsində və bir qədər kiçik ölçülü olmaları [19, XLVId, 1a; 2, 1, 3], bəzi naxışların qabı bütünlüklə çevrələməsi [19, XLIXd, 1-4; LIXd-11] və digər əlamətləri ilə fərqlənsə də, ornamentasiyanın tətbiq üsulu və tipləri Arpaçay vadisindəki prototiplərini təqlid edir ki, bu da Naxçıvan-Şumer əlaqələrinə yeni prizmadan baxmağa stimul verir. Belə ki, qədim Naxçıvanın şimal-qərb hissəsini təşkil edən Arpaçay vadisinin Son Eneolit keramikası üçün xarakterik olan ornamentasiyanın bir qədər gec zaman kontekstində – e.ə. IV-III minilliklərdə Uruk qablarında meydana çıxması təsadüf ola bilməzdi. Ehtimal ki, bu iqtisadi-mədəni əlaqələrin inkişafı ilə bağlı olmuş, şimaldan cənuba olan mədəni təsirin nəticələrindən biri olaraq özünü büruzə vermişdir. Qeyd etmək lazımdır ki, Naxçıvan Kür-Araz keramikası üzərində relyef və damğa üsulu ilə tətbiq edilən müxtəlif simvolik işarə-piktoqramların e.ə. III minillikdə formalaşan şumer işarələri ilə üst-üstə düşməsi də bu təsirin nümunələrindən sayıla bilər. Böyük ehtimalla, Eneolitin son mərhələsində Arpaçay vadisində sənətkarlığın inkişafı cənuba təsirini göstərmişdir. Hələlik bu tək-tək elementlərlə özünü büruzə verməkdədir.

Beləliklə, Arpaçay vadisindən aşkar edilən Eneolit qabları və onların üzərindəki relyef ornamentasiyanın arxeosemiotik təhlili regionun Mesopotamiya və digər ərazilərlə mədəni-iqtisadi əlaqələrini nümayiş etdirməklə yanaşı lokal xüsusiyyətləri də özündə ehtiva edir. Qabların üzərindəki konusvari qabartmalar, zoomorf və qurşaq şəkilli relyef bəzəmələrin Uruk qablarında izlənməsi isə Arpaçay vadisində mövcud olmuş mədəniyyətin tədricən cənuba yayıldığını göstərir. Qabların üzərindəki təsvirlər mövcud faunanı əks etdirməklə bərabər yerli tayfalar arasında keçi kultunu, konusvari qabartmaların timsalında məhsuldarlıq kultunu simvolizə etdirir və Son Eneolit dövrünün geo-paleontoloji mənzərəsini yaratmaq baxımından da xüsusi əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с.
2. Археология зарубежной Азии: Учеб. пособие для вузов по спец. «История» / Г.М.Бонгард-Левин, Д.Б.Деопик, А.П.Деревянко и др. Москва: Высш. шк., 1986, 359 с., илл.
3. Ахундов Т.И. Шомутепе. У истоков Кавказской цивилизации. Неолит Азербайджана. Книга I, Баку, 2013, 385 с.
4. Baxşəliyev V.B., Marro C., Aşurov S.H. Ovçulartəpəsi (2006-2008-ci il tədqiqatlarının ilk nəticələri) / First Preliminary Report: the 2006-2008 seasons. Bakı: Elm, 2010, 156 s.
5. Bahshaliyev V., Marro C., Aşurov S. Ovçular tepesi son kalkolitik ve Tunç çağı yerleşmesi / I Uluslararası Ahlat-Avrasiya Kültür ve Sanat Sempozyumu, 23-25 Agustos 2012, Ahlat-Bitlis, s. 106-110.
6. БрейУ.Д. ТРАМП Археологический словарь / Перевод с английского Г.А.Николаева. М.: Прогресс, 1990, 368 с.
7. Esin E. Türklerde Maddi Kültürün Oluşumu. İstanbul: Kabalcı Yayınları, 2006, 201 s.
8. Кирюшин Ю.Ф. Энеолит и ранняя бронза юга Западной Сибири: Монография. Барнаул: Изд-во Алт. ун-та, 2002, 294 с.
9. Королёв А.И. Актуальные вопросы изучения Энеолита лесостепного Поволжья // Известия Самарского научного центра Российской Академии Наук, 2008, т. 10, № 4, с. 1256-1264.
10. Müseyibli N. Gəmiqaya. Bakı: Çaşıoğlu, 204, 320 s.
11. Миронова Е.А. Репертуар символов керамики культуры Триполье-Кукутени. Новые данные о сходстве артефактов двух энеолитических археологических культур: совпадение орнаментов на керамике из Кукутени-Триполье (Украина-Молдавия, Румыния) и Бан-Чанг (Таиланд).
12. Marro C., Bakhshaliyev V., Ashurov S. Excavations at Ovçular tepesi (Nakhchivan, Azerbaijan) / Second Preliminary Report: The 2009-2010 Seasons. *Anatolia Antiqua* XIX (2011), p. 53-100.
13. Окладникова Е.А. Петроглифы средней Катуни. Новосибирск: Наука, 1984, 112 с.
14. Özbal R. A comparative look at Halaf and Ubaid period social complexity and the Tell Kurdu Case // TUBA-AR, 2010, № 11/23, s. 39-59.
15. Потемкина Т.М. Святилища энеолита и бронзового века Западной Сибири как источник астрономических знаний и космологических представлений в древности. http://aaatec.org/documents/article/
16. Пиотровский Б.Б. Страницы древней истории северной Нубии / Древняя Нубия. М.-Л., 1964. annals.xlegio.ru/egipet/piotrovs/dr_nub.htm

17. Sazak G. Türk sembolleri. Hun dönemi türk motif ve sembollerinin sanata ve hayata yansıması. İstanbul: İlgi Kültür Sanat Yayınçılık, 2015, 295 s.
18. Seyidov A., Baxşəliyev V., Məmmədov S., Aşurov S. Qədim Şərur. Bakı: Nurlan, 2012, 466 s.
19. Trentin M.G. Nors-Western Uruk period pottery assemblages. Western Asiatic Department Institute of Archaeology. http://aaatec.org/documents/article
20. Резепкин А.Д. Новосвободненская культура (на основе материалов могильника «Клады»). СПб.: Нестор-История, 2012, 344 с., илл.

Зейнаб Кулиева

АРХЕОСЕМИОТИКА РЕЛЬЕФНЫХ ИЗОБРАЖЕНИЙ НА ЭНЕОЛИТИЧЕСКИХ КУВШИНАХ АРПАЧАЙСКОЙ ДОЛИНЫ

Энеолитическая керамика, найденная в Арпачайской долине, привлекает внимание рельефными орнаментациями. Они, отражая некоторые особенности, характерные для памятников Восточной Анатолии и Месопотамии, показывают основные направления культурно-экономических отношений Нахчывана. Конусовидные выступы, зооморфные изображения, и рельефные украшения, опоясывающие нижнюю часть горла сосудов, совпадают с Урукской керамикой. Сходство между ними указывает на то, что влияние культуры Арпачайской долины постепенно распространялось к югу. Рельефные орнаменты отражают образ жизни, идеологию местных племен и имеют особое значение для создания гео-палеонтологической картины периода позднего Энеолита.

Ключевые слова: *Арпачайская долина, Овчулартепеси, рельефная орнаментация, изображения коз, местная фауна.*

Zeynab Guliyeva

ARCHEOSEMIOTICA OF RELIEF PICTURES ON THE CHALCOLITHIC JUGS OF ARPACHAY VALLEY

Late Chalcolithic jugs discovered from Arpachay valley draw attention with relief ornaments. They show the main directions of cultural-economical contacts of old Nakhchivan by reflecting some features of Mesopotamia and Eastern Anatolia monuments. Following of cone-shaped bulges, zoomorphic and waistband-band relief decorations on Uruk jugs shows the influence of Arpachay culture towards the South. Relief ornaments reflect the life style and ideology of local tribes, it is especially important for creating the geo-paleontologic view of Late Chalcolithic Age.

Key words: *Arpachay valley, Ovçular Tepesi, relief ornamentation, goat pictures, local fauna.*

(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

RUHİYYƏ RZAYEVA
Naxçıvan Dövlət Universiteti
E-mail: rihiya.rzayeva@mail.ru

SİRABÇAY VƏ QAHABÇAY VADİSİNİN QALA TİPLİ YAŞAYIŞ YERLƏRİ

Son illər aparılan araşdırmalar Naxçıvan ərazisində qala tipli yaşayış yerlərinin geniş yayıldığını təsdiq edir. Sirabçay və Qahabçay vadisində də bu tip abidələrin aşkar olunması qala tipli yaşayış yerlərinin Naxçıvanın bütün ərazisində yayıldığını göstərir. Sirabçay və Qahabçay vadisində yerləşən bu abidələr strateji cəhətdən əlverişli mövqedə olması ilə fərqlənirlər. Mədəni təbəqənin az yığılması bu vadilərdə yaşayan insanların yarımköçmə həyat tərzini mənimsədiyini təsdiq edir. Sirabçay vadisinin arxeoloji abidələrindən Boyalı qablar mədəniyyətinin müxtəlif mərhələlərinə aid keramika aşkar olunmuşdur. Bu keramika nümunələrinin bənzərləri Naxçıvan abidələrdən yaxşı məlumdur. Sirabçay və Qahabçay vadisində aşkar olunan yeni abidələr yarımköçəri həyat tərzini mənimsəyən, güclü hərbi potensiala malik olan bu tayfaların həmçinin xammal mənbələrinə də nəzarət etdiyini deməyə imkan verir. Şübhəsiz ki, Naxçıvanın Orta Tunc dövrü abidələrinin gələcək tədqiqi qeyri-müəyyən qalmış bəzi məsələləri aydınlaşdırmağa imkan verəcəkdir.

Açar sözlər: *Naxçıvan, Orta Tunc, boyalı keramika, qala tipli yaşayış yerləri, xammal mənbələri.*

Sirabçay və Qahabçay vadisinin arxeoloji tədqiqi burada Orta Tunc dövrü abidələrinin yayıldığını təsdiq edir. Orta Tunc dövrü abidələri kənd tipli yaşayış yerlərindən, qala tipli yaşayış yerlərindən və qəbir abidələrindən ibarətdir. Ümumiyyətlə, bu vadidə yerləşən abidələr strateji cəhətdən əlverişli mövqedə olması ilə fərqlənirlər. Sirab kəndi ətrafında yerləşən abidələrin bir qismində mədəni təbəqə yığılsa da, digər abidələrdə təbəqə olduqca azdır. Mədəni təbəqənin az yığılması bu vadilərdə yaşayan insanların yarımköçmə həyat tərzini mənimsədiyini təsdiq edir. Sirabçay vadisinin arxeoloji abidələrindən Boyalı qablar mədəniyyətinin müxtəlif mərhələlərinə aid keramika aşkar olunmuşdur. Bu keramika nümunələrinin bənzərlərinə Naxçıvanda müxtəlif abidələrdən, o cümlədən Yaycı [7, çizim 18, 2], Şahtaxtı [7, çızim 17, 2-3], Çalxanqala [2, tabl. VII, 1], II Kültəpə və Nəhəcirdən [2, s. 93-95] məlumdur.

Orta Tunc dövrü abidələri arasında qala tipli yaşayış yerləri xüsusilə diqqəti cəlb edir. Bu qalalardan biri Qurddağ yaşayış yeridir.

Qurddağ yaşayış yeri Sirab kəndindən şərqdə Qahabçayın sağ sahilində yerləşir. Yaşayış yeri hündür qayalığı və onun ətəklərini əhatə edir. Yaşayış yerinin qərb tərəfində iri daşlardan inşa edilmiş divar qalıqları vardır. Divarın uzunluğu 5 m, eni 1,2 m-dir. Bu divarın yaxınlığında kiçik həcmli daşlarda inşa olunmuş dördkünc formalı bina qalıqlarına da təsadüf olunur. Mədəni təbəqə olduqca az yığılmışdır. Bəzi yerlərdə mədəni təbəqənin qalınlığı 0, 5 m-ə çatır. Yaşayış yeri başlıca olaraq təpənin yamacını əhatə etdiyindən təbəqə aşınma nəticəsində dağılmışdır. Bəzi yerlərdə bad qırıqları, yanmış torpaq layları və kül yığınları vardır.

Onun mərkəzi hissəsi sıldırım qayalar arasında yerləşən kiçik sahədən ibarətdir. Tədqiqat zamanı abidənin bu hissəsindən keramika məmulatının aşkar olunması, onun yaşayış sahəsi kimi istifadə olduğunu təsdiq edir. Ehtimal ki, bu hissə abidənin mərkəzi hissəsi olmuş və bir növ narınqala rolunu oynamışdır. Bu tipli yaşayış yerinə Kəngərli rayonunun Qarabağlar kəndi yaxınlığında, Culfa rayonunun Göynük kəndində [4, s. 192] və Naxçıvanın digər yerlərində rastlanmışdır [4, s. 192, 227]. Dağın ətəyində bir neçə yerdə daşdan inşa edilmiş divar qalıqları bu abidənin Orta Tunc dövründə müdafiə istehkamı kimi istifadə edildiyini göstərir.

Abidənin üzərindən toplanmış materiallar başlıca olaraq Orta Tunc dövrünə aiddir. Lakin onlar içərisində bir neçə Eneolit keramikasına da rastlanmışdır.

Qurddağ yaşayış yerindən aşkar olunan Orta Tunc dövrünə aid boyalı keramika məmulatı zəngin naxışlanması ilə fərqlənir. Yaşayış yerindən aşkar olunan keramika məmulatı küpə, kasa, çölmək tipli qabların parçalarından ibarətdir. Keramika nümunələri Orta Tunc dövrünün erkən və inkişaf etmiş mərhələsinə aiddir. Erkən mərhələyə aid olan çölmək tipli qabların biri xüsusilə diqqətçəkicidir. O, incə qum qarışığı olan gildən hazırlanaraq sarı rəngdə bişirilmişdir. Xarici səthi yaxşı hamarlanmış, birbaşa saxsının üzərinə qara rənglə çəkilmiş bucaqşəkilli xətlərlə naxışlanmışdır (şəkil 1). Küpə tipli qablar narın qum qarışığı olan gildən hazırlanaraq qırmızı rəngdə yaxşı bişirilmişdir. Onlar ağzının və boğazının formasına görə bir-birindən fərqlənirlər. Qabların hamısı monoxrom boyalıdır. Qabların xarici səthi qırmızı boya ilə örtülərək yaxşı cilalanmış, qara rənglə çəkilmiş düz və dalğalı xətlərlə naxışlanmışdır. Polixrom boyalı qablara az rastlanmışdır. O bir nümunə ilə təmsil olunmuşdur. Polixrom boyalı küpə tipli qabın parçası qara və qırmızı rənglərlə naxışlanmışdır.

Abidədən həmçinin xeyli miqdarda forma verməyən gil qab parçaları aşkar olunmuşdur. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq qırmızı rəngdə yaxşı bişirilmişdir. Qabların bəzisinin xarici səthi qırmızı boya ilə örtülərək cilalanmış və qara rənglə naxışlanmışdır. Bəzi qablar qırmızı rəng üzərindən cila olmadan, bəziləri isə birbaşa qabın saxsısı üzərinə çəkilmiş xətlərlə naxışlanmışdır. Qaratəpə və Qurddağdan aşkar olunan ağzının kənarı bir-birinin içərisində yerləşdirilən qövsşəkilli xətlərlə naxışlanmış qablar Naxçıvan abidələri

üçün xarakterikdir. Onlar Çalxanqala [2, s. 71-72, tabl. VII, 4; tabl. VIII, 9], Qaraçuq, Qıvraq [7, çizim 9, 3-7] və digər abidələrdən məlumdur.

Şəkil 1. Qurddağ yaşayış yerinin Orta Tunc dövrü keramikası.

Göynük qalası. Culfa rayonunun Göynük kəndindən şərqdə, hündür təpənin üzərində yerləşir. Abidə S.H.Aşurov tərəfindən qeydə alınmışdır. Təpənin yuxarı hissəsi dördkünc formalı divarla əhatə olunmuşdur. Divarlar yanlarda iri qaya parçalarından hörülmüşdür. Qalanın içərisində dördkünc formalı binanın qalıqları saxlanmışdır. Divarlar tamamilə uçub dağılmışdır. Arxeoloji qazıntılar aparılmadığından divarların ümumi planı müəyyənləşdirilə bilməmişdir. AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyasının apardığı araşdırmalar zamanı xeyli yerüstü material toplanmışdır. Başlıca olaraq gil qabların parçalarından ibarət olan yerüstü materiallar arasında Orta Tunc dövrü üçün xarakterik olan boyalı keramika nümunələri də vardır (şəkil 2).

Aşkar olunmuş arxeoloji materiallara əsasən demək olar ki, Göynük qalası e.ə. III minillikdə müdafiə istehkamı kimi istifadə olunmuşdur.

Nəhəcir qalası. Culfa rayonunun Nəhəcir kəndindən şimal-qərbdə ucalan hündür təbii qayanın üzərində yerləşir. Qalaya biri şərqdən, digəri isə qərbdən olmaqla iki tərəfdən qalxmaq mümkündür. Araşdırmalar göstərir ki, şərq tərəfdəki giriş əlverişli olduğundan daha çox istifadə olunmuşdur. Bu hissəni qorumaq məqsədilə inşa olunan müdafiə divarının qalıqları indi də qalmaqdadır. Müdafiə divarının uzunluğu 45 m, eni 2,8 m-dir. Orta həcmli qaya parçalarından inşa olunan divarlar bəzən 1,8 m hündürlükdə salamat qalmışdır. Qala baş-

lıca olaraq iki hissədən ibarətdir. Qalanın aşağı hissəsində bir-birinə birləşik dördkünc formalı binanın qalıqları yerləşir. Yuxarı hissədə dördkünc formalı yaşayış evlərinin və yerli əhali tərəfindən at tövləsi adlandırılan böyük dördkünc binanın qalıqları saxlanmaqdadır.

Şəkil 2. Göynük qalasının Orta Tunc dövrü keramikası.

Mədəni təbəqə vaxtaşırı yuyulub dağıldığından olduqca az saxlanmışdır. Təbəqənin qalınlığı 0,5-1 m arasındadır.

Abidə arxeoloji qazıntılarla öyrənilməmişdir. Yerüstü materiallar Orta əsrlərə aid küpə tipli qabların forma verməyən parçalarından ibarətdir. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir.

Qalanın yerləşdiyi ərazi ətraf yerləri nəzarətdə saxlamaq baxımından olduqca əlverişlidir. Tədqiqatçılar bu qalanın Orta Tunc dövründə müdafiə məqsədilə istifadə olunduğunu qeyd etmişlər [8, s. 90]. Belə hesab edirik ki, bu qaladan Orta Tunc dövründə ətraf otlaqları nəzarətdə saxlamaq üçün gözətçi məntəqəsi kimi istifadə edilmişdir. Yerli əhalinin məlumatına görə Nəhəcir dağının üstü indi də qış otlağı kimi istifadə olunur. Nəhəcir yaşayış yerinin müdafiə üçün əlverişli mövqedə salınması Orta Tunc dövründə əhalinin müdafiə ehtiyaclarının artdığını göstərir. Bu bir daha Nəhəcir qalasının qədim hərbi obyekt olduğunu təsdiq edir.

Son illər aparılan araşdırmalar Naxçıvan ərazisində qala tipli yaşayış yerlərinin geniş yayıldığını təsdiq edir [5, s. 26-27]. Sirabçay və Qahabçay vadisində də bu tip abidələrin aşkar olunması qala tipli yaşayış yerlərinin Naxçıvanın bütün ərazisində yayıldığını göstərir. Bu baxımdan Orta Tunc dövründə Şərur rayonunun ovalıq hissəsində Orta Tunc dövrü yaşayış yerlərinin az olması diqqətçəkicidir. Şərur rayonundakı çoxtəbəqəli Şortəpə yaşayış yerində Orta Tunc dövrü təbəqəsi olduqca zəifdir [6, s. 59], Xələc yaşayış yerində isə Orta Tunc dövrü keramikası yalnız yerüstü materiallarla təmsil olunmuşdur [9, s. 83-

84]. Bu fakt Orta Tunc dövründə Naxçıvanda məskunlaşan tayfaların bir qisminin köçəri həyat keçirdiyini təsdiq edir. Bunun əksinə olaraq Arpaçay vadisində yerləşən Qızqalada Orta Tunc dövrünün bütün mərhələlərinə rastlanır. Qızqalada Orta Tunc dövrünün erkən mərhələsinə aid keramika məmulatının aşkar olunması e.ə. III minilliyin ikinci yarısından başlayaraq Şərurda qala tipli yaşayış yerlərinin formalaşdığını təsdiq edir. Şübhəsiz ki, bu Yaxın Şərq və Cənubi Qafqazda, o cümlədən Naxçıvanda güclü tayfa ittifaqlarının formalaşması, sosial diferensiasiyanın güclənməsi ilə bağlı olmuşdur. Bu isə əhalinin müdafiə ehtiyacını artırmış, qala tipli yaşayış yerlərinin meydana gəlməsini stimullaşdırmışdır. Naxçıvanda Boyalı qablar mədəniyyətinin önəmli mərkəzlərindən biri olan II Kültəpənin qala divarları ilə möhkəmləndirilmiş yaşayış yerinə çevrilməsi də məhz bu dövrdə olmuşdur. Maraqlıdır ki, indiki Ermənistan ərazisində də Orta Tunc dövrünün abidələri mövsümi yaşayış yerləri ilə təmsil olunmuş və Boyalı qablar mədəniyyətinin bütün mərhələləri izlənməmişdir. Lakin Ermənistan ərazisindəki abidələrdən fərqli olaraq Naxçıvan ərazisində Orta Tunc dövrünün bütün mərhələləri ardıcıl izlənmişdir. Araşdırmalara yekun vuraraq demək olar ki, Orta Tunc dövrü mədəniyyətinin mərkəzi məhz Naxçıvan və Cənubi Azərbaycan ərazisi olmuşdur. Belə ki, bu regionda həm oturaq, həm mövsümi, həm də qala tipli yaşayış yerləri mövcud olmuşdur. II Kültəpə abidəsində isə qədim şəhər mədəniyyətinin izləri aşkar olunmuşdur. Dulusçuluq, metalişləmə, daşişləmə və digər sənət sahələrinin geniş inkişaf etdiyi bu yaşayış yeri Cənubi Qafqaz və Yaxın Şərqdə Orta Tunc dövrü mədəniyyətinin ən böyük mərkəzidir. Bunun əksinə olaraq Boyalı qablar mədəniyyəti Şərqi Anadoluda yalnız mövsümü yaşayış yerləri ilə təmsil olunmuşdur. Amma Ermənistan və Gürcüstandan fərqli olaraq burada Orta Tunc dövrünün bütün mərhələləri ardıcıl olaraq izlənmişdir. Bütün bunlar Naxçıvan abidələrinin Orta Tunc dövrü mədəniyyətinin çıxış nöqtəsi olduğunu təsdiq edir. Orta Tunc dövrü mədəniyyətinin sonrakı inkişaf mərhələlərində Şərqi Anadolunun bəzi bölgələrində lokal xüsusiyyətləri ilə fərqlənən keramika da meydana çıxır. Lakin onu da qeyd etmək lazımdır ki, Naxçıvanın Orta Tunc dövrü abidələrinin gələcək tədqiqi qeyri-müəyyən qalmış bəzi məsələləri aydınlaşdırmağa imkan verəcəkdir. Özünəməxsus xüsusiyyətləri ilə fərqlənən Təzəkənd mədəniyyəti üçün xarakterik olan bəzəmə motivlərinin Yaycı nekropolundan aşkar olunması bunu bir daha təsdiq edir. Sirabçay və Qahabçay vadisində aşkar olunan yeni abidələr yarımköçəri həyat tərzini mənimsəyən, güclü hərbi potensiala malik olan bu tayfaların həmçinin xammal mənbələrinə də nəzarət etdiyini deməyə imkan verir. Orta Tunc dövrü abidələrinin yayıldığı bu vadidə xeyli miqdarda mis filizinin qalıqlarına rast gəlinməsi bunu deməyə imkan verir.

ƏDƏBİYYAT

1. Абибуллаев О.А. Енеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 s.

2. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991, 256 с.
3. Əliyev V.H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 140 s.
4. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 304 s.
5. Baxşəliyev V., Novruzov Z. Sirabda arxeoloji araşdırmalar. Bakı: Oskar, 2010, 160 s.
6. Baxşəliyev V., Seyidov A. Şortəpə yaşayış yerinin Erkən Tunc dövrü keramikası // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2013, № 1, s. 57-66.
7. Belli O., BahşaliyevV. Middle and Late Bronz Age Painted Pottery culture of the Nahchıvan Region. Istanbul: Arkeoloji ve Sanat Yayınları, 2001, 120 s.
8. Seyidov A., Baxşəliyev V. Nəhəcirdə arxeoloji araşdırmalar. Bakı: İqtisad Universiteti, 2002, 202 s.
9. Seyidov A., Baxşəliyev V., Xələc. Bakı: Elm, 2010, 220 s.

Рухия Рзаева

ПОСЕЛЕНИЯ КРЕПОСТНОГО ТИПА В ДОЛИНАХ РЕК СИРАБЧАЙ И КАХАБЧАЙ

Исследования последних лет показывают, что поселения крепостного типа широко распространились на территории Нахчывана. Выявление поселений крепостного типа в долине Сирабчай и Кахабчай показывает, что крепости эпохи средней бронзы распространились по всей территории Нахчывана. Эти поселения в стратегическом отношении расположены на благоприятных позициях. Достаточно тонкий культурный слой здесь показывает, что для людей, живших в этих долинах, был характерен полукочевой образ жизни. Керамические изделия, выявленные в этих поселениях, относятся к различным периодам эпохи Средней Бронзы. Параллели этих изделий хорошо известны из других археологических памятников Нахчывана. Исследования показывают, что древние племена Нахчывана, которые вели кочевой образ жизни и имели мощный военный потенциал, контролировали также природные ресурсы этого региона. Несомненно, что дальнейшее исследование памятников эпохи Средней Бронзы будет способствовать разрешению некоторых невыясненных вопросов.

Ключевые слова: *Нахчыван, Средняя Бронза, расписная керамика, поселения крепостного типа, природные ресурсы.*

Ruhiya Rzayeva

SETTLEMENTS OF FORTRESS TYPE IN THE VALLEYS OF SIRABCHAY AND KAHABCHAY RIVERS

Recent years' researches show that settlements of fortress type were widespread in the territory of Nakhchivan. Identification of settlements of fortress type in the valleys of Sirabchai and Kahabchai shows that fortresses of Middle Bronze Age extended across all territory of Nakhchivan. These settlements are located on favorable strategic positions. However the occupation layer in these settlements is accumulated very little. It shows that ancient tribes in this period have already appropriated a semi-nomadic way of life. The pottery revealed in these settlements belongs to various periods of Middle Bronze Age. Parallels of these ceramics are well-known from other archaeological monuments of Nakhchivan. Researches show that ancient tribes of Nakhchivan which appropriated a nomadic way of life and had powerful military potential controlled also natural resources of this region. It is undoubted that further research of monuments of Middle Bronze Age will promote solution of some uncertain problems.

Keywords: *Nakhchivan, Middle Bronze Age, painted ceramics, settlements of fortress type, natural resources.*

(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

MƏHƏMMƏD KAZEMİ
Ərdəbil Universiteti,
Email: kazemimohammad044@gmail.com
MƏHƏMMƏD MİRZAYİ
Sistan Bəluçistan Universiteti,
Email: mirzaii63@yahoo.com
RİZA ATAYİ
Tarbiyat Modarres Universiteti
Email: rezaatei70@gmail.com

MƏŞİRAN QAYA RƏSMLƏRİ

Məşiran qaya təsvirləri Azərbaycanın cənubunda Ərdəbil əyalətindəki Məşiran kəndi yaxınlığında yerləşir. Qaya rəsmləri insan, heyvan və astral təsvirlərdən ibarətdir. Bəzi təsvirlər mifoloji məzmunlu olmaqla Azərbaycanın digər bölgələrində, o cümlədən Gəmiqaya, Kəlbəcər, Göyəm və Qobustan təsvirləri ilə bənzərdir. Təsvirlərin bənzərlərinə həmçinin Şərqi Anadoluda rast gəlinmişdir. Təsvirlərin qarşılıqlı müqayisə əsasında araşdırılması gələcəkdə Şərqi Anadolu və Azərbaycanda mövcud olan əkinçi-maldar tayfalar arasındakı əlaqələri müəyyən etməyə və bu təsvirlərin mədəni mənsubiyyəti ilə bağlı fikirlər deməyə imkan verəcəkdir.

Açar sözlər: *Azərbaycan, Məşiran qaya təsvirləri, Gəmiqaya, Ərdəbil, mifologiya.*

Məşiran qaya təsvirləri kompleksi ərazi bölgüsünə görə Ərdəbil əyalətinin Meşkinşəhr rayonunun Muradlu bölümündə Məşiran kəndində yerləşir.

Qarasu çayının hövzəsində yerləşən, onlarca komplekslərdən biri olan Məşiran kompleksi məsafə baxımından Şeyxmədi və Ləvasər kompleksləri ilə yaxındır. Bu arxeoloji abidə Qaradağ bölgəsinin sərt yerində, dəniz üzərindən 1100 metr yüksəklikdə yerləşir (coğrafi ölçüləri: uzunluq 44 dərəcə, 33 dəqiqə, 52 saniyə və 3 yüzdəbir saniyə; en 38 dərəcə, 51 dəqiqə, 10 saniyə).

Bu sahəyə getmək üçün Meşkin şəhərindən çıxdığınız zaman Güdə Kəhriz kəndinə doğru gedib bu kəndin üçyolunda Qəhqəhə qalası istiqamətində sol tərəfə dönüb, Qurd Təpə və Dostbəyli kimi kəndləri ötüb Məşiran kəndinin üçyoluna varılmalıdır. Bu sahə Məşiran kəndinin şimal-şərq tərəfində, təqribən 1200 kv. metrlik bir sahədə yerləşir. Oval şəkildə olan bu sahənin uzunluğu 480, eni 380 metrdir. Sözü gedən sahə Qarasu çayının şərq və Qəhqəhə qalasının qərbində yer almışdır.

Bu kompleksdəki təsvirləri incələdiyimiz zaman, bir sıra təsvirlər olduqca dağılmış vəziyyətdəydi. Bu təxribatı ortaya çıxaran amillər aşağıdakı kimi sıralana bilər:

1 – Bir sıra daşlar ildırım və ya isti-soyuğun təsiri ilə partlamışdır.

2 – Yerin soyuq iqliminə görə, dondurucu qış və isti yay havasının təsirində (qış aylarında rütubətin daşlara cəzb olunub donması və yayda yüksək istinin təsiri) bir çox daş ovulmuşdur.

3 – Uzun zaman keçməsi və bu təsvirlərin dəyəri ilə əlaqəli yerli xalqda yetərincə məlumatın olmaması nəticəsində bir çox təsvirlər insanlar tərəfindən dağıdılmışdır.

4 – Buradakı daşların qırılıb tikinti sənayesində işlədilməsi bir çox əsəri aradan çıxarıb.

Məşiranda Şeyxmədi kompleksinin tam tərsinə olaraq təbii aşınma olduqca azdır.

Bu sahənin araşdırılması zamanı 76 daş üzərindəki təsvir incələnmişdir. Bu təpənin araşdırılması kəndə ən yaxın nöqtə olan şərq səmtdən başlanıb qərbə doğru davam etdirilmişdir (Qarasu səmtindən başlayıb Qəhqəhə səmtində bitir). Araşdırma boyunca 76 daşın qazma rəsmi diqqətlə incələnmişdir. Bu rəsmlər insan rəsmi, heyvan rəsmi, həndəsi rəsmlər və simvolik rəsmlərdən ibarətdirlər. Bunların 56-sı heyvan rəsmi və çoxu da keçi ailəsindən olan, xüsusilə dağkeçisi yaxud təkə rəsmləridir. Onu da qeyd etməliyik ki, bu rəsmlərin içində it rəsmləri və qurd kimi əhliləşdirilməmiş heyvan təsvirləri də vardır.

Heyvan şəkillərinin içində iki rəsm daha çox diqqətçəkicidir. Bunların birincisində bir dairə içərisində yer alan kvadrat şəkli bir heyvanın buynuzlarının üstündə çəkilib. Bu təsvirin qarşısında başqa bir heyvan rəsmi, başında isə taca bənzər bir təsvir rəsm edilibdir. Uzun buynuzlu bu keçi fiqurunun qarşısındakı keçinin buynuzları uzun və əyridir (şəkil 2).

Bu təsvir üçün diqqət çəkici xüsusi rəsm olunmuş heyvanın ayaqlarının tərzidir. Bu rəsm qabaq tərəfdən iki ayaq ilə, ayaqların altında əyri cizgi ilə rəsm edilmişdir. Bunların qabaq qabağa duruşu olduqca maraqlıdır. Bu tərz duruş bir çox arxeoloji abidələrdə rast gəlinmişdir. Bizim araşdırmalarımız zamanı buna bənzər rəsmləri Əhməd Bəyli, Daş, Çapaqan və Dəvədərəsi komplekslərində görmək mümkündür.

Şəkil 1. Tablo nömrəsi: 5. Kompleks: Məşiran: Heyvan rəsmləri. Çəkilmə texnikası: sürtmə

Şəkil 2. Tablo nömrəsi: 6. Kompleks: Məşiran: Heyvan rəsmləri və simvolik rəsmlər. Çəkilmə texnikası: döymə.

Şəkil 3. Tablo nömrəsi: 12. Kompleks: Məşiran: Heyvan, insan və simvolik rəsmlər. Çəkilmə texnikası: sürtmə.

Şəkil 4. Tablo nömrəsi: 13. Kompleks: Məşiran: Heyvan və insan rəsmləri Çəkilmə texnikası: sürtmə

Sözü gedən kompleksdə 14 insan rəsmi də vardır. Bunların 6-sı açıq qollarla (rəqs (şəkil 5) və ya dini hərəkətləri icra edərkən), bir-bir heyvanı əhilləşdirərkən, biri ov zamanı, biri maldarlıq sırasında, biri savaş durumunda, 4-ü isə ayaq üstdə və adi durumda rəsm edilib.

Şəkil 5. Tablo nömrəsi: 1. Kompleks: Məşiran: İnsan rəsmləri. Çəkilmə texnikası: sürtmə.

Şəkil 6. Tablo nömrəsi: 16. Kompleks: Məşiran: Heyvan və insan rəsmləri. Çəkilmə texnikası: sürtmə.

Şəkil 7. Tablo nömrəsi: 10. Kompleks: Məşiran: Heyvan və insan rəsmləri. Çəkilmə texnikası: sürtmə.

Məşiran kompleksində də Ləvasər kompleksi kimi gəmi və ya qayığa bənzər (şamanizmdəkilərə bənzər şəkildə) iki təsvir vardır (şəkil 8).

Şəkil 8. Tablo nömrəsi: 7. Kompleks: Məşiran: simvolik gəmi təsviri.
Çəkilmə texnikası: sürtmə.

Apardığımız araşdırmalar zamanı ortaya çıxan faktlar göstərir ki, Məşiran Kompleksi tarix öncəsinə aid olub, İran coğrafiyasında Şeyxmədi və Nəvasər və Azərbaycanda isə məsafəcə də bir o qədər uzaq olmayan Gəmiqaya [1, s. 6-156; 2, s. 30-33], Kəlbəcər [4, s. 6-8] və Qobustan təsvirləri [3; 6] ilə qarşılaşdırılması mümkündür.

Qaya təsvirlərinin araşdırılması, öncəki tədqiqatlara və ədəbiyyat materiallarına dayanaraq Məşiran kompleksinin tarix öncəsi təsvirlər olduğunu deyə bilərik. Bu təsvirlər yaşayış yerlərindən uzaqda olsa da bir çox tarix öncəsi abidə kimi Qarasu çayının qırağındadır. Bu kompleksin Şeyxmədi, Dəvədərəsi, Daş və Qobustan və Gəmiqaya ilə bir çox bənzərlikləri vardır. Burada da Şamanizmə aid bir çox izə rast gəlmək mümkündür. Azərbaycanda bu günə qədər davam edən yallı oyununa aid hərəkətləri icra etməkdə olan təsvirlər də mövcuddur. Bu kompleksdəki təsvirlər tarix öncəsindən bu günə qədər davam etmişdir. Bu gün də çobanların bu bölgədə daşları cızması bu ənənənin bu günə qədər davam etdiyini göstərir.

Şəkil 9. Məşiranın yerləşdiyi ərazi.

Şəkil 10. Məşiran və Meşginşəhrin yerləşdiyi ərazi.

Məşiran qaya təsvirləri Azərbaycanın cənubunda Ərdəbil əyalətindəki Məşiran kəndi yaxınlığında yerləşir. Qaya rəsmləri insan, heyvan və astral təsvirlərdən ibarətdir. Bəzi təsvirlər mifoloji məzmunlu olmaqla Azərbaycanın digər bölgələrində, o cümlədən Gəmiqaya, Kəlbəcər, Göyəm və Qobustan təsvirləri ilə bənzərdir. Təsvirlərin bənzərlərinə həmçinin Şərqi Anadoluda rast gəlinmişdir. Təsvirlərin qarşılıqlı müqayisə əsasında araşdırılması gələcəkdə Şərqi Anadolu və Azərbaycanda mövcud olan əkinçi-maldar tayfalar arasındakı əlaqələri müəyyən etməyə və bu təsvirlərin mədəni mənsubiyyəti ilə bağlı fikirlər deməyə imkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Baxşəliyev V. Gəmiqaya təsvirləri. Bakı: Elm, 2003, 156 s.
2. Əliyev V. Gəmiqaya abidələri. Bakı: Azərnəşr, 1993, 80 s.
3. Джафарзаде И.М. Гобустан. Баку: Элм, 1973, 176 с.
4. İsmayılov Q.S. Azərbaycanın yeni Qobustanı // Elm və Həyat, 1977, № 6, s. 6-8.
5. Müseyibli N.Ə. Gəmiqaya. Bakı: Çaşıoğlu, 2004, 316 s.
6. Rüstəmov C.N. Qobustan dünyası. Bakı: Azərnəşr, 1994, 176 s.

Мохаммед Каземи, Мохаммед Мирзаи, Риза Атаи

НАСКАЛЬНЫЕ РИСУНКИ МАШИРАНА

Наскальные рисунки Маширана расположены вблизи села Маширан Эрдебильской провинции. Наскальные рисунки состоят из изображений человека, животных и астральных существ. Некоторые изображения имеют мифологическое содержание и находят свои параллели в Гемикая, Келбаджар, Геям и Кобустан. Аналоги изображений известны также в Восточной Анатолии. Сравнительное исследование изображений в дальнейшем поможет определить культурно-экономические отношения между земледельческо-скотоводческими племенами Восточной Анатолии и Азербайджана, а также культурную принадлежность этих изображений.

Açar sözlər: *Азербайджан, наскальные рисунки Маширана, Гемикая, Эрдебиль, мифология.*

Mohammed Kazemi, Mohammed Mirzayi, Riza Atayi

ROCK DRAWINGS OF MASHIRAN

Rock drawings of Mashiran are located near the village of Mashiran in the province of Ardebil. Rock drawings consist of images of people, animals and astral objects. Some images have the mythological content and find the parallels in Gəmiqaya, Kəlbəcər, Geyam and Qobustan. Analogs of images are known also from East Anatolia. Comparative research of images will help to determine further the cultural and economic relations between agricultural and cattle breeding tribes of East Anatolia and Azerbaijan, also the cultural affiliation of these images.

Key words: *Azerbaijan, rock drawings of Mashiran, Gemiqaya, Ardebil, mythology*.

(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

AZƏRBAYCAN DİLİ

ƏBÜLFƏZ QULİYEV
AMEA Naxçıvan Bölməsi
ebulfezamanoglu@yahoo.com

DİLÇİ ƏHMƏD CƏFƏROĞLU VƏ "TÜRK AMACI" DƏRGİSİ

İstanbul universitetinin professoru dilçi-türkoloq Əhməd Cəfəroğlu Azərbaycanşünaslığa böyük xidmət göstərmişdir. Öz vəsaiti ilə nəşr etdirdiyi "Türk amacı" jurnalı da belə xidmətlərin bir nümunəsi sayıla bilər. 1922-43-cü illərdə cəmi səkkiz nömrəsi çap olunmuş bu jurnalda Azərbaycanşünaslıq və türkologiyanın müxtəlif məsələləri araşdırılmışdır. Məqalədə həmin jurnalın bu sahədəki fəaliyyətindən bəhs olunur.

Açar sözlər: *Cəfəroğlu, türk dünyası, jurnal, Azərbaycanşünaslıq, dil.*

Türk mətbuatı tarixində "Türk amacı" dərgisinin özünəməxsus yeri vardır. Professor Əhməd Cəfəroğlu universitetdəki dərsləri ilə kifayətlənməyib mətbuat sahəsində də çox məhsuldar fəaliyyət göstərmişdir. "Türk amacı" dərgisi bu fəaliyyət nümunələrindən biri hesab oluna bilər. Məlumdur ki, Ə.Cəfəroğlu hələ XX əsrin otuzuncu illərinin əvvəllərində türklüyə, azərbaycanşünaslığa xidmət məqsədilə "Azərbaycan yurt bilgisi" dərgisini çıxarmışdı [1]. Bu dərgi Sovet imperiya əsarətində inləyən Azərbaycan xalqının, onun elm və mədəniyyətinin haqq səsinin Türkiyəyə çatdırılmasında, bu bölgənin öyrənilməsində xüsusi rol oynamışdı. Amma Azərbaycan məfkurəsinə xidmət edən bu qiymətli mətbuat orqanı az sonra xalqımızın bədxahları tərəfindən şikayət edilmiş, hökumət bu şikayətlər qarşısında jurnalın nəşrini dayandırmışdı. Bu dərginin nəşrini davam etdirmək üçün Ə.Cəfəroğlu çox çalışmış, mübarizə aparmışdı, hətta onun bir nömrəsini 1958-ci ildə yenidən nəşr etməyə müvəffəq də olmuşdu. Ancaq yenə Azərbaycan davasının düşmənləri ona imkan verməmişdilər. Jurnalın nəşri dayandırılmışdı [3, s. 45].

Türklük sevgisi ilə ürəyi dolu olan abidə şəxsiyyət Ə.Cəfəroğlu "Azərbaycan yurt bilgisi" dərgisinin nəşri dayandırıldıqdan sonra İstanbul universitetinin Ədəbiyyat fakültəsinin mətbuat orqanı olaraq 1946-ci ildə burada "Türk dili və ədəbiyyatı" adlı elmi jurnalını açdı. Ə.Cəfəroğlunun ömrünün sonunadək

baş redaktoru olduğu bu jurnal Türkiyədə türkologiya elminin inkişafında mühüm rol oynamışdır. Bu mətbuat orqanında da Ə.Cəfəroğlu türk dünyası dil və ədəbiyyatı mövzusundakı məqalələrin dərgidə yer almasına xüsusi diqqət göstərirdi. Jurnalda özəlliklə qədim türkcə, çağatay dili və ədəbiyyatı, orta türkcə yazılı abidələri haqqında olan mövzulara üstünlük verilirdi. Ancaq bu dərgidə daha çox universitet əməkdaşlarının əsərləri çap olunurdu.

Görkəmli türkoloqun planları çox geniş idi. O türklüyə daha geniş sahədə xidmət göstərmək istəyirdi. Bu məqsədlə də öz vəsaiti ilə 1942-ci ildən başlayaraq "Türk amacı" adlı bir jurnal nəşr etmək üçün dövlət idarələrindən rəsmi icazə aldı. İstanbuldakı Bürhanəddin mətbəəsində nəşr edilən bu aylıq dərginin cəmi səkkiz nömrəsi işıq üzü görə bildi. Sahibi və müdiri prof. Əhəməd Cəfəroğlu olan bu jurnal türk dünyası mədəniyyət, dil və ədəbiyyatının tədqiqini qarşıya məqsəd qoymuşdu. Ə.Cəfəroğlu yenə Fuad Köprülü kimi müəllimlərini jurnalla əməkdaşlıq etməyə dəvət etmişdi. Burada xüsusilə Qafqaz və Volqaboyu türklərinin dil və ədəbiyyatının öyrənilməsinə daha geniş yer verilməkdə idi.

Dərginin sahibi birinci nömrəyə yazdığı "Bir kaç söz" adlı ön sözündə, müqəddiməsində bu mətbuat orqanının adının hələ XI əsrdən türk dillərində işləndiyini və hədəf mənası ifadə etdiyini qeyd edir. Naşir jurnalın çap edilməsində əsas hədəflər haqqında belə yazır: "Her bir milletin en kiymetli benliyi ve varlığı, bilhasse kültüründə olduğundan, neşrine başladığımız Türk amacı da doğrudan doğruya türk kültür birliyinin mürevvici ve kaynağı olarak türklüye hizmet edecektir. Filvaki türk dünyası ile beraber türk kültürü de çok geniş bir sahaya yayılmış ve bu yüzden bir çok türk ulus ve illeri arasında muhtelif şiveler türemiş ve her bir türk ili için ayrı ayrı tarihler bile yazılmışsa da bu ayrılıklar ancak coğrafi durum bakımından dikkat nazarına alınabilir. Gerçekte ise milli mefkure, edebiyyat, sanat, dil ve s. gibi manevi varlıklar bakımından milli türk fikri hayatı hep daim bir küll olmuş ve bundan doğan türk kültür birliği varlığı da bugüne kadar tamamile kendisini muhafaza etmiştir" [5, s. 4].

Naşir fikrinə davam edərək jurnalın üzərinə düşən vəzifələr və mövzu dairəsi haqqında yazır: "Türk amacı bu gerçekliği olduğu gibi meydana koymağı en mukaddes bir vazife olarak kendi üzerine almıştır. Bu amaca varmak için mecmuamız bütün araştırmalara, toplamalara ve malzemelere açık bulundurulacaktır. Ayrıca mecmuamız türk kültürüne ve amacına hizmet eden Avrupa metbuatındaki mühüm yazıları, kabil olduğu kadar türkçeye çevirerek okuyucularının istifadesine koyacaktır. Nihayet, Türk amacının ödemesi lazımgelen en büyük borçlarından biri de muhtelif coğrafi sahalara ayrılan bütün ırktaşlarını birbirine tanıtmak ve tanıştırmaktır. Cihan tarihine azim hizmetleri dokunan çağlar ve asırlar boyunca yüksek kültürlü milli devletler kuran türk uruk ve boylarını yakından tanımadıkca ve onlarla sıkı bir surette ilgilenmedikce türk kültür birliği davası daima noksan kalacaktır. Bu sahada uğraşan her bir türk münevver ve gencinin burada üzerine düşen vazife türk varlığının en eski ma-

zisini boylamak ve birbirinden ayrı yaşayan türk uluslarının ayrı ayrı kültüre malik olmayıp bilakis müşterek bir türk birliği mahsulunun parçalarından başka bir şey olmadıklarını Türk amacında ispat etmektir".

Bu baxımdan dərginin elə ilk nömrəsinin ilk məqaləsinin bu alimin "Mir Əlişir Nəvai və türk dünyası" məsələlərinə həsr etməsi təsadüfi deyildir.

Onu da qeyd etmək lazımdır ki, bu dərgidə o taylı-bu taylı Azərbaycan ədəbiyyatı və mədəniyyəti xüsusi yer tutur. Bu baxımdan yenə birinci nömrədə çap edilmiş Fuad Köprülünün "Aşık Abbas Tufarqanlı" məqaləsi diqqəti cəlb edir. Fuad Köprülü Əhməd Cəfəroğlunun müəllimi və ustadı olmuş, onun universitetdə işə qəbul edilməsinə kömək etmiş, bu münasibətlər dostluq əlaqələrinə çevrilmişdir. Cəfəroğlu da bu dostluğu davam etdirərək hələ 30-cu illərdə nəşr etdirdiyi "Azərbaycan yurt bilgisi" dərgisinin əsas müəlliflərindən biri kimi onun məqalələrini çap etdirmişdir. Məlumdur ki, türk aşıq ədəbiyyatı mövzusunun tədqiqi Fuad Köprülünün yaradıcılığında mühüm yer tutur. Onun "Türk saz şairləri" adlı əsəri bu sahədə yazılmış ən qiymətli tədqiqat əsərlərindən biri kimi tədqiqatçılarından dönə-dönə müraciət etdiyi mənbələrdən biri kimi təqdirəlayiqdir [2, s. 131-238]. Bu baxımdan Tufarqanlı Abbas haqqında F.Köprülünün bəhs etməsi çox təbii idi və o məqaləsində Ə.Cəfəroğlunun hələ Tufarqanlı Abbas haqqında "Azərbaycan yurt bilgisi" dərgisindəki məqaləsinə istinad etməsi də çox diqqətəlayiqdir. Burada tədqiqatçı Tufarqanlı haqqında rəvayətləri araşdırmış, onları Koroğlu, Qurbani, Aşıq Qərib haqqındakı rəvayətlərlə müqayisə etmişdir. Müəllifin jurnalda nəşr olunan "Abbasqulu ağa Bakıhanlı" adlı məqaləsi də XIX əsr Azərbaycan ədəbiyyatının ilk maarifçi mütəfəkkirlərinin yaradıcılığının öyrənilməsi baxımından böyük elmi əhəmiyyət daşıyır. Məqalənin elə birinci abzası müəllifin Bakı xanları sülaləsindən olan, Qüdsi təxəllüsü ilə yazıb yaratmış XIX əsrdəki ilk Azərbaycan maarifçi və ziyalısı haqqında verdiyi qiymət diqqəti cəlb edir: "Abbaskulu ağa Kafkas türkleri arasında eski islam kültürünün Rus istilasından sonra yeni Avrupa medeniyeti telakkileriyle birleşmesinden meydana çıkan şair – muharrir tiplerinin en mühümlerinden sayılabilir" [5, s. 145].

Müəllif şairimizin həyatı haqqında müfəssəl şəkildə məlumat verərək göstərir ki, atası rus ordusunda görkəmli xidmətlər göstərdiyinə görə Bakıxanovu o zamankı Qafqaz canişini general Yermolov Tiflisə aparmış və burada dövlət qulluğuna qəbul etmişdir. Burada rus ədəbiyyatı ilə tanış oldu, rus mədəniyyətini öyrəndi. 1833-cü ildə iki illik səyahətə çıxdı, Şimali Qafqaz, Don, Ukrayna, Rusiya, Latviya, Litva, Polşa məmləkətlərini gəzdi, oradakı fikir və qələm sahibləri ilə tanış oldu. Bu səyahəti onun tərcümeyi-halında mühüm yer tutmuş, şair dövlət işlərindən çəkilərək Qubadakı malikanəsində yerləşmiş və tədqiqatla, yaradıcılıqla məşğul olmağa başlamışdır. Müəllifin 1943-cü ildə Bakıxanovun həyatı haqqında verdiyi aşağıdakı məlumatlar tədqiqatçıların diqqətini cəlb etməyə bilməzdi:... nihayet Kuba kadısı Hacı Molla Abdullah ile birlikte hacca niyyet ederek İstanbula geldi. İstanbulda o devri bazı alim ve şairleriyle görüş-

tü. Vaktiyle farisi olarak yazıp sonra arapçaya tercüme etmiş olduğu "Esrar-ülmeleküt" adlı eserini Sultan Abdulmecit namına yazdığı bir mukaddime ile padişahe takdim etti.Sadrıazam Reşit Paşanın emriyle bu kitabı tercüme eden Hayatizade Seyyit Şeref Halil Efendi Abbaskulu ağanın İstanbula 1846-da geldiyini, hatta devrin büyük alimlerinden birinin meclisinde onunla üç saat kadar muhtelif ilimlere ve edebiyata dair görüştüğünü söyliyerek, ilmini ve zekasını övüyor ve tahkikatına göre hacdan dönmeyerek orada öldüyünü söylüyor" [5, s. 146].

Çox maraqlıdır ki, bu əsər 1849-cu ildə sənətkarın ölümündən az sonra türkcə olaraq İstanbulda nəşr edilmişdir.

Alim Bakıxanova məxsus elmi və bədii əsərlərin ümumi təsvirini verir, onların nəşr olunması haqqında təsəvvür yaradır. F.Köprülünün böyük maarifçi A.Bakıxanov haqqında ümumi qənaəti aşağıdakılardan ibarətdir: "Klasik edebiyatı çok iyi bilmesi ve şiirde eski anenelere bağlı kalması itibariyle onda halk edebiyatı tesiri çok azdır. Lisanı mensur eserlerinde de oldukça sanatlı ve ağırdır.Yalnız Nasihatname adıyla çocuklar için yazdığı risalenin başlanğıcında o zamana kadar çocuklara okutulan eserlerin mana ve ifadece ağırlığından dolayı bunu yazdığını söylüyor ve bunda oldukça sade temiz bir dil kullanıyor. Kudsi garp fikirlerini açık bildiği halde,ruhuna hakim olan islam ideolojisi tesiriyle bir türlü türk ve islam mefhumlarını birbirinden ayıramıyordu. Gerek bundan,gerek içinde yetiştiği ve yaşadığı sahanın kuvvetli İran kültürü nufuzunda bulunmasından dolayı eserlerinin birçoğunda farisiyi, bazısında da İslam ümmetinin dini dili olan arapçayı kullandı. Bu kafayı taşıyan bir müslüman türk aliminde milli şüurun bulunamayacağı pek tabiidir ve işte bunun için Abaskulu ağada halk edebiyatının daha fazla izleri olamazdı. Fakat bütün bunlara rağmen onun Azeri türklerinin milli ve medeni uyanışına hizmet eden sayılı büyük simalardan biri olduğunu asla inkar edemeyiz" [5, s. 150].

Bundan əlavə, dərginin bir neçə nömrəsində tədqiqatçı Əli Gəncəlinin "Şirvanlı Sabir Tahirzade "Hop-Hop" məqaləsi verilmişdir. Bu məqalədə Sabir yaradıcılığının çox ümdə cəhətlərinə toxunulmuşdur. Məqalədə Şamaxı şəhəri, onun tarixi, mədəniyyət mərkəzi kimi önəmi, bu şəhərin görkəmli şəxsiyyətləri haqqında qısa məlumat verdikdən sonra Sabirin uşaqlıq illərindən, təhsil və tərbiyəsindən, ustadı Seyid Əzim Şirvani ilə dostluq əlaqələrindən, səyahətlərindən, Abbas Səhhətlə dostluğundan, "Molla Nəsrəddin" jurnalında iştirakından, Şamaxıda cəhalət və xurafatın Sabiri sıxışdırmasından, onu müflis hala gətirmələrindən, Sabirin məcbur qalıb Bakıya köçməsindən bəhs etmişdir. Şamaxı əhalisinin çox hissəsi sünni, az qismi isə şiə məzhəbindən olmuşdur. Ona görə də müəllifin də göstərdiyi kimi, Sabir bir şeirində bu məzhəbçiliyə qarşı çıxıb özünü müdafiə etməyə çalışmışdır:

Eşhedü billahül-eliyyül-ezim,
Sahibi-imanem, a şirvanlılar!
Yok yeni bir dine yekinim menim,

Köhne müselmanem, a şirvanlılar.
Şieyem amma ne bu eşkalden,
Sünniyem, amma ne bu emsalden,
Sofiyem, amma ne bu ebdalden,
Hak seven insanem, a şirvanlılar.
Ümmeti merhume ve mağfur ile,
Emirdeyem taati mezbur ile,
Küfrüme hükmeylemeyin zur ile,
Kaili-Kuranem, a şirvanlılar.

Müəllif şairin dilinə və üslubuna diqqət edərək onu çox doğru qiymətləndirmişdir: "Sabir az bir zaman içinde eski divan edebiyyatı üsulu ile yazılan edebiyat ve medhiyeler arasında büyük bir üçurum bırakarak Azerbaycan türk edebiyyatını çok ileri götürmüştür.Sabir halkla pek meşğul olmuş, ictimai ve siyasi mevzular üzerinde çalışmıştır. Ve her tabakadan olan halkın dilile yazmıştır. Mesela, sultan Hamid ve İran şahı Muhammedali şahın ağzından yazdığı şiirler, eda ve terkib itibarile hakikaten bir şah sözüdür. Aynı zamanda köylü kadının ağzı ile yazdığı şiirler de tam bir köylü ağzı ile yazılmıştır. Bunun gibi bir beg, bir hoca ve bir han ağzından yazdığı şiirlerde de tamamen onların kullandığı ifade tarzı vardır" [5, s. 78].

Müəllif məqalənin ikinci hissəsində Sabir yaradıcılığında daha çox ictimai motivlərə fikir vermiş, onları dərin təhlil süzgəcindən keçirmişdir. Burada Sabirin səkkizbəndlik "Tahassür" adlı şeiri de verilmişdir ki, bu şeir o zamana qədər "Hophopnamə"nin heç bir Bakı nəşrinə daxil edilməmişdi. Oxucu burada şairin acı gülüşünü hiss etməyə bilməzdi:

Bir yıldır olur zülm ile tarac müselman,
Etrafı-beledlerde kalur ac müselman.
Aya ne revadır ola muhtac müselman,
Gün rızkına bir böyle müselman arasında.
və ya
İmdi yene var taze haber yakşı temaşa,
İranlılık,Osmanlılık ismi olub ihya.
Bir kıta yer üstünde kopub bir yeke dava,
Meydan ki kızışdı olarız mahv serapa.
Onsuz da eger çend ki yekser telefiz biz,
Öz kavmimizin başına engel kelefiz biz.

Bu sonuncu bənddəki iranlılar ifadəsinə şərh verən müəllif göstərir ki, burada Sabir İran türklərinə işarət edərək onların Anadolu türklərindən kendilerini ayırdıklarını anlatmak istəməkdədir. O zaman İran türkləri kendilerine türk və Anadolu türklərinə isə Osmanlı deyirdilər. İstanbul şivəsindən Azərbaycan şivəsinə çevrilmiş olan bəzi yazıları da Osmanlıcadan türkcəyə tərcümə deyərək yazardılar [5, s. 110].

Onu da qeyd edək ki, Mirzə Ələkbər Sabir "Osmanlıcadan türkcəyə tərcümə nə demək" deyərək bu cür halları tənqid etmişdir.

Yenə Əli Gəncəlinin dərginin üç nömrəsində XVII əsr Azərbaycan şairi Saib Təbrizi haqqında mənbələrə dayanaraq yazılmış məqaləsi ən qiymətli əsərlərdən biridir. Burada şairin həyat və yaradıcılığı haqqında dolğun məlumat verilmiş, onun Azərbaycan dilində yazdığı əsərlər tədqiq və təhlil edilmişdir. Burada şairin azərbaycanca divanından, Şah Abbasın Əfqanıstan səfərindən bəhs edən "Fəthnameyi-Kandahar" məsnəvisindən ətraflı bəhs etmişdir. Hələ 1942-ci ildə Saib Təbrizi haqqında aparılmış bu tədqiqat Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsi baxımından böyük əhəmiyyət daşıyırdı.

Əhməd Cəfəroğlunun özünün jurnaldakı Mirzə Camal Qarabağlının "Qarabağnamə" əsəri və XIX əsr şairi Sədi Qarabaği haqqında tədqiqat əsəri Azərbaycan mədəniyyəti və ədəbiyyatı tarixini öyrənmək baxımından diqqətəlayiqdir.

Jurnaldakı ən maraqlı məqalələrdən biri Əhməd Kamal haqqında Dündar Kamal tərəfindən qələmə alınmış məqalədir. Məlumdur ki, XX əsrin əvvəllərində Bakıda türkçülük məfkurəsinin təbliği işində böyük əməyi olan türkçülərdən biri də Əhməd Kamal olmuşdur. Əhməd Kamal burada mətbuat və maarif müəssisələrində fəaliyyət göstərmiş, türkçülük ideyalarının təbliği ilə məşğul olmuşdur. O xüsusilə Əlibəy Hüseynzadənin nəşr etdiyi "Füyuzat" jurnalında geniş fəaliyyət göstərmiş, qiymətli məqalələr yazıb bu dərgidə çap etdirmişdir. Sovet mətbuatında, ədəbiyyatşünaslığında çox tənqid olunan, qatı pantürkist adlandırılan bu şəxs haqqında aparılan tədqiqat onun Azərbaycan xalqının milli ədəbiyyat və maarifinin inkişafındakı xidmətlərini araşdırmaq, onun yaradıcılığına qiymət vermək baxımından çox böyük elmi əhəmiyyətə malikdir.

Müəllif "Azərbaycan üçün çalışanlardan: Ahmet Kemal Akünal"(1943, № 8) adlı məqaləsində məşhur mühərririn həyatının İstanbul dövründən, Əbdülhəmid istibdadına qarşı mübarizəsindən, həbs edilməsindən və Bakıda fəaliyyət göstərməsindən bəhs etməkdədir. Əhməd Kamal (1874-1942) jurnalist kimi həm də siyasətlə məşğul olurdu. Müəllif rus imperiyasında türk xalqlarının hüquqsuzluğundan, zülm altında yaşamağından bəhs edərək bunun 1905-ci ildən sonra, I rus inqilabından sonra müəyyən hüquqları əldə etdiklərini qeyd edir. O, 1905-ci ildən əvvəl xalqımızın dilinin istifadəsinə göstərilən maneələrin çox olduğunu, hətta məktəblərin açılmasının qarşısının alındığını qeyd edir. O göstərir ki, Əhməd Ağaoğlu bu prosesləri, rus siyasətini "türkcə nəmənədir ki, onun sərf-nəhvi də olsun" şəklində ifadə etmişdir. Müəllif o zaman Bakıda milyonçu Tağıyevin türkçülük ideyalarının yayılmasında göstərdiyi xidmətlərdən bəhs etmiş, qeyd etmişdir ki, Qafqazın o zamankı 1 nömrəli milyonçusu Oktyabr inqilabı ərəfəsində qorxub qaçmamış, Bakını tərk edib xaricə mühacirət etməmiş, "Burada doğuldum, burada da öləcəyəm"-deyərək orada ömrünü başa vurmuşdur deyə yazmışdır.

Müəllif daha sonra Tağıyev və Bakıdakı vəziyyətə belə qiymət verir: "Bu kalkınışın muvaffakiyetle ilerlemesinde bilhasse maddi bakımdan oralı milyoner Hacı Zeynelabidin Tağının büyük yardımı olmuştur. Baküdeki neşriyyat həyatının zenginliyi kuvvetini Zeynelabidin Tağıdan alıyordu. Maddi yardım gören Ali bey ve Ağaoğlu Ahmet, Ali Merdanın imtiyaz alması üzerine Bakünün ilk gündelik türkce gazetesi Hayatı kurdular. Hayatın gayesi iki noktada toplanabilir: Eskiyi yıkarak geri ve cahil mühiti geliştirmek,Osmanlı şivesini Azerbaycana sokmak. Hülasa türkçülük yapmaktı. Bu gazetede Ali beyin "Türkler kimdir ve kimlerden ibaretdir" yazısı Azerbaycana azerbaycanlıları tanıtan ilmi siyasi bir makaledir. Hüseyinzadeyi bir yıl sonra "Füyuzat" edebi mecmuasını tesis etmiş görüyoruz" [5, s. 354].

Məqalə müəllifi "Füyuzat" dərgisi, Əli bəy Hüseyinzadənin fəaliyyətləri və Əhməd Kamalın bu dərgiyə gəlişi, oradakı xidmətləri haqqında bunları yazır: "Ali bey mecmuasında İstanbul şivesini yaymağa çalışıyor, hem de haric türk gazeteleriyle muhabere ediyordu. Bu muhaberelerinin birinde Ahmet Kemalı Baküde Türk muhitinde yeni doğan inkilaba yardım etmekliği için çağırıyordu: "Osmanlı türklerinin en muktedir muharrir ve şairlerinden Ahmet Kemal beyi Baküye davete mecbur olduk (Fuyuzat, 18, 25.V.1906) diyen Hüseyinzade gayesini gerçekleştirebilmek için mucadeleçi bir kalem arıyordu. Çünkü bütün didinmelerine rağmen İran konsoloshanesi tarafından propaganda gayesiyle çıkarılan ve bu didinmeleri kendi maksadına aykırı bulan Hakayık (Heqiqet) ile tufeyli bir gazete olan "Yeni hayat" murteci bayrağını açarak bu ilerlemeğe mani olmak için çalışıyorlar, her vesile ile Fuyuzatı tenkit ediyorlardı. İşte 17-ci sayısında Fuyuzata yetişen Ahmet Kemal ihtilalcı ruhun dalğa-dalga alevleriyle tutuşturduğu kalemini Kafkas dünyasının karanlıklarında bir meşale olarak dolaştırdı. Daha gelir gelmez Hüseyinzadenin Leyli ve Mecnun" tefrikasında İslamın beyninin Türkiye ile göstermesine çatarak bu beynin İran olduğunu iddia eden bir İranlıya lazım gelen cevabı verdi" [5, s. 355].

Məlumdur ki,Azərbaycan sovet ədəbiyyatşünaslığında Əhməd Kamalın Bakıdakı ədəbi-ictimai fəaliyyəti o dövrün ideologiyasının təsiri ilə tənqidi şəkildə qiymətləndirilmişdi [4, s. 165].

Onu da qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu M.Rəsulzadə "Fuzuzat" və Əhməd Kamalın oradakı səmərəli fəaliyyəti haqqında yazmışdı ki, Ə.Hüseyzadənin təsis etdiyi, Gənc türklər cərəyanın üzvlərindən qəzetçi Əhməd Kamalın yaxından iştirakı ilə nəşr olunan ədəbi "Füyuzat" məcmuəsi Qafqaz mühitində yeni bir ədəbi məktəb yaradırdı.

Əhməd Kamalın Füyuzatdakı ilk məqaləsi "Simurqun qanadları altında" adlanırdı (№ 18). Burada bütün türk dünyasında ortaq türk dilinin aktuallığı problemi ortaya qoyulur və Əhməd Kamalın Bakıdakı fəaliyyətində bu məsələ həmişə ön planda olmuşdur.

Müəllif Əhməd Kamalın dərgidəki fəaliyyətinə belə yekun vurur: "Bundan sonra Ahmet Kemalın bir sayıda iki, üç, hatta dört yazısının birden çıktığını

görüyüyoruz. Oralı bazı şairlerde bu tenkit alaka uyandırıyor ve böylece munakişa başlıyor. Mulahaza başlıklı yazılarında ve bilhassa sırasıyla "Muhtasar bir cevap", "İsbati-iştibah", "Avrupada" adlı makalelerinde lisan hakkındaki fikirlerini açıkca buluyoruz."Avrupada" makalesinde okumayı tavsiye eden şair "Bir milletin matbuatı o milletin lisanı demektir... Matbuatsız millet söyliyemez, işitemez ve göremez" düsturunu ortaya atıyor. Ahmet Kemalın Fuyüzatdaki faaliyetlerini bir cümle ile hulasa etmek lazım gelirse, mürteci neşriyyatla uğraşmış ve Vamberinin ittihadi-islamdan başka bir de tevhidi-lisan meselesi ortada dönüyor ki buna Kafkasya matbuatı pek ciddi ehemiyet vermektedir" (Fuyuzat, № 29).

Beləliklə, İstanbul universitetinin professoru, görkəmli dilçi-türkoloq Əhməd Cəfəroğlunun nəşr etdiyi "Türk amacı" dərgisi Azərbaycanşünaslığa böyük xidmət göstərmişdir.

ƏDƏBİYYAT

1. Azerbaycan yurt bilgisi. Ankara: TDK yay, 2008, 1464 s.
2. Köprülü F. Türk edebiyatı araştırmaları. Ankara: TTK yay, 1999, 472 s.
3. Quyliyev Ə. Büyük alimin yadigarı. Kardeş kalemler, 2011, № 2.
4. Talıbzadə K. XX əsrin əvvəllərində Azərbaycan ədəbi-tənqidi. Bakı: Elm, 1966, 535 s.
5. Türk amacı. Ankara: TDK yay, 2009, 384 s.

Абульфаз Гулиев

ЯЗЫКОВЕД АХМЕД ДЖАФАРОГЛУ И ЖУРНАЛ «ТУРК АМАДЖИ»

Профессор стамбульского университета, языковед-тюрколог Ахмед Джафароглу имеет большие заслуги в Азербайджановедении. Примером этого служит издаваемый им на свои средства журнал «Турк амаджи». в восьми номерах журнала, изданных в 1942-43 гг., были исследованы разные проблемы азербайджановедения и тюркологии. В статье нашла отражение деятельность журнала в этом направлении.

Ключевые слова: *А.Джафароглу, тюркский мир, журнал, азербайджановедение, язык.*

Abulfaz Guliyev

LINGUIST AHMAD JAFAROGLU AND JOURNAL OF "TURKISH AIM"

Professor of Istanbul University, linguist-specialist in Turkic philology Ahmad Jafaroglu has great services to Azerbaijan study. The journal of "Turkish aim" which published with his own money is one of the greatest services of him. Only eight numbers of this journal have been published during 1942-1943 and here various problems belong to Azerbaijan study and study of Turkic language have been investigated. The article deals with the activity of that journal on this field.

Key words: *Jafaroglu, Turkish world, Azerbaijan study, journal, language.*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

ADİL BAĞIROV
AMEA Naxçıvan Bölməsi
E-mail: bagirovadil@yahoo.com

OYKONİMLƏRİN FORMALAŞMASINDA TAYFA ADLARININ ROLU

Məqalə Bulqan, Əbrəqunus, Keçili, Xəlilli və Qarabağlar etnooykonimlərinin əmələgəlmə, yaranma yolları, struktur-semantik xüsusiyyətləri və informatik məna yüklərinin tədqiqinə həsr olunmuşdur. Məqalədə oykonimlərin yaranmasında iştirak edən nəsil və tayfa birləşmələri, onların yayıldığı areallar, məskunlaşdığı ərazilər, kəndlərdəki əhalinin etnik tərkibi haqqında məlumat verilir.

Açar sözlər: *Bulqan, Əbrəqunus, Keçili, Qarabağlar, Xəlilli.*

Toponimik materiallar göstərir ki, Naxçıvan ərazisindəki oykonimlər içərisində nəsil, tayfa, el adları əsasında yaranmış coğrafi adlara daha çox rast gəlinir. Belə adlar tarixdə baş vermiş ictimai-siyasi hadisələr, tayfa və tayfa birliklərinin yaranması, qəbilə və tayfaların tirələrə bölünməsi, yeni şəhər və kəndlərin salınması və s. ilə bağlı yaranmış və minilliklərdən zəmanəmizə yadigar qalmışdır. Bu adlarda tarixin min bir sirri, xalqımızın təşəkkül tarixi, dili, coğrafiyası, etnoqrafiyası, etnogenezi, mədəniyyəti, ulu babalarımızın isti nəfəsi yaşayır, kəndlərimizin yaranma tarixi, adlarının meydana gəlmə səbəbi, struktur semantik tipləri əks olunur. Odur ki, xalqımızın taleyində mühüm elmi, ictimai, siyasi əhəmiyyət kəsb edən, qrammatik xüsusiyyətlərinə, semantik əlamətlərinə görə bir-birindən fərqlənən etnooykonimləri elmi-linqvistik baxımdan öyrənmək bugünkü həyatımız və gələcəyimiz üçün çox vacib məsələlərdən biridir. Bu adların araşdırılması təkcə Azərbaycan tarixi və dilçiliyi üçün deyil, eyni zamanda, Azərbaycan xalqının mənşəyi və təşəkkülü məsələsinin araşdırılmasında da mühüm əhəmiyyət kəsb edir.

Bulqan. Naxçıvanın qədim yaşayış məntəqələrindən biri Bulqan kəndidir. Bulqan kəndi yarandığı vaxtdan Araz çayının kənarında yerləşmiş, 1963-1969-cu illərdə Araz Su Anbarının tikintisi ilə əlaqədar əvvəlki yerindən indiki əraziyə köçürülmüş, keçmiş kənd Araz dəryaçasının altında qalmışdır.

Bulqan kəndi XVI əsrdə Naxçıvan nahiyəsinin [13, s. 164], XVIII əsrdə Qarabağ nahiyəsinin [22, s. 28], XIX əsrdə Naxçıvan mahalının [16, s. 130],

1925-30-cu illərdə Naxçıvan dairəsinin [20], 1930-1978-ci illərdə Naxçıvan rayonunun, 1978-cu ildən Babək rayonunun tərkibinə daxil olmuş və 2009-ci ildə "Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri və Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Naxçıvan şəhər inzibati ərazi vahidinin hüdudlarına daxil edilmişdir.

Kənd ərazisində orta əsrlərə aid yaşayış yeri olmuş, buradan sənduqə tipli qəbirüstü abidələr, müxtəlif dövrlərə aid sadə və şirli qab qırıqları tapılmışdır [19, s. 98]. V.Qriqoryevin verdiyi məlumata görə XIX əsr və ondan əvvəlki dövrlərdə kənddə kəngərlilərin Qızılqışlaq tayfasına məxsus 29 ailə yaşamış, kəndin torpaq sahələri Əmir Suar bəyə və üç qardaşa məxsus olmuş, ərazidə daha çox buğda və arpa əkilmişdir [16, s. 32, 130]. Bulqanda yaşayan Qızılqışlaq tayfası və tirələrinin, eləcə də kəngərlilərin Əlixanlı tayfasına məxsus ailələrin yaylaq yeri Əli Məmməd qışlağı, Güllü qışlaq, Kalançı qışlaq və Mağara qışlaq kəndləri olmuş (Şahbuz nahiyəsi), bu kəndlərin də əsası kəngərlilər tərəfindən qoyulmuşdur.

Xalq arasında, eləcə də bəzi elmi mənbələrdə belə fikir söylənilir ki, Bulqan kəndi Araz çayının qıjov yerində yerləşdiyi üçün bura Bulqan, yəni "burulğan, qıjov yer" deyilmişdir. Bu söyləməyə əsaslanan K.N.Smirnov da adın mənasını "girdab, burulğan, qıjov (водоворот) mənasında açıqlayır [29, s. 112]. Ancaq bundan fərqli olaraq tədqiqatçıların digər qismi toponimin monqol dilində *bulqaan* – "yurd", "düşərgə", türk dillərində isə "bulmaq", "tapmaq", "əldə etmək" sözlərindən əmələ gəldiyini yazırlar [7, s. 49]. Bizim fikrimizcə, Bulqan adının məna açımını yuxarıdakı şəkildə yozmaq özünü doğrultmur. Əvvəla, keçmiş Bulqan kəndi yaxınlığında Araz çayı burulğan, qıjıltılı şəklində axmır və ya Türkiyədən başlayaraq Kürə qovuşana qədər Araz çayının qıjıltılı, burulğan yerlərinə yaxın ərazilərdə yerləşən kəndlərə də belə ad verilməyib. Ona görə toponimin mənasını çayın axma forması, surəti ilə əlaqələndirmək düzgün deyil. Digər tərəfdən toponimin monqol mənşəli olması da özünü doğrultmur. Çünki Bulqan qədim türk Bulqar tayfa adı əsasında yaranmış toponimdir. Mənbələrin məlumatına görə Bulqar türkləri bizim eranın əvvəllərində Qafqaza gələrək özləri üçün yaşayış məntəqələri seçmiş və burada məskunlaşmışlar. Azərbaycana gəlmiş bulqarlar *bulqan, kuyvar, çakar, kuruqir, qul, qazan, iskilv* kimi qollara ayrılmış və Azərbaycanın müxtəlif ərazilərinə səpələnmişlər [15, s. 35]. Odur ki, respublikada qədim bulqarların adı ilə bağlı yer-yurd adları öz əksini tapır. Güman ki, oykonim Bulqar tayfa adının fonetik transformasiyası nəticəsində (Bolqar/Bulqar-Bulqan) əmələ gəlmişdir. Naxçıvan ərazisində bu tayfa adı öz izini Qullar, Qazançılı kimi adları passiv fonda keçmiş oykonimlərdə və Qazançı, Vənənd kimi müasir yaşayış məntəqə adlarında da saxlayır [5, s. 85].

Əbrəqunus. Azərbaycan onomastikasında mübahisəli toponim kimi diqqəti cəlb edən coğrafi adlardan biri Əbrəqunus adıdır. Culfa rayon inzibati ərazi

vahidinə daxil olan Əbrəqunus kəndi rayon mərkəzindən 22 km. şimalda, Əlincəçayın sağ sahilində, Əlincəqala və İlanlıdağın qənşərində yerləşir.

Əbrəqunus Azərbaycanın ən qədim yaşayış məntəqələrindən biridir. Arxeoloqların aşkar etdiyi nekropollar, Naxçıvan mədəniyyəti üçün xarakterik olan maddi-mədəniyyət nümunələri kəndin tarixinin daha qədimlərə söykəndiyini sübut edir. Qədim və orta əsrlərdə Əlincəqala və ətraf ərazilərə yol Əbrəqunusdan keçmiş, kənd XIV əsrin 80-90-cı illərində Azərbaycan xalqının Əmir Teymura qarşı apardığı mübarizənin və digər tarixi hadisələrin şahidi olmuşdur. Mənbələrin məlumatına görə Əbrəqunus kəndi 1590-cı ildə Naxçıvan sancağının Əlincə nahiyəsinə daxil olmuş [13, s. 139], 1727-ci ildə kəndin gəliri 9.495 ağca təşkil etmiş və mənbələrdə Abraqanus, Qarakilsə (başqa adı Əbrəqunis) adları ilə qeydə alınmışdır [22, s. 76, 181]. Toponim D.D.Paqirevin 1913-cü ildə tərtib etdiyi "Qafqazın beşverstlik xəritəsinin adlar göstəricisi" toplusunda Əbrəkunus şəklində yazılmışdır [23, s. 36]. Kənd 1925-30-cu illərdə 29 kəndi əhatə edən dairə mərkəzi [20], 1930-cu ildən rayon mərkəzi olmuş və 1949-cu il yanvarın 5-də Culfa rayonu ilə birləşdirilmişdir.

Əbrəqunus coğrafi adı təhlilə cəlb olunmadığından adın mənşəyi ilə bağlı bir-birindən fərqli fikirlər, əsası olmayan şifahi mülahizələr yaranmışdır. Məsələn, bəzi fikirlərə görə Əbrəqunus xüsusi adı əbrə+kunis komponentlərinə ayrılır. Adın əbrə hissəsi ərəbcə "binalar, tikililər" mənasında işlənən *əbniyə* sözündən [10, s. 170], *kunus* hissəsi isə adı məşhur Əshabi-kəhf əfsanəsində çəkilən, müqəddəs "Qurani-Kərim"in "Ər-kəhf" surəsində "rum qeysəri, bütpərəst Diqyanus" kimi təqdim edilən [17, s. 323], əfsanəyə görə eradan əvvəl Naxçıvanda hökmranlıq etmiş Dağ Yunusun adı ilə bağlı yaranmışdır. Mənası "Dağ Yunusun binaları, tikililəri", "Dağ Yunusun yurdu" deməkdir. Fikrimizcə, adın məna açımına belə yanaşma komponentlərin zahiri səslənişi, oxşarlığı, bənzəyişindən başqa bir şey deyil. Çünki bu mülahizə toponimin etimoloji təhlilinə heç bir material vermir, əksinə tədqiqatı başqa səmtə yönəldir.

Əbrəqunus adının mənşəyi ilə bağlı fikirlər elmi ədəbiyyatda da birmənalı deyil. Məsələn, XIX əsrdə rus tədqiqatçıları səhv olaraq toponimə ermənipərəst mövqedən yanaşmış, ancaq adın kökü ilə bağlı tutarlı söz deyə bilməmişlər. Azərbaycan dilində Əbrəqunus coğrafi adı XX əsrin II yarısında tədqiqatçıların diqqətini cəlb etmiş, bu haqda müxtəlif mülahizələr yaranmışdır. Məsələn, Q.Qeybullayev toponimi farsmənşəli sözlər qrupuna daxil edir və farsca *oura* (qala) və ərəbcə *kanus* (kilsə) sözlərinin birləşməsindən əmələ gəldiyini yazır [15, s. 75, 104]. Bundan fərqli olaraq T.Əhmədov Əbrəqunus adını Kırna, Disər, Behrud, Dəstə (Ordubad), Düdəngə (Şərur) oykonimləri ilə birlikdə fars və ərəb mənşəli adlar sırasına daxil edir: "bu toponimlər mübahisəli olub, bəlkə də, ya mənşələri dəqiq məlum olmayan, ya da dilimizin qədim dövr alınmaları ilə ifadə olunmuş, lakin mənbələrdə qeydə alınmamış sözlərdən törənmiş adlardır" [9, s. 74]. Müəllif belə adları Naxçıvan zonası üçün xarakterik sayır. Ancaq nədənsə, "mənbələrdə qeydə alınmamış sözlər" hesab edir.

Əbrəqunus adının mənşəyinə ayrıca məqalə həsr edən M.Elli isə toponimin mənşəyini "Avesta"da adı çəkilən, qədim türk əsatirlərində baş tanrı sayılmış, sonralar dastan qəhrəmanına çevrilmiş, daha sonralar isə tarixi şəxsiyyət kimi tanınmış Əfrasiyabın adı ilə bağlı açıqlayır: "Əfrasiyab qədim türkcə "Alp Ər Tunqa" sözünün fars deyilişində işlənən formasıdır. Güman edirik ki, "Alp Ər Tunqa" sözü türk-azərbaycanlı deyilişində mürəkkəb fonetik dəyişikliyə uğrayaraq "Əbrəqunis" şəklinə düşmüşdür. Məşhur "Avesta"da Əfrasiyab "Franqrasyan" adı altında tanınır. "Franqrasyan" sözü "Alp Ər Tunqa xan" sözündən törəmişdir. Onu da deyək ki, "Əbrəqunis" və "Franqras" ("yan" hissəciyi "kan-xan" sözünün bir variantıdır: k-x-h-y əvəzlənməsi təbii haldır) sözləri səsləniş etibarilə bir-birinə çox yaxındır. Tarixi mənbələrdə "Əfrasiyab" sözü çox vaxt "Frasiyab" şəklində işlənmişdir. Buna uyğun olaraq "Franqras" sözünün əslini "Əfranqras" kimi də qəbul etmək mümkündür. Deməli, "Əbrəqunis" sözü Alp Ər Tunqanın "Avesta"dakı adı ilə – Franqrasyan (əfranqras-yan) adı ilə bağlıdır: Əfranqras-Əbranqras-Əbrəqunis" [18, s. 12]. F.Rzayev də bu fikrə tərəfdar olur və "Coğrafi ərazini nəzərə alaraq oykonimi "qoruyan, xilas edən qala" anlamında işləndiyini yazır [25, s. 90].

Yuxarıdakı xülasədən belə qənaətə gəlmək olur ki, Əbrəqunus sözünü "kilsə", "qala", "iç qala" sözləri ilə əlaqələndirmək elmi cəhətdən özünü doğrultmur. Xüsusən, Əfrasiyab sözü və onun derivatları olan "Alp Ər Tunqa" "Alp Ər Tunqa xan", "Franqrasyan", "Frasiyab", yaxud k-x-h-y əvəzlənməsinin Əbrəqunus coğrafi adı ilə əlaqəsi yoxdur. Çünki tədqiqata cəlb etdiyimiz Əbrəqunus sözü qədim türk hun tayfa adı əsasında yaranmış toponimdir. Mürəkkəb söz modelində olan bu toponim əbrə-hun-us tərkib hissələrinə ayrılır. Adın əbrə (abra) hissəsini ərəbcə əbniyə sözünün dəyişikliyə uğramış forması olub, "binalar, tikililər" mənasında [10, s. 170], türkcə "xilas edən", "qoruyan", "saxlayan", "xeyir verən" mənasında qəbul etmək olar. Toponimin tərkibindəki hun (qun) komponenti qədim türk hun tayfa adı, us hissəsi isə "ölkə, məkan" (ulus sözündən yaranan) sözləri ilə bağlı olub "hunlara məxsus qala, tikili", "hunlar xilas edən, qoruyan məkan" mənasını bildirir.

Xəlilli. Orta əsrlərdə Naxçıvan ərazisində iki Xəlilli kənd adı qeydə alınmışdır. Onlardan biri 1727-ci ildə Azadciran nahiyəsində keçmiş Azad şəhərinin yaxınlığında yerləşmiş, sonra dağıldığı üçün adı passiv toponimik fonda keçmişdir. Kəndin əkin sahələri və üzüm bağlarından qonşu kəndlərin əhalisi istifadə etmiş və əldə edilən gəlirdən 4150 ağca vergi (rusumat) verilmişdir (22, s. 199). Tədqiqat sübut edir ki, Xəlilli kənd adı kəngərlilərə məxsus tayfa adı ilə bağlıdır. Vaxtilə burada kəngərlilər yaşamış, Səfəvi-Osmanlı müharibələri nəticəsində dağılan kənd əhalisinin bir hissəsi Aza kəndinə, bir qismi isə Naxçıvan şəhərinin yaxınlığında yerləşən Xəlilli kəndinə (Babək rayonu) köçmüşdür.

Digər Xəlilli kəndi Babək rayon mərkəzindən 16 km məsafədə, Naxçıvançayın sahilində, relyefi düzənlik olan bir ərazidə yerləşir. Muxtar respublikanın abad kəndlərindən biri olan Xəlilli kənd adı XVI əsrə aid mənbədə *Xəlilli* [13, s.

164], XVII-XVIII əsrlərə aid mənbədə isə *Xəlil* [26, s. 57-66], *Xəlil xarabası məzrəsi* [22, s. 24] adları ilə qeydə alınmışdır. M.Vəliyev (Baharlı) adın mənşəyini eyniadlı türk tayfa adı ilə əlaqələndirərək yazır ki, "XIII yüzilliyin ortalarında İranda hakimiyyət Hülakü-monqollara keçən vaxt onlar Azərbaycana iki min türk ailəsi gətirtmişdilər. Bu türklər kai adlanan və Qərbi Türküstanda yerləşən xüsusi türk qoluna (ağ hunlara) məxsusdur ki, onların da əsas tayfalarından biri Xəlilli tayfasıdır. Xəlilli tayfası Şamaxı, Quba, Göyçay, Ağdam, Cavad, Naxçıvan qəzalarındakı bəzi oykonimlərdə tayfa adını yaşadır [31, s. 45-47]. M.Vəliyevdən (Baharlı) fərqli olaraq belə qənaətə gəlirik ki, Xəlilli adı ilə bağlı yaranmış bütün oykonimləri kai tayfasının adı ilə bağlamaq düzgün deyil. Çünki XVI-XIX əsr və ondan əvvəlki dövrlərdə Xəlilli kəndi və ona yaxın olan bütün ərazilər kəngərlilərin torpaq mülkiyyəti olmuş, ətrafdakı Şıxmahmud, Uzunoba, Didivar, Nəzərabad, Həsənağa, Kükəli kəndlərinin əsası kəngərlilərin tayfa və tirələri tərəfindən qoyulmuş, XVII əsrdən xeyli əvvəl kənddə kəngərlilərin Cümşüdlü tayfası yaşamış və kənd *Cəmşidli* adı ilə də tanınmışdır. Ola bilsin ki, kəngərlilərlə kai tayfasına məxsus ailələrin qohumluq əlaqələri olmuş və kai tayfalarına məxsus ailələr də bu kənddə yaşamışdır.

Tarixən əkinçilik və heyvandarlıqla məşğul olan Xəlilli kənd əhalisinin kəngərlilərə məxsusluğunu 1768-ci il iyul ayında Ağaverdi (İmamverdi) Soltan Kəngərlinin qızı Əsmər xanımın Məmmədkərim Soltana satdığı Xəlil kəndinin qəbalə sənədləri də təsdiqləyir. Sənəddə yazılır ki, Xəlilli kəndi Cəmşidli (Cümşüdlü) tayfasının ağsaqqalı İmamverdi Soltan Kəngərliyə ata-babadan qalma mülk imiş. Bu kənd Naxçıvan ölkəsinin şah sarayına vergi ödəyən, dövlət yanında vergi mənbəyi kimi böyük əhəmiyyətə malik idi [26, sənəd, 11, s. 137]. İmamverdi Soltan Kəngərli vəfat etdikdən sonra kənd bütün mülkü ilə onun qızı Əsmər xanıma məxsus olub. Əsmər xanım 1768-ci ildə şəriət məhkəməsinə gələrək Naxçıvan ölkəsinin tabeliyindəki ata-babadan qalma irsi əmlakı olan bütün Xəlil kəndinin arx və əkin sahələri, su ehtiyatları, dəyirmanları və ümumiyyətlə (kəndin) özünə xas bütün aidiyyətilə birlikdə hamısını tədavüldə olan səkkiz tümən Təbriz məbləğində pula Kəngərli elinin yüksək məqamlı vəkili Əliməmməd bəyin oğlu Məmədkərim Soltana satıb. Satılan mülk dörd tərəfdən bu qayda üzrə məhdudlanır: Birinci hədd: Şeyx Mahmud kəndi. İkinci hədd: Böyük Naxçıvan çayı. Üçüncü hədd: Uzun oba əmlakı. Dördüncü hədd: Cəhri [26, s. 58]. Məmmədkərim Soltan sağlığında kəndin əmlakına məxsus qəbaləni oğluna verdiyi üçün atasının ölümündən sonra kənd bütünlüklə Lütfəli Soltan Kəngərliyə çatmışdı [26, s. 139]. Bu faktlar sübut edir ki, Xəlilli kəngərlilərə məxsus tayfa başçısının adı əsasında yaranmış etnonim səciyyəli addır. Kənddə yaşayan indiki ailələrin əksəriyyəti Cəmşidli tayfasının nəsillərindəndir.

Bir faktı da qeyd edək ki, kəndin alqı-satqısı ilə bağlı qəbaləni 69 şəxs imzalamışdır. Bu imzaların hamısı Kəngərlilərin tayfa, nəsil və tirələrinə məxsus – *Kəngərli, Naxçıvani, Salehi, Bilici, Bilici-Kəngərli, Bərguşadi, Cəmşidlu,*

Yurdçu, Qızıllı, Qaraxanbəyli və s. kimi soyadlarda əksini tapır və əhalinin tamamilə kəngərlilərdən ibarət olmasını təsdiqləyir.

Keçili. Zəngəzur silsiləsinin yamacında bina olunmuş Keçili kəndi Şahbuz rayon mərkəzindən 20 km. aralıda yerləşir. Salınma tarixi məlum olmayan kənd ərazisindəki *Kolluq yaşayış yeri, Dəyirman yeri*, IX-XIII əsrlərə aid *Xaraba Keçil* kənd yeri, *Keçil qəbiristanlığı* və s. kimi maddi-mədəniyyət abidələri burada yaşayışın qədimdən mövcud olduğunu təsdiqləyir.

Keçili kəndi əvvəlcə Milax kəndi ilə (Culfa rayonu) indiki Keçili kəndinin arasındakı sahədə yerləşmiş, sonralar indiki əraziyə köçürülmüşdür. Yerli əhali arasında kəndin keçmiş ərazisi Xaraba Keçili adı ilə tanınır. Orta əsrlərə aid mənbələrdə Keçili toponiminə rast gəlinmir. Ehtimal edirik ki, Xaraba Keçili adlanan ərazidə yerləşmiş kəndin keçmiş adı *Zimmi keçidi* olmuş, Keçili tayfası kəndə köçdükdən sonra bura Keçili adı verilmişdir. Zimmi keçidi kənd adı XVI-XVIII əsrlərdə Naxçıvan sancağının Dərəşahbuz nahiyəsində qeydə alınmışdır. Nahiyədə bir-biri ilə həmsərhəd olan Nurs, Külüs, Əyrək kəndləri ilə yanaşı adı çəkilən Zimmi keçidi kəndinin 1727-ci ildə gəliri 6.737 ağca olmuşdur [22, s. 26]. Zimmi keçidi toponimin mənası tam aydın deyil. Ola bilsin ki, toponimin birinci komponenti ərəbcə "orta, ara" mənasında işlənən "zimn" sözündən yaranıb [10, s. 222], keçid sözü isə "bir yerdən başqa yerə keçmək üçün yol, keçəcək", "iki dağ arasında olan dar boğaz" şəklində mənalandırılır [2, s. 653].

Tədqiqatçıların əksəriyyəti Keçili toponiminin mənşəyini tayfa adı ilə əlaqələndirir. Naxçıvana dair tarixi sənədlərdə yazılır ki, "tayifeyi-keçili" adı ilə Arazın sağ sahilində yaşayan bu tayfa XVI əsrdə Səfəvilər dövründə Arazın şimalına köçmüş və kəngərli tayfalarının tərkibinə daxil olmuşdur. Həmin sənəddə qeyd edilir ki, "Kəngərlilərə görə, keçililəri ayrıca tayfa saymaq lazımdır. Nadir şah Kabula hücum edəndə onun qoşununun tərkibində kəngərlilər və keçililər də olmuşdur. Nadir şahın ölümündən sonra Azad xan keçililərdən ibarət 18 nəfəri qoşununa qəbul etmişdir. Arazın cənubunda yaşayan keçililər Keç tayfası kimi də tanınmış və Kərim-Sultan adlı şəxs bu tayfaya başçılıq etmişdir. Məlumata görə, bu vəzifədən azad edilən Kərim-Sultan İran şahı Kərim xan Zəndə həmin vəzifəyə qayıtmaq üçün müraciət edir və onun xahişi qəbul olunur" [24, sənəd 7, c. 45-54]. Mənbələrdə Keçili tayfa adı *keçili, qızılkeçili, sarıkeçili* variantlarında təqdim olunur və tayfanın yayılma arealları da göstərilir. Məsələn, İ.Şopen XIX əsrdə İrəvan quberniyasının Sərdarabad nahiyəsində iki Keçili, Naxçıvan qəzasında isə bir Keçil kəndinin olduğunu təsdiqləyir [30, s. 582, 607, 1044]. Toponimin məna açımı ilə bağlı heç bir tədqiqat aparmayan K.N.Smirnov Keçili sözünün mənşəyini səhv olaraq *keçi//keçiçilik* (козоводы) sözü ilə əlaqələndirir [29, s. 115]. Q.Məşədiyev isə belə hesab edir ki, "Keçili türkmənlərin tərkibində də ayrıca tayfa olmuşdur. Çox güman ki, oğuz-türkmən tayfası olan yürüklərin *sarı keçili* qolu da bu tayfa adı ilə əlaqədardır [21, s. 140]. Başqa bir mənbədə isə toponimin mənşəyi "yer səthinin quruluşu və iqlim

şəraiti ilə bağlı "keçid" mənasında açıqlanır [3, s. 23]. Bu müəlliflərdən fərqli olaraq Q.Qeybullayev oğuzların Qayı tayfasının qollarından birinin *qızılkeçili* olduğunu yazır və kəndin bir müddət Plankənd adlandırıldığını və keçililərin kəngərlilərin bir qolu olduğunu vurğulayır [15, s. 69]. Məsələyə aydınlıq gətirmək üçün qeyd edək ki, Plankənd Şahbuz rayonundakı Keçili kəndinin yox, XVII əsrdə bu kənddən, bir qismi isə 1828-ci ildə İrəvan əyalətinin Sərdarabad mahalından köçən ailələr tərəfindən qoyulmuş Şəmkir rayonundakı Keçili kəndinin adı olmuşdur. 1954-cü ildə həmin kənd köhnə ərazidən bir qədər aralıda (indiki yerində) planlı şəkildə salındığı üçün Plankənd adlandırılmış, 1994-cü ildə isə kəndin əvvəlki Keçili adı bərpa edilmişdir.

Yuxarıdakı xülasədən aydın olur ki, Səfəvilərin hakimiyyəti dövründə Arazın şimalına köçüb Naxçıvanda məskunlaşan "tayifeyi-keçili" Azərbaycan türklərinin etnogenezində geniş yer tutan kəngərli tayfaları ilə qaynayıb qarışmış, təbiətin gözəl guşəsində özlərinə yurd-yuva salmış, qədim soykökümüzü qoruyub saxlayan türk tayfalarından biridir. Bu adın paralelləri Şəmkir, Zəngilan, Gəncə, Zaqatala rayonlarında, Türkiyə, İran, Türkmənistan və Gürcüstanda da mövcuddur.

Qarabağlar. Dərələyəz silsiləsinin ətəyində yerləşən Qarabağlar kəndi (Kəngərli rayonu) Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. Kənddə XII yüzilliyə aid edilən qoşa minarəli abidə kəndin tarixi keçmişindən xəbər verir. Qarabağlar kəndi 1590-cı ildə Qarabağ adı ilə 8 kəndi [13, s. 166], XVIII əsrin 30-cu illərində 16 kəndi əhatə edən nahiyə mərkəzi [22, s. 28], XIX əsrdə isə Xok mahalında kənd olub [16, s. 78] və bu ad müxtəlif zamanlarda həm Qarabağ, həm də Qarabağlar şəklində işlənib. Qarabağ və Qarabağlar toponiminin yayılma arealı çox genişdir. Belə ki, Türkmənistan, Əfqanıstan, Şimali Qafqaz, Ermənistan və Türkiyədə eyniadlı yer-yurd adları mövcuddur. Respublikamızda böyük bir ərazi, Göygöl, Ağsu və Salyan rayonlarında isə bir neçə oykonim bu adı daşıyır. Tədqiqatçıların yazdıqlarına görə "hələ 1590-cı ildə Rəvan əyalətinin Vedi və Ağcaqala nahiyələrində Aşağı Qarabağlar, Yuxarı Qarabağ, 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində Qarabağ, 1828-1832-ci illərdə İrəvan xanlığı və Vedi rayonunda Qarabağlar, eləcə də XIX əsrdə Cənubi Qafqazda 5 Qarabağlar adlı kənd var imiş" [6, s. 136-137, 178-179]. Bu faktlar sübut edir ki, Qarabağlar adı xalqımızın tarixinə lap qədimlərdən daxil olmuşdur. Odur ki, adın mənşəyinin açılması bir çox qaranlıq mətləblərin işıqlandırılmasına kömək edər, ən əsası isə torpaqlarımıza göz dikmiş fitnəkar erməni işğalçılarının əsassız iddialarına layiqli cavab olar.

Xalq arasında Qarabağlar adının məna açımına birmənalı şəkildə yanaşılmır. Məsələn, yerli əhali arasındakı fikrə görə, keçmiş zamanlarda ərazidə qara üzüm sortu çox yetişdiyi üçün buraya Qarabağlar (yəni "böyük, çoxlu bağ") adı verilib, yaxud kənddə yaşayanlar çarıqlarına qara rəngli bağ bağladıqları üçün onlara "qarabağlılar" deyiblər. Bunun nəticəsidir ki, yazıçı F.Kərimzadə "Xudafərin körpüsü" əsərində adın mənşəyinə xalq etimologiyası mövqeyin-

dən toxunaraq yazır ki, "türbədə yatan kimdisə onun ruhunu əziz tutub kənd əhli həmişə qara geyinib, qara bağlayıb. Kəndin də adı belə qalıb" [14, s. 380]. El arasında belə bir versiya da vardır ki, guya Qarabağlar kəndinin əsası yaxınlıqda xarabalıqları yaşayan Qalacıq kəndindən köçənlər tərəfindən qoyulmuş və Qalacıq adı tədricən Qarabağlar adına çevrilmişdir. Bunun nəticəsidir ki, indi də qoşa minarəli abidənin yerləşdiyi ərraziyə Qalacıq deyilir. Bu söyləmə qeyri-elmdir, çünki hələ 1590-cı ildə Qarabağ nahiyə mərkəzi, Qalacıq isə Şərur nahiyəsinə daxil olan kənd idi. Odur ki, bu adları bir-biri ilə qarışdırmaq olmaz.

Qarabağlar toponiminin mənşəyi elmi ədəbiyyatda da müxtəlif istiqamətlərdən yozulur. Məsələn, A.Axundovun fikrincə, Qarabağ müstəqil yolla yaranmış "çoxlu bağı olan yer" deməkdir [1, s. 47]. Ş.Sədiyevin mülahizəsinə görə, *Qarabağ* tarixi ənənəvi ad olub *qara* və *bağ* sözlərinin birləşməsindən əmələ gəlib [28, s. 17]. M.Seyidovun açıqlamasına görə, *Qarabağ* yer adı *qara* və *bağ* tərkiblərindən əmələ gəlib. Güclü, böyük soybirləşməsinin, xalqın başçısı, bölgüsü deməkdir [27, s. 36]. Ancaq Ə.Fərzəlinin yazdığına görə "*Qarabağ* nə qəbilə-tayfa, nə də şəxs adı ilə bağlı deyildir. O, ibtidai azərbaycanlıların ilk inamlarından doğulmuş ulu ad olub - *Böyük müqəddəs bağ* deməkdir" [11, s. 36-43].

Bu fikirlərdən fərqli olaraq tədqiqatçıların bir qismi də toponimin mənşəyini peçeneqlərin tayfa qolu kimi mənalandırırlar. Məsələn, İ.Cəfərsoylu *Qarabağ* sözünün mənşəyini VIII-IX yüzilliklərdə Volqa və Ural çayları arasında yaşayan *karabek adlı* peçeneq tayfasının adı ilə bağlayır və yazır ki, yurdumuzda yer adı kimi bu günlərə qədər qalmaqda olan Qarabağ sözü *Karabak* tayfasının adını özündə yaşadır [8]. Bəzi tədqiqatçılar da bu fikrə tərəfdar olduqlarını yazırlar: "Qarabağ toponiminin peçeneqlərin Qarabay tayfasının adı ilə bağlılığı şübhə doğurmur, çünki peçeneq dilində Qarabay elementinin sonundakı "u" səsinin başqa türk dillərində "ğ" səsinə uyğunluğu fikri vardır. Digər tərəfdən Qarabağ toponimləri çox geniş areala malikdir və əsasən peçeneqlərin yaşadıqları bölgələrdə mövcuddur" [7, s. 20-21]. A.İmanlı toponimi "tayfa başçısının adından götürülən etnonim kimi təqdim edir [12, s. 53]. Başqa bir mənbədə isə toponimin mənşəyi eradan əvvəl hun tayfalarının tərkibində Zaqafqaziyaya gəlmiş türkdilli kəngərlər-peçeneqlərin *qarabağlar* tayfasının adı ilə bağlı açıqlanır [4, s. 125]. Yuxarıdakı mülahizələrin təhlilindən sonra belə nəticəyə gəlirik ki, *Qarabağlar* adı *qara, bağ* hissələri və *-lar* cəm şəkilçisinin birləşməsindən əmələ gəlib "böyük, qüdrətli, güclü bölüm, hissə" (M.Seyidov) anlamı bildirir. Bu ad Kəngərli tayfa birləşmələrinə məxsus ad olub "kəngərlilərin böyük bir bölümü", "kəngərlilərin güclü, qüdrətli bir hissəsi" mənasında işlənir. Bu mülahizəni yerli faktlar da təsdiqləyir. Belə ki, Qarabağlar kəndi və onun ətrafı tarixən Kəngərli zonası, bu ərazidə yerləşən kəndlər isə Kəngərli kəndləri adlanır. Çünki "XIX əsrdə Xök mahalında yaşayanların əksəriyyəti tatar (azərbaycanlı – A.B.), böyük hissəsi isə kəngərli tayfalarına mənsub olub və tayfanın Qarabağlar qolu eyniadlı kənddə məskunlaşıb" [16, s. 32].

Yekun olaraq demək lazımdır ki, vətən torpağının ünvanı olan bu toponimlər sadəcə yer adları deyil, xalqımızın ictimai, sosial-iqtisadi və mədəni həyatının tarixi göstəriciləri, doğma dilimizin qrammatik quruluşu, tarixi leksikologiyası haqda məlumat verən dil faktlarıdır. Ona görə bu toponimləri daha geniş və ətraflı şəkildə elmi-linqvistik baxımdan tədqiq etmək bugünkü ictimai-siyasi həyatımız və gələcəyimiz üçün çox vacib və aktual məsələlərdən biridir.

ƏDƏBİYYAT

1. Axundov A. Torpağın köksündə tarixin izləri. Bakı: Gənclik, 1983, 136 s.
2. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə. II c., Bakı: Şərq Qərb, 2006, 792 s.
3. Azərbaycan toponimiyasının öyrənilməsinə həsr edilmiş elmi konfransın materialları. Bakı, 1973, 136 s.
4. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı: Azərbaycan Ensiklopediyası HPB, 1999, 588 s.
5. Bağırov A. Naxçıvanın oykonimləri. Bakı: Nurlan, 2008, 336 s.
6. Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli, 1998, 453 s.
7. Budaqov B., Qeybullayev Q. Naxçıvan diyarının yer yaddaşı. Bakı: Nafta Pres, 2004, 120 s.
8. Cəfərsoylu İ. Qarabağlar // ”Azərbaycan müəllimi” qəz., 1986, 4 aprel.
9. Əhmədov T. Azərbaycan toponimikasının əsasları. Bakı: BDU-nun nəşri, 1991, 312 s.
10. Ərəb və fars sözləri lüğəti. Bakı: Azərbaycan SSR EA-nın nəşri, 1966, 1036 s.
11. Fərzəli Ə. Dədə Qorqud yurdu. Bakı: Azərnəşr, 1989, 181 s.
12. İmanlı A. Şərur və İğdır bölgələrinin yer adları. Naxçıvan: Qeyrət, 2008, 160 s.
13. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.
14. Kərimzadə F. Xudafərin körpüsü. Roman. Bakı: Yazıçı, 1982, 382 s.
15. Гейбуллаев Г. Топонимия Азербайджана. Баку, 1986, 190 s.
16. Григорев В. Статистическое описание Нахичеванской провинции. Санкт-Петербург, 1833, 266 s.
17. Qurani-Kərim / Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov, V.M. Məmmədəliyev. Bakı: Çiraq, 2005, 636 s.
18. Məmməd E. “Əbrəqunus” sözünün işıq ucu // “Elm və həyat”, 1984, № 3, s. 12.
19. Naxçıvan ensiklopediyası: 2 cilddə. I c., Naxçıvan, 2005, 356 s.
20. Naxçıvan MR Mərkəzi Dövlət Arxivi: F. 32, siy. 1, arx. 18.
21. Məşədiyev Q. Zaqafqaziyanın Azərbaycan toponimləri. Bakı: Elm, 1990, 148 s.
22. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı: Elm, 2001, 376 s.
23. Пагирев Д.Д. Алфавитный указатель к пятиверстной карте Кавказского края. Тифлис: Издания Кавказского военно-топографического отдела, 1913, 590 s.

24. Передняя Азия в документах. Кн. 1: Нахичеванские рукописные документы XVII-XIX вв. / Под. ред. Ю.Н.Марра. Тифлис, 1936.
25. Rzayev F. Ərəb, fars, erməni mənşəli hesab edilmiş bəzi türk toponimləri / Azərbaycan onomastikası problemləri. X c., Bakı: ADPU-nun nəşri, 2002, s. 85-93.
26. Seyidbəyli E. Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədləri. Bakı: Elm, 2000, 229 s.
27. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.
28. Sədiyev Ş. Qarabağın mənası // "Elm və həyat", 1963, № 3, s. 10.
29. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края (Тифлис, 1934 г.). Баку: Озан, 1999, 156 с.
30. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург, 1852, 1231 с.
31. Vəliyev (Baharlı) M. Azərbaycan (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). Bakı: Azərbaycan, 1993, 192 s.

Адиль Багиров

РОЛЬ НАЗВАНИЙ ПЛЕМЕН В ФОРМИРОВАНИИ ОЙКОНИМОВ

Статья посвящена исследованию происхождения, структурно-семантических особенностей и информационно-смысловой нагрузки ойконимов Булган, Абрагунус, Кечили, Халиллы, Карабаглар. В статье дана информация о племенах и племенных объединениях, участвовавших в создании ойконимов, об ареалах их распространения, территориях проживания, об этническом составе жителей сел.

Ключевые слова: *Булган, Абрагунус, Халиллы, Кечили, Карабаглар*.

Adil Baghirov

THE ROLE OF TRIBE NAMES IN OIKONYM FORMING

The paper is devoted to the investigation of origin, forming way, structural-semantic features and informational-semantic load of oikonyms Bulgan, Abragunus, Chechili, Khalili and Garabaglar. Information about tribes and tribe unions who has taken part in the creation of oikonyms, about their spread areas and settled territories and ethnic composition of the population in the villages is given in the paper.

Key words: *Bulgan, Abragunus, Khalili, Chechili, Garabaglar.*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

FİRUDİN RZAYEV
AMEA Naxçıvan Bölməsi
E-mail: firudinr@yahoo com.tr

NAXÇIVANLILARIN ETNOGENEZİ TARİXİNDƏ PARALAT TÜRKLƏRİ

Məqalədə Naxçıvan ərazisində yerli sakinlər olmuş, qədim skif türk boylarından olan Paralat prototürklərindən bəhs olunur. Məqalə müəllifi bu tayfaların tarixini izləyərək onların tarix səhnəsində olduğu dövrü m.ö. II minilliyə aid edir.

Bu tayfaya həsr edilmiş mövzu indiyə qədər alimlər tərəfindən araşdırılmamış və onların Naxçıvanla bağlılığı təsdiq edilməmişdir. Müəllif bu problemə ilk dəfə toxunaraq Azərbaycan və Naxçıvan ərazisində olan "Par" komponentli adların qədim türk tayfasına aid olduğunu elmi dəlillərlə sübut edir.

"Por" köklü məntəqə adlarını formalaşdıran sözlər, leksik semantik xüsusiyyətlər onların bir qədim türk tayfası olduğunu göstərir. Bununla bərabər elmi nəticələr Paralat türklərinin ümumtürk arealında yayımı və türk tarixi ilə bağlılığını ortalığa çıxarır. Hərtərəfli tədqiqat zamanı xeyli yeni elmi nəticələr də əldə olunmuşdur.

Açar sözlər: *etnooykonim Por, Paralat, Parpi, Parağa, Pur, Pərnaqut.*

Qədim Naxçıvan əhalisinin etnogenezi tarixində xüsusi yeri olan Paralat tayfaları skiflərin bir qolu olub, qaynaqlara görə m.ö. II minillikdən tarix səhnəsində olmuş, tədqiqatlarda onların tarixi m.ö. VII əsrə aid edilmişdir. Onların Naxçıvan ərazisində yaşaması və naxçıvanlıların etnogenezindəki yeri, yaratdıqları toponimik adlar sistemli şəkildə etimoloji və linqvistik təhlillərdən kənarda qalmışdır. Bu amillər nəzərə alınmaqla Paralat tayfalarının tarixi və dili onların etnogenezimizdəki rolu və bu adla bağlı etnooykonimlərin etimoloji izahlarını verməyi lazım bilirik.

Qeyd edək ki, skiflərin tarixi, ərazisi, dili, adətləri və s. məsələlərə yüzdən artıq müəllif müraciət etmiş, burada ölkə, milli maraq, siyasi baxış mövqeləri olsa da, tarixi qaynaqlar ciddi araşdırılmış, xeyli elmi nəticələr əldə edilmişdir. Bu məsələdə yekdil rəy olmasa da Skif tayfalarına münasibətdə bəzi amillər nəzərə alınmaqla biz onların tarixi, mənşəyi və dilinə bir qədər geniş baxmaq istərdik.

Herodotun məlumatlarında skiflərin Paralat tayfa adı ilə yanaşı İrik, Aqafirs, Arimaspi, İssidon, İskil-skolot, Tavr-tavrlay, Axvat boylarının da adı çəki-

lir, massagetlərin təzyiqi ilə onların Arazı keçərək kimmerlərin ərazilərinə gəldiyi qeyd olunur. Lakin Q.Stratanovski kitabı tərcümə edərkən onların müasir Axtuba və Volqa arasında yaşadığını, Uralın şimalındakı madyarların ululları olduğunu yazır [23, IV 6, 10, 13, 22, 49, 90, s. 565]. Bu tayfaların prototürk varisləri olub Naxçıvan ərazilərində yaşaması xeyli qaynaq və tədqiqatlarla təsdiq olunur. Onları skiflərin bir qolu kimi göstərən Herodot, Lipoksay nəslinin "kiçik qardaşları-çar nəslindən "Paralat" boyunun davamını, Lipoksayın Tarqitayın oğlu olub Tarqitay dövründən Daranın onların torpağına hücumuna qədər 1000 il keçdiyini, paralatlarla bağlı adət, inam və s. xəbər verir. Müəllif "Skifiya" ölkəsini Xəzər və Qara dənizin şimalı ilə bu dənizlərin arasında göstərir [23, I 105; IV, 5-7; IV, 1, 15-17, 123-125; V 24; VII 10].

K.Ptolemeyin yazılarında Skifiya ölkəsi, buradakı şəxs və coğrafi adlar skif çarlarının adı ilə yanaşı xeyli toponimik adlara rast gəlsək də, çarların tarixindən başqa bir tarixə və dil məsələsinə rast gəlmirik [32, s. 143, 254]. Xristianlığın dini kitabı "Bibliya"da skifləri "aşquzay" kimi Maqoqun varisi olaraq, skif-kimmer-sak birliyində göstərilir və burada deyilir: "...skif tayfaları onlarla dil və adət qohumları olan öz sələfləri kimmerləri özlərinə tabe etdilər" [9, Bıtiye 10, 1-3. s. 19]. Məhz bu fikrə görə Assur, Urartu yazılarında skif xronikası "Askenaz" adı altında qeydə alınmaqla müxtəlif qohum tayfa birliyini xarakterizə edirdi. Buna istinadən Avropa və keçmiş sovetlər birliyinin dilçi, tarixçi alimləri öz fikirlərini genişləndirmiş, skiflərin dili, mənşəyi, tarixi haqqında müxtəlif fikirlər söyləmiş, onların tarixi m.ö. VIII əsrə aid edilərək, dilləri "irandilli" olaraq göstərilmişdir.

B.Qrakovun, A.Simonenkonun, A.Smirnovun "Skiflər", K.Smirnovun "Sarmatlar və onların Skif ölkəsi üzərində siyasi hakimiyyətinin təsdiqi", B.Lobayın "Eramızın I əsrində Şimali-qərb Qara dəniz ətrafı sarmatlar" kimi çoxsaylı əsərlərində skiflər və onun qollarının tarixi m.ö. VIII-IV əsrlərə aid edilməklə, Herodota istinadən dillərinin "irandilli" olduğu göstərilir [ətraflı bax: 19; 38; 39].

M.Aqbunovun paralatları, Skif türk boyları kimi verib coğrafi adlar, onların adətləri, buradakı antroponimik sistemdən bəhs edib, tarixlərini m.ö. VII əsrə aid etsə də, dilləri haqqında konkret fikir deməmişdir [2, s. 47, 57-61, 98-106]. Herodota istinad edən A.Dovatur, A.Kallistov, İ.Şişova isə problemə səthi yanaşmaqla skolot, paralat və axvatları "irandilli" hesab edib onların qollarını monqollara bağlamış [11, s. 209], F.Rəşidəddin də "paralat" sözünün "aralat", "arulat" yazılışında monqollardan gəldiyini yazmışdır [34, s. 169].

Biz XVI-XVIII əsrlər özbək tayfaları arasında da Aralat tayfa adına rast gəlirik [15, s. 60, 182]. Lakin bildiyimiz kimi bu qrupa Xalxa-monqol, Buryat monqol, Kalmık xalqlarının dilləri daxildir [7, s. 483] və bu dillər İran dil qrupuna və ya uydurma "irandilli" sistemə daxil deyillər (F.R.). V.Abayev isə, Skiflərin ərazi, mənşə və dillərini müqayisəli təhlil edib iranlı alimlərin skolotları "irandilli" hesab etmədiklərinə dair elmi faktlar göstərsə də, skiflərdə

şəxs və tayfalara məxsus adları osetin, İran dillərinə məxsus sözlərlə izah etmişdir [1, s. 87, 121-123]. Ümumən türk tayfa adlarını iranlılara aid edən E.Qrantovski yenə də skiflərin şəxs adlarını gah "hind", gah da "irandilli" hesab etmişdir [22, s. 205]. Bunun əksinə olaraq K.Kolobova və L.Qluskina isə skifləri m.ö. VIII əsrə aid igid, azadlıqsevər, hücumları cəsarətli, mənşəcə Aşkenaz və Maqoq nəslindən gələn bir xalq kimi təsvir etmişlər. Burada İskit-işquzaylara qarşı qaniçən parsların-farsların törətdikləri vəhşiliklər və alçaq cinayətlərdən bəhs olunmuş, skiflərin Krım, Kuban ətrafında yaşayan kimmerlərlə dil və mənşəcə qohumluğu, Dərbənd keçidindən adlayıb Azərbaycanın Kür və Araz arasında məskunlaşması, buradan Assuriyaya hücumları və s. öz əksini tapmışdır [24, s. 32, 51-57, 146, 237].

Problemə yeni versiyadan yanaşan S.Maxortıx skifləri m.ö. VII-V əsrlərə aid edib ilk yurd yeri kimi Şimali Qafqazı göstərmişdir. O, ərazidəki kurqan qəbirlərə istinadən skiflərin dəfn adətlərinin, Qafqaz əhalisinin atla bağlılığının müqayisəsini aparıb, onların Qafqaz mədəniyyətinin formalaşmasına təsir etdiyini, bu regionun skif tarixi və mədəniyyətindəki yerini göstərmişdir [29, s. 41, 92-97]. İ.Artamanov da skiflərin tarix səhnəsinə çıxdıqları dövrü m.ö. IV əsrə aid edərək, yayım arealı, işğal etdikləri ərazilərə tarixi və dillərinə konkret faktlara müraciət etsə də yeni fikir deməmişdir (3, s. 98-105) B.Rıbakovun yazılarında isə paralatlar əsl gücdürlər və Dnepr çayı ətrafındakı paralatlardan skiflərin digər qolları başlamışdır [35, s. 569].

Nəhayət müstəqillik illərində son dövrlər nəşr olunan "Azərbaycan tarixi"nin I cildində tayfa adı kimmerlərlə birgə "kimmer-skif (skuda)" yazılışı ilə göstərilməklə onlar m.ö. II minilliyin sonu, I minilliyin əvvəllərində Qara dənizin şimalında çoxsaylı tayfa ittifaqı şəklində qeyd olunmuşlar. Burada skiflərin Azərbaycana gəlişi m.ö. VIII əsrə, Midiyada məskunlaşma tarixi isə VII əsrin əvvəllərinə aid edilmiş, dilləri haqqında konkret fikir söylənilməmişdir [6, s. 213-216]. Bu sahəyə ayrıca diqqət edən Z.Həsənov da skiflərin tarixini m.ö. VII əsrə aid etmiş, "Skiflərin dili" başlığında "skif" sözü və tayfa adlarının mənaları açıqlanmamış, Sevortyana istinadən Paralat tayfa adı "paralayan, parçalayan" kimi izah olunub, adın "balta" sözündən törəndiyi ehtimal edilmişdir [16, s. 24-35, 187]. Y.Oğuz və B.Tuncay isə Herodotun Tarqitay haqqında fikrinə istinad etsə də, onların tarixi, dili, kimliyi tam dəqiqləşdirilməmişdir [45, s. 351-353].

Bu problemlərə yeni elmi istiqamətdən yanaşan Q.Qeybullayev, skiflər haqqında da yeni söz demiş, onların tarixi, dili məsələlərinə toxunaraq İran alimləri tərəfindən "paradata"-"təyin edilmiş" kimi izah olunan "paralat" tayfa adının "olet", "elet" yazılışlarında tuvin və oyrat türkləri arasında qaldığını yazmışdır. Peçeneqlər arasında "Boro-tolmat", Azərbaycanda "Ələt" adlarının buradan gəldiyini yazan müəllif, "boro" sözünü "boz" kimi izah edib, skif boylarının iran, slavyan mənşəli deyil "türk xalqlarına aid" olduqlarını ilk dəfə söyləyən P.Şafarikin fikrini elmi faktlarla təsdiqləmişdir [20, s. 136, 140-145].

Bəzi qaynaqlar isə Skifləri sak tayfaları kimi təqdim edib onların yunanlar tərəfindən "iskutay", "İşquzay" kimi adlandıqlarını yazaraq m.ö. VII əsrdə Tunadan qalxaraq Qafqaz və Orta Asiya arası böyük imperatorluq yaratdıqlarını göstərmişdir [41, s. 36].

Bütün deyilənləri ümumiləşdirsək, istər rus, Avropa, Azərbaycan və türk alimləri və qaynaq məlumatlarında skiflərin tarixi m.ö. VIII əsr, ərazisi Qafqaz, Ön Asiya, Kiçik Asiya və Orta Asiya göstərilmiş, dilləri türk, iran, mənşələri türk monqol olmuşdur. Bütün bunlara bərabər bəzi məlumatlara da diqqət etmək istərdik.

Herodotun "Daranın hücumundan 1000 il qabaq" ifadəsini bir qədər də dəqiqləşdirmək istərdik. Bizə məlumdur ki, Daranın hakimiyyətə gəldiyi, Qaumata üsyanını yatırdığı və işğalçılıq müharibələrinə başladığı dövr m.ö. VI əsrə (522-ci il) təsadüf edir [42, s. 484; 43, s. 26-33].

Müəllifin verdiyi bu tarixi məlumatla Dara dövrü müqayisə olunarsa Skif boylarının o cümlədən də paralatların tarix səhnəsinə çıxdıqları dövr m.ö. 1522 ilə, yəni m.ö. II minilliyin I yarısına təsadüf edir. Şimalda yaşayan bu tayfaların kimmer-skif-sak ittifaqında m.ö. XI əsrdən işğalçılıq yürüşləri Y.Yusifovun araşdırmalarında hərtərəfli təhlil olunmuşdur [44, s. 355-356]. Korneliy Tasitin "Annalı" bölümünün II hissəsində isə Misir yazılarında çar Ramsesin 700 min ordu ilə Liviyanı, Efiopiyanı, midiyalıların ölkəsini, persləri, baktriyalıları, hətta Skifiya ölkəsini işğal etdiyi göstərilir [25, s. 394]. Tarixi qaynaqları diqqətlə izləsək bu hadisə II Ramsesin dövründə baş vermişdir və bu tarixi proses m.ö. XIV əsrin sonu XIII əsrin ortalarına qədər (m.ö. 1312- 1255) davam etmişdir [41, s. 353-354]. Məlumatdan aydın göründüyü kimi Skiflər-işquzlar-oğuzlar ölkə şəklində hələ m.ö. ən azı XIV əsrdə mövcud olmuşdur (F.R.). Yadımıza salsaq Skiflər iranlılar tərəfindən "sak" adı ilə, saklar isə yunanlar tərəfindən "işquzay", "iskutay" adları ilə tarixi qaynaqlara düşmüşdür. Buradakı adlar isə, İ.M. Dyakonova görə İran dilləri ilə izah olunmur [12, s. 238-240]. Bu halda skiflərin dili necə iranmənşəli ola bilərdi?

Əgər N.Fedorov Naxçıvanın Qızılvəng ərazisində Sakların geyim və digər mədəniyyət əşyalarını aşkarlayıb onun m.ö. II minilliyə aidliyini təsdiq edirsə [36, s. 74], biz skif-sakların bu ərazilərə gəlişinin də m.ö. II minillikdə olduğunu deyə bilərik. Skif və onun qolları haqında Herodotun, Korneliy Tasitin, Y.Yusifovun, N.Fedorovun məlumatlarının əsaslı təhlili bu tayfaların qədim Azərbaycan, onun tərkib hissəsi olan Naxçıvanda məskun olduqları dövrün ən azı m.ö. II minilliyin I yarısından əvvələ təsadüf etdiyini söyləməyə əsas verir (F.R.). Bundan başqa işquzay-iskutayların elə oğuzlar olması haqqındakı araşdırmaları, tərəfimizdən aparılmış hesablamada Oğuz xaqanlarının Buğra xandan başlayan tarixin İslamın başlandığı dövrə qədər olan illəri m.ö. 1443-cü ilə aidliyini da nəzərə alsaq, bu skif-iskit tarixi ilə eyni dövrə (XV əsrə) təsadüf edir [36, s. 133-135].

Skiflərin dil məsələsinə gəldikdə isə çoxsaylı müəllifin skiflərdəki Aspak, Taksak, Atey, Sparqapit, Xonaxis adlarının Xəzər xaqanı Qonak, Anaxarsis, Aukos, Savli, İdantis, Ariyapit, Skil, Qnur, Skilur, Pollak, Oktamasat, Ariant, Tarqitay, Arpaqsay, Aqeris, Marsaqet, Davket kimi 50-yə yaxın adlarla müqayisələri (41, s. 531; 20, s. 140-144) bu tayfaların prototürk-Azərbaycan tayfaları olduğunu sübut edir. Bəzi alimlərin "slavyandilli", "irandilli" vepsiyaları isə N.Marr tərəfindən rədd edilir. O, rus mədəniyyəti və dilinin qeyri-slavyan tayfaları tərəfindən slavyanlar hələ tarixə gəlməmişdən yarandığını diqqətə çatdırır [28, s. 18-60]. F.Filin "Rus dilinin öyrənilməsi və N.Y. Marr" məqaləsində də rus xalqı və dilinə Volqa ətrafı xalqlarından olan skif-kimmerlərin təsir etdiyini və bu dilin yaranmasında həm də Qafqaz yafətlərinin (yəqin ki, qədim prototürklərin – F.R.) dilinin böyük rolunu göstərir [17, VIII, s. 1-19]. Bundan başqa N.Marr Qafqazda gürcü, erməni-friq və b. tayfaların dilinə skif sarmatlarla qohum olan proto Azərbaycan tayfa dilinin təsirini də göstərir [10, s. 243-253]. İ.Meşşaninov isə rus yazısının birbaşa skif-sarmat yazılarının təsirindən yarandığını elmi faktlarla qəti olaraq sübut edir [30, s. 83]. Məhz bu araşdırmalardan sonra slavyan dilinin yaranması istiqamətindəki mübahisələrə Sovetlər birliyində son qoyulmuşdur ki, bunu çoxsaylı mənbələr də təsdiq edir [40, s. 254].

"İrandilli" məsələsinə gəldikdə isə m.ö. VII əsrdə Midiyada kiçik əyalət olan Pars-farslar öz dillərini hansı üsulla özlərindən 900 il qabaq tarix səhnəsinə çıxmış, əlifba və dil sahibləri olan skif, kimmer, sak və b. türklərin ərazisinə daşımış və "iran" dilini sayca özlərindən qat-qat artıq olan xalqlara öyrədə bilmişlər? Təbii ki, bu tamamilə yanlış bir konsepsiyadır!

Paralat sözünün mənasına gəldikdə Q.Qeybullayev yazılarında sözü doğru olaraq Bor+al+at yazılışında verir, lakin "boro" sözünü Altay dillərində "boz" mənasında izah etsə də, sözün tam mənasını açmır [21, s. 54, 308]. Biz bu adın qədim türk mifologiyası ilə bağlı olduğunu adın və sözün Böri-"qurd", al-"uca", at-"ölkə", "yurd" qədim türk sözləri ilə formalaşaraq "Yurdun uca qurdu" və ya "Uca qurd yurdu"mənasını daşıdığını düşünürük (F.R.). "Boro"/"böri", "**al**", "**at**" sözləri qədim sözlüklərimizdə geniş izah olunmuşdur [26, s. 97, 204]. Bütün bunlardan sonra qədim Naxçıvan ərazisində qeydə alınan skiflərlə bağlı məntəqə adlarının etimo-loji mənalarına diqqət etməyi də elmi cəhtdən əhəmiyyətli hesab edirik.

Parağa. Etnooykonimə 1590-cı ildə Naxçıvanın Azadcirən nahiyəsində qeydə alınır (14, s. 178). Adın "para" hissəsi tədqiqatlarda "pul", bütövlükdə ad fars dilində "kənd yeri", "ağaya məxsus torpaq" mənalarında izah edilmişdir [5, s. 178]. Lakin biz adın Por+ak+a şəklində Azərbaycan dilinin qədim por/börü-"qurd", **ak**-"uca" və **-a** "kiçiltmə" şəkilçisi kimi sözlərdən formalaşdığını düşünürük. Bu halda leksik vahidlərin etimoloji mənası adı "Uca qurd" kimi açıqlayır və -a şəkilçisi məna dəyərini itirir. Lakin biz prototürklərdə **uk** sözünü "oğul" mənası ifadə etdiyini də görürük [20, s. 58]. Bu halda "Parağa" məntəqə adı "Uca qur oğlu", mənasında izah olunur.

Pərnaqut. Qədim dilimizin leksik vahidlərindən formalaşan bu məntəqə adı 1590-cı ildə Naxçıvanın Sisyan nahiyəsində Pərnaqut [14, s. 183], 1728-ci ildə isə yenə həmin nahiyədə Pirnağut yazılışında qeydə alınır [31, s. 33]. Ad türk dillərinə məxsus o≈ə səs əvəzlənməsi ilə tayfa adı və na-"verdi, bəxş etdi", qut-"qüvvə, güc" fel və sifəti, eləcə də **kut** yazılışında "var-dövlət, uğur" mənaları ilə [27, s. 60] "Qüvvətli qurd verən" yurd mənasında izah olunur.

Pur. 1590-cı ilə aid sənədlərdə Naxçıvan qəzasının Bazarçayı nahiyəsində qeydə alınan [14, s. 167] bu məntəqə adı u≈a səs əvəzlənməsi ilə birbaşa Paralat tayfa adının ilk "par" "qurd" tərkibi ilə yaranmışdır. Etnooykonimin fars dilindəki "pur"-"oğul" sözü ilə [13, s. 502] heç bir bağlılığı yoxdur (F.R.).

Por. Bu ad da Paralat etnosu adından yaranmış addır və 1728-ci ildə Naxçıvan ərazisi, İrəvan qəzasının Dərələyəz nahiyəsində göstərilir [14, s. 60].

Parpi. Maraqlı semantik quruluşu olan bu ada Naxçıvan ərazisi daxilində İrəvanın Karbi nahiyəsində 1590-cı ilə aid sənədlərdə təsadüf edirik [14, s. 163]. Etnos adına qoşulan pi-"bəy" sözü adı "Par bəyi, Bəy qurd" mənasında izah etməklə skif paralatların türk-Azərbaycan tayfası olduğunu sübut edir və türk tayfaları Lulu+bi, Su+bi, Kas+pi, Sil+bi, skiflərdə Tras+pi, Arimas+pi Dokuz oğuzlarda Ki+pi [18, s. 17] tayfa adlarında təkrarlanır.

Baratlı. 1590-cı ilə aid sənədlərdə Naxçıvanın Abnik nahiyəsində bir kənd, bir əhalisi olmayan məzrə kimi 2 məntəqə olaraq sənədlərə düşmüşdür [14, s. 177]. Məntəqə adı tayfa adı və at-"yer, məkan" sözləri ilə [37, s. 284] "Par yurdu, məkanı" mənasında izah olunur. Ada -lı şəkilçisi sonradan əlavə olunub.

Boralan. Naxçıvanın Aralıq nahiyəsində 1590-cı ilə aid arxiv sənədlərində iki kənd olaraq (digəri Boralanbulaqbaşı başqa adı Xeyrəddin) göstərilən bu adlar [14, s. 178], tayfa adı və al-"uca" [33, s. 349], -an mənsubluq şəkilçi ilə "Uca borlara-qurdlara məxsus" yurd mənasında açıqlanır.

Pari. Ada 1728-ci ildə Naxçıvanın Karni nahiyəsində rast gəlirik. Sonralar Naxçıvan qəzasının Vedi nahiyəsində Piri-Qayıb kimi qeydə alınan bu ad [14, s. 49, 50] tayfa adı və -i irdi-"tikmək, qurmaq" feli ilə "Par tikən" mənasındadır.

Barat. Ad Naxçıvan qəzasının Aralıq nahiyəsində 1590-cı ilə aid arxiv sənədlərində göstərilir [14, s. 178]. Məntəqə adı Baratlı adı ilə eyni mənaya, yəni, "Par yurdu, məkanı" mənasına malikdir.

Böyük Meralar. Naxçıvan qəzasının Vedi nahiyəsində 1728-ci ilə aid arxiv sənədlərində qarança və Qarança Şətili kəndləri arasında göstərilmişdir [14, s. 51]. Ad "böyük" coğrafi ad göstəricisi ilə birbaşa Qurd adından yaranmış, -lar cəmlik şəkilçisi ada sonradan əlavə edilmişdir.

Nəticə olaraq deyə bilərik ki, adlardakı **uk**-"oğul", **ka**-"şöhrətli", **ak**-"uca", "yüksək", i/irdi-"tikmək, qurmaq" feli, **qut**-"qüvvə", **kut** yazılışında -"var-dövlət, uğur", **na** -"verdi" və "mənim", **böri**- "qurd", **pi**-"bəy", **at**-"yer,

məkan, **böri**-“qurd”, kimi əski türk dili sözləri **Par** sözünün bir tayfa adı olduğunu bir daha təsdiq edir.

Bu morfemlər m.ö. V-I minilliklərdə bütün prototürklərin, eləcə də Manna, Midiya, Atropatena dövlətlərinin çar, şəhər və s. adlarında təkrarlanır. Oykonomlərdə bu əski sözlərin mövcudluğu Naxçıvan və Mesopotamiya mədəniyyəti, etnogenetik əlaqələrinin adlardakı izləri olmaqla paralatların m.ö. II minillikdən Naxçıvan ərazisində məskun olduqlarını bir daha sübut edir.

ƏDƏBİYYAT

1. Абаев В.И. Скифо-европейские изоглоссы. Москва: Наука, 1965, 168 s.
2. Агбунов М.В. Путешествие в загадочную Скифию. Москва: Наука, 1989, 210 с.
3. Артамонов М.И. Киммерийцы и скифы. Ленинград: Ленинградский университет, 1974, 156 s.
4. Артамонов М.И. Вопросы истории скифов в советской науке // Вестник древней истории, Москва: Наука, 1947, № 3, с. 68-82.
5. Atakişi C.K. Sümerce Kesin Olarak Türk Dilidir. İstanbul: MOR, 2001, 151 s.
6. Azərbaycan tarixi. I c., Bakı: Elm, 1998, 476 s.
7. Babayev A.M. Dilçiliyə giriş. Bakı: Maarif, 1992, 504 s.
8. Bağırov A.N. Naxçıvan oykonimləri. Bakı: Nurlan, 2008, 333 s.
9. Библия. Ветхий завет. Москва: Российское Библейское Общество, 1994, 303 с., XXXVI с.
10. Джикия С.Х. Н.Я.Марр и турецкие языки / Язык и мышление. Москва-Ленинград: АН СССР, 1937, с. 243-253, 343 с.
11. Доватур А.М., Каллистов Д.П., Шишова И.А. Народы нашей страны в “Истории” Геродота. Москва: Наука, 1982, 455 с.
12. Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. Москва: Наука, 1956, 485 s.
13. Ərəb və fars sözləri lüğəti. Bakı: Yazıçı, 1985, 1026 s.
14. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.
15. История Узбекской ССР (с древнейших вр. до наших дней). Ташкент: Фан, 1974, 583 с.
16. Həsənov Z. Çar skiflər. Bakı: Əbilov, Zeynalov və oğulları, 2005, 480 s.
17. Филин Ф.П. Н.Я. Марр и изучение русского языка / Язык и мышление. Москва-Ленинград: АН СССР, 1937, № VIII, с. 1-19, 343 с.
18. Füzuli Bayat. Oğuz epik ənənəsi və “Oğuz Kağan” dastanı. Bakı: Sabah, 1993, 194 s.
19. Граков Б.Н. Скифы. Москва: Изд-во МГУ, 1971, 202 с.
20. Qeybullayev Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 278 s.
21. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Т. I, Баку: Элм, 1991, 548 с.

22. Грантовский Э.А. Ранняя история иранских племен Передней Азии. Москва: Восточная литература, 2007, 510 с.
23. Геродот. История / Пер. и примеч. Г.А.Стратановского. Ленинград: Наука, 1972, 599 с.
24. Колобова К.М., Глускина Л.М. Очерки по истории древней Греции. Ленинград: Учпедгиз, 1958, 348 с.
25. Корнелий Тацит. Анналы. Книга 2: Историки античности, Т. II, Москва: Правда, 1989, 640 с.
26. Kaşğari M. Divanü lüğat-it-türk. II c., Ankara: Türk Tarih Kurumu Basımevi, 1985, 366 s.
27. Kaşğari M. Divanü lüğat-it-türk. III c., Ankara: Türk Tarih Kurumu Basımevi, 1985, 452 s.
28. Марр Н.Я. Расселение языков и народов и вопрос о прародине турецких языков // Под знаменем марксизма, Москва-Ленинград: Изд. ГАИМК, 1927, № 6, с. 18-60.
29. Махортых С.В. Скифы на Северном Кавказе. Москва: Наукова думка, 1991, 136 с.
30. Мещанинов И.И. Загадочные знаки Причерноморья. Ленинград: Соцэкгиз-ГАИМК, 1933, 88 с.
31. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı: Sabah, 1997, 336 s.
32. Птолемей К. Руководство по географии / Пер. К.С.Апта и В.В.Латышева / Античная география. Москва: Географиздат, 1953, 368 с.
33. Радлов В.В. Опыт словаря тюркских наречий. Т. I, ч. I, Москва: Госиздат, 1893, 508 s.
34. Рашид ад-Дин. Сборник летописей / перевод с персидского Л.А.Хетагурова. Т. 1, кн. 1, Москва-Ленинград: Изд. АН СССР, 1952, 253 с.
35. Рыбаков Б.А. Язычество древних славян. Москва: Наука, 1981, 606 с.
36. Rzayev F.H. Qədim Şərur oykonimlərinin mənşəyi. Bakı: Nurlan, 2006, 242 s.
37. Севортян Э.В. Этимологический словарь тюркских языков. Т. I, Москва: Наука, 1974, 777 с.
38. Симоненко А.В., Лобай Б.И. Сарматы Северо-Западного Причерноморья в I в. н.э. Киев: Наукова думка, 1991, 128 с.
39. Смирнов А.П. Скифы. Москва: Наука, 1966, 522 с.
40. Советская историография Киевской Руси. Ленинград: Наука, 1978, 279 с.
41. Tarih. I c., Ankara: Türk Tarihi Kurumu Basımevi, 1993, 205 s.
42. Всемирная история. Т. I, Москва: Госиздат, 1956, 746 с.
43. Всемирная история. Т. II, Москва: Госиздат, 1956,899 с.
44. Yusifov Y.B. Qədim şərq tarixi. Bakı: Bakı Universiteti, 1993, 496 s.
45. Oğuz Y., Tuncay B. Türkün gizli tarixi. Bakı: Apostrof, 2009, 496 s.

Фирудин Рзаев

ТЮРКИ ПАРАЛАТЫ В ИСТОРИИ ЭТНОГЕНЕЗА НАХЧЫВАНЦЕВ

Статья посвящена участию в этногенезе Нахчывана древних скифских тюркских племен Паралат. Автор статьи, исследуя путь исторического развития этих племен, по многочисленным данным относит дату их появлении на территории Нахчывана к IV тысячелетию до н.э.

Тема, связанная с племенами Пар, до сих пор не была исследована учеными. Автор статьи первый раз коснулся этой проблемы и выявил, что слово «Пар» связано с тюркскими элементами – это название одного древне-тюркского племени.

Лексико-семантические единицы, связанные с компонентом Пар/пур, подтверждают, что это название одного древнетюркского племени. Также выявлены интересные научные результаты, которые тесно связаны с общетюркской историей и с распространением племени Пар/Пара.

Ключевые слова: *этноойконим, Пор, Паралат, Парпи, Парага, Пур, Парнакут.*

Firudin Rzayev

PARALAT TURKIS IN THE ETHNOGENY OF NAKHCHIVAN PEOPLE

The paper deals with the ancient Paralat tribes which have taken part in the Nakhchivan ethnogeny. The author of this paper has studied the way of historical development of these tribes, according to many different facts he put the date of their appearance in the Nakhchivan territory at the IV millennium BC.

Ancient prototurk Par tribes are investigated for the first time in the paper. The author has investigated the words forming by Par-Pur component on the basis of ancient source and proved that the word “Par” is the name of one ancient Turkic tribe.

The lexical-semantic units related to the component of Par/pur confirm that it is the name of one ancient Turkic tribe. As a result of these investigations the author has got more new scientific facts.

Key words: *etnooykonim, Por, Paralat, Parpi, Paraqa, Pur, Parnakut.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

QURBAN QURBANLI
Naxçıvan Dövlət Universiteti
E-mail: qurbanliqurban@gmail.com

ELEKTRON ENSİKLOPEDİYALAR

Məqalədə elektron məkanda geniş yayılmış və istifadə olunan elektron ensiklopediyalardan danışılır. Müxtəlif dünya dillərində yaradılmış məşhur virtual ensiklopediyaların qısa xarakteristikaları verilir, onların əhəmiyyətindən bəhs edilir. Hazırda elektron məkanda mövcud olan azərbaycandilli ensiklopediyalar barəsində məlumat verilir, bu sahədəki vəziyyət dəyərləndirilir.

Açar sözlər: *internet, multimediya, elektron ensiklopediyalar, vikipediya, açıq ensiklopediyalar, qapalı ensiklopediyalar, ümumi ensiklopediyalar, xüsusi ensiklopediyalar, azərbaycandilli ensiklopediyalar.*

Elektron məkanda elektron ensiklopediyalar geniş yayılmış və istifadə olunmaqdadır. Etiraf etmək lazımdır ki, onlar elektron tərcümə lüğətlərindən heç də az istifadə olunmur. Hətta bəzi elektron ensiklopediyalar elektron tərcümə lüğətlərindən də populyardır.

Geniş populyarlıq qazanmış ensiklopediyalara ingilisdilli "Encarta", "Britannica", "Amerikana", "Encyclopedia Smithsonian", "AUTOPEDIA", Rusiyada rus dilində hazırlanmış "Yandex" ensiklopediya resurslarını göstərmək olar. Bu şəbəkədə "Böyük Sovet Ensiklopediyası", "Kiçik Sovet Ensiklopediyası", 11 cildlik "Ədəbiyyat ensiklopediyası", "Rus sinonimlər lüğəti", "Vətən tarixi", V.Dalın "İzahlı lüğəti" və s. populyar nəşrlər təmsil olunmuşlar. Xüsusü olaraq bu şəbəkə üçün hazırlanmış "Dic.academic.ru" saytı vasitəsi ilə axtarılan sözlər barədə bütün şəbəkədə təmsil olunan mövcud ensiklopediyalardan eyni zamanda geniş və hərtərəfli məlumat əldə etmək olar.

Daha başqa bir şəbəkədə – «Россия Он-лайн» – «Кругосвет» elektron resursunda elm və texnikanın müxtəlif sahələrinə – dilçilik, psixologiya, sosiologiya, iqtisadiyyat, tarix, coğrafiya, etnoqrafiya, arxeologiyaya aid ensiklopedik məlumat yerləşdirilmişdir.

Şimal qonşumuzun elektron ensiklopediya sahəsindəki işləri bununla yekunlaşmır. "Кирилл и Мефодий" saytında "Megabook" elektron resurslarda 10 onlayn lüğət bazasında 100000 məqalə, 30000 illüstrasiya yerləşdirilmiş,

xüsusi sahələri əhatə edən kiçik həcmli ensiklopediyalar – “Musiqi ensiklopediyası”, “İncəsənət terminləri lüğəti”, “Orta əsrlər fəlsəfə kitabxanası”, “Latınca-rusca fəlsəfə terminləri lüğəti”, “Qədim Roma tarixi” kimi nəşrlər, eləcə də “M.V.Lomonosov adına Moskva Dövlət Universiteti Tarix fakültəsinin elektron resurslar kitabxanası” əlavə edilmişdir.

Bu çox diqqəti cəlb edən incə məqamdır. Əslində, elektron ensiklopediyaların yaradılması prosesində ali məktəblər fəal iştirak etməli, hər bir ali məktəb öz profilinə, ixtisas sahələrinə aid ensiklopedik bilikləri toplayıb, sistemləşdirib internetdə yerləşdirmək sahəsində xidmət göstərməlidir. Bizim respublikada da bu sahədə müəyyən işlərin görülməsinə başlanılmışdır, amma bu başqa ölkələrlə müqayisədə çox azdır və məsələyə diqqətin artırılması zamanın tələbidir.

Rusiya Federasiyasında bu sahədə fəaliyyətini məşhur “Mail.ru” elektron poçt serveri də uğurla davam etdirir. Həmin poçt serverində də maraqlı və istifadəçilərin həvəslə yararlandıqları lüğət və ensiklopediyalara rast gəlmək olur: “Российский энциклопедический словарь», «Всемирный биографический энциклопедический словарь», «Всемирная История», «Мифы народов мира», «Народы и религии мира», “Толковый словарь Ушакова», «Толковый словарь В.И.Даля», «Финансовый словарь», «Экономический словарь», «Англо-русский словарь финансовых терминов», «Словарь терминов антикризисного управления», «Исторический словарь», «Этимологический словарь русского языка М.Фасмера» və sairə.

Dünyanın ən çox yayılmış dilləri sayılan ingilis, rus, alman, fransız, ispan, italyan, eləcə də çin, ərəb və digər dillərin materiallarında da bir çox elektron ensiklopediyalar hazırlanmış və internetdə yerləşdirilmişdir. Bu haqda internetdə axtarış sistemləri vasitəsilə lazımi məlumat əldə etmək mümkündür.

Elektron lüğətlər şəbəkəsində elektron ensiklopediyalar vacib komponentlərdən hesab olunur. Bir çox axtarış sistemlərində “sorğu nəşrləri” kateqoriyasında ensiklopediyalara və elektron ensiklopediya lüğətlərinə istinadlar tez-tez müşahidə olunur. İnternetdə ümumi (məsələn, Encyclopedia Americana Online, Encarta), eləcə də xüsusi ensiklopediyalar (məsələn, The Encyclopedia Mythica, The Encyclopedia of Canadian, Thistle on the WWW, standart Encyclopedia of Polyglossum, Class Encyclopedia) geniş təmsil olunmuşlar.

Nüfuzlu Britaniya ensiklopediyası, Americana, Encarta, Encyclopedia, FREE Internet Encyclopedia ilə yanaşı minlərlə az tanınan, lakin faydalı və əhəmiyyətli ensiklopediyalar da internetdə yerləşdirilmişdir. Elm və texnikaya aid belə ensiklopediyalara misal olaraq Creation-Evolution Encyclopedia, Encyclopedia Smithsonian, AUTOPEDIA, Natural Remedies Encyclopedia, Encyclopedia Metallica və s. göstərmək olar. Bu ensiklopediyaların bir çoxunun əsasında kağız ensiklopediyalar durur. Məsələn, “Кирилл и Мефодий» multimediya elektron ensiklopediyasının əsasında “Böyük ensiklopediya lüğəti” durur. Bu ensiklopediya sistemində 89500-dən artıq ensiklopediya və sorğu lüğəti,

40000-dən çox multimediya illüstrasiyası, 860 audiofraqment, 570 videofraqment, 1600 ilkin mənbə sitatı, dünyanın interaktiv xəritəsindən 520 xəritə, 140000 anlayışın izahı, 470 bədii ədəbiyyat və humanitar elmlərə aid əsərlər, 1000 biblioqrafik təsvir, 12 interaktiv fotopanoram, 900-dən artıq illüstrasiyanı əhatə edən 150 fotoalbom yerləşdirilmişdir.

"Encarta" elektron multimedya ensiklopediyası 68 mindən artıq məqalədən ibarətdir. Burada müxtəlif statistik məlumatlar, çoxlu sayda təsvirlər, videofraqmentlər, tarixi xəritələr, dünyanın interaktiv xəritəsi əks olunmuşdur.

Ən məşhur ensiklopediyalardan hesab olunan «Кругосвет» universal rus elektron ensiklopediyası 2000-ci ildən fəaliyyət göstərir. 1200-dən artıq məqalə, 600 bioqrafiya, 11500-ə yaxın illüstrasiya və yüzlərlə tarixi sənədi əhatə edir.

Akademik R.Əliquliyev və İ. Ələkbərovanın 2010-ci ildə çapdan çıxmış "Vikipediya. Virtual ensiklopediya" kitabında ən populyar elektron ensiklopediyalardan biri olan "Vikipedia" haqqında ilk dəfə Azərbaycan oxucusuna hərtərəfli və dolğun məlumat verilir.

"Viki" konsepsiyası ilk dəfə 25 mart 1995-ci ildə ABŞ-ın Oreqona ştatında yaşayan Vord Kenninqem tərəfindən işlənmiş, veb səhifələrin idarəsi, birbaşa veb-brauzerdən redaktə olunması üçün nəzərdə tutulmuşdur. "Viki" havay dilində "daha tez" deməkdir. "Viki" texnologiyası dedikdə "sürətli informasiya texnologiyası" başa düşülür. Bəzən "Viki" texnologiyasını "canlı sənədlər" texnologiyası da adlandırırlar [16, s. 13-14]. Çoxdilli, açıq sistem olan Vikipediya könüllü həvəskar ensiklopediyaçılar tərəfindən hazırlanmışdır. 2001-ci il yanvarın 15-dən fəaliyyət göstərən bu layihənin koordinatoru "Wikimedia Foundation Inc" Amerika fondudur. Yaradıcıları Ohayo Universitetinin fəlsəfə doktoru Larri Senqer və amerikalı sahibkar Cimmi Uelsdir" [1, s. 19].

Vikipediyanın başqa virtual ensiklopediyalardan üstünlüyü orasındadır ki, istifadəçilər orada öz məqalələrini yerləşdirə və ya başqa istifadəçilərin məqalələrinə də istənilən vaxt öz düzəlişlərini edə bilərlər. Amma internet istifadəçiləri – müəlliflər öz məqalələrini ABŞ-ın Florida ştatında yerləşən serverlə müəllif hüququ qanununa əməl etməklə razılaşdırmalıdırlar.

"Vikipediya" haqqında kitabın müəlliflərinin qeyd etdikləri kimi, bu unikal açıq elektron ensiklopediyanın üstünlüyü ondadır ki, məqalə müəllifi eyni zamanda redaktor və korrektor funksiyasını yerinə yetirir, o, öz məqaləsini təqdim edir, yaxud başqalarının məqalələrində düzəliş edir və bunları bütün istifadəçilər müşahidə etmək imkanına malik olurlar. Vikipediya məqalələri neytral olmalı, tədqiqatın orijinal versiyası olmamalıdır. Amma nəzərdə tutmaq lazımdır ki, Vikipediya elmi məcmuə deyil, yardımçı məlumat mənbəyidir. Məqalələrin ədəbi dilin elmi üslubunda yazılması tövsiyə olunur, şəxsi imza və qeydlərə yol verilmir.

Vikipediyanın ən mühüm şərtlərindən biri də odur ki, bu elektron ensiklopediya neytral mövqedən çıxış edir. Məqalə müəllifi məqalə ilə bağlı bütün mübahisəli məsələləri əks etdirməli heç bir fikrə öz şəxsi münasibətini bildir-

məməlidir. Məqalə barədə hökmü hər kəs öz elmi səviyyəsinə, məntiqi mülahizə yürütmək qabiliyyətinə görə müstəqil olaraq bəyan edir.

Vikipediya yeganə elektron ensiklopediyadır ki, hamı üçün açıqdır və hər kəs istənilən vaxt öz düzəlişini, əlavəsini etməkdə sərbəstdir.

Müəlliflərin qeyd etdiyi kimi, dünyanın ingilisdilli ən böyük "Vikipediya"sında 2 milyondan çox məqalə və 800 mindən artıq illüstrasiya vardır. Hər gün Vikipediyanın ingilis versiyasına (en.wikipedia.org) 300 min adam müraciət edir. Vikipediyanın alman versiyasında 188 min məqalə var. Üçüncü yerdə gedən yapon Vikipediyasında 94 min məqalə barədə məlumat verirlər. Vikipediyanın müxtəlif dilləri əhatə edən versiyalarında 250 mindən çox məqalə yerləşdirilmişdir.

Vikipediyanın ən mühüm cəhəti onun həmişə təkmilləşməkdə olması, inkişafda olmasıdır. O, günbəgün təkmilləşən, inkişaf edən bir sistemdir.

Vikipediya ensiklopediyası yalnız elektron variantda mövcuddur. Çoxlu hipermətn istinadları şəbəkəsi istifadəçilərin başqa mənbələrə istinad etmək imkanını genişləndirir.

Sevindirici hadisədir ki, Vikipediyada azərbaycanlı istifadəçilərin sayı getdikcə artmaqdadır. "Vikipediya. Virtual ensiklopediya" kitabında azərbaycanlı istifadəçilərin fəallıq dinamikasının artması ilə bağlı aşağıdakı faktlarla ancaq qürur duymaq olar: "Belə ki, əgər 2007-ci ildə Vikipediyanın Azərbaycan dili bölməsində məqalələrin sayı cəmi 3 min idisə, 2010-cu ildə məqalələrin sayı artıq 35 minə çatmışdır" [1, s. 9].

Hazırda Azərbaycan dilində mövcud olan bütün ensiklopediyaları aşağıdakı qaydada qruplaşdırmaq olar: 1) ümumi ensiklopediyalar; 2) tarixi-etnoqrafik ensiklopediyalar; 3) dil və ədəbiyyat ensiklopediyaları; 4) hüquq ensiklopediyaları 5) biotibbi ensiklopediyalar və sairə. Bunlar içərisində elektron ensiklopediyaların xüsusi çəkisi son dərəcə azlıq təşkil edir.

Öz mahiyyətinə görə, Azərbaycanda ilk elektron ensiklopediya sayılan 1996-cı ildə fundamental şəkildə nəşr edilmiş "Üzeyir Hacıbəyov ensiklopediyası"nın eyniadlı elektron versiyası barəsində bir az ətraflı bəhs edək. Bu layihəni "Musiqi Dünyası" elektron nəşrlər mərkəzi 2004-2005-ci illərdə reallaşdırmışdır. Həmin versiyanın tərkibi aşağıdakılardan ibarətdir: 1) çap nəşrinin mətninin və illüstrativ fotomaterialların heç bir dəyişiklik olmadan təqdimatı; 2) internet nəşr üçün sifariş edilmiş lüğət məqalələri; 3) muzeylərdən, arxivlərin fondlarından, həmçinin, "Musiqi Dünyası"nın şəxsi fono-foto-video arxivindən yığılmış əlavə illüstrasiyalar; 4) audio-video-səsli fayllar formatında multimediya informasiyaları; 5) "Musiqi Dünyası" internet resurslarının əsas ünvanlarının qeydləri və hiperqeydləri çərçivəsində mövzu seçimi. Bundan əlavə burada geniş və rəngarəng spektrli informasiya kütləsi daxilində əlverişli hərəkət üsulları; elektron nəşrin informasiya təbəqələri, eləcə də, bütövlükdə "Musiqi Dünyası"nın internet resursları üzrə xüsusi axtarış sistemi tətbiq edilmişdir. Hazırki multimediya resursu geniş virtual oxucu dairəsi, tələbələr, humanitar elm

sahələrinin mütəxəssisləri – musiqişünaslar, etnoloqlar, şərqşünaslar, publisistlər, kulturoloqlar üçün nəzərdə tutulmuşdur.

Resursun quruluşu, tematik bloklara girişin təşkili və hərəkət prinsipləri, müxtəlif səviyyəli virtual istifadəçinin işini asanlaşdırmaq üçün tətbiq olunan müvafiq dizayn, elektron ensiklopediyadan gələcəkdə distant təhsil üçün dərs vəsaitinə çevirilən informasiyaların aktuallığı bu nəşrin əhəmiyyətini xeyli artırır.

Azərbaycanın müstəqilliyinin bərpasının 20-ci ildönümü ilə əlaqədar 2011-ci ilin sonlarında 7 dildə fəaliyyət göstərən "Azerbaijans.com" saytı – ilk elektron tanıtma ensiklopediyası yaradılmışdır. Ensiklopediyada 68 bölüm var və hər birində Azərbaycana aid məlumatlar, şəkillər, videolar yer almışdır. Saytda bayraq, gerb, himn, konstitusiya, dil, dövlət qurumları, tarix, siyasət, diaspor, elm, səhiyyə, iqtisadiyyat, folklor, anons və s. bölmələr üzrə ölkəmiz haqqında ətraflı məlumatlar əldə etmək mümkündür.

Ümumiyyətlə, araşdırma və müşahidələr göstərir ki, Azərbaycan dilində mövcud olan elektron ensiklopediyaların həm kəmiyyət, həm də keyfiyyət baxımından nəinki dünyada geniş yayılmış dillərdəki (ingilis, rus və s.), hətta daşıyıcıları ana dilimizdən çox olmayan dillərdəki (məsələn, erməni) analoji internet resurslarından geri qalması faktı ilə razılaşmalıyıq. Nəzərə alaq ki, bu gün dünyadakı 50 milyon azərbaycanlıdan ölkə hüdudlarından kənarda ən müxtəlif dil daşıyıcıları əhatəsində 40 milyondan artıq soydaşlarımız yaşayır. Təbiidir ki, onların milli kimliyinin qorunub saxlanılmasında misilsiz rol oynayan, öz xalqının tarixi və mədəni keçmişinə və bu gününə aid etibarlı və bütöv informasiya əldə etmək imkanını verən mənbələr ilk növbədə anadilli virtual ensiklopediyalardır. Bütöv bir xalqın milli mənlik şüurunun möhkəmlənməsində, onun konsolidasiyasında, daha fəal humanitar və işgüzar, habelə icmalararası və şəxsiyyətlərarası əlaqələrin yaranmasında və digər məsələlərdəki əvəzsiz əhəmiyyətini nəzərə alaraq, son zamanlar bu sahədə Azərbaycanda dövlət səviyyəsində görülən işlər, qəbul edilmiş qərarlar və onların reallaşdırılması istiqamətində atılan addımlar belə düşünməyə əsas verir ki, bu geriliyə ən qısa müddətdə son qoyulacaqdır.

ƏDƏBİYYAT

1. Əliquliyev R., Ələkbərova İ. Vikipediya. Virtual ensiklopediya. Bakı: İnformasiya Texnologiyaları, 2012, 184 s.
2. Mahmudov M. Kompüter dilçiliyi. Bakı: Elm və təhsil, 2013, 356 s.
3. Üzeyir Hacıbəyov ensiklopediyası. Bakı: Azərbaycan, 1996, 303 s.
4. www.amerikana.co.za/
5. www.autopedia.net.au/
6. www.azerbaijans.com/
7. www.az.wikibooks.org/wiki/Virtual_ensiklopediyalar

8. www.encarta.com/
9. www.km.ru
10. www.krugosvet.ru/
11. www.mail.ru/
12. www.pantheon.org/
13. www.uzeyirbook.musigi-dunya.az/
14. www.si.edu/encyclopedia
15.www.thecanadianencyclopedia.ca/
16.www.wikipedia.org/
17.www.yandex.com/

Гурбан Гурбанлы

ЭЛЕКТРОННЫЕ ЭНЦИКЛОПЕДИИ

В статье говорится об электронных энциклопедиях, широко распространенных в виртуальном пространстве и имеющих большое количество пользователей. В ней дается краткая характеристика популярных виртуальных энциклопедий, созданных на разных языках, и подчеркивается их значение. Далее представлены сведения о существующих в электронном пространстве энциклопедиях на азербайджанском языке, освещено состояние дел в этой области.

Ключевые слова: *интернет, мультимедиа, электронные энциклопедии, википедия, открытые энциклопедии, закрытые энциклопедии, общие энциклопедии, специальные энциклопедии, азербайджанскоязычные энциклопедии.*

Gurban Gurbanly

ELECTRONIC ENCYCLOPEDIAS

The paper deals with the electronic encyclopedias which are widely spread and used in the virtual space. Short description of famous virtual encyclopedias in different languages of the world is given here and their importance is emphasized. Also information about the encyclopedias in the Azerbaijan language used in the virtual space is presented and current situation in this field is covered.

Key words: *internet, multimedia, electronic encyclopedias, Wikipedia, open encyclopedias, closed encyclopedias, general encyclopedias, special encyclopedias, encyclopedias in the Azerbaijan language.*

(AMEA-nın müxbir üzvü Adil Bağırov tərəfindən təqdim olunmuşdur)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

NURAY ƏLİYEVA
AMEA Naxçıvan Bölməsi
E-mail: naliyeva22@mail.ru

NAXÇIVAN DİALEKTİNDƏ İDİOMLARIN LEKSİK XÜSUSİYYƏTLƏRİ

Məqalədə Azərbaycan dilinin Naxçıvan dialektində işlənən frazeoloji birləşmələr-idiomlar tədqiq olunmuşdur. Göstərilir ki, bu söz birləşmələrində aid olduğu xalqın milli xüsusiyyətləri, məşğuliyyəti, təsərrüfat formaları, regionun əhalisinin adət-ənənələrini özündə əks etdirən zəngin dil materialı qorunub saxlanır. Tədqiqatdan aydın olur ki, bu nümunələr Azərbaycan ədəbi dilinin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayır. Naxçıvan dialektinin frazeologiyası bir sıra özünəməxsus xüsusiyyətlərə malikdir ki, bu xüsusiyyətlər onu Azərbaycan dilinin digər dialekt və şivələrindən, o cümlədən ədəbi dildən fərqləndirir.

Açar sözlər: *dialekt, şivə, söz birləşmələri, frazeologiya, idiomlar.*

Hər bir dilin, xüsusilə də dil tarixinin öyrənilməsində həmin dilin dialekt və şivələrinin nə qədər böyük əhəmiyyət kəsb etdiyi məlumdur. Dialekt və şivələrin leksikasını nəzərdən keçirərkən burada dönə-dönə istifadə edilən və ən qədim yazılı abidələrimizdə təsadüf etdiyimiz bir sıra sözlərin bu gün bir çox türk dillərində fəal, digərlərində dialekt və şivə səviyyəsində, başqa bir qismində isə tamamilə dildən çıxmış vəziyyətdə olduğunu, əsrlərin arxasında ilişib qaldığını görmək olar. Bu leksik vahidlərdə xalqın tarixinin izləri, adət-ənənələri, milli ruhu yaşayır. Cəmiyyətin inkişafı, həyatının, məişətinin dəyişilməsi ilə əlaqədar olaraq bu sözlərin bir qismi dilin lüğət tərkibindən çıxsa da, onun tarixinin canlı şahidi kimi xalqın dilində-dialekt və şivələrdə yaşayır.

Frazeoloji vahidlər uzun zamandan bəri xalq içərisində yaşayıb möhkəmlənən və həmin xalqın milli xüsusiyyətlərini özündə cəmləşdirən zəngin dil materialıdır. Bu dil materialından həm ədəbi dilin yazılı qolunda, həm də şifahi qolunda həmişə geniş şəkildə istifadə edilmişdir.

Dildə mövcud olan sabit söz birləşmələri, əsas etibarilə, qrammatik birləşmələrin əsasında əmələ gəlir. Qrammatik birləşmənin özü və ya onun tərkibində olan sözlər məcazi mənaya keçərək mütəhərrikliyini itirdikdə, sözlər arasında əlaqə və münasibət yaradan vasitələr donuq bir hala gəlir və o, bir məfhumu ifadə edən sabit söz birləşməsinə çevrilir [5, s. 88].

Frazeologiya dilçiliyin gənc elm sahələrindən sayılır. Onun tədqiqi tarixi o qədər də qədimlərə gedib çıxmır. Dildəki sabit söz birləşmələrinin öyrənilməsinin əsası fransız dilçisi Ş.Balli tərəfindən qoyulsa da, onun istər nəzəri, istərsə də praktik istiqamətdə sonrakı inkişafı rus dilçiliyi ilə bağlıdır. Bu da danılmaz faktdır ki, türk dilləri frazeologiyasının tədqiqatçılarının, demək olar ki, hamısı nəzəri cəhətdən rus dilçiliyinə əsaslanmışlar [7, s. 35].

Bir çox dillərdə olduğu kimi Azərbaycan dilçiliyində də sərbəst birləşmələrin-frazeoloji vahidlərin öyrənilməsi sahəsində müəyyən işlər görülmüşdür. Belə ki, bir çox söz sənətkarlarımızın yaratdığı frazeoloji vahidlər haqqında ayrılıqda danışılmış, qrammatika kitablarında frazeoloji birləşmələrin elmi əsasları verilmişdir.

Dialekt və şivələrimizdə işlənən, ədəbi dilimizdən müəyyən dərəcədə fərqli olan frazeoloji vahidlərin öyrənilməsi sahəsində də ilk addımlar atılmışdır, lakin bu sahədə görülməli işlər hələ də çoxdur. Naxçıvan dialekt və şivələrinin də frazeologiyasının öyrənilməsi bu baxımdan maraqlı və lazımlıdır.

Frazeologiya sözü həm dildə olan məcazi məna daşıyan sözlərin məcmusunu, həm də bu qrup sözlərin qrammatik və leksik xüsusiyyətlərindən bəhs edən dilçilik elminin bir sahəsini ifadə edir. S.Cəfərov yazır: frazeologiya az öyrənildiyindən onun əsas tədqiq obyektini təşkil edən söz birləşmələri üçün də vahid konkret termin hələ yaradılmamışdır. Odur ki, bu birləşmələr hələ də frazeoloji vahidlər, frazeoloji birləşmələr, tərkib hissələrinə bölünməyən söz birləşmələri, dəyişməz söz birləşmələri, idiomatik ifadələr, leksik söz birləşmələri, idiomlar, frazemlər və s. kimi çoxlu terminlər vasitəsilə adlandırılır [5, s. 88].

Frazeoloji birləşmələr yüz illər boyu tədricən sərbəst birləşmə modelləri əsasında əmələ gəlir. Bu proses hər bir dildə olduğu kimi, Azərbaycan dilində də davam etməkdədir. Ona görə də bir sıra söz birləşmələri dilimizdə həm həqiqi, həm də məcazi mənada işlənməkdədir. Məsələn: ağız açmaq, quyruq bulamaq, yolunu azmaq və s. kimi birləşmələr həqiqi mənada işlənməklə yanaşı, bir şey xahiş etmək (filankəsə ağız açmaq), yaltaqlanmaq (filankəsin qarşısında quyruq bulamaq), pis yola düşmək (lap yolunu azıb) mənalarında da işlənir. Frazeoloji birləşmələr sərbəst birləşmələrdən yarandığı üçün onların arasında əsaslı forma fərqi olmur. Fərq sərbəst birləşmələrin tərəfləri arasında sintaktik əlaqənin mütəhərrikliyində, canlılığında, frazeoloji birləşmələrdə isə əlaqələrin sabitliyində, donuqluğundadır.

Yazılı ədəbiyyatda frazeologizmlərin qədimliyinə xalqın malik olduğu leksik sərvətin toplandığı yazılı abidələr şahidlik edir. Frazeologizmlər müəyyən ictimai mühitin, bu və ya başqa dövrün məhsulu olub, dilin daşıyıcılarının həyat və məişət şəraitinin dəyişməsi ilə əlaqədar olaraq dəyişir, təkmilləşir, sabitləşir və nəhayət, qəliblərə düşür, yaddaşda möhkəm kök salır. Frazeoloji vahidlərin bu xüsusiyyətləri onların qrammatik birləşmələrdən əsaslı surətdə fərq-

lənməsinə və müasir dildə spesifik xüsusiyyətlərə malik ayrıca bir bəhs təşkil etməsinə imkan yaradır.

Frazeoloji vahidlərə tarixi yanaşma, onları etimoloji cəhətdən araşdırma təkcə frazeoloji vahidlərin mənsub olduğu xalqın tarixini deyil, həm də o xalqın dilinin tarixini öyrənməyə imkan yaradır. Bu da frazeoloji vahidlərin fərdi xarakterini göstərir [7, s. 55].

Ümumxalq dilinin frazeologiyası müxtəlif ictimai-iqtisadi amillərin meydana çıxmasını aydın şəkildə əks etdirir. Frazeoloji vahidlər tərkibcə sabit və obrazlılıq xüsusiyyətlərinə malik olduğundan onlar dildə əsrlər boyu öz mənasını itirmədən yaşaya bilir. Bu vahidlərdə sözlər elə birləşir ki, onları bir-birindən ayırmaq, birini başqası ilə əvəz etmək və ya hər sözü müstəqil mənada düşünmək olmur. Onları başqa dillərə olduğu kimi tərcümə etmək də olmur. Ədəbi dilin lüğət tərkibində olduğu kimi, Azərbaycan dili dialekt və şivələrinin cənub qrupuna daxil olan Naxçıvan dialektinin lüğət tərkibi də yuxarıda qeyd etdiyimiz xüsusiyyətləri özündə cəmləşdirən sabit söz birləşmələri-frazeoloji vahidlərlə zəngindir. Ədəbi dilimizdə frazeologiya dilçiliyimizin bir sahəsi kimi müəyyən qədər öyrənilsə də, dialekt və şivələrimizin frazeologiyasının hələ də ciddi tədqiqata ehtiyacı var. Onu da nəzərə alsaq ki, bu cür şivə xarakterli sabit söz birləşmələri əsasən yaşlı nəslin nitqində qorunub saxlanır, onların toplanıb tədqiq olunması bu gün olduqca əhəmiyyətlidir. Ədəbi dildə, digər dialekt və şivələrimizdə olduğu kimi, Naxçıvan dialektinin də lüğət tərkibi frazeoloji vahidlərlə zəngindir. Frazeoloji vahidlərin aşağıdakı növləri vardır: idiomlar, ibarələr, hikmətli sözlər, atalar sözləri, zərbi-məsəllər.

İdiomlar həqiqi mənalı sözlərin qarşılığı olub, onu məcazi məna ilə bildirən sabit söz birləşmələrinə deyilir [5, s. 100]. Naxçıvan dialektinin leksikasında işlənən idiomları işlənmə dairəsinə görə üç qrupa bölmək olar: 1) Həm şivədə, həm də ədəbi dildə eynilə işlənən idomlar; 2) Ədəbi dildən müəyyən cəhətləri ilə fərqlənən idiomlar; 3) Ancaq şivənin özünə məxsus olan idiomlar.

İdiomlar quruluşu və semantikasına görə mürəkkəb sözlərə çox oxşayır. Lakin idiomların özünəməxsus xüsusiyyətləri vardır. Belə ki, onların ifadə etdiyi məfhum konkret olur. İdiomlar bu və ya digər sözün ekvivalenti olaraq dildə özünü göstərir.

Həm ədəbi dildə, həm də dialektdə eyni mənada işlənən idiomlar əsasən çoxluq təşkil edir. Belə idiomlar aşağıdakı isimlərin və feillərin həqiqi mənada yox, məcazi mənada işlənməsi yolu ilə əmələ gəlir. Daha çox idiom əmələ gətirmək üçün bədən üzvlərinin adını bildirən: ayaq, bel, qol, əl, qaş, göz, üz, ağız, baş, boyun, ürək sözlərinin yol, söz və s. isimlərin məcazi mənada işlənməsi lazımdır. Fellərdən gəlmək, görmək, düşmək, qoymaq və başqaları da məcaziləşərək idiomlar əmələ gətirir. İdiomlar quruluşca da aşağıdakı kimi olur:

Adlıq halda olan ismin fellə birləşməsindən əmələ gələnlər: göz dəymək, göz ağartmaq, dil vermək, üz çevirmək, üz vurmaq, üz tutmaq, əl tutmaq, ayaq açmaq, əl üzmək, baş aparmaq, əl gəzdirmək, ağız açmaq və s. göstərdiyimiz

nümunələr həm ədəbi dildə, həm də Naxçıvan dialektində fəal surətdə işlənir. Məsələn: Xırda uşaxların qoluna taxıllar gözmıncığın ki, onnara göz dəyməsin.

Göz dəymək idiomu Naxçıvan dialektində kinayə ilə də işlənir. Bu zaman həmin ifadə tənbəllik, bir işi vaxtından gec yerinə yetirmək mənasında işlənir: Usda Vəli ki belə işdiyir gərəx' ona üzərrix' salax, yoxsa göz dəyəcəx'.

Göz ağartması vermək idiomu da həm ədəbi dildə, həm də dialektdə hədələmək, qorxutmaq, sirri açmaq üçün işarə vermək, yaxud danışmamaq üçün edilən işarə mənalarında işlənir: İramazan ona elə gözağartması vermiyip ki, bir də onun sözün ağzına ala.

Baş aparmaq idiomu da Naxçıvan dialektində bir neçə mənada işlənir. Bunlardan biri bütün dialekt və şivələrimizdə olduğu kimi uzunçuluq etmək, zəhlə tökmək mənasıdır. Bu birləşmə eyni zamanda özündən razı adamların öz imkanlarından yuxarı danışması mənasında da işlənir: Sara arvad genə baş-beynimizi aparmasa yaxcıdı. Buradan göründüyü kimi baş-beynimizi aparmasa ifadəsi çox danışmaq, uzunçuluq etmək mənasında işlənmişdir.

Həsənin yetimi böyün də yamanca baş aparırdı, ağsaqqallar ağzını boza verdilər getdi. Burada isə baş aparmaq ikinci mənada işlənmişdir.

Birinci tərəfi adlıq halda işlənən isimlərlə məcazi mənada işlənən feillərin birləşməsindən əmələ gələn frazeoloji vahidlərin bir çoxu isə ədəbi dildə müşahidə edilmir. Onlara Naxçıvan dialektində rast gəlirik. Məsələn: adam otarmaq, qulp qoymaq, baş əhməx', baş yeməx', göz yağı yeməx' və s.

Adam otarmax idiomu Naxçıvan dialektində adam aldatmaq, adama düz söz deməmək, işi yubatmaq mənasında işlənir: Tutdum bir gün İbinin yaxasınnan dedim, məni otardığın bəsdi. Adam otarmax sa: hasant gəlməsin. Cavabıvı elə qəytərəllər ki.

Qulp qoymaq idiomu hər şeyə bir əmma qoymaq, işi düzəltməyən, işi əyən mənasında işlənir: İş ki qaldı Fatıya getdi. O, düz işə qulp qoyur, qaldı ki bı məsələ ola. Kazım heş nəyi bəyəmmir, gərəx' hər şeyə bir qulp qoya.

Baş əhməx' ifadəsi aldatmaq, yalan demək, yoldaş etməmək mənalarında işlənir. Bu ifadə eyni zamanda oğurlamaq, başqasından bir şeyi gizlətmək mənasını da ifadə edir. Burda bir maraqlı cəhət də var ki, bu ifadə yalnız ikinci tərəfi ilə də (yəni birinci tərəf "baş" sözü olmadan da) eyni mənaları ifadə edə bilir. Həm də baş sözü mənsubiyyət və hal şəkilçisi də qəbul edərək işlənir (başını əx'dim, başlarını əx'dix'): Bınnarnan yoldaş olmaxdansa, tək olsam yaxcıdı. Bir də baxdın ki, başıvı əx'di getdi, ha gözdə ki, gələcəx'. Dedim, ay Sadıx, bınnan bizə yoldaş olan çıxmaz, başın bitəhər əx' yolumuza davam eliyəx'. Gözüm yaman tüşdü baltıya, dedim, a qağa, sən bının başını söybətə qat, mən bı baltanı əkim. Baltanı göz-gözə vırıb bayağıdı ha əhdim.

Birinci cümlədə baş əx'məx' ifadəsi yoldaş etməmək, ikinci cümlədə aldatmaq, üçüncü cümlədə isə oğurlamaq mənasında işlənmişdir.

Baş yeməx' idiomu oldürmək mənasında, "öz başını yeyəsən" şəklində isə "öləsən" mənasında işlənir. Bu ifadələr, əsasən, yeni dünyaya gələn körpələr

haqqında söylənilir. Naxçıvanın əksər rayonlarında əgər körpə dünyaya gələrkən ata və anası, yaxud yaxın qohumu ölərsə, həmin uşağa baş yeyən uşaq deyərlər. Xalq arasında belə bir adət də var. Əgər uşaq vaxtından əvvəl danışarsa, yeriyərsə, o, hökmən kiminsə başını yeyəcək, ölümünə səbəb olacaq. Tez danışan uşağı kim əvvəl görübsə mütləq "öz başını yeyəsən" deməlidir. Bu zaman guya onun ata və anasına, qohum və tanışlarına bir xətər dəyməz.

Yeni doğulmuş və ya azyaşlı uşaqların çox ağlaması, evin yanına, həyətinə bayquş gəlməsi, inəyin əkiz doğması, itin ulaması, toyuğun banlaması da xalq arasında "baş yeyən" hadisələrdən sayılarmış, hətta indi də bəzi kəndlərdə belə hallara inanan adamlar var: Qara toyuğun bannaması məni varımnan yox eliyib, Allah uşaqlara qıymasın cavandılar. Bı elə olannan baş yiyən oldu, öz başını yesəydi nolardı, atası öldü, məni qoydu bı yetimnərin əlində.

Frazeoloji birləşmələrin bir növü olan idiomların bir qrupu isə yönlük halda olan isimlərin, bir çox feillərin məcaziləşməsi yolu ilə əmələ gəlir. Naxçıvan dialektində işlənən bu cür quruluşlu birləşmələrin də əksər qismi həm ədəbi dildə, həm də dialektdə eyni mənada işlənən ifadələrdir. Belə ifadələrə aşağıdakıları misal göstərmək olar: ələ almaq, ələ salmaq, ələ gətirmək, bəndə düşmək, ələ vermək, ayağa düşmək, ayağa salmaq, gözə girmək, gözə gəlmək, gözə soxmaq, gözə dürtmək, gözə dəymək, gözə kül üfürmək, başa vurmaq, başa çırpmaq, ağıza düşmək, dilə tutmaq, dilə salmaq, üzə düşmək, üzə durmaq, üzə gülmək, üzə tutmaq, üzə dirənmək, üzə çırpmaq, üz-üzə gəlmək, üzə demək, yola düşmək, azara düşmək, sözə gəlmək, nəzərə gəlmək, yola gətirmək, qoltuğa girmək, ayağa yıxılmaq, başa vurmaq və s.

Üzə çəkmək idiomu keçən hadisəni, özü də pis hadisəni xatırlamaq, onu həmin hadisəni edənə yenidən irad tutub, onu xəcalət etmək mənalarında işlənir:

Ay Alış, keçənləri üzə çəx'mə, o könül bulandırmaqdan başqa bir şey dəyil.

Üzə düşmək idiomu hər hansı bir adamın bir hadisəni özü istəmədən etməsi mənasında işlənir. Bu həm yaxşı, həm də pis hadisə ilə bağlı ola bilər: Mehralıdan belə şey görünməmişdi, öz aramızdı, kişi üzə tüşdü, bizə kabap çəx'dirdi. Əlinin qonaxlığında üzə tüşüp təngov yemədim, hələ də yadımnan çıxmıyıp.

Üzə çəkmək idiomunun sinonim variantı olduğu kimi, başa vurmaq, başa çırpmaq, üzə çırpmaq, başa qaxmaq və üzə düşmək idiomlarının da sinonim variantları vardır. Naxçıvanın müxtəlif rayonlarında üzə düşmək ifadəsinin sinonimi olan boynuna yük düşdü, boynuna düşdü idiomları işlənir: Kərimin sənin canıa zırnanın səsi elə sümüyümə tüşmüşdü kin, deməsəydilər təklifsiz, zadsız oynayardım, əmə toybabası məni çağıranda həməndə boynuma yük tüşdü, yox dedim kin, k'utardı.

Başa vurmaq idiomu da aşağıdakı mənalarda işlənir: qurtarmaq, yekunlaşdırmaq, sona çatdırmaq, edilən yaxşılığı etdiyin adama söyləmək, onu özünə

borclu salmaq. Sonuncu mənalarda bu idiom Naxçıvan dialektində başa vurmaq şəklindən daha çox başa qaxmaq, başa çırpmaq formalarında işlənir: Onnan bınnan savayım nə gözdəməx' olar, keçən illərisi mənə əl tutmuşdu onu da el içində başıma qaxdı. Kişi ki elədiyi yaxcılığı dilinə gətdi, onu adamın başına vırdı, onu eləməsə onnan min dəhə yaxcıdı.

İdiomların bir qismi isə çıxışlıq halında olan isimlərin feillərlə əlaqəsindən əmələ gəlir. Belə idiomlarda da məcazilik, həm idiomun əmələ gəlməsində iştirak edən ismin, həm də feilin həqiqi mənadan uzaqlaşması əsas şərtlərdən biridir. Bu quruluşa malik olan idiomlar da Naxçıvan dialektində geniş şəkildə işlənir. Belə idiomların bir çoxu ədəbi dildə olduğu kimi, bir qismi isə ədəbi dildəkindən ancaq fonetik cəhətdən müəyyən fərqə malik, digər bir qismi isə leksik mənasına görə fərqli şəkildə işlənir.

Çıxışlıq halda olan isimlərlə feillərdən əmələ gələn idiomlara aşağıdakıları nümunə göstərmək olar: üzdən keçmək, üzdən salmaq, əti üzdən götürmək, dildən qaçırmaq, dildən düşmək, dildən iti, dildən pərgar, başdan sovdu, başdan saqqat, başdan çıxmaq, başdan olmaq, qulaqdan qut olmaq, başdan eləmək, ağızdan düşmək, ağızdan diri, ağızdan yava, ağızdan söz qaçırmaq, ağızdan söz oğurlamaq, gözdən qoymamaq, gözdən qorunmaq, gözdən qaçmaq, ayaqdan salmaq, əldən-ayaqdan getmək, qoldan tutmaq, əldən düşmək, əldən salmaq, əldən vermək, əldən çıxarmaq, əldən qalmaq, əldən getmək, gözdən salmaq, gözdən düşmək.

Əti üzdən götürmək idiomu, əsasən, yerli şivələrdə işlənir. Bu ifadə götürmək feilinin şəxsə və zaman görə dəyişməsi ilə bağlı olaraq, müəyyən şəxsə və zamana aid ola bilir. Bu birləşmə savaşmaq, sözləşmək mənalarını ifadə edir. Belə ki, bu savaşmada daha aradan pərdə götürülür, barışmağa yer qalmır. Naxçıvanın bəzi kəndlərində bu ifadə əti üzdən kəsmək formasında da işlənir.

Üzdən götürmək idiomu da həm ədəbi dildə, həm də dialekt və şivələrdə işlənir: Gənə su üsdündə arvadınan əti üzdən götürdüx'. A Səlim, bir avara sözdən ötərin adam da qahım-əqrəbaynan əti üzdən kəsərdi sən kəsdin? Xuduru yerəcə onnarınan da əti üzdən götürdüx', ay oğul, indi bir-birinə baxanda adam isdiyir yerə girsin vallah.

Ədəbi dildə az işlənən bu quruluşa malik olan idiomlardan biri də "başdan sovdu" ifadəsidir. Bu ifadə Naxçıvan dialektində başdan eləmək, birtəhər eləmək ifadələrinin sinonimi kimi işlənir. Başdan sovdu ifadəsi hər hansı bir işi tez, həm də keyfiyyətsiz başa çatdırmaq, qurtarmaq mənasında, eyni zamanda aldatmaq, özündən kimisə, nəyisə uzaqlaşdırmaq mənalarını bildirir:

Nainsaf oldular, arxəyin oldux ki, əməlli-başlı bir tavla tikəllər, tay nə biləx' bınnar hər işi başdan savdı görüllər. Əslinə baxsan çoxdannan usda işdiyir, amma nəyə lazım, işə can yandırmağı yoxdu, alayarımçıx, başdansavdı eliyip gedəcəx'. Cavannarı başınnan yaman savışdırdı, yoxsa hənəx'-hənəx' axırı dəyənəx' olardı.

Başdan savdı sabit söz birləşməsini əmələ gətirən ikinci tərəf də maraqlıdır. Belə ki, savışmaq sözü ədəbi dildə sovuşmaq şəklində işlənir. Fonetik cəhətdən fərqlə bərabər sözün leksik mənası da maraqlıdır. Savmaq sözü dəyirmanla, su ilə bağlı işlənir. Suyu savmaq, dəyirmanı savmaq – suyu bağlamaq mənalarını ifadə edir. Həm ədəbi dilin, həm də dialekt və şivələrimizin lüğət tərkibində belə bir idiom da vardır: Suyu savılmış dəyirmana bənzəyir. Bu, əşyası olmayan, kasıb olan ev haqqında deyilir. Sovuşmaq sözünün bir mənası da ötmək, keçməkdir.

Əldən çıxarmaq idiomu həm ədəbi dilimizdə həm də bütün dialekt və şivələrimizdə olduğu kimi, Naxçıvan dialektində də hər hansı bir şeyə nail olmamaq, ya da hər hansı bir işi başa çatdırmaq, qurtarmaq mənalarında işlənir: Yaxcı qazancımız olacaydı, yəqin qismət dəyilmiş, əlimizdən çıxartdılar qoyunnarı.

– Əvi təzəcə əldən çıxarmışam, görüləsi işdərim hələ xeylaxdı.

Qabıqdan çıxmaq ifadəsi əməklə bağlıdır. Çox işləmək, haqsız işləmək mənalarını ifadə edir: İşdiyirdix' axşama qədər, ilan kimin qabıx qoyurdux, soyulup qabıxdan çıxırdıx, ama nə faydası axırda gəlirdix' olurdux haqqı bemuz.

Bu idioma bədii ədəbiyyatda da rast gəlirik. Həm bədii ədəbiyyatda, həm də canlı danışıqda bu söz daha çox ilan sözü ilə birlikdə işlənir.

Ağzından qan qoxusu gəlir ifadəsi davakar, qansız, rəhmsiz mənalarını bildirir: Qoca olmağına baxmayın, indi də onun ağzınnan qan iyi gəlir. Bu ifadə ədəbi dil nümunələrində də var.

Xalq arasında ağzından süd iyi gəlir ifadəsi də vardır ki, bu ifadə əvvəlki birləşmənin antonimi kimi işlənir. Belə ki, ağzından qan qoxusu gəlir ifadəsindəki mənanın-davakar, sərt, dönməz və s. əksinə olaraq ağzından süd iyi gəlir birləşməsi həm yaşca kiçik olan, həm də təbiətcə mülayim şəxslərə aid edilir. Bu ifadələrin fərqi qan və süd sözlərinin həm həqiqi, həm də məcazi mənada ifadə etdikləri fərqlərlə bağlıdır.

Naxçıvan dialektində işlənən bir qisim sərbəst söz birləşmələri – idiomların quruluşu isə belədir. İdiomu əmələ gətirən tərəflərdən birincisi mənsubiyyət şəkilçisi (hər üç şəxsin ayrı-ayrılıqda ifadəçisi olan şəkilçiləri) qəbul edir, ikinci tərəf isə müxtəlif feillərlə ifadə olunur. Bu quruluşlu idiomlara aşağıdakıları nümunə göstərmək olar: dili uzunluq etmək, dili gödək, dili ağzına sığışmamaq, kəlim qaçıb, quşum uçub, quşu qonub, başı bağlı, üzü açıq, başı yekə, başı kəsik, başı bütün, başı boş, başı bədəninə ağırlıq etmək, başı şişmək, başı aşağı, başı pozuq, başı soyuq, başı isti, ağzı bütün, ağzı bərk, ağzı boş, ağzı dadsız, ağzı göyçəklik etmək, ağzı yırtıx, ağzı kəsərri, ağzı söz tutmaq, gözü götürməmək, gözü bağlı, gözü açıq, gözü qıpıq, gözü ağrımaq, gözüm səndən su içmir, gözü yol çəkmək, gözü doymaq, gözü-könlü tox, gözü almaq, gözü göy, gözü dağınıq, gözü ilə yemək, ürəyi dolmaq, ürəyi boşalmaq, ürəyi getmək, ürəyi keçmək, ayağı sürüşkən, ayağı bağlı, ayağı sayalı, ayağı altına gəlməmək, ayağı ağır, ayağı yüngül, qolu bağlı olmaq, əli isti, əli ağır, əli açıq, əli dolu, əli boş,

əli uzun, əli düşmək, əli gicişmək, əli qoynunda qalmaq, əli əyri, əli ağır, sözü ötkün, sözü bütün, burnu yellənmək, kəx'liyi azmaq, burnunu ovmaq, burnu yelli, qara yelliyə çıxmaq, üzü yola, qulağı darı dəlir, qulağı gəlmək, qarnı qurtdu, dili topuq çalmaq, ilan dili çıxarmaq, gözü çıxdıya salmaq və s.

Bu quruluşa malik olan idiomları məqsədimizdən asılı olaraq aşağıdakı kimi qruplaşdırmaq olar: 1) Ədəbi dildə və Naxçıvan qrupu dialekt və şivələrində həm fonetik cəhətdən, həm də leksik mənasına görə eyni olan idiomlar.

2) Ədəbi dillə Naxçıvan dialekti arasında ya fonetik cəhətdən, ya da leksik mənasına görə fərqlənən idiomlar.

3) Ədəbi dildə işlənməyən, ancaq Naxçıvan dialektinə mənsub olan idiomlar.

Birinci qrupa daxil olan idiomların sayı daha çoxdur.

Gözü düşmək idiomu vurulmaq, aşiq olmaq, istəmək mənalarında işlənir: Böyünkü kimin yadımdadı, kişi bir göy ürgə mimmişdi, daldan baxanda elə bilirdin su axır. Siz öləsiz uşaxlar, bı ata gözüm elə tüşdü, qəlbim elə tutdu, dedim, ya gərəx' öləm, ya da atı alam.

Ağzı əyri idiomu küsmək, incimək, razılaşmamaq mənasında işlənir: O tayfanın ağzı bizdən çoxdannan ha, nə bilim neçəmci iliydi əyridi. Əyri də olur olsun da nə deyəx'.

Dili uzunluq etmək, dili gödək, başı kəsik, başı bədəninə ağırlıq etmək, gözü su içməmək, ağzı bütün, ağzı bərk, gözü götürməmək, gözü açıq olmaq əli uzun, əli boş və s. idiomlar birinci qrupa daxildir, yəni dialektdə ədəbi dildən fərqli olmayaraq işlənir.

İkinci qrupa, yəni ədəbi dildən fonetik və ya leksik cəhətdən fərqlənən idiomlara aşağıdakıları misal göstərmək olar: başı yekə (qanmaz), başı isdi (sərxoş), ağzı yırtıx (söz saxlamayan), ağzı kəsərri (sözü keçən), gözü dağınıx (şorgöz), əli girri (varlı), əli kəsik (oğru), qulağı çalmax (eşitmək), dili topux çalmax (dolaşmaq, çaşmaq), qulağı darı dəlir, ağlın nə qırır (sənin fikrin nədir, sən nə deyirsən?), dəyən yeri yaxındır (küsəyəndir), arğacı qəzil (nəsli və ya kökü olmayan), pişik başı bəzəmək (olanı gizlətmək, pisi yaxşı kimi qələmə vermək) və s.

Naxçıvanın əksər kəndlərində işlənən "ağlım nə qırır, ağlım bir şey qırmadı" ifadələri sənin fikrin, sən nə deyirsən? mənalarını bildirir. Hər hansı bir şey, fikir, məsələ haqqında münasibəti ifadə edir. Ədəbi dildə bu mənanı ifadə etmək üçün "ağlın nə kəsir" ifadəsi işlənir. Göründüyü kimi, "qulağı darı dəlmək" ifadəsində olduğu kimi burada da fərq ancaq feildədir.

Düzdü, Alışın qızının tərifini dağın belinə çıxartdız, amma vallahı mə:m ağlım onnan heş nə qırmır, genə özüvüz bilən yaxcıdı.

"Dəyən yeri yaxındır" ifadəsi Naxçıvan dialektində tez küsən adam mənasını ifadə edir. Ədəbi dildə isə bu ifadəyə dəyən yeri yuxadır şəklində eyni mənada rast gəlirik.

Naxçıvan dialektində bir qisim idiomlar da vardır ki, onlar ədəbi dildə işlənmir. Belə idiomların sayı ədəbi dildəkilərə nisbətən azdır. Onlara misal olaraq aşağıdakıları göstərmək olar: qulağı gəlmək (qulağı cingildəmək), burnu yellənmək, təşənəyi qalxmaq (başqasını saymamaq, dava etmək, savaşmaq üçün adam axtarmaq, vur-vurum demək), kəli qaçmaq (istəməmək, bir şeydən əl çəkmək), gözü atmaq (bir adamı görmək istəməmək, zəhləsi getmək), gözü yemək (bir adamı döyəcəyinə, yıxacağına inanmaq, özünə arxayın olmaq), gözü göy (xəsis), ayağı ağır, əli yüngül (gecə anadan olan adam), əli ağır, ayağı yüngül (gündüz, yaxud səhərə yaxın anadan olan adam), gözü səyirməx' və s.

Maraqlı burasıdır ki, Naxçıvan dialektinin özünəməxsus olan hər bir idiomun arxasında ya bir xalq məsəli, ya da bir hadisə dayanır. Bu hadisə isə müəyyən əlamətlə bağlı olur. Məsələn: "qulağım gəlir" idiomu-qulağın cingildəməsi, qulaqda hansısa ani bir prosesin getməsini bildirir. Xalq arasında belə bir inam var ki, qulağı gələn adamın hökmən qonağı gəlməlidir, yaxud da kimsə onun haqqında danışır: Ay Sənəm, sə:rdən dedim qulağım gəlir, qonağımız gələcix', mən dedim, mən eşitdim, gedip bı bardağı da doldurup təzə bulax suyunnan gətirmədin.

Gözü səyirməx' ifadəsi də qonaq gəlməklə bağlı olan hadisədir. Kimin gözü səyirərsə guya mütləq onlara qonaq gəlməlidir. Ola bilər ki, bu qonaq yox, səfərdə olan ev sahiblərindən olsun.

Kəli qaçmaq ifadəsi də Naxçıvan dialektinə aid olan, orada işlənən ifadədir. Zəhləsi getmək, istəməmək, əldən buraxmaq mənalarını ifadə edir. Göründüyü kimi, birləşməni əmələ gətirən hər iki söz mənşəcə Azərbaycan sözləridir. Hər biri müxtəlif mənada işlənir, bir-biri ilə heç bir məna əlaqəsi yoxdur. Lakin hər iki söz məcazi mənada işlənərək sabit söz birləşməsi əmələ gətirmişdir:

– Elə həmən hadisədən sora ordan elə kəlim qaşdı, elə kəlim qaşdi kin, dedim günümə bir onnux qızıl da versələr bırda qalan dəyiləm, elə o çıxış çıxdım ordan.

Gözü göy idiomu da dialektdə çox işlənən ifadədir. Bu ifadə bir neçə mənada işlənir: 1) xəsis; 2) gözü doymayan; 3) həris. Göründüyü kimi, birləşməni əmələ gətirən hər iki söz mənşəcə Azərbaycan sözləridir, müxtəlif mənalıdırlar, bir-bir ilə heç bir məna əlaqəsi yoxdur. Lakin hər iki söz məcazi mənada işlənərək sabit söz birləşməsi əmələ gətirmişdir: Səlbi arvadı tanımıyan olmaz, zalım qızının əlini yarasan darı sızmaz, oqqədə gözü göydü. Əvin tikilsin bı qədər gözü göy olma, nəyivə lazımdı bı qədər mal-dəvlət. Onun kimi gözü göy adam olmazdı, amma diyəsən bı oğlu onun dalına on təpix' artıx vıracax, bı qədər də göy gözdüx' olar?

Naxçıvan dialektində işlənən idiomların bir qismi isə belə bir quruluşa malikdir: mənsubiyyət şəkilçisi qəbul etmiş isimlərin ismin müəyyən hal şəkilçilərini qəbul edərək başqa nitq hissələri ilə – feillə, isimlə və s. birləşməsindən, onların həqiqi mənadan uzaqlaşması vasitəsilə əmələ gəlir. Mənsubiyyət və

təsirlik halın şəkilçisini qəbul etmiş isimlərin iştirakı ilə əmələ gələn idiomlara aşağıdakıları misal göstərmək olar: başını yerə soxmaq, başını dik tutmaq, başını götürüb qaçmaq, başını böyütmək, başını daşa döymək, daş atıb başını tutmaq, başını bələməx', başını girrəməx', başını qaşımağa vaxtı olmamaq, ağzını sürüməx', ağzını iyləməx', ağzını boza verməx', ağzını aramaq, ağzını sınamax, qaşını qayırdığı yerdə vurub gözünü çıxartmax, belini qırmax, belini əyməx', əyağını yığışdırmax, əlini başına yığmax, dilini kəsməx', dilini boynunun dalınnan çıxarmax, dilini işə salmax, dilini özündə saxlamax, bırnını avmax, bırnını əzməx', kəmirsəyini çıxartmax, mısmırığını sallamax, bırnını əyməx', bırnını çəkməx', bırnını tutsan canı çıxar, bırnını soxmax, üzünə daş yamanmax, qulağın doldurmax, qulağın şəkləməx', qulağın sallamax, papağını boş qoymax, qarnını qucaxlamax, ayağını sürüməx' və s.

Bu ifadələrin çoxu ədəbi dildə işləndiyi kimi, Naxçıvan dialektində də aktiv şəkildə işlənir. Lakin az-çox fərqli olanları da vardır ki, bu fərq özünü ancaq fonetik cəhətdən göstərir.

Ağzını boza verməx' ifadəsi də Naxçıvanın əksər bölgələrində aldatmaq, başını əkməx' ifadəsinin sinonimi kimi həqiqəti gizlətmək, yalan demək mənalarında işlənir: İrayonnan ağzınnan süd iyi gələn iki uşax gəlmişdi, ağzını boza verdix' çıxıb getdilər. –Sultan başımızı yaman əx'di, sa:lığ olsun bıynızdı qoçun qısası bıynızsızda qalmaz.

Qulağını doldurmax idiomu öyrətmək mənasını ifadə edir. Bu ifadə ədəbi dildə də eyni mənanı bildirir.

Naxçıvan dialektində quruluşca aşağıdakı kimi idiomlara da rast gəlirik: Həm mənsubiyyət, həm də yönlük hal şəkilçisini qəbul etmiş isimlərin başqa sözlərlə birləşməsindən əmələ gələn idiomlar: başına daş düşməx', başına ağıl qoymax, başına su töx'məx', ağrımaz başına duz bağlamax, ağzına baxmax, ağzına qurud verməx', ağzına qurd düşməx', ağzına su almax, ağzına vırmax, dişinə vırmax, gözünə su verməx', gözünə kül üfürməx', ayağına getməx', ayagına düşməx', ürəyinə dəyməx', ürəyinə girməx', dilinə dil yetirməx', dilinə zəncir vırmax, qulağına girməx' və s.

Mənsubiyyət və yiyəlik hal şəkilçisi qəbul etmiş isimlərin başqa sözlərlə birləşməsindən yarananlar: ağzının suyu axır, ürəyini ələ almax, gözünün quyruğu ilə baxmax, gözünün acısını almax, saqqızını oğurlatmax, əyağının altında olməx', avcının içini iyləməx', barmağını dişdəməx', bırnının ucu göynəməx', bırnının ücü tütür, bırnının ücünə baxmax, bırnının suyun axıtmax, ağzının suyun yığmax, qulağının dalın görməx', qulağının dibinə kimi qızarmax, qarnını sancı ilə doldurmax.

Burada bir qisim idiomlar isə yerlik halda olan isimlərlə işlənir: başda oturmax, başda olmax, gözdə olmax, gözdə qulaxda olmax, əldə etməx', dildə qalmax, üzdə gəzməx' və s.

Bəzi idiomlar isə mənsubiyyət və çıxışlıq hal şəkilçisi qəbul etmiş isimlərlə başqa nitq hissələrinin birləşməsindən əmələ gəlir: əlində saxlamax, ağzında dili pişməx', qarnında otuz iki tülkü balalamaq, gözündə saxlamax və s.

Dialektin lüğət tərkibində elə idiomlar da vardır ki, onlar mənsubiyyət və yerlik hal şəkilçisi qəbul edən isimlə başqa nitq hissələrinin birləşməsindən əmələ gəlir: başından yekə danışmax, ağzından süd iyi gəlmək, ağzınnan qaçırtmax, əyağınnan dartmax, əlinnən gələni yüz qaba çəx', üsdünnən gəlməx', qulağınnan asmax və s.

Bu cür quruluşlu idiomların yerli şivələrdə işlənməsinə aid bir neçə nümunə də verək: ağzına su almaq idiomu danışmamaq, dinməmək, bir işə qarışmamaq mənasında işlənir: Maşallah de:rəm, səndə həfsələ var ha, aləm qarışa bir-birinə sən isə elə bil ağzına su alıpsan, aşsan o sahat tökülləcəx'.

Avcının içini iyləmək idiomu hər şeyi bilmək mənasında işlədilir: Ma: həylə ki, hərbə-zorba gə:rsən, mən avcımın için iyləmişdim ha, sə:n qonağın var, durup gələm, bir uşax qaçıraydın da dalımca, hələ bir ayıbıa kor olmursan danışırsan da?

Sabit söz birləşmələri içərisində idiomlar dilimizin lüğət tərkibinin ən canlı, ən zəngin, ən çox işlənən qismini təşkil edir. İdiomlar ədəbi dilin və dialektlərin lüğət tərkibi ilə elə qaynayıb-qarışmışdır ki, bu gün hər hansı bir mətni, dialekt materialını təhlil edərkən, ilk baxışdan onları seçmək və ayırmaq çətin olur.

Hər hansı bir dilə mükəmməl yiyələnməyin əsas faktoru o dilin frazeologiyasını dərindən bilməkdir. Frazeologiya dildə ən çətin mənimsənilən laydır. Dildəki frazeoloji vahidlər dilin daşıyıcısı olan xalqın tarixi, adət-ənənəsi, psixologiyası və düşüncə tərzinin ifadəçisi olduğundan hər hansı xalqın dilindəki frazeoloji vahidlərin linqvistik araşdırılması, nəticədə, həmin xalqın tarix və etnoqrafiyasının, həyat və yaşayış tərzinin öyrənilməsinə gətirib çıxarır.

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1962, 326 s.
2. Azərbaycan dialektoloji lüğəti. II c., Ankara: TDV Yayın Matbaacılık, 2003, 653 s.
3. Bayramov İ.M. Qərbi Azərbaycan şivələrinin leksikası: Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2011, 440 s.
4. Binnətova G. Azərbaycan dilinin Lerik rayonu şivələri. Bakı: Nurlan, 2007, 176 s.
5. Cəfərov S.Ə. Müasir Azərbaycan dili. II hissə: Leksika, Bakı: Şərq-Qərb, 2007, 192 s.
6. Ələkbərli Ə.Y. Qərbi Azərbaycanın dialektoloji lüğəti. I kitab: İrəvan Çuxuru, Bakı: Ağrıdağ, 2009, 192 s.

7. Mahmudova Q. Türk dillərinin frazeologiyası. II c.: Qıpçaq qrupu türk dillərinin frazeologiyası, Bakı: Nurlan, 2009, 284 s.

Нурай Алиева

ЛЕКСИЧЕСКИЕ ОСОБЕННОСТИ ИДИОМ В НАХЧЫВАНСКОМ ДИАЛЕКТЕ

В статье подробно исследованы фразеологические словосочетания-идиомы, употребляющиеся в нахчыванском диалекте азербайджанского языка. Указывается, что эти словосочетания являются богатым языковым материалом, который объединил в себе национальные особенности народа и отражает род занятий, формы хозяйствования, традиции и обычаи населения региона. Отмечено, что нахчыванский диалект обладает своеобразной фразеологией, которая отличает его от литературного языка и это играет важную роль в обогащении азербайджанского литературного языка.

Ключевые слова: *диалектология, говор, словосочетания, фразеология, идиомы*.

Nuray Aliyeva

LEXICAL FEATURES OF IDIOMS IN NAKHCHIVAN DIALECT

Phraseological units-idioms, regular word combinations in Nakhchivan dialect of the Azerbaijan language are in detail researched in the paper. It is also stated that these combinations are rich language materials constituting the national characteristic features of the nation and reflect the business, economy forms, custom and traditions of the people in the region. It is noted that the dialects of Nakhchivan has got specific phraseology which differs from the literary language and it plays an important role in the process of the literary language enrichment.

Key words: *dialectology, accent, word combinations, phraseology, idioms.*

(AMEA-nın müxbir üzvü Adil Bağırov tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

FOLKLOR VƏ ƏDƏBİYYAT

RAMİZ QASIMOV
AMEA Naxçıvan Bölməsi
E-mail: ramizasef@yahoo.com.tr

BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA MİLLİ BİRLİK VƏ İSTİQLAL MOTİVLƏRİ

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Bəxtiyar Vahabzadənin (1925-2009) əsərləri Azərbaycan türklərinin milli oyanışı, istiqlalı və türk birliyinə əhəmiyyətli töhfələr vermiş, bu üzdən Azərbaycan istiqlal ədəbiyyatının görkəmli nümayəndələrindən biri kimi məşhurlaşmışdır. Bu kimi xidmətlərinə görə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Bəxtiyar Vahabzadəni "İstiqlal" ordeni ilə təltif etmişdir. Böyük şairimizin "Gülüstan" adlı əsəri də məhz Azərbaycanın Güney və Quzey olaraq ikiyə bölünməsinə səbəb olan "Gülüstan" müqaviləsinə həsr olunmuşdur. Onun əsərlərində Azərbaycan türklərinin milli və siyasi taleyi, suverenliyi, birliyi və s. kimi motivlər yer almaqdadır. Şairin "Gülüstan", "İstiqlal" və "Şəhidlər" kimi əsərləri Azərbaycan türk xalqının istiqlal uğrunda mübarizə mövzusuna həsr olunmuşdur. Onun "Azərbaycan oğluyam" əsərində türk-Azərbaycan milliyyətinə mənsubiyyət, "Ana dili" və "Anamın kitabı" kimi əsərlərində milli dil və heysiyyət mövzuları qələmə alınmışdır. Ədibin "Muğam", "Özümüzü kəsən qılınc", "Dar ağacı" kimi əsərlərində də Azərbaycan türklərinin milli dəyərləri, milli müstəqilliyi, istiqlalı və başqa motivlər əhəmiyyətli dərəcədə yer alır.

Açar sözlər: *Bəxtiyar Vahabzadə, milli birlik, milli düşüncə, istiqlal motivləri.*

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi olan Bəxtiyar Vahabzadə (1925-2009) əsərlərində Azərbaycan xalqının milli oyanışı, istiqlalı və birliyinə əhəmiyyətli töhfələr vermiş, bu üzdən Azərbaycan istiqlal ədəbiyyatının görkəmli nümayəndələrindən biri kimi məşhurlaşmışdır. Bu xidmətlərinə görə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Bəxtiyar Vahabzadəni "İstiqlal" ordeni ilə təltif etmişdir.

Bəxtiyar Vahabzadənin bir şair və vətəndaş olaraq qayəsi öz vətəni və milləti üçün əhəmiyyətli xidmətlər göstərməklə xarakterizə oluna bilər. Bu baxımdan tamamən doğru deyilmişdir ki, "Bəxtiyar Vahabzadənin poeziyasında Azərbaycanın bütövlüyü və istiqlaliyyəti mərkəzi yer tutur" [5]. Çox vaxt Azərbaycan və türk dünyası ədəbiyyatı üçün bu görkəmli şairi "Azadlıq aşiqi, Vətən

aşiqi" [10, s. 171], – deyə xarakterizə edirlər. Zəngin bir yaradıcılığa malik olan bu şair əsərlərində həmişə Azərbaycan xalqının istiqlalı ilə bağlı mövzuları qələmə almış, türk milli birliyi adına şeirlər yazmışdır. Azərbaycanın milli və ərazi birliyi mövzusunu qələmə alan "Gülüstan" əsəri şairin ən dəyərli və oxunaqlı əsərlərindən biri olaraq Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olmuşdur. Poema Azərbaycanın Güney və Quzey olaraq ikiyə bölünməsinə səbəb olan "Gülüstan" müqaviləsinə həsr olunmuş, milli istiqlal mücadiləsi və oyanış vaxtlarında ən çox oxunan əsərlərdən biri olmuşdur. Bu üzdən haqlı deyilib ki, ""Gülüstan" bir xalqın tarixi faciəsinin ibrət dərsidir" [10, s. 170]. Bu da maraq doğurur ki, adıgedən "Gülüstan" əsəri Azərbaycan xalqının milli mücadilə tarixinin görkəmli nümayəndələrindən olan Səttarxan və Şeyx Məhəmməd Xiyabaniyə həsr edilmişdir.

İpək yaylığıyla o, asta-asta
Silib eynəyini gözünə taxdı.
Əyilib yavaşca masanın üstə
Bir möhürə baxdı, bir qola baxdı.
Kağıza həvəslə o da qol atdı,
Dodağı altından gülümsəyərək.
Bir qələm əsrlik hicran yaratdı
Bir xalqı yarıya böldü qılınctək.
Öz sivri ucuyla bu lələk qələm
Dəldi sinəsini Azərbaycanın.
Başını qaldırdı, ancaq dəmbədəm
Kəsdilər səsini Azərbaycanın.
O güldü kağıza qol çəkən zaman,
Qıydı ürəklərin hicran səsinə.
O güldü haqq üçün daim çarpışan
Bir xalqın tarixi faciəsinə [9, s. 76].

Əsərin girişindən olan bu parçada şair bir müqavilə ilə Azərbaycan kimi neçə əsrlik bir dövlətin, xalqın və torpaqların – Vətənin necə paçalandığını dərin bir kədərlə qələmə almışdır. Burdakı "Bir qələm əsrlik hicran yaratdı" misrası da məhz zamanının böyük türk dövlətlərindən biri olan Azərbaycanın necə iki hissəyə parçalandığını anladır. "Başını qaldırdı, ancaq dəmbədəm Kəsdilər səsini Azərbaycanın" [9, s. 76] misraları zaman-zaman Azərbaycan xalqının birlik və istiqlaliyyət uğrunda apardığı milli mücadilədən bəhs edir. Neçə dəfə Cənubi Azərbaycan deyə bəhs olunan Azərbaycanın cənub hissəsində Səttarxan, Şeyx Məhəmməd Xiyabani, Seyid Cəfər Pişəvəri kimi görkəmli mücahidlərin liderliyi ilə xalq hərəkatı baş qaldırmış, vəhşiliklə istilaçılar tərəfindən yatırılmış, minlərcə Azərbaycan oğul və qızları qanlarına qəltan olunmuş, Azərbaycan naminə şəhid olmuşlar. Böyük şairimiz də məhz bir misra daxilində bu böyük tarixi xatırlatmağa çalışmış, kiçik bir misra daxilində

Azərbaycanın böyük bir mücadilə tarixinə baş vurmağı, bir xatırlatma etməyi məqsəd bilmişdir.

Onun əsərlərində Azərbaycan türklərinin milli və siyasi (Güney və Quzey Azərbaycan) problemləri, habelə Azərbaycan türklərinin milli-siyasi müstəqilliyi, türk dünyasının birliyi, qardaşlığı və s. kimi əhəmiyyətli mövzular və motivlər yer almaqdadır. Mənsub olduğu xalqının istiqlaliyyətini düşünən şairin "Gülüstan", "İstiqlal" və "Şəhidlər" kimi əsərləri Azərbaycan xalqının istiqlal uğrunda mübarizə mövzusunu qələmə alır, habelə "Dar ağacı", "Özümüzü kəsən qılınc", "Fəryad", "Atamın kitabı" kimi digər əsərlərində xalqın istiqlalına maneə olan problemlər, daxili və xarici düşmənlərin mənfur əməlləri əks etdirilmişdir. Bu da maraq doğurur ki, şairin özü "İstiqlal" əsərini böyük Azərbaycanın parçalanma tarixini anladan "Gülüstan" əsərinin davamı olduğunu qeyd etmişdir. Çünki XX əsrin sonunda Sovet Rusiyasının çökməsi ilə əlaqədar Azərbaycanda xalq hərəkatı baş qaldırır və xalq istiqlaliyyət uğrunda savaş açaraq öz müstəqilliyini qazanır, suveren Azərbaycan dövləti yenidən bərpa edilir. Bu üzdən şair:

"Gülüstan" yarandı düz qırx il əvvəl
Zərurət görmədim təsadüf qədər.
Məqsədə yönəlir bu başsız axın.
Məndən rica etdi bir vətənsevər
Yazım davamını mən "Gülüstan"ın.
Yazmışdım mən onu düz qırx il qabaq.
O vaxtdan bu yana çox sular axdı
Arazın suyunda enib qalxaraq
Ürəkdə bəslənən arzular axdı [9, s. 82], –

deyə illərin döndüyü, xalqın milli birliklə apardığı istiqlaliyyət mücadiləsinin nəticələrini qəsd edərək sonrakı zamanlarda Azərbaycanla İran arasında yaranan əlaqələrin verdiyi imkanlar daxilində iki qardaş – Güney və Quzey Azərbaycan arasındakı həsrətin qismən keçməsi kimi mövzuları əks etdirir. Şair:

"Şəhidlər" nəticə, "Gülüstan" təməl.
Azadlıq verilməz, bilək bir kərə
Azadlıq alınar, budur doğru yol [9, s. 88], –

deyə 1988-ci ildən başlanan istiqlal mücadiləsi, Azərbaycanın qazandığı suverenlik və milli birlikdən söz açır, 1990-cı ildə Azərbaycan xalqına qarşı amansızlıqla törədilən 20 Yanvar qətliamına həsr etdiyi "Şəhidlər" əsərinə işarə edir. Beləliklə, "Gülüstan" əsərində şairin qaldırdığı ayrılıq fəryadı və parçalanma dərdi "İstiqlal" əsərində istiqlaliyyətin alınması coşqusu ilə əvəzlənir, Azərbaycan xalqının milli müstəqilliyi və istiqlaliyyəti mövzusunda "Şəhidlər" əsərinin əhəmiyyəti qabarıq şəkildə görünür. Əsərdəki:

İnsan insan olur öz hünəriylə,
Millət, millət olur xeyri, şəriylə.
Torpağın bağrına cəsədləriylə,

Azadlıq tumunu əkdi şəhidlər [9, s. 315] –

misraları ilə şair hünər və qəhrəmanlığın bir millətin və onun vətəndaşının müstəqillik və səadətinin təməlində dayandığını ifadə edir. Yaşından, cinsindən asılı olmayaraq bütün azərbaycanlıların mücadiləyə həmrəy olmaları əsərin mərkəzində dayanır və şair xalqın istiqlaliyyət coşqusunu göstərməklə bərabər uşaqdan tutmuş böyüyə qədər hər kəsin istiqlaliyyət uğrunda şəhid düşməsini ön plana çəkir.

Azərbaycanın istiqlal şairi B.Vahabzadənin əsərlərinin bir çoxunda Azərbaycan-türk milli xarakteri, düşüncəsi başlıca yer tutur. Şairin "Azərbaycan oğluyam" şeiri bu mövzuda yazılan ən yaxşı əsərlərdən biridir. Bu şeirində türk-Azərbaycan milliyyətinə mənsubiyyət, Azərbaycan türkünün qururverici tarixi, fəxarət dolu keçmişi başlıca mövzudur.

Azərbaycan oğluyam,
Odu Allah sanmışam.
Anam torpaq,
Atam od,
Mən oddan yaranmışam:
Od kimi istiqanlı,
Seltək dəliqanlıyam [8, s. 32] –

kimi misralarında Azərbaycan milli xarakterini təqdim etməyə çalışan şair onu metaforik planda ifadə etməyə nail olur. Bu şeirində də şair Azərbaycan xalqının ən böyük dərdi olan ikiyə bölünmək ağrısını əks etdirir.

Neyləyək ki zamanın
Uğursuz yollarında
İkiyə bölünmüşəm.
İki başlı, bir qəlbli
Bir bədənə dönmüşəm.
Həm Təbriz, həm Bakıdır
Məkkəm, Mədinəm mənim [8, s. 34] –

misralarında uzun zamanlar Azərbaycan dövlətinin paytaxtı olmuş Təbriz və Bakı şəhərlərini islamın böyük və önəmli şəhərləri olan Məkkə və Mədinə ilə müqayisə edir, Təbriz və Bakını Azərbaycan adlı vətənçilik etiqadına tapınan dinin Məkkəsi və Mədinəsi elan edir.

Azərbaycanın bütövlüyü, böyüklüyü və istiqlalı Bəxtiyar Vahabzadə əsərlərinin ana mövzusunu təşkil edir. Şair nə yazırsa yazsın, Azərbaycanın istiqlalı və türk milli birliyi həmişə onu düşündürür. "Vətəndən vətənə", "Azərbaycan oğluyam", "Mənim şeirim", "Şair-vətən", "Əgər qorunmazsa istiqlalımız" və başqa şeirlərində də bəhs edilən mövzu əhəmiyyətli yer tutmaqdadır:

Arazın
bu tayı Vətənim,
o tayı Vətənim.
Vətəni görməyə amanım yox mənim.

Bu necə vətəndir?
Görmədim üzünü
Çatsam da bu yaşa
Ömründə bir dəfə.
Bəs salam verməzmi
Qardaş da qardaşa?
Bu qəmim, bu dərdim dağlardan ağırdı
Arazın suyuna qarışıb axıram.
Füzuli həsrətlə qürbətdən Vətənə baxırdı,
Mən isə...Vətəndən-Vətənə baxıram [8, s. 16-17].

Şair "Azərbaycan oğluyam" şeirində milli xarakterdən bəhs etməklə yanaşı Azərbaycanın ikiyə bölünməyindən söz açır:

Neyləyək ki, zamanın
Uğursuz yollarında
İkiyə bölünmüşəm".

Yaxud:

Əlimiz də bir bizim,
Dilimiz də bir bizim.
Vətənimiz bir bizim,
Dünənimiz bir bizim,
Olmuşuq bir Vətəndə
Biz bu gün başqa-başqa.
Bizim talelərimiz
Bəs neçün başqa-başqa? [8, s. 35] –

kimi düşündürücü suallarla millətinin acı taleyini göstərməyə çalışır, onun taleyinin uğursuzluğuna diqqəti cəlb edir, oxucusunu düşündərməyə, milli tarixini, keçmişini ona anlatmağa, xatırlatmağa səy göstərir. Bəxtiyar Vahabzadə "Şair – vətən" şeirində:

Bəlkə də ən zəif, ən kiçik şair
Böyük vətəndaşdır Vətənimizə...
Şairin bədəni – bu ana torpaq,
Nəfəsi – xəzridir, qanı – Kür, Araz.
Çox şəy Vətənsiz də yaşayır, ancaq
Şairsə Vətənsiz, əlsiz yaşamaz...
Şairə vəzifə, rütbə nə gərək!
"Vətən", "Vətən" deyir könül səsi də.
Vətəni sevməkdir, Vətəni sevmək,
Şairin ən böyük vəzifəsi də [8, s. 42-43] –

söyləməklə bütün şairlərin, əlbəttə, özünün də vətəninin hayqırışı, səsi, fəryadı, duyğularının ifadəçisi olduğunu bildirir.

Şair "Anamın kitabı" əsərində də:

Bizi bölə-bölə çəkdilər dara.

Əl çəkib müqəddəs atəşimizdən
Yüz illər baş əydik yad kitablara... [8, s. 48] –

deməklə Azərbaycan türklərini yüz illərcə bölüb, başqa mənəviyyata, başqa qanunlara, başqa ideologiyaya yönəldilməsindən söz açmışdır. Onun "Ana dili" və "Anamın kitabı" kimi əsərlərində də milli dil və heysiyyət məsələlərinə toxunulur. Bu inkaredilməzdir ki, milli dil bütün millətlərin vazkeçilməz, itirilməz dəyəri, milli varlığının təməlində dayanan ən önəmli şərtdir. Bütün filosofların da söylədiyi kimi, "dil varsa, millət vardır, dil yoxsa, millət də yoxdur". Bu mövzu şairin "Ana dili" adlı şeirinin əsas mövzusudur. Şeirdə:

Bu dil, bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil, bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil tanıtmış bizə bu dünyada hər şeyi.
Bu dil əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiztək
Qoruyub nəsillərə biz də hədiyyə verək [8, s. 3],

– deyə şair ana dilini – Azərbaycan dilini xarakterizə edir. Şairin fikrincə, ana dili insanın ruhudur, bütün mənalarda, sözün geniş mənasında dil insanın və millətin özünüifadəsi, məqsədinin təqdimi, sosial mühitlə əlaqəsi və ünsiyyət vasitəsidir. Bu baxımdan hər bir dili bir-birinə bağlayan bənzər ümumi şərtlər olsa da, fərqli, bilavasitə psixoloji, milli müstəvidən fərqli tərəfləri çoxdur. Sözlərin özündə yaşatdığı psixoloji məna özünəməxsusluğu milli olaraq insanları ayıra, bir millətə mənsubiyyətini fərqləndirə bilir. Məsələn, azərbaycanlıların istifadə etdiyi "can", "aman" və başqa sözlər yalnız azərbaycanlıların anlaya biləcəkləri anlamlarda işlənə bilir. Bu və çoxsaylı digər şərtlərlə dil bir anlamda da yalnız millidir, o millətə aiddir, onun vətəndaşlarının bütün ruhunu – keçmişdən üzü bəri bütün yaşayışı boyunca tamamən ruhunu özündə yaşadır, ifadə edir. B.Vahabzadənin "Ana dili" şeirində də poetik şəkildə məhz ana dilinin bu xüsusiyyətlərindən bəhs edilmişdir. Şeirdəki: "Sən xalqının aldığı ilk nəfəsdən yarandın" misrasında şair Azərbaycan dilinin xalqın nəfəsindən yarandığını söyləməklə onu xalqın çoxminillik yaşayış, həyat, düşüncə, heysiyyət və bütün duyğularının daşıyıcısı kimi səciyyələndirir. Şairin "Muğam", "Özümüzü kəsən qılınc", "Dar ağacı" kimi əsərlərində də azərbaycanlıların milli dəyərləri, müstəqilliyi, istiqlalı və başqa bu kimi motivlər əhəmiyyətli yer tutur.

Bəxtiyar Vahabzadənin dramaturji əsərlərində də istiqlal motivləri başlıca yer tutur. Şairin görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlıya həsr etdiyi və onun "Od gəlini" əsərinə iqtibas edərək yazdığı "Dar ağacı" əsərində orta əsrlər hadisələrinin əsasında XX yüzilliyin sonlarına doğru Azərbaycan cəmiyyətində baş verən hadisələrin məzmunu təqdim edilmişdir. Bütün ömrü boyu ərəb xilafətinə xidmət edən Aqşinin axırda: "Mən öz vətənimə qarşı vuruşanda ölü olmuşam", – deyə etiraf etməsi XX əsrin sonlarındakı bəzi Azərbaycan siyasi xadimlərinə ünvanlanan mənalı nəsihət idi. Bundan başqa görkəmli Azərbaycan dramaturqu Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsərinə iqtibas

olaraq yazılan "Atamın kitabı" əsərindəki hadisələr də XX əsrin sonlarında Azərbaycandakı hadisələrlə müqayisədə təqdim edilmişdir. Bu əsərdə də öz millətinin müqəddəratını düşünməyən "millət başçıları" – siyasi xadimlər tənqid olunmuş, millətin taleyi narahatlıqla əks etdirilmişdir. Bu baxımdan "biz "Dar ağacı", "Fəryad", "Özümüzü kəsən qılınc" əsərlərində milli mənəviyyat və müstəqillik, torpaq və əqidə bütövlüyü naminə fədakarlığa hazır olan insanlarla tanış oluruq" [7, s. 173].

Beləliklə, Bəxtiyar Vahabzadənin bütün əsərləri həm Azərbaycan, həm türk dünyası milli birliyi və istiqlal motivlərilə zəngindir. Şairin "Bütün millət dönməliykən yumruğa, Türkün türklə ədavətə haqqı yox" misrası türk dünyası birliyinə uğurla xidmət edən böyük Mustafa Kamal Atatürkün "Türkün türkdən başqa dostu yoxdur" və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" kimi siyasi aforizmlərinin poetik davamı olaraq səslənir. Şair "Azərbaycan-Türkiyə", "Atatürk", "Mən türkəm" və başqa əsərlərində də bu mövzuya toxunur, türk dünyasının gələcəyi haqqında təəssüratlarını əks etdirir. Yaradıcılığında türk dünyası və onun birliyi məsələsinə xüsusi yer verdiyi üçün B.Vahabzadəyə "türk dünyasının böyük şairi" [1; 2; 3; 4; 6] adı verilmişdir. "Bəxtiyar Vahabzadə təkcə Azərbaycan xalqının deyil, bütün türk dünyasının böyük, sevimli və əbədiyaşar şairidir" [1]. Bunun üçün də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Bəxtiyar Vahabzadəyə: "Xalqın düşüncə və arzuları, hiss və duyğuları, istək və arzuları həmişə sizin zəngin yaradıcılığınızın, mübariz poeziyanızın cövhəri olmuşdur", – deyə bəhs etmiş, milli istiqlal yolundakı xidmətlərinə görə onu "İstiqlal" ordeni ilə təltif etmişdir. Türkiyə Cümhuriyyətinin prezidentlərindən olan Süleyman Dəmirəl də böyük şair haqqında: "Sizin ədəbi yaradıcılığınız bütün türk dünyasının mənəvi birliyi və yüksəlişi ilə yaxından bağlıdır", – deyə bəhs edərək onun türk dünyası qarşısındakı xidmətlərini yüksək qiymətləndirmişdir.

ƏDƏBİYYAT

1. Abbasov İ. Türk dünyasının böyük şairi Bəxtiyar Vahabzadə. "Ədəbiyyat" qəz., 2004, 14 avqust.
2. Ayazqızı S. Bəxtiyar Vahabzadə və türk dünyası. "Ədəbiyyat" qəz., 2012, 17 fevral.
3. Aytmatov Ç. Yaradıbdır inam məni, Mən inamın övladıyam / B.Vahabzadə Seçilmiş əsərləri: 2 cilddə. I c., Bakı: Öndər, 2004, 328 s.
4. Bəxtiyar Vahabzadə. Bakı: Azərbaycan, 2000.
5. Feyziyev C. Adı Bəxtiyar, taleyi Azərbaycan. "Xalq" qəz., 2013, 12 yanvar.
6. Qafarlı R. Türk dünyasının Bəxtiyarı. "Xalq" qəz., 2009, 19 fevral.
7. Məmmədli M. Bəxtiyar Vahabzadə: İstiqlal şairi // Azərbaycan, 2004, № 9, s. 172-180.
8. Vahabzadə B. Seçilmiş əsərləri: 2 cilddə. I c., Bakı: Öndər, 2004, 328 s.

9. Vahabzadə B. Seçilmiş əsərləri: 2 cilddə. II c. Bakı: Öndər, 2004, 320 s.
10. Yusifli V. Bir ömür poeziyası // Azərbaycan, 1999, № 4, s. 166-172.

Рамиз Касымов

МОТИВЫ НАЦИОНАЛЬНОГО ЕДИНСТВА И НЕЗАВИСИМОСТИ В ПРОИЗВЕДЕНИЯХ БАХТИЯРА ВАХАБЗАДЕ

Выдающийся представитель азербайджанской литературы Бахтияр Вахабзаде (1925-2009) внес большой вклад в национальное возрождение азербайджанских тюрков, в завоевание независимости и единение тюркских народов. За большие заслуги на этом поприще общенациональный лидер азербайджанского народа Гейдар Алиев наградил Бахтияра Вахабзаде орденом «Истиглал». Одним из самых значительных и популярных произведений Бахтияра Вахабзаде является поэма «Гюлистан», посвященная Гюлистанскому мирному договору, разделившему Азербайджан на две части: Северный и Южный Азербайджан.

Его произведения «Гюлистан», «Истиглал» («Независимость») «Шахиды» посвящены борьбе азербайджанских тюрков за свободу и независимость. Проблемам национального самосознания, национального языка посвящены произведения поэта «Сыны Азербайджана», «Родной язык», «Книга моей матери». Произведения «Мугам», «Режущий нас меч», «Виселица» посвящены проблемам свободы, национального достояния азербайджанских тюрков.

Ключевые слова: *Бахтияр Вахабзаде, национальное единство, национальное самосознание, мотивы независимости.*

Ramiz Gasimov

MOTIVES OF NATIONAL UNITY AND INDEPENDENCE IN THE WORKS OF BAHTIYAR VAHABZADEH

The important figure of Azerbaijan literature Bahtiyar Vahabzadeh in his works contributed to the national awakening, independence and unity of Azerbaijani Turks, therefore went down in our history as one of the prominent names of Azerbaijan independent literature. For great services in this field the great leader of the Azerbaijan Republic Haydar Aliyev awarded him with “Istiklal” (independence) order. Great poet’s so-called work “Gulustan” was just devoted to the “Gulustan” treaty which was the reason of division Azerbaijan into two – the North and the South and also it was one of the most readable poems during independence and awakening period. In his works

included such significant topics and motives as national and political freedom of Azeri Turks, Turkish unity and thought, unity and brotherhood of Turkish world and etc.

The poet's works such as "Gulustan", "Independence" and "Martyrs" reflect struggle for independence of Azerbaijani Turkish people. Different topics as national language and dignity were discussed in "Mother language" and "My mother's book" and also issue of belonging to Azerbaijan-Turkish nation in his "I am son of Azerbaijan". Such motives as national wealth, national freedom and independence of Azerbaijan Turks take important place in poet's works such as "Mugam", "Sword cutting us", "Gallows".

Key words: *Bahtiyar Vahabzadeh, national unity, national self-consciousness, thought independence motives.*

(Filologiya üzrə elmlər doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

AYGÜN ORUCOVA
AMEA Naxçıvan Bölməsi
E-mail: orujovaaygun82@gmail.com

MUXTARİYYƏT ƏRƏFƏSİNDƏ NAXÇIVANIN TARİXİ VƏ HƏYATININ "MOLLA NƏSRƏDDİN" JURNALINDA ƏKSİ

"Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsi olaraq Azərbaycan xalqının tarixində, ümumiyyətlə, Azərbaycan anlayışında çox böyük yer tutur".
Ümummilli lider Heydər Əliyev.

Məqalədə 1921-1924-cü illərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda baş verən mühüm hadisələr, rusların Naxçıvanı ermənilərə hədiyyə etmək cəhdləri, baş verən qarşıdurmalar, əhalinin silahlı mübarizəsi və digər tarixi həqiqətlərin satirik "Molla Nəsrəddin" jurnalında (1906-1931) işıqlandırılmasından bəhs olunur. Bu illərdə jurnalın həm Təbrizdə, həm də Bakıda nəşr olunmuş nömrələrində rus və erməni vəzifəlilərinin planlı şəkildə burada rabitə sistemində, müəyyən istehsal sahələrində yaratdıqları problemlər öz əksini tapmışdır. Azərbaycanın ədəbi-tarixi salnaməsi olan "Molla Nəsrəddin" jurnalındakı bu faktlar həm də Azərbaycan tarixinin qeyd olunan dövrünü araşdıranlar üçün mühüm əhəmiyyətə malik bir mənbədir.

Açar sözlər: *müqavilə, silahlı mübarizə, fanatizm, qüsurlar, məqalə, felyeton.*

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "tarixi nailiyyət" [3] hesab etdiyi Naxçıvanın muxtariyyət statusu Azərbaycan və bütövlükdə Türk dünyası üçün çox mühüm siyasi dəyərə malikdir. Belə ki, Azərbaycanın əbədi və əzəli torpaqları olan İrəvanın (1918-ci il) və Zəngəzur mahalının (1920-ci il) ermənilərə verilməsi ilə Naxçıvan Azərbaycandan təcrid olunmuşdu. 1918-ci ildən 1924-cü ilin 9 fevralına qədər olan dövr Naxçıvanın tarixində mürəkkəb və ziddiyyətli bir mərhələni təşkil edir. Erməni özbaşınalıqları, ingilislərin və amerikalıların Naxçıvanda general-qubernatorluq yaratmaq cəhdləri, yerli əhalinin Naxçıvanın Ermənistana verilməsinin qarşısını almaq üçün Kalbalı xan, Cəfərqulu xan, Kərim xan, Rəhim xan, Kamran xanın başçılığı ilə silahlı mübarizəsi, 1921-ci ilin 16 martında Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasını şərtləndirən Moskva müqaviləsi, Naxçıvanın Azərbaycanın tərkibində sərhədlərini qəti surətdə müəyyənləşdirən Qars müqaviləsi (1921-ci il 13 oktyabr) və s. hadisələrlə səciyyələnir: "Naxçı-

van Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi böyük, əvəzi olmayan bir sənəddir" [2, s. 7]. Bu illərdə Azərbaycanın ərazi bütövlüyünün qorunmasında "Türk dünyasının atası" Mustafa Kamal Paşanın (1881-1938), azərbaycanlılardan Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun, Azərbaycan İnqilab Komitəsinin üzvü, ədliyyə komissarı Behbud ağa Şahtaxtinskinin əməyi xüsusilə qeyd olunmalıdır.

Fasilələrlə 1906-1931-ci illərdə nəşr olunan Azərbaycanın ilk satira jurnalı "Molla Nəsrəddin" nəinki təkcə Azərbaycanın, Rusiya, Volqaboyu, Orta Asiya, İran və Türkiyə və s. ölkələrin həyatını bir güzgü kimi əks etdirmişdir. Məhəmmədəli şah, Sultan Əbdülhəmid, Nikolay, Stolipin, qatı millətçi Pruşkeviçin təmsil etdikləri mütləqiyyət rejimi "Molla Nəsrəddin" jurnalının əsas tənqid hədəfləri olmuşdur. Mətbuat tarixindən məlumdur ki, 1918-1920-ci illərdə jurnal fəaliyyətini dayandırmışdır. Mirzə Cəlil Kəhrizli kəndində təsərrüfat işləri ilə məşğul olmuş, ədəbi fəaliyyətini davam etdirmiş, "Anamın kitabı" və "Kamança" pyeslərini burada tamamlamışdır. Qeyd edək ki, hər iki əsər 1918-20-ci illərdə Azərbaycanın tarixi reallıqlarını əks etdirir, müəllifin şəxsi müşahidələri ilə qələmə alınmışdır. Bu əsərdə ayrı-ayrı məsləyə sahib olan ziyalıların vətənin mənafeyi üçün bir yumruq kimi birləşməsinin zəruriliyi nəzərə çatdırılmışdır. Əsərdən aydın olur ki, Mirzə Cəlil üçün bu meyllərin hər biri eyni dərəcədə zərərlidir, onun seçdiyi əqidə milli soykökə bağlı olan Gülbaharın, sadə xalqın nümayəndəsi olan çobanların vətən məhəbbəti və qardaşlığa vəfalılığı, ehtiyacı olanlara göstərdikləri maddi və mənəvi dəstəyi yoludur.

Qulam Məmmədlinin "Molla Nəsrəddin" salnaməsində qeyd olunur ki, 1920-ci il 10 martda Ağdamda əhali arasında milli ədalət üstə toqquşma olduğu xəbəri Kəhrizliyə çatdıqda Mirzə Cəlil doğru xəbəri bilmək məqsədilə Ağdama getmişdir. Mirzə Cəlil bu döyüşlərdə şəxsən iştirak etmiş, silahlı mübarizəyə qoşulmuşdur. "Kamança" əsəri məhz bu səbəbdən Azərbaycan ədəbiyyatında Qarabağ münaqişəsinə həsr olunmuş birinci bədii əsər hesab olunmuşdur [1, s. 20]. Ürəyi ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmiş həmvətənlərinin intiqamını almaq hislərilə aşıb-daşdığı bir vaxtda əsir götürülən erməni çalğıçısını öldürə bilməməsi Qəhrəman yüzbaşının ən yüksək insani keyfiyyətlərinin – humanizminin və incəsənətə hörmətinin nəticəsidir. Fikrimcə, humanizmin bu dərəcəsi Azərbaycan xalqının müsbət yox, mənfi keyfiyyəti hesab olunmalıdır. Düşməni bağışlamağın, onun tarixdə törətdiyi soyqırımları unutmağın bu gün cox ağır nəticələrini yaşayırıq. "Kitabi-Dədə Qorqud" dastanlarında ulularımız bu barədə: "Qarı düşmən dost olmaz" – deyiblər.

1920-ci ilin 28 aprelində sovet hakimiyyəti qurulduqdan təqribən bir ay sonra – iyun ayının əvvəllərində Mirzə Cəlilin qardaşı Ələkbər Məmmədquluzadə Naxçıvandan Kəhrizliyə gəlmiş, "ümumi vəziyyət ağırdır" – deyə müvəqqəti olaraq İrana köçməyi Mirzə Cəlilə məsləhət görmüş və təkid etmişdir.

İyun ayında Azərbaycan mətbuatında "Ölülər" tragikomediyasının qəhrəmanı kefli İsgəndərin ədəbi mühakiməsi olacağı barədə xəbərlər dərc olunurdu. 11 iyunda Mirzə Cəlil ailəsi ilə birlikdə Kəhrizlini tərk edərək cənuba, Araz çayının o biri sahilinə yola düşür. Həmidə xanımın xatirələrindən belə məlum olur ki, Mirzə Cəlil bu səfərə çıxmaqda tərəddüd etmiş, vətəni könülsüz olaraq tərk etmiş, bütün yol boyu çox fikirli, qaradinməz və qaşqabaqlı olmuşdur. Təbrizə çatanadək onlar çox böyük çətinliklə qarşılaşmış, atışmalar, quldurların köçə basqınları, mal-qaranın, Mirzə Cəlilin şəxsi əşyalarının oğurlanması, dağlıq, qayalıq, meşəlik ərazilərdən bəzən də piyada keçmək məcburiyyəti, Təbrizə çatandan 4-5 gün sonra şah ordusunun şəhərə hücumu, Xiyabaninin öldürülməsi barədə xəbərlər, Mirzə Ələkbərin tapılmaması və s. hadisələr Mirzə Cəlili çox əsəbiləşdirmiş, onun ailəsi böyük maddi çətinlik çəkmişdir.

Təbrizdə Mirzə Cəlil "Molla Nəsrəddin" jurnalının Azərbaycan dilində çıxarılması ilə razılaşmayan qüvvələrə öz sözünü qətiyyətlə demiş və jurnalın farsca yox, azərbaycanca çıxarılması üçün israr etmişdir. Böyük azərbaycançı ədib əsas gətirmişdir ki, İranda yalnız ziyalı təbəqə fars dilində danışır, "Molla Nəsrəddin" jurnalı isə xalqın bütün təbəqələri üçün nəzərdə tutulmuşdur. Qədim Azərbaycan torpağı olan Təbriz şəhərində ermənilərə dörd adda qəzetin çapına icazə verildiyi halda, Azərbaycan dilində bir mətbuat orqanının nəşrinə icazə verilməməsi redaktoru hiddətləndirmişdir.

XX əsrin 20-ci illərində İranda Azərbaycan dilində satira jurnalı çıxarmaq və kəskin tənqidi yazılarla çıxış etmək ancaq Mirzə Cəlilə məxsus olan cəsarətli bir addım idi. Bu barədə Rusiyanın Təbriz konsulu ədibə belə demişdir: "... bu Təbriz şəhərində heç bir yeni iş baş tutmaz. Sizin "Molla Nəsrəddin" jurnalının müvəffəqiyyətinə və çoxlu oxucu qazanmasına təəccüb edirəm" [5, s. 359]. 1921-ci ilin fevral ayından "Molla Nəsrəddin" jurnalı Təbrizdə nəşr olunmağa başlamışdır.

1921-ci ilin 25 martında Bakıda dövlət teatrında "Ölülər" pyesi oynanılmışdır. Sovet Rusiyası ilə Moskva müqaviləsini bağlayıb vətənə qayıdan Türkiyə heyətinin sədri Yusif Kamal bəy, maarif işləri komissarı Rza Nuri bəy "Ölülər"ə tamaşa etmişlər. Yusif Kamal bəy "Kommunist" qəzeti redaktoru Həbib Cəbiyevlə müsahibəsində bu əsərin orijinal və klassik olduğundan son dərəcə məmnun qaldığını və Türkiyənin də həyat və adəti ilə tamamilə müvafiq olduğunu söyləmişdir.

Jurnalın 1921-ci ildə Təbrizdə nəşr olunmuş 4-cü nömrəsində "Tazə xəbərlər" adlı yazıda Naxçıvanda çox böyük sürətlə dəyişən siyasi vəziyyət sadəcə olaraq sadalanmaqla baş verən qarışıqlıq, mürəkkəb hadisələr haqqında təsəvvür yaradılmışdır: "Sübh vaxtı eşitdim ki, ermənilər rusları İrəvandan çıxarıblar. Bir saat sonra dedilər ki, ruslar ermənilər çıxardıblar. Bir saatdan sonra eşitdim ki, osmanlılar ingilislərlə barışıblar və ruslarnan pozuşublar, günorta vaxtı dedilər ki, osmanlılar ruslar ilə birlikdə ingilisə dava elan ediblər. Günortadan bir saat sonra dedilər ki, ruslar Bakıdan çəkiliblər Rusiyaya, yarım saat-

dan sonra nəql eləyirdilər ki, rusların çox qüvvələri İrəvandan keçib gəlir Naxçıvana. İndiyə kimi məşədi Qasım əminin şirkəti 100 dəfə rusları Qarabağdan qaçırdıb, 100 dəfə Zəngəzuru gah ruslara verib, gah ermənilərə verib, gah müsəlmanlara" [4, s. 238]. Xəbərin davamından aydın olur ki, Naxçıvanda bu zaman 10000 bolşevik, 7000 Osmanlı qoşunu, 5000 rus olmuşdur.

Jurnalın 1921-ci ildə Təbrizdə nəşr olunmuş 7-ci nömrəsində "Tüstü" məqaləsində Mirzə Cəlil Naxçıvanda və Təbrizdə millətin tüstü içində boğulmağından yaranan narahatlığını ifadə etmişdir: "Xülasə, millət tüstü içində boğulmaqdadır! Və boğula-boğula nicata müntəzirdir. Əgər dadü-fəryadə tez yetişməsəz, mümkündür ki, millətdən bir əsər dəxi qalmaya. Tələsmək lazımdır" [4, s. 263].

"Molla Nəsrəddin"in 1922-ci ilinin 3-cü nömrəsində Naxçıvan duzunun vaqonlara doldurulub xaricə daşınması və hətta dərman kimi olsa da, naxçıvanlılara verilməməyi "Qafqaz xəbərləri"ndə öz satirik ifadəsini tapmışdır: "Naxçıvan duzlağının duzunu həkimlər Naxçıvan əhalisi üçün müzürr tapıblar, çünki axır vaxtlarda naxçıvanlılar arasında əmələ gələn şeytançılıq azarını həkimlər Naxçıvan duzunda görürlər. Bu səbəbə duzlaqdan çıxan duzun cəmisi vaqonlara dolub məlum deyil hara gedir və əhali duzsuz qalıb nə qədər yalvarırlarsa, həkimlər bir dizə qədər əhaliyə vermirlər. Naxçıvan vüzərası İrandan Naxçıvana duz gətirmək barəsində böyük tədbirlər tökməkdədirlər" [4, s. 296]. Sonuncu cümlədə ifadə olunmuş fikir satiranın ən yüksək forması olan qroteskdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 8 aprel 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş mərasimdəki çıxışında da bu tarixi həqiqət vurğulanmışdır: "Muxtariyyətin ilk illərində keçmiş Sovetlər Birliyinin Dövlət Plan Komitəsində işləyən ermənilər Naxçıvanın duz yataqlarından hasilatın guya baha başa gəldiyini əsaslandıra bilmişlər. Nəticədə, duz istehsalı kəskin azalmış, Azərbaycan öz kimya sənayesini inkişaf etdirmək üçün başqa yerlərdən baha qiymətə duz gətirməyə məcbur olmuşdur" [6]. Bu sətirlərdən aydın olur ki, bu mənfur siyasət fərqli formalarda bir neçə il davam etmiş və bir məqsəd daşımışdır: Azərbaycanın inkişafına mane olmaq!

"Molla Nəsrəddin" jurnalının 1923-cü ilinin 11-ci nömrəsində "Müqəddəs vətənim" adlı felyetonu Cəlil Məmmədquluzadə bu sözlərlə başlayır: "Qoy tiflislilər nə edirlər, etsinlər, qoy kəlisanın xaçını qopardıb yerinə ulduz qondarsınlar, amma mənim başımı ucaldan genə mənim Naxçıvan vətənim olacaq!" [4, s. 356).1906-cı ildən "Molla Nəsrəddin" jurnalının əsas tənqid hədəflərindən olan dini xurafat və fanatizmin hələ də davam etməsi Cəlil Məmmədquluzadənin satirik gülüşünə səbəb olmuşdur. Dizə kəndinin məsul katibinin piyada Kərbəlaya getməsi, Dəstə məsul katibinin Kərbəlaya müşərrəf olması, Nehrəmdə yoldaşların bir böyüyünün Məkkəyə gedən hacılar üçün icazə iltimasında bulunması, məsul katiblərin məhərrəmlikdə dəstə tutması, sinə vurması və s. hadisələr müqayisə və qarşılaşdırmalar vasitəsilə tənqid olunmuşdur. Jurnalın

qeyd olunan nömrəsindəki "Naxçıvandan" adlı xəbərdən məlum olur ki, burada planlı şəkildə rabitə sistemində problemlər yaradılmışdır: "Rabitə olmadığından bura xəbərlərini Sizə yetirməkdən acizəm. Hətta qayət əcələ surətdə yazılan məktublar bir ay beş günə ancaq Bakıdan Naxçıvana gəlir. Hələ onu demirəm ki, 1921-ci ilin sentyabr ayında yazılan bir əhəmiyyətli kağız 1922-ci ilin oktyabr ayında Gəncədən Naxçıvana gəldi" [4, s. 361]. Bu xəbərdən "dağılmış bir cümhuriyyət" olan Naxçıvanda Təbrizdən gələn dırnaqarası ruhanilərin həftədə bir övrət alıb boşadıqlarını, uşaq yurdu sahibinin kimsəsiz uşaqların ərzaqlarından put yarım yağı, altı hinduşkanı camaat torpağından icarəyə götürmək üçün hədiyyə etdiyini öyrənirik.

Jurnalda Naxçıvan əhalisinin məişət problemlərindən satira vasitəsilə bəhs olunmuşdur: "Kənd əhalisi bu il qışın soyuğunun əziyyətini çox çəkmədilər. Çünki hərçənd odun az gəlmişdi bazara, amma Əxbar qəzetəsini peçlərdə yandırıb bir növ evləri isitdilər" [4, s. 368]. "Dəmiryol məsələsi" adlı felyetondan aydın olur ki, noyabr ayında Culfadan göndərilmiş baqaj beş aydır ki, Tiflisə gedib çatmayıb. "Köhnə konduktor" itən baqajını axtaran şəxsə belə məsləhət verir: "İstəsən gedib itən malını, ya pulunu alasan, gərək zəhmət çəkib 1-2 milyard yarım pul sərf edib gedəsən Tiflisə. Oraya getməyə dəxi hamının qüvvəsi olmayacaqdır. Qüvvəsi də olsa, gedəcək Tiflisə. Orada da ki, gərək gürcü dilini öyrənmək üçün gedib girsin kursa bircə il dərs oxusun və s." [4, s. 382]. Bu mövzuda yazılmış satirik şeir də diqqəti cəlb edir:

Dalınca ağla, vida et, yola salanda bağaj
Sevin, toy et ki, iki ildən sora alanda bağaj
Satılsa müftə vaqondan düşüb qalanda bağaj
Ələ gəlirsə də olsa içində bir neçə daş
Günah kərdəni pünhan beh əz ibadəti-faş [4, s. 382].

Jurnalın 1923-cü il tarixli 20-ci sayında "Culfa-Ordubad poçtası" adlı xəbərdə bildirilir ki, əvvəlcə Ordubad ilə Culfa arasında poçt nəqliyyatı üçün 40 at saxlanılırdısa, indi ancaq 6 eşşəklə kifayətlənilir və "zənn olunur ki, bu üsul əlverişli olduğundan çox yerlərdə qəbul olunsun" [4, s. 430].

1923-cü il 28 aprel tarixli 22-ci nömrədəki "Naxçıvandan" adlı felyetondan aydın olur ki, "Pirqəmişli" Təbrizdən Culfaya dörd saatlıq maşın yolunu 15 günə gəlib çatmışdır. Onun yanvarın 22-də redaksiyaya göndərdiyi məktub isə aprelin 28-də lazımi ünvana çatdırılmışdır. Çünki maşinist üç gün toya getmiş, beş şahı qazanmaq məqsədilə yağlı öküz əti alıb Culfaya gətirmək üçün getmiş, vaqonun fanarları, pəncərələrinin şüşələri olmadığı üçün axşam yola çıxmamış və s.

"Qırmızı Fəqir" 1923-cü il 16 iyun tarixli 25-ci nömrəsində "Naxçıvandan" adlı satirik xəbərində kasıb kişilərin bir-birinə verdikləri və cavablandıra bilmədikləri suallardan bir neçəsini Molla əmidən soruşur. Bunlardan birini diqqətinizə çatdırmaq istəyirəm: "Naxçıvan şəhərində olan dustaqxanada dustaqları döyməyi eşidən kənd və şəhər qulluqçuları dərsi-ibrət alıb taza dəyənəklər

zakaz vermişdilər. Bəziləri zopa alıb bu işə şüru (yəni başlamışlar – A.O.) və bir çoxları da hələ məşq edirlər. Hərgah belə getsə, axırı nə olacağına nə deyirsən?" [4, s. 472].

"Molla Nəsrəddin" jurnalı bu illərdə Naxçıvanda bir çox sahələrdə olan problemlərdən bəhs etdik ki, xalq arasında olan dini fanatizm, cəhalətlə bağlı nöqsanların aradan qaldırılması üçün də çalışmışdır. Məsələn, jurnalın 1923-cü ilinin 38-ci nömrəsindən Naxçıvanda milislərin üç ildir ki, paltarsız, ayaqqabısız qaldıqlarını, kursantların vaxtlı-vaxtında ali məktəblərə göndərilmədiklərini, Ordubad "qız məktəbinin" qapandığını, poçtların çox ləng işlədiyini öyrəniriksə, 21 aprel 1923-cü il 21-ci nömrəsində bir naxçıvanlının atasının sümüklərini Kərbəlaya apararkən ingilislərin gömrük pulu almaması üçün sümükləri əzib torbaya doldurmasından və gecə səhvən çörək ovuntusu əvəzinə atasının sümüyünü yediyindən və "ərdəbilli Mirzə Ələkbərin risaləsi və rəyi ilə atasının cənnətin düz ortasına düşməyinə əmin olduğundan xəbər verilir" [4, s. 439]. Jurnalın 10 may 1924-cü il tarixli 7-ci nömrəsində Ordubaddan "Qızdırmalı"nın "Oradan-buradan" sərlövhəli yazısında müəllif məscidlərdə baş verən çox qəribə hadisələrdən xəbər vermişdir: "Məsəla, (bistü-yekkom) (21-ci – A.O.) güni günorta namazı ilə ikindi namazının arasında cəmaət səflərdə cərgə ilə olduğu halda molla bibioğluma pul yığanda namaz o qədər uzandı ki, cəmaət yuxladı... Genə Allah mollaların atasına rəhmət eləsin, özlərinə pul yığıb qurtarandan sonra məscidə həsir almaq üçün pul yığmaq istəyəndə dedilər bu gün pul yığmaq haramdır. Yoxsa axşama kimi orada qalacaq idik" [4, s. 645].

"Molla Nəsrəddin" jurnalının 1924-cü ilin 9-cu nömrəsində "Behişt xəbərləri"ndə "din xadimlərinə" qarşı həyata keçirilən ştraflardan, cərimələrdən, sürgünlərdən söz açılır. Məsələn, naxçıvanlı Şeyx Məhəmmədəlinin özü ilə sigələri hərəsi altı ay Ərəfata sürgün olunmuşlar" [4, s. 662]. "Molla Nəsrəddin" idarəsi bu xəbərə belə münasibət bildirmişdir: "Nikolay vaxtı deyil ki, Bağdad konsulundan aldığı şpionluq kağızını göstərib yaxasını qurtarsın" [4, s. 662].

1924-cü ilin 12-ci nömrəsində "Naxçıvanlı" adlı müəllifin xəbərindən məlum olur ki, Cəlil Məmmədquluzadə buradakı insanların həyatı, problemləri ilə daim maraqlanmışdır: "Molla əmi! Yazıb soruşmuşdun ki, Naxçıvanın işi nə təhərdir. Naxçıvandan heç nigaran qalma! Hər iş yerindədir. Şeyx Kərimi necə görmüşdün genə həman kefindədir. Bolşeviklərdən qaçıb Təbrizə getmişdi yenə qayıdıbdır, haman saqqal, haman rəng, həna öz qərarındadır, şəhərdə səlamətlikdir" [4, s. 693].

"Molla Nəsrəddin" jurnalında dərc olunmuş bütün bu satirik nümunələr jurnalın redaktorunun Təbrizdə, Bakıda və başqa şəhərdə yaşamasından asılı olmayaraq daim doğma vətəni olan Naxçıvan haqqında düşündüyünü, buradakı bir sıra problemlərin, bəzi qüsurların aradan qaldırılması üçün çalışdığını, öz vətəndaşlarını azad və xoşbəxt görmək üçün bütün qüvvəsi ilə çalışdığını bir daha sübuta yetirir.

ƏDƏBİYYAT

1. Cəlil Məmmədquluzadə: Biblioqrafiya / Tərtib edəni İ.Həbibbəyli. Bakı: Elm, 2005, 160 s.
2. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan: Əcəmi, 2011, 272 s.
3. http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_iyul2009/86846.htm
4. Molla Nəsrəddin: 8 cilddə / Tərtib edənlər: E.Qasımova, Ə.Hüseynov.V c., Bakı: Çinar-Çap, 2009, 892 s.
5. Məmmədli Q. Molla Nəsrəddin (Salnamə). Naxçıvan: Əcəmi, 2009, 518 s.
6. "Şərq qapısı" qəz., 2014, 9 aprel, № 63(20964).

Айгюн Оруджева

ОТРАЖЕНИЕ В ЖУРНАЛЕ «МОЛЛА НАСРЕДДИН» ИСТОРИИ И ЖИЗНИ НАХЧЫВАНА НА ПОРОГЕ АВТОНОМИИ

В статье рассмотрено освещение в сатирическом журнале «Молла Насреддин» (1906-1931) важных событий, происходивших в 1921-1924 годы в Нахчыване, который является неотъемлемой частью Азербайджана, – попытки Советского правительства подарить Нахчыван Армении, происходившие здесь противостояния, вооруженное сопротивление населения и другие исторические факты. В номерах журнала, выходивших в те годы как в Тебризе, так и в Баку, нашли отражение проблемы, создаваемые русскими и армянскими должностными лицами в определенных отраслях производства и в системе связи. Данные факты из журнала «Молла Насреддин», который является литературно-исторической хроникой Азербайджана, – это источник, обладающий большим значением и для исследователей истории Азербайджана упомянутого периода.

Ключевые слова: *договор, вооруженная борьба, религиозный фанатизм, недостаток, статья, фельетон, связь, драма, сатирические новости, сатирические объявления.*

Aygun Orujova

REFLECTION OF HISTORY AND LIFE OF NAKHCHIVAN IN THE MAGAZINE OF "MULLAH NASRADDIN" ON THE THRESHOLD OF AUTONOMY

Coverage of important events that occurred during 1921-1924 in Nakhchivan as an integral part of Azerbaijan: Soviet Government's efforts to present

Nakhchivan to Armenians, confrontations going on here, armed resistance of the population and other historical facts in the satirical magazine of “Mullah Nasraddin” (1906-1931) is considered in the paper. In the issues of this magazine which appeared in those years in Tabriz and Baku are reflected the troubles invented by Russian and Armenian officials in certain industries and in the communication system. These facts from the magazine of “Mullah Nasraddin”, which is a literary and historical chronicle of Azerbaijan, are the source of great importance for researchers of the history of Azerbaijan in aforesaid period.

Key words: *agreement, warfare, religious fanaticism, lack, article, feuilleton, communication, drama, satirical news, satirical ads.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

NİGAR SADIQZADƏ
AMEA Naxçıvan Bölməsi
E-mail: nigarsadiqzade01@gmail.com

MƏMMƏD ARAZ YARADICILIĞI ƏDƏBİ TƏNQİDDƏ

Məqalədə görkəmli Xalq şairi Məmməd Arazın yaradıcılığında ədəbi tənqidin rolundan bəhs olunmuşdur. Görkəmli şairin yaradıcılığı həmişə Azərbaycan ədəbiyyatının nüfuzlu nümayəndələri tərəfindən qiymətləndirilmişdir.

Şairin yaradıcılığını nəzərdən keçirdikcə görürük ki, ədəbi-tənqid tərəfindən onun irsi həmişə diqqətdə saxlanılmış, bu ənənə bu gün də davam etməkdədir.

Açar sözlər: *ədəbi tənqid, şair, Nursu, poetika, Azərbaycan.*

"Tanrı insanlara sözünü peyğəmbərlər vasitəsilə çatdırıb. Yer üzünə müqəddəs kitablar göndərib. Tanrının insanlara deyəcəyi sözlər o qədər çoxdur ki, onları bir neçə müqəddəs kitabda cəmləşdirmək mümkün deyil. Şairlər Tanrının zərrələridir. Tanrı öz zərrələrini Yer üzünə ona görə göndərdi ki, bizə, yəni insanlara deyiləsi sözlərini həmin zərrələrinin vasitəsilə desin. Yəni şairlər peyğəmbərlərdən sonra peyğəmbərlərin missiyasını yerinə yetirirlər.

...Təbii ki, Tanrının da peyğəmbərlərin içində daha çox sevdikləri olub, eləcə də şairlərin də içində daha çox sevdikləri var. Məmməd Arazın bəxti onda gətirib ki, o, Tanrının daha çox sevdiyi şairlərin sırasındadır" [4, s. 5].

Doğrudan da, belədir, Məmməd Araz ədəbiyyatımıza öz səsi, öz nəfəsi, öz vətəndaş hissləri ilə gələn şair olmuşdur. Onun yaradıcılığında bu cəhətlər həmişə özünü qabarıq şəkildə göstərmişdir.

Xalq şairi Məmməd Araz 1933-cü il oktyabr ayının 14-də Naxçıvan Muxtar Respublikası Şahbuz rayonunun şəfalı Nursu kəndində doğulmuş, 1940-cı ildə kənd məktəbinin I sinfinə getmişdi. Sovet-alman müharibəsində 5 il cəbhədə vuruşmuş atası İnfil kişi müharibə illərində əsir alındığından 1945-ci ildə siyasi motivlərlə həbs olunmuş, Sibirə sürgün edilmişdir.

Ağır şəraitdə orta məktəbi bitirmiş Məmməd 1950-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin coğrafiya fakültəsinə qəbul olunmuş, 1954-cü ildə ali təhsilini başa vurub, iki ildən artıq doğma kəndində müəllimlik etmiş, 1957-ci ildə Bakıya köçərək mətbuat sahəsində çalışmışdır.

Məmməd uşaq yaşlarından yaradıcılığa başlamış, təbiətə həsr olunmuş kiçik lirik şeirlər onun ilk qələm təcrübəsi olmuşdur. Sonrakı illərdə mətbuatda bir neçə şeiri çap olunan Məmməd 1959-1961-ci illərdə Moskvada Ali Ədəbiyyat kurslarında təhsil almış, 1961-ci ildən yenə də Bakıda mətbuat sahəsində çalışmışdır. "Maarif" nəşriyyatında redaktor, Azərnəşrdə bədii ədəbiyyat şöbəsinin müdiri, "Ulduz" jurnalının məsul katibi, "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktorunun müavini (1970-1972) vəzifələrində çalışmışdır.

1970-ci ildə işdən uzaqlaşdırıldığı üçün mənəvi psixoloji sarsıntılar nəticəsində ağır xəstələnmişdir.

Bir müddət işsiz qaldıqdan sonra 1974-cü ildə görkəmli alim, akademik Həsən Əliyevin köməkliyi ilə "Azərbaycan təbiəti" jurnalının redaktoru vəzifəsində işləmişdir.

Xəstəliyi getdikcə kəskinləşən şair Türkiyə və Almaniyada müalicə olunsa da müsbət nəticəsi olmamışdır. Lakin xəstəliyi xoşbəxtlikdən şairin bədii yaradıcılığına mane ola bilməmişdir.

Artıq Məmməd Araz imzası ilə məşhurlaşan şairin şeirləri və poemaları mövzu rəngarəgliyi, sənətkarlıq xüsusiyyətləri ilə diqqəti cəlb edir.

Müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, xalq şairi Məmməd Arazın zəngin və çoxcəhətli yaradıcılığı haqqında Azərbaycan ədəbiyyatının ən nüfuzlu nümayəndələri – Rəsul Rza, İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə, görkəmli ədəbiyyatşünas alimlər – Yaşar Qarayev, İsa Həbibbəyli, Bəkir Nəbiyev, professorlar – Yavuz Axundlu, Vaqif Yusifli və başqaları müxtəlif illərdə məqalələr yazmış, bu əsərləri hərtərəfli təhlil etmiş, şeir və poemaların bədii qiymətini vermiş, onların sənətkarlıq məziyyətləri haqqında ətraflı bəhs etmişdir.

Azərbaycan ədəbiyyatında Məmməd Araz yaradıcılığı haqqında söz deməyən, fikir söyləməyən bəlkə də bir alim belə tapmaq çətindir.

Tənqidçi filologiya elmləri doktoru Vaqif Yusifli 1994-cü ildə "Şur" nəşriyyatında çap etdirdiyi "Məmməd Araz dünyası" adlı qiymətli kitabının ilk səhifəsində məşhur fransız yazar Sul Renarın 1896-cı il noyabrın 3-də belə bir gileyi ilə başlayır ki, "*Yenə də şeir, hər şeir, bir misra da poeziya olaydı*". Yəni əsl poeziya tapmaq çətindir.

Əslində bizim poeziyamızın da vəziyyəti belədir. Şeir yazan, qələmini sınayan çoxdur, lakin əsl poeziya nümunəsi tapmaq çətindir.

Azərbaycan poeziyasının qədim və zəngin tarixində onlarla əsl şair olmuşdur. Əsrlərin sınağından çıxmış bu şairlərin əsl poeziya nümunəsi olan şeirləri, poemaları bu gün də öz yaşamaq keyfiyyətini itirməmişdir. Nizami, Nəsimi, M. Füzuli, Vaqif, Sabir, H. Cavid, M. Hadi, M. Müşfiq, S. Vurğun, M. Şəhriyar, Rəsul Rza və çağdaş poeziyadan B. Vahabzadə, Xəlil Rza, Məmməd Araz və onların müasirləri, davamçıları – Nəbi Xəzri, Balaş Azəroğlu, Nəriman Həsənzadə, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub və başqaları təsadüfi deyil ki, bizim xalqı şair xalq adlandırmaqla səhv etməmişlər.

Vaqif Yusifli yazır: "Və əgər belə bir müqayisə yerinə düşürsə, deməliyəm: Azərbaycan poeziyası Azərbaycan torpağına oxşayır. O torpağa hər il, bəlkə də hər gün qayğı göstərilməsəydi, məhsul verməzdi. Bu mənada Məmməd Araz o torpağın ən bərəkətli, ən məhsuldar sahələrindən biridir.

Etiraf edim ki, Məmməd Arazı bir az gec dərk eləmişəm. Yəni bir şair kimi – o, mənim bütün varlığıma hakim kəsilənə kimi illər keçib.

Yaxşı yadımdadır, 1965-ci ilin sonlarıydı. Mən o zaman XI sinifdə oxuyurdum və artıq gələcəkdə ədəbiyyatçı olacağımı qət eləmişdim. Bütün günü şeir, nəsr kitabları əlimdən düşmürdü və sevdiyim bir şair vardısa, o da Səməd Vurğun idi.

Həmin qış günü məktəbdə ədəbiyyat müəllimimiz dedi ki, sabah rayona Bakıdan şairlər gələcək, bir Söhrab Tahirdir, bir də Məmməd İbrahimdir" [2, s. 8-9].

Vaqif Yusifli o görüş barədə öz xatirələrini davam etdirərək yazır: "O görüşdə mən onda 32-33 yaşlı Məmməd İbrahimin dilindən çox şeirlər eşitdim. Onda hələ Məmməd İbrahim Məmməd Araz deyildi, səsi cavan, gur, saçları qapqara, əlləri də şeir deyirdi.

Yox, Araz deyəndə mən,
Yalnız çay düşünmürəm!
Mənim tək baxsan ona ,
Deməzsən adi sudur.
O, bir gəlin hörüyü,
Bir uşaq yuxusudur.
O, Qıratın yalmanı,
Bozatın tərliyidir:
Nənəmin ipəkliyi,
Babamın sərtliyidir" [2, s. 9].

Kitabı oxuduqca görürük ki, bu görüşdən sonra Vaqif Yusifli Məmməd Araz poeziyası ilə yaxından tanış olmuş, onun gələcəkdə həyat istiqamətinə bir körpü salmışdır. Görkəmli tənqidçi öz yazılarında etiraf edir ki, onun şeirlərini oxuduqca qərara gəldim ki, "Məmməd Araz mənim şairimdir".

Vaqif Yusifli davam edir: "Məmməd Araz da əllinci illərdə S.Vurğun poetik bulağından su içmişdi, onun şeirlərinin qanadlarında uçuşa hazırlaşmışdı. M.Arazı altmışıncı illərdə bu ədəbi mübarizələrin heç bir qütbü cəlb eləmirdi, lakin istər istəməz, o da hədəfə çevrildi. "Ömür karvanı" kitabındakı bir çox şeirlər elə buna görə haqsız tənqidə ürcah oldu. Guya "Məmməd Araz mühüm bədii məsələlərin həllində, yaxud bu məsələlərə münasibətdə subyektivizmə" qapılır. Hətta belə bir fikir:

Vüqarla yaşamış söz babaları,
Onu yaşatmasın şeirimiz niyə?

deyərkən, şair nəyə işarə edir, hansı məsələdə şeirin namərdlik göstərdiyini, cəsarətsiz hərəkət etdiyini nəzərdə tutur?

M.Arazın şair taleyində belə haqsız tənqidlər çox olubmu? Zənnimcə, o qədər də yox”! [2, s. 10-11].

Doğrudan da belədir. Tənqidçi alimlərin fikirlərini nəzərdən keçirdikcə, görürük ki, M.Araz sənəti həmişə tənqidçilər tərəfindən düzgün aspektdən təhlil edilmiş, öz lazımi qiymətini almışdır.

Y.Axundlunun 1998-ci ildə Azərbaycanın üç görkəmli şairi – Bəxtiyar Vahabzadə, Xəlil Rza və Məmməd Araz yaradıcılığına həsr olunmuş “İstiqlal şairləri” adlı kitabı “Elm” nəşriyyatında çap olunmuşdur. Görkəmli ədəbiyyatşünas yazır: “Məmməd Araz müntəzəm olaraq publisistika ilə də məşğul olmuşdur. Onun publisistik yaradıcılığında çox ciddi ictimai-siyasi problemlər öz əksini tapmışdır. Bu publisistik məqalələr 1975-ci ildə çapdan çıxmış “Həyatın və sözün rəngləri” kitabında toplanmışdır.

M.Araz həm də gözəl tərcüməçidir. Şairin özü tərcümə yaradıcılığı barədə yazır. “Dünya ədəbiyyatından, rus və digər xalqların klassik və müasir ədəbiyyatından xeyli tərcümələr eləmişəm. Az qala öz yazılarımın yarısı qədər. Bunlardan müstəqil kitablar da var, müxtəlif toplulara daxil olanlar da. Lermontovu, Nekrasovu, Şevçenkonu, Abayı, Taqoru, Leonidzeni, Svetlovu, Vasilyevi, Noneşvilini, Mixalkovu, Qaysın Quliyevi, Mustay Kərimi və b. sənətkarları azacıq da olsa duyub, dilimizdə danışdıra bilmişəmsə, bu da xoşbəxtliyin bir hissəsidir” [1, s. 96-97].

1966-cı ildə şairin anası Cahan xanım, 1972-ci ildə atası İnfil kişi dünyasını dəyişir. Valideyn ölümü hər insan üçün böyük faciədir. Şair də bu ağır itkilərlə barışa bilmirdi. O öz ana həsrətini şeirlərində qeyd etmişdir.

Şairin həyatında ilk itki anası ilə bağlı olmuşdur. Şairin yazdığına görə anası Cahan onun həyatında çox böyük bir rol oynamışdır. Anasının ölümündən sonra yazdığı “Anamdan yadigar nəğmələr” silsiləsi də onun ən gözəl şeirlərindəndir.

Daha gəlməyəcək anamın səsi,
Mənə də taleyin yumruğu dəydi.
Düzü acığıma gəlir: bəzisi
Soruşur mərhumun yaşı neçəydi?

– Bilmirəm...düşmüşdü saçlarına dən...
... Dolaşır sualla, cavab başımda.
– Ana kədərini yaşmıdır ölçən?
Ana itirmişəm ana yaşında.

Tənqidçi Vaqif Yusifli bu şeir haqqında yazır: “Bu şeir XX əsrin hecasında yazılıb, lakin bütün çalarları ilə köklərə bağlıdır, ana kədəri; ana duyğusu bütün klassik poeziyamızda, xalq şeirində ayrıca bir silsilədir, hətta A.Səhhət şeirində Vətən timsalı kimi ümumiləşdirilir. Vətəni itirmək, Vətəni sevməmək Ana itkisi və İnsani hisslərin itkisi kimi dərk olunur. Ancaq M.Araz ana itkisini, ana kədərini bütün klassik poeziyada və xalq şeirində görünməyən bir obrazda

təqdim edir: Ana kədərini yaşmıdır ölçən, Ana itirmişəm ana yaşında" [1, s. 98].

Məmməd Araz ürək yanğısı ilə yazmışdır.

Məndən ötdü...
Bunu dedi Şəki xanı,
Bunu dedi Bakı xanı.
Bunu dedi İbrahim xan,
Fətəli xan, Kəlbəli xan

Akad. İsa Həbibbəyli M.Araz yaradıcılığı ilə bağlı ciddi tədqiqatlar müəllifidir.

Məni şeirimdə gəz bir insan kimi,
Qəlbimdə nə varsa, ona demişəm.
Anadan-bacıdan gizlətdiyimi,
Kağızdan qələmdən gizlətməmişəm.

Bu misralar haqqında İsa Həbibbəyli yazır: "Öz yaradıcılığının əsas qəhrəmanı, aparıcı siması olan, düşündüklərini, yaşadıqlarını yazan Məmməd Arazın əsərləri həqiqi bir şair ömrünün mənalı və pozulmaz səhifələridir. Bir çox istedadlı şairlər kimi, Məmməd Arazın əsərləri də onun ibrətamiz həyat dastanı, mənalı ömürnaməsidir. Hətta tərcümeyi-hala dəxli olmayan digər mətləblər də şairin ömür-can köynəyindən, qəlbindən keçərək şeirə çevrilir. Belə məqamlarda əsl şair üçün bir "qəlbin yükü" az qala bir ömrün yükündən qat-qat ağır olur" [3, s. 3].

Şair yenicə müstəqilliyə qovuşmuş Azərbaycanı bəlalardan xilas etmək üçün xalqı mübarizəyə və birliyə çağırır. O, öz şeirlərində həmişə birliyi, bərabərliyi, vətən sevgisini ön planda yazmağı özünə bir vətəndaş borcu bilmişdir. Müstəqil Azərbaycan torpağında yaşamaq onun ən böyük arzusu olmuşdur.

Akad. İsa Həbibbəyli öz kitabında bu məsələyə toxunaraq yazır: "Yenicə müstəqillik qazanmış Azərbaycanı da sanki körpə uşaq kimi Məmməd Arazın şeirində boy atır. Xalq şairi Azərbaycanı düçar edildiyi bəlalardan qorumaq, xilas etmək və yaşatmaq üçün hamıdan qabaq Azərbaycanın özünü var gücü ilə haraya köməyə çağırır:

Nə yatmısan, qoca vulkan, sənin ləyəm!
Ayağa dur, Azərbaycan, sənin ləyəm!
Səndən qeyri biz hər şeyi bölə billik!
Səndən qeyri biz hamımız ölə billik!
...Hanı sənin tufan yıxan, gürşad boğan
Yurda oğul oğulların?!
Qara Çoban, Dəli Domrul oğulların!
Çək sinənə-qayaları yamaq elə,
Haqq yolunu ayağına dolaq elə,
Bayrağını Xəzər boyda bayraq elə.
Ayağa dur, Azərbaycan!

Son illərin məhsulu olan "Ayağa dur, Azərbaycan!" şeiri İstiqlal şairinin yeni dövrdəki qüvvətli səfərbərlik marşı kimi səslənir [3, s. 18].

Məmməd Araz yaradıcılığını nəzərdən keçirdikcə görürük ki, ədəbi- tənqid tərəfindən onun irsi həmişə müsbət qiymətləndirilmiş, bu gün də bu ənənə belə davam etməkdədir.

Şair öz torpağına, daşına, millətinə bağlı olduğundan onun şeirləri hər zaman oxucular tərəfindən sevilmiş və gələcək nəsillərin yetişməsində çox böyük rol oynamışdır.

ƏDƏBİYYAT

1. Axundlu Y. İstiqlal şairləri. Bakı: Elm, 1998, 126 s.
2. Yusifli V. Məmməd Araz dünyası. Bakı: Şur nəşriyyatı, 1994, 160 s.
3. Həbibbəyli İ. Xalq şairi Məmməd Araz. Albom-monoqrafiya. Bakı: Azərbaycan nəşriyyatı, 1999, 160 s.
4. Məmməd Araz. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2004, 384 s.

Нигяр Садыкзаде

ТВОРЧЕСТВО МАМЕДА АРАЗА В ЛИТЕРАТУРНОЙ КРИТИКЕ

В статье говорится о роли литературной критики в творчестве видного Народного поэта Мамеда Араза. Творчество знаменитого поэта всегда высоко оценивалось влиятельными представителями Азербайджанской литературы.

Рассматривая творчество поэта, мы видим, что литературно-критическая сторона его наследия всегда находилась в центре внимания. Эта традиция продолжается и сегодня.

Ключевые слова: *литературная критика, поэт, Нурсу, поэтика, Азербайджан.*

Nigar Sadygzadeh

WORKS OF MAMMAD ARAZ IN LITERARY CRITICISM

The paper deals with the role of literary criticism in the works of prominent National poet Mammad Araz. The works of the famous poet has been always appreciated by influential representatives of Azerbaijani literature.

Considering the poet's works, we see that the literary-critical side of his heritage has been always in the spotlight. This tradition continues today.

Key words: *literary criticism, poet, Nursu, poetics, Azerbaijan.*

(Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

NƏRGİZ İSMAYILOVA
AMEA Naxçıvan Bölməsi
E-mail: nergiz.ismayilova@hotmail.com

SOVET DÖVRÜNDƏ NAXÇIVAN ƏDƏBİ MÜHİTİNDƏ QƏRB ƏDƏBİ ƏNƏNƏSİNİN ZƏİFLƏMƏSİNİN SƏBƏBLƏRİ VƏ NƏTİCƏLƏRİ

Məqalədə Sovet dövründə Naxçıvan ədəbi mühitində Qərb ədəbi ənənəsinin zəifləməsinin səbəblərinə diqqət çəkilib, və bunun nəticələri sadalanaraq, həmin nəticələrə münasibət bildirilib. Həmçinin bu dövrdə yazıb-yaradan sənətkarların yaradıcılıqlarında yer alan Sovet mövzusu və sovet hökumətinə münasibətin fərqli çalarları tədqiqata cəlb olunmuşdur.

Açar sözlər: *Naxçıvan, Qərb, ədəbiyyat, ədəbi mühit, Sovet dövrü.*

Sovet dövründə Qərb ədəbi ənənələrində geriləmə müşahidə edildi. Bunun səbəbi Sovet hökumətinin yeritdiyi siyasət idi. Bunun nəticəsində milli ədəbiyyata təkrar baxış yarandı. Beləliklə ədəbiyyatımızda rus mütəfəkkirlərinə yenidən meyl nəzərə çarpmağa başladı. Sovet psixologiyası sayəsində ideologiyanı tərənnüm edən əsərlər günbəgün çoxalırdı. Bu isə ədəbiyyata ciddi zərbələr vurdu. Ədəbiyyat ilk dəfə ideoloji ünsürlərlə tanış oldu. Ancaq bununla birlikdə Vətənin azadlığı yolunda çarpışan qələmlər də yox deyildi. Sovet dövründə Rusiyanın yeritdiyi siyasət Azərbaycan tarixiylə birlikdə, mədəniyyətimizə də güclü zərbələr vurdu. Milli ənənənin təbliğinə yönəldilən siyasətin arxasında Sovet Rusiyasının siyasətinin təbliğinə dair prinsiplər dururdu. Rusiyanın dünya arenasında yeritdiyi siyasət sonralar onun tərkibində olan ölkələrin də siyasəti kimi təbliğ olunur, bu həmin ölkələrin tarixinə, mədəniyyətinə hopdurulurdu.

Rusiyada bolşeviklərin hakimiyyətə gəlməsindən sonra onun köhnə müttəfiqləri İngiltərə, Fransa, ABŞ-ın bu dövləti tanımaması və ona qarşı olan qüvvələrə dəstək verməsi təklənmiş Türkiyə ilə yaxınlaşmanı sürətləndirməyə bilməzdi. Başqa məğlub olan dövlətlər Almaniya, Bolqarıstan, Avstriyadan fərqli olaraq bu ölkələrdə antiimperialist hərəkat gedirdi və bu iki ölkədə müttəfiqlər öz istədikləri hakimiyyət orqanlarını yarada bilməmişdilər. Buna görə də Türkiyə ilə Sovet Rusiyası arasında yaxınlaşma zərurətdən irəli gəlirdi. Onların yaxınlaşmasını müəyyən dərəcədə ideoloji yaxınlaşma kimi də qeyd etmək olar. Düzdür, Anadoluda başlanan hərəkat bolşevizmdən uzaq idi. Ancaq burada da antiimperialist ideologiya hökm sürürdü.

“Sovet Rusiyası isə öz niyyətlərini antiimperialist ideologiyada gizlətmişdi. Bu iki dövlətin konkret qərb dövlətlərinə qarşı fikir ortaqlığı onların yaxınlaşmasını sürətləndirirdi. Yaxınlaşmaya isə ən böyük maneə Qafqaz idi. Mustafa Kamal paşa Sovet Rusiyası ilə yaxşılaşmaya həyati bir önəm verirdi. Bu Mustafa Kamalın Kazım Qarabəkir paşaya göndərdiyi məktubda da öz əksini tapır: “Türkiyə Qafqazda bolşevik istilasının asanlaşdırıb onunla bərabər hərəkət edərsə, qərbdən şərqə, doğru Anadolu, Suriya, İran, İrak, Əfqanstan, Hindistan qapılarını müdhiş bir surətdə açmış olacaqdır” [8].

I Dünya müharibəsi dövründə vahid koalisiyada digərinə qarşı döyüşmələrinə baxmayaraq, hər bir düşərgənin daxilində kəskin ziddiyyətlər hökm sürürdü. Antanta cəbhəsində ən kəskin ziddiyyətlər İngiltərə və Rusiya arasında idi. İngiltərə və Fransa müharibənin sonuna qədər Rusiyanın güclü qalmasını istəmirdilər. Güclü Rusiya qənimətin bölüşdürülməsində onlara mane ola bilərdi. Müharibənin strateji proqramı haqqında məsələlərdə də Rusiya ilə müttəfiqləri arasında fikir ayrılığı mövcud idi. İngiltərə və Fransa Qərb cəbhəsini əsas cəbhə hesab edərək Rusiya ordusuna ən xoşagəlməz rollar ayırırdılar. 1918-ci il noyabrın 11-də Kompeyn barışığının imzalanması ilə 34 ölkənin iştirak etdiyi Birinci Dünya Müharibəsi başa çatdı. Bu müharibədə 10 milyon nəfər öldürüldü, 20 milyon nəfər yaralandı. Müharibə külli miqdarda xərclərə səbəb oldu. Müharibə nəticəsində dünyanın siyasi xəritəsində ciddi dəyişikliklər baş verdi. Avstriya-Macarıstan, Osmanlı, Rusiya imperiyaları dağıldıldı və yeni müstəqil dövlətlər meydana gəldi.

Görüldüyü kimi, Rusiya bəxtini Qərblə münaqişələrdə sınasa da bu onun xeyrinə olmadı. Rusiya maddi, mənəvi itkilərə məruz qaldı [1, s. 30].

Sovet Sosialist Respublikaları İttifaqı, qısaca: Sovet İttifaqı, SSRİ 1922-1991-ci illərdə əsasən indiki MDB dövlətləri ərazisində mövcud olmuş dövlət. SSRİ dünya tarixində rəsmi ideologiyası marksizm-leninzm-sol radikal sosialist ideologiyası olan dövlət olmuşdur [10].

İkinci dünya müharibəsi qurtardıqdan sonra SSRİ müharibədən 27 milyonluq insan və çoxlu miqdara təbii sərvət itkisi ilə çıxdı. Lakin SSRİ müharibədən qalib və qat-qat güclü hərbi-iqtisadi potensialla çıxmağı bacardı. Müharibədən sonrakı dövrdə dünyada supergüc kimi tanınmağa başladı. 1950-ci illərdə 6200 sənaye müəssisəsi bərpa olundu və ya yenidən quruldu. 1991-ci il dekabrın 8-də SSRİ-ni təşkil etmiş Rusiya SFSR, Ukrayna SSR və Belorusiya SSR SSRİ-nin parçalanması haqqında istəklərini bildirdilər. 1991-ci il dekabrın 25-də Mixail Qorbaçov istefa verdi. Dekabrın 26-da Kreml üzərindən SSRİ-nin qırmızı bayrağı endirildi və beləliklə 1922-ci il dekabr ayının 30-da yaranmış və 69 il mövcud olmuş SSRİ dağıldı (9).

Qərbdən üz döndərən Sovet Sosialist Respublikası Şərqin gücünə arxalansa da dağılmamaqdan qurtula bilmədi. Qeyd etdiyimiz kimi, qısa tarixi xronoloji məlumatlardan aydın olur ki, Rusiya tarixin müxtəlif dövrlərində Qərblə münasibətində soyuq rüzigarlar əsib bu isə Rusiyanın müxtəlif zaman kəsiyində

yaranan siyasi addımlarında öz əksini tapıb. Bu bütün sahələrə təsir etdiyi kimi, ədəbiyyata da öz təsirini göstərmişdir. Sovet Rusiyası ədəbi qüvvələri dünya sivilizasiyasından uzaqlaşdırıb, sovet ideologiyasına xidmət etməyə cəlb edirdi.

"1920-ci illər SSRİ-nin ilk illəri və bir növ, məcbur qaldığı azad düşüncə qapısını açmasa da, tam qapada bilmədiyi dövrdür. 20-ci illərdə Moskva və Leninqradda çap olunmuş Z.Freyd, F.Nitşe, A.Şopenhauer, T.Vulf... Rusiyanın XX əsrin əvvəllərində qazandığı fikir böhranının, azad düşüncə axtarışlarının davamıdır. Bir tərəfdən Tolstoy, Dostoyevski genişliyi və dərinliyi, Qoqolun, Çexovun ziddiyyət və harmoniya arayışları, o biri tərəfdən Plexanovun, Sorokinin, Sokolovun ictimai-fəlsəfi araşdırmalarının önünü inqilab kəskin şəkildə ala bilməzdi" [11].

Bu cəhd üçün öncə Leninə, sonra Stalinə 10-15 il lazım oldu. İlk öncə siyasi rəqiblər və siyasi müxalifət məhv edilməyə başlandı. Sənayeləşdirmə, kollektivləşdirmə və mədəni inqilab kampaniyaları, onların ardınca ümumdünya iqtisadi böhranı, aclıq, köç və repressiya başladı. Bu tarixi kontekstdə azad düşüncənin taleyi, demək olar ki, ən azı birinci planda həll olundu.

1919-cu ilin iyulunda daşnaklar ingilislərin köməyi ilə Naxçıvanı tutdular. Çox keçmədən ingilislərin Naxçıvanı tərk etməsindən istifadə edən Naxçıvan Milli Komitəsinin hərbi dəstələri daşnakların nizami qoşununu Naxçıvandan qovdu. 1920-ci il aprelin 28-də Bakıda, iyulun 28-də Naxçıvanda sovet hakimiyyətinin elan edilməsi və Azərbaycan SSR-in yaradılması, Zəngəzurun Azərbaycandan alınaraq Ermənistana verilməsi və Naxçıvanın Azərbaycandan ayrı düşməsi, Naxçıvanın muxtariyyəti məsələsini gündəliyə gətirdi. 29 noyabr, 1920-ci ildə Ermənistanda sovet hakimiyyəti elan edildikdən sonra Ermənistan SSR hökuməti də Naxçıvanı özünə ilhaq etmək üçün dəfələrlə cəhdlər göstərdi. Lakin 1921-ci ilin yanvarında Naxçıvan əhalisinin 90 faizi muxtariyyət statusunda Azərbaycan SSR-ə birləşməyə səs verdi. Naxçıvan yeni yaradılan Naxçıvan SSR-in, Naxçıvanın muxtariyyət statusunu qəti müəyyənləşdirən Moskva və Qars müqavilələri imzalandıqdan (1921) sonra, 1924-cü il 9 fevralda Naxçıvan MSSR təşkil edilərkən respublikanın paytaxtı oldu [12].

Bir mühiti tədqiq etmək üçün öncəliklə o zamanın siyasi atmosferini öyrənmək lazımdır. Qeyd etdiyimiz kimi, ölkədəki siyasi aura əli qələm tutan şəxslərin yazılarında da öz əksini tapırdı. Milli vətənpərvərlik ruhunda olan insanlar formalaşırdı. XIX-XX əsrlər Naxçıvan ədəbi mühitinin özünəməxsusluğu onda idi ki, burada dünya ədəbiyyatına maraq və hörmət çərçivəsində, milli ədəbiyyat formalaşırdı. Bəşər tarixinə korifeylər bəxş edən Naxçıvan torpağında yazıb-yaradan sənətkarların yaradıcılığında ilklər mövcud idi.

Sonralar Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin konfransında Ali Məclisin Sədri cənab Vasif Talıbov çıxış edərək demişdir: "Hər bir xalqın həyatında ədəbiyyatın, bədii söz sənətinin mühüm yeri və rolu vardır... Ədəbiyyatın ən böyük amalını və tarixi missiyasını mənsub olduğu xalqa xidmətdə görən ümummilli liderimiz hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan

ədəbiyyatının inkişafına çalışmış, yaradıcı ziyalıları himayə etmiş, sağlam ədəbi mühitin yaradılmasını bir nömrəli vəzifələr sırasına çəkmişdir".

"Müstəqillik dövrünün özünəməxsus ədəbiyyatı olmalıdır", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, "bu dövr əvvəlki dövrlərdən tamamilə fərqlənir. Əsas fərq bundan ibarətdir ki, Sovetlər Birliyi dövründəki kimi indi ədəbiyyatın üzərində senzura yoxdur. Müxtəlif mövzular üzrə dövlət sifarişləri aradan qaldırılmış, mövzu seçimində tam sərbəstlik verilmişdir.

Diqqət etsək görərik ki, "XX əsrin son üç rübü ədəbi tərəqqi" ideyaca qapalı bir məcrada məhdud hərəkət çərçivəsində" inkişaf edir. "Ədəbiyyat ikiyə haçalanır: yaradıcılığını bəşəri tərəqqinin davamı olaraq inkişaf etdirən sənətkarlar-repressiya qurbanlarına çevrilirlər; yeni sovet ədəbiyyatını isə "sovet realizmi" daxilində təsvirlə məhdudlaşan sənətkarlar yaradır" Beləliklə, Sovet ədəbiyyatı iki mərhələyə bölünür: 1. Repressiya, ehkam, kult və qrafomanlıq ideologiyasının hakim olduğu 1920-1950-ci illər; 2. "Yenidənqurma" ilə tamamlanan yeni ictimai əxlaqın və düşüncə tərzinin təşəkkül tapdığı 1960-1990-cı illər" [7, s. 46].

Qeyd edildiyi kimi, Sovet dövründə ədəbiyyatda olan ciddi senzura ədəbiyyatın inkişafına zərbələr vururdu. Sovetlərə rəğbət hissi aşılanmayan əsərlər çapa buraxılmır, müəllif təqib edilirdi. 1937-ci illəri, ağır repressiyanı göz önünə gətirək. Birdən-birə ictimai fikir mücahidlərimiz, qüdrətli zəka sahiblərimiz ideoloji siyasətin, mənfur irticanın qurbanına çevrilir. 1920-1950-ci illərdə yaşayan Naxçıvanlı ədəbi simaların yaradıcılığına nəzər salsaq görərik ki, onların əksəriyyətində azadlıq, bəşərilik və s. bu kimi nəfəslər duyulurdu. Sovetlər Birliyində totalitarizmin dəhşətli dövründə Hüseyn Cavid sosializmin "nailiyyətlər"indən yazmağı özünə rəva bilməmiş, Stalini, Azərbaycan ağalarını mədh etməkdən qətiyyətlə boyun qaçırmışdır. Ona görə də bu mətin şəxsiyyət Sibir buzlaqlarına, Maqadana sürgün edilmiş və 5 dekabr 1941-ci ildə İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko kəndində həlak olmuşdur.

"Sovet ədəbiyyatı" qavramını və ya 70 il işlənən "Sovet ədəbiyyatı" terminini və ya o termin altında anlaşılan tanımı, mənanı açıqlığa qovuşdurmadan sosializm realizmi ədəbi metodundan, onun tərkib hissəsi olan inqilabi romantikadan, ədəbiyyatda xəlqilikdən, partiyalılıqdan danışmamaq, onların mahiyyətinə varmamaq mümkün deyil. Bir amili də unutmaq olmaz ki, "sovet ədəbiyyatı" anlayışı daxilində olan sırf realist, modernist və romantik əsərlər, poetika zənginliyi ilə seçilən bədii əsərləri də ehtiva etdiyi diqqətdən yayınmamalıdır.

XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanda yaradılan rus üsul-idarəsinə məcburi tabe olan xalq və rus dilinin hər sahədə əsas rol oynaması Qərbə olan münasibətdə əsaslı dəyişikliklər etdi. Bu zaman ədəbiyyata siyasət bulaşdı. XX əsrdə rus idarəsinə yaşayan xalqların ədəbiyyatların da ortaq fikirlər, təsvirlər, istəklər nəzərə çarpırdı. Bu illərdə Azərbaycan ədəbiyyatında olduğu kimi, Orta Asiyada, digər türk dövlətlərinin ədəbiyyatlarında (Türkmən) ədəbiyyatında da torpaq islahatı , qadın haqları , zəngin-kasıb əleyhdarlığı kimi

mövzulardan bəhs olunur, bu çərçivədə 1920-ci illərin əsərlərində , rusların təzyiqlərinə qarşı onlar öz şikayətlərini dilə gətirirdilər. Bu səbəbdən XX əsrin əvvəllərində yazılan əsərlərdə əsas mövzu həyat olsa da, ədəbiyyat siyasi məsələlərə yönəldilən silah rolunu oynayırdı. Sovet rejiminin gətirdiyi təzyiqlər qarşısında dövləti idarə edənlər və rejim lehində sinif anlayışını dilə gətirən əsərlər artırdı. Bu əsərlərdə ədəbiyyatdan çox siyasət nəzərə çarpırdı. Xalqın azadlığı uğrunda çalışanlar, rusların yeritdikləri siyasətə öz münasibətini bildirənlər təqib olunurdu. Məsələn A.Gulmuhammedov "xalq düşməni", "burjua milliyyətçisi" kimi ittihamlara məruz qalmış, H.Durdaev Sibirə sürgün olunmuş, B.Kerbabaevisə göz həbsinə alınmışdır. 1937-ci ildə həbs olunan, Hocanepes Çarıyev 1941 ildə, Oraz Taçnazarov isə 1942 ildə öldürülmüşlər [3, s. 117].

Sovet ədəbiyyatının yaradıcılıq metodu sosializm realizmi və onun tərkib hissəsi olan inqilabi romantika haqqında, ədəbiyyatın partiyalılığı və xəlqiliyi və s. kimi ünsürlər ədəbiyyatı məhv edirdi. "XX əsr daxilində öz əlahiddəliyi ilə xüsusi əhəmiyyət kəsb edir. Keçid dövrü kimi xarakterizə olunan bu mərhələnin bir-biri ilə ziddiyyət təşkil edən ikili səciyyəsi-onun həm qopub ayrıldığı sovet dövrünün rudimentlərini özündə daşıması, həm də bu qalıqlarla mübarizə apararaq yeni biçimdə özünü ifadə etməyə çalışması kimi əlamətlər onilliyin əsas göstəricisini təşkil edir" [2, s. 21].

Əsl həqiqəti C.Məmmədquluzadə və Hüseyn Cavid vaxtında görmüş, onun mürtəce antiazərbaycan mahiyyətini başa düşmüşdülər. Repressiyaya məruz qalmış sənətkarlar arasında Azərbaycan ədəbiyyatı və incəsənətinin, ədəbiyyatşünaslıq və dilçilik elmlərinin çox görkəmli nümayəndələri olmuşlar: böyük dramaturq böyük maarifpərvər Firidun bəy Köçərli, H.Cavid, parlaq, istedadlı şair M.Müşfiq, görkəmli nasir və ədəbiyyat tənqidçisi S.Hüseyn, Azərbaycan Respublikasının ilk (və son) himninin müəllifi məşhur şair Ə.Cavad, məhsuldar ədib və alim Y.V.Çəmənzəminli, filologiya professoru, poliqlot alim B.Çobanzadə, Bakı Dövlət Universitetinin rektoru, yazıçı T.Ş.Simürğ, Bakıda ilk Şərq konservatoriyasını açmış Xədicə xanım Qayıbova, görkəmli teoloq-alim, Bakı qazisi Mir Məhəmməd Kazım ağa, folklorçu-alim H.Zeynallı, faciəvi rolların səhnəmizdə ən görkəmli ifaçıları A.M.Şərifzadə, Ü.Rəcəb və onlarca başqaları... Sürgündə və məhbəsdə həlak olmuş Y.V.Çəmənzəminlidən və H.Caviddən başqa bu yaradıcı ziyalıların hamısı güllələnmişdi.

Yaradıcılığında Qərbə dərin rəğbət hissi açıqca hiss edilən Məmməd Səid Ordubadi isə mühitdə sanballı əsərləri, siyasi fikirləri ilə diqqət çəkirdi. Məşhur sovet yazıçısı N.Tiaxanovun dediyi kimi, "Ordubadinin əsərlərini oxuduqdan sonra istedadlı Azərbaycan xalqı, onun inqilabi mübarizə yolu barədə geniş təsəvvür əldə etmək mümkündür" [6, s. 61].

Ümumiyyətlə, 20-ci illər Ordubadi fəaliyyətinin ən qaynar, dolğun illəridir. Bu illərdə o, dini, mövhumatı tənqid edən onlarla əsər – şeir, felyeton, məqalə və kitab yazır. "Məhərrəmlik və rövzəxanlıq" (1924), "Qurban bayramı

bidəti" (1925), "Kərbəla hadisələrinin mənşəyi" (1925), "Məhərrəmlik və mədəvi inqilab" (1929) kimi ateistik mövzuda yazdığı bir sıra əsərləri mövhumatla mübarizədə mühüm rol oynayır. Qeyd edək ki, bu kimi əsərlər sovet psixologiyasının təsiri ilə yazılırdı. Cəlil Məmmədquluzadə və Ordubadi əsərlərində çar Rusiyasını elə tənqid edirdi ki, sovet hökuməti bu ironiyanı təqdir kimi qəbul edirdi. Sonrakı dövrlərin psixologiyası isə tamamilə fərqli idi.

H.İbrahimovun da sonuncu romanı dahi mütəfəkkir, görkəmli dramaturq Hüseyn Cavidin kəşməkəşli taleyinə həsr olunmuşdur. Əsər 1956-cı ildə yazılmağa başlasa da, 30 ildən sonra yazıçı ona yenidən qayıtmış, 1987-88-ci illərdə tamamlamışdır. Roman kitab şəklində 1998-ci ildə nəşr olunmuşdur. Əsər H.Cavidin həyatının müxtəlif məqamlarını əks etdirən 7 şərti nağıldan ibarətdir. Bu nağıllarda şairin doğulduğu Naxçıvan mühitinin özünəməxsus çalarları, dindarlar və ziyalılar aləmi, gələcək sənətkarın uşaqlıq və gənclik illəri, həyatının Təbriz və İstanbul dövrü, Tiflislə bağlılığı, yaradıcılığının Bakı dövrü, o cümlədən sürgün illərinin məşəqqətləri və həyatının son günləri təbii, real boyalarla təsvir olunmuşdur. Cavidin məhkumluq həyatından bəhs edən romanda bəzən xəyali olaraq yaşadığı həyat canlandırılır, bu romana xüsusi gözəllik qatır. Lakin Hüseyn İbrahimovun əsərlərində tarixə sadiq olmamaq meyli romanlarının təsir gücünü fikrimizcə azaldır. Onun Sibirdəki məhkum yoldaşlarının müxtəlif millətlərin nümayəndəsi olması priyomu isə son dərəcə maraqlıdır. Bu yolla müəllif Cavidin dünya ölkələri haqqında düşüncələrini, baxış bucaqlarını sərgiləyə bilib. Onun kalon dostu Aleksandr (İsgəndər), gürcü balası və s. belə obrazlardandır. 4 illik məhkumluq həyatında belə qətiyyətini itirməyən Cavidin "İblis" faciəsinin bir hissəni məhkumlar üçün hazırlanan tədbirdə oxunması onun ən çətin günlərdə belə ədaləti bağıran simasını ifadə edir. Cavid millətinin başına bu cür fəlakətləri gətirənləri "İblis" adlandırmaqdan çəkinmir. Hələ romanın əvvəlində Cavidin dilindən verilən: "Lütsiferlər, Mefistofellər, Demonlar, Qanburunlar, İblislər nə qədər ki var bəni-adəm rahat olmayacaq… Bu gün Şərqdə abidlik edən, yarın Qərbdə rahiblik edir… Zəmanə yaman xarab olub [4, s. 343].

Bu əsər də sovet psixologiyası və sovet doğrularının yanlışa çevrildiyinə dair bir işartı idi.

Yaradıcılığının parlaq dövrü XX əsrin əvvəllərinə sirayət edən ədiblərin Rusiyaya münasibəti, sonrakı dövrlərə nəzərən tamamilə fərqli idi. Hüseyn Razinin yaradıcılığının ilk dövrünü olan 1950-1960-cı illəri axtarışlarla keçsə də, o da Sovet ənənəsinin tələb etdiyi kimi, dövrün əhval-ruhiyyəsini əks etdirən əsərlər yazmışdır. Onun yaradıcılığında əsasən sosializm realizmi və əmək adamlarına rəğbət hissi yeni boyalarla əks olunub. "Altmışıncı illərdə Hüseyn Razinin yaradıcılığı janr müxtəlifliyi ilə seçilmişdir. O şeir yaradıcılığına davam etmiş, iki povest qələmə almışdır, dramaturgiya sahəsində də məhsuldar işləmişdir" [5, s. 28]. "Səsləşən dağlar" kitabında toplanan şeirlərində hələ də əllinci illərin nəfəsi duyulur. 60-cı illərdən sonra H.Razi ("Həmişəbahar", Azər-

nəşr, 1974; “Canlı Tonqal” Azərnəşr, 1977; “Ayılmaram”, Yazıçı, 1981 kimi kitabları onun yaradıcılığı üçün yeni poetik inqilab idi. Razi burada Sovet psixologiyasından uzaqlaşmış cəmiyyət hadisələrinə münasibət bildirmişdir. Ömrünün son illərində yazdığı “Gözün aydın” kitabında da onun bu tərzdə yazılan bir çox şeiri toplanmışdır.

Repressiya və irtica illəri kimi səciyyələndirilən Sovet dövründə yaşayıb yaratmış böyük sənətkarlarımız Azərbaycanın ağrılarını öz əsərlərində əks etdirmiş, bununla da nəsillərin qan yaddaşının düzgün formalaşmasına örnək olmuşlar.

Dolğun ideya, dərin məzmunu və vətənpərvərlik ruhu ilə yanaşı, obrazlı ifadələrin yeniliyi və bədii səviyyəsi baxımından da bu şeirlər Məmməd Arazın növbəti və daha səviyyəli yaradıcılıq mərhələsinə qədəm qoymasından xəbər verir.

Nəticə olaraq qeyd edə bilərik ki, Sovet dövründə Naxçıvan ədəbi mühitində Qərb ədəbi ənənəsinin zəifləməsinin səbəbləri bunlardır:

1. Sovet hökumətinin yeritdiyi siyasət, repressiyalar
2. Əyalət psixologiyası
3. Qapalı sərhəd zonası
4. Ümumi savadsızlıq

Sovet dövründə Naxçıvan ədəbi mühitində Qərb ədəbi ənənəsinin zəifləməsinin nəticələri isə:

1. İdeoloji ədəbiyyat yaradıldı, bu ədəbiyyat bəşəri deyildi. Və müəyyən vaxt sonra yox olmağa məcbur idi.
2. Yaranan ədəbiyyatda səmimilik yox idi, sovet realizmi dünyaya lazım olmadığı üçün ədəbiyyatımızı qapalı bir yola soxdu.
3. Ədəbiyyatda çaşqınlıq yarandı, ənənəvilik və milli dərk yox oldu, Qərbə üz tuta bilməyən şair və yazıçılar Şərqə üz tutdular.
4. Rus ədəbiyyatı, rus ədəbi janrları ədəbiyyatımıza hopdu.

ƏDƏBİYYAT

1. Abbasbəyli A.N., Yusifzadə S.Z. Beynəlxalq münasibətlər tarixi. Bakı: BDU nəşriyyatı, 2009, 309 s.
2. Akimova E. Yeni təfəkkür və ədəbi tənqid. Bakı, 2012, 280 s.
3. Çağdaş türk edebiyatları // Anadolu Üniversitesi yayını, № 2720, 245 s.
4. İbrahimov H. Böhtan. Bakı: Şərq-Qərb, 1998, 286 s.
5. İsmayılov N. H.Razinin yaradıcılıq yolu. Bakı: Elm, 2003, 248 s.
6. Vəzirova F. Ədəbi qeydlər və tədqiqlər. Bakı: Yazıçı, 1985, 188 s.
7. Qarayev Y. Tarix: Yaxından və uzaqdan. Bakı, 1996, 710 s.
8. http://shrem.io.ua/s425740/birinci_d252nya_m252harib601sind601n_sonra_t252rkiy6 01- az601rbaycan_m252nasib601tl601rind601_g601rginlik
9. http://az.wikipedia.org/wiki/Sovet_Sosialist_Respublikalar%C4%B1_%C4%

B0ttifaq%C4%B
10. http://az.wikipedia.org/wiki/Sovet_Sosialist_Respublikalar%C4%B1_%C4%B0ttifaq%C4%B1
11. http://www.azyb.net/cgi-bin/jurn/main.cgi?id=920
12. http://xatai.libmks.az/veten/2788-qdim-naxvan-torpa.html

Наргиз Исмаилова

ПРИЧИНЫ И ПОСЛЕДСТВИЯ ОСЛАБЛЕНИЯ ЗАПАДНОЙ ЛИТЕРАТУРНОЙ ТРАДИЦИИ В НАХЧЫВАНСКОЙ ЛИТЕРАТУРНОЙ СРЕДЕ В СОВЕТСКИЙ ПЕРИОД

Статья акцентирует внимание на причинах ослабления западной литературной традиции в Нахчыванской литературной среде в советский период. В статье были перечислены последствия, а так же выражено отношение к данному процессу. В исследование также были включены различные нюансы в творчестве мастеров по отношению к советской тематике и к советской власти.

Ключевые слова: *Нахчыван, запад, литература, литературная среда, советский период.*

Nargiz Ismayilova

CAUSES AND CONSEQUENCES OF WESTERN LITERARY TRADITION WEAKENING IN NAKHCHIVAN LITERARY ENVIRONMENT DURING THE SOVIET PERIOD

The paper focuses on the reasons for the weakening of the Western literary tradition in Nakhchivan literary environment during the Soviet period. The consequences of this process are listed in the paper; also the relation to it is expressed. Various nuances in the works of masters in relation to the Soviet theme and to the Soviet power are also included in the study.

Key words: *Nakhchivan, West, literature, literary environment, Soviet period.*

(Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

RAFİQ BABAYEV
AMEA Naxçıvan Bölməsi
E-mail: babayev_1953@mail.ru

OBRAZIN FUNKSİYASININ İŞARƏLƏNDİRİLMƏSİ
(Naxçıvan materialları əsasında)

Məqalədə inanc sistemindəki mifoloji obrazlardan söz açılır. Üçqatlı sistemdə bu obrazların yeri, funksiyası müəyyənləşdirilir, müqayisələr əsasında funksiyaların işarələndirilməsi səviyyəsi üzə çıxarılır.

Naxçıvandan qeydə alınmış inanclarda mifoloji obrazların geniş yer tutması diqqətə çatdırılır.

Açar sözlər: *obraz, mifologiya, funksiya, su inancı, bəd ruh.*

Etnik-mədəni ənənənin özünəməxsus layı olan inanc sistemində mifoloji obrazlar fərqli boy verir. İnanca görə, göy aləmi ulu Tanrının, xeyirxah ruhların məskənidir. Yerin üstündə insanlarla yanaşı əyələr də vardır. Yeraltı dünya adamlara zərər verən, zəfər toxunduran, demonik özəllikləri olan acıqlı ruhlarla doludur [6, s. 187]. Kalmıklar da inanırlar ki, yuxarı dünyada Tanrı, eləcə də gözəl insanlar, aşağı dünyada isə pis ruhlar olur [10, s. 166]. Bu düşüncə "sən göydən düşmüsən?" və ya "mən yerdən çıxmışam?" deyimlərində də yaşamaqdadır. Bu mühitdə ruhların görünüşü, varlığı da qəribə bir "dəqiqliklə" təsvir olunur. Altaylar suyun ruhunu ağ, torpağın ruhunu yaşıl, günəşin ruhunu sarı, odun ruhunu isə qırmızı olaraq təsəvvür edirlər [9, s. 50]. Tofaylarda, dunkanlarda dağ ruhu Haya İçite, ev ruhu Erge Sıp İçite, ağac-daş ruhu Mas-Tass İçite adlanır [10, s. 172]. Cənubi Azərbaycanda göy, göyün ruhu en, yer, yerin ruhu ki adlanır [10, s. 35]. Bizdə ənkə babaya and içilir. Çox ehtimal ki, ənkə baba yerin-göyün (yer ruhunun, göy ruhunun) birliyindən yaranmış obrazdır. Ənkə babaya and içilməsi, onun köməyə çağırılması, kiminsə ənkə babasının lənətlənməsi, yəqin ki, müəyyən vəziyyət və münasibətlərlə şərtlənir. Xett mifologiyasında yeraltı dünyanın allahı Yelvani adlanır [11, s. 48].

K.Vəliyev yazır: "Dağlara, daşlara, torpağa, ağaclara sahib olan ruhlar istisnasız xeyirxah ruhlardır, insanlara kömək edirlər. Onlara yizim piy deyilir.

...Xeyirxah ruhlar da yeri gəldikdə insanı cəzalandırır, xəstəlik göndərir və s." [14, s. 72].

Qərbi Sibir tatarlarında meşə əyəsi piçen, piçan, peşan, enperi, urman iyase [11, s. 316], su əyəsi kazan, Qərbi Sibir tatarları və qazaxlarda su iyesi, tatarlarda kişi – su babası, qadın su anası [11, s. 474], karaçaylılarda sun anası, kamuklarda suvanası [11, s. 471] adlanır. Ağac, ot əyəsini ereke adlandıran yakutlar onu torpaq əyəsi An darxan xatunun övladı [11, s. 669] hesab edirlər. Yakutlarda atəşin və ocağın sahibi "yiyəcəyi quru odun, yatağı qurumla qaralmış, yatağı köz, yorğanı kül olan ağsaçlı bir qadındır [13, s. 517]. Qədim türklərdə odun qarşısında bıçaqla ət doğramaq, oda bıçaq göstərmək günah sayılırdı. Bıçaqla, dəmirlə ocağı qarışdırmaqla odun yaralanacağına inanılırdı. Ocağı su ilə söndürmə büs-bütün yasaq sayılırdı [13, s. 519-520].

Naxçıvanda yayılan inanclarda bu ənənələrin mühafizəsi diqqəti çəkir. Burda inanılır ki, odun üstünə su tökəndə od əyəsinin acığına gələr, sənə sədəmə toxundurar [2, s. 20]. Deməli, ocağı su ilə söndürməyin yasaq edilməsi od əyəsi ilə şərtlənir. İnanclar cərgəsinə bu müstəvidən yanaşılsa, odun qarşısına bıçaqla çıxmağın, ocağı dəmirlə qarışdırmağın günah sayılmasının da səbəbini od əyəsi ilə əlaqələndirmək lazım gəlir.

Naxçıvanda deyirlər ki, ocağa tüpürmək, üstünə su tökmək, ya da ayaqlayıb söndürmək olmaz. Yoxsa ocaq sahibinin acığına gələr, adama zəfər toxundurar [2, s. 16]. Göründüyü kimi, eyni və oxşar inanclar od əyəsi, ocaq sahibi kimi təqdim olunan obrazla sıx əlaqələndirilir. Əyə, sahiblə bağlı düşüncə çox yayğındır. Burda deyilir ki, kimin həyətində qoyun varsa, hər gecə onun üstünə yeddi dəfə nur gələr. Qoyunun yiyəsi pak adam olmazsa, nur evin dövrəsini fırlanıb qayıdır [2, s. 17]. Gəlmək, fırlanmaq, qayıtmaq canlıya məxsusdur. Deməli, gələn nur düşüncədə canlı olaraq (sahib kimi) qəbul edilir. Onun pak olmayanların yanından geri qayıtması da obrazın funksiyasını işarələndirir. Mətnlərin birində deyilir ki, keçi olan yerə hal anası getməz. Hətta keçi qəzili olan yerdə də görünməz [3, s. 33]. Hər iki inancın yaratdığı qənaətdə ortaq nöqtələr vardır. Deməli, qoyun-keçi olan yerə xeyirxah ruhlar gələr. Onlar üçün paklıq, təmizlik vacib şərtdir. Bunun üçün qoyun-keçi olan yerə bəd ruhlar gəlməz.

Naxçıvanda inanılır ki, həftənin birinci günü ağac kəsmək günahdır. Həmin gün ağacların ruhu ziyarətə gedir. Həmin gün kim ağac kəssə, ağacın ziyarətdən qayıdan ruhu ona sədəmə vurar [3, s. 34]. Mətndə inanclar mərhələli şəkildə reallaşır, bu mərhələlər ciddi semantik əlaqələrlə bağlanıblar:

1. Birinci gün ağac kəsmək qorxuludur;
2. Birinci gün ağacların ruhu ziyarətə gedir;
3. Ziyarətə gedən ruh həm də geri qayıdır (deməli, canlıdır);
4. Ziyarətə gedən ruh kəsilən ağacı da, ağackəsəni də görür (deməli, canlıdır);
5. Ağacın ruhu gördüyünü yaddan çıxarmır, nə vaxtsa ağac kəsənə ziyan vurur.

Deyirlər ki, evdə adam olsa da, olmasa da içəri girəndə salam verərlər. Deyərlər, evdə kimsələr var. Onlar evə xeyir-bərəkət gətirir, qaranquş-filan do-

nunda adamın yuxusuna girir [2, s. 16]. Göründüyü kimi, mətndə ev əyəsi kimsələr adı ilə işarələnib. Tədqiqat göstərir ki, mifoloji obrazların gözə başqa donda görsənməsi də ənənədən gəlir. Məsələn, məleykələrin də bəzən ilan donunda gözə görsənməsinə inanılır. Görənlər də onu tanımır, ilan bilir, vurub öldürür. O biri tayı da buna görə evdəkilərə zərər verir [3, s. 33]. Göründüyü kimi, əyələr (sahiblər) xeyirxahdırlar. Onlar xoşbəxtlik, ruzi-bərəkət gətirirlər. Onların əsas funksiyaları budur. Müəyyən vəziyyətlərdə zərər vurub, sədəmə toxundururlar. Naxçıvanda inanılır ki, əyələrin içində ən üstünü su əyəsidir. Deyilir ki, su əyəsi suyun başında olur. Sudan addıyanda gərək suyun başına baxasan, yoxsa zərər çəkərsən. Göründüyü kimi, əyələrlə əlaqəli inanclarda zərər çəkmək müəyyən vəziyyətlərdən irəli gəlir. Başqa bir mətndə isə semantik dairə bir az da genişlənir: "Su əyəsi suda yaşayır. Suyun qırağında da bizdən yeylər yaşayır. Gəlib su əyəsinə salam verirsən, əyilirsən su içməyə. Bizdən yeylərin acığı tutur ki, bu niyə su əyəsinə salam verdi, bizə vermədi. Ona görə də sən əyiləndə arxadan vurur. Xəsdəlik tapırsan" [3, s. 25]. Eyni düşüncə strukturunda su əyəsi bizdən yeyləri də həmin müstəviyə çıxarır. Yaxşı-yaman qoşalığı bu obrazlarla gerçəkləşir. Yeylər su əyəsi ilə mübarizəni çox dərin qatlarda aparırlar. Qarşıdurma birbaşa deyil, müəyyən vasitələrlə reallaşır. Zərər vermək, incitmək yeylərin funksiyasında əsas şərtlərdəndir. Mətnin məntiqinə görə, burda edilən yamanlıq (arxadan vurmaq) su əyəsinə verilən salama görədir. Guya su əyəsinə salam verilməsə idi, ya hər ikisinə salam verilsə idi, zərər vurulmayacaqdı. Su əyəsinə salam vermək yeylərə hörmətsizlikdir və s. Halbuki ənənədə yeylərə salam verilmir. Nə olursa-olsun, yeylər bu pisliyi edəcəkdilər.

Ənənədə yaxşı-yaman qütblərinin bu cür təqdim olunması səciyyəvidir. Məsələn, Naxçıvandan toplanmış su ilə bağlı inanclarda çay qarısı, çay anası obrazları vardır. Çay qarısı pislik edir, hər kəsi yoldan çıxarır. Çay anası isə xeyirxahdır, hər kəsə yaxşılıq edir. Həmin inanclarda yaxşı-yaman qütbləri bu obrazlarla işarələndirilir. Kazan, Qərbi Sibir türklərinə, karaçaylara görə, su anasına hörmətsizlik edilsə, quraqlıq olar, xəstəlik gələr [7, s. 30]. Göründüyü kimi, bu, yamanlıq kimi yox, hörmətsizliyin nəticəsi kimi düşünülür. Naxçıvanda deyilir ki, suya salam verməsən, sənə qarğış edər, suyu hədər yerə qaynatmaq günahdır, su adama nalə edər [2, s. 27-28]. Digər inanclarla müqayisələr aparmaqla bu mətnlərdə su əyəsi, su anası obrazlarını asanlıqla bərpa etmək olar. B.Ögel çayların, suların qədimdə canlı varlıq olaraq düşünüldüyünü qeyd edir [13, s. 379]. Suyun hədər yerə qaynadıldığının günah hesab olunması, bu zaman suyun nalə edəcəyinə inanılması, onun canlı varlıq olaraq düşünülməsinin izlərinin yaşadılmasıdır. Su içəni vurmazlar, su içəni ilan da vurmaz, pis yuxunu suya danışarlar, qaynar suyu yerə atmazlar, qorxan adama su verərlər kimi inanclarda suya münasibətin bir çox istiqamətləri sistem təşkil edir. Dunkanlarda su qablarının ağzı örtülür, inanca görə, şeytan açıq qablara girə bilər [9, s. 127]. Eləcə də Naxçıvanda deyilir ki, suyun başına gedəndə salam vermək lazımdı. Suda Qarı nənə adlı bir şəxs yaşayır. Əgər ona salam verməsən, acığı

tutar, sənə zəfər toxundurar [2, s. 16]. Bu mətnin əsasında demək olar ki, su əyəsi burda Qarı nənə obrazında düşünülür. Bu obrazlar sırasında su adamı da vardır. "Arazda su adamı var. Səhər tezdən tək suya gedən görər. Aşağısı balıqdı, yuxarısı adam. Hətta daşlarda oturmağın da görüblər" [3, s. 27]. Onun aşağısının balıq, yuxarısının adam kimi təsəvvür edilməsi mifoloji şüurun məhsuludur. Bir məqama da toxunmaq yerinə düşər. Tanrıçılığın islamla əvəz olunmasından bəhs edərkən M.Cəfərli yazır: "İslam sakral obrazları tanrıçılıqda mövcud olan obrazların yerini tutmuşdur" [8, s. 117]. İnanclarda da belə bir transformasiya gerçəkləşmişdir. Məsələn, Naxçıvanda Arazın sakit axmasına bu kontekstdən yanaşılmışdır: "Fatmeyi-Zəhra xanım Araz qırağında namaz qılırmış. Deyillər ki, Arazın səsi onu narahat edir. Xanım üzünü Araza tutub səsin batsın, - deyir. O vaxtdandı ki, Araz sakit axır" [2, s. 29]. Göründüyü kimi, Tanrı-Allah, ibadət-namaz, müqəddəs ana – Fatmeyi Zəhra xanım, bəddua-qarğış səviyyələrində transformasiya baş vermişdir.

İnanclarda pis ruhlar müxtəlif adlarla işarələndirilir. Türk xalqlarında inanılır ki, pis yer ruhları, əsasən, ağac köklərindən və budaqlardan yer üzünə çıxarlar [13, s. 21]. B.Ögel qara gecəni yeraltı ruhlardan birinin adı olaraq göstərir [13, s. 265]. C.Bəydili dönərgəliyi, yarımçıqlığı, axsaqlığı yeraltı dünya güclərinin demonik özəlliyi kimi vurğulayır [6, s. 207]. Tədqiqatlarda "yeraltı səltənət hakimi, şeytan, cin, iblis" anlamlarında olan Ayna, "kinli, acıqlı ruh" anlamında olan Qaramat, Çor, Azar-Bezar [6, s. 228-232] kimi obrazlardan ətraflı bəhs olunmuşdur. Bir cəhət də diqqəti çəkir. Qeyd olunur ki, xakaslar ayna deyəndə acıqlı ruhları nəzərdə tutmuş, bu, eyni anlayış Tomsk tatarlarının dilində "yek", "cek" sözləri ilə ifadə olunmuşdur [6, s. 228]. Məlumdur ki, türkcədə ən çox yayılan və şeytan anlamına gələn söz "yek"dir [12, s. 430]. B.Ögel "Yek" (Yel) sözünün qədim türkcədə əsas qarşılıqlarını bu şəkildə göstərir: 1. Külək, 2. Hava, 3. Göy gurultusu, ildırım, 4. Pis ruhlar və cinlər (12, s. 308). Bu yönümdən bədəndəki ağrı və sızıltıya yel deyilməklə bunlar pis ruhlarla əlaqələndirilmişdir (12, s. 309). Ənənədə pis ruhlar həm yeraltı, həm də yerüstü ilə əlaqələndirilir. Dunkanlara görə, cinlər pis yerləri, pis əşyaları sevirlər. Ona görə də axşamlar qabları bulaşıq, evi natəmiz saxlamazlar [2, s. 133]. Şirvanda inanırlar ki, şər qarışan vaxtı astanada oturmazlar, cinlər, əcinnələr adama toxuna bilər [5, s. 37]. Qarabağda deyilir ki, şər vaxtı qoz ağacının altına getməzlər, yeylər adamı vura bilər [4, s. 38]. Düşüncədə qaranlıq, axşam, şər vaxtı pis ruhların aktivləşməsi üçün münbit zaman kimi qəbul edilir. Naxçıvanda deyilir ki, cinlər gecələr toy-bayram edərlər [2, s. 20]. Eləcə də "kim gecə zoğal ağacının altından keçsə onu cin, şeytan vurar" [2, s. 11]. O da səciyyəvidir ki, əyələrlə bağlı mətnlərdə qaranlıq, axşam, şər vaxtı kimi zaman ölçülərinə rast gəlmirik. Əyələr hər kəsdən salam verməyi, hörmət göstərməyi umurlar. Pis ruhlar isə müxtəlif şərtlər daxilində funksiyalarını həyata keçirirlər. Bu şərtlər onların funksiyasının aktivləşməsi və ya bunun əksi ilə əlaqəlidir. Məsələn, cin sözü yerinə üç hərfli adı işlədirlər. Yoxsa orda cinlər peyda olur. Evə girəndə

gərək bismillah deyəsən ki, cinlər çıxıb getsinlər [3, s. 35]. Göründüyü kimi, söhbət cinlərin peyda olmaması, ya da çıxıb getmələri ilə əlaqəlidir. Bu kontekstdə salam və bismillah əyələrə və yeylərə münasibəti işarələndirir, davranışın modelini müəyyənləşdirir. Digər şərtə nəzər salaq: "Cinlər ən çoxu çirkli yerlərdə olullar, ona görə də evi həmişə təmiz saxlamaq lazımdır" [3, s. 35]. Bu şərtdə münasibət açıq-aydın ifadə olunub. Yəni cinlərin evə toplanmağını istəmirsənsə, evi təmiz saxla. Yaxud: "Deyəllər, zoğal ağacının altında yatma. Zoğal ağacı şeytan yığıncağıdı. Altında yatsan hər cürə iş baş verər" [3, s. 28]. Deməli, düşüncədə cinlərin yaşadıqları və gəldikləri yerlər var. Buna görə də onların gəlməyinin qarşısını almaq lazım olduğu kimi, onlardan qorunmaq da lazımdır. Bunun üçün zoğal ağacının altında yatmamalısan. Bulaşıqlı qabın suyunun, bir də isti suyun yerə atılması da bu sıradandır. "Deyəllər, yeylərə zərər toxunsa, insanı vura bilər" [3, s. 40]. Tədqiqat göstərir ki, inanclarda pis ruhlarla münasibətlər təkcə bunlarla məhdudlaşıb qalmır. Pis ruhların qarşısına şərt qoyulması, bununla onların qorxudulması fərqli haldır. Naxçıvanda inanırlar ki, evdə nəsə bir şey itəndə onun tapılması üçün piyaləni üzüaşağı çevirmək və demək lazımdır ki, axtardığımı tapmayınca, şeytan, balalarını buraxmayacağam [3, s. 40]. Mətnin məntiqindən məlum olur ki, itən bir şeyin tapılması şeytanla əlaqəli düşünülür. Qabı üzüaşağı çevirməklə şeytanın qarşısında şərt qoyulması düşüncənin digər tərəfini aşkara çıxarır, yəni şeytanın balaları hər yerdə gəzibdolaşır. Əsas isə budur ki, qabı ağzı üstə çevirib o sözləri demək şeytana təsiretmə təşəbbüsüdür. Şeytanın evin bərəkətini aparması, toy eləyəndə cinlərin gəlib evlərdən qazan, düyü, yağ oğurlamaları inanclarda özünəməxsus sistem formalaşdırıb. Naxçıvandan toplanmış bir mətndə oxuyuruq: "Cinlərə bizdən yeylər deyərix. Bizdən yeylər hər yerdə var, ancaq insannara görsənməz. Təhcə mal-davar onnarı görər. Ona görə qoyun-keçi olan yerdə bizdən yeylər olmaz, yoxsa ayax altında qalıp qırılallar" [1, s. 37]. Cinlərin insana yox, mal-davara görsənməsinin bir çox mətnlərdə ifadəsi ənənədə bu məsələnin ciddi şəkildə mühafizə olunmasını diqqətə çəkir. M.Cəfərli yazır: "... "əyə" və "bizdən yey" kateqoriyalarına aid olan ruhlar əslində animistik təsəvvürlər əsasında qurulmaqla Yaxşı və Yaman anlayışlarının maddiləşməsini təcəssüm etdirir. Yəni ibtidai düşüncədə heç nə bu düşüncənin obrazlaşdırma sistemindən qıraqda qala bilmədiyi kimi, bu etik qoşalıqlar da obrazlaşmışdır" [8, s. 132-133].

Göründüyü kimi, inanclarda obrazların funksiyasının işarələndirilməsi ənənə ilə bağlıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. I c., Naxçıvan: Əcəmi, 2010, 510 s.
2. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. II c., Naxçıvan: Əcəmi, 2011, 496 s.

3. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. III c., Naxçıvan: Əcəmi, 2012, 560 s.
4. Azərbaycan folkloru antologiyası. Qarabağ folkloru. V c., Bakı: Səda, 2000, 414 s.
5. Azərbaycan folkloru antologiyası. Şirvan folkloru. XI c., Bakı: Səda, 2005, 443 s.
6. Bəydili (Məmmədov) C. Türk mifoloji obrazlar sistemi: struktur və funksiya. Bakı: Mütərcim, 2007, 272 s.
7. Babayev R. Naxçıvan folkloru: bəşərilik, türklük, regionallıq. Bakı: Elm, 2008, 144 s.
8. Cəfərli M. Dastan və mif. Bakı: Elm, 2001, 188 s.
9. Kalafat Y. Altaylardan Anadoluya inanc köçü. Ankara: Berikan Yayınevi, 2012, 244 s.
10. Kalafat Y. Balkanlardan Uluğ Türkistana Türk halk inancları. Ankara: Berikan Yayınevi, 2006, 454 s.
11. Мифы народов мира: В 2-х тт. Т. II, М.: Советская Энциклопедия, 1988, 719 с.
12. Ögel B. Türk mitolojisi. I c., Ankara: Türk Tarih Kurumu Basımevi, 2002, 644 s.
13. Ögel B. Türk mitolojisi. II c., Ankara: Türk Tarih Kurumu Basımevi, 2003, 610 s.
14. Vəliyev K. Elin yaddaşı, dilin yaddaşı. Bakı: Gənclik, 1987, 280 s.

Рафик Бабаев

ОБОЗНАЧЕНИЕ ФУНКЦИИ ОБРАЗА
(на основе материалов Нахчывана)

В статье речь идет о мифологических образах, отраженных в системе верований. В результате исследований определено место и функция этих образов в трехслойной мифологической системе и на основе сравнительного анализа выявлен уровень обобщения функций. Отмечается, что в верованиях, зарегистрированных в Нахчыване, мифологические образы занимают особое место.

Ключевые слова: *образ, мифология, функция, верования, связанные с водой, злой дух.*

Rafig Babayev

SYMBOLIZATION OF THE IMAGE FUNCTION
(on the basis of Nakhchivan materials)

The paper deals with the mythological images reflected in a belief system. As a result of research the place and function of these images in three-layered mythological system are determined and on the basis of the comparative analysis the level of function generalization is revealed. It is noted that in the beliefs registered in Nakhchivan mythological images take the special place.

Key words: *image, mythology, function, water beliefs, evil spirit.*

(AMEA-nın müxbir üzvü Muxtar İmanov tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

SƏBUHİ İBRAHİMOV
AMEA Naxçıvan Bölməsi
E-mail: s.ibrahimov71 @mail.ru

NAXÇIVAN TARİXİNƏ VƏ MƏDƏNİYYƏTİNƏ DAİR ƏLYAZMA MƏTNLƏRİNİN PALEOQRAFİK XÜSUSİYYƏTLƏRİ

Məqalədə Naxçıvan tarixinə və mədəniyyətinə dair əlyazma mətnlərinin paleoqrafik xüsusiyyətləri barədə geniş və ətraflı araşdırmalar aparılmış, onların növ müxtəlifliyi aydınlaşdırılaraq təyin edilmişdir. Həmçinin zəngin bədii və elmi irsə malik olan Naxçıvan tarixinə və mədəniyyətinə dair əlyazma mətnləri paleoqrafik baxımdan araşdırılması və onların elmi-tənqidi mətnlərinin tərtibi öz əksini tapmışdır.

Açar sözlər: *Naxçıvan, əlyazma, mədəniyyət, paleoqrafiya, tarix.*

Tədqiq ediləcək hər hansı bir əsərin dünya xəzinələrində saxlanılan əlyazma nüsxələri haqqında məlumatlar toplanması və onların əldə edilməsi üçün əsərin əlyazmalarının elmi-paleoqrafik təsvirini əhatə edən müxtəlif kitabxana və muzeylərin nəşr etdirdikləri kataloqları olmalıdır. Kataloqlarda verilmiş ayrı-ayrı əsərlərin əlyazmalarının elmi-paleoqrafik təsviri tədqiqatçıda tədqiq edəcəyi əsərin əlyazma nüsxələri tam təsəvvür yaradır. "Ümumiyyətlə hər hansı kitabxana və muzey öz əlyazma fondu haqqında elm aləminə lazım olan bilgilər vermək üçün yazılı abidələrin elmi-paleoqrafik təsvirinin həyata keçirilməsinə xüsusi diqqət yetirməlidir" [3, s. 175].

Dünyanın bir sıra kitabxanalarında, muzeylərində, kitab xəzinələrində, eləcə də ayrı-ayrı kolleksiyalarda saxlanılan ərəbdilli, türkdilli və farsdilli əlyazma abidələrinin elmi-paleoqrafik təsvirinə və kataloqlaşdırılmasına hələ XIX əsrdən başlamışlarsa da müəyyən yerlərdə bu iş indiyədək aparılmamışdır. Elmi-paleoqrafik təsvirlər ona görə aparılmalıdır ki, orta əsr əlyazma kitabları müasir nəşr kitabları kimi deyildir. Belə ki, müasir nəşr kitablarında müəllifin və əsərin adı, eləcə də mündəricatı verildiyi halda, əlyazma kitabları o cür deyildir. Əlyazma kitabları müxtəlif xarakterli olur. Onların bəziləri yuxarıda qeyd edildiyi kimi ayrı-ayrı əsərləri, bəziləri isə iki və daha artıq əsərləri, yaxud şairin poetik irsini əhatə edir.

Naxçıvan tarixinə və mədəniyyətinə dair əlyazma mətnlərinin paleoqrafik xüsusiyyətlərinin təsvirini müxtəlif şəkildə həyata keçirmək olar:

Əlyazmanın şifri. Çünki əlyazma abidələri kitabxana və muzeylərdə müəyyən edilmiş şifrlər altında saxlanılır. Bu şifrlər bəzi kitabxanalarda rəqəmlə, başqalarında isə hərf və rəqəmlə

(B-312 və ya S $\frac{212}{5532}$, 5125) göstərilmişdir.

Əsərin adı. Əlyazma kitabına daxil edilmiş əsərin adı göstərilir.

Müəllif. Müxtəlif mənbələr əsasında əsərin müəllifi müəyyənləşdirilərək, onun tam şəkildə adı verilir.

Müəllifin həyatı və əsərləri haqqında qısa məlumat. Əgər elmi-paleoqrafik təsvir kataloq üçün hazırlanırsa bu zaman müəllifin doğum və ölüm tarixi, yeri, təhsil aldığı şəhər və mədrəsələr, müəllimləri və tələbələri, dövrünün ədib və alimləri ilə əlaqələri, yaradıcılığı və əsərləri, ziyalıların onun yaradıcılığı ilə bağlı dedikləri fikirlər haqqında qısa və konkret məlumatlar verilir.

Əlyazmanın kağızı. Naxçıvan tarixinə və mədəniyyətinə dair əlyazma abidələri əsasən Şərqdə və Avropada istehsal olunmuş kağızlarda yazılmışdır.

Xətt və mürəkkəb. Mətnin əlyazma nüsxələrinin yazılmasında və ya köçürülməsində istifadə edilmiş xətt növü (kufi, nəsx, nəstəliq, şikəstə, süls, divani, tuğra, reyhani və s.) və mürəkkəblər (qara, qırmızı, yaşıl, mavi, sarı, bənövşəyi və s.) qeyd edilir. Ümumiyyətlə isə hər hansı bir əlyazma abidəsinin dili, qrafik və orfoqrafik xüsusiyyətləri haqqında müxtəsər bilgilər yazılır.

Abidənin vərəqlərinin sayı, səhifələnmə üsulu və ölçüsü. Elmi-paleoqrafik təsvirdə mətnin neçə (bir, iki, üç və ya dörd) sütunda yazıldığı və əlyazma kitabının vərəqlərinin sayı da qeyd edilir. Əlyazma kitabında səhifələrin ardıcıllığı həmin sözlərə əsasən müəyyən edilmiş olur. Həmçinin əlyazma kitabının və mətnin ölçüləri (sm-lə) göstərilir.

Əlyazmanın tərtibatı. Naxçıvan tarixinə və mədəniyyətinə dair əlyazma mətnlərinin paleoqrafik xüsusiyyətlərini araşdıran zaman məlum olur ki, müxtəlif yerlərdə və şəraitlərdə (saraylarda, mədrəsələrdə, məscidlərdə, evlərdə emalatxanalarda və s.) səviyyə və hazırlıq baxımından bir-birindən fərqlənən kitabçılar tərəfindən hazırlandığına görə onlar tərtibat baxımından da bir-birindən fərqlənir.

Mətnin haşiyələrində verilmiş məlumat və şərhlər. Hər hansı bir mətnin haşiyələrində verilən məlumatlar və mətnlər olduqca rəngarəng və müxtəlif xarakterlidir.

Vəqflər. yaşadığımız dövrə qədər gəlib çatmış Naxçıvan tarixinə və mədəniyyətinə dair əlyazma abidələrinin bir qismi ayrı-ayrı kitabxanalarda, məscidlərdə və başqa gizlin saxlanılan yerlərdə vəqf edilmiş kitablardır.

Əsərin sonuna yazılan sonluq. Əlyazma kitablarına daxil edilmiş əsərlərin mətnlərinin hər birinə adətən müəllif, katib, xəttat, filoloq və s. tərəfindən sonluq yazılmışdır.

Cildin təsviri. Əlyazma kitabının cildinin sadəcə kartondan və ya karton üzərinə çəkilmiş dəridən ibarət olduğu, hörməsi, cildin sağ qapağının ucunda

əlavə hissə haqqında bilgi verilməlidir. Əgər cild bədii tərtibatla hazırlanmışsa onun üzərində olan rəngli təsvirlər, basma medalyonlar və baş həndəsi fiqurlar, yazılar və xətlərlə bağlı ətraflı şərh verilir.

Elmi-paleoqrafiyanın digər bir əhəmiyyət dairəsi ondan ibarətdir ki, tarixin təyin olunması problemini və hər hansı bir əsərin dərin ədəbi-tarixi, tarixi-tekstoloji təhlili, ona aid olan bütün materialların dərindən öyrənilməsi sayəsində həll olunur. Naxçıvan tarixinə və mədəniyyətinə dair əlyazma abidələrinin əsas xüsusiyyətlərindən biri də tarixlərin verilməsidir. M.Naxçıvaninin "Qürrətul-Əbsar" əsərində qeyd edilir ki, "Bu kitabı rəbiəs-sani ayının 9-da hicri-qəməri 1316-cı il tarixində başladım" [1, s. 543]. Tamamlanma tarixində isə: "Həmd və şükür O, Allah üçündür ki, məni müvəffəq etdi və bu kitabı rəcəb ayı 1318-ci ildə tamamladım" [1, s. 545].

Müəllifin digər "Səhabəd-Dümu" əsərində isə başlanma tarixi və qurtarma tarixi diqqəti daha çox cəlb edir. "Bu kitabı 1295-ci il hicri-qəməri tarixi ilə başladım" [2, s. 2]. Əsərin sonunda isə "Həmd Pərvərdigara ki, tofiq əta eylədi ki, bu kitabı öz əlimlə tərcümə və təhrir etdim, fi şəhri şəban 1309-cu h.q. sənədə" [2, s. 481].

Bununla belə əvvəlinci tarixlə axırıncı tarix arasında da vaxtlar müxtəlif olur. Bəzən bunlar illərlə yox, əsrlərlə ölçülür. Qədim və orta əsrlər mətnlərinin çapı tarixi tamamlandığı tarixdən çox uzaqdır. Müasir əsərlərin çapında gecikmələr müxtəlif səbəblərdən olur. Məsələn: H.Cavidin bəzi əsərləri ancaq bəraət alandan sonra çap olunmağa başlanmışdır.

Müəyyən vaxtlarda isə Şərq ədəbiyyatında, o cümlədən klassik Azərbaycan ədəbiyyatında tarixləri göstərmək üçün əbcəd hərflərindən də istifadə olunur. Ərəb əlifbasının 28 hərfinin hərəsi bir ədədi ifadə edir:

ن50-آ – 1، ب-2، ج-3، د-4، ه-5، و-6، ز-7، ح-8، ط-9، ی-10، ک-20، ل-30، م-40، 60- س-
ع-70، ف-80، ص-90، ق-100، ر-200، ش-300، ث-400، ث-500، خ-600، ذ-700، ض-800، ظ-900، غ-1000

Bu hərflərin ardıcıllıını yadda saxlamaq üçün adətən belə qruplaşdırırlar:

[4،3،2،1]- ابجد: [7،6،5]- هوز: [10،9،8]- حطی: [50،40،30،20]- کلمن: [90،80،70،60] – سعفص: [100، 200، 300، 400] – قرشت: [700،600،500] – ثخذ: [1000،900،800]- ضظغ.

Klassiklərimiz tarixləri göstərərkən bu hesabdan əsərlərində istifadə etmişlər. Bundan əlavə maddeyi-tarix (xronoqramma) – klassik Şərq şerində müəyyən hadisələrin, əsərlərin tarixini, görkəmli şair, dövlət xadimi, alim və başqalarının təvəllüd və ölüm vaxtını göstərmək üçün işlənən ifadə tərzi olmuşdur. Maddeyi-tarix əsərdə bir neçə şəkildə verilir. Elə əsərlər var ki, müəllif ona lazım olan tarixi sadəcə rəqəmlərlə, yəni açıqcasına yazıb bildirir. Məsələn orta əsr əlyazmalarından birində məşhur alim və yazıçı Xacə Nəsirəddin Tusinin ölüm tarixi tərcüməsinin verildiyi farsca bir şerdə belə göstərilir: "Xalq və dinin köməkçisi, fəzilət ölkəsinin padşahı olan Nəsirəddin, – iki dünyanın anası onun kimi yeganə bir oğul doğmamışdır, – altı yüz yetmiş ikinci il, zilhiccə ayının on səkkizində Bağdad şəhərində vəfat etdi".

Elmi-paleoqrafik xüsusiyyətlərinə görə digər əlyazma nüsxələrdən fərqlənən klassiklərin əsərlərinin mətnləri üzərində tekstoloji araşdırmalar aparan Azərbaycan şərqşünas alimləri Naxçıvan tarixinə və mədəniyyətinə dair əlyazma mətnlərinin bu və ya digər məsələləri ilə bağlı müxtəlif elmi və elmi-kütləvi nəşrlərdə çıxış etmişlər. Lakin təəssüfləndirici haldır ki, orta əsr Naxçıvan tarixinə və mədəniyyətinə dair əlyazma mətnlərinin yazılı abidələrinə söykənərək Naxçıvanın klassik mədəniyyətinin ilkin qaynaqları və inkişaf yolları, onun metod və üsulları, paleoqrafik xüsusiyyətləri yalnız son dövrlər şərqşünas alimlərimiz tərəfindən həyata keçirilmiş tekstoloji araşdırmalar sayəsində öyrənilməyə başlanmışdır.

Müxtəlif ictimai-siyasi mühitə düşmüş, qanlı çarpışmaların şahidi olmuş, ayrı-ayrı ideoloji, dini və fəlsəfi cərəyanların toqquşması sayəsində mətnləşmiş Naxçıvan xalqı dünya mədəniyyəti xəzinəsini zənginləşdirməyə qabil böyük şəxsiyyətlər yetişdirmişdir. Həddad ən-Naxçıvani, Nəcməddin Naxçıvani, Məhəmməd Naxçıvani, Məhəmmədəli Naxçıvani, Məhəmməd Təqi Sidqi, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Məhəmmədağa Şahtaxtlı və Əbilqasim Ordubadi kimi onlarca alim və şairlərimiz müstəqil Azərbaycan dirçəlişi sayəsində dünya mədəniyyətinin cahanşümul inciləri kimi öz haqlı mövqelərində bərqərar olmuşlar.

Naxçıvan tarixinə və mədəniyyətinə dair əlyazma mətnlərinin paleoqrafik xüsusiyyətləri üzrə Azərbaycan xalqının klassik irsinin tədqiqi və nəşri sahəsində son zamanlarda böyük canlanma nəzərə çarpır. Naxçıvan əlyazma mətnləri abidələrinin öyrənilməsi yalnız mətnşünas filoloqları deyil, bütün ictimai elmlərin başqa nümayəndələrini də maraqlandırır və nəticədə isə təbii olaraq doğma Naxçıvanımızın tarixi keçmişini və mədəniyyətini işıqlandırmaq üçün əsas mənbələr meydana çıxarır.

Azərbaycanın ictimai-iqtisadi, fəlsəfi fikir, ədəbiyyat və ədəbi dil tarixinə, Naxçıvan tarixinə və mədəniyyətinə həsr olunmuş elmi monoqrafiyalarda, tədqiqat və oçerklərdə, eləcə də çoxcildli kollektiv əsərlərdə qədim dövrlərdə və Orta əsrlərdə yazıb-yaratmış yüzlərlə Naxçıvanın alim, filosof, ədib və şairlərin adları çəkilir, bir çoxlarının əsərlərindən nümunələr verilir. Naxçıvan əlyazma mətnləri sahəsində isə bu əsərlərin sadəcə xronoloji ardıcıllıqla tərtib olunmuş siyahısı belə, hər bir tədqiqatçının qəlbini iftixar hissi ilə doldurur.

Orta əsr Şərq təzkirələrində bir çox naxçıvanlı müəlliflərin, alim, şair, xəttat və rəssamların, filosof və mütəfəkkirlərin adları çəkilir ki, onların yaratdıqları əsərlər hələ də tədqiq olunmamış və aşkara çıxarılmamışdır. Qeyd etmək lazımdır ki, Orta əsr Şərq təzkirəçiləri bir qayda olaraq yalnız ən məşhur müəlliflər haqqında məlumat verirdilər. İkinci dərəcəli müəlliflər təzkirələrə daxil edilmirdi. Bu baxımdan Naxçıvan tarixinə və mədəniyyətinə dair əlyazma mətnlərinin ciddi tədqiqat araşdırmalarına ehtiyacı var.

Naxçıvan ədib və yazıçılarının, ərəb və fars dillərində yazan müəlliflərin əsərləri bəzi səbəblərə görə nisbətən çox və dözümlü şəkildə mühafizə olun-

muşlarsa da, Azərbaycan dilində yazan müəlliflərimizin əsərlərinin tapılması sahəsində hələ xeyli iş görmək lazım gələcəkdir.

Zəngin ədəbi və bədii irsə malik olan Naxçıvan əlyazma mətnləri xalq ədəbiyyatının ana dilində yaradılmış abidələrinin toplanması və öyrənilməsi xalqımızın bədii təfəkkürü və ədəbi dilini tədqiq etmək sahəsində birinci dərəcəli problem kimi qarşıda durmaqdadır. Qeyd etmək lazımdır ki, doğma ana dilimizdə yazılmış şer, bədii nəsr və xalq yaradıcılığı abidələri, Naxçıvan tarixinə və mədəniyyətinə dair qədim əlyazma mətnləri bu vaxta qədər layiqincə toplanıb nəşr edilməmiş və müasir səviyyədə tədqiq olunmamışdır. Uzun əsrlərdən bəri zəngin elmi ənənələr yaratmış orta əsr Naxçıvan tarixi və mədəniyyəti və əlyazma mətnlərinin paleoqrafik xüsusiyyətləri haqqında yalnız Azərbaycanda deyil, eyni zamanda dünya şərqşünaslığında da indiyədək heç bir monoqrafik tədqiqat aparılmamış və bu elm sahəsi sistemli şəkildə işıqlandırılmamışdı. Nəinki klassik Naxçıvan əlyazma mətnləri, hətta çağdaş mətnşünas alimlərin klassik mətnlərin tədqiqi və nəşrə hazırlanması sahəsində əldə etdikləri zəngin təcrübə ümumiləşdirilərək, geniş araşdırmalarla müasir Azərbaycan mətnşünaslığı və onun nəzəri problemləri də kompleks şəkildə öyrənilməmişdir. Bununla da Naxçıvan tarixinə və mədəniyyətinə dair əlyazma mətnlərinin paleoqrafik xüsusiyyətlərini öyrənməkdən çox, ayrı-ayrı abidələrin elmi-tənqidi mətninin tərtibinə və nəşrinə daha çox yer vermişlər. Bu tədqiqat əsəri də müasir Naxçıvan tarixi və mədəniyyətinin elmi, onun metod və prinsiplərinin öyrənilməsi istiqamətində atılmış addımdır.

Naxçıvana dair əlyazma mətnləri elminin öyrənilməsi istiqamətində aparılan ən başlıca amillərdən biri naxçıvanlı müəlliflərin əsərlərinin XIX əsrin birinci yarısından başlayaraq, Asiya və Avropanın bir sıra ölkələrinin mətbəələrində nəşr edilməsidir ki, bu da onların elm və ədəbiyyat aləmində böyük maraq doğurduqlarına dəlalət edir. London, Varşava, Moskva, Sankt-Peterburq, Kazan, İstanbul, Bombey, Laknau, Tiflis, Təbriz və başqa şəhərlərdə naxçıvanlı müəlliflərin əsərlərinin istər ana dilində, istərsə də ərəb, fars, rus və bəzi Avropa dillərində nəşr edilməsi, əlbəttə, milli mədəniyyətimizin nüfuzunu artırır.

Bununla belə bəzi naxçıvanlı müəlliflərin elə əsərləri vardır ki, kifayət qədər öyrənilmədiyindən həm bu əsərlər, həm də onların müəllifləri elm aləminə o qədər də məlum olmamışdır. Naxçıvan əlyazma mətnləri qədər əhəmiyyətə malik olan bu nəşr nüsxələri, azərbaycanlı müəlliflər tərəfindən yazıldıqlarına baxmayaraq, "Azərbaycan kitabı" adlı biblioqrafik göstəricidə öz əksini tapmışdır.

Aparılan tədqiqatın məntiqi nəticəsi kimi onu demək olar ki, elmi-paleoqrafik təsvirin əhatə etdiyi göstərilən məlumatlar istər Naxçıvan tarixinə və mədəniyyətinə dair əlyazma mətnlərinin öyrənilməsi, istərsə də onun gələcək inkişafı perspektivlərinin müəyyənləşdirilməsi baxımından, klassik mətnlərdə aşkar edilmiş təhriflərin və onları doğuran səbəblərin müəyyənləşdirilərək sistemli şəkildə şərh edilməsi, eləcə də çağdaş əlyazma mətnləri elminin özülünü təş-

kil edən Naxçıvan tarix və mədəniyyətinin araşdırılması bu elmi sahənin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Digər tərəfdən isə, belə araşdırmalar orta çağdaş Azərbaycan ədəbi-tənqidi fikir tarixinin öyrənilməsinə də əvəzsiz yardım göstərəcəkdir. Azərbaycan ədəbiyyatşünaslığı tarixində bu tədqiqat işində, Naxçıvan tarixinə və mədəniyyətinə dair əlyazma mətnləri, ümumiyyətlə mətnşünaslıq elminin tarixi və fəlsəfi köklərinin, inkişaf yollarının, onun metod və prinsiplərinin kompleks şəkildə araşdırılması bir məqsəd kimi həyata keçirilmişdir.

ƏDƏBİYYAT

1. Naxçıvani M. Qürrətul-Əbsar, əlyazması. 1318 h. q. 546 s.
2. Naxçıvani M. Səhabəd-Dümu, əlyazması. 1305 h.q. 492 s.
3. Şərifli K. Mətnşünaslığın nəzəri əsasları. Bakı: 2011, 366 s.

Сабухи Ибрагимов

ПАЛЕОГРАФИЧЕСКИЕ ОСОБЕННОСТИ РУКОПИСНЫХ ТЕКСТОВ ОБ ИСТОРИИ И КУЛЬТУРЕ НАХЧЫВАНА

В статье проведено объемное и подробное исследование палеографических особенностей рукописных текстов об истории и культуре Нахчывана, выявлено и определено разнообразие их типов. Нашло свое отражение изучение с палеографической точки зрения рукописных текстов об истории и культуре Нахчывана, обладающего богатым художественным и научным наследием, а также изучена композиция научно-критических текстов.

Ключевые слова: *Нахчыван, рукопись, культура, история, палеография*.

Sabuhi Ibrahimov

PALEOGRAPHIC FEATURES OF MANUSCRIPTS ABOUT HISTORY AND CULTURE OF NAKHCHIVAN

Extensive and detailed study of paleographic features of manuscripts about the history and culture of Nakhchivan is carried out in the paper; their kind variety is revealed and determined. The study of manuscripts about the history and culture of Nakhchivan with its rich art and scientific heritage from paleographic standpoint and investigation of composition of scientific and critical texts are reflected also.

Key words: *Nakhchivan, manuscript, culture, history, paleography.*

(*AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir*)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

FƏXRƏDDİN EYLAZOV
AMEA Naxçıvan Bölməsi
E-mail: eylazov.f@gmail.com

KAZIM BƏY ORDUBADİNİN "TİBBƏ DAİR QEYDLƏR" ƏSƏRİ HAQQINDA

Uzun illər boyu xalqımızın bir sıra milli-mənəvi dəyərləri unudula biləcək qədər uzaqda qalmış və heç bir cəhətdən tədqiqata cəlb olunmamışdır. Bu qəbildən olan qədim əlyazma və kitab nümunələri daha çox diqqət çəkməkdədir. Tədqiqata cəlb olunan "Tibbə dair qeydlər" əsərləri XVIII əsrə aid bu qəbildən olan nüsxələrdəndir. Nüsxənin müəllifi Kazım Ordubadi haqqında qaynaqlarda olan məlumatlardan məlum olur ki, müəllif dövrünün söz sahibi və nüfuzlu şəxsiyyətlərindən olmuşdur. Məqalədə həmin müəllifin həyatı və yaradıcılığından, onların "Tibbə dair qeydlər" əsərindən bəhs olunur.

Açar sözlər: *Kazım Ordubadi, nüsxə, Naxçıvan, dərman.*

Azərbaycanın ayrılmaz tərkib hissəsi, qədim Nuh yurdu Naxçıvan, Şərqin elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Naxçıvanın görkəmli elm və mədəniyyət xadimləri Azərbaycanda Hülakilər və Cəlairilər dövlətinin müxtəlif vilayətlərində və dünyanın bir çox ölkələrində tanınır, öz elmi, fəlsəfi, tarixi və s. əsərləri ilə məşhur idilər. Onlar arasında münəccimlər, filosoflar, ilahiyyatçılar, tarixçilər, dilçilər, qanunşünaslar (fəqihlər), riyaziyyatçılar, həkimlər və s. mütəfəkkirlər vardır.

Orta əsrlərdə Naxçıvanda və onun ayrı-ayrı şəhərlərində, xüsusilə Ordubadda elm və mədəniyyətin inkişafı dünya səviyyəli şəxsiyyətlərin və onların yaratdığı əsərlərin meydana çıxmasında mühüm amil olmuşdur. Naxçıvanla bağlı əlyazma nümunələrini toplanılması və tədqiqi naxçıvanlı müəlliflərin daha yaxından tanınmasına və onların xalqımıza, beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda mühafizə olunan qədim kitab və əlyazmalar arasında digər qaynaqlarla yanaşı tibb tarixi və təbabətin bir sıra sahələrini əhatə edən əlyazma nüsxələri də qorunub saxlanılır. Bunlardan biri də h.q. 1312 (1890 miladi) ilində çap olunmuş "Tibbə dair qeydlər" əsəridir. 12 babdan (bölmədən), 25 fəsildən ibarət olan nüsxə 164 səhifədən ibarətdir. Nüsxənin mətn yazılan hissəsi 24,5 x 16 sm, vərəqi 31,5 x 20,5 sm, hər

vərəqdə sətirlərin ümumi sayı 25-ə bərabərdir. Nüsxə fars dilində, nəstəliq xəttilə çap olunmuşdur [1, s. 4]. Nüsxənin müqəddimə hissəsində göstərilən məlumatda əsərin müəllifinin Kazım bəy Ordubadi olunduğu qeyd edilir.

Kazım bəy Ordubadinin "Tibbə dair qeydlər" əsəri iki hissədən ibarətdir:

Birinci hissə: fəsillər, yarımfəsillər və bölmələrdən ibarətdir. Onların hər biri diqqəti cəlb etsin deyə qırmızı rəngli sərlövhə ilə başlayır.

Burada sağlamlığın maddi əsasları, ruhi vəziyyətləri, bədən quruluşu, daxili orqanlar, sağlamlığa təsir edən amillər, məzaclar, yemək, içmək qaydaları, həmçinin yatmaq, cinsi əlaqə, çimmək, qusmaq qaydaları, nəbz, sidik, nəcis, qanalma haqqında, göz, qulaq, burun, ağız, dodaq, dil, damaq, diş, boğaz, başbeyin və tənəffüs orqanları, eləcə də ağciyər, ürək, mədə-bağırsaq, qaraciyər, dalaq, böyrək və sidik kisəsi xəstəlikləri, qadın və kişi cinsiyyət orqanları xəstəlikləri, uşaqlıq, gödən, bel, oynaq xəstəlikləri, hərarət, müxtəlif yaralar, yanıqlar, şişlər, sınıqlar, çıxıqlar, cüzam, dəri, tük örtüyü ilə əlaqədar xəstəliklərin müalicəsi, bundan başqa gözəlliyə qulluq vasitələri haqqında, zəhərlər, zəhərli heyvan və həşəratların dişləməsi və çalması, onların zəhərinin aradan qaldırma tədbirləri və s. haqqında bəhs olunur.

Əsərdə bəhs olunan xəstəliklərin qanalma, bəlğəm və ödün təmizlənməsi, imalə və qusma yolu ilə, müxtəlif dərmanlardan hazırlanan təpitmə, yaxma və şamlarla, həmçinin həb, toz dərmanları qəbul etməklə və digər üsullarla müalicəsi təfərrüatı ilə şərh olunmuşdur.

"Tibbə dair qeydlər" əsərində gündəlik həyatımızda istifadə etdiyimiz keşniş, şüyüd, nanə, reyhan, tərxun, vəzəri, kəvər, soğan, sarımsaq, turp, şalğam, çuğundur, ispanaq, kərəviz, yerkökü, xiyar, kahı, kudu, badımcan, qoz, fındıq, badam, püstə, hind qozu, alma, heyva, üzüm, kişmiş, limon, gavalı, biyan kökü, istiot, gülxətmi, qaraçörəkotu, dəvətikanı və digər meyvə və bitkilərin bir çox xəstəliklərin müalicəsində istifadə olunması diqqəti cəlb edir.

Bununla yanaşı, bir sıra ağac və kol bitkilərinin qatranları və kitrələrinin adı çəkilir. Buna misal olaraq, məstəki ağacının qatranı, əzvay ağacının qatranı, çaşır kitrəsi, ərəb qatranı, ilankölgəsi kitrəsi və s. bitkilərin adını çəkmək olar.

Əlyazmadan məlum olur ki, hələ qədim zamanlarda müalicə məqsədilə zümrüd, kəhrəba, yaqut, mirvari, firuzə, mərcan, almaz, yəşəm, digər qiymətli və yarımqiymətli daşlardan qızıl, gümüş, mis, qurğuşun, mis pası, dəmir kuporosu və başqa metallardan geniş istifadə olunmuşdur.

Əsərdə müalicə məqsədilə müxtəlif ev və çöl quşları və heyvanlarının əti, südü, piyi, yağı, ödü, peyini və s. istifadə olunmasına da rast gəlinir.

Əsərin ikinci hissəsində sadə və mürəkkəb dərmanların tərkibi, keyfiyyəti, xüsusiyyəti, təsiri, hazırlanma qaydaları və sınağı haqqında məlumat verilmişdir. Burada həblər, toz dərmanları, məcunlar, məlhəmlər, şərbətlər, doşablar, mürəbbələr, şirələr və başqa müalicə vasitələri, onların tətbiqi təsvir olunmuşdur.

Ürəksıxıntısına qarşı dərmanlar, sidikqovucu, ödqovucu, bəlğəmqovucu dərmanlar, işlətmə dərmanları, qüvvətləndirici və gümrahlaşdırıcı dərmanlar, tiryəklə, göz dərmanları, şamlar, burun və diş tozları, qarqaralar, təpitmələr, müxtəlif padzəhrlər və bir çox digər dərmanların tərkibi bu əlyazmada dəqiqliklə göstərilmişdir. Adı çəkilən dərmanlar bir sıra ağır xəstəliklərin əlacı kimi zamanında çox geniş istifadə olunmuşdur.

Bütün bunlar "Tibbə dair qeydlər" əlyazmasını öz dövrünün tibb ensiklopediyası adlandırmağa əsas verir. Bu baxımdan müasir tibb elminin təbii bitkilərə xüsusi diqqət ayırdığı bir zamanda əsərin tibb alimləri tərəfindən əsaslı öyrənilməsinə və tədqiq edilməsinə böyük ehtiyac vardır.

M.Tərbiyyət "Daneşməndane Azərbaycan" əsərində müəllif haqında bu cür məlumat vermişdir: "Mirzə Kazım bəy Ordubadi – Hüseyni seyidlərindən olan Mirzə Əbdürrəsulun oğludur. O, hikmət, tibb, dəqiq elmlər və riyaziyyatda bilikli idi. Mirzə Kazım hicri qəməri 1172-ci il səfər ayının 17-də (1758, 20 oktyabr) Xoy şəhərində doğulmuşdur. O, gəncliyində Təbrizdə Mövlana Məhəmməd Şəfi Tufarqanlının yanında, sonra isə beş il Mövlana Əbdünnəbi Şərafəddin Məhəmməd oğlu Təsucinin yanında ədəbiyyat elmini oxumuşdur. O, hicri qəməri 1195 (1780)-ci ildə Ətəbata getmiş və orada Ağa Məhəmməd Behbahaninin, Mirzə Mehdi Şəhristaninin və Ağa Seyidəlinin yanında biliyini təkmilləşdirmişdir. Kazım bəy hicri qəməri 1203 (1788)-cü ildə Məşhədə gedib, iki il orada yaşamış və Xoy şəhərinə qayıtmışdır. O, Xoyda Hüseynqulu xan Dünbilinin tapşırığı ilə "Bəhrül-ülum" ("Elmlər dənizi") və "Lüccətül-əxbar" ("Xəbərlər" toplusu) əsərlərini yazmışdır.

Müəllif hicri-qəməri 1209 (1794)-cu ildə yeddi bəhrdən (fəsildən) ibarət "Bəhril-ulum" və hicri-qəməri 1216 (1801)-cı ildə müqəddimə, 8 fəsil və 1 xatimədən ibarət "Riyazül-cənnə" əsərlərini də yazmışdır. Kazım bəyin bu iki əsəri öz zamanının ensiklopediyası sayılırdı. Son əsərin dördüncü, beşinci, altıncı və yeddinci fəsilləri alimlər, filosoflar, şairlər və vəzirlərin tərcümeyi-halları, əsərləri, şeirləri və yaradıcılıqları haqqındadır [3, s. 321].

ƏDƏBİYYAT

1. Ordubadi K. Tibbə dair qeydlər. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu, 1172, 164 s.
2. ياحقي ج. م. تاريخ ادبيّت ايران. تهران: شركت سهامي عام , سال 1376 ,ص 352
3. م.ع. تربيت دانشمندان آذربايجان.تهران :وزارت فرهنك ،سال 1378 ، ص 655
4. İsfahani H.Ə. Tibbnamə. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu, 1300, 95 s.

Фахреддин Эйлазов

О ПРОИЗВЕДЕНИИ КАЗЫМ БЕЯ ОРДУБАДИ «ЗАМЕТКИ О МЕДИЦИНЕ»

Сбор и исследование образцов нахчыванских рукописей, долгое время остававшихся неизученными, дает возможность использования их в качестве важного источника для развития нахчывановедения, а также выявления и введения в научный оборот ряда новых фактов.

С этой точки зрения анализ труда Казым бея Ордубади «Заметки о медицине» может внести значительный вклад в изучение истории медицины в Нахчыване

Ключевые слова: *Казым бей Ордубади, рукопись, Нахчыван, лекарство.*

Faxraddin Eylazov

ABOUT KAZIM BEY ORDUBADI'S WORK "NOTES ABOUT MEDICINE"

The collection and study of specimens of Nakhchivan manuscripts, which have remained unattended for a long time, give the possibility to use them as an important source for the development of the study of local lore, as well as to ascertain and introduce into scientific circulation a number of new facts.

From this point of view, the analysis of Kazim bey Ordubadi's "Notes about medicine" can make a significant contribution to the study of the history of medicine in Nakhchivan.

Key words: *Kazim bey Ordubadi, manuscript, Nakhchivan, medicine.*

(AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

İNCƏSƏNƏT

ƏLƏKBƏR QASIMOV
AMEA Naxçıvan Bölməsi
E-mail: elekberqasimov@mail.ru

MUXTAR RESPUBLİKANIN TARİXİ KEÇMİŞİ NAXÇIVAN TEATRININ SƏHNƏSİNDƏ

Məqalədə 1924-cü ildən 1990-cı ilin əvvəlinədək olan dövrdə muxtar respublikanın ictimai-siyasi həyatında baş vermiş hadisələri əks etdirən pyeslərdən söhbət açılır. Burada həmin pyeslər əsasında hazırlanan tamaşaların Naxçıvan Teatrında oynanılması tarixləri, onların yaradıcı heyətləri barədə ətraflı təhlil aparılır. Yeri gəldikcə həmin tamaşalar haqqında o illərdə mətbuatda dərc olunmuş resenziyalardan da nümunələr göstərilir.

Açar sözlər: *muxtar respublika, teatr, tarixi tamaşa, artist, qəzet.*

40 yaşlı Naxçıvan Teatrına "dövlət dram teatrı" statusu verildikdən bir il sonra – 1924-cü il fevral ayının 9-da qədim diyar Naxçıvan Muxtar Sovet Sosialist Respublikası adlandırıldı. Naxçıvanda sovet hakimiyyəti qurulandan, yəni 1920-ci ilin yayından hər bir müəssisə və təşkilatda olduğu kimi teatrın da repertuar məzmununda ciddi dəyişikliklər baş vermişdi. Səhnədə sovet hakimiyyətini, onun məqsəd və məramını təbliğ edən, savadsızlığı, cəhaləti, mövhumatı və xurafatı tənqid edən, yeni quruluşun düşmənlərini hədəfə alaraq onları ifşa edən, "qamçılayan" əsərlər, səhnəciklər daha çox yer almağa başlamışdı.

Naxçıvanda sovet hakimiyyətinin qurulduğu ilk beş il ərzində teatrın repertuarında yeni quruluşu tərənnüm edən tamaşalar sırasında əsas yeri Süleyman Sani Axundovun "Laçın yuvası" pyesi, həmçinin Cəfər Cabbarlının "Oqtay Eloğlu" və Hüseyn Cavidin "Şeyda" pyesləri olmuşdur.

Naxçıvan MSSR Xalq Maarif Komissarlığının 1924-cü il 7 yanvar tarixli əmrilə teatrının direktoru Səməd Allahverdiyev, baş rejissoru isə Həsən Səfərli təyin olunmuşdular. Lakin qeyd etmək lazımdır ki, 1920-ci ildən 1936-cı ilədək Naxçıvan Teatrına Əli Xəlilov (sonralar Naxçıvan MSSR əməkdar artisti) rəhbərlik etmişdir. O, harasa uzunmüddətli ezamiyyətə göndərildikdə isə yuxarı orqanın xüsusi əmrilə teatra bir neçə dəfə müvəqqəti direktorlar təyin olunub.

Əli Xəlilov özünün "Naxçıvan Teatrının tarixi" kitabında yazır: "1924-cü il fevral ayının 9-da, Naxçıvana muxtariyyət verilməsi günündə muxtar respublikanın şərəfinə teatrımızda böyük konsert oldu. Müsamirə iki hissədən ibarət idi. Burada çalğıçılar, aşıqlar çıxış edir, rəqslər ifa edilirdi. Bundan başqa teatrımızın aktyorlarından Rza İsfəndiyarlı ilə Seyid Səbrinin yazdıqları və gənc respublikanı tərənnüm edən meyxanalar tamaşa salonunu şən gülüşlərlə doldururdu [4, s. 55].

Muxtar respublikanın yeganə teatr müəssisəsi olan Naxçıvan Dövlət Dram Teatrı 1924-cü ilin sonlarında öz repertuarını bir daha nəzərdən keçirib yeni quruculuqla məşğul olan, savadlanmağa can atan zəhmətkeşlərin, xüsusən də mübariz gəncliyin həyatını tərənnüm edən, sinfi düşmənlərə qarşı barışmazlıq nümayiş etdirən əsərlərin axtarışına başladı. Repertuarda belə əsərlərin geniş yer alması isə hələlik çətin idi. Qeyd olunan məzmunda olan pyeslər Bakıda tə-zə-təzə yaranır və orada ilk səhnə həyatı gördükdən sonra əyalətlərdə tamaşaya qoyulurdu.

Məhz həmin ilin axırlarında Naxçıvan MSSR Maarif Komissarlığının nəzdində Naxçıvan İncəsənət İşçiləri İttifaqı təşkil olunur və Dövlət Dram Teatrı da bu ittifaqın tabeliyinə verilir. Yeni təsis olunmuş İncəsənət İşçiləri İttifaqı teatrın yaradıcılıq prosesinə ciddi diqqət yetirərək onun yenidən qurulmasına, təchizat işinin yaxşılaşmasına çalışırdı ki, bu da repertuarın formalaşmasına müəyyən dərəcədə öz təsirini göstərirdi.

Sanballı əsərlər hesabına repertuar zənginləşdikcə, teatrın fəaliyyət dairəsi genişlənməklə təsir qüvvəsi gücləndikcə və yerli əhalinin bu sənətə marağı günbəgün artdıqca oynanılan tamaşaların bədii səviyyəsinin də yüksəldilməsinə ciddi ehtiyac duyulurdu. Teatrda hələ də səriştəli rejissorun olmaması ucbatından tamaşalara aparıcı aktyorlar quruluş verirdilər. Səhnə tərtibatları isə son dərəcə primitiv olurdu. Artıq bu qüsurları aradan qaldırmaq zərurəti yaranmışdı.

1924-cü ildə də Azərbaycan Dövlət Dram Teatrının naxçıvanlı həmkarlarına hamilik köməyi davam etdirilmişdir. İyun ayının 3-də bu teatrın aparıcı aktyorlarından olan Kazım Ziya Naxçıvan Teatrına baş rejissor təyin olunaraq cəmi bir mövsüm həmin vəzifədə işləyib [1].

Kazım Ziya Naxçıvan Teatrında təkcə bir rejissor kimi deyil, eyni zamanda səhnə danışığına mükəmməl bələd olan mütəxəssis olaraq bir pedaqoq kimi də fəaliyyət göstərib aktyorların, xüsusən də gənclərin səhnədə düzgün, aydın, rəvan və səlis danışığa yiyələnmələrində böyük əmək sərf etmişdir. Qüdrətli aktyor hər bir tamaşanın bədii tərtibatında da yaxından iştirak etmiş, bu sahədə də dəyərli tövsiyələrini gənc rəssamlardan əsirgəməmişdir. Bu dövrdə teatrın əsas rəssamı Adil Qazıyev, musiqi rəhbəri və dirijoru isə Heydər Təhməzbəyov olmuşdur.

1924-cü il 19 avqust tarixli "Yeni fikir" qəzeti belə bir məlumat verirdi ki, avqust ayında Naxçıvan Teatrı kollektivinin çıxış etdiyi xüsusi müsamirənin proqramında yazılıb: "...Bu gün Naxçıvan Hökumət Türk Teatrosunun aktyor-

ları və aktrisaları tərəfindən başqa şəhərlərdə təhsil edən, hal-hazırda teatromuzda çalışan tələbələrin mənfəəti olaraq böyük müsamirə olacaq... "Konsert şənbəsi" gəzişi. Rejissor Həsən Səfərli" [11]. Bayram mərasim-gəzintisi əsasən hökumət bağında olub və tədbirdə kollektivin bütün üzvləri iştirak ediblər.

Nəhayət, 1926-cı ildə Naxçıvan Teatrının repertuarında müasir mövzulu, yəni yeni həyatı, sosializm quruculuğunu tərənnüm edən əsər göründü. Bu, yerli gənc şair Müzəffər Nəsirlinin "Azadlıq günəşi" adlı pyesi idi. Gənc müəllifin ilk qələm təcrübəsi olan bu pyes teatrın 1926-cı ilin repertuarına daxil edilsə də, tədqiqat zamanı ilk tamaşanın olması, onun quruluşçu rejissoru, rəssamı və aktyor heyəti barədə heç bir məlumat əldə edilmədi. Buradan belə bir nəticə hasil olur ki, pyesin ilk variantı çox zəif olmuş və repertuara salınsa da müəllifə onun üzərində yenidən işləmək tövsiyə olunmuşdur. Pyesin müəllif tərəfindən yenidən işlənmiş, təkmilləşdirilmiş ikinci variantı teatra təqdim olunduqdan sonra onun 1929-cu ilin repertuarına daxil edilməsi qərara alınıb.

Beləliklə, "Azadlıq günəşi" tamaşasının premyerası 1929-cu il avqust ayının 17-də gerçəkləşib. Tamaşaya həmin il mayın 28-dən teatrın baş rejissoru təyin olunmuş Səməd Mövləvi (sonralar Azərbaycan SSR Xalq artisti) quruluş vermiş, rəssamı Adil Qazıyev, musiqi tərtibçisi Adil Kəngərli, rejissor assistenti Kazım Şeyxov olmuşdur. Tamaşada Aslan bəyi Müseyib Şirəliyev, Xəlil bəyi Bayram Mərdanlı, Mirzə Vəlini Allahverdi Allahverdiyev, Ceyranı Kişvər Axundova, Bahadırı Səməd Mövləvi, Mirzə Möhsünü Əyyub Haqverdiyev (sonralar Azərbaycan SSR Xalq artisti), Molla Qafarı Rza İsfəndiyarlı (sonralar Naxçıvan MSSR Əməkdar artisti) ifa etmişlər [4, s. 65].

Tamaşa 1931-ci ilədək teatrın repertuarında olmuş, muxtar respublikanın bütün rayon mərkəzlərində və kəndlərində də müvəffəqiyyətlə nümayiş etdirilmişdir. Bu tamaşanın rəğbət qazanmasının əsas səbəbi dövrün mövzu aktuallığı və maraqlı aktyor oyunu olmuşdur.

1930-cu illərin əvvəlindən başlayaraq Sovet İttifaqında həyata keçirilən kollektivləşdirmə siyasəti Azərbaycanın da hər yerində olduğu kimi Naxçıvan MSSR-də də geniş vüsət aldı. Bu siyasi kampaniyanın əsas təbliğat vasitələrindən biri də teatrlar idi. Heç şübhəsiz ki, Naxçıvan Dövlət Dram Teatrı da bu prosesdən kənarda qala bilməzdi. 30-cu illərin ortalarınadək teatrın kollektivi kolxoz mövzusunda bir neçə səhnəcik hazırlayıb konsert briqadaları şəklində kəndlərdə olur, bu yeni qurumu geniş təbliğ edirdi. Lakin kolxozların məcburi yaradılması heç də hər yerdə sevinclə qarşılanmırdı. Sonradan qolçomaq adlandırılaraq öz şəxsi təsərrüfatını kolxoza təhvil verməkdən imtina edənlər əmlakı müsadirə olunmaqla ya həbs edilir, ya güllələnir, yaxud da ailəliklə Sibir meşələrinə, Qazaxıstan çöllərinə sürgün olunurdular. Bu illərdə teatrlar məhz belə bir mövzuda tamaşa sorağında idilər.

Sonralar görkəmli ədib və ictimai xadim kimi məşhurlaşan xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı Mirzə İbrahimov 1933-cü ildə muxtar respublikaya, məsul vəzifəyə göndərilir. Naxçıvan MTS-də (Maşın-Traktor Stansiyasında) si-

yasi şöbənin orqanı olan "Sürət" qəzetinin redaktoru kimi fəaliyyət göstərdiyi illərdə onun həyati müşahidələrilə yazıçı təxəyyülünün birgə məhsulu olan "Həyat" pyesi yaranır. Burada Həyat iki mənada səslənirdi: əsərin baş qəhrəmanı və yeni həyatın tərənnümü.

Bakıda, Tiflisdə, İrəvanda, Aşqabadda öz səhnə quruluşları ilə yaradıcılıq nailiyyətləri əldə etmiş, ali ixtisas təhsilli Yusif Yulduz 1937-ci ildə Naxçıvan Dövlət Dram Teatrına baş rejissor təyin olunur. Elə həmin günlərdə M. İbrahimov tərəfindən teatra yenicə təqdim olunmuş "Həyat" pyesinə ilk səhnə həyatı vermək də Y.Yulduza həvalə olunur. Ruhən romantik monumentalizm meylli gənc rejissor monumental-realist səpkili, uğurlu bir tamaşa hazırlamağa müvəffəq olur.

Tamaşanın rəssamı Şamil Qazıyev (sonralar Naxçıvan MSSR Əməkdar incəsənət xadimi), musiqi tərtibçisi Adil Kəngərli, rejissor assistenti Xədicə Qazıyeva (sonralar Azərbaycan SSR Əməkdar artisti) idi. Xədicə xanım həm də baş qəhrəmanın – Həyat rolunun ifaçısı olmuşdur. Maraqlıdır ki, "Həyat" tamaşası məhz həmin ildən Naxçıvan Teatrında fəaliyyətə başlayan və burada görkəmli aktyor və rejissor kimi püxtələşən, 40-50-ci illərdə isə bu teatra rəhbərlik edən İbrahim Həmzəyev (sonralar Azərbaycan SSR xalq artisti) üçün də debüt olmuşdur. Müqtədir aktyorun Naxçıvan səhnəsindəki ilk rolu məhz bu tamaşadakı Abbas olmuşdur.

Digər rollarda sonralar xalq artistləri kimi məşhurlaşmış İsa Musayev (Süleyman), Səməd Mövləvi (Həsənov), Firuzə Əlixanova (Atlaz), Əyyub Haqverdiyev (Pardon Qurbanəli), sonralar Azərbaycan SSR əməkdar artistləri olan Mirhəsən Mirişli (Akif), Əyyub Məmmədov (Rauf), aktyorlardan Yusif Haqverdiyev (sonralar Naxçıvan MSSR əməkdar artisti), Yaqub Şahtaxtinski, Əşrəf Rüstəmov, Rza Bacıoğlu (Məmmədov) çıxış etmişlər.

Əsərdəki hadisələr bilavasitə Naxçıvanla bağlı olduğundan "Həyat" tamaşası bir neçə gün ərzində böyük rezonans və uğur qazandı. Xalq artisti Səməd Mövləvi o günləri xatırlayaraq belə qələmə almışdı: "Tamaşa ilk gündən böyük müvəffəqiyyət qazandı. Tamaşanı on gün dalbadal göstərdik. Uzaq kəndlərdən belə, adamlar dəstə-dəstə tamaşaya baxmağa gəlirdilər. Abbasın ölümü xalq düşmənlərinə qarşı sonsuz nifrət hissi oyatmışdı. Odur ki, yerli partiya təşkilatının rəhbərliyinin göstərişilə "Həyat" tamaşası Naxçıvanın rayon mərkəzlərində və kəndlərində göstərildi. İsa Musayev xalq düşməni Süleyman rolunu məharətlə yaratdı. Səhnəmizdə ilk dəfə çıxış edən İbrahim Həmzəyev kolxoz sədri Abbas surətini ustalıqla canlandıra bildi. Bu çıxışı ona Naxçıvan tamaşaçıları arasında dərin hörmət qazandırdı. Xədicə Qazıyeva, Firuzə Əlixanova, Əyyub Haqverdiyev və başqaları öz rollarını bacarıqla ifa etdilər. Bu nailiyyətlərə görə Naxçıvan MSSR Xalq Komissarları Sovetinin təşəbbüsü ilə aktyorlar bir aylıq maaşla mükafatlandırıldılar" [2, s. 214].

1941-ci ildə Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq bütün sovet teatrları kimi Azərbaycanın da teatr müəssisələri, o cümlədən Nax-

çıvan Teatrı öz işini günün tələblərinə uyğun quraraq repertuarını əsasən qəhrəmanlıq, vətənpərvərlik mövzulu əsərlərlə zənginləşdirdi. Repertuara Azərbaycanın tarixi qəhrəmanlarına həsr olunmuş pyeslərlə yanaşı, cərəyan edən müharibənin də əks olunduğu əsərlər daxil edilərək tamaşaya qoyulurdu.

Müharibədən sonrakı 10 il ərzində isə bu mövzu da daxil olmaqla dinc quruculuq işlərindən, əmək qəhrəmanlarının həyatından bəhs edən pyeslər, o cümlədən yerli müəlliflərin əsərləri də Naxçıvan Teatrının səhnəsində özünə yer almışdır. Bu mənada "Torpaq təslim olur" və "Kölgəli dağ" tamaşaları qeyd olunanlara nümunə kimi göstərilə bilər.

Gənc yazıçı Hüseyn İbrahimovun (sonralar xalq yazıçısı) "Torpaq təslim olur" pyesi əsasında İbrahim Həmzəyevin quruluş verdiyi tamaşanın premyerası 1951-ci il noyabrın 27-də olmuşdur. Tamaşada kolxoz kəndinin gündəlik qayğılarından, əmək adamlarının zəhmətsevərliyi və mənəvi keyfiyyətlərindən bəhs olunurdu. Baş rolu – Sosialist Əməyi Qəhrəmanı, pambıqçı Tərlan obrazını Naxçıvan MSSR Əməkdar artisti (sonralar xalq artisti) Zəroş Həmzəyeva ifa edirdi. Əsas rollarda Səməd Mövləvi, İsa Musayev, Əyyub Haqverdiyev iştirak edirdilər. Tamaşanın rəssamı Şəmil Mustafayev (sonralar Azərbaycan Respublikasının Əməkdar rəssamı) olmuşdur.

1954-cü ilin yayında M.İbrahimovun "Həyat" pyesi yeni quruluşda tamaşaya hazırlanır. Avqust ayının 6-da 1954-1955-ci il mövsümünün açılışı münasibətilə premyerası olan "Həyat" tamaşasının yeni variantına quruluşu rejissor Əli Hüseynov, bədii tərtibatı Mustafa Məmmədov, musiqi tərtibatını isə Məmməd Məmmədov (sonralar Naxçıvan MSSR Əməkdar müəllimi) vermişdi. Rejissor assistenti Naxçıvan MSSR Əməkdar artisti Kazım Hüseynov olmuşdur.

Həmin ilin elə 6 avqust tarixli "Şərq qapısı" qəzetinin sanki axşamkı premyeraya tamaşaçıları dəvət xarakterli məqaləsində həm "Həyat"ın yeni quruluşu haqqında qeydlər, həm də əsas rolları ifa edən aktyorların ürək sözləri öz əksini tapmışdı. "Teatrda yeni quruluşda bu pyesin tamaşaya qoyulması bütün kollektivdən gərgin və yaradıcı əmək sərf etməyi tələb edir. Yaradıcı kollektiv qarşısında kənd zəhmətkeşlərinə mədəni həyat bəxş etmiş kollektiv təsərrüfat uğrunda mübarizənin həqiqi və canlı səhnələrini real surətdə göstərmək vəzifəsini qoymuşdu.

Əsərin yeni quruluşu üzərində işlərkən iki əsas cəhəti nəzərə almaq tövsiyə olunmuşdu: birincisi, 1937-ci ildə oynanılan "Həyat" tamaşasını təkrar etməmək üçün yeni yaradıcılıq yolları axtarıb tapılmalı, ikincisi pyesi yeni traktovkada verməklə onu müasir həyatımızla aktuallaşdırmalı. Qeyd edildiyi kimi "Həyat" pyesi sovet Azərbaycanının kolxoz hərəkatının ilk dövrlərində daha da yüksəlməsi uğrunda inadlı mübarizəsindən, MTS-lərin möhkəmlənməsindən və MTS-lərin yanındakı siyasi şöbələrin vəziyyətindən bəhs edir" [7].

Yeni quruluşdakı tamaşada demək olar ki, rol bölgüsü əsasən əvvəlki kimi qalmış bəzi rollar yeni aktyorlara həvalə olunmuşdu. Yeni tamaşada Həyatı Roza Cəfərxanova (sonralar Azərbaycan Respublikasının Xalq artisti. Prezident

təqaüdçüsü), Abbası İbrahim Həmzəyev, Süleymanı İsa Musayev, Həsənovu Səməd Mövləvi, Atlazı Zəroş Həmzəyeva, Akifi Əyyub Məmmədov, Tofiqi Əkbər Qardaşbəyov (sonralar Azərbaycan SSR Xalq artisti), Heydərqulunu Yusif Haqverdiyev, Pardon Qurbanəlini Əyyub Haqverdiyev, Raufu Əsgər Əsgərov, Rəxşəndəni Şərqiyyə Bağırova, Məşədi Hüseyni Məmməd Quliyev (sonralar Azərbaycan SSR Xalq artisti), Cəlalı Rza İsfəndiyarlı, Qurban kişini Mirhəsən Mirişli, Tərlanı Pakizə Məmmədova (sonralar Naxçıvan MSSR Əməkdar artisti), Xəlili Əsəd Abutalıbov, Musanı Kazım Hüseynov, komendantı Lətif Niftəliyev oynamışlar. Həyat obrazının ilk ifaçısı Xədicə Qazıyeva bu tamaşada həkim rolunu ifa edirdi. Quruluşçu rejissor Ə. Hüseynov isə Zeynal rolunda çıxış etmişdir.

Əvvəldə qeyd olunduğu kimi "Şərq qapısı" qəzetinin həmin nömrəsində bir neçə aktyorun öz rolu barəsində ürək sözləri də dərc olunmuşdu. Onlardan bəzilərinə diqqət yetirək. Sonralar Azərbaycan Respublikasının xalq artisti, Prezident təqaüdçüsü olan Roza Cəfərxanova: "Teatrımızın yaradıcı heyəti tərəfindən yeni quruluşda tamaşaya qoyulmuş "Həyat" pyesində Həyat rolunu ifa etmək mənə qismət olmuşdur. Mən yaxşı başa düşürəm ki, Həyat obrazı azad Azərbaycan qadınının xarakterində Sevil və Almaz dövründən bəri əmələ gələn bütün dəyişiklikləri və inkişafı əks etdirir..." [7].

MTS direktorunun müavini Süleyman obrazının ifaçısı İsa Musayev: "Süleyman... ağıllı, iradəli və eyni zamanda hiyləgər bir düşmən, öz cinayətlərinin izini gizləyə bilən canidir...Mən bu surəti elə göstərməyə çalışmışam ki, tərəqqipərvər qüvvələrlə irticaçı qüvvələr arasında nisbət düzgünlüyü pozulmasın" [7].

Pardon Qurbanəli obrazının ifaçısı Əyyub Haqverdiyev: "...Pardon Qurbanəli rolunu 1937-ci ildə – pyesin... ilk dəfə tamaşaya qoyulduğu vaxt ifa etmişəm. Bu gün də mən həmin rolda müvəffəqiyyətlə çıxış edirəm... Mən Pardon Qurbanəli rolu üzərində bir daha dərindən işləmiş, onun cəmiyyət üçün zərərli olan bütün bu yaramaz xüsusiyyətlərini, boşboğazlığını, məqsədsiz həyatını, lovğalığını ifşa etməyi qarşıma məqsəd qoymuşam" [7].

1962-ci il iyunun 25-də "Kölgəli dağ" tamaşasının premyerası oldu. O zaman Naxçıvan Dövlət Dram Teatrının direktoru işləyən, tanınmış yazıçı-jurnalist Məmmədəli Tarverdiyevin dramaturgiyada ilk qələm təcrübəsi olan bu pyesdə yeni kəşf olunmuş filizçıxarma mədənində çalışanların işi, əsas konflikt xəttini təşkil edən çoban qızı Hicranla mədənin baş mühəndisi Şücaətin məhəbbəti təsvir olunur.

Əli Xəlilov qeyd edirdi ki: "Naxçıvanlılar əsərə tamaşa etdikdə, muxtar respublikada məşhur olan Gümüşlü, Parağaçay və duz mədənlərinin fədakar adamlarını görür, yeni dünya yaradan bu qəhrəmanların işindən, şücaətindən ilham alırdılar. Müəllif köhnə həyatdan miras qalmış eybəcər adətləri də özünəməxsus təbii bir yumor hissilə gülüş hədəfinə çevirir. Oynaq vəziyyətlər və

dialoqlar vasitəsilə cəmiyyətimizdə hələ də təsadüf edilən tənbəl, xudpəsənd və lovğa adamları lağa qoyur...

Azərbaycan SSR Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət (Akademik – Ə.Q.) Dram Teatrının baş rejissoru Tofiq Kazımovun da əsərə (tamaşaya – Ə.Q.) verdiyi quruluş əməyin pafosunu əks etdirmək cəhətdən olduqca təsirlidir. Əsərin (tamaşanın – Ə.Q.) bədii tərtibatını rəssam İzzət Aslanov hazırlamışdır. Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının məzunu, gənc bəstəkar Ruhəngiz Qasımovanın (indi Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi) pyes (tamaşa – Ə.Q.) üçün yazdığı musiqi qəhrəmanların həyat və mübarizəsilə ahəngdar səslənir, tamaşanın vüsətini artırırdı" [4, s. 88].

İlk tamaşada əsas rolları Əyyub Məmmədov, Zəroş Həmzəyeva, İsa Musayev, Əyyub Haqverdiyev, Əkbər Qardaşbəyov, Mirzə Ələkbərov ifa etmişdilər.

Naxçıvan MSSR-in 40 illiyi ərəfəsində qocaman sənət ocağının kollektivi tarixi keçmişi əks etdirən daha bir əsərə – Hüseyn Razinin (şair-dramaturq, sonralar Azərbaycan SSR əməkdar incəsənət xadimi) "Odlu diyar" pyesinə müraciət etdi. 1963-cü il aprel ayının 22-də premyerası olan bu tamaşanın quruluşçu rejissoru İbrahim Həmzəyev, quruluşçu rəssamı Məmməd Qasımov (teatrın baş rəssamı, sonralar Naxçıvan MSSR Əməkdar incəsənət xadimi), bəstəkarı Rəşid Məmmədov (sonralar Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü), rejissor assistenti Tofiq Mövləvi (indi Azərbaycan Respublikasının Xalq artisti, Prezident təqaüdçüsü) idi.

Əsas rollarda Əyyub Məmmədov (Cəlal), Əkbər Qardaşbəyov (Polad), Firuzə Əlixanova (Xoşqədəm), Sofya Hüseynova (Gültac), Məmməd Quliyev (Lauton), İsa Musayev (Varşamyan), Mirhəsən Mirişli (Kərim xan), Zəroş Həmzəyeva (Diləfruz) çıxış edirdilər. Digər rolları – Bayraməlini Əyyub Haqverdiyev, Xəlil bəyi İldırım Cabbarov, Şeyx Cəfəri Yusif Haqverdiyev, Karonu İbrahim Bənəniyarlı (sonralar AR Xalq artisti, Prezident təqaüdçüsü), Armenakı Yaqub Əliyev, Gülməmmədi Kazım Hüseynov, Aşıq Əlini Müzəffər Səfərov (sonralar Naxçıvan MSSR Əməkdar artisti, Prezident təqaüdçüsü), Arturu Tofiq Mövləvi, hindlini Aydın Şahsuvarov (sonralar Azərbaycan SSR Xalq artisti), zabiti İdris Mirzəyev və Eldar Cəfərov ifa edirdilər. Aparıcının sözlərini İbrahim Həmzəyev çatdırırdı.

1963-cü il 2 iyun tarixli "Şərq qapısı" qəzetində Müzəffər Nəsirlinin "Odlu diyar" adlı resenziyasında bədii materialın dil səlisliyi, konfliktin kəskinliyi, yumorun təbii axıcılığı qeyd olunmuşdu. "Rejissor gözəl səhnə mizanları qurmuş, yaradıcı kollektivlə səmərəli işləmişdir. Proloqun bir qədər yorucu, kütləvi səhnələrin səthiliyi müstəsna hesab edilərsə, demək olar ki, rejissor tamaşa üzərində ciddi işləmişdir. Resenziyada rəssam Məmməd Qasımovun gözoxşayan bədii quruluşu və geyimləri, bəstəkar Rəşid Məmmədovun gözəl, ürəyəya-tımlı musiqisi də dəyərləndirilib" [8].

1965-ci ilin iyun ayında keçirilən "Bakıda Naxçıvan MSSR mədəniyyəti həftəsi" çərçivəsində C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı üç tamaşa ilə paytaxt teatrsevərlərinin qonağı oldu. Akademik Dram Teatrın səhnəsində göstərilən digər iki tamaşa – "Məhsəti" və "Sahil əməliyyatı" kimi "Odlu diyar" da tamaşaçılar tərəfindən rəğbətlə, teatr və ədəbi tənqid tərəfindən məmnunluqla qarşılandı. Bu mötəbər tədbirin yekunlarına görə təltif olunanlar sırasında "Odlu diyar" tamaşasının quruluşçu rejissoru, Azərbaycan SSR xalq artisti adına layiq görülmüş İbrahim Həmzəyev də var idi.

Görkəmli rejissor Əliheydər Ələkbərov 1965-ci il 17 iyun tarixli "Bakı" axşam qəzetində dərc olunmuş "Odlu diyar" adlı resenziyasında "Rejissorun xalqın qəhrəmanlığını, yadelli işğalçılara qarşı mübarizəsini ön plana çəkməsi"ni xüsusi qiymətləndirib [6].

"Azərbaycan gəncləri" qəzetinin 1965-ci il 18 iyun tarixli nömrəsində teatrşünas Mahmud Allahverdiyevin "Odlu diyar" adlı resenziyasında oxuyuruq: "Tamaşanın bədii tərtibatı dövrün ruhu ilə vəhdətdə götürüldüyündən, öz sadəliyi, mənalılığı ilə hadisələrin təcəssümünə yaxından kömək edir. Rəssam Məmməd Qasımov Azərbaycanın məişət xüsusiyyətlərini və onun ürəkaçan, romantik mənzərələrini düzgün duyub canlandırmışdır" [5].

Bir müddət sonra – 1971-ci ildə Naxçıvan Teatrı Hüseyn Razinin yeni bir tarixi pyesinə müraciət etdi. Bu, ötən əsrin 20-ci illərindəki hadisələrdən bəhs edən və may ayının 10-da premyerası olan "Arxalı dağlar" tamaşası olmuşdur. Tamaşanın quruluşçu rejissoru Baxşı Qələndərli (teatrın baş rejissoru, sonralar Azərbaycan SSR əməkdar incəsənət xadimi), quruluşçu rəssamı Məmməd Qasımov, bəstəkarı Məmməd Məmmədov, rejissor assistenti Vaqif Əsədov (indi respublikanın xalq artisti) idi.

Baş rollarda İbrahim Həmzəyev (raykom katibi Eldar Aslanov), İsa Musayev (İbiş bəy), əsas rollarda Əyyub Məmmədov (Rəşid), Əyyub Haqverdiyev (Qeysərli), Nazir Əliyev (Ayı Səftər), digər rollarda Tamara Məmmədova (Sədayə), Roza Cəfərxanova (Qərənfil), Vaqif Əsədov (Xanbala), Telman Hacıyev (İldırım), Yusif Haqverdiyev (Mirzə Rəhman), Kazım Hüseynov (Qaraxan), Məmməd Quliyev (Dəmirzadə), Müzəffər Səfərov (Qəhrəman) iştirak edirdilər.

"Şərq qapısı" qəzetinin 1971-ci il 23 may tarixli nömrəsində teatrın ədəbi hissə müdiri Kəmalə Ağayevanın (indi Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü) "Arxalı dağlar" başlıqlı resenziyasında qeyd olunur ki: "...Rəssam tərəfindən hadisələrin gedişi üçün dağların fon seçilməsi tamaşanın ideya xəttinin açılmasına kömək etmişdir. Ümumiyyətlə, zəngin səhnə boyalarından, mənalı mizanlardan istifadə edən quruluşçu rejissor tamaşanın müvəffəqiyyətinə nail olmuşdur...

İsa Musayev əsl İbiş bəy yaratmağa nail olmuşdur. O, öz çürük məsləyilə öyünəndə də, insanları heç bir ürək ağrısı duymadan arxadan vurduranda da, doğma balası ilə üzləşəndə də, tərk-silah olub həbsə gedəndə də, oğlunun məzarı önündə hönkürəndə də sanki əsl İbiş bəydir.

Ayı Səftər pyesin ən maraqlı obrazlarındandır. Bu obrazın yaradıcısı teatrın kollektivinə yenicə daxil olmuş gənc aktyor Nazir Əliyevdir... Obrazın daxili aləmini, iş və hərəkətlərini Nazir Əliyev tamaşaçılara zəngin boyalarla təqdim edir" [10]. Daha sonra resenziya müəllifi aktyorlardan İbrahim Həmzəyevin, Vaqif Əsədovun, Roza Cəfərxanovanın, Tamara və Əyyub Məmmədovların da müsbət oyunlarını təqdir etmişdir.

1977-1978-ci il mövsümündə qədim sənət ocağı Naxçıvanda sovet hakimiyyətinin qurulmasına həsr olunmuş daha bir yeni tamaşasını sənətsevərlərə təqdim etdi. Müəllifi Həmid Arzulu olan "İnam" adlı bu tamaşanın premyerası 1978-ci il mayın 31-də olmuşdur. Tamaşanın quruluşçu rejissorları Baxşı Qələndərli və Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) diplomçusu Xəzər Gəncəli, quruluşçu rəssamı Yuran Məmmədov, bəstəkarı Məmməd Məmmədov, rejissor assistenti Elxan Şeyxov (indi MR əməkdar artisti) idi.

Rollarda Nizami Həmzəyev (Bahadır Vəlibəyov), Vaqif Əsədov (Xəncan Hüseynov), Məmməd Quliyev (Hüseyn kişi), Firuzə Əlixanova (Ceyran xala), Zemfira Əliyeva (Zərəfşan), Seyfulla Süleymanov (Novruz), Qivami Baxşəliyev (Gəraf Əsgərov), Elxan Şeyxov (Yuri Sokolovski), İbrahim Bənəniyarlı (Yakov Maysner), Sofya Hüseynova (Yelena Uspenskaya), Aydın Şahsuvarov (Duman bəy), Yusif Haqverdiyev (Kəblə Kərim), Əyyub Haqverdiyev (Nuru bəy) çıxış edirdilər.

2008-ci ildə teatr yerli müəllif olan Həsənəli Eyvazlının "Araz sahilində doğan Günəş" adlı əsərini tamaşaya qoydu. Tamaşada 1921-ci ilin tarixi hadisələri əks olunur, proseslər "Moskva" və "Qars" müqavilələrinin işığında cərəyan edir. Burada tarixi şəxsiyyətlərin böyük bir qalereyası ilə rastlaşırıq: Behbud ağa Şahtaxtinski (AR Xalq artisti Rza Xuduyev), Nəriman Nərimanov (AR Əməkdar artisti Əli Əliyev). İbrahim Əbilov (Elxan Şeyxov), Mirzədavud Hüseynov (AR Əməkdar artisti, Prezident təqaüdçüsü Xəlil Hüseynov), Bahadır Vəlibəyov (AR Xalq artisti Rövşən Hüseynov), Tağı Səfiyev (AR Xalq artisti Şirzad Abutalıbov), Mustafa Kamal Atatürk (AR Xalq artisti Kamran Quluyev), Veysəl bəy Ünüvar (AR Əməkdar artisti Vidadi Rəcəbli), Yusif Kamal (AR Əməkdar artisti Yusif Allahverdiyev), Stalin (AR Xalq artisti Həsən Ağasoy), Çiçerin (AR Əməkdar artisti Əbülfəz İmanov), Vladimirski (MR Əməkdar artisti Vüsal Rzayev), Abbas Qədimov (İdris Osmanov).

Digər rollarda AR Əməkdar artistləri Behruz Haqverdiyev, Nəzakət Xuduyeva, Elmira Kərimova, MR Əməkdar artisti Günay Qurbanova, Prezident mükafatçıları Zəminə Baxşəliyeva, Nazlı Hüseynquliyeva, Cəbrayıl Nəbiyev, aktyorlardan Zakir Fətəliyev, Xanım Şirəliyeva, Teyyub Zeynalzadə, Kəklik Novruzova, Zülfiyyə Zeynalova, Məlahət Abbasova və digərləri iştirak etmişlər.

Tamaşanın quruluşçu rejissoru xalq artisti Kamran Quliyev, quruluşçu rəssamı MR Əməkdar rəssamı Əbülfəz Axundov, musiqi tərtibçisi MR Əmək-

dar incəsənət xadimi Şəmsəddin Qasımov, rejissor assistentləri xalq artisti Şirzad Abutalıbov və MR əməkdar artisti Vüsal Rzayev olmuşdur.

2008-ci il aprelin 10-da tamaşanın premyerasında iştirak edən Muxtar Respublika Ali Məclisinin Sədri, cənab Vasif Talıbov kollektivlə görüşərkən demişdir: "Naxçıvan Teatrının səhnəsində çox uğurlu tamaşalar oynanılıb, Bu tamaşa da uğurlu tamaşalardan biridir. Tarix təkrar olunur. 1918-1920-ci illərdə Naxçıvanın ağır dövründə bu torpağın mərd oğullarının mübarizliyi, qardaş Türkiyənin köməyilə Naxçıvan erməni işğalından azad olundu, muxtariyyət statusu əldə edildi...

Hər bir naxçıvanlı Naxçıvan Teatrının tamaşalarına baxdıqdan sonra onların vətənpərvərlik, torpağa bağlılıq hissləri daha artır. Bu torpağın bütövlüyü naminə hər bir naxçıvanlı öz sözünü demək üçün özünü səfərbər edir" [11].

Tamaşanın finalı ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti sessiyasındakı çıxışından bir hissə ilə tamamlanır. Bu çıxış ulu öndərin öz səsində eşidilir: "...Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq... Muxtariyyət hüququna malik olan dədə-baba torpaqlarımız bizim tərəfimizdən gələcək nəsillərə ərməğanımızdır... Yaşasın Azərbaycan! Yaşasın Naxçıvan Muxtar Respublikası!..." [3, s. 511].

2008-ci ildə teatrın kollektivi 1990-cı illərin əvvəllərində Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında baş vermiş ictimai-siyasi hadisələrdən bəhs edən "Koroğlunun Çənlibelə qayıdışı" pyesinə müraciət etdi.

Müəllif Adil Babayev bu pyesdə ümummilli lider Heydər Əliyevin və xalq qəhrəmanı Koroğlunun ideyalarını və azadlıq uğrunda mübarizə əzmini ustalıqla uzlaşdıraraq tarixi və müasir personajları bir araya gətirib. Burada hadisələrin gedişində müsbət və mənfi obrazlar Koroğlunun – Heydər Əliyevin ətrafında görünərək öz məqsəd və niyyətlərini ortaya qoyurlar. Hadisələr 1992-1993-cü illəri əhatə edir. Lakin burada 1988-1992-ci illərdə Azərbaycana rəhbərlik etmiş Ə.Vəzirov və A.Mütəllibov da müvafiq olaraq Kaloğlan və Güloğlan adları ilə görünürlər.

"Koroğlunun Çənlibelə qayıdışı" ilk dəfə olaraq məhz Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində tamaşaya qoyulmuşdur. Bunun özündə də bir qanunauyğunluq vardır və başqa cür də ola bilməzdi. Tamaşanın premyerası 2008-ci il may ayının 10-da – ümummilli liderin 85 illiyi günündə – yubileyin zirvə yığıncağında, rəsmi hissədən sonra olmuşdur.

Tamaşanın quruluşçu rejissoru xalq artisti Kamran Quliyev, quruluşçu rəssamı xalq rəssamı Hüseynqulu Əliyev, musiqi tərtibçisi Naxçıvan MR Əməkdar incəsənət xadimi Şəmsəddin Qasımov, rejissor assistenti indi respublikanın əməkdar artisti olan Behruz Haqverdiyevdir. Koroğlu – Heydər Əliyev obrazını xalq artisti Rza Xudiyev özünəməxsus tərzdə canlandırır.

Tamaşada diqqət çəkən əsas müsbət obrazlardan biri də Qaloğlandır. Adından göründüyü kimi bu gənc oğlan dərin məhəbbətlə sevdiyi yurdunda,

doğma diyarında qalmaqla yanaşı, el-obasına, onun ağsaqqalına – Koroğluya, yəni ulu öndərə sonadək sadiq qalır. Onun doğulub boya-başa çatdığı Vətənini daim göz bəbəyi kimi qoruyacağına, abadlaşdırıb gülzarlığa döndərəcəyinə sədaqət andı içən Qaloğlan ən çətin anlarda Koroğlunu – ulu öndəri və onun ideyalarını müdafiə və təbliğ edir. Qaloğlan digər tərəfdən də tamaşada baş verən, bir-birini əvəz edən proseslərin izləyicisi və şərhçisi kimi çıxış edərək tamaşaçıda rəğbət oyadır. Muxtar respublikanın əməkdar artisti Vüsal Rzayev bu rolunun öhdəsindən layiqincə gələrək qəhrəmanının müasir günümüzdəki prototipinin – muxtar respublikanın bugünkü rəhbərinin dərhal xatırlanmasına nail olur.

Həmin gün tamaşadan sonra müəlliflə birgə səhnəyə keçən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu gözəl, məzmunlu tamaşa münasibətilə Adil Babayev başda olmaqla bütün yaradıcı heyəti təbrik edərək belə demişdi: "...Ötən əsrin 90-cı illərinin hadisələrini acı olsa da, hər birimiz yaşamışıq. Bizim vətənpərvər, uzaqgörən insanlarımız ibrət dərsi olsun deyə bugünkü və gələcək nəsillər üçün o dövrü qələmə alıblar və bu yubiley günündə həmin əsərlərdən biri səhnəyə qoyulubdur.

Siz bugünkü ifanızla öz sənətinizə nə qədər vurğun olduğunuzu, ümummilli liderin yoluna nə qədər sədaqətli olduğunuzu bir daha nümayiş etdirdiniz. Yalnız ümummilli liderin yoluna ürəkdən bağlı olanlar rolları belə, ürəkdən ifa edə bilərlər... Ona görə də mən sizin hər birinizə ayrılıqda təşəkkür edirəm".

Tam beş il sonra, tarixi Qurtuluş Gününün – 1993-cü ilin 15 iyununun 20 illiyi ərəfəsində Naxçıvan Dövlət Musiqili Dram Teatrı "Koroğlunun Çənlibelə qayıdışı" tamaşasını qismən yeni quruluşda iyun ayının 14-də elə teatrın binasında Qurtuluşun 20 illik yubiley mərasiminin iştirakçılarına təqdim etmişdir. Bəzi rolların ifaçılarının yeniləndiyi tamaşa böyük maraqla və rəğbətlə qarşılanmışdır.

ƏDƏBİYYAT

1. Naxçıvan MR DA: F. 1, siy. 2, iş 8, s. 21.
2. Naxçıvan Teatrı – məqalələr, xatirələr. Naxçıvan: Əcəmi NPB, 2014, 296 s.
3. Naxçıvan Teatrının salnaməsi. Naxçıvan: Əcəmi NPB, 2010, 734 s.
4. Xəlilov Ə. Naxçıvan Teatrının tarixi. Bakı: ATC, 1964, 94 s.
5. "Azərbaycan gəncləri" qəz., 1965, 18 iyun.
6. "Bakı" axşam qəz., 1965, 17 iyun.
7. "Şərq qapısı" qəz., 1954, 6 avqust.
8. "Şərq qapısı" qəz., 1965, 2 iyun.
9. "Şərq qapısı" qəz., 1971, 23 may.
10. "Şərq qapısı" qəz., 2008, 12 aprel.
11. "Yeni fikir" qəz., 1924, 19 avqust.

Алекбер Гасымов

ИСТОРИЧЕСКОЕ ПРОШЛОЕ АВТОНОМНОЙ РЕСПУБЛИКИ НА СЦЕНЕ НАХЧЫВАНСКОГО ТЕАТРА

В статье рассказывается о пьесах, отражающих события в общественно-политической жизни автономной республики в период с 1924 года до начала 1990-х годов. Здесь всесторонне анализируются даты сыгранных спектаклей, поставленных на основе этих пьес в Нахчыванском театре, а также их творческий состав. Кстати приводятся отрывки из рецензий об этих спектаклях, напечатанных в прессе в те годы.

Ключевые слова: *автономная республика, театр, исторический спектакль, артист, газета.*

Alakbar Gasimov

HISTORICAL PAST OF AUTONOMOUS REPUBLIC ON STAGE OF NAKHCHIVAN THEATRE

The paper deals with the plays that reflect events in the political life of the autonomous republic in the period from 1924 until the early 1990-ies. The dates of played performances staged on the basis of these pieces in the Nakhchivan theatre and its creative staff are analyzed here. Excerpts from reviews concerning these performances, printed in the press in those years are cited by the way.

Key words: *autonomous republic, theatre, historical performance, artist, newspaper.*

(*AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir*)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

İQTİSADİYYAT

ASİF ŞİRƏLİYEV
Naxçıvan Dövlət Universiteti
E-mail: Asifiqtisad@mail.ru

NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA KƏND TƏSƏRRÜFATININ İNTENSİVLƏŞDİRİLMƏSİNİN SƏMƏRƏLİLİYİ MƏSƏLƏLƏRİ

Məqalədə istehsal intensiv inkişafının amillər və növləri intensivləşdirilməsinin mahiyyəti açılıb göstərilir. Bundan sonra burada kənd təsərrüfatında intensivləşdirilməsi tətbiqinin sosial-iqtisadi məsələləri bəhs olunur. Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının intensivləşdirilməsinin nəticələri, konkret materialın əsasında işıqlandırılır.

Açar sözlər: *intensivləşdirmə, yol, kənd təsərrüfatı, sosial-iqtisadi inkişaf.*

Kənd təsərrüfatı məhsullarını artırmağın ölkəmizdə ərzaq təhlükəsizliyinə nail olmağın, öz xüsusi istehsalımız hesabına əhalinin yeyinti məhsulları ilə normal təmin edilməsinin və yeyinti məmulatının çoxaldılmasının iki metodundan, üsul və tipindən istifadə edilir. Bunları kənd təsərrüfatının ekstensiv və intensiv metodları təmsil edir. Ekstensiv metod əkinçilik və heyvandarlıq məhsullarının artması, əhalinin onlarla təminatının yüksəldilməsini istehsala daha çox sahələrinin əkin dövriyyəsinə cəlb edilməsini və mal-qaranın sayının artması hesabına təmin etməyə əsaslanır və onunla şərtlənir. Ümumiyyətlə, torpaq sahələri məhdud olduğundan bu üsul ilə məhsul istehsalını artırmaq əlbəttə həmişə mümkün olmur, hətta mümkün deyildir. Ona görə də əsasən ümumi dünya təcrübəsində və özümüzün xüsusi təcrübəmizdə məhsul istehsalını artırmağın və heyvandarlığın nəticələrinin irəliləməsində kənd təsərrüfatının intensivləşdirilməsi, intensiv metodlardan istifadə ön plana keçir və geniş, təkrar istehsalın əsas və başlıca tipi kimi həmişə irəlidə dayanır, onun tətbiqi ön plana gətirilir. Çünki bu metod maddi istehsalın əkinçilik və heyvandarlıq məhsullarının artırılmasında istehsala əlavə torpaq sahələri cəlb edilməməsi şəraitində mövcud, dəyişməz torpaq sahəsindən gərgin istifadə edilir ki, onun da üç amili – kənd təsərrüfatı istehsalının mexanikləşdirilməsi, kimyalaşdırılması, meliorasiya tədbirlərinin yaxşılaşdırılmasıdır. Məhz bu üsul kənd təsərrüfatının inten-

sivləşdirilməsi ekstensiv inkişaf tipinə nisbətən ön plana keçmiş və həmişə özünün sosial-iqtisadi faydasını, keyfiyyəti və əhəmiyyətini göstərmiş, ərzaq məhsullarının daim artmasının prioritet üsulu olduğunu sübut etmişdir. Bu üsula həmçinin kənd təsərrüfatı istehsalının təmərküzləşdirilməsi və maddi stimullaşdırmanın tətbiqini aid etmək, daxil etmək olar. İntensiv metodların, intensivləşdirmənin kənd təsərrüfatında tətbiqi geniş təkrar istehsalın inkişafının, onun davamlı və dayaqlı tərəqqisinin, əkinçilik və heyvandarlıq məhsullarının artmasının əsas başlıca və həlledici səbəbi və nəticəsidir.

Ölkəmizdə kənd təsərrüfatı istehsalının müasir dövrdə intensivləşdirilməsi, intensiv metodlarla irəliləməsi bu sahədə mexanikləşdirilmənin, texnika ilə təminatının zənginləşdirilməsini və elektrikləşdirilməsini ön plana çəkir və qətiyyətlə tələb edir. Çünki intensivləşdirmənin birinci amili – birinci imkanının düzgün tətbiqi bütün əməliyyatlarda insan əməyinin az qala tamamilə azalmasına və bu əmək sərfinin əsaslı surətdə səmərəliliyinə, faydalılığına əlverişli şərait yaradır. Ona görə də kənd təsərrüfatının intensivləşdirilməsində mexanikləşdirmənin, texnika ilə təminatının, elektrikləşdirilməsini daha səmərəli təşkil etmək lazım gəlir. Buna görə də Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar respublikasında əkinçilik və heyvandarlıq sahələrinin texniki təminatında son illərdə çox iş görülmüş və əməli addımlar atılmışdır. Onu xüsusi ilə diqqətə gətirmək gərəkdir ki, Muxtar respublikada 2005-ci ildə yaradılmış "Naxçıvan aqrolizinq açıq səhmdar cəmiyyəti" bu regionun kənd təsərrüfatının texnika və digər texniki vasitələrlə əsaslı olaraq təminatında mühüm rol oynamış və bu funksiyanı normal olaraq davam etdirir. Belə ki, bu cəmiyyətin xətti ilə Muxtar respublikaya 15 növdən çox 260 kənd təsərrüfatı texnikası gətirilmiş və onun çox hissəsi lizinq yolu ilə satınalınması yolu ilə fermerlərinə və digər torpaq sahiblərinə – fiziki şəxs olan torpaq sahiblərinə çatdırılmışdır. Həmin cəmiyyət eyni zamanda həmin texnikadan əkinçilikdə səmərəli tətbiqinə diqqət yetirir, onları texniki ehtiyat vasitələri ilə təmin edilməsinə qayğı göstərir. Elə bunun nəticəsidir ki, kənd təsərrüfatında torpağın şumlanmasında və toxum səpinindən başlamış əkinin becərilməsi, onun nəticəsi olan məhsulun biçilməsi döyülməsi, tədarük edilməsi və saxlanılmasında bütün proseslər mexanikləşdirmənin və elektrikləşdirilməsi öz işini görür və kənd torpaq sahiblərinə gərək olur. Muxtar respublikada kənd təsərrüfatının intensivləşdirilməsində onun ikinci amilinin tətbiqi və imkanlarından səmərəli istifadəsinə, istehsalın kimyalaşdırılmasına, mineral gübrələrdən istifadə edilməsinə, bitki zərərvericilərinə qarşı mübarizə tədbirlərinə ciddi əhəmiyyət verilir. Onu da nəzərə çatdırmaq çox gərəkdir ki, əkinçilikdə yerli gübrələrdən istifadə edilməsinə xüsusi diqqət yetirilir. Bunu da göstərmək olar ki, 2014-cü ildə regiona 3867,3 ton mineral gübrə gətirilmiş torpaq sahiblərinə sərfəli, güzəştli qiymətlərlə satılması təmin edilmişdir. Bu sahədə Muxtar respublika kənd təsərrüfatı nazirliyinin mütəxəssisləri xüsusi fəallıq göstərir, aqrotexniki xidmətdə torpaq sahiblərinə yaxından köməklik göstərirlər [1, s. 102].

Muxtar respublikada kənd təsərrüfatının intensiv metodlarla inkişafı – intensivləşdirilməsində onun üçüncü amili, üsul və imkanına – torpaqların meliorasiyası, irriqasiyası xüsusi diqqətdə saxlanılır, suvarma sisteminin təkmilləşdirilməsinə, suvarma suyundan səmərəli istifadə edilməsi daim diqqət mərkəzində saxlanılır, bu işə xüsusi əhəmiyyət verilir və qayğı göstərilir, əkin suyunun çirklənməsinin qarşısını almaq üçün müvafiq tədbirlər görülüb reallaşdırılır. Onu xüsusi diqqətə və nəzərə çatdırmaq olar ki, regionda meliorasiya, irriqasiya və suvarma işləri üzrə möhkəm maddi-texniki baza yaradılmış və ondan səmərəli və nəticəli istifadə edilməsi qaydası yaradılmış, əhalinin içməli suya əkinçiliyin isə suvarma suyuna olan tələbatı tamamilə bütünlükdə ödənilir. Onu göstərmək olar ki, son illərdə regionda 100 nasos stansiyası, 700-dən çox subartezian quyusu, 30-dan çox göl yaradılmış və su anbarları istifadəyə verilmişdir.

Muxtar respublikada mövcud olan bütün kəhrizlərdən istifadə qaydaya salınmış, 9 kəhrizin bərpası başa çatdırılmışdır. Həmçinin torpaqların şorlanmasının qarşısının alınması istiqamətində əsaslı tədbirlər görülərək icra edilmiş və bu proses hazırda da müvəffəqiyyətlə davam etdirilir. Eyni zamanda regionda 22 km drenaj sisteminin yaradılması da yuxarıda adını çəkdiyimiz problemin də həllinə əsaslı köməklik göstərilmişdir. Onu da diqqətə gətirmək çox zəruridir ki, Muxtar respublikada meliorasiya və irriqasiya üzrə ölçüb-biçilmiş texniki-iqtisadi cəhətdən götür-qoy edilmiş uzun müddətli və gərəkli tədbirlərin icra edilməsi nəticəsində meliorasiya və irriqasiya sistemi səciyyə daşıyır, bu sahə üzrə bütün tələbatlara cavab verir. Hazırda bu sistem təkmilləşdirilir, buna daim diqqət və qayğı göstərilir. Onu da göstərmək olar ki, keçən il Uzunoba su anbarı yenidən qurulmuş 2 nasos stansiyası tikilib istifadəyə verilmişdir. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə ölkəmizin bir sıra iqtisadi rayonlarında olduğu kimi Naxçıvan Muxtar respublikasında da subartezian quyularının sayını artırmaq məqsədilə 2015-ci il üçün 2 milyon vəsait ayrılmışdır [2, s. 79].

Muxtar respublikada torpağın mühafizəsindən ötəri də gərəkli tədbirlər görülüb həyata keçirilmişdir. Belə ki, əkin üçün yararlı torpaq sahələrində müəssisə və digər obyektlər tikilməsi birdəfəlik olaraq aradan qaldırılmış, sahibkarların əkin dövriyyəsində olan torpaqlarda yaşayış tikintisinə yol verilməməsi bir qayda kimi qəbul edilmişdir.

İntensivləşdirmə eyni zamanda kənd təsərrüfatı istehsalının təmərküzləşdirilməsini, aqrar bölmədə iri istehsalların yaradılmasını şərtləndirir. İstehsalın təmərküzləşdirilməsi öz mahiyyəti etibarilə kənd təsərrüfatında əsas istehsal vasitəsi olan torpağın, işçi qüvvəsinin iri kənd təsərrüfatı müəssisələrində cəmləşdirilməsini nəzərdə tutur və şərtləndirir. Onu da göstərmək lazımdır ki, təmərküzləşmə tətbiq edilməsi sahəsindən asılı olmayaraq ümumiyyətlə istehsalın bir qanunauyğunluğudur və iri istehsalın kiçik istehsala nisbətən çox mühüm, daha yüksək səmərəliliyini nəzərdə tutur. Bu problem xüsusilə ölkə əhalisinin

ərzaq təhlükəsizliyinin davamlı və dayaqlı təminatını tənzimləməkdən ötəri ərzaq buğdasının da bolluğunun yaradılmasına əsaslı köməklik göstərir. Məhz buna görə də ölkəmizdə bu problem üzrə əsaslı tədbirlər görülərək həyata keçirilməyə başlanmışdır. Belə ki, Azərbaycanda taxıl istehsalı üzrə iri fermer təsərrüfatları yaradılmış və burada hər hektardan 55 sentner ərzaq buğdası götürülmüşdür. Belə bir mühüm problemin reallaşdırılması üçün Naxçıvan Muxtar respublikada da iş aparılır.

Muxtar respublikada kənd təsərrüfatı istehsalının intensiv metodlarla, intensivləşdirmə yolu ilə inkişafı üzrə görülmüş və həyata keçirilmiş tədbirlər özünün çox yüksək və faydalı sosial-iqtisadi nəticələrini vermiş, bu sahədə əsaslı nailiyyətlər qazanılmışdır. Belə ki, 2014-cü ildə bu regionda 35 min hektar sahədən 103,7 min ton ərzaq buğdası istehsal edilmiş, regionun belə məhsula olan tələbatı öz istehsalı hesabına ödənilmişdir. Məhsulu saxlamaq və sabitliyini və keyfiyyətini qorumaqdan ötəri 27 min ton tutumu olan taxıl anbarı və 12,2 min ton tutumu olan digər kənd təsərrüfatı məhsullarını saxlayan anbar da istifadəyə verilmişdir. Belə anbarların və soyuducuların sayı artaraq 20-ni ötüb keçmişdir [3, s. 201].

Taxılçılıq üzrə qarşıya qoyulmuş vəzifələri normal olaraq təmin etmək məqsədilə məhsuldar və keyfiyyətli buğda toxumlarının istehsalının təminatı üçün 2 min hektar sahə ayrılmış və toxumçuluq təsərrüfatından ötəri yeni kompleksin tikintisinə başlanmışdır. Hətta regionda ayrı-ayrı fermer təsərrüfatları taxıl toxumu üzrə ixtisaslaşdırılmaya başlanmışdır. Muxtar respublikanın kənd təsərrüfatı istehsalının digər sahələri üzrə də əsaslı nailiyyətlər qazanılmışdır. Belə ki, keçən il regionda 2962 hektar əkin sahəsindən 41,4 min ton məhsul istehsal olunmuş və əhalinin bu növ məhsula olan tələbatı xeyli yaxşılaşmışdır. Bütünlükdə diyarda 60 min 879 hektar torpaq sahəsində əkin keçirilmiş, nəticədə taxıl və kartofla yanaşı digər əkinçilik məhsulları da daha çox istehsal edilmişdir.

Muxtar respublikada meyvə-tərəvəz istehsalının intensiv yolla təmin edilməsi diqqət mərkəzində saxlanılmış keçən il 6125 hektar sahədə 731,4 ton meyvə-tərəvəz əldə edilmişdir. Regionda heyvandarlığı inkişaf etdirmək və onun məhsuldarlığını artırmaq sahəsində səmərəli iş aparılır, intensiv metodlardan istifadə olunur. Belə ki, bütün bunlar sayəsində mal-qaranın sayı əsaslı sürətdə artmış, cins tərkibi xeyli yaxşılaşdırılmış, məhsul istehsalı əsaslı sürətdə artmış, son illərdə 1678 baş cins mal-qara gətirilərək əhaliyə satılması təmin edilmişdir. Bununla yanaşı 2014-cü ildə daha 4 quşçuluq təsərrüfatı istifadəyə verilmiş, belə təsərrüfatların sayı 64-ə çatdırılmışdır. Bunun nəticəsində əhalinin quş ətinə olan tələbatı yerli istehsal hesabına ödənilməyə başlanmışdır. Regionda arıçılıq təsərrüfatının inkişafı və onun məhsuldarlığının artırılmasına da qayğı artmaqdadır. Keçən il yeni arıçılıq təsərrüfatlarının sayının artırılması üçün əhaliyə 534 min manat kredit verilmiş və bunun sayəsində muxtar respublikada arı ailələrinin, təsərrüfatlarının sayı 69 minə çatdırılmışdır [2, s. 55].

Onu xüsusilə diqqətə çatdırmaq gərəkdir ki, indi Muxtar respublikada 107 növdə ərzaq məhsulu istehsal olunur, 396 növ məhsula tələbat yerli istehsalla ödənilir. Onu da göstərmək çox zəruridir ki, Muxtar respublikada keçən il 2013-cü ilə nisbətən kənd təsərrüfatı istehsalı 6,1 faiz artmışdır.

Bütün bunlara görə regionda kənd təsərrüfatının intensiv metodlarla intensivləşdirmə prosesi getdikcə dərinləşir və bunun sayəsində də "Kənd təsərrüfatı ili" olan 2015-ci ildə də maddi istehsalın bu sahəsində yeni yüksək məhsuldarlıq, yüksək sosial – iqtisadi nəticələrdən ötəri intensiv iş davam etdirir.

ƏDƏBİYYAT:

1. İqtisadi nəzəriyyə: Dərslik. Bakı, 2007, 305 s.
2. İqtisadi nəzəriyyə: Dərslik. Bakı, 2009, 297 s.
3. Şirəliyev A.İ. İqtisadi nəzəriyyə. Bakı, 2004, 480 s.

Асиф Ширалиев

ВОПРОСЫ ЭФФЕКТИВНОСТИ ИНТЕНСИФИКАЦИИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

В статье раскрывается сущность интенсификации факторов и типов интенсивного развития производства. Далее в ней рассматриваются социально-экономические вопросы применения интенсификации в сельском хозяйстве. Результаты интенсификации сельского хозяйства в Нахчыванской Автономной Республике освещаются на конкретном материале.

Ключевые слова: *интенсификация, путь, сельское хозяйство, социально-экономическое развитие.*

Asif Shiraliyev

ISSUES OF EFFECTIVENESS OF AGRICULTURE INTENSIFICATION IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The essence of intensification of factors and types of intensive development of production is revealed in the paper. Next, socio-economic issues of the application of intensification in agriculture are considered here. The results of the agriculture intensification in Nakhchivan Autonomous Republic are covered on the basis of concrete material.

Key words: *intensification, way, agriculture, socio-economic development.*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

AKİF MƏDƏTOV
Naxçıvan Dövlət Universiteti
E-mail: Akifiqtisad@mail.ru

NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İQTİSADİYYATIN İNKİŞAF VƏ YERLƏŞDİRİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Məqalədə məşğulluğun sosial-iqtisadi mahiyyətindən, onun cəmiyyət üzvlərinin gündəlik həyatındakı rolundan söz açılmışdır. Daha sonra ölkəmizdə əhalinin məşğulluq imkanlarının artırılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərdən bəhs olunmuş, hüquqi tənzimləmə vasitələrindən istifadə etməklə məşğulluğun daha təkmil formasının təminatı öz əksini tapmışdır.

Açar sözlər: *məşğulluq, sosial-iqtisadi münasibətlər, məşğulluq qanunu, aqrar islahatlar.*

Ölkəmiz XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etdiyi vaxtdan keçən dövr ərzində Respublikamızın ictimai-siyasi və sosial-iqtisadi həyatında əsaslı dəyişikliklər baş vermişdir.

Belə ki, 1993-cü ildən başlayaraq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət müstəqilliyin ilk illərində ölkədə baş alıb gedən siyasi və iqtisadi böhranı aradan qaldırmış, Azərbaycanın demokratik dövlət quruculuğu və bazar iqtisadiyyatı yolu ilə irəliləməsinə geniş imkanlar açmışdır. Daha doğrusu, Respublikamızda ardıcıl aparılan islahatların 90-cı illərin birinci yarısından başlayaraq iqtisadiyyatda mövcud geriləməni dayandırmış və yeni inkişaf mərhələsinə keçidi təmin etmişdir.

Məlum olduğu kimi, istər Azərbaycan Respublikasında, istərsə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında məhsuldar qüvvələrin inkişafı və səmərəli yerləşdirilməsi məsələləri müharibədən sonrakı illərdə dövlət qarşısında dayanan ən mühüm iqtisadi problem olaraq öz həllini gözləyirdi. Etiraf edilməlidir ki, ulu öndər Heydər Əliyev hakimiyyətə gəldiyi 70-ci illərin əvvəlinə qədər bu sahədə nəinki əsaslı, hətta nəzərə çarpacaq dəyişiklik belə baş verməmişdir.

Heydər Əliyev hakimiyyətə gəldiyi 70-ci illərin ilk vaxtlarında Respublikada məhsuldar qüvvələrin ölkə ərazisində səmərəli inkişafı və yerləşdirilməsi sahəsində çox böyük dəyişikliklər baş verməyə başladı. Bu dəyişiklik Azərbaycanın bütün iqtisadi rayonlarında sənaye və kənd təsərrüfatı istehsalının ərazi və

sahə quruluşunun təkmilləşdirilməsi sahəsində özünü parlaq şəkildə büruzə verdi. Sevindirici haldır ki, hələ Heydər Əliyevin Azərbaycan Respublikasında ilk dəfə hakimiyyətdə olduğu 12 il müddətində (1969-1982-ci illər) mindən artıq sənaye və kənd təsərrüfatı müəssisələri yaradılmışdır ki, bu yeni yaradılan müəssisələrin də 80%-dən çoxu Bakı-Sumqayıt iqtisadi rayonu müstəsna olunmaqla, respublikanın iqtisadi inkişaf səviyyəsi zəif olan iqtisadi rayonlarında yerləşdirilmişdir.

Məhz Respublika iqtisadiyyatının inkişafında yeni mərhələnin başlanmasına səbəb olan qeyd olunan problemin müvəffəqiyyətlə həyata keçirilməsi sovet dönəmində ictimai əmək məhsuldarlığı göstəricisinə görə müttəfiq respublikalar arasında Azərbaycanın 12-ci yerdən 2-ci yerə çıxarmışdır.

Həmin dövrdə Naxçıvan MR-də da məhsuldar qüvvələrin Muxtar Respublika ərazisində yerləşdirilməsi iqtisadi cəhətdən əsaslandırılmış formada həyata keçirilməyə başladı. Bu dövrdə Naxçıvan şəhərində Xalça kombinatı, Alt trikotaj fabriki, Şüşə qablar zavodu, Dəmir Beton hissələri zavodu, Yağ-Pendir zavodu və Şərabçılıq zavodları tikilib istifadəyə verilmişdir [1, s. 30].

Məlum olduğu kimi müasir şəraitdə məhsuldar qüvvələrin iqtisadi rayonlarda inkişafı və yerləşdirilməsi sahəsində iki amil müstəsna dərəcədə böyük rol oynayır. Birincisi, müasir şəraitdə bütün iqtisadi rayonlarda təbii resurslardan kompleks istifadə edilməli, bu resurslar təsərrüfat dövriyyəsinə cəlb edilməli, ikincisi, regionların torpaq, iqlim xüsusiyyətlərinə uyğun olaraq kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılması və təmərküzləşdirilməsi məsələləri həm elmi, həm də iqtisadi cəhətdən düzgün qiymətləndirilməlidir.

Muxtar respublikamızda zəngin təbii ehtiyatlar: molibden, polimetal filizlər, daş duz, dolomit, mərmər, tikinti materialları mövcuddur. Eyni zamanda iqtisadi rayon Badamlı, Sirab, Vayxır və s. kimi 200-dən artıq çox qiymətli su bulaqlarına malikdir. Azərbaycanda mineral su ehtiyatının 60%-i Naxçıvan MR-nin payına düşür. Bununla belə, Naxçıvan MR-də mineral suların ehtiyatı və istehsal imkanları nəzərə alınaraq mineral sular istehsalını indikindən bir neçə dəfə çox artırmaq olar. Yəni muxtar respublika təbii mineral su istehsalına görə tək Azərbaycanı deyil, MDB-nin bəzi ölkələrinin xüsusilə qonşumuz İran İslam Respublikasının mineral suya olan tələbatının mühüm rol oynaya bilər. Hazırda Təbriz şəhərində əhalinin suya olan tələbatı Ermənistan ərazisində istehsal olunan "Cermuq" mineral suyundan istifadə edilir. Halbuki, Sirab mineral suyu tibbi və bioloji əhəmiyyətinə görə "Cermuq" mineral suyundan qiymətlidir. Naxçıvan MR bu gün çox sahəli sənaye və aqrar-sənaye Respublikasıdır. Sənayenin ümumi strukturunda kənd təsərrüfatı məhsullarının və faydalı qazıntı yataqlarının hasilatı və emalı xüsusi yer tutur [3, s. 47]. Bununla bərabər, MR-də əhalinin yerli tələbatı ilə əlaqədar yeyinti, yüngül, meşə və ağac emalı, tikinti materialları kimi sənaye sahələrinin istehsalı da geniş çeşidlə təmsil olunur. Yerli tələbatı ödəyən sənaye sahələrinin inkişaf səviyyəsinə görə Naxçıvan MR-i, Azərbaycanın digər iqtisadi rayonları ilə müqayisədə ilkin

yerlərdən birini tutur. MR-də iqtisadiyyatın aparıcı sahəsi olan sənaye sahələrinin müasir inkişaf səviyyəsinin təhlili göstərir ki, regionda sənaye kompleksləri çox sahəli struktura malik olsa da, bu komplekslərin formalaşması imkanları son 20 ildə daha çox sürətlə həyata keçirilmişdir. Məsələn, yeyinti, meşə və ağac emalı, yüngül, Tikinti materialları tam formalaşma səviyyəsinə qədəm qoyan sənaye kompleksləridir. Xüsusilə Maşınqayırma və tikinti materialları sənayesində Naxçıvan Avtomobil və Sement zavodlarının yaradılması nəinki, bu Komplekslərin inkişafı və formalaşmasını başa çatdırırdı, eyni zamanda Naxçıvan iqtisadi rayonunun bu sahələr üzrə respublikamızda iqtisadiyyatın inkişafında yerini müəyyən etdi. Böyük fərəh hissi ilə qeyd edilməlidir ki, 70 illik sovet dövrü ərzində həyata keçirilməsi mümkün olmayan iqtisadi problemlər son 20 ildə böyük müvəffəqiyyətlə aparılan uzaqgörən, səriştəli siyasətin bəhrəsi olaraq həyata keçirildi. Muxtar respublikada azad sahibkarlığın, xüsusi mülkiyyətin və kiçik biznesin inkişafı üçün yaradılan əlverişli şəraitin nəticəsi olaraq Ümum Daxili Məhsulda özəl bölmənin payı cari ildə 86%-ə çatmışdır [4]. Kapital qoyuluşlarına yönəldilən investisiyalar yerli istehsal və qeyri istehsal müəssisələrinin yaradılmasına infrastruktur sahələrinin tikilib istismara verilməsinə səbəb olmuşdur.

Müasir şəraitdə sürətli və səmərəli inkişafa rəvac verən iqtisadi siyasət MR-də tarazlı, sabit və davamlı inkişaf perspektivi üçün başlıca amildir.

Hazırda Naxçıvan MR-in sənaye istehsalının həcmi 862 milyon 871 min manat təşkil etməkdədir. 2003-cü illə müqayisədə regionda sənaye müəssisələrin sayı 7 dəfə artaraq 2014-cü ildə 438-ə çatmışdır. Yeni sənaye müəssisələrinin tikilib istifadəyə verilməsi MR-də 15385 nəfər iş qüvvəsinin ictimai istehsala cəlb edilməsinə səbəb olmuşdur. Bu da 2003-cü ildəki müvafiq göstəricini 5,4 dəfə üstələmişdir. Qeyd edilən dövrdə əhalinin maddi rifahının yüksəldilməsində də böyük dəyişiklik baş vermişdir. Beləliklə, 2014-cü ildə MR-də orta əmək haqqı 2003-cü ilə nisbətən 4,7 dəfə artaraq 356,3 manata çatmışdır. Sənaye MR-də iqtisadiyyatın bütün dövrlərində aparıcı sahəsi olmuşdur. 2014-cü ilin birinci yarısında sənayedə 743 mln 886 min manatlıq məhsul istehsal edilmişdir. Qeyd edilməlidir ki, MR-də sənaye istehsalının səmərəli yerləşdirilməsinin nəticəsidir ki, cari ildə 116 növü ərzaq, 234 növü isə qeyri ərzaq olmaqla, 350 çeşiddə məhsul istehsal edilmişdir [4].

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi aqrar islahatlar bu gün də MR-ə ərazisində uğurla davam etdirilir. Ölkə prezidenti cənab İlham Əliyev göstərmişdir ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində bizim konkret planımız, proqramımız var. Çalışmalıyıq ki, Azərbaycanda istehlak olunan bütün ərzaq məhsulları Azərbaycanda istehsal edilsin. Bu məqsədlə, Naxçıvan MR-də iqtisadiyyatın bütün sahələrində olduğu kimi kənd təsərrüfatının inkişaf istiqamətində də kompleks tədbirlər həyata keçirilir. Belə ki, MR-də özəl mülkiyyətə əsaslanan aqrar münasibətlərin formalaşmasının əsası ümummilli liderimizin siyasi fəaliyyətinin Naxçıvan dövründə ötən əsrin 90-cı illərində

qoyulmuşdur. Sonrakı dövrlərdə davam etdirilən bu prosesin ilk mərhələsi 2000-ci illərdə başa çatdırılmışdır. Artıq MR-də bu sahəni əhatə edən yeni istehsal, emal müəssisələrinin fəaliyyətə başlaması, əkinçiliyin və heyvandarlığın inkişaf etdirilməsi, güzəştli şərtlərlə kreditin verilməsi məhsul istehsalının artırılmasına və nəticə etibarı ilə ərzaq təhlükəsizliyinin təmin edilməsinə səbəb olmuşdur. Naxçıvan MR-i Ali Məclisi Sədrinin Sərəncamları ilə təsdiq edilən "Naxçıvan MR-də kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)", "2008-2015-ci illərdə MR-də əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Naxçıvan MR-in 2014-2018-ci illərdə sosial inkişaf Dövlət Proqramı", "2012-2015 ci illərdə Naxçıvan MR-də meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası MR-də aqrar sahənin daim inkişafını təmin edir.

Onu da qeyd edək ki, Naxçıvan MR-də bütövlükdə iqtisadiyyatın inkişafında kənd təsərrüfatı aparıcı və həlledici rola malikdir. Təkcə 2014-cü ilin məhsulu üçün MR-də 60829 hektar sahədə əkin işləri həyata keçirilmişdir. 2014-cü ilin 9 ayı ərzində MR-də 109 min 624 ton dənli və dənli paxlalılar, 4225 ton dən üçün qarğıdalı, 663 ton dən üçün günəbaxan, 63753 ton tərəvəz, 41 min 435 ton kartof, 9427 ton üzüm istehsal edilmişdir [4]. Hazırda MR-də irriqasiya sistemləri daim yeniləşdirilir, meliorasiya tədbirləri həyata keçirilir. Bu da torpaq sahələrində su təminatının yaxşılaşdırılmasına, yeni torpaq sahələrinin əkin dövriyyəsinə çatdırılmasına imkan verir. Apardığımız tədqiqatdan məlum olur ki, MR-də meliorasiya olunmalı yüzlərlə hektar torpaq sahələri vardır ki, bu torpaqlar meliorasiya olunduqdan sonra MR-nin torpaq fondunun xeyli artırılmasına və kənd təsərrüfatı istehsalının həcminin iki dəfə artırılmasına səbəb olar. Hazırda Şərur rayonunda 1968 hektar, Babək rayonunda 70 hektar, Culfa rayonunda 620 hektar, Şahbuz rayonunda 830 hektar, Kəngərli rayonunda 600 hektar, Ordubad rayonunda 700 hektar torpaq sahələri şoranlı torpaq sahələridir. MR-də torpaq sahələrinin meliorasiya problemlərini nəzərə alaraq MR Ali Məclisinin Sədri Vasif Talıbovun Sərəncamı ilə "Kəngərli rayonunda irriqasiya sistemlərinin təkmilləşdirilməsi" layihəsi çərçivəsində yeni suvarma şəbəkəsi qurulur, rayon ərazisində yeni nasos stansiyasının, su qəbuledici və su paylayıcı hovuzların tikintisi aparılır. Həmçinin aparılan yenidənqurma işləri nəticəsində Uzunoba Su Anbarının həcmi 8 mln kub metrə çatdırılmış, nəticədə Kəngərli rayonunda 3300 hektar torpaq sahələri əkin dövriyyəsinə qatılmışdır [4].

Hazırda və gələcəkdə də MR-də istehsal və istehlak arasında səmərəli proporsiyaların yaradılması, yüksək keyfiyyətli qida məhsullarının, xüsusi ilə, ət və süd məhsullarının istehsal olunmasını tələb edir. Bu məqsədlə, respublikanın bütün ərazilərində heyvandarlığın ətlik-südlük istiqaməti inkişaf etdirilir. İndiki şəraitdə MR-də 109 min 822 baş iri buynuzlu mal-qara, 668 min 933 baş xırda buynuzlu heyvan saxlanılır. Bundan başqa, MR-də iri buynuzlu mal-qaranın cins tərkibi daha da yaxşılaşdırılmış və məhsuldar mal-qaranın xüsusi çəkisini

artırmaq məqsədi ilə bu günədək "Naxçıvan Aqrolizinq" ASC tərəfində 1688 baş, o cümlədən 1181 baş "Holştin-firiz", 423 baş "Simmental" və 84 baş "Svis" cinsli yüksək məhsuldar mal-qara gətirilərək sahibkarlara satılmışdır.

Həmçinin əhalinin yumurta və quş ətinə olan tələbatının yerli istehsal hesabına ödənilməsinə də xüsusi diqqət verilir, yeni quşçuluq təsərrüfatları yaradılır. Hazırda MR-də 63 quşçuluq təsərrüfatı fəaliyyət göstərir. Görülmüş işlərin nəticəsidir ki, 2014-cü ildə diri çəkidə ət istehsalı 14968 ton, süd istehsalı 66399 ton, yumurta istehsalı isə 60 mln 984 min ədəd olmuşdur [4].

Kənd təsərrüfatında istehsalın səmərəliliyinin artırılmasına, əl əməyinin yüngülləşdirilməsinə və məhsulun maya dəyərinin aşağı salınmasına imkan yaradan texnika ilə təchizatda da xüsusi diqqət verilmişdir. 2005-ci ildə yaradılan "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə muxtar respublikaya kənd təsərrüfatı texnikaları gətirilmiş, lizinq yolu ilə sahibkarlara və torpaq mülkiyyətçilərinə satılmışdır. Təkcə 2014-cü ilin ötən dövründə muxtar respublikaya 235 ədəd kənd təsərrüfatı texnikası alınıb gətirilmişdir. Ümumiyyətlə, həyata keçirilən aqrar siyasətin səmərəli nəticəsi olaraq, bu gün tələbatın əsas etibarı ilə yerli istehsal hesabına ödənilməsinə nail olunmuş, daxili bazarda məhsul bolluğu yaradılmışdır. 2014-cü ildə muxtar respublikada 350 mln manatdan çox kənd təsərrüfatı məhsulları istehsal edilmişdir ki, bu da 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 5,5% çoxdur. Hazırda əhalinin ərzaq məh-sullarına olan tələbatının yerli istehsal hesabına tam ödənilməsi üçün dövlət tərəfindən müvafiq tədbirlər həyata keçirilir.

Müasir mərhələdə muxtar respublikada iqtisadiyyatın uğurlu, müvəffəqiyyətli inkişafı ilə bərabər onu da qeyd etmək lazımdır ki, ekoloji siyasət də dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi diqqəti cəlb edir. Bu bir həqiqətdir ki, əgər insanın sağlam həyat şəraitinə uyğun tələbatı ödənilmirsə, digər tələbatların ödənilməsi heç bir əhəmiyyət kəsb edə bilməz. Ona görə də insan üçün qiymətli olan prioritetlər sırasına ekoloji təhlükəsizlik birinci yer tutur. Böyük qürur hissi ilə qeyd edilməlidir ki, respublikamızda təbiətin mühafizəsi sahəsində atılan addımlarda Naxçıvan muxtar respublikasının xüsusi yeri var. Belə ki, 2008-2015-ci illərdə Naxçıvan MR-də əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramında "Naxçıvan MR-də yay-qış otlaqlarının biçənəklərdən səmərəli istifadə edilməsi, səhralaşmanın qarşısının alınmasına dair" Dövlət Proqramının icrası və bu istiqamətdə həyata keçirilmiş ardıcıl tədbirlər nəticəsində muxtar respublikanın ekologiyası tamamilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu bir həqiqətdir ki, Naxçıvan MR-i Ali Məclisinin Sədri cənab Vasif Talıbovun MR-də ekoloji tarazlığın qorunub saxlanılması, təbiətin mühafizə, yeni meşə zolaqlarının salınması sahəsində ardıcıl, qətiyyətli tədbirlərin həyata keçirilməsinin parlaq nəticəsidir ki, 1990-cı ildə muxtar respublikanın ümumi ərazisinin meşə sahəsi 0,6% təşkil etdiyi halda, hazırda meşə sahəsi ümumi ərazinin 10%-ni tutur. Tək bir faktı qeyd etmək yerinə düşər ki, muxtar respublikada meşə tingliyi müəssisəsi yaradıldıqdan

sonra 6 mln-dan artıq ting yetişdirilmişdir. Bütün bunların nəticəsi olaraq muxtar respublikada 2014-cü ildə 525 hektar sahədə meşə salma və meşə bərpa işləri həyata keçirilmiş, 2014-cü ilin tək yanvar-aprel aylarında 200 hektar sahədə meşə zolağı salınmışdır. Bu bir həqiqətdir ki, muxtar respublikada iqtisadiyyatın intensiv inkişafı kimi ekoloji inkişaf da öz sürəti və miqyasına görə respublikamızın regionları sırasında ön yerdədir.

ƏDƏBİYYAT

1. Azərbaycan iqtisadiyyatı / İ.Alıyevin və S.İbadovun rəhbərliyi və elmi redaktorluğu ilə. Bakı: Ağrıdağ, 1999, 400 s.
2. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2011-ci il tarixli Sərəncamı.
3. Məmmədli O., İsmayılov F. Bazar iqtisadiyyatının dövlət tərəfindən tənzimlənməsi. Bakı: MBM, 2006, 432 s.
4. http://statistika.nmr.az/

Акиф Мадатов

НЕКОТОРЫЕ ПРОБЛЕМЫ РАЗВИТИЯ И СТАНОВЛЕНИЯ ЭКОНОМИКИ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

В статье говорится о социально-экономической сущности занятости, ее роли в повседневной жизни членов общества. Далее в ней освещаются целенаправленные мероприятия, осуществляемые в стране в направлении расширения возможностей занятости населения, находит свое отражение обеспечение более совершенных форм занятости с помощью средств правового регулирования.

Ключевые слова: *занятость, социально-экономические отношения, закон о занятости, аграрные реформы.*

Akif Madatov

SOME PROBLEMS OF ECONOMIC DEVELOPMENT AND DEPLOYMENT IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The paper deals with socio-economic essence of employment, its role in society's daily life. Further dealings are with the proper measures carried out in the direction of improvement of people's employment opportunities, the maintenance of more improved form of employment using legal regulation means is also reflected in the paper.

Key words: *employment, socio-economic relations, employment act, agrarian reforms*.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

CAVADXAN QASIMOV
AMEA Naxçıvan Bölməsi
E-mail: Cavadxan.yusifoglu@mail.ru

NAXÇIVAN MUXTAR RESPUBLİKASI: SOSİAL-İQTİSADİ İNKİŞAF VƏ MÜASİR DÖVR

Məqalədə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının nəzəri məsələlərinə diqqət yetirilmiş, onun elmi əsaslandırılması aparılmış, addımların günün tələblərinə uyğun atılması vurğulanmışdır. Göstərilmişdir ki, son iyirmi ildə burada məqsədyönlü iqtisadi siyasətin yeridilməsi ümumilikdə milli iqtisadi potensialın daha da gücləndirilməsinə səbəb olmuşdur. Əldə olunan nəticələr statistik göstəricilər əsasında tərtib edilmiş cədvəllərlə təhlil edilmiş və region üçün səmərəli strateji faydalılığı açıqlanmışdır.

Açar sözlər: *sosial-iqtisadi inkişaf, milli iqtisadi potensial, məşğulluq səviyyəsi, Ümum Daxili Məhsulun həcmi, bazar iqtisadiyyatı, bazar münasibətləri.*

Naxçıvan Muxtar Respublikası ölkəmizin sosial-iqtisadi, ictimai siyasi həyatında ən çevik rol oynayan, ən aktual inkişaf mərhələləri ilə yaddaşlara həkk olunan, hər keçən gün yeni nailiyyətlər qazandıran, bununla da milli iqtisadi inkişafa böyük töhfə olan ərazidir. Son iyirmi ildən artıq dövrdə müasirləşən, gələcəyə istiqamətlənmiş addımlarla daha da möhtəşəmlik qazanan muxtar respublika tikintinin, quruculuğun, abadlığın məkanına çevrilmiş, bir sözlə, sosiallaşmanın və modernləşmənin önündə getməkdədir. Əhalisinin maddi və mənəvi rahatlığının, sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşması istiqamətində həyata keçirilən məqsədyönlü və düşünülmüş tədbirlər burada sağlam iqtisadi mühitin, səmərəli fəaliyyət istiqamətlərinin təmin olunmasına əlverişli şərait yaratmışdır. Ümummilli liderimiz böyük Heydər Əliyevin siyasi fəaliyyəti ilə təməli qoyulan iqtisadi inkişaf xətti son iyirmi dörd ilə yaxın bir dövrdə möhtəşəm strateji mərhələlər keçmişdir. Təbii ki, bütün bu uğurlar Naxçıvan Muxtar Respublikasının da sosial-iqtisadi inkişafına öz yüksək təsirini göstərmişdir [3, s. 65].

Keçən dövr ərzində muxtar respublikada əldə olunan nailiyyətləri aşağıdakı kimi sistemləşdirə bilərik:

1. müstəqil siyasi və iqtisadi sabitliyin bərqərar edilməsi və onun əsasında gələcək üçün münbit zəmin yaradılması. Elə etmək lazım idi ki, siyasi sabitlik öz özlüyündə iqtisadi nailiyyətlərin təminatı üçün əlverişli şərait formalaşdırsın və sonrakı mərhələlərdə qarşılıqlı təkana çevrilə bilsin;

2. itki vermədən keçmiş iqtisadi sistemdən imtina etməklə yeni iqtisadi şəraitə keçmək və bütün iqtisadi prosesləri bu istiqamətdə hazırlamaq, təkmilləşdirmək;

3. iqtisadiyyatı keçid dövrünün istənməz hallarından qorumaq üçün dayanıqlı və gələcək uğurlara qapı açа biləcək səviyyədə təmin etmək və formalaşdırmaq;

4. müstəqil iqtisadi siyasət üçün baza hazırlamaq və sonrakı prosesləri bunun əsasında təmin etmək çevikliyini formalaşdırmaq;

5. iqtisadi siyasətdə tənzimlənmə funksiyasının təminatı və bunun iqtisadi və hüquqi mexanizmlərin vəhdət halında hərəkətə gətirilməsi;

6. mövcud iqtisadi və siyasi şəraitə uyğun qanun və ya qərarların qəbulu ilə bazar münasibətlərinin əsaslarının müəyyənləşdirilməsi;

7. bazar iqtisadiyyatının dövlət tənzimlənməsinin güclü təminatlar sisteminin yaradılması və zəruri infrastruktur potensialının formalaşdırılması;

8. nəhayət, iqtisadiyyatın sosiallaşması istiqamətində nəzəri, hüquqi və təcrübi fəaliyyətin həyata keçirilməsi və s.

Bütün bunlar Naxçıvan Muxtar Respublikasının son iyirmi illik inkişaf mənzərəsinin xronoloji təsviridir. Artıq muxtar respublikada iqtisadiyyatın bütün sahələrində ardıcıl, davamlı, dayanıqlı nailiyyətlər əldə olunmaqdadır. İqtisadiyyatın sahə strukturu böyük zəhmətə, hədsiz diqqətə, tükənməz qayğıya söykənən nailiyyətlərdən ibarət gerçək, təkmil və zəngin forma almışdır. Təbii ki, əldə olunan uğurlar öz ifadəsini əsas makroiqtisadi göstərici olan Ümum Daxili Məhsulun həcmində göstərməkdədir. Aşağıdakı cədvəldə son iyirmi ildə muxtar respublikada istehsal olunmuş ÜDM-nin həcmi göstərilmişdir.

İllər	**min manat**	**Hər bir nəfərə düşən (manat)**
1995	43721,7	131,9
2000	84862,4	236,2
2001	98100,9	269,9
2002	118211,6	321,9
2003	168040,4	453,4
2004	232441,6	621,3
2005	305796,5	807,3
2006	405657,3	1059,7
2007	544958,9	1407,4
2008	795763,6	2016,6
2009	973649,3	2437,7
2010	1171305,7	2882,9
2011	1786341,6	4311,7
2012	2103424,3	4973,8
2013	2338927,7	5423,0
2014	2391004,2	5465,2

Qeyd edək ki, hazırkı 2015-ci ilin yanvar aprel aylarında müvafiq göstərici muxtar respublikada 622 milyon 901 min 500 manat həcmində olmuşdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi isə 1414,4 manat təşkil etmişdir (5).

Ölkəmizdə iqtisadiyyatın aparıcı sahələrindən biri kimi heç şübhəsiz ki, sənayenin adını tərəddüd etmədən çəkə bilərik. Yaxın keçmişimizə diqqət edəndə görürük ki, keçmiş SSRİ-nin ölkəmizə zaman-zaman ögey münasibətinin nəticəsi idi ki, sənaye sahələri ölkəmizin regionlarında deyil, əsas olaraq Sumqayıt iqtisadi rayonunda cəmləşmişdir. Bu isə bir çox mənfi hallarla yanaşı, regionların iqtisadi potensialının məhdudlaşdırılmasına gətirib çıxarırdı. Ancaq milli liderimizin uzaqgörən siyasəti nəticəsində bu proses dövlətin regional siyasətinin ana xəttinə çevrildi və regionlarda yeni-yeni sənaye mərkəzləri yaradıldı. Bu gün həmin tarixi-iqtisadi siyasətə sadiq qalmaqla, Naxçıvan Muxtar Respublikasında da sənaye infrastrukturunun formalaşması və təkmilləşdirilməsi uğurlarla müşayiət edilməkdədir. Çox ciddi dövlət dəstəyinin ən bariz təsdiqidir ki, son iyirmi ildə sənayenin inkişaf istiqamətlərinin düzgün müəyyənləşdirilməsi artıq özünün yüksək səviyyəsinə çatmışdır. Bu gün muxtar respublikada ümumi daxili məhsulun tərkibində ilk yeri məhz sənaye sahəsi tutmaqdadır. Fikrimizi sənaye məhsullarının illər üzrə istehsal həcmini ifadə edən aşağıdakı cədvəl vasitəsilə təsdiq edə bilərik:

İllər	**İstehsal olunmuş sənaye məhsulu, min manat**
2000	13765,4
2001	14390,9
2002	15627,9
2003	17600,3
2004	25555,0
2005	41207,3
2006	70443,6
2007	122679,5
2008	164451,9
2009	212469,1
2010	318564,8
2011	680921,2
2012	799492,4
2013	862870,5
2014	891486,4

Sənayenin potensial inkişaf perspektivləri onun növbəti mərhələlərdə də ön sırada təmsil olunacağını göstərməkdədir. Belə ki, cari ilin dörd ayı ərzində müvafiq sahə üzrə istehsal həcmi 296 milyon 656 min manat olmuşdur [5].

Bütün bunlar ölkəmizdə və ona bağlı olan Naxçıvan Muxtar Respublikasında uğurlu sosial siyasətin mövcudluğundan xəbər verməkdədir. Müasir iqti-

sadi şəraitdə sosial siyasətin daha da effektiv olması üçün dövlət tərəfindən stimullaşdırıcı amillərin daha da gücləndirilməsinə fikir verilməkdədir.

Naxçıvan Muxtar Respublikasının hazırkı inkişaf səviyyəsi imkan verir ki, burada çoxsahəli və çoxşaxəli iqtisadiyyat bərqərar edilsin və ərazi strateji, etibarlı və müqavimətli iqtisadi dəstək rolunu oynaya bilsin. Çünki, buranın coğrafi mövqeyi ölkəmiz üçün çox zəruridir. Muxtar respublikamız ölkəmizin etibarlı qonşuluq siyasətinin yaradılması, formalaşdırılması və inkişafında müstəsna əhəmiyyətə malikdir. Ona görə də muxtar respublikanın iqtisadiyyatının sahə strukturunda yer alan bütün istiqamətlərin tarazlı, dayanıqlı inkişafı bütünlükdə ölkəmiz üçün də çox lazımlıdır. Ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasət Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyi və qorunması baxımından da çox qiymətlidir. Bütün bunların fonunda muxtar respublika ölkəmizdə əldə olunan sosial-iqtisadi və ictimai-siyasi nailiyyətləri yaxından izləyə bilir və gerçək üstünlükləri ilə həmin nailiyyətlərə qarşılıq verə bilir.

Belə bir yaxşı söz var. Deyirlər cəmiyyətdə hər kəs iqtisadçı olmaya bilər, ancaq iqtisadiyyat hər kəs üçün olmalıdır. Bu gün Naxçıvan muxtar respublikasının müasir inkişaf səviyyəsinə diqqət edəndə görürük ki, həqiqətən də burada müəyyənləşdirilən dövlət siyasəti bütün təbəqədən, yaşdan, cinsdən olan hər kəsi əhatə edə bilir və onların sosial vəziyyətinin daha da yaxşılaşmasına xidmət edir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında aparıcı sahələrdən birini kənd təsərrüfatı tutur. Kəndlilərin fəaliyyət sahələrinin, əməyinin nəticələrinin, istehsal etdikləri məhsulların məcmusu, sənayenin çox mühüm xammal bazası, təbiətin daim canlandırılması, bunun isə cəmiyyət üçün əlverişliliyinin yüksəldilməsinin mahiyyəti olmaq etibarı ilə sözü gedən sahədəki məhsulların istehsal səviyyəsinin yüksək olması çox zəruridir. Muxtar respublikada həyata keçirilən tədbirlər məhz qeyd etdiyimiz addımların atılmasına istiqamətləndirilib. Təməli milli liderimizin siyasi fəaliyyətinin Naxçıvan MR dövründən qoyulan aqrar siyasət muxtar respublikanı aqrar islahatların beşiyinə çevirməklə yanaşı, həm də burada qabaqcıl, çevik iqtisadi idarəetmə mexanizminin əsaslarını qoymuş oldu. Yüksək təşkilatçılıq qabiliyyətinə söykənən tədbirlər keçən dövrlərin zəngin müvəffəqiyyət təşəbbüsünə çevrilmiş və hazırda da çox yüksək səviyyədə davam etdirilməklə, son iyirmi ilin qürurverici səviyyəsinə çatmışdır. Nəzərə alsaq ki, muxtar respublika əhalisinin əksər hissəsi (70 %-də artıq) kənd yerlərində yaşayır, onda kənd təsərrüfatının təminat potensialının nə qədər yüksək olduğunu təsəvvür edə bilərik. Müasir iqtisadi şəraitdə kəndli torpaq münasibətlərinin uğurlu istiqamətdə tənzimlənməsi, kəndlinin öz əməyində stimul hiss etməsi təbii ki, son nəticədə məhsuldarlıq səviyyəsinin də yüksəldilməsinə münbit şərait yaratmışdır. Statistik göstəricilər vasitəsilə kənd təsərrüfatının ümumi məhsulunun artım dinamikasına diqqət edərkən bunu açıq şəkildə görmək mümkündür:

İllər	İstehsal həcmi (min manat)
1995	38572,2
2000	54497,7
2001	58596,6
2002	64297,0
2003	71822,2
2004	78054,9
2005	98255,1
2006	109005,1
2007	122415,9
2008	153417,5
2009	185117,2
2010	247126,6
2011	296117,0
2012	318836,0
2013	337127,2
2014	355156,7

Həmin göstəricilər 2015-ci ilin yanvar-aprel aylarında 33 milyon 609 min manat həcmində olmuşdur [5].

Çox sevindirici haldır ki, ölkəmizdə həyata keçirilən tədbirlər hər keçən gün özünə yeni-yeni səhifələr açmaqdadır. Əldə olunan nailiyyətlər növbəti addımların atılması üçün mükəmməl vasitə kimi dəyərləndirilir. Bir uğur digər bir uğurun başlanğıcı, stimulverici, təkanverici qüvvəsi kimi qəbul edilir. Hələ 1994-cü ildə tarixə haqlı olaraq Heydər Əliyevin neft strategiyası kimi düşən "Əsrin müqaviləsi"nin imzalanması 1995-ci ildə nəhəng iqtisadi (aqrar) islahatların başlanması və həyata keçirilməsi üçün böyük təməl oldu. İslahatlar isə öz növbəsində ölkəmizdə xüsusi mülkiyyətə əsaslanmaqla, yeni təsərrüfat formalarının yaradılması, formalaşması və inkişafına stimul verdi. Bu gün Azərbaycan iqtisadiyyatının bütün sahə strukturu bir-birini tamamlamaqla, biribirinin mahiyyətini əsaslandırmaqla, bir-birinə dəstək olmaqla ümumilikdə milli iqtisadi inkişafa təkan olmaqdadır. Fikrimizi əsaslandırmaq üçün neft sektorunun qeyri-neft sektorunun inkişafı üçün yaratdığı əlverişli şərait və imkanları qeyd edə bilərik. Heç şübhəsiz ki, bütün bunlar bir məqsədə xidmət etməkdədir ki, o da Azərbaycan vətəndaşının, insanının sosial vəziyyətinin daha da yaxşılaşdırılmasından ibarətdir. Milli liderimizlə başlanan humanist siyasət hazırda ölkə başçısı cənab İlham Əliyev tərəfindən daha da təkmilləşdirilməklə davam etdirilməkdədir. Yorulmaz fəaliyyəti ilə 2003-cü ildən xalqımızın firəvan yaşayışı naminə çalışan ölkə başçısı prezident seçildiyi ilk gündən böyük siyasəti layiqincə davam etdirməyə başladı və ölkənin ardıcıl, davamlı, müqavimətli, da-

yanıqlı inkişaf istiqamətlərinin uğurlarla müşayiət olunmasına böyük töhfələr verdi. 2004-2008, 2009-2013, 2014-2018-ci illəri əhatə edən "Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının" qəbul edilməsi ilə ölkə iqtisadiyyatına yeni nəfəs verilmiş oldu [4, s. 67]. Çoxsahəli tədbirlər planlarından ibarət olan həmin proqramlar milli iqtisadiyyatın inkişafında həlledici mərhələni başlatmış oldu. Təbii ki, bu addımlardan Naxçıvan Muxtar Respublikası da kifayət qədər bəhrələndi. Burada həyata keçirilən hər bir tədbir öz uğurları ilə qəbul edilən bütün proqramları qarşılamaqdadır. Elə bunun nəticəsidir ki, muxtar respublikada səmərəli fəaliyyət mühiti yaradılmış, bu isə özünü əhalinin faydalı məşğulluğunda göstərmişdir. Məşğulluq səviyyəsinin yüksəldilməsi, bu sahədə insan potensialının inkişafı və bu potensialdan səmərəli istifadə olunması muxtar respublikada sağlam iqtisadiyyat bərqərar etmişdir. Yeni iş yerlərinin açılması, iqtisadiyyatın çoxşaxəli olmasını təsdiq etməklə yanaşı, həm də makroiqtisadi yüksəlişin təminatına qarantı olmaqdadır. Statistik rəqəmlərə baxarkən görürük ki, yeni yaradılan iş yerləri, mövcud iş yerlərindəki artım, fəaliyyəti bərpa edilən iş yerləri və s. kimi göstəricilər muxtar respublikanın müasir məşğulluq mənzərəsini formalaşdırmaqdadır. Bunu yeni açılmış iş yerlərinin əks olunduğu statistik cədvəldən də görmək olar [5]:

Açılmış iş yerlərinin təşkilatlar üzrə bölgüsü	2004	2005	2006	2007	2008	2009	2010	2011	2012	2013	2014	Cəmi
Açılmış iş yerlərinin sayı	7330	8419	8044	5827	6434	4742	3556	3669	8069	2260	3805	62155
o cümlədən:												
Yeni yaradılmış müəssisə və təş kilatlarda -	2240	1460	1946	972	132	256	194	116	262	49	161	7788
Mövcud müəssisə və təşkilatlarda	926	1493	637	600	1245	437	603	1306	5923	608	703	14481
fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda	614	-	385	99	-	12	-	27	-	-	-	1137
Fiziki şəxslərdə	725	1403	2364	2350	3085	2753	2040	1636	1558	1435	2845	22194
digər tədbirlər üzrə (müxtəlif beynəlxalq və yerli layihələr, abadlıq işləri və s.)	2825	4063	2712	1806	1972	1284	719	584	326	168	96	16555

ƏDƏBİYYAT

1. Azərbaycan iqtisadiyyatı / İ.Alıyevin və S. İbadovun rəhbərliyi və elmi redaktorluğu ilə. Bakı: Ağrıdağ, 1999, 400 s.
2. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2011-ci il tarixli Sərəncamı.
3. Məmmədli O., İsmayılov F. Bazar iqtisadiyyatının dövlət tərəfindən tənzimlənməsi. Bakı: MBM, 2006, 432 s.
4. Rütəmov A., Qasımov D. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi: Dərs vəsaiti. Bakı: Avropa, 2013, 406 s.
5. http://statistika.nmr.az/

Джавадхан Касымов

НАХЧЫВАНСКАЯ АВТОНОМНАЯ РЕСПУБЛИКА: СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ И СОВРЕМЕННЫЙ ПЕРИОД

В статье отводится внимание теоретическим вопросам социально-экономического развития Нахчыванской Автономной Республики, дается его теоретическое обоснование, подчеркивается, что шаги предпринимаются в соответствии с требованиями времени. Показано, что целенаправленная экономическая политика, проводимая в последние 20 лет, стала причиной роста национального экономического потенциала. Результаты получены на основе статистических показателей, исследованы таблицы и выявлена рациональная стратегическая эффективность для региона.

Ключевые слова: *социально-экономическое развитие, национальный экономический потенциал, степень занятости, объем валового внутреннего продукта, рыночная экономика, рыночные отношения.*

Javadkhan Gasymov

NAKHCHIVAN AUTONOMOUS REPUBLIC: SOCIO-ECONOMIC DEVELOPMENT AND MODERN PERİOD

In the paper attention is given to theoretical issues of socio-economic development of Nakhchivan Autonomous Republic, its theoretical foundation is given; it is emphasized that steps are taken in accordance with the requirements of the time. It is shown that targeted economic policies pursued in the last 20 years became the reason of growth of national economic potential. The results are obtained on the basis of statistical indicators; tables are studied and rational strategic effectiveness for the region is revealed.

Key words: *socio-economic development, national economic potential, occupancy, volume of gross domestic product, market economy, market relations.*

(Redaksiya heyyətinin üzvü, professor Asif Şirəliyev tərəfindən təqdim olunmuşdur)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

MEHDİ BAĞIROV
Naxçıvan Dövlət Universiteti
E-mail: Dr.Mehdi_Bagirov@mail.ru

AZƏRBAYCAN RESPUBLİKASINDA KEÇİRİLƏCƏK KÜTLƏVİ İDMAN TƏDBİRLƏRİ VƏ ƏRZAQ TƏMİNATININ YÜKSƏLDİLMƏSİ YOLLARI

Məqalədə Azərbaycan Respublikasında 2015-2020-ci illərdə keçirilməsi nəzərdə tutulan kütləvi idman tədbirlərinin ərzaq təminatı üzrə təşkilati-idarəetmə problemlərindən bəhs olunur. Bu siyahıda fəxrlə adını çəkəcəyimiz tədbirlərə Birinci Avropa Olimpiya Oyunları, İslam Ölkələri üzrə keçiriləcək İdman oyunları, Şahmat üzrə Dünya çempionatı və digər çoxsaylı təşkilati fəaliyyətimizi beynəlxalq arenada işıqlandıracaq perspektiv işlər aid edilə bilər. Elmi araşdırma bəhs olunan problemlə bağlı nəzəri aspektlərə aydınlıq gətirmək məqsədini güdür.

Açar sözlər: *kütləvi idman tədbirləri, Birinci Avropa Olimpiya Oyunları, Bakı şəhəri, ərzaq təminatı, ərzaq təhlükəsizliyi.*

Ölkəmizin sosial-iqtisadi inkişafı, mədəni-məişət şəraitinin yüksəldilməsi, maddi və pul resurslarının artması onu bir tərəfdən regional müstəvidə aparıcı gücə, digər tərəfdən isə beynəlxalq arenada söz sahibi olan mərkəzə çevirmişdir. İdarəetmə sistemində aparılan sistemli fəaliyyət, tənzimləmə mexanizmlərinin müasirləşdiril-məsi respublikada siyasi, idman və digər təyinatlı çoxsaylı tədbirlərin keçirilməsi üçün şərait yaratmışdır ki, bunlardan biri də ölkəmizin paytaxtı Bakı şəhərində start götürəcək və cari ilin 12-28 iyun tarixlərini əhatə edən zaman kəsiyində keçirilməsi nəzərdə Birinci Avropa Olimpiya Oyunlarıdır.

Məqalədə həmin kütləvi tədbirin həyata keçirilməsi bazasında geniş diapazonu təcəssüm etdirən və mühüm araşdırma obyektlərindən biri kimi qəbul edilən məsələyə – ölkəmizə gəlməsi gözlənilən həm idmançı, həm də turist axınının ərzaq təminatının mümkün məqbul səviyyədə təşkilinə diqqət yetirməyə çalışacağıq.

İfadə formasında da göründüyü kimi, bu say kəmiyyətinin tərkib etibarı ilə araşdırılması iki istiqamətdə aparılmalıdır:

a) nisbi sabit göstərici – 29 ölkədən olan və sayı 6 minə yaxın kəmiyyətlə müəyyənləşdirilmiş idman heyətləri;

b) nisbi dəyişən göstərici – sayının milyonlara çatacağı proqnozlaşdırılan ziyarətçilər (turistlər).

Haqqında bəhs olunan göstəricilər nümunəsi aşağıdakı sxemlə ifadə sistemin tərkib hissəsi kimi nəzərdən keçirilməlidir.

Sxem 1

Mənbə: *sxem müəllif tərəfindən tərtib olunmuşdur.*

Araşdırmanın ilkin şərti kimi qeyd edə bilərik ki, sərbəst ziyarətçilərdən fərqli olaraq, bütün məsrəflərini (o cümlədən ərzaqla bağlı) Azərbaycan dövlətinin öz üzərinə götürməsi idmançılarla bağlı ərzaq təminatı məsələlərini asanlaşdırır. Belə ki, Olimpiadanın keçiriləcəyi 17 gün üçün əvvəlcədən müvafiq menyular tərtib olunmalıdır ki, bu da fizioloji normalara əsaslanmaqla həm fiziki, həm də dəyər ifadəsinə ərzaq növlərinə olan ehtiyacı müəyyənləşdirməyə imkan verir, müvafiq sahədə aparılan hesablamaları asanlaşdırır.

Digər tərəfdən fizioloji normaların və real istehlak həcmlərinin monitorinq müşahidələri və digər araşdırma üsulları vasitəsilə dəqiqləşdirilməsi, bu sahədəki işlərin kompleks qaydada nəzərdən keçirilməsi zəruriliyini bir tərəfdən təsdiqləyir, digər tərəfdən isə sonrakı hesablamalar üçün şərait yaradır. Bu fakt bir tərəfdən Olimpiya oyunlarının əsas ağırlığı düşən Bakı şəhəri üçün nəzərə alınmalıdırsa, digər tərəfdən su idman oyunları keçiriləcək Mingəçevir şəhəri üçün də, həmçinin ziyarətçilərin sərbəst vaxtını daha məzmunlu etmək üçün ziyarətçi turları təşkil olunması planlaşdırılmış digər məkanlarımız üçün də keçərlidir [1, s. 46].

Araşdırmada mühüm məsələlərdən hesab olunan ərzaq ehtiyatlarının formalaşdırılması mənbələr üzrə təşkil olunmalı və onların fiziki həcmlərinin normativ hədləri haqda düşüncələr dəqiqləşdirilməlidir. Bəhs olunan istiqamətə daha aydın baxışı təmin etmək üçün sxem 2-yə müraciət etmək məqsədəuyğun olardı.

Sxem 2

Mənbə: *sxem müəllif tərəfindən tərtib olunmuşdur.*

Sxem 2 ehtiyatların mənbə etibarı ilə təsnifləşdirilməsinə aydınlıq gətirməklə bərabər onun xarakter və xassələrinə, növ və çeşidlərinin qruplaşdırılmasına da öz təsirini göstərməkdədir.

Kütləvi idman tədbirlərinin keçirilməsi zamanı ərzaq təminatının planlaşdırılması həm bitkiçilik, həm də heyvandarlıq mənşəli məhsullarının mövcudluğunu şərtləndirir. Bu baxımdan diqqət yetiriləsi məqamlara aid edilə bilər:

1. birinci dərəcəli qida məhsullarının (məsələn, çörək, süd, pendir, kərə, kartof, soğan və s. (növlər nəzərə alınmaqla)) tələbatı üzrə mümkün məqbul həcm ölçülərinin hesablanması;
2. digər müəyyən mənada məcburi xarakter daşımayan kənd təsərrüfatı mənşəli məhsullar (məsələn, ananas, manqo, süfrəlik xərçəng, və s.).

Bu istiqamətdə hesablamaların aparılmasında bir sıra mühüm göstəricidən istifadə etmək zəruridir:

- birinci dərəcəli məhsullar üzrə gündəlik istehlak normalarının müəyyən edilməsi;
- izafi məhsullar üzrə qarşılama dövrünü nəzərə alan təxmini ərzaq ehtiyatları həcminin dəqiqləşdirilməsi;
- qarşılanacaq idman heyətlərinin və sərbəst ziyarətçilərin say-tərkib ifadələrinin təqribi həcmlərinə aydınlıq gətirilməsi;
- ziyarətçi və idman heyəti şəklində gəlməsi gözlənilən insan sayının müəyyənləşdirilmiş kəmiyyəti ilə fizioloji tələbat və digər normaların qarşılaşdırılması, bu əsasda ərzaq məhsulları (və ya onlardan hazırlanan iaşə məhsulları) üzrə 2-5%-lik kənarlaşmaların nəzərə alınması;

- həqiqi ziyarətçi sayının nəzərdə tutulan həcmdən daha böyük həcmdə kənarlaşması halları müşahidə olunduqda, ərzaq məhsullarının təminatı üzrə əlavə tədbirlərin görülməsi (idxal və ya daxili istehsal hesabına ərzaq ehtiyatlarının kəsir olan hissəsinin çevik tamamlanması və s.) [2, s. 118].

Ümumi iqtisadi və ilk növbədə aqrar müstəvidə onların tələbatının fiziki həcm və çeşidlərinin proqnoz variantında müəyyənləşdirilməsi Azərbaycanın "istehlakçı kütləsi – istehsal (və ya idxal) həcmi" tandemində işlərinin icrasına yenidən baxılmasını diktə edir. Bu araşdırmada ölkə əhalisinin ərzaq təminatı üzrə proqnozlaşdırılan göstəricilərinə xələl gətirilməməsi gözlənilməlidir [3, s. 91].

Ərzaq ehtiyatlarının formalaşdırılmasında artıq mövcud olan keçmiş illərin faktiki istehlak həcmlərinə də diqqət yetirilməlidir. Belə ki, daxili istehlak üçün müqayisələrin aparılmasında dinamika qaydasında ərzaq ehtiyatlarının proqnozlaşdırılan həcmlərinin müəyyən edilməsi əhalinin artım tempi göstəricisi nəzərə alınmaqla dəqiqləşdirilməlidir.

Digər tərəfdən istehlakın tərkibinin dəqiqləşdirilməsi də diqqətə alınacaq məsələlərdən hesab olunmalıdır. Bu rakursdan məsələyə baxış, fikrimizcə, iki istiqamətdə həyata keçirilməlidir:

1) natura formasına xələl yetirmədən istehlakda iştirak edəcək kənd təsərrüfatı məhsulları;

2) sənaye emalına məruz qalmaqla istehlakda öz yerini tutacaq bitkiçilik və heyvandarlıq məhsulları.

Hər iki bəndin vahid məqsəd ətrafında birləşdirilməsi ərzaq təminatının ödənilməsi sahəsində ölkəmiz qarşısında ilk növbədə aşağıdakı işlərin icrasının vacibliyini diktə edir:

- respublikaya gələcək olan "istehlakçı kütləsinin" nümunəvi sayının proqnoz variantında müəyyən edilməsi;
- həmin konkret say ifadəsi (və ya intervalı əsasında) fizioloji normalara əsaslanmaqla istehlak həcmlərinin mümkün kəmiyyətlərinin hesablanması;
- ölkədaxili istehsal və idxal imkanlarının qiymətləndirilməsi, onların qarşılanması nəzərdə tutulan ziyarətçilərin ümumi sayı ilə qarşılaşdırılması;
- icrası nəzərdə tutulan müxtəlif tədbirlər əsas götürülməklə (məsələn, "Azerbaijan breakfast" brendi adı altında tanıdılacaq səhər yeməyi məcmusu və s.) onlar üzrə fəaliyyət ardıcıllığının təmin edilməsi;
- emal olunduqdan sonra xidmət sferasının subyektləri vasitəsilə təqdim ediləcək xörəklərdəki, digər iaşə təyinatlı əmtəələrdəki bitkiçilik və heyvandarlıq məhsullarının (yarımfabrikat halında), həmçinin hazır şəkildə süfrələrdə yerini alacaq aqrar mənşəli məhsulların xarici

görünüş, təklif olunan həcm norması və digər parametrlərdəki standartlarının hazırlanması və s. [6, 124]

Ərzaq təminatının təşkili və həyata keçirilməsində mühüm məsələlərdən biri mövcud infrastruktur imkanlarının qiymətləndirilməsidir. Bu baxımdan, fikrimizcə, aşağıdakı maddələr fərqləndirilməlidir:

a) mövcud iaşə obyektlərinin gücü və digər iqtisadi göstəriciləri;

b) xam, ilkin və ya tam şəkildə emal olunmuş ərzaq məhsullarının ümumi və ixtisaslaşdırılmış (xüsusi) qaydada daşınma imkanları;

c) çevik xidmətlərin təşkilini ifadə edən səyyari obyektlərin mövcudluğu;

d) xidmətlərin yüksək səviyyə və standartlarında göstərilməsi məqsədilə bildiriş, izahat, reklam xarakterli işlərin təşkili;

e) fasiləsiz xidmətin həyata keçirilməsi məqsədilə təchizat qayda və mexanizmlərindən mümkün məqbul səviyyədə istifadə olunması.

f) ərzaq məhsulları istehsalı, təminatı və çatdırılması üzrə enerji, su və digər zəruri komponentlərindən lazımi istifadənin təmin edilməsi sahəsində işlərin görülməsi və s. [6, s. 141].

Məqalədə biz kütləvi idman, həmçinin digər (məsələn, musiqi, iqtisadi, idarə-etmə və s.) sahələrdə həyata keçirilməsi nəzərdə tutulan kütləvi tədbirlər üzrə ərzaq təminatının təşkili və həyata keçirilməsinə aydınlıq gətirməyə çalışdıq. Düzdür, 2013-cü ilin "Avrovizion" yarışmasının ölkəmizin paytaxtında keçirilməsi ölkəmizə çoxsaylı insan kütləsini qarşılama sahəsində müəyyən təcrübə qazandırdı. Lakin o da bir həqiqətdir ki, Birinci Avropa Olimpiya Oyunları özünün müvafiq komponent etibarilə həcmlərinə görə daha irihəcmlidir və, fikrimizcə, daha çox sayda insan kütləsinin ölkəmizi ziyarət etməsilə müşayiət olunacaqdır. Bu sahədə də doğma Azərbaycanımıza uğurlar arzulayır, onun müvafiq tədbirdən alın açıqlığı ilə çıxmasını diləyirik.

ƏDƏBİYYAT

1. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı: Asiya, 2003, 216 s.
2. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: ADİU-nun mətbəəsi, 2007, 792 s.
3. Alıyev İ.H., İbadov S.A. Azərbaycan iqtisadiyyatı. Bakı: Ağrıdağ, 1998, 395 s.
4. Bağırov M.S. Kənd təsərrüfatında istehsal və satış münasibətlərinin formalaşmasının müasir vəziyyəti və xüsusiyyətləri. Naxçıvan: Qeyrət, 2014, 107 s.
5. Əliyev A.Ə. Azərbaycanın iqtisadi siyasəti. Bakı: Qanun, 2003, 264 s.
6. Hüseynov R.T. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları. Bakı: Elm, 1998, 447 s.
7. Rzayev İ. Azərbaycan Respublikasında regionların davamlı sosial-iqtisadi inkişafı, mövcud vəziyyət və gələcək perspektivlər. Bakı: Elm, 2010, 351 s.

Мехди Багиров

МАССОВЫЕ СПОРТИВНЫЕ МЕРОПРИЯТИЯ, ПРОВОДИМЫЕ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ, И ПУТИ ПОВЫШЕНИЯ ПРОДОВОЛЬСТВЕННОГО ОБЕСПЕЧЕНИЯ

В статье говорится об организационно-управленческих проблемах продовольственного обеспечения при проведении массовых спортивных мероприятий, запланированных в Азербайджанской Республике на 2015-2020-е годы. В числе мероприятий в этом списке с гордостью можно отметить Первые Европейские Олимпийские Игры, предстоящую Олимпиаду среди Исламских государств, Мировой чемпионат по шахматам и многие другие перспективные работы, которые осветят нашу организационную деятельность нам международной арене. Целью научного исследования является прояснение теоретических аспектов, связанных с этой проблемой.

Ключевые слова: *массовые спортивные мероприятия, Первые Европейские Олимпийские Игры, город Баку, продовольственное обеспечение, продовольственная безопасность.*

Mehdi Bagirov

MASS SPORT EVENTS IN THE REPUBLIC OF AZERBAIJAN AND WAYS TO IMPROVE FOOD SUPPLY

The paper focuses on organizational and managerial issues of food security during mass sport events scheduled in the Republic of Azerbaijan in 2015-2020 years. Among the activities in this list can proudly mark the First European Olympic Games, the next Olympics among Islamic States, the World Chess Championship and many other promising works that will elucidate our organizational activities at international arena. The aim of research is to elucidate the theoretical aspects of this problem.

Key words: *mass sport events, First European Olympic Games, Baku city, food supply, food security.*

(Redaksiya heyyətinin üzvü, professor Asif Şirəliyev tərəfindən təqdim olunmuşdur)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

MEHRİBAN İMANOVA
Naxçıvan Dövlət Universiteti
E-mail: marketinq05@mail.ru

SƏNAYELƏŞMƏNİN REGİONAL TARAZLI İNKİŞAFIN TƏMİN OLUNMASINDA ROLU

Məqalədə regional siyasətin məqsədləri açıqlanmış, regional tarazlı inkişafda sənayeləşmənin əhəmiyyəti araşdırılmışdır. Həmçinin elmi məqalədə regionlar üzrə təsərrüfat subyektlərinin yerləşməsinin vəziyyəti və sənaye məhsulunun həcmi statistik göstəricilər vasitəsilə izah edilmiş, sənayeləşmiş şəhər və rayonların maliyyələşdirilməsi təhlil olunaraq sənayeləşmənin regional tarazlı inkişafın təmin olunmasındakı rolu müəyyən edilmişdir.

Açar sözlər: *regional siyasət, tarazlı inkişaf, sənayeləşmə, təsərrüfat subyekti, sənaye məhsulu, dotasiya.*

Müasir şəraitdə tarazlı inkişafın təmin olunmasında dövlətin iqtisadi siyasətinin mühüm istiqamətlərindən biri olan regional siyasət mühüm rol oynayır. Bazar iqtisadiyyatına malik ölkələrdə regional siyasətin ən vacib obyekti ayrı-ayrı regionların inkişaf tempində, sahibkarlıq şəraitində və s. olan bərabərsizlikdir. Aktiv regional siyasət həyata keçirən inkişaf etmiş ölkələrdə regional siyasətin praktiki vəzifələri, zəif inkişaf etmiş ölkələrdən fərqlənir. Məsələn, inkişaf etmiş ölkələrdə əsas vəzifələr bütövlükdə məhdudlaşdırıcı-tənzimləyici, zəif ölkələrdə isə stimullaşdırıcı-tənzimləyici xarakterə malik olur. Birinci qrupda əsas məqsədlərə zəif inkişaf etmiş problemli regionların inkişaf etdirilməsi, böhranlı sənaye rayonlarının əvvəlki vəziyyətə gətirilməsi, sənaye istehsalının həddən çox cəmləşdiyi rayonların və aqlomerasiyaların əks mərkəzləşdirilməsi, mövcud sənaye mərkəzləri ilə bağlı olmayan yeni sənaye mərkəzlərinin və sənaye qovşaqların yaradılması və s. aid edilə bilər. İnkişaf etməkdə olan ölkələrdə isə regional siyasətin əsas məqsədləri adətən ölkənin bütün regionlarının vahid milli bazarda birləşdirilməsi, vahid milli bazarın formalaşdırılması, təbii-resurs və əmtəə potensialının daha tam mənimsənilməsi, yeni sənaye obyektlərinin daha səmərəli yerləşdirilməsi, şəhərlə kənd arasında təzadın azaldılması hesab olunur [1, s. 153].

Azərbaycanda da regional siyasətin məqsədi ölkənin və bölgələrinin iqtisadi inkişafına mane olan, sosial konfliktlərin əmələ gəlməsinə zəmin yaradan

bərabərsizlikləri minimuma endirməkdən başlayır. Bu problemlərin həll olunması üçün əlverişli iqtisadi mühit yaratmaqla ölkənin mövcud potensialından, maliyyə imkanlarından, xarici investisiyalardan səmərəli istifadə etməklə bütün regionların təbii-iqtisadi resurslarının təsərrüfat dövriyyəsinə cəlb edilməsi, məhsuldar qüvvələrin regionlar üzrə səmərəli yerləşdirilməsi qarşıda duran əsas məqsədlərdəndir.

Regional siyasət, xüsusilə məhsuldar qüvvələrin nisbətən zəif inkişaf etmiş regionlarda üstün sürətlə yerləşməsi və inkişafına şərait yaradılması, genişlənməkdə olan regional iqtisadi, sosial və ekoloji ziddiyyətlərin yumşaldılması məqsədləri güdür. Dövlətin regional sosial-iqtisadi siyasəti regionların və təsərrüfat sahələrinin inkişafı qarşısında perspektiv məqsədlər qoyur, bu məqsədlərə çatmaq üçün zəruri vəzifələri müəyyən edir, cəmiyyətin və regionların mənafeyi baxımından onun yerinə yetirilməsini təmin edə biləcək idarəetmə və tənzimləmə mexanizmini hazırlamaqla, tətbiqini stimullaşdırır. Bu baxımdan Azərbaycanda dövlətin regional siyasəti aşağıdakı üç başlıca məqsədi qarşıya qoyur:

- Keyfiyyətli və rəqabət qabiliyyətli yerli məhsul istehsalının genişləndirilməsi və bununla əhalinin tələbatının ödənilməsi səviyyəsinin yüksəldilməsi, respublikanın xarici ölkələrdən ərzaq asılılığının minimum səviyyəyə endirilməsi və ərzaq təhlükəsizliyinin təmin edilməsi;
- Azad sahibkarlıqdan, rəqabətdən irəli gələn regionlararası və regiondaxili təsərrüfatlararası ziddiyyətlərin, uyğunsuzluqların aradan qaldırılması;
- Regionların xarici bazara çıxış imkanlarının genişlənməsi, ixrac fəaliyyətinin daha səmərəli istiqamətlərdə formalaşması, bütün regionlardan xarici bazara çıxarılan məhsulların artması, keyfiyyət, çeşid və rəqabət qabiliyyətinin yüksəldilməsi, respublikanın və onun regionlarının iqtisadi təhlükəsizliyinin təmin olunması [3, s. 98].

Bu üç istiqamət biri-biri ilə əlaqəli olduğundan və iri investisiya resursları tələb etdiyindən bu prosesin müntəzəm olaraq sistemli şəkildə həyata keçirilməsi məqsədəuyğun hesab olunur.

Müasir inkişaf mərhələsində regional siyasətin strateji məqsədlərinə çatmaq üçün qarşıda duran əsas vəzifə respublikanın bütün iqtisadi rayonların əmək ehtiyatlarından, istehsalın maddi ünsürlərindən, müxtəlif təbii ehtiyatlardan, iqlim şəraiti, maliyyə imkanlarından, xarici investisiya və elmi-texniki potensialdan səmərəli istifadə etməklə respublikanın iqtisadi rayonlarında sənayenin tarazlı inkişafına nail olmaqdır. Çünki mövcud potensialdan səmərəli istifadənin əsas şərtlərindən biri sənayenin regionlar üzrə səmərəli yerləşdirilməsidir. İnkişaf etmiş dövlətlərdə, xüsusən də Qərbi Avropa ölkələrinin əksəriyyətində onların əraziləri daxilində məhsuldar qüvvələrin məqsədəuyğun yerləşdirilməsi probleminə dövlət səviyyəsində ciddi nəzarət olunur. Bir çox hallarda bu problemə ayrı-ayrı ölkələrin sosial-iqtisadi inkişafının tərkib hissəsi kimi baxılır. Buna görə də onun həlli iqtisadi vasitələrlə yanaşı, bazar münasibətlərinə o qə-

dər də xas olmayan birbaşa inzibati üsullar vasitəsilə də tənzimlənir. Məsələn, Niderland və Belçika kimi kiçik əraziyə malik ölkələrdə vaxtilə istehsalın yüksək səviyyədə təmərküzləşdiyi regionlarda yeni sənaye tikintisinin qarşısını almaq və iqtisadi cəhətdən inkişafı geri qalan ayrı-ayrı ərazi hissələrinin dirçəldilməsi layihələrini hazırlayıb həyata keçirmiş və müsbət nəticələrə nail olmuşlar [2, s. 134]. Nəzərə almaq lazımdır ki, keçmiş ittifaq zamanında Azərbaycanın ümumi iqtisadi inkişafı ilə onun regionlarında məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi nəzərə alınmamışdır.

İqtisadi inkişafın davamlılığının təmin olunması baxımından sənayenin tarazlı inkişafı və modernləşməsi öz növbəsində müəssisələrin səmərəliliyinin və istehsal olunan məhsulların rəqabətqabiliyyətliliyinin artırılmasına, innovasiyaların yaradılması və tətbiqinin stimullaşdırılmasına və investisiya proseslərinin sürətlənməsinə zəmin yaradır. Azərbaycanın böyük sənaye potensiyalına malik olması, eyni zamanda. ticarət yollarının üzərində yerləşməsi, burada, sənayenin inkişafına geniş imkan yaratmışdır. Ölkə sənayesinin 79,5 faizini özəl bölmənin təşkil etməsi bu istiqamətdə sahibkarlıq subyektlərinin rolunu artırır. Sahibkarlıq subyektləri regionlar üzrə bərabər inkişafını təmin etmək üçün kreditləşmə və digər stimullaşdırma tədbirləri həyata keçirilir. Lakin bu gün də respublikanın regionları arasında istehsalın inkişaf səviyyəsinə görə böyük fərqlər qalmaqdadır (cədvəl 1).

Cədvəl 1

Regionlar üzrə təsərrüfat subyektlərinin sayı

İqtisadi və inzibati rayonlar	**Cəmi**	**O cümlədən**	
		Hüquqi şəxslər	**Fiziki şəxslər**
A	**1**	**2**	**3**
Cəmi	15134	6828	8306
Bakı şəhəri	6223	3448	2775
Abşeron iqtisadi rayonu	1001	360	641
Gəncə-Qazax iqtisadi rayonu	1708	601	1107
Şəki-Zaqatala iqtisadi rayonu	907	319	588
Lənkəran iqtisadi rayonu	859	299	560
Quba-Xaçmaz iqtisadi rayonu	693	254	439
Aran iqtisadi rayonu	2473	966	1507
Yuxarı Qarabağ iqtisadi rayonu	323	125	198
Dağlıq Şirvan iqtisadi rayonu	419	175	244
Naxçıvan iqtisadi rayonu	528	281	247

Mənbə: Sahibkarlara düşən informasiya yükünün müəyyənləşdirilməsinə dair seçmə statistika müayinəsinin nəticələri. AR DSK, Bakı-2014.

Cədvəldən göründüyü kimi, ölkədə mövcud olan təsərrüfat subyektləri əsas etibarilə Bakı şəhəri və Abşeron iqtisadi rayonlarında cəmləşib. Gəncə-Qazax və Aran iqtisadi rayonlarında bu təsərrüfat subyektləri sayının çox olmasını

onların tərkibinə daxil olan inzibati rayonların çoxluğu ilə izah etmək olar. Regionların sosial-iqtisadi inkişafını təmin edən Dövlət Proqramlarının həyata keçirilməsi ilə Azərbaycan iqtisadiyyatının yeni yüksəliş mərhələsinin başlanması bu problemin uğurlu həllinə böyük imkanlar yaradır. Ölkənin beynəlxalq əmək bölgüsü sisteminə daha geniş qovuşmaqla yerli təbii resurslardan, milli və beynəlxalq kapitaldan, elmi-texniki potensialdan səmərəli istifadə etməsi və bir sıra sosial problemlərin müvəffəqiyyətli həllinin mühüm şərtlərindən biri sənayesinin ərazi quruluşunun təkmilləşdirilməsidir. Bu gün bütün regionlarda müxtəlif sənaye sahələrinin yüksək səviyyədə inkişafının təbii-iqtisadi zəmini geniş olduğundan məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi Azərbaycanın geniş imkanları müqabilində həyata keçirilə bilən gerçək vəzifəsidir.

Cədvəl 2

Regionlar üzrə sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, faktiki qiymətlərlə, min manat

	2005	2006	2007	2008	2009	2010	2011	2012	2013
Bakı şəhəri (qəsəbələrlə)*	7 725	13586	20327	27368	20402	25251	31783	30877	30225
Abşeron iqtisadi rayonu*	224.7	303.8	344.7	424.4	251.6	298.6	475.9	512.8	501
Gəncə-Qazax iqtisadi rayonu*	169.5	231.1	189.8	221.8	151.4	269.8	263.6	332.8	304.8
Şəki-Zaqatala iqtisadi rayonu	21 006	40600	41571	55522	48117	60166	75686	75735	74835
Lənkəran iqtisadi rayonu	18 170	23513	34763	40983	42616	49510	65920	65844	65170
Quba-Xaçmaz iqtisadi rayonu	37 705	39371	64872	80085	60744	64006	89284	77136	81720
Aran iqtisadi rayonu*	373.5	540.1	658.7	771.5	581.3	629.3	791.1	821.5	858.9
Yuxarı Qarabağ iqtisadi rayonu	3 728	3 594	8 803	9 094	9 605	10249	11640	14529	18112
Dağlıq Şirvan iqtisadi rayonu	5 972	12142	14120	11952	10840	10265	9 733	13234	15039
Naxçıvan iqtisadi rayonu*	41.2	70.4	122.7	164.5	212.5	318.6	680.9	799.5	862.9

*)milyon manat

Mənbə: 6

Cədvəl 2-dən göründüyü kimi, sənaye məhsulunun həcmi 2013-cü ildə 2005-ci ilə nisbətən bütün iqtisadi rayonlarda sürətlə artmasına baxmayaraq, onun böyük bir həcmi Bakı şəhərində istehsal olunur. Bu da sənayeləşmənin birtərəfli getdiyini göstərir. Ona görə də büdcədə Bakı ilə regionların gəlir nisbətinə diqqət yetirəndə görürük ki, bütün gəlirlərimizin 92 faizi Bakı şəhərinin payına düşür. Dövlət Proqramlarının reallaşdırılması nəticəsində son illər Bakıdan əlavə Sumqayıt, Mingəçevir, Şirvan şəhərləri, eləcə də Abşeron və İmişli rayonları da özünümaliyyələşdirmə sisteminə keçib. 2008-2015-ci illər

ərzində regionların yerli gəlirləri 3,2 dəfə, xərcləri isə 82%, mərkəzi büdcədən ayrılan vəsaitlərin həcmi isə daha 25% artıb. Deməli, sənayeləşmə siyasətinin həyata keçirilməsi nəticəsində yerli gəlirlərin artım tempi regionlara ayrılan dotasiyaların artım tempini üstələyir. Əgər 2008-ci ildə mərkəzi büdcədən ayrılan vəsaitlər regionların ümumi xərclərinin 72%-ni təşkil edirdisə, cari ildə bu göstəricinin 52,1%-ə qədər azalmışdır. 2015-ci ilin dövlət büdcəsində şəhər və rayonların yerli gəlirləri 834,5 milyon manat olduğu halda, xərcləri 1 milyard 654 milyon manat təşkil etməklə, regionların xərcləri gəlirlərindən təxminən 2 dəfə çox olacaq. Aradakı 819,4 milyon manatlıq fərq isə mərkəzləşdirilmiş xərclərdən ayrılan dotasiya hesabına təmin olunacaq [5]. Bu da onu göstərir ki, regionların potensialından kompleks şəkildə istifadə edilməsi istiqamətində ciddi tədbirlər görülməlidir. Bu gün dotasiyadan azad olunan şəhər və rayonların siyahısına baxsaq görərik ki, bu bölgələr daha çox sənayeləşmiş zonalardır. Ölkədə fəaliyyət göstərən əsas sənaye müəssisələrinin Bakı, Sumqayıt, Mingəçevir, Abşeronda cəmləşməsi nəticəsində, bu şəhərlərdən toplanan vergilər dövlət büdcəsinin formalaşmasında əsas rol oynayır. Təkcə, İmişli Şəkər Zavodunun yaradılması bu rayonunun maliyyəsinin 45%-ni təmin etməklə onu dövlətin dotasiyasından azad etmişdir. Əgər hökümətdən dotasiya alan şəhər və rayonların siyahısına nəzər yetirsək görərik ki, bu bölgələr, əsasən, kənd təsərrüfatı təyinatlıdır. Hazırda Azərbaycanda aqrar sahə tam inkişaf etmədiyindən bu istiqamətdə gəlirlilik səviyyəsi olduqca aşağıdır. Regionların iqtisadi inkişafı proqramı çərçivəsində əsas vergi mənbəyi olan emal sənayesi daha sürətlə inkişaf etdirilməlidir ki, iqtisadi rayonlar özünü maliyyələşdirə bilsin. Bunun üçün hər şeydən əvvəl, regionlarda yerli potensialdan istifadənin səmərəliliyini artırmağa imkan verən, daha çox əlavə dəyər yaradan istehsal sahələrinin yaradılması istiqamətində üçüncü regional inkişaf proqramında nəzərdə tutulan tədbirlərin vaxtında həyata keçirilməsi təmin edilməlidir. Çünki, Azərbaycanın böyük sərvət imkanları, onun başqa əlverişli şəraiti və üstünlükləri, ölkə iqtisadiyyatını yüksək səviyyədə, mənafe və məqsədlərə uyğun olaraq hərtərəfli inkişaf etdirməyə zəmin yaradır.

ƏDƏBİYYAT

1. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: BDU, 2002, 448 s.
2. Əjdərov T. Bazar iqtisadiyyatı şəraitində Azərbaycan sənayesinin inkişaf istiqamətləri. Bakı: BDU, 2000, 258 s.
3. Nuriyev Ə.X. Regional siyasət və idarəetmə. Bakı: Elm, 2004, 348 s.
4. Sahibkarlara düşən informasiya yükünün müəyyənləşdirilməsinə dair seçmə statistika müayinəsinin nəticələri (müayinə "2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı"na uyğun olaraq aparılmışdır). DSK, Bakı-2014.

5. www.maliyye.gov.az/sites/default/files/2015_teqdimat_t%20(3).pdf
AR Dövlət büdcəsi
6. http://www.stat.gov.az/source/industry/AR Dövlət Statistika Komitəsi/Sənaye

Мехрибан Иманова

РОЛЬ ИНДУСТРИАЛИЗАЦИИ В ОБЕСПЕЧЕНИИ СБАЛАНСИРОВАННОГО РЕГИОНАЛЬНОГО РАЗВИТИЯ

Статья описывает цели региональной политики сбалансированного развития, проанализирована важность индустриализации. В научной статье на основе статистических показателей рассмотрено состояние и региональное распределение хозяйственных субъектов промышленного производства. Проанализировано финансирование промышленного города и региона и определена роль региональной индустриализации в обеспечении сбалансированного развития.

Ключевые слова: *региональная политика, сбалансированное развитие, индустриализация, экономический субъект, промышленный продукт, дотация.*

Mehriban Imanova

ROLE OF INDUSTRIALIZATION IN ENSURING OF BALANCED REGIONAL DEVELOPMENT

This article describes goals of regional sustainable development policy; the importance of industrialization is analyzed. The condition and regional distribution of economic entities of industrial production are considered on the basis of statistical indices. The financing of an industrial city and a region is analyzed and the role of regional industrialization in ensuring of balanced development is determined.

Key words: *regional policy, balanced development, industrialization, economic entity, industrial product, subsidy.*

(Redaksiya heyyətinin üzvü, professor Asif Şirəliyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

TEYMUR ABBASOV
Naxçıvan Dövlət Universiteti
E-mail: teymurabbasov56@mail.ru

SAHİBKARLIĞIN REGİONUN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA ROLU

Məqalədə sahibkarlıq özü-özündə təşəbbüskarlıq, gəlir gətirmək və rəqabətə dözümlü, fəaliyyət təşkil edən həm geniş təkrar istehsalı həm də bazar tələbatına uyğun çevir riskli siyasət həyata keçirən təsərrüfat amili kimi tədqiq olunur. Qeyd olunur ki, sahibkarlıq makroiqtisadi problem olmaqla, ərazi məhsuldar qüvvələrinin təşəbbüskarlıq və maraqlar prinsipi əsasında iqtisadi dövriyyə cəlb olunmasının təsərrüfat forması kimi çıxış edir.

Açar sözlər: *sahibkarlıq, region iqtisadiyyatı, bazar münasibətləri, inkişaf strategiyası, təşəbbüskarlıq, kənd təsərrüfatı potensialı, iqtisadi böhran.*

Region iqtisadiyyatının inkişafı indiki tarazlı inkişaf strategiyasının reallaşması kontekstində mühüm əhəmiyyət kəsb edir. Regionun kompleks inkişaf məqsədi, onun ərazisində formalaşan potensialın istifadəsi və təkrar istehsalı üçün zəruri olan vəzifələrin əsas tədbirlərin hazırlanması və tətbiqi ilə mümkündür. Sahibkarlıq ümumi iqtisadi problem olmaqla onun regionda formalaşması və inkişafı, bir sıra təşkilatı-iqtisadi şərait, yaradılan mexanizmlər və həmçinin əhalinin rifahının artması meylləri və əsas göstəriciləri əsasında konkretləşir.

Regionda sahibkarlıq həmin regionda bazar münasibətlərinin təşkilati forması olmaqla region məqsədlərinin və onun iqtisadi sosial potensialının maksimal istifadəsi qanunauyğunluqlarını əhatə edir. Əgər hər bir regionun öz sahə şəraiti onun ilkin resurs potensialını yaradırsa, onun sonrakı inkişafı, iqtisadi siyasətin, dövlətin iqtisadi rolu ilə daha da artır, təkmilləşir.

Sahibkarlığın makrosəviyyəli əhəmiyyəti, onun ictimai tələbat və əhalinin rifahında resurs və istehlak tələbatının ödənilməsində rolu ilə müəyyən olunur. Mikrosəviyyəli əhəmiyyəti konkret regionda yeni iş yerlərinin açılması və orada yaşayanların rifahının təmin olunması meyllərini əhatə edir.

Sahibkarlıq makroiqtisadi problem olmaqla, ərazi məhsuldar qüvvələrinin təşəbbüskarlıq və maraqlar prinsipi əsasında iqtisadi dövriyyəyə cəlb olunmasının təsərrüfat forması kimi çıxış edir. Əhalinin rifahının mənbəyi və iqtisadi artımının mülkiyyət formalarından asılı olaraq dəyişmə meyllərini formalaşdırır

və onun mənbəə, ərazi və sahə strukturunu müəyyənləşdirir. Sahibkarlığın makroiqtisadi göstəriciləri, onun ümumi daxili məhsulun artımında rolu, adam başına düşən məhsul istehsalında sahibkarların rolu və həmçinin sahibkarların bazar tələbatı və təklifinin, pul dövriyyəsinin ölkədə olan əmtəə-pul münasibətlərində fəallığı ilə müəyyənləşir. Xarakterik hal olaraq sahibkarlığın fəal rolu hər hansı ərazidə məşğul olan iş qabiliyyətli əhalinin sayında payının dinamikası əhəmiyyət kəsb edir. Hər hansı ərazidə sahibkarlığın rolu konkret vəzifələrin reallaşması üçün zəruri olan tədbirlərin və nəticələrin meyarı ilə ölçülür. Respublika-daxili regionların sosial-iqtisadi inkişafında sahibkarlıq həmin regionların resurs potensialı və onların istifadəsi nəticəsində bazar tələbatını ödəyən məhsulların dinamikası və xüsusi çəkisi ilə ölçülür. Regionda resurs potensialının mövcud ehtiyatları ilə yanaşı təkrar istehsalı üçün lazım olan resurs strukturunun təkmilləşdirilməsi də mühüm istiqamət olaraq əhəmiyyət kəsb edir [2, s. 45].

Regionda sahibkarlığın inkişafı həmin regionun resurslarını və onun əhali tələbatının ödənilməsi amili kimi baxılır. Ona görə də onun təşkilatlanmasında, tam bazar diktəsinin tətbiqi, yaxud tələb və təklifin ancaq özü-özünü tənzimləmə kriterisi kimi qəbul edilməsi, ərazi proporsiyalarının pozulmasına, miqrasiyanın güclənməsini və regionların kompleks tarazlı və sahələrin əlaqəli inkişafına əks təsir edə bilər.

Sahibkarlıq özü-özündə təşəbbüskarlıq, gəlir gətirmək və rəqabətə dözümlü, fəaliyyət təşkil edən həm geniş təkrar istehsalı həm də bazar tələbatına uyğun çevik riskli siyasət həyata keçirən təsərrüfat amili kimi tədqiq olunur. Azərbaycanda sahibkarlığın inkişafı bütün iqtisadi idarəetmə istiqamətində atılan mexanizmlərin tətbiqi sferası kimi özünün meyllərini və dəyişmə dinamikasını xüsusiyyətlərini doğurur. Onun dövlət himayəsi və ümumi iqtisadi problemləri, sahə və ərazi problemləri, funksional və kommersiya səyləri daim inkişaf edir, çevik iqtisadi idarəetmə mexanizminə çevrilir.

Sahibkarlığın makroiqtisadi rolu, iqtisadi və sosial inkişafın sürətlənməsi və əhalinin rifahının yüksəldilməsi və iqtisadi müstəqillik istiqamətləri üzrə əldə olunan nəticələrlə ölçülür. ÜDM-in artım tempində sahibkarlığın rolu, bütövlükdə onun yaratdığı dəyər və son məhsul, yaxud xalis məhsul kimi ÜDM-un artım tempindəki rolu ilə xarakterizə olunur. Sahibkarlığın sosial-iqtisadi inkişafda rolu onun ayrı-ayrı sahələrinin və bu sahə daxilində qeyri dövlət sektorunun xüsusi çəkisi ilə müəyyən olunur. Ölkənin iqtisadi artım tempi, ümumi daxili məhsulda qeyri-dövlət sektorun rolu, idxal və ixracatda özəl sektorun rolu, makroiqtisadi tənzimləmə obyekti olaraq ümumi strateji sahibkarlıq meyllərini aşkar edir.

Müşahidələr göstərir ki, ölkə iqtisadiyyatında yaradılan ümumi daxili məhsulun (ÜDM)-də sahibkarlıq fəaliyyətinin yeri genişlənməklə, özəl bölmənin payı durmadan artır. Əvvəlki fəsillərdə qeyd olunduğu kimi, aqrar sahədə özəl bölmənin xüsusi çəkisi 99%-dən də yüksəkdir. Ümumilikdə ÜDM-də

qeyri-dövlət bölməsinin payı haqqında statistik məlumatlar, aşağıdakı cədvəldə əks olunmuşdur.

Planlı təsərrüfat sistemindən bazar münasibətlərinin yaranmasının ilkin şəraiti və əsas amili olaraq özəlləşdirmənin prioritetləri və əsas istiqamətləri müəyyən olunur. Bu məqsədlə aqrar sektorun iqtisadi rolu və onun özəlləşdirməsinin əsas xüsusiyyətləri sonrakı inkişaf şəraiti və əsas istiqamətlərini müəyyən edir.

Azərbaycanda sahibkarlığın sahə quruluşu formalaşmış potensialın sahə quruluşu ilə müəyyən olunur. O cümlədən, əhalinin məşğuliyyət sahələrinin prioritetliyi onun, təbii və resurs potensialının iş qüvvəsinin formalaşma növü və təsərrüfat fəaliyyəti, regionlarda sahibkarlığın əsas sahə və funksional xüsusiyyətlərini meydana atır.

Sahibkarlığın makroiqtisadi səmərəsi, onun sosial-iqtisadi nəticələri ilə ölçülür. Özəl müəssisələrin istehsal həcmi ilə yanaşı onun əhalinin məşğulluğu və əmək haqqı, gəlirlərinin formalaşmasında rolu, keyfiyyətcə yeni meyarlarla ölçülür. Əgər ixracatda sahibkarların rolunu da qiymətləndirsək onda əmtəə və tələb təklifinin tarazlı inkişafında onun rolunun qiymətləndirilməsi metodologiyası daha aparıcı həlqə olur [3, s. 68-69].

Kənd regionlarında torpaq üzərində xüsusi mülkiyyət və əsas becərilən torpaqların onun istifadəçilərinə verilməsi, digər insanların və hətta yaşamayan əhalinin pul vəsaitindən istifadə edilməsi imkanlarını azaldır. Kənd yerlərində torpaqların becərilməsi üçün lazım olan texniki vəsaitlərin və emal sənayesinin inkişafı üçün kəndlilərin maliyyə imkanlarının çatışmazlığı müşahidə olunur.

Mülkiyyət münasibətlərinin təkmilləşməsi aqrar sektorun və sahibkarlığın digər sahələrinin əlaqə formalarının təkmilləşdirilməsi gəlirlərinin formalaşması maliyyə mənbələrinin regionun sosial-iqtisadi inkişafına yönəldilməsinin səmərəli variantları ilə təmin olunur [1, s. 264-265].

Əhalinin gəlirləri və ərazinin inkişafı onun əhatəsində olan hüquqi və fiziki şəxslərin əmlakının strukturundan və onların gəlirlərinin istifadə mexanizmlərindən xeyli asılıdır. Əhali məşğuliyyət növündən asılı olaraq dövlət, bələdiyyə və xüsusi mülkiyyətin istifadəsi hesabına gəlirlər əldə edir. Həmin gəlirlərin istifadəsi hesabına sahibkarlığın formaları və onun inkişafının istiqamətləri müəyyənləşir.

Dövlət büdcəsinin gəlirləri sahibkarlığın özünün inkişafı, onun vergi növləri üzrə potensialı, həmçinin vergi verməyin fəallığı ilə formalaşır. Dövlət büdcəsində həmçinin xərclərin istiqamətinə uyğun olaraq gəlirlərin artırılması imkanlarının maddi və maliyyə bazası yaradılır. İqtisadi və sosial inkişafın büdcə vasitəsi ilə maliyyə bazası və onun istifadəsinin texnologiyası əsaslandırılır. Dövlət büdcəsinin xərclərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri, sahələr, funksional vəzifələr və iqtisadi məqsədlər üzrə təsnifatlaşdırılır və prioritetlərə uyğun olaraq xərc strukturu formalaşdırılır. Hər bir regionun gəlirləri ilə xərcləri arasında mövcud fərqlər, büdcə vasitəsi ilə maliyyələşdirilir ki, bu

fərqin yaranmasının iqtisadi əsasları və normativ-hüquqi göstəriciləri əsasında tərtib olunur.

Sahibkarlığın inkişafının regional problemləri və əsas istiqamətləri həmin regionun resurslarından və onun əsas tələbat sisteminin ən səmərəli ödənilməsi yollarından və xüsusiyyətlərindən asılıdır. Regionun kompleks iqtisadi inkişaf proqramı həmin regionun imkanlarını nəzərə almaqla bazar tələbatına uyğun istehsal və istehlak səviyyəsini təmin etmək üçün zəruri olan iqtisadi-təşkilati tədbirləri əhatə edir. Sosial-iqtisadi inkişafın sürətlənməsi üçün özəlləşdirilmiş müəssisələrin, o cümlədən regionlar üçün əsas iqtisadi potensial olan kənd təsərrüfatı və onunla bağlı olan sahələrin kompleks əlaqələrini təmin edən inkişaf şəraitini yaratmaqdan ibarətdir [5, s. 72-73].

Regionun inkişafında tələbat sistemi, həmin regionun idxal və ixrac potensialı və onun tənzimlənməsi dövlətin siyasətindən xeyli asılıdır. Regionun potensialını artırmaq həmin regionda olan təbii resurslarının sahibkarlıq yolu ilə istehsal olunan və əhalinin fiziki şəxs kimi, yaxud sahibkarlıq fəaliyyəti olaraq əhalidən aldığı məhsulların satışını təşkil edən müəssisə fəaliyyəti kimi səmərəli təşkilat formalarından asılıdır. Hər bir regionda istehsal strukturu, kənd təsərrüfatı məhsullarının istehlak və marketinq strukturu ilə müəyyən olunur.

Ona görə də özəlləşdirilmiş müəssisələrin inkişafı, onların sonrakı planlaşdırılması və idarəedilməsi əsas potensial amil olaraq inkişafın stimullaşdırılması rolunu oynayır. Sahibkarlıqda xarici bazar çıxış, öz məhsullarının reallaşması üçün bazar məkanının genişlənməsi, bir başa əlaqə və yaxud məhsulun marketinq quruluşunun dəyişməsi ilə baş verir. Ona görə də marketinq strukturunun təkmilləşdirilməsi makrosəviyyədə iqtisadi inkişaf üçün əsas strateji məqsəd rolunu oynayır.

Sahibkarlığın inkişafında, əmtəə və xidmət bazarının genişlənməsi, onun ərazi və ayrı-ayrı ölkələrə nüfuz etməsi, həmçinin daxili bazarın qorunması və sahibkarlığın özünün stimullar əsasında artması üçün əmtəə və xidmət bazarının dövlət tərəfindən qorunması mühüm amil və tədbirlər məcmusudur. Dövlət idxal və ixrac prosesində həm ölkənin iqtisadi müstəqilliyini, onun istehsal potensialını və əhalinin maraqlarını qorumaq üçün sistem siyasəti həyata keçirir [4, s. 132-133].

Sahibkarlığın inkişafı, həmçinin regionun kompleks inkişafı ərazidə olan mülkiyyət münasibətlərinin təkmilləşməsi, onların əlaqəsi və vahid məqsəd olan ərazinin sosial-iqtisadi şəraitinin dəyişməsinə təsir edir. Təsərrüfat amili kimi məskunlaşma, sosial təminat və ərazilərin məhsuldar qüvvəsinin təşkilati forması kimi ərazi-idarəetmə funksiyasını təkmilləşdirir.

Sahibkarlıq biznes məqsədləri güdsə də onun sosial-iqtisadi mahiyyəti və inkişaf meylləri baxımından prioritetliyi daha üstün qiymətləndirilir.

Regionların inkişaf dinamikasında eynilik və onların maliyyə imkanlarının artırılması üçün özünü idarəetmə funksiyası daha əməli xarakter alır.

Sahibkarlıqda prioritetlik, həmin sahibkarlıq növünün regionun aparıcı problemlərin həllində rolu ilə müəyyənləşir. Belə ki, aqrar sahibkarlıq əhatə dairəsinə görə resursların daha çox tərkib hissəsini özündə birləşdirir. Daha çox əhali, iş qüvvəsini əhatə edir və bazarın əmtəə, xidmət, tələb və təklifinin formalaşmasında aparıcı həlqə rolunu oynayır.

Bu tələblər baxımından sahibkarlığın inkişafına respublikada mənfəət, biznes fəaliyyəti kimi baxılmır, həmçinin sosial iqtisadi inkişafın sosial amili və yeni iş yerlərinin təşkili və əhalinin rifahının yüksəldilməsi, məskunlaşmasının əsas amili kimi qiymətləndirilir. Respublikada yeni iş yerlərinə tələbatın ödənilməsi, iş qüvvəsinin istifadəsinin artımı yolu ilə təmin olunur. Bu meyllər keçid iqtisadiyyatı mərhələsində fəaliyyət göstərən respublikalar üçün səmərəli formadır və Azərbaycan Respublikasının təcrübəsi digər MDB respublikaları üçün tətbiq oluna bilər. Ölkə iqtisadiyyatında önəmli meyl olaraq əmək tutumlu sahələrin daha üstün artması, məhz Azərbaycan Dövlətinin strateji tənzimləmə siyasətidir. Kiçik biznes fəaliyyəti maliyyə-vergi, bank, kredit və investisiya fəaliyyətini tənzimləmək üçün ən üstün sferalardan birinə çevrilmişdir [6, s. 301-302].

Respublikada sahibkarlıq maliyyə-büdcə və regionlarda maddi-maliyyə balanslarının formalaşmasına səbəb olur.

Sahibkarlığın region xüsusiyyətləri həmin sahibkarlıq növünün və onun inkişafı üçün lazım olan region potensialının xüsusiyyətləri ilə müəyyənləşir. Belə ki, aqrar bazar xüsusiyyətlərinə uyğun sahibkarlıq növü, onun əsas məhsulların istehlakına, emalına və ixracatına uyğun olaraq inkişaf meylini nəzərdə tutur.

Aqrar bazarın marketinq quruluşu, onun istehsal və istehlak üzrə seqmentləri həmin bazarın texnoloji quruluşunu təkrar istehsal və fondlar üzrə silahlanma quruluşunu özündə birləşdirir.

Aqrar sahibkarlığın təsərrüfat formaları və hər bir regionda olanların inkişaf xüsusiyyətləri müvafiq resursların və əhali tələbatının konkret xüsusiyyətlərinə əsaslanır. Aqrar bazarın əmtəə və xidmət təklifi və emal sənayesinin tələbat sistemi uyğun olaraq istehsal texnologiyaların və təsərrüfatın texniki quruluşunu, onun digər sahələrlə əlaqəsini, ixtisaslaşma və kombinələşmə istiqamətlərini müəyyənləşdirir.

Aqrar bazarın region xüsusiyyətləri, həmin regionun sahibkarlığının əsas istiqamətlərini, onun marketinq strukturunu və perspektiv ixtisaslaşmasını müəyyənləşdirir. Daha çox cari tələbatı ödəyən sahələrin və əmtəə istehsalının minimal səviyyəsini müəyyən edir. Sonrakı perspektiv inkişaf emal üçün və ixracat tələbatını ödəmək və əlavə gəlir gətirmək üçün struktur dəyişmələri tələb edir.

Naxçıvan Muxtar Respublikasının kompleks inkişaf konsepsiyası, onun

ərazisində mülkiyyət münasibətlərinin köklü islahatları ilə və resursların iqtisadi dövriyyə cəlb edilməsi məqsədi ilə qurulub və idarə olunur. Naxçıvan

Muxtar Respublikasının sosial-iqtisadi inkişaf göstəricilərinin ümumi dinamikası, onun islahatlar proqramı ilkin növbədə onun daxili resurslarının iqtisadi dövriyyə cəlb etmək və əhalinin sərhəd regionlarında məskunlaşmasını təmin etmək məqsədini güdür. Naxçıvanın ərazi xüsusiyyətləri, respublikada olduğu kimi, 1991-1995-ci illərdə tənəzzül, sonrakı islahatlar və 1996-cı illərdən isə artmı templəri ilə xarakterizə olunur.

Bu artımın əsas amili kimi sabitlik, sərhəd keçidlərində məskunlaşma proqramı və qonşu xarici ölkələrin iqtisadi potensialında, o cümlədən Türkiyə və İran İslam Respublikasının xarici iqtisadi və mənəvi əlaqələrindən istifadə etmək meylləri və tədbirləri hesabına baş verir.

Naxçıvanda sahibkarlıq fəaliyyəti daha zəruri amil olaraq respublikadan tez başlanmışdır. Kolxoz və sovxozların ləğvi, onların əmlakının özəlləşdirməsində pullu və pulsuz metodların tətbiqi, özəl sektorun səmərəli forma kimi əhali arasında normativ hüquqi əsaslandırılması 1992-ci ildən başlamışdır.

Naxçıvan Muxtar Respublikasını iqtisadi böhrandan çıxarmaq və onun resurslarını istifadə etmək üçün əsas istiqamət olaraq heyvandarlığın inkişafı, onun əsas təbii sərvətinin emalı və ixracatı üçün zəruri olan şəraitin yaradılması idi. Bu şəraitin yaradılması Naxçıvan daxili və respublikadan ayrılan az vəsaitlə mümkün deyildir. Ona görə də Naxçıvan Muxtar Respublikasında xarici investisiyaların cəlb edilməsi, əhalinin vəsaitlərinin istifadəsi üçün özəlləşdirmənin daha miqyaslı və radikal keçirilməsi vacib və spesifik şərait idi. Naxçıvanın əhalisi, onun istehsal potensialı və əhalisinin iş qüvvəsi kimi respublikanın bütün ərazilərində, Türkiyə və Rusiyada işləməsi hesabına gəlirləri formalaşır. Əhalinin artımı ilə iş yerlərinin artımı arasında nisbətlər daha da qütbləşir. Regionun sosial və iqtisadi inkişafı üçün iş yerlərinin açılması və yoxsulluğun ləğvi prioritet problem olaraq qalır. Bu məqsədlə Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafı yeganə dayanıqlı inkişaf və blokada şəraitində olan Naxçıvan üçün əsas inkişaf istiqaməti olaraq formalaşır [8, s. 21-22].

Naxçıvan Muxtar Respublikasında sahibkarlıq ənənəvi məşğuliyyət növü olmaqla fərdi təsərrüfata əsaslanan və fikrimizcə, uyğun müddət davam edən bir formadır. Naxçıvanın özünün daxilində kənd təsərrüfatı potensialının və torpaq təminatının eyni olmaması, onun iqtisadi zonalar kimi təsərrüfat və inkişaf xüsusiyyətlərini yaradır. Culfa, Ordubad və Şahbuz rayonları dağ rayonları olmaqla, subtropik bitkilər yetirmək, həmçinin heyvandarlıq üçün əlverişli ərazidir. Əkin üçün meyvə, tərəvəz, kartof becərmək üçün əlverişli sayılır. İstehsal olunmuş məhsullarının bazarı həmişə mövcud olub, yerli əhalinin və respublikada digər regionların və Bakı əhalisinin alıcılıq qabiliyyətini təmin edə bilən makrotələbat strukturuna malikdir. İstehlakçılar məhz bu regionların meyvə, tərəvəz və heyvandarlıq məhsullarına daha üstünlük verirlər.

Naxçıvan Muxtar Respublikasının ərazi yerləşməsi onun sahəsində tranzit məqsədləri üçün azad iqtisadi zona kimi istifadə edib, beynəlxalq məqsədlər üçün istifadə etmək olar. O cümlədən, yerli istehsalın tələbatının ödənilməsi

məkanı kimi təkcə Naxçıvan Muxtar Respublikası deyil, həmçinin İran və Türkiyə bazarları, Yaxın Şərq və Avropa ölkələri üçün son məhsul istehsal edib, ixracat etmək mümkünlüyü var. Bu məqsədlə əsaslı vəsait qoyuluşu, azad iqtisadi zona kimi onun hüquqi bazasını və müəyyən güzəştli sistemlər tətbiq etmək yolu ilə mümkündür.

Naxçıvan Muxtar Respublikasında sahibkarlığın formalaşması üçün yerli xammala əsaslanan xarici bazar seqmentləri ilə idarə olunan forma və idarəçiliyə daha üstünlük vermək olar. Belə ki, Naxçıvan Muxtar Respublikasının duz mədənləri, mineral, su ehtiyatları, təbii bitkilər, daş, daş karxanaları açmaq, turizm bazası kimi servis xidmətlərini genişləndirmək, iqtisadi cəhətdən səmərəli və ərazinin sosial-iqtisadi inkişafı üçün kompleks yanaşma texnologiyasıdır [7, s. 18-19].

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf dinamikası və meylləri, onun kənd təsərrüfatı məhsullarının emalı və ixracı istiqamətlərinin güclənməsi ilə mümkündür. Bu məqsədlə suvarma su ehtiyatlarını, həmçinin emal müəssisələri üçün daxili investisiyaların və xarici ölkələrin vəsaitlərinin cəlb edilməsi əsas götürülür. Naxçıvan Muxtar Respublikasında kiçik biznes və kiçik sahibkarlıq daha səmərəli effekt verər. Ona görə də investisiya və kredit resurslarını artırmaq yolu ilə daxili resursların istehsala cəlb edilməsinə güzəştli şərait, servis xidməti, maliyyə xidməti və dövlət orqanlarında istifadə üçün istehsal olunan məhsullara sifariş vermək yolu ilə onun sahibkarlıq fəaliyyətini artırmaq olar.

Bu məqsədlə kredit ittifaqları sahibkarlıq birlikləri, emal sənayesi ilə kənd təsərrüfatı arasında müddətli ödəmə şərtləri və xarici ölkələrlə müştərək bazar və istehsal yaratmaq formaları Naxçıvanın sosial-iqtisadi inkişafının əsas istiqamətləridir.

ƏDƏBİYYAT

1. Abasov İ.D. Azərbaycanın kənd təsərrüfatı. Bakı: Elm və təhsil, 2010, 592 s.
2. Abbasov T.A. Kənd təsərrüfatının resurs potensialı və ondan səmərəli istifadənin regional problemləri. Bakı: Elm, 2002, s. 45.
3. Abdullayev A. İqtisadiyyat və iqtisadi siyasət. Bakı: Asiya nəşriyyatı, 2003, 250 s.
4. Balayev R.Ə. Aqrar bölmənin və ərzaq bazarının tənzimlənməsi məsələləri. Müasir mərhələdə Azərbaycanda yeni iqtisadi sistemə keçidin qanunauyğunluqları və problemləri (Azərbaycan Milli Elmlər Akademiyası Iqtisadiyyat İnstitutu): Kollektiv monoqrafiya. Bakı: Elm, 1998, 498 s.
5. Cəbiyev R.M. Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı. Bakı: Elm, 2002, 231 s.
6. Əlirzayev Ə.Q. İqtisadiyyat: düşüncələr, baxışlar. Bakı: Adiloğlu, 2002, 465 s.
7. Əlirzayev Ə.Q., Əliyev K.Q. Sahibkarlığın inkişafının təminatı // İqtisadiy-

yat və audit, 2002, № 2, s. 18-19.
8. Əliyev K.Q. Bazar iqtisadiyyatı şəraitində sahibkarlığın inkişaf problemləri // İqtisadiyyat və audit, 2003, № 10, s. 21-22.

Теймур Аббасов

РОЛЬ ПРЕДПРИНИМАТЕЛЬСТВА В СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ РЕГИОНА

В статье предпринимательство исследуется как инициативный, приносящий доход, устойчивый к конкуренции хозяйственный фактор, проводящий в жизнь рисковую политику в соответствии и с обширным перепроизводством и с рыночным спросом. Отмечается, что предпринимательство, являясь макроэкономической проблемой, выступает как хозяйственная форма привлечения к экономическому обороту территориальных производительных сил на основе принципов предприимчивости и заинтересованности.

Ключевые слова: *предпринимательство, экономика региона, рыночные отношения, стратегия развития, предприимчивость, сельскохозяйственный потенциал, экономический кризис.*

Teymur Abbasov

ROLE OF BUSINESS UNDERTAKINGS IN SOCIO-ECONOMIC DEVELOPMENT OF A REGION

Business undertakings are investigated in the paper as an enterprising, income-paying, competition-resistant economic factor which enforces risk policies and in accordance with extensive overproduction and market demand. It is noted that business undertakings as a macroeconomic problem act as a form of economic involvement in economic circulation of territorial productive forces on the basis of entrepreneurship principles and interested motives.

Key words: *business undertakings, region's economics, market relations, development strategy, enterprise, agricultural potential, economic crisis.*

(*Redaksiya heyyətinin üzvü, professor Asif Şirəliyev tərəfindən təqdim edilmişdir*)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

GÜLARƏ RƏHİMOVA
Naxçıvan Dövlət Universiteti
E-mail: gularaisayeva@mail.ru

İQTİSADİYYATDA EKONOMETRİK TƏDQİQATLARIN ROLU

Ekonometrik tədqiqatların rolu ekonometriyanın həll edə biləcəyi məsələlərlə müəyyən edilir. Ən əsas məsələ ekonometrik modelin əhəmiyyətliliyinin yoxlanılması və parametrlərin qiymətləndirilməsi hesab olunur. Bu prosesin I mərhələsi modelin riyazi təsvirinin spesifikasiyasıdır. II mərhələ iqtisadi informasiyanın toplanması və hazırlanmasıdır. III mərhələdə modelin parametrləri qiymətləndirilir. IV mərhələ modelin mötəbərliyinin yoxlanma mərhələsidir. Bu mərhələdə modelin qalıqlarının dispersiyasının qiymətləri çox mühüm əhəmiyyət kəsb edir. Bu qiymətlər ekonometrik modelin keyfiyyətinin izahında həlledici rol oynayır, onlar hesablanmış parametrlərin etibarlığının müəyyən edilməsi və hazırlanmış modellərin proqnozlaşdırmada tətbiqi üçün zəruridir.

Açar sözlər: *ekonometrik tədqiqatlar, ekonometrik modelləşdirmə, proqnozlaşdırma, risk, proqnoz səhvləri (meyllər).*

Korrelyasiyanı səbəb nöqteyi-nəzərdən izah etmək tələbatı istiqamətverici analizin yaranmasına gətirib çıxardı. Bu analiz dəyişənlər arası səbəb rabitəsinin bütün strukturunun öyrənilməsinə – qrafın qurulmasına əsaslanır. Burada əsas qayda təsir əmsalları adlanan – standartlaşdırılmış əmsalların və rekursiv tənliklər sisteminin qiymətləndirilməsi, qoşa (cüt) korrelyasiya əmsallarına görə hesablanır. Müxtəlif göstəricilərin zaman sıraları ilə işləyərkən və onlar arasındakı qarşılıqlı rabitə öyrənilərkən LAQ (zamana görə sürüşmə) faktorunun təsiri nəticəsində yalan (saxta) korrelyasiya problemi ortaya çıxır. Ekonometrikada verilənlər probleminə böyük diqqət yetirilir [2, s. 132].

Müəyyən mövqeləri boş buraxılmış verilənlər, verilənlərin ümumiləşdirilməsinin təsiri və s. nəticəsində verilənlər toplusunun ayrı-ayrı ölçü vahidləri haqqında informasiyanın olmaması və ya əvvəlki səviyyədə olması, və ya informasiyanın ayrı-ayrı təşkilatlar üzrə deyil, rayonlar üzrə verilməsi nəticələrə böyük təsir göstərə bilər. Verilənlər probleminə mikroiqtisadiyyatda selektiv seçim problemi də aiddir. Bu oblasta aid olan səciyyəvi istiqamətlər: əmək bazarı, işin seçilməsi zamanı qərar qəbul etməyə təsir edən amillər, təhsil almaq üçün qərar verməyə təsir edən iqtisadi stimullardır. Bu zaman seçim təsadüfi olmaya bilər, lakin o müəyyən situasiyalarla məhduddur. Əgər obyektiv seçim

“əlverişli seçimlə” əvəz olunarsa, öz-özünü seleksiya effekti meydana çıxar. Ekonometrik tədqiqatlar aşağıdakı problemlərin həllini özündə birləşdirir: iqtisadi dəyişənlər arası rabitənin keyfiyyətli analizi, verilənlərin seçilməsi; dəyişənlər arası rabitə modellərinin spesifikasiyası, modelin parametrlərinin qiymətləndirilməsi, təsadüfi komponentlərin paylanma ehtimallarının xüsusiyyətləri haqqında hipotezlərin yoxlanılması: ədədi orta qiymət; dispersiya; kovariasiya haqqında hipotezlərin yoxlanılması, saxta dəyişənlərin daxil edilməsi, avtokorrelyasiya, laqların aşkara çıxarılması, trendin, dövrü və təsadüfi komponentlərinin aşkara çıxarılması, qalıqların heteroskedastlığa görə (reqressiya funksiyası üçün paylanma normalarının yoxluğu) yoxlanılması, rabitələrin strukturunun analizi və eyni vaxtlı tənliklər sisteminin qurulması, zaman sıraları sistemi əsasında modelləşdirmə; rekursiv modelin qurulması, problem, identifikasiya və parametrlərin qiymətləndirilməsi. Ekonometrik modelləşdirmə qarşılıqlı rabitədə olan dəyişənlər çevrəsi haqqında dialektik fərziyyələrə əsaslanır. Rabitələrin ən yaxşı təsvirinə nə qədər çox cəhd olunsa da, yenə də prioritet keyfiyyət analizinə verilir [1, s. 133-139]. İqtisadi tədqiqatlarda ekonometrik analizin mərhələləri aşağıdakılardan ibarətdir: problemin qurulması, verilənlərin alınması və onların keyfiyyət analizi, problemlərin spesifikasiyası, parametrlərin qiymətləndirilməsi, nəticələrin interpretasiyası.

Ekonometrikada ölçmə.

Ekonometrika anlayışı ekonometrik ölçmələri özündə birləşdirir. Bu zaman ölçmə müxtəlif cür başa düşülə bilər. Ölçmənin əlamətləri: informasiyanın alınması, müqayisə olunması və nizamlanmasından ibarətdir. Ölçmə hər hansı bir əlamətin seçilməsini fərz edir ki, bu əlamətə görə obyektin müqayisəsi həyata keçirilir. Ölçmənin digər anlamı nəticələrin ədədi ifadəsindən irəli gəlir. Başqa sözlə, ölçmə dedikdə, nəticədə kəmiyyətin ədədi ifadəsi alınan əməliyyat başa düşülür və bu ədədlər müşahidə olunan əlamətlərə, keyfiyyətlərə, elmi qanunauyğunluqlara və s. uyğun olmalıdır. İlkin yanaşma, etalonun olması ilə əlaqədardır. Etalon dar mənada ölçməni müəyyən etməkdir. Birinci, aşağı səviyyədə obyektlər tədqiq olunan əlamətin olub-olmadığına görə müqayisə olunur. Bu səviyyədə “nömrələnmə”, “təsnifat”, “nominasiya” və s. kimi terminlərdən istifadə edilir. İkinci səviyyədə, obyektlər üzə çıxan əlamətlərin intensivliyinə görə müqayisə olunur. Burada, “şkalalaşdırma”, “topologiya” və “nizamlama” (və ya çeşidləmə) terminlərindən istifadə edilir. Üçüncü səviyyə, obyektləri etalonlarla müqayisə etməkdən ibarətdir. Burada, “ölçmə” və “kvantifikasiya” terminlərindən istifadə olunur. Bütün ölçmə anlayışlarını ölçmə şkalasının bazasında birləşdirmək olar. Ölçmə şkalasının tipi mümkün çevirmələrə görə müəyyən olunur. Bu çevirmələr zamanı sistemin elementləri arasındakı münasibətlər dəyişməz qalır. İxtiyari ölçmə şkalasını müəyyən etmək üçün obyektə ad vermək və bu obyekti hər hansı əlamət və ya əlamətlər qrupu ilə eyniləşdirmək lazımdır. Əgər bu cür çevirmə yeganə olarsa, onda şkala, nominal şkala (adlandırma şkalası) adlanır. Obyektlər sinfinin ad aldığı ixtiyari təsnifatı, bu şka-

lada ölçmə adlandırmaq olar. Bu şkalada ədədlər yarlıq rolunu oynayır və bunlara riyazi əməliyyatlar tətbiq oluna bilməz. Nominal şkala yalnız simmetriklik və tranzitivlik xüsusiyyətinə malikdir. Simmetriklik o deməkdir ki, $X1$ və $X2$ arasında qradasiya (dərəcələnmə) $X2$ və $X1$ arasında da saxlanılır. Tranzitivlik: əgər $X1 = X2$, $X2 = X3$, onda $X1 = X3$. Əgər şkalada elementlərin sırası hər hansı əlamətlərin müəyyən səbəblərdən meydana çıxmasına görə əhəmiyyət kəsb edirsə, və kəmiyyətcə ifadə önəmli deyilsə, bu tip şkala ranq (sıra) şkalası adlanır. Bu şkalada "=", "≠", ">", "<" əməliyyatları aparmaq olar. Nominal və sıra şkalalarından başqa, interval şkalasından da istifadə olunur. İnterval şkalasında ölçmə sıra şkalasından daha mükəmməldir. Ölçmənin dəqiqliyi onun adekvatlığıdır, başqa sözlə, real şərtlərə uyğun olmasıdır [2, s. 56-71]. Dəqiqlik aşağıdakı problemlərlə əlaqədardır: iqtisadi kəmiyyət anlayışının müəyyən edilməsi, iqtisadi göstəricilərin müəyyən edilməsi, şkala tipinin seçilməsinin əsaslandırılması, göstəricilər sisteminin formalaşdırılma qaydalarının tərtib olunması, ölçmə səhvlərinin (xətalarının) tipinin aşkar edilməsi və aradan qaldırmaq üçün metodların müəyyən edilməsi, iqtisadi göstəricilərin müqayisə olunma şərtlərinin aşkara çıxarılması.

Ekonometrik tədqiqatların qoşa reqressiyası və korrelyasiyası.

Reqressiya tənliyinə daxil edilən faktorların sayından asılı olaraq, qoşa (sadə) və cəm (çoxluq) reqressiyaları fərqləndirmək lazımdır. Qoşa reqressiya dedikdə iki X və Y dəyişənləri arasındakı asılılıq, başqa sözlə, $y = f(x)$ tipli model nəzərdə tutulur. Burada y – asılı dəyişən (nəticəlik əlaməti), x – sərbəst dəyişəndir (faktor əlaməti). Çoxluq reqressiya iki və daha çox faktorla y dəyişəni arasındakı asılılığın $y = f(x_1, x_2, ... x_n)$ tipli modelidir. İxtiyari ekonometrik tədqiqat modelin spesifikasiyasından, başqa sözlə, modelin növünü təsvir etməkdən başlayır. Bu zaman izahedici X dəyişəni kimi istifadə olunan dominant faktor varsa, qoşa reqressiyadan istifadə etmək kifayətdir. Praktiki olaraq, ayrılıqda götürülmüş hər bir hal üçün Y kəmiyyəti iki toplananın cəmi kimi göstərilir: $Y_j = \acute{y}x_j + \varepsilon_j$. Burada, Y_j – nəticəlik əlamətinin faktiki qiyməti; $\acute{y}x_j$ – nəticəlik əlamətinin nəzəri qiyməti; ε_j – nəticəlik əlamətinin nəzəri qiymətdən meylini göstərən təsadüfi kəmiyyətdir (reqressiya tənliyindən tapılan). ε - "həyəcandır", modeldə nəzərə alınmış faktorların təsirini ifadə edir. Bu "həyəcanın" modeldə olması üç mənbədən qaynaqlanır: modelin spesifikasiyası, ilkin verilənlərin seçim xarakteri, dəyişənlərin ölçülməsinin xüsusiyyəti.

Cüt (qoşa) reqressiyaya aid olan əsas asılılıqlar aşağıdakılardır: $\acute{y} = a+bx$; $\acute{y} = ab^x$; $\acute{y} = ax^b$; $\acute{y} = 1/a + bx$; $\acute{y} = a+b/x$. Qoşa reqressiyada modelin və ya riyazi funksiyanın seçilməsi üç üsulla mümkündür: qrafik, analitik (başqa sözlə, öyrənilən rabitə nəzəriyyəsinə nəzərən (istinad)), eksperimental. İki dəyişən arasındakı qarşılıqlı rabitə öyrənilərkən, tənliyin növünün qrafik üsulla seçilməsi polikorrelyasiyaya əsaslanır (ilkin verilənlər XOY – müstəvisində qeyd olunur). İki dəyişən arasındakı rabitənin qiymətləndirilməsi zamanı istifadə edi-

lən əyrilərin a) y = $a+bx$, b) $y = a+b/x$, c) $y = ax^b$ və d) $y = ab^x$ kimi tipləri vardır [3, s. 177-183].

Analitik üsulla tənliyin növünün müəyyən edilməsi, tədqiq olunan əlamətlərarası rabitənin maddi təbiətinə əsaslanır. Məsələn, müəssisənin enerji tələbatı (y) istehsal olunan məhsulun həcmindən (x) asılıdır və istehlak olunan enerjini iki hissəyə ayırmaq olar: məhsul istehsalı ilə birbaşa əlaqəsi olmayan hissə (a); bilavasitə istehsal olunan məhsulun həcmi ilə mütənasib artan hissə (bx). Rabitələrin keyfiyyətcə qiymətləndirilməsi zamanı alınan əyrilər əsasən şəkil 1-dəki kimidir.

Rabitəni $y = a+bx$ şəklində ifadə etmək olar. Tənliyin hər iki tərəfini məhsulun buraxılış həcminə (x) bölsək, elektrik enerjisinin xüsusi məsrəflərinin istehsal vahidinə nisbətinin ($z = y/x$) məhsul buraxılışı həcmindən asılılığını alarıq. Asılılıq bərabərtərəfli hiperbolik tənlik şəklindədir ($z = b + a/x$). Analoji olaraq müəssisənin məsrəfləri: istehsal həcminin (materiallar məsrəfi, əmək haqqı ödəmələri və s.) dəyişməsinə mütənasib olaraq dəyişən şərti dəyişənlərə və istehsal həcminin dəyişməsilə dəyişməyən (icarə haqqı, administrasiyanın tərkibi və s.) şərti sabitlərə bölünür. Uyğun olaraq, istehsal xərclərinin (y) məhsul həcmindən asılılığı $y = a+bx$ xətti funksiya ilə, məhsul vahidinin maya dəyərinin (z) istehsal həcmindən asılılığı isə $z = b + a/x$ bərabərtərəfli hiperbolası ilə ifadə olunur.

Şəkil 1.

İnformasiyanın emalı üçün kompyuter dən istifadə olunursa, onda tənliyin növünün seçilməsi eksperimental üsulla, başqa sözlə, qalıq dispersiyanın qiymətini müqayisə etmək yolu ilə həyata keçirilir. Qalıq dispersiya aşağıdakı düsturla hesablanır:

$$D_{qal} = \frac{1}{n}\sum(y - \hat{y}^2)^2 \qquad (1)$$

burada n tədqiq edilən əlamətin müşahidələrinin sayı, y – faktiki veri-lənlər, $\acute{y}$ – reqressiya tənliyinə görə alınmış nəzəri qiymətlərdir. Əgər tənlik kor-relyasiya sahəsinin bütün nöqtələrindən keçirsə, onda faktiki qiymətlər nəzəri qiymətlərlə üst-üstə düşəcək ($D_{qal} = 0$).

Praktiki tədqiqat zamanı reqressiya xəttinə nəzərən, hər hansı meyl edən nöqtə müşahidə olunur. Eksperimental üsul tətbiq ediləndə avtomatik rejimdə müxtəlif riyazi funksiyalar araşdırılır və bunlardan D_{qal} kəmiyyəti minimum

olan funksiya seçilir. Əgər D_{qal} bir neçə funksiya üçün təqribən eynidirsə, onda sadə funksiyalara üstünlük verilir. Bu cür funksiyalar müşahidələrin sayının azlığı və yaxşı interpretasiya olunması ilə fərqlənir.

Ekonometrik modeldə xətti reqressiya və korrelyasiya parametrlərinin mənası və qiymətləndirilməsi.

Xətti reqressiya (şəkil 2) aşağıdakı tənlik növünün tapılmasına gətirilir:

$$y_x = a + bx \qquad (2)$$

$$y = a + bx + \varepsilon \qquad (3)$$

(2) tipli tənlik *X* faktorunun verilmiş qiymətinə görə nəticə əlamətinin nəzəri (3) qiymətini tapmağa imkan verir. Xətti reqressiyanın qurulması bu parametrlərin (nəzəri qiymətlər) qiymətləndirilməsinə gətirilir və qiymətləndirmə ən kiçik kvadratlar üsuluna əsaslanır. (2) tənliyi eyni zamanda *a* və *b* parametrlərini qiymətləndirməyə imkan verir. Bu qiymətlərə görə nəticə əlamətinin nəzəri qiymətlərinin faktiki qiymətlərdən olan meyllərinin kvadratları cəmi min olmalıdır: $\sum (y_i - \hat{y}_{x_i})^2 \to \min$. Bu o deməkdir ki, qrafikdəki reqressiya əyrilərindən məhz o əyri seçilir ki, nöqtələrlə bu əyri (xətt) arasındakı kvadratlar cəmi (şaquli xətt) minimum olsun. Əgər $\varepsilon = y_i - y_{x_i}$ olarsa, onda $\sum \varepsilon^2 \to \min$ olar. Funksiyanın minimumunu tapmaq üçün naməlum *a* və *b* parametrlərinə görə xüsusi törəmələri hesablayıb sıfra bərabər etmək lazımdır. $\sum \varepsilon^2$-nı S ilə işarə etsək, onda

$$S = \sum (y_i - y_{x_i})^2 = \sum (y - a - bx)^2 \qquad (4)$$

Şəkil 2.

sistemini alarıq. (4) sisteminin həllindən aşağıdakı tənliklər alınacaqdır:

$$dS/da = -2\sum y + 2na + 2b\sum x = 0,$$

$$dS/db = -2\sum yx + 2a\sum x + 2b\sum x^2 = 0. \qquad (5)$$

a və *b* parametrlərinin qiymətləndirilməsi üçün $y = f(x_1, x_2, ... x_k)$ funksiyasını çevirdikdən sonra aşağıdakı normal tənliklər sistemini alarıq:

$$\begin{aligned} na + b\sum x &= \sum y \\ a\sum x + b\sum x^2 &= \sum yx \end{aligned}. \qquad (6)$$

$y_i = y_{xi} + \varepsilon_i$ normal tənliklər sistemini məchulların ardıcıl yoxedilməsi və ya determinantlar üsulu ilə həll edərək *a* və *b* parametrlərinin qiymətlərini tapırıq [3, səh. 205-212]. Aşağıdakı hazır düsturlardan da istifadə etmək olar:

$$a = \overline{y} - b\overline{x}. \qquad (7)$$

(7) düsturu (6) tənliklər sisteminin birinci tənliyindən alınır, əgər (7)-nin bütün hədlərini *n*-ə bölsək,

$$b = \mathrm{cov}(x, y)/\sigma_x^2 \qquad (8)$$

alınar. Burada *cov (x, y)* – əlamətlərin kovariasiyası, σ_x^2 – *x* əlamətinin dispersiyasıdır.

$\mathrm{cov}(x, y) = \overline{yx} - \overline{y} \cdot \overline{x}$, və $\sigma_x^2 = \overline{x^2} - \overline{x}^2$ düsturlarına görə *b* parametrinin hesablanması üçün aşağıdakı analitik ifadəni alarıq:

$$b = \left(\overline{yx} - \overline{y} \cdot \overline{x}\right)/\left(\overline{x^2} - \overline{x}^2\right) \qquad (9)$$

b parametri reqressiya əmsalı adlanır və onun qiyməti faktorun bir vahid dəyişməsi zamanı nəticənin orta dəyişməsini göstərir. Xətti korrelyasiya əmsalı düsturunun müxtəlif modifikasiyaları var. Məsələn.

$$r_{x,y} = b\left(\sigma_x/\sigma_y\right) = \mathrm{cov}(x, y)/\sigma_x\sigma_y = \left(\left(\overline{yx} - \overline{y} \cdot \overline{x}\right)/\sigma_x\sigma_y\right) \qquad (10)$$

<u>*Misal*</u>. $y_x = 3000+2x$ məsrəf funksiyasında (*y* – məsrəf funksiyası (min manat), *x* – məhsul vahidinin miqdarıdır) uyğun olaraq *x* məhsul həcminin 1 vahid böyüdülməsi istehsal məsrəflərinin orta hesabla 2000 manat artmasına gətirir. Başqa sözlə, məhsulun 1 vahid əlavə artımı xərclərin orta hesabla 2000 manat artmasını tələb edir.

Qoşa xətti reqressiya ekonometrikada adətən tələb funksiyasının öyrənilməsində istifadə olunur:

$$C=Ky+L \qquad (11)$$

burada *C* – tələb, *y* – gəlir, *K* və *L* – funksiyanın parametrləridir.

Xətti reqressiyanın verilmiş tənliyi adətən balans tənliyi ilə əlaqədə istifadə edilir:

$$y = C+I-q, \qquad (12)$$

burada *I* – investisiyanın ölçüsü, *q* – qənaət edilib yığılmış puldur. Sadəlik üçün fərz edək ki, gəlir tələbə və investisiyaya ayrılır. Onda, aşağıdakı tənliklər sisteminə baxılır:

$$\begin{cases} C = Ky + L \\ y = C + I \end{cases} \qquad (13)$$

Verilmiş sistemdə balans tənliyinin mövcudluğu reqressiya əmsalı kəmiyyətinin üzərinə əlavə məhdudiyyət qoyur, belə ki, o vahiddən böyük ola bilməz ($K \leq 1$). Fərz edək ki, tələb funksiyası C = 1,9 + 0,65y şəklindədir. Reqressiya əmsalı tələbə meylliliyi xarakterizə edir. O göstərir ki, hər bir 1000 manat gəlirdən orta hesabla 650 manatı tələb üçün xərclənir, 350 manatı isə investisiyaya sərf olunur. Əgər reqressiyanın gəlirdən investisiya ölçüsündə olmasına ümid etsək, onda $I = a + by$ alarıq. Reqressiya tənliyi isə $I = 1{,}9 + 0{,}35y$ kimi olar. Bu tənliyi təyin etməmək də olar, çünki, o, tələb funksiyasından alınır. Bu iki tənliyin reqressiya əmsalları: 0,65 + 0,35 = 1 münasibəti ilə əlaqədədirlər. Əgər reqressiya əmsalı 1-dən böyükdürsə, onda $y < (C+1)$. Başqa sözlə, tələbə nəinki gəlir, həm də qənaət olunub yığılmış pul da xərclənir. Tələb funksiyasında reqressiya əmsalı multiplikatorun hesablanması üçün istifadə olunur.

$$m = 1/1 - b \qquad (14)$$

Burada m – multiplikator, b – tələb funksiyasında reqressiya əmsalıdır. Misalda m = 1/(1- 0,65) = 2,86.

Reqressiya əmsalının dəqiq iqtisadi interpretasiyası xətti reqressiya tənliyini ekonometrik tədqiqatlarda kifayət qədər "bərabərtərəfli" edir. Tənlikdə $a>0$ olduqda, Y nəticəsinin nisbi dəyişməsi X faktorunun dəyişməsinə nəzərən yavaş-yavaş (asta) baş verir, $a<0$ olduqda, nəticə, faktorun dəyişilməsini qabaqlayır. Reqressiya tənliyi həmişə rabitə sıxlığı əmsalı və ya göstəricisi ilə tamamlanır. Xətti reqressiyadan istifadə zamanı rabitə sıxlığı kimi korrelyasiya əmsalından istifadə olunur və (10) düsturu ilə ifadə edilir. Korrelyasiya əmsalının qiyməti $-1 \leq r \leq 1$ sərhədində dəyişir. Əgər, b>0 olarsa, onda korrelyasiya əmsalı [-1; 0] parçasında dəyişəcək. Xətti korrelyasiya əmsalının qiyməti X və Y əlamətinin rabitə sıxlığını xətti formada qiymətləndirir. Lakin, bu o demək deyil ki, əgər, korrelyasiya əmsalı sıfıra bərabərdirsə, X və Y arasında rabitə yoxdur. Bu o deməkdir ki, digər spesifikasiyadan istifadə etmək lazımdır. Xətti funksiyanın seçilməsinin keyfiyyətini qiymətləndirmək üçün xətti korrelyasiyanın kvadratı hesablanır ($r_{xy}^2 = \sigma_x^2 / \sigma_y^2$). Bu kəmiyyət determinasiya əmsalı adlanır və y nəticə əlamətinin dispersiya hissəsini göstərək, nəticə əlamətinin ümumi dispersiyada reqressiyası ilə izah olunur. Yəni,

$$r_{yx}^2 = \sigma_{y\ izahedilen}^2 \Big/ \sigma_{y\ ümumi}^2 . \qquad (15)$$

1- r_{xy}^2 reqressiyada nəzərə alınmamış digər faktorların təsirindən törəyən dispersiyanı xarakterizə edən kəmiyyətdir. r_{xy}^2 xətti modeli qiymətləndirmək üçün kriteridir. Yəni, izah olunmuş variasiyaların payı (hissəsi) nə qədər böyükdürsə, model ilkin verilənləri yaxşı aproksimasiya edir. Deməli, nəticə əlamətini proqnozlaşdırmaq üçün bu kriteridən istifadə etmək olar.

ƏDƏBİYYAT

1. Дуброва Т.А. Прогнозирование социально-экономических процессов. Статистические методы и модели. Москва: Маркет ДС, 2007, 192 с.
2. Цымбаленко Т.Т., Баудаков А.Н., Цымбаленко О.С. и др. Методы математической статистики в обработке экономической информации. Ставрополь: Финансы и статистика, АРГУС, 2007, 200 с.
3. Палий И.А. Прикладная статистика. Москва: Издательско-торговая корпорация «Дашков и К», 2008, 224 с.

Гюляра Рагимова

РОЛЬ ЭКОНОМЕТРИЧЕСКОГО ИССЛЕДОВАНИЯ В ЭКОНОМИКЕ

Роль эконометрического исследования определяется теми задачами, которые может решать эконометрия. Важнейшей задачей является оценка параметров и проверка значимости эконометрической модели. Первым этапом этого процесса является спецификация модели в математической форме. Второй этап – сбор и подготовка экономической информации. На третьем этапе оцениваются параметры модели. Четвертый этап – это проверка модели на достоверность. Очень важными на этом этапе являются оценки дисперсии остатков модели. Эти оценки играют решающую роль при выяснении качества эконометрических моделей, они необходимы для определения надежности вычисленных параметров и для применения разработанных моделей в прогнозировании.

Ключевые слова: *эконометрическое исследование, эконометрическое моделирование, прогнозирование, риск, ошибка предсказания.*

Gulara Rahimova

ROLE OF ECONOMETRIC INVESTIGATION IN ECONOMICS

The role of econometric research is determined by the tasks which can be solved by econometrics. The major task is the assessment of parameters and check of the importance of an econometric model. The first stage of this process is the model specification in a mathematical form. The second stage is collecting and preparation of economic information. At the third stage model parameters are estimated. The fourth stage is the check of a model on reliability. Very important at this stage are evaluations of dispersion of the model remains. These estimations play a crucial role at clarification of quality of econometric models, they are necessary for determination of reliability of the calculated parameters and for application of the developed models in forecasting.

Key words: *econometric investigation, econometric modeling, forecasting, risk, predicttion error.*

(İqtisad elmləri doktoru Nazim Əhmədov tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2015, № 3

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2015, № 3

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2015, № 3

ASƏF QƏRİBOV
Naxçıvan Dövlət Universiteti
E-mail: asafqaribov@yahoo.com

AZƏRBAYCANDA SƏNAYENİN İNKİŞAFI VƏ REGİONAL İNTEQRASİYA PERSPEKTİVLƏRİ

Məqalədə Azərbaycanın istehsal sahələrinin sənayeləşməsi və beynəlxalq bazarlara inteqrasiyası, eləcədə bu fəaliyyətlərin inkişaf tarixi və dövlət siyasətinin, əsas prinsipləri tədqiq edilir. Xüsusi ilə beynəlxalq səviyyədə qəbul edilmiş qaydalar, mövcud mexanizmlər və hüquq normalarının mahiyyəti təhlil edilir. Azərbaycanla dünya ölkələri arasında maliyyə əlaqələrinin mövcud vəziyyəti və inkişaf perspektivləri təhlil edilmişdir.

Açar sözlər: *ticarət kapitalı, pul siyasəti, iqtisadi mexanizmlər, maliyyə bazarı, tranzit.*

İqtisadi qloballaşma milli iqtisadi sistemlərin vahid bir iqtisadi sistem halında birləşməsi, onların qarşılıqlı asılı vəziyyətə gəlməsi və bununla da ölkələr arasındakı bütün iqtisadi münasibətlərin liberallaşmasıdır. Qloballaşma prosesinin əsas forması olan iqtisadi qloballaşmanın özəyini ölkələrin qarşılıqlı iqtisadi inteqrasiyası təşkil edir. İqtisadi inteqrasiya dövlətlərin təsərrüfat və siyasi cəhətdən elə birləşməsidir ki, bu birləşmədə milli təsərrüfatlar arasındakı əmək bölgüsü müxtəlif səviyyələrdə həyata keçirilir. Məlum olduğu kimi, bir neçə il bundan əvvəl başlayan qlobal maliyyə-iqtisadi böhranı ayrı-ayrı ölkələrdə ciddi fəsadlarla nəticələnib-istehsal aşağı düşüb, çoxlu sayda iş yerləri ixtisar edilib, sosial əhəmiyyət daşıyan layihələr təxirə salınıb. Bununla belə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət sayəsində ölkəmiz bu kimi kataklizmlərdən yan keçməyi bacarıb. Hazırda müstəqil Azərbaycan bütün dünyada sabitlik və inkişaf adası kimi səciyyələnir. Ölkə iqtisadiyyatının potensialının ilbəil artması, həmçinin, müsbət makroiqtisadi göstəricilər respublikamızın hərtərəfli dinamik inkişafını təsdiqləyir. Belə ki, son 10 ildə ölkəmizdə ÜDM istehsalında 3 dəfədən çox artıma nail olunub. Prezident İlham Əliyevin Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasına həsr olunmuş konfransdakı çıxışında vurğuladığı kimi: "Heç bir başqa ölkədə son on il ərzində iqtisadiyyat bu qədər artmamışdır" [1, s. 211].

Son 10 ildə Azərbaycan iqtisadiyyatına 160 milyard dollar həcmində investisiyalar yönəldilib. Ötən il ölkə iqtisadiyyatına müxtəlif mənbələrdən yönəldilən investisiyaların həcmi rekord səviyyəyə – 28 milyard dollara çatıb. Ölkə iqtisadiyyatının inkişaf dinamikasında müşahidə edilən əsas cəhət isə qeyri-neft sektorunun üstün artımı ilə bağlıdır. Məlumdur ki, uzun illər ərzində neft sektoru Azərbaycan iqtisadiyyatında lokomotiv rolunda çıxış edib və bu gün də üstün mövqeyini qoruyub saxlamaqdadır. Bununla belə, ölkəmizdə iqtisadiyyatın məqsədyönlü şaxələndirilməsi siyasəti uğurla həyata keçirilir. Ölkəmizin gələcək inkişafı ilə bağlı yeni paradiqmalar sırasında neft gəlirlərinin modern, innovasiyalara əsaslanan, elm tutumlu sənaye quruculuğu siyasəti mühüm yer tutur. Nəticədə, 10 il ərzində ölkəmizdə qeyri-neft sektoru 2,6 dəfə, o cümlədən regionlarda ümumi məhsul buraxılışı 3,2, sənaye məhsulu 3,1, rabitə xidmətləri 6 dəfə artıb. Ötən il qeyri-neft sektorunda 10 faiz artım müşahidə edilib.

Uğurla həyata keçirilən iqtisadiyyatın diversifikasiya siyasəti sayəsində ölkənin sənaye xəritəsi daha da zənginləşib, həmçinin, regionlar iqtisadi güc amilinə çevrilib. Belə ki, son 10 il ərzində ölkədə əsasən regionlarda olmaq şərti ilə 500-dən çox sənaye müəssisəsi fəaliyyətə başlayıb. İqtisadiyyatda özəl bölmənin çəkisinin artmasını da xüsusi vurğulamaq gərəkdir. Ötən 10 ildə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 19 mindən çox sahibkarın ümumi dəyəri 2 milyard manat olan layihələrinin maliyyələşməsinə 1,2 milyard manat güzəştli kredit verilib. Bu tədbirlər nəticəsində vergi daxilolmalarında özəl bölmənin payı 42 faizdən 72,5 faizə yüksəlib, sahibkarlıq subyektlərinin sayı 2,5 dəfə artıb və ümumi daxili məhsulda özəl sektorun çəkisi 80 faizi ötüb. Ölkə iqtisadiyyatının həcminin dünyada analoqu olmayan səviyyədə artması paralel surətdə büdcə xərclərinin 20 dəfə artması ilə nəticələnib.

Respublikamızda büdcədən, həmçinin, Prezidentin ehtiyat fondundan ayrılan vəsaitlər hesabına genişmiqyaslı infrastruktur və sosial məzmunlu layihələr reallaşdırılır. Ölkəboyu intensiv surətdə həyata keçirilən abadlıq-quruculuq işləri sayəsində şəhər və kəndlərin siması dəyişib. Paytaxt Bakıda və bölgələrdə yeni su, kanalizasiya şəbəkələri qurulur, müasir enerji gücləri yaradılır, ən ucqar kəndlərə belə qaz xətləri çəkilir. Prezident İlham Əliyevin təşəbbüsü ilə qəbul edilən və onun bilavasitə rəhbərliyi altında uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair 2004-2008-ci və 2009-2013-cü illəri əhatə edən Dövlət proqramlarının uğurla reallaşdırılması bütövlükdə Azərbaycanın simasını dəyişib [2, s. 147].

Ümumilikdə, proqramların icrasına bütün mənbələr hesabına 50,7 milyard, o cümlədən birinci proqramın icrasına 16 milyard, ikinci proqramın icrasına isə 34,7 milyard manat vəsait yönəldilib. Proqramlar çərçivəsində 2708 məktəb, 500-dən çox səhiyyə, 700-ə yaxın mədəniyyət, 250-dən çox idman və gənclər obyekti tikilib və ya əsaslı təmir olunub. Hazırda ölkəmizdə regionların sosial-iqtisadi inkişafına dair 2014-2018-ci illəri əhatə edən sayca üçüncü Dövlət Proqramı uğurla reallaşdırılır. Qeyd edək ki, yeni Dövlət Proqramı çərçivəsində

ölkədə 300-dən çox sosial obyektin təmir-tikintisi davam etdirilir. Xatırlatmaq yerinə düşər ki, dövlət başçısı İlham Əliyev hələ 2003-cü ildə seçkiqabağı təbliğat kampaniyası çərçivəsində yerlərdə keçirdiyi görüşlərdə prezident seçiləcəyi təqdirdə ölkədə işsizlik probleminin həllinə nail olacağına söz vermişdi.

Onun məqsədyönlü siyasəti sayəsində iqtisadiyyatın həcminin dinamik şəkildə artması ölkədə işsizliyin 5 faizədək aşağı düşməsi ilə nəticələnib. Belə ki, son 10 ildə respublikamızda 1 milyon 300 min yeni iş yerləri yaradılıb ki, onların da təxminən 1 milyonu daimi iş yerləridir. Belə bir fakt da çox əlamətdardır ki, yeni açılan iş yerlərinin 80 faizdən çoxu Azərbaycanın bölgələrinin payına düşür. Yeni iş yerlərinin açılması regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramında da əsas hədəflərdən biri kimi müəyyənləşdirilib. Qeyd edək ki, sözügedən Dövlət Proqramının uğurla reallaşdırılması nəticəsində ilin əvvəlindən bəri 70 minə yaxın yeni iş yerləri yaradılıb.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı çıxışında ölkədə əhalinin təbii artımına diqqət çəkərək yeni iş yerlərinin açılmasını davamlı bir prosesə çevirməyin və bu məqsədlə düşünülmüş bir konsepsiyanın hazırlanmasının zəruriliyini gündəmə gətirib. "İldən-ilə artan əhali hökuməti də, əlbəttə ki, daha da fəal olmağa çağırmalıdır. Eyni zamanda, bu, onu deməyə əsas verir ki, yeni iş yerlərinin açılması daimi proses olmalıdır. Biz deyə bilmərik ki, artıq bir milyon daimi iş yeri açılıbdır, gəlin, indi bu məsələyə diqqət yetirməyək. Yox, bu, daimi proses olmalıdır. Sənayeləşmə, kənd təsərrüfatı, yüksək texnologiyalar, digər sahələr sürətlə inkişaf etməlidir ki, biz insanlarımızı gələcəkdə də iş yerləri ilə təmin edə bilək. Ona görə hesab edirəm, vaxt gəlib çatıb ki, bu məsələ ilə bağlı düşünülmüş bir konsepsiya hazırlansın" [3, s. 69].

Təbii ki, dünyadakı qlobal böhran şəraitində Azərbaycanın dinamik iqtisadi inkişafa nail olması beynəlxalq miqyasda da böyük maraqla izlənilir. Son vaxtlarda respublikamızda səfərdə olan ayrı-ayrı ölkələrin dövlət və hökumət başçıları iqtisadi inkişaf sahəsində Azərbaycan təcrübəsinin öyrənilməsinin vacibliyini vurğulayıblar. Beynəlxalq reytinq agentliklərinin dəyərləndirmələrində də ölkə iqtisadiyyatının daim artan templə inkişaf etməsinə yüksək qiymət verilir. Məsələn, Davos Dünya İqtisadi Forumunun hesabatında Azərbaycan iqtisadi sahədə rəqabət qabiliyyətliliyinə görə daha bir pillə irəliləyərək 38-ci yerdə qərar tutub. Prezident İlham Əliyev Bakıda "Əsrin müqaviləsi"nin 20 illiyinə və "Cənub" qaz dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasimdəki çıxışında Azərbaycanın Davos Dünya İqtisadi Forumunun son hesabatında daha bir pillə irəliləməsindən məmnunluqla söhbət açaraq deyib: "Bu yaxınlarda Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə dünyada 38-ci yerdədir. Bu, bizim üçün çox böyük nailiyyətdir və onu göstərir ki, Azərbaycan iqtisadiy-yatı çoxşaxəli şəkildə inkişaf edir". Yeri gəlmişkən, bu günlərdə təməli qoyulan

“Cənub” qaz dəhlizi də Azərbaycan iqtisadiyyatı üçün yeni inkişaf perspektivləri vəd edir. “Əsrin müqaviləsi”nin 20 illiyinə və “Cənub” qaz dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasimdəki çıxışında bu məqama toxunan Prezident İlham Əliyev deyib: “Bu layihə Azərbaycana əlavə di-videndlər gətirəcək. Ölkə iqtisadiyyatı daha da sürətlə inkişaf edəcək” [10, s. 2].

Ölkə iqtisadiyyatında getdikcə daha çox diqqət cəlb etməyə başlayan məsələlərdən biri də sənaye sferasında atılan addımlar və burada regionların potensialından daha geniş şəkildə istifadə olunmasıdır. Müasir dövrdə iqtisadiyyatın sənaye sektorunun inkişafında sənaye parklarının yaradılması böyük əhəmiyyət kəsb edir. Belə layihələr müxtəlif sənaye istiqamətlərinin paralel, eyni zamanda tarazlı inkişafını təmin edir, habelə istehsal sahələrinin və onların innovasiya istiqamətlərinin inkişafını nəzərdə tutan dövlət siyasətinin reallaşdırılmasına şərait yaradır.

Xarici ölkələrin təcrübəsi göstərir ki, sənaye parklarının yaradılması ölkə iqtisadiyyatında ixracın, idxalı əvəz edən məhsulların istehsalının, məhsulların rəqabət qabiliyyətinin artırılması, məşğulluğun təmin edilməsi, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir. Buna görə də müxtəlif sənaye sahələrini inkişaf etdirmək istəyən, ölkə iqtisadiyyatının tarazlı inkişafında maraqlı olan dövlətlər iqtisadi siyasətlərində sənaye parklarının yaradılmasına üstünlük verirlər. Sənaye parkı sənaye sahələrini inkişaf etdirmək üçün ayrılan torpaq sahəsi olaraq nəzərdə tutulur. Sənaye parklarının üç əsas sahibkarlıq modeli var: dövlət sənaye parkı və onu idarə edən orqan, özəl sektorun mülkiyyətində və idarəsində olan sənaye parkı, dövlətlə özəl sektor arasında dövlət-özəl tərəfdaşlıqları və müştərək müəssisələr. Sənaye parkları müxtəlif cür adlana bilər: sənaye torpaqları, şəhərciyi, ixrac-emal zonaları, biznes parkları, texnologiya parkları, sənaye inkişaf zonaları, eko-sənaye parkları və s. Sənaye parkları, adətən, rabitə və nəqliyyat infrastrukturuna malik, kommunikasiya xətləri ilə təmin edilmiş ərazilərdə yerləşir. Digər hallarda isə bu imkanlar əvvəlcədən yaradılır. Həmçinin həmin zonalar işçi qüvvələri ehtiyatına malik olmalıdır [8, s. 185].

Sənaye parkında yerləşən biznes müəssisəsinin kənarda yerləşən müəssisələrdən bir sıra üstünlükləri var. Belə ki, sənaye parkında müəssisə yaratmaq torpaq əldə etmək, onu hazır vəziyyətə gətirmək, kommunal xidmətlərdən istifadəyə icazə almaq, əraziyə yol çəkdirmək və digər vaxt aparan, əziyyət tələb edən işlərdən azad olmaq deməkdir. Sənaye parklarında biznes təşkilatları bu cür çətinliklər yaşamır. İlk növbədə, ona görə ki, sənaye parklarında biznesin təşkilində dövlət maraqlı olur. Həmçinin sənaye parklarında müxtəlif maddi (vergi, gömrük) güzəştlər tətbiq edilir. Sənaye parkı ilə bağlı bəzi stimullaşdırıcı tədbirlərə gəlincə, bura vergi və gömrük sahəsində güzəştlər, sənaye parkının infrastrukturla təmin edilməsi, torpaq sahəsinin icarə haqqının aşağı həddə nəzərdə tutulması, güzəştli kreditlərin verilməsi, inzibati proseduraların sadələşdirilməsi daxildir. Bundan başqa, sənaye parklarında sahibkarlıq fəaliyyətinin

səmərəli həyata keçirilməsi üçün xidmətlərin təşkili, istilik və elektrik enerjisinin, suyun və qazın satışına, tullantı sularının axıdılmasına və məişət tullantılarının yığılmasına görə güzəştli tariflərin tətbiqi də mümkündür. Sənaye parklarının yaradılması və orada güzəştlərin tətbiq olunması ölkə iqtisadiyyatının şaxələnməsinə, müxtəlif sənaye sahələrinin inkişafına xidmət edir. Sənaye parkları, əsasən, böyük ənənələri və potensialı olan sahələrdə yaradılmalıdır. Ona görə də sənaye parkları daha çox hər bir regionun xammal bazasına uyğun olaraq təşkil edilməlidir. Məsələn, üzümçülük regionlarında şərab, dağətəyi rayonlarda isə konserv zavodları yaratmaq, faydalı qazıntılar olan bölgələrdə metallurgiya və tikinti materialları sənayesini inkişaf etdirmək mümkündür. Bu cür bölgü həm də iqtisadiyyatın balanslaşdırılmış inkişafını təmin edər. Yəni bir bölgədə böyük sənaye müəssisələri tikib, digərini boş saxlamaq regionlararası iqtisadi bərabərsizlik yaratmış olar.

Azərbaycanda bu işlərə bir neçə ildir ki, start verilmişdir. Ölkədə sənaye parkının (şəhərciyinin) yaradılması ilk dəfə ümummilli lider Heydər Əliyevin "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" 2002-ci il 10 sentyabr tarixli Fərmanında müəyyən edilmişdir. Sənaye parkının yaradılması, həmçinin Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda və Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nda nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 24 aprel 2013-cü il tarixli Fərmanı ilə "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"nin təsdiq edilməsi ilə ölkədə müxtəlif təyinatlı sənaye parklarının yaradılması istiqamətində tədbirlər həyata keçirilmişdir. Hazırda Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı Sənaye Parkı, Pirallahı Yüksək Texnologiyalar Parkı yaradılmış, növbəti sənaye parklarının Gəncə və Mingəçevir şəhərlərində yaradılması istiqamətində isə iş aparılır. Sənaye parklarının əhəmiyyətli cəhətlərini nəzərə alaraq, Naxçıvan Muxtar Respublikasında da sahibkarlığın dəstəklənməsinin bir yolu kimi sənaye parklarının yaradılmasına başlanılmışdır. Qeyd edək ki, bu sahədə artıq müvafiq qanunvericilik bazası yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 6 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Əsasnamə" sənaye parklarının yaradılması, idarə edilməsi və onlarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyən çox mühüm dövlət sənədidir [5, s. 74].

Sahibkarların həvəsləndirilməsi üçün stimullaşdırıcı tədbirləri də nəzərdə tutan əsasnaməyə görə, iş adamları və özəl şirkətlər sənaye parkında parkın operatoru ilə müqavilə bağlamaqla fəaliyyət göstərə bilərlər. Bunun üçün onlar parkda həyata keçirmək niyyətində olduqları investisiya layihəsi və başqa sə-

nədlərlə idarəedici şirkətə müraciət etməlidirlər. Qeyd edilən mühüm sənəddə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinə verilmiş tapşırıqların icrası ilə bağlı bir sıra tədbirlər həyata keçirilmişdir. Sənaye parkının yaradılması uyğun hesab edilən, dövlət, xüsusi, həmçinin bələdiyyə mülkiyyətində olan torpaq sahələri haqqında təkliflərin hazırlanması istiqamətində işlər tamamlanmışdır.

Sənaye parklarının bir əhəmiyyəti də ondadır ki, burada istehsal olunan məhsullar kiçik və orta sahibkarlığın inkişafına zəmin yaradacaq, onlarla yeni istehsal sahələrinin yaradılmasına və inkişafına təkan verəcəkdir. Elə bu məqsədlə muxtar respublikada istehsal sahələri və infrastruktur nəzərə alınmaqla izolyasiya materialları, qiymətli metallardan hazırlanmış zərgərlik məmulatları, kafel, metlax və keramik məmulatları, elektrik akkumulyatorları, elektrik naqilləri, fərdi mənzillər üçün kombi, su, qaz və elektrik sayğacları, birdəfəlik tibbi şpris, qaynaq üçün elektrod, məişət avadanlıqları və elektronik cihazlar, məktəbli və ofis ləvazimatları, sumbata bezi (pas kağızı), divar kağızı (oboy), qələm istehsalı, istismar müddəti başa çatmış avtomobil şinlərinin utilizasiyası, şurup istehsalı, yivli metal qapaq, element, birdəfəlik plastik tara, dərman preparatları, kosmetik məqsədli yağ, ekstrakt və preparatlar, balıq yemi, konservləşdirilmiş qarğıdalı, südlü uşaq yeməyi, meyvəli yoğurt, bitki yağı istehsalı sahələri və digər bu kimi 32 məhsul istehsalı üzrə layihələrin hazırlanması üçün təkliflər verilmişdir.

Xarici ölkələrin bu sahədəki müsbət təcrübəsinin öyrənilməsi istiqamətində də bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, muxtar respublikanın nümayəndə heyəti Araz Azad Ticarət Zonası ilə tanışlıq məqsədilə İran İslam Respublikasına səfər etmiş, bu sahədə həmin ölkənin təcrübəsi ilə yaxından tanış olmuşdur. Həmçinin Çin Xalq Respublikasında "Azərbaycanda sənaye parkının tikintisi" mövzusunda keçirilmiş seminarda Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin əməkdaşı iştirak etmişdir. Təlim proqramı çərçivəsində Çin Xalq Respublikasının Kommersiya Nazirliyi yanında Məmurlar üçün Beynəlxalq Biznes Akademiyası ekspertlərinin tövsiyə və təcrübələri öyrənilmişdir. Əminliklə demək olar ki, qazanılmış təcrübələr sayəsində gələcəkdə sənaye parklarının timsalında iri sərmayə qoyuluşundan ibarət yeni layihələr reallaşdırılacaqdır.

Beləliklə, aparılan təhlilləri yekunlaşdıraraq bu nəticəyə gəlirik ki, ölkəmizin qloballaşma şəraitində xarici iqtisadi fəaliyyət strategiyası dünya bazarında rəqabətə davamlı sahələrin inkişafı hesabına Azərbaycanın ixracat potensialının artması, idxalı əvəz edən məhsulların ölkədə istehsalının təşkili hesabına idxalın səmərələşdirilməsi, idxalın texnoloji avadanlıqlar və lisenziyaların alınmasına yönəldilməsi, istehsal edilən məhsulların keyfiyyətinin daxili şərtlər və beynəlxalq standartlara cavab verməsi, texnologiyanın modelləşdirilməsi və istehsahsalın inkişafı üçün xarici investisiyaların Azərbaycana cəlb edilməsi, valyuta, ixrac-idxal əməliyyatlarından istifadə etməklə strateji növ xammalın ölkədən

kənara çıxarılmasının və iqtisadi inteqrasiya proseslərinin tənzimlənməsi məsələlərinə yönəldilməlidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı (2004-2008-ci illər). Bakı: Səda, 2004, 700 s.
2. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə II Dövlət Proqramı. (2009-2013-cü illər). Bakı: Səda, 2010, 672 s.
3. Abbasov Ç.M. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.
4. Əhmədov N.H. Heydər Əliyevin inkişaf modeli və Naxçıvanda dinamik inkişaf. Bakı: Elm və təhsil. 2010, 148 s.
5. Nuriyev Ə.X. Regional idarəetmənin əsasları. Bakı: Elm, 2007, 428 s.
6. Vəliyev D.Ə. Qloballaşma şəraitində Azərbaycanın dünya maliyyə bazarına inteqrasiyası: təmayüllər, problemlər, perspektivlər. Bakı: Azərbaycan Universiteti, 2006, 239 s.
7. Kərimli İ.A. Beynəlxalq iqtisadi münasibətlərin müasir problemləri. Bakı: Çaşıoğlu, 2006, 300 s.
8. Qəribov A.H. Azad iqtisadi zonalar və iqtisadi təhlükəsizliyin tənzimlənməsi. Naxçıvan: İdeya, 2011, 257 s.
9. 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan: Əcəmi, 2014, 87 s.
10. Azərbaycan sənayesi yeni inkişaf mərhələsində. “Yeni Azərbaycan” qəz., 2014, 07 noyabr.

Асеф Гарибов

ИНДУСТРИАЛИЗАЦИЯ ПРОИЗВОДСТВА И ПЕРСПЕКТИВЫ РЕГИОНАЛЬНОГО РАЗВИТИЯ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

В статье рассматривается индустриализация производства и интеграция в международные рынки, а также изучаются история развития и основные принципы государственной политики в этой сфере. Особо проанализированы международные признанные нормы и правила, сущность существующих механизмов. Проанализированы текущее состояние и перспективы развития финансовых отношений Азербайджана со странами мира.

Ключевые слова: *капитал, торговля, денежная политика, экономические механизмы, финансовый рынок, транзит.*

Asef Garibov

INDUSTRIALIZATION OF PRODUCTION AND PROSPECTS FOR REGIONAL DEVELOPMENT IN GLOBALIZING WORLD

Industrialization of manufacturing and integration in international markets are considered in the paper, also the history of development and basic principles of national policy in this sphere are studied. Standards and rules accepted in the international level, essence of the existing mechanisms are analyzed separately. Existing situation and development prospects of the finance connections of Azerbaijan with the other world countries are analyzed.

Key words: *capital, trade, money politics, economical mechanisms, finance market, transit.*

(İqtisad elmləri doktoru, professor Ağarza Rüstəmov tərəfindən təqdim edilmişdir)

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalın əsas məqsədi elmi keyfiyyət kriterilərinə cavab verən orijinal elmi məqalələrin dərc edilməsindən ibarətdir.
2. Jurnalda başqa nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və mükəmməl redaktə olunmuş elmi məqalələr dərc edilir.
3. Məqalənin həmmüəlliflərinin sayının üç nəfərdən artıq olması arzuolunmazdır.
4. Məqalələrin keyfiyyətinə, orada göstərilən faktların səhihliyinə müəllif birbaşa cavabdehdir.
5. Məqalələr AMEA-nın həqiqi və müxbir üzvləri və ya redaksiya heyətinin üzvlərindən biri tərəfindən təqdim edilməlidir.
6. Məqalələr üç dildə – Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi və hər xülasədə açar sözlər verilməlidir.
7. Məqalənin mətni jurnalın redaksiyasına fərdi kompyuterdə, A4 formatlı ağ kağızda, "12" ölçülü hərflərlə, səhifənin parametrləri yuxarıdan 2 sm, aşağıdan 2 sm; soldan 3 sm, sağdan 1 sm məsafə ilə, sətirdən-sətrə "defislə" keçmədən, sətir aralığı 1,5 interval olmaq şərti ilə rus və azərbaycan dilində Times New Roman şriftində yazılaraq, 1 nüsxədə çap edilərək, disketlə birlikdə jurnalın məsul katibinə təqdim edilir. Mətnin daxilində olan şəkil və cədvəllərin parametri soldan və sağdan 3,7 sm olmalıdır.
8. Səhifənin sağ küncündə "12" ölçülü qalın və böyük hərflərlə müəllifin (müəlliflərin) adı və soyadı yazılır.
9. Aşağıda işlədiyi təşkilatın adı və müəllifin E-mail adresi, "12" ölçülü adi və kiçik hərflərlə yazılır (məs.: AMEA Naxçıvan Bölməsi; E-mail: ada.nat.res@mail.ru). Daha sonra 1 sətir boş buraxılmaqla aşağıdan "12" ölçülü böyük hərflərlə məqalənin adı çap edilir. Sonra məqalənin yazıldığı dildə "10" ölçülü hərflərlə, kursivlə xülasə və açar sözlər yazılır.
10. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat xülasələrdən əvvəl "12" ölçülü hərflərlə, kodlaşdırma üsulu və əlifba sırası ilə göstərilməlidir. "Ədəbiyyat" sözü səhifənin ortasında qalın və böyük hərflərlə yazılır.

    Ədəbiyyat siyahısı yazıldığı dildə adi hərflərlə verilir. Məs.:

    Kitablar:

    Qasımov V.İ. Qədim abidələr. Bakı: İşıq, 1992, 321 s.

    Kitab məqalələri:

    Həbibbəyli İ.Ə. Naxçıvanda elm və mədəniyyət / Azərbaycan tarixində Naxçıvan, Bakı: Elm, 1996, s. 73-91.

    Jurnal məqalələri:

    Baxşəliyev V.B., Quliyev Ə.A. Gəmiqaya təsvirlərində yazı elementləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 74-79

11. Məqalənin xülasəsində müəllifin adı və soyadı “12” ölçülü kiçik, qalın hərflərlə; mövzunun adı böyük, qalın hərflərlə; xülasənin özü isə adi hərflərlə yazılır. Xülasə məqalənin məzmununu tam əhatə etməli, əldə olunan nəticələr ətraflı verilməlidir.
12. Məqalədəki istinadlar mətnin içərisində verilməlidir. Məs.: (4, s. 15)
13. Məqalələrin ümumi həcmi, qrafik materiallar, fotolar, cədvəllər, düsturlar, ədəbiyyat siyahısı və xülasələr də daxil olmaqla 5-7 səhifədən çox olmamalıdır.
14. Məqaləyə müəlliflər haqqında məlumat (soyadı, adı və atasının adı, iş yeri, vəzifəsi, alimlik dərəcəsi və elmi adı, ünvanı, E-mail adresi, iş və ev telefonları) mütləq əlavə olunmalıdır.

QEYD: AMEA Naxçıvan Bölməsinin “Xəbərlər” jurnalına təqdim olunan məqalələrin sayının çoxluğunu və “Tusi” nəşriyyatının imkanlarının məhdudluğunu nəzərə alaraq bir nömrədə hər müəllifin yalnız bir məqaləsinin çap edilməsi nəzərdə tutulur.

AMEA Naxçıvan Bölməsinin elmi nəşri
№ 3 (41)

Nəşriyyatın direktoru: *Qafar Qərib*
Redaktor: *Ülviyyə Əliyeva*
Korrektor: *Yelena Muxtarova*
Operator: *İlhamə Əliyeva,*
Proqramçı mühəndis: *Taleh Maxsudov*

Yığılmağa verilmişdir: 03.08.2015
Çapa imzalanmışdır: 02.09.2015
Kağız formatı: 70 x 108 1/16
19,8 çap vərəqi. 318 səhifə
Sifariş № 79. Tiraj: 300

AMEA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatında çap edilmişdir.
Ünvan: *Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35.*
E-mail: tusinesr@rambler.ru